Əlisahib ƏROĞUL



# CƏBRAYILIM müqəddəs torpaq

67.99Az
Ə 85

Əlisahib ƏROĞUL

# CƏBRAYILIM MÜQƏDDƏS TORPAQ

## (CƏBRAYIL POLİSİNİN TARİXİNDƏN SƏHİFƏLƏR)

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 17883

MƏCBURİ NÜSXƏ

BAKI—2006

Az.
Ə51

Redaktoru İsmayıl Kazımlı (Filologiya elmləri doktoru)
Korrektoru Quliyeva Şəfiqə Qərib qizi

Ə 51. Əlisahib Əroğul, CƏBRAYILIM–MÜQƏDDƏS TORPAQ (bədii publisistika), Bakı, "Ekologiya" nəşriyyatı,2006, 412 s.

Tanınmış yazıçı-publisist Əlisahib Əroğulun bu kitabı güman edirik ki, təkcə doğma ocağından ,isti yurd-yuvasından didərgin düşmüş Cəbrayıl polisində çalışan əməkdaşların deyil, eyni zamanda hər bir cəbrayıllının torpaq, Vətən ayrılığından doğan urək fəryadının, könül laylasının, qəlb ağrısının özü olacaq, içinin hönkürtüsütək səslənəcəkdir. Habelə kimliyindən, kimsəsizliyindən, Cəbrayıl bölgəsindən olub-olmamasından asılı olmayaraq bu kitabı oxuyacaq sinəsi dağlı hər bir vətən övladının mövcud dərd-kədərinə, qanlı göz yaşına, qövr edən qəhrinə, qəminə,torpaq həsrətinə, Vətən nisgilinə,həyat eşqinə, yaşamaq hayqırtısına məlhəm olacaqdı. Az da olsa içində közərən, odu sönməmiş yurd sevgisinin işığında silkinəcək, «eyvay» edəcək, vuran ürəyi dəniz dalğasıtək çırpınacaqdır. Köksünə dolacaq bir udum havanın verdiyi rahatlıq qədər bir nəfəs dərimində vücuduna, yaralı sinəsinə köksü boyda sərinlik, mərhəmlik, həlimlik çökəcəkdir. Ümidin bizim son silahımız olmayacağına,onun mübariz bir Vətən fədaisinə çevriləcəyinə səbəb olacaq mərdliyinə, mətanətinə işıq tutacaqdı. Qarabağın,bu Cənnət guşənin, yolları üzümüzə bağlı ana Cəbrayılın azad edilməsi eşqiylə döyünən ürəyinə,vuran nəbzinə yeni nəfəs, təzə-tər impulslar verəcəkdir.

**47002060201**
**Ə ------------------ QRİFLİ**
**041- 2006**

© ***Bakı, "Ekologiya" nəşriyyatı,2006.***

*Mən bu kitabı gənclik illərimin dostları, Cəbrayıl rayon Polis Şöbəsinin əməkdaşları, polis polkovniki Vaqif Əfsər oğluna və polis polkovnik-leytenanti Vaqif Yaqub oğluna ithaf edirəm.*

*Ə.Əroğul*

*26 fevral - 28 may 2006-cı il*





Əlisahib Əroğul Cəbrayıl rayon polis şöbəsinin əməkdaşları arasında



# PROLOQ

## VƏTƏN SEVGİSİ TANRI EŞQİDİR



Cəbrayıl rayon polis şöbəsinin rəisi V. Məhərrəmov müharibə dövrü iş başında



# CƏBRAYIL RAYON POLİS ŞÖBƏSİNİN RƏİSİ, POLİS POLKOVNİKİ MƏHƏRRƏMOV VAQİF ƏFSƏR OĞLU İLƏ MÜSAHİBƏ



Vaqif Məhərrəmov

Tanıtma. **Məhərrəmov Vaqif Əfsər oğlu** 1950-ci il iyul ayının 30-da Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub. 1968-ci ildə Soltanlı kənd orta məktəbini bitirib. Əmək fəaliyyətinə S.Vurğun adına kolxozda sıravi kolxozçu kimi başlayıb. 1969-cu ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub. 1972-ci ildə həmin institutu bitirərək ali təhsilli filoloq ixtisasına yiyələnib. Məzunu olduğu Soltanlı kənd orta məktəbində müəllimlik fəaliyyətinə başlayıb. 1973-cü ildə ordu sıralarına səfərbər edilib. 1974-cü ildə əsgəri xidmətini başa vuraraq yenidən iş yerinə qayıdıb. 1975-ci ildə müəllimlik peşəsindən aralanıb. Komsomol işinə irəli çəkilib. 1975-1978-ci illərdə Cəbrayıl rayon komsomol komitəsinin təşkilat işləri üzrə şöbə müdiri vəzifəsində çalışıb. 1978-ci ilin may ayında Cəbrayıl rayon Partiya komitəsinin zəmanəti ilə Cəbrayıl rayon Daxili İşlər Şöbəsinə profilaktika üzrə baş inspektor vəzifəsinə göndərilib. Baş inspektorluqdan isə bölmə rəisi vəzifəsinə keçirilib. 1989-cu ildə isə əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə irəli çəkilib. Məhərrəmov Vaqif Əfsər oğlu 1981-1986-cı illərdə qiyabi yolla SSRİ DİN-nin Milis Akademiyasının Rostov şəhərindəki filialında təhsilini davam etdirərək ikinci bir ixtisasa – hüquqşünas ixtisasına yiyələnib. Eyni zamanda 1979-1990-cı illərdə Cəbrayıl rayon Daxili İşlər Şöbəsində və DTK-nin rayon bölməsində ilk partiya təşkilatına rəhbərlik edib. O, 1992-ci il mart

ayında Cəbrayıl rayon Polis Şöbəsinin rəisi vəzifəsinə təyin edilib. 1997-ci ildən polis polkovnikidir. Üç övlad atasıdır. 2 oğlu, 1 qızı var. Kiçik oğlu Zaur atasının yolunu davam etdirir. DİN-nin Polis Akademiyasının III kurs tələbəsidir.

Vaqif Əfsər oğlu mükəmməlliyi, tamamlığı təbiətdə görür. Təbiətlə təmasda olanda özündə rahatlıq tapır. Dincəlir. Yaşıl rəngə sevgisi ülviyyətindən doğur. Yaşıllıqda həyat əhval-ruhiyyəsinin olmasından, ovqatına müsbət təsirindən danışır. Təbiətə incə münasibəti onu incəsənətə bağlayan xarakterindən xəbər verir. Gənclik illərində teatra vurğunluğundan danışır. Tez-tez teatr tamaşalarına getməyindən, tələbəlik illərində institutun dram dərnəyinə üzv yazılmasından, müxtəlif əsərlərdə ifa etdiyi personajların sırasından həvəslə söhbətlər açır. Hazırda vətən sevgisini tərənnüm edən, dramatik ruhda yazılan əsərləri oxumasından, bundan xoşlanmasından, zövq almağından bu gün də mütəəssirlənir. B.Vahabzadənin fəlsəfi, düşünən, düşündürən şerlərini oxuyarkən mənəvi qida almağından urək dolusu danışır. "Şəbi-hicran" poemasından əzbər parçalar deyir. Füzuli dühasının, Bəxtiyar düşüncəsinin yenilməzliyindən bəhs edir. Yeniyetmə illərində Cek Londonu, Drayzeri, Viktor Hüqonu, Tolstoyu, Şekspiri mütaliə etməyini xoşhallıqla xatırlayır. Viktor Hüqonun "Səfillər" romanında Javel, Çingiz Abdullayevin yaratdığı "Dronqo", İmran Qasımov və Həsən Seyidbəylinin birgə yazdıqları "Uzaq sahillərdə" əsərində Mehdi Hüseyinzadə obrazını həmişə özünə örnək seçidiyini deyir. Həyatda bu qəhrəmanlara bənzəməyə çalışıb. Haqq, ədalət uğrunda mübarizə aparan ədəbi qəhrəmanlara rəğbət bəsləməsi ilə yanaşı idmana olan həvəsi də heç şübhəsiz, onun gələcəkdə asayiş keşikçisi olmasına öz müsbət təsirini göstərməmiş deyildi. Bu gün də idmanla məşğul olur. İdmanın futbol və voleybol növlərinə pərəstiş edir. Cəbrayıl polisində işə başladığı ilk günlərdə əməkdaşlardan ibarət voleybol komandası təşkil etməyin təşəbbüsçüsü olub. Komandaya kapitanlıq edib. Keçici kuboklar alıb. Komanda dəfələrlə idman təşkilatlarının, kənd könüllü "Məhsul" idman cəmiyyətinin, habelə partiya, sovet orqanlarının fəxri fərmanları ilə və bir sıra diplomlarla təltif edilib. Vaqif Məhərrəmovun idealı böyük hərflərlə yazılan İNSAN məfhumudur. İnsan heysiyyatının məcmuudur. İnsanlara münasibətdə bu hisslərini büruzə verir. İnsanlarda Vətənə məhəbbət, dövlətə, dövlətçiliyə sədaqəti, xalqa hörmət və sadiqliyi, düzgünlüyü, dürüstlüyü, prinsipiallığı, böyüyə hörmət göstərməyi, səmimiyyəti qiymətləndirir və bu hissləri milli mentalitetimizin göstəricisi kimi dəyərləndirir. Riyakarlığı, saxtakarlığı, xalqa, millətə, Vətənə münasibətdə laqeyidliyi, biganəliyi qəbul etmir. Dövlətə xəyanəti insanlığa yaraşdırmır və bağışlamır. Satqınlığı insanlıqdan kənar, qeyri-bəşəri bir xarakter sanır. Özündəki bir sıra keyfiyyət hallarından, işə məsuliyyəti, iş yoldaşlarına münasibətində sadə və səmimi olmağından məmnunluğunu dilə gətirir. Lakin xasiyyətində, xarakterində bəzi hallarda prinsipiallıq göstərməməsindən, tez yumşalmağından, bəzən hissə qapılmağından gileylidir. Bununla yanaşı polis peşəsinə sevgisindən, haqqa, ədalətə vurğunluğundan ürək dolusu danışır. Hüquqi biliklərini daim artırır. Qanunçuluğa dair dövri mətbuatı həmişə izləyir, polisdən bəhs edən materialları diqqətdən qaçırmır. Qəzet və jurnallara abunə yazılır. Asayişin və ictimai təhlükəsizliyin qorunması və cinayətkarlığa qarşı mübarizə sahəsində səmərəli fəaliyyət göstərməsindən bəhs edir. Rəis işlədiyi bu uzun illər ərzində heç vaxt işdən yorulmadığını, işindən usanmadığını, yorulmaq nə olduğunu bilmədiyini fərəhlə qeyd edir. Xüsusi xidmət sahəsində qurulmuş əməliyyatların sonuc tapmasını cari işdə ən böyük uğuru hesab edir. Xidmət sahəsindəki uğurlarına sevindiyi qədər heç nəyə sevinmədiyini vurğulayır. Ədalətin bərpası,insanlarda doğruçuluğun bir xislətə çevrilməsi, əhali

arasında polisə olan inamın artırılması və möhkəmlənməsi, milli dəyərlərin xoş məramlı adət-ənənələrin qorunub



Vaqif Məhərrəmov və Əlisahib Əroğul

saxlanması sahəsində şəxsi heyətin üzərinə düşən vəzifələrin məsuliyyətini dərk etmələrini daim diqqət mərkəzində saxlayır. Nizam-intizamın həmişə ayaqda saxlanması gündəmdən düşmür. Tanrı yardımına bel bağlayır. Yaradanın varlığına bir müsəlman kimi daim inanıb və inanır. Qəlbində Ulu və Uca Tanrıya sevgisi tükənməzdir.Ən çıxılmaz və çətin anlarında Allahın köməyinə arxalanıb. Allaha inamı və inancı həmişə köməyinə çatıb. Müqəddəs günlərdə, dini bayramlarda dini ayin və rituarlara imkanı daxilində riayət edir. Həm səlahiyyəti çərçivəsində,həm də maddi cəhətdən ehtiyacı olanlara, imkansızlara əl tutur, köməklik göstərir. Özünü Allahın sadiq bəndəsi sanır. Əməlində, işində bu sadiqliyi həmişə sübut etməyə çalışır. Saxta mollalardan əlhəzərəm deyir. Asudə vaxtlarında fiziki işlə məşğul olur. Xüsusilə işdənkənar vaxtlarda həyətyanı sahədə yer belləməkdən, ağaclara, güllərə qulluq etməkdən xüsusi zövq alır. Rahatlıq tapır.



Taleyindən, keçdiyi həyat yolundan narazı olmadığını, xalqının, millətinin, vətəninin işinə yaradığından qürur hissi duyur. Pələng ilinin şir bürcündə göz açmasından,taleyin ona bəxş etdiklərindən narazılığı yoxdur. Bürcünə aid deyilənlərin ,yazılanların həyatdakı eyniyyətlərindən danışır. Daha doğrusu, astroloqların dedikləri və yazdıqları ilə razıdır. Yazılanlar çox zaman həyatdakılarla üst-üstə düşür, inikasını həyatda tapır. Bu da bir naxışdı deyir, reallıqdan isə heç zaman qaçmır. Çətinliklərə qarşı mübarizə aparmağı həyatının mənası hesab edir. Sinəsi mənən dolur.Müsahibə üçün hazır bir ovqata çatdığını bu ara müşahidə edirəm.

**Əlisahib Ərogul:** – Vaqif müəllim, hər halda həyat yolunuzda sosial mənşəyinizin oynadığı roldan danışsanız mükalimə üçün maraqlı başlanğıc olar. Maraq doğuran məqamları bu ara tutar, söhbətimizə pillə qoyarıq.

**Vaqif Əfsər oğlu:** – Mən zəhmətkeş bir ailədə dünyaya göz açmışam. Atam uzun müddət təsərrüfat rəhbəri işləyib. Gəncliyində isə Beqləqanda, o vaxtkı Jdanov rayonunda müstəntiq və prokuror vəzifələrində çalışıb. Atamın zəhmətkeş olmasını sübut edən bircə faktı qeyd etmək kifayətdir. Mənim zəhmətkeş olmağımın rəhni məhz ondadır. 1952-ci ildə atam Hüseynov Əfsər Məhərrəm oğlu Jdanov rayonunun prokuroru vəzifəsindən çıxıb Cəbrayıl rayonuna qayıdır. Atam o vaxt Cəbrayıl rayon partiya komitəsinin birinci katibi vəzifəsində işləyən Adil Vəliyevin yanına gələrək ondan iş istəyir. Vəliyev ona bildirir ki, Əfsər kişi, sənə verməyə bir münasib işim yoxdur. Atam elə oradaca katibə deyir ki, mənim iki əlim və sağlam bədənim var, fiziki işlə məşğul olub ailəmi dolandıraram. Beləliklə, həmin günün səhərisi atam əlinə bel götürərək Soltanlı kəndində pambıq suvarmağa başlayır. Rayon prokuroru işləmiş adamın bu cür hərəkəti bizlərə nümunədir. Atam öz işgüzarlığı ilə həmişə övladlarına örnək olub.

Daha bir faktı xatırlamaq istəyirəm. Tanıyanlar bilir ki, atam təqaüdə çıxandan sonra da 7 il təsərrüfat rəhbəri işlədi. Axır ki, çox təkidlərdən sonra rayon partiya komitəsində onun xahişinə baxıldı və azad edəcəklərinə söz verdilər. Həmin gecə mən ailəmlə birlikdə atamgilə getdim. Gecə saat $24^{00}$ idi. Atam hələ də naryaddan qayıtmamışdı. Biz yatdıq. Çox gec gəldi. Səhər tezdən isə saat $6^{00}$-da xidməti minink maşınına oturub təsərrüfat sahəsinə çıxır. Mən saat $8^{00}$-$9^{00}$ arası yuxudan qalxanda atamla görüşə bildim. Təsərrüfatı tam gəzib səhər yeməyi üçün evə dönmüşdü. Mən ondan soruşanda ki, bu gün kolxozun ümumi yığıncağında sənin yazdığın ərizəyə baxacaqlar, nə olub, niyə özünü bu qədər incidirsən? O, mənə belə bir cavab verdi. "Ay oğul, işi təhvil götürəndə hansı templə qəbul edirsənsə, o templə də təhvil verməlisən. Gərək sənin işdən çıxmağın hiss olunmasın ".

Sonralar atamın mənə dediyi bu sözlər tez-tez yadıma düşür, qürur hissləri keçirirəm. Atamın nə qədər ictimaiyyətçi və təsərrüfat adamı olmasına heyran qalıram. Atamın əqidəsi bu idi ki, kənddə bir nəfər də kasıb adam olmasın. O istəyirdi ki, sıravi kolxozçular ondan yaxşı dolansınlar. Atam kolxoz sədri ola-ola kolxozun ən ağır işlərinə özünü, həyat yoldaşını, övladlarını cəlb edirdi. "Mənim oğlum kənddə heç kəsdən artıq ola bilməz " sözləri onun deviziydi. Atam, ümumiyyətlə, söz götürən deyildi. Hətta rayon partiya komitəsinin 1-ci katibi ona haqsız söz deyəndə dözə bilmirdi, dərhal cavab qaytarırdı. Heç kimin haqsız sözünü qəbul etmirdi.

Valideyinlərimizin həyata, insanlara bax belə nikbin baxışları bizlərin, biz övladlarının gələcək həyat yollarında əsas rol oynadı.

**Əlisahib Əroğul:** – Həyatınizin dönəmli və önəmli anlarından bəhs edən söhbətimizi gəlin davam etdirək. Filoloq ixtisasına sizi aparan nə olub? Müəllimlik fəaliyyətinə başlamağınızla komsomol işinə keçməniz arasında siz



deyən elə bir vaxt olmayıb. Müəllimlikdən çox komsomol işində çalışmısınız. Bunu necə başa düşək?

**Vaqif Əfsər oğlu:**–Pedaqoji fəaliyyət illərim qısa müddətli olmasına baxmayaraq yadda qalan anlar olub.1972--ci ildə 21 yaşımda ali təhsilli müəllim kimi məzunu olduğum məktəbdə böyük həvəslə ilk müəllimlik fəaliyyətimə başladım. Soltanlı kənd orta məktəbində bir neçə sinfə dərs dedim. O vaxtlar 10a sinfində ədəbiyyat dərsi də mənə verildi. Həmin vaxt 10b sinfi çox şuluq sinif olduğundan müəllimlər həmin sinifdə dərs deməkdən çəkinirdilər. Mən öz təşəbbüsümlə həmin sinfi təhvil götürdüm. İlk günlər mənim üçün bir az çətin oldu. Şagirdlərlə xeyli işləməli oldum. Sonucda istədiyimə demək olar ki, tam nail oldum. 10b sinfi məktəbin ən intizamlı və fəal sinfinə çevrildi. Həmin sinfin şagirdləri mənim xətrimi çox istəyirdilər,ona görə də 1973-cü il may ayında hərbi xidmətə gedərkən şagirdlərin hamısı bir nəfər kimi məni ordu sıralarına yola saldılar.Qatar dayanacağınadək mənimlə bir oldular. Elektrovoz fit verib yola düşəndə çox böyük təəssüratla məndən ayrıldılar.Mən məktəbə yeniliklər gətirmişdim: disputlar, bilik yarışmaları, "Mavi işıq" gecələri. Bir sözlə, bir-birindən maraqlı, bir-birinin ardınca gözəl, rəngarəng tədbirlər həyata keçirirdim. O illərin şagirdləri məktəbin həmin tədbirlərini indi də xoşhallıqla xatırlayırlar.Yeri gəlmişkən bir məsələyə aydınlıq gətirim ki,ölkəmizin üstünü qara buludlar alanda həmin şagirdlərimin bir çoxu mənim silahdaşlarıma çevrildilər. Nəriman, Ənvər, Fərhad, Mikayıl, Arif mənimlə çiyin-çiyinə durdular. Cəbhə dostlarım oldular. Düşmənə qarşı könüllülər dəstəsində döyüşdülər. Komsomol işinə keçməyimə gəlincə,qeyd edim ki, sovet dönəmində bu təşkilatda işləmək hər bir gəncin arzusu olub. Mən də həmin gənclərdən biri idim. Burada başa düşməməli bir şey yoxdur,məncə. Bəli, mənim Cəbrayıl rayon komsomol komitəsindəki fəaliyyətim daha maraqlı və rəngarəng keçib. Burada bacarığı gös-

tərmək üçün daha geniş imkanlar olub, qarşımda daha böyük auditoriya var idi. Bir sözlə, həyatımın bu illəri qayğısız və yaddaqalan olub.

**Əlisahib Əroğul:** – Hüquqi mühafizə orqanlarına gedən yoldan gəlin söz açaq. Bəs polis peşəsinə maraq Sizdə hardan yarandı?Yoxsa rəhmətlik atanızın hüquq sahəsində yarımçıq qalmış yolunu davam etdirmək istəyindən doğdu?!..

**Vaqif Əfsəroğlu:**– Yaxşı yadımdadır, 1977-ci ilin payızı idi. Rayonda pambıq planının kəsirdə qalma təhlükəsi vardı. Ona görə də geriliyi aradan qaldırmaqdan ötəri rayon partiya komitəsinin bürosu rayon partiya və komsomol komitələrinin işçilərini də kolxoz və sovxozlara təhkim etmişdi. Mən rayon komsomol komitəsinin təşkilat şöbə müdiri kimi Mehdili kəndindəki "İnqilab" kolxozuna təhkim olunmuşdum. Həmin kolxoza baş təhkimçi kimi o vaxtlar rayon milis şöbəsinin rəisi vəzifəsində işləyən rəhmətlik Fikrət Mahmudov göndərilmişdi. Mən komsomol işçisi olaraq çox çevik tədbirlər görməyə başladım: hər gün tarlada pambıqçıların yanında olur və onlara bildirirdim ki, tərəzi yanında pambıq çəkilişi qurtarandan dərhal sonra hər bir briqada üzrə yığıma yekun vurulacaq. Pambıqçıların sırasından kolxoz üzrə «günün qalibi» müəyyənləşdiriləcəkdi. Qalib gələn şəxslər rayon komsomol komitəsinin mükafatına layiq görüləcəklər. Beləliklə,hər gün briqadalar üzrə mənim tərəfimdən «günün qalibi» müəyyənləşdirilərək mükafatlandırıldı. Bu kimi tədbirlərin nəticəsi olaraq bizim təhkim olunduğumuz kolxoza ayrılmış əlavə öhdəlik planı rayon üzrə birinci sırada 10 gün müddətində yerinə yetirildi. Bütün bu təşkilati işlər Fikrət Mahmudovun diqqətini cəlb etməyə bilməzdi. Biz həmin kolxozda «Məhsul bayramı» da keçirdik. Tədbirdən sonra mən rəisin xidməti minik avtomobilində onunla birgə rayon mərkəzinə gələrkən, Fikrət Mahmudov mənə dedi ki, komsomol, çox istərdim ki, sən bizim şöbədə işləyəsən.Doğrudan da, səndə yaxşı təşkilatçılıq qabiliyyəti, bacarığı var.İnsanlarla işləməyi bacarırsan.Mən səni öz kollektivimdə görmək istəyirəm.Bax mənim milisə gəlməyim haqqında ilk fikri belə-cə F.Mahmudov yaratdı.Onun bu təklifini atama bildirdim.Etiraz etmədi. Özün bilərsən dedi. Polis peşəsinin çətinliklərindən danışdı. Bir çox çətinlikləri, maniələri necə dəf etməsindən üzləşdiyi qarşıdurmalardan bəhs etdi. Mənsə çətinliklərdən qorxmadığımı, çəkinmədiyimi bildirdim. Beləliklə, peşə yönümümü mən başqa bir istiqamətə- daxili işlər orqanlarında işləmək sahəsinə yönəltdim. Görünür, atamın orqanda işləməsinin özü də bir amil kimi mənim polisə keçməyimdə, polis peşəsinə bağlanmağımda az-çox rolu olmuşdu. Bunu danmaq olmaz...

**Əlisahib Əroğul:** – Yeri gəlmişkən, irsi ənənəyə "ataların yolu oğulların yoludur" deyiminə münasibətiniz, ata--baba adətlərinə bağlılığınız barədə daha nələri suala cavab kimi əlavə edərdiniz?

**Vaqif Əfsər oğlu:** – Əlisahib müəllim,ata-baba adət-ənənələrinə bağlılıq bizim milli-mənəvi dəyərlərimizdən biridir. Bəzən də bu hisslər bizə irsən keçir və müəyyən zaman kəsiyində özünü büruzə verir. Deyək, mənim polis peşəsinə vurğunluğum 28 yaşımda özünü qabartdı.Mənim kiçik oğlum Zaur isə hələ yeniyetmə çağından başlayaraq Polis Akademiyasına girmək üçün müvafiq imtahanlara aid fənlər ilə maraqlandı.Orta məktəbi bitirən kimi imtahanlardan müvəffəqiyyətlə keçdi və DİN-nin Polis Akademiyasına daxil oldu. Hal-hazırda 3-cü kursda oxuyur.Atamın 5 övladından təkcə mən,mənimsə 3 övladımdan ancaq sonbeşik ata yolunun davamçısına çevrildi. Digər övladlarım isə həkimlik peşəsinə üstünlük verdilər. İndi hər ikisi həkimdilər. İnsanların sağlamlığının keşiyində dayanırlar. Sözübütövlülük, sözünün ağası olmaq, namərd körpüsündən keçməmək, doğru-dürüst olmaq, ehtiyacı olana yardım etmək dədə-babalarımızdan bizə qalan mirasdır. Onları yaşatmaq, bu günki dəyərlərimizlə

çulğalaşdırmaq, gələcək nəsillərə ötürmək mənəvi borclarımızdandır.

**Əlisahib Əroğul:** – Vaqif müəllim, bir çox rəislərin – Fikrət Mahmudovun, Novruz İsmayılovun, Rəşid Məmmədovun rəhbərliyi altında işləmisiniz. Allah hər üçünə rəhmət eləsin. Siz öz sələflərinizdən nələri, hansı müsbət keyfiyyətləri əxz etmisiniz? Onlardan hansının nə kimi işgüzarlıqları, iş üslubları sizin üçün örnək olub, daha çox hansının peşəkarlığını, iş təcrübəsini xidməti işinizdə tətbiq etmisiniz?

**Vaqif Əfsər oğlu:** – Polisə gəldiyim ilk günlərdə heç cürə bu işə uyğunlaşa bilmirdim. Hərdən isə peşimançılıq hissləri də keşirirdim. Doğrudan da, komsomolun açıq, şəffaf və maraqlı tədbirlərlə zəngin təbliğat qatarından düşüb, polisin xidməti işinin spesifik xüsusiyyətlərinin məndə yaratdığı psixoloji baryeri heç cürə aşa bilmirdim. Baxmayaraq ki, mənim ilk rəisim rəhmətlik Fikrət Mahmudov mənə xüsusi qayğı və diqqət göstərirdi. O,mənim üçün ayrılmış xidməti iş otağını da təmir elətdirmişdi. Ancaq qısa müddətdə mən özümdə iradə tapdım.Dözüm özünü göstərdi, polis işinə yavaş-yavaş uyğunlaşmağa başladım. Müəllimlik fəaliyyətimdə, komsomolda indiyə qədərki işimdən fərqli olaraq,milis işini sıfırdan öyrənməyə başladım və bu peşənin özəlliklərini surətlə mənimsədim.Sözsüz ki, bu işlərdə mənim ilk rəisim F.Mahmudovun danılmaz rolu oldu.Mən milisə yeni gələrkən əməliyyat işləri üzrə rəis müavini İsrafil Xanlarov və əməliyyat işləri üzrə baş əməliyyat müvəkkili Xudayar Abbasov idi. Bu iki təcrübəli polis işçisinin və həmyerlim, polis zabiti Nəsib Hacıyevin mənim polis işçisi kimi formalaşmağımda öz xidmətləri olmuşdu. Xoşbəxtlikdən o vaxt bir şeydən çox razı qaldım ki, heç nəyə kor-koranə yanaşmırdım, hər şeyi çox dəqiqliklə, hüquqi baxımdan dəyərləndirdim, işi incəliyinədək öyrənməyə çalışdım. İlk növbədə polisin fəaliyyətini tənzimləyən normativ aktları, əmr və



göstərişləri öyrənməklə yanaşı, onlardan irəli gələn tələbləri xidməti işimdə tətbiq etməyə səy göstərdim. Elə buna görə də polisin peşə xüsusiyyətlərini qavramaq prosesi məndə çox surətlə gedirdi. Rəis olana qədərki, xidməti fəaliyyətimdə ilk rəisim olan F.Mahmudovdan ağsaqqallığı və təmkinliyi, kollektivin arxasında durma bacarığını, hər bir əməkdaşa qarşı tələbkarlıq göstərməyi mənimsədim. Rəhmətlik Rəşid Məmmədovdan isə qorxmazlığı, risq etmək vərdişini, döyüşlərdə öndə getmək cəsarətini əxz erdim. Rəhmətlik Novruz İsmayılovla çox qısa müddətdə işlədik, onun sadəliyinə vuruldum. Mənim peşəkar polis işçisi kimi formalaşmağımda adlarını çəkdiyim şəxslərlə yanaşı mən polisə gələrkən rəis müavini işləyən İsrafil Xanlarovun, baş əməliyyat müvəkkili Xudayar Abbasovun, əməyini qeyd etməmək insafsızlıq olardı. Xüsusilə İ. Xanlarovdan sonra əməliyyat işləri üzrə rəis müavini işləmiş polis mayoru Sabir Novruzovun çox böyük əməyi olub. Mənim əməliyyatçı kimi formalaşmağımda S. Novruzov çox iş gördü. S. Novruzov 1989-cu ildə daxili işlər orqanlarından təqaüdə çıxdı. Ondan sonra rəis müavini vəzifəsinə keçdim. Bu işimdə Novruzovun təcrübəsi mənə çox şey verdi. Ümumiyyətlə, F. Mahmudov və R. Məmmədov kimi çox təcrübəli rəislərin yanında işləməyim sonralar mənim polis rəisi kimi fəaliyyətimdə köməyimə gəldi, karıma çatdı.

**Əlisahib Əroğul:** – Daha bir ənənəvi sual: Siz sovet milisi ilə Azərbaycan polisinin fərqini nədə görürsünüz? İstər texniki, istər fəaliyyət, istərsə də struktur baxımından, daha dəqiq desək, mahiyyət və forma etibarı ilə...

**Vaqif Əfsər oğlu:** – Əlbəttə. sovet milisi ilə müstəqil Azərbaycan polisi arasında fərqlər görürəm. Birinci quruluşdan, tabeçilikdən başlayaq. Sovet dövründə rayon icraiyyə komitəsinin bir şöbəsi sayılırdıq, partiya mənsubiyyətimiz vardı, kommunist partiyasının üzvü idik, partiyaçı kimi rayon partiya komitəsi qarşısında hesabat verməyə

F. Köçərli adına Azərbaycan Respublika Uşaq KİTABXANASI İNV. № 17883

borclu idik. Hazırda isə polis heç bir siyasi fəaliyyətlə məşğul olmur, Müstəqil Azərbaycan polisinin bu gün sərbəstliyi daha çoxdur və bürokratik əngəllərdən tamamilə azadıq. Azərbaycan polisi hazırda öz işini Daxili İşlər Nazirliyinin rəhbərliyi və nəzarəti altında qurur. O ki, qaldı mahiyyətə həm o vaxt, həm də indi, əsasən, eyni funksiyanı yerinə yetirir. Cinayətkarlıqla mübarizə aparmaq və asayişin keşiyində durmaq funksiyası hər ikisində praritetdi. Mahiyyətdə önəmli bir şey fərqlidir. Bu gün insan hüquq və azadlıqlarının qorunması polisin fəaliyyətində ön plandadır. Və polis demokratik bir cəmiyyətdə fəaliyyət göstərdiyindən xidməti işimizdə də bu xüsusiyyətlər daha qabarıq şəkildə özünü büruzə verir. Bu kimi hallar sovet milisində yox idi. Hər şey totalitar rejimin mənafeyinə, avtaritarlığın qorunmasına hesablanmışdı.

**Əlisahib Əroğul:** – Vaqif müəllim, gəlin keçək əsas mətləbə. Rəhbərlik etdiyiniz Cəbrayıl polisi həm qanlı, həm də şərəfli bir yol keçib. Təkcə asayişin keşiyində dayanmaqla kifayətlənməyib. 1988-1992- ci illərdə nizami ordu olmadığından torpaqlarımızın qorunması, müdafiəsi uğrunda mübarizəyə qalxıb, qanlı döyüşlərdə iştirak edib. Bu keçilən yol haqqında nə deyə bilərsiniz? Cəbrayıl polisinin özünəməxsusluğu, rəşadəti barədə danışmağınızı rica edirəm.

**Vaqif Əfsər oğlu:** – Məlumdur ki, polisin əsas vəzifəsi asayişin, bu günün təbirincə desək, ictimai təhlükəsizliyin qorunması, cinayətkarlıqla mübarizə aparmaqdır. Ancaq 1988-ci liln əvvəlindən başlayaraq polisin üzərinə 2-ci böyük bir vəzifə də düşdü: Vətəni erməni yaraqlılarından qorumaq, torpağı müdafiə etmək vəzifəsi. Açığını deyim ki, bu vəzifəni Azərbaycan polisi, o cümlədən Cəbrayıl polisi şərəflə yerinə yetirdi. Bu vəzifəni yerinə yetirmək üçün Dağlıq Qarabağla həmsərhəd rayonların polis şöbələrinə icazə verildi ki, şəxsi heyətin sayını artırsınlar. Həmin vaxtlar Cəbrayıl polisində 75 nəfərdən ibarət bir rota-



nın yaradılması nəzərdə tutuldu. Biz Cəbrayıl rayon qəzetində elan verdik, rayonun vətənpərvər gənclərini müsabiqə yolu ilə polis sıralarına qəbul etdik. Doğrudan da, bizim ətrafımızda vətənini, torpağını sevən çox vətənpərvər cəbrayıllılar toplandılar. Həmin rota Cəbrayılın müdafiəsində, Dağlıq Qarabağın keçmiş Hadrut rayonunun 11 həmsərhəd kəndinin erməni yaraqlılarından azad edilməsində və həmin kəndlərin bütövlükdə ermənilərdən təmizlənməsində böyük işlər gördü. Cəbrayıl polisinin düşməndən azad etdiyi həmin 11 kənddə Ermənistandan – Qərbi Azərbaycandan qovulmuş azərbaycanlı soydaşlarımızı yerləşdirdilər. Həmin illərdə Cəbrayıl polisinin şəxsi heyətinin igidliyindən bütün respublika danışırdı. Yaxşı yadımdadır, bir dəfə şöbənin rəisi Rəşid Məmmədov mənim rəhbərliyim altında əməkdaşlardan Şikar Aslanovu, Əliyar Həziyevi, Nurəddin Yaqubovu, Vəliyəddin Məmmədovu, Rahib Məhərrəmovu, bir sözlə, mənimlə birlikdə altı nəfəri Hadrut rayonunun ərazisinə xüsusi tapşırıqla kəşfiyyata göndərmişdi. O vaxt biz bütün gecəni səhərə qədər yatmadıq. Tapşırığı yerinə yetirməklə məşğul olduq. Geri qayıdarkən Hadrut tərəfdən yaradılmış postda duran bir daşnak terrorçusu ilə üz-üzə gəldik. Onu da məhv etdik. Vurularkən terrorçunun meyiti körpüdən çaya düşdü. Rəhmətlik Şikar həmin terrorçunun xaricdən gəlmə olduğunu yəqin edincə onun silahını və ayağındakı çəkməni çıxarıb özüylə götürdü. Biz rayon mərkəzinə qayıdarkən artıq səhər saat 5 olardı, Rəşid Məmmədov yatmayıb bizi gözləyirdi. Biz tapşırığın yerinə yetirilməsi barədə ona məlumat verərkən, Şikar postda erməni muzdlusunu öldürdüyümüzü də dedi. Rəşid müəllim meyiti gətirmədiyimiz üçün çox narahat oldu və bildirdi ki, DİN-dən sabah yoldaşlar gələcək. Mən sizin gördüyünüz işi onlara desəm inanmayacaqlar. Siz onlar gələnədək meyiti bura gətirə bilərsinizmi? Biz söz verdik və səhərisi gün axşam yenidən həmin yerlərə qayıtdıq. Saat $9^{00}$-a kimi meyiti götür-

dük. İş vaxtı başlayana qədər çaylaqda vurulmuş erməni meyitini rayon mərkəzinə gətirdik. Nazirliyin əməkdaşları bu cəsur uşaqların igidliyinə heyran qaldılar. Həm də bu muzdluların Qarabağda döyüşməsini sübuta yetirən maddi dəlil idi.

Başqa bir misal: 1991-ci il oktyabr ayının 15-i idi, yaxşı yadımdadır. Hadrut rayonunun terrorçulardan təmizlənmiş Zamzur kəndində Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımız məskunlaşmışdılar. Başqa kəndlər kimi Zamzur kəndində də polis əməkdaşlarından ibarət post qoymuşduq. Axşam təxminən saat $20^{00}$ radələrində postdan, ermənilərin onlara hücum etməsi barədə məlumat aldıq. Şöbənin rəisi Rəşid müəllim özü o zaman rayonun başqa bölgəsində olduğundan mənə (o vaxt mən əməliyyat işləri üzrə rəis müavini idim) göstəriş verdi ki, ehtiyat qüvvədən 15 nəfər götürüb Zamzur kəndindəki milis postuna köməyə gedək. Dərhal mən ehtiyat qüvvəni cəmlədim, avtobusa əyləşdik. Zamzur kəndi istiqamətində hərəkət etməyə başladıq. Kəndə çatmağa 7-8 km qalmış artıq atəş səsləri eşidilirdi. Avtobusdan düşüb dağlarla piyada Zamzura tərəf irəlilədik. Həmin gecə zülmət qaranlıq idi, göz-gözü görmürdü. Biz çox böyük çətinliklə Zamzur kəndinin yamacına qalxaraq tək armud ağacı bitən yer istiqamətində irəlilədik. Onu da deyim ki, erməni yaraqlıları çoxlu sayda qüvvə ilə həmin gecə kəndi mühasirəyə almışdılar. Kəndə yerləşdirilmiş qaçqınlar qorxularından zirzəmilərə girib gizlənərək bu işin nə vaxt və necə qurtaracağını gözləyirdilər. Erməni yaraqlıları Zamzur kəndində müqavimətə rast gəlmədiklərini görərək kəndin Cəbrayıl tərəfdən yolunu minalamış, bir neçə nəfərdən ibarət postu isə armud ağacının dibində qoymuşdular. Silahlıların qalanları da Zamzur ətrafındakı yamaclarda pusquda oturaraq Cəbrayıl rayonundan köməyə gələcək qüvvənin yolunu gözləyirdilər. Ona görə də yolu minalamışdılar. Məqsəd bu idi ki, maşın minaya düşsün. Ancaq



xoşbəxtlikdən hər şey bizim xeyrimizə həll olundu. Mənim rəhbərliyimlə köməyə gələn qrupun əvvəlcə yamaca çıxması, ordan kəndə yaxınlaşması çox düşünülmüş qabaqlayıcı addım oldu. Biz armud ağacının altında post olduğundan xəbərsiz idik. Zülmət qaranlıqda ehtiyatla həmin istiqamətdə irəliləyirdik, qəflətən qarşımızda ehtiyatsızlıq edən yaraqlının kibritlə siqaret yandırdığını müşahidə etdik. Elə bu an hiss etdik ki, qarşıda erməni postu var. Ancaq onlar bizi görmürdülər. Bizim əməkdaşlardan Pəhlivan Məmmədov mənim yanımda idi. Əli Xankişiyev, Elşən Əsgərov, Zabit İsgəndərov və başqaları bizdən 2-3 metr arxada gəlirdilər. Pıçıltı ilə Pəhlivan mənə dedi ki, atəş açaq. Bir anda hər ikimiz yerə yataraq siqaret işığı gələn tərəfi hədəf seçib, güclü atəşə tutduq. Bununla da dəhşətli döyüş səhnəsi başladı. Zamzurun ətrafındakı yamaclardan işıqsaçan güllələr yağış kimi üstümüzə yağırdı. Bizim əməkdaşlarda da güclü silahlar vardı. Açığını deyim ki, həmin gecə həm düşmən, həm də bizim tərəf düşdüyümüz şəraitdən özümüzü itirmişdik. Həmin gecə Əli Xankişiyevin, Elşən Əsgərovun, Nurəddin Yaqubovun, Zülfüqar Həsənovun, Əliyar Həziyevin,Nadir Mustafayevin, Tofiq Əhmədovun çox çevik və qorxmaz döyüşləri oldu. Gecə zülmət qaranlıq olduğundan mən atəş aça-aça yamacda yerimi dəyişirdim, təxminən 15-20 dəqiqə olardı ki, erməni güllələrinin altından çıxa bilmirdim. Xoşbəxtlikdən mənə güllə dəymirdi. Əli Xankişiyevin avtomataltı qranatdan atdığı mərmi (potstvolnikinin) mənim güllə altından çıxmağıma çox xeyri oldu. Gecənin zülmətində və atəşin hər tərəfdən yağdırıldığını görərək mən, Ə. Xankişiyev, E.Əsgərov və 1 nəfər Ağdam polisinin bizə ezam olunmuş əməkdaşı ilə birgə qayanın altından keçən dağ çayının xırnavasında 2 saata yaxın gözləməli olduq. Silahdaşlarımız özlərinə yaxşı mövqe seçdiklərindən atəşə ara vermirdilər. Döyüşürdülər. Gecə sübhədək qanlı döyüş getdi. Təzyiqlərə davam gətirməyən saqqallılar meyit-

lərini belə götürmədən qaçdılar. Səhərə yaxın, hava işıqlaşanda artıq atəş səsləri kəsildi. Biz ehtiyatla kəndə tərəf gedərkən tək armud postunda 2 erməni saqqallısının meyitinin qaldığını gördük. Ətrafda çoxlu miqdarda silah-sursat tökülüb qalmışdı. Düşmənin 4 avtomatını, 2 qrantamyotunu da ələ keçirdik. Ancaq Pəhləvan aramızda yox idi. Bir az keçmiş biz Pəhləvanın kolun dibində yaralı halda inildədiyini gördük. Rayon mərkəzindən köməyə gəlmiş qüvvələr Pəhləvanı mərkəzi xəstəxanaya çatdırdılar. Səhər tezdən ermənilərin basdırdığı minalar zərərsizləşdirildi. Biz döyüş zonasında qalmış erməni meyitlərini rayon mərkəzinə gətirdik.

Bu cür faktlar dəfələrlə Dolanlar, Ağcakənd, Banazur, Daşbaşı, Mülkədərə və s. kəndlərdə olmuşdur. Təkcə Daşbaşı kəndi uğrunda 4 dəfə dəhşətli döyüşlər gedib. Ermənilər Daşbaşıya hücum edərək bizim postu itki verərək geri çəkilməyə məcbur etmişdilər. Onların hücumundan dərhal sonra biz erməniləri güclü itki verməklə geri oturtmuşuq. Ağcakənd, Dolanlar kəndlərinə köçürülmüş qaçqınların harayına dəfələrlə Cəbrayıl polisi çatmış, düşmənə ağır zərbələr vuraraq geri çəkilməyə məcbur etmişdir. Bir sözlə, Cəbrayılın Hadrut rayonu ilə həmsərhəd 80 km məsafəsində vaxtı ilə bütün postlarda Cəbrayıl polisinin əməkdaşları dayanmışlar. Onlar hər zaman, hər yerdə hələ ordunun formalaşmasına qədər keçən bir dövrdə rayonumuzun vətənpərvər oğulaları ilə birlikdə döyüşmüşlər. Bir addım da geri çəkilməmişlər. Cəbrayıl polisi həmin 80 km xətt boyunca yerləşən həmsərhəd kəndlərdən həyəcan siqnalı gələn kimi özünü hadisə yerinə çatdırır, qanlı döyüşlərə girir və düşməni dərhal geri oturdurdu. Həmlələrin günün hansı vaxtında baş verməsindən asılı olmayaraq istənilən vaxtlarda döyüşə atılırdı. Cəbrayıl polisinin keçdiyi döyüş yolu təqdirə layiqdir. Əməkdaşlarımızın hünərpərvərliyinə dair belə nümunələrdən çox çəkmək olar. 1991-ci il sentyabr ayının 30-da daşnak



terror qrupunun gecə Ağcakənd postuna qəflətən hücum etməsi gözlənilməz olmuşdu. Bizim şəxsi heyətdən Yəhya Ağayev, Pənah İsmayılov,Əlövsət Məmmədov ağır yaralanmışdılar. Döyüşçülərimiz məcburiyyət qarşısında geri çəkilməyə məcbur olmuşdular. Səhərə yaxın bizə məlumat çatdı. Rəis Rəşid müəllim və mən başda olmaqla şöbənin bütün ehtiyat qüvvələri həyəcan siqnalı ilə Ağcakənd istiqamətində hərəkətə keçdi. Ağcakənd uğrunda yenidən çevik dağ döyüşü başladı. Baxmayaraq ki, düşmən tərəf hündürlükdə yerləşirdi, biz üç qrupa bölünüb düşmən üstünə həmlə etdik. Qrupun birinə Rəşid müəllim, birinə mən, digərinə İbrahim Hüseynov rəhbərlik edirdi. Yarım saat müddətində düşmən qüvvələrinin yarı hissəsi itki verərək geri çəkilməyə məcbur oldu. İki erməni yaraqlısını isə əsir götürdük. Biz yenidən Ağcakənddəki postu bərpa etdik. Buna bənzər hadisələr başqa bölgələrdə də tez-tez baş verirdi. Dolanlar kəndinə də ermənilər tez-tez hücum edirdilər. 1991-ci ilin axırlarında biz düşmənə qarşı əks hücuma keçərək Dolanlarda düşmənə ağır zərbə endirdik. Düşmən çoxlu canlı qüvvə itirərək geri çəkildi. Onlar döyüşdə istifadə etdikləri 2 ədəd UAZ-469 və 1 ədəd QAZ-69 markalı minik maşınını və xeyli döyüş sursatını əməliyyat meydanda qoyub qaçdılar.

Başqa hadisələri də yada salmamaq olmur. 1991- ci il dekabr ayının 23-ü idi. Ermənilər bizdə olan Daşbaşıya hücuma keçərək şöbəmizin əməkdaşı Zakir Zalovu və hərbi hissə əsgəri Çingiz Qasımovu qətlə yetirmişdilər. Həmin döyüşdə bir neçə əməkdaşımız yaralanmışdı. İşçilərimiz məcburiyyət qarşısında qalıb kəndi tərk etməli olmuşdular. Bu məlumat həyəcan siqnalı ilə qarşılandı. Daşbaşı uğrunda yenidən döyüş başladı. Taktikalı döyüşümüz gözəl nəticə verdi. Şöbənin əməkdaşlarından Əli Xankişiyev, Ramil Nağıyev, Əliyar Həziyev UAZ-469-la dağın başına çıxaraq birbaşa düşmənin səngərinə atıldılar, düşmənlə əlbəyaxa döyüşdə 2 nəfəri öldürdülər, 1

yaraqlını isə əsir götürdülər. Lakin kəndin içərisində düşmənin güclü müqavimətinə rast gəldik. 5-6 saatlıq döyüşdə düşmənin canlı qüvvəsi bütövlükdə məhv edildi. Biz kəndi geri qaytararaq, postu yenidən bərpa etdik. Düşmən tərəfdən 12 meyit döyüş zonasında qaldı. Cəbrayıl polisi o vaxtlar qorxu bilmədən beləcə döyüşürdü. Bizim şəxsi heyətdə bir məğlubedilməzlik əhval-ruhiyyəsi hökm sürürdü. Doğrudan da, bütün döyüşlərdən ancaq qələbə ilə çıxırdıq. Həmin vaxtlar, sözsüz ki, açıq və gizli formada cinayət hadisələri də baş verirdi. Biz həmin cinayətləri müvəffəqiyyətlə açır, cinayətkarlıqla mübarizə aparır, rayonda əmin-amanlığın qorunmasında da lazımi, təxirəsalınmaz işlər görürdük. Bütün bunlarla yanaşı, əsas diqqətimizi torpaqlarımızın müdafiəsinə yönəltmişdik. Düşmənə öz gücümüzü göstərirdik. Bu mübarizədə rayon fəallarından aldığımız dəstəyi xüsusilə qeyd etmək yerinə düşər. Xalqla milisin görünməmiş iş birliyi vardı.

Beləki DQMV ilə sərhədyanı ərazi geniş olduğundan polisin bütün sərhəd məntəqələrinə nəzarət etməsi imkan xaricində idi. Ona görə biz rayon əhalisinə müraciət etməli olduq. Qısa bir müddətdə rayonun mərkəzindən və kəndlərdən xeyli sayda vətənpərvər oğullarımız polisə müraciət edərək müdafiə işlərində könüllü iştirak etmək arzusunda olduqlarını bildirdilər. Beləliklə, 250 nəfərdən ibarət, tərkibi ancaq cəbrayıllılardan olan batalyon yarandı. O vaxt batalyona " Ziyalılar " batalyonu adı verildi. Batalyon komandiri Vahid Alışov və müavinləri Əsəd Məmmədov, Qabil Əhmədov, İldırım İsmayılov, Füzuli Əliyevdən ibarət qərargah fəaliyyətə başladı. Batalyon 9 tağımdan ibarət idi. Tağım komandirlərindən Həsənov Kamal, Məmmədov Kamil, Ağayev Əyyub, Alısoy Arif, Əliyev Vaqif, Fətəliyev Cəmil, Vəliyev Vaqif, Məmmədov Qəşəm, Verdiyev Ramiz və onların hər birinin tağımlarında toplaşmış könüllü dəstələr Cəbrayıl polisinin tərkibində yüksək intizamla, böyük vətənpərvərlik əhval-ruhiyyəsi nümayiş



etdirərək postlarda dururdular. " Ziyalılar " batalyonu, müdafiə işlərində və hücum əməliyyatlarında yaxından iştirak edirdi. Sonralar bu batalyonun da fəaliyyəti dayandırıldı. Müdafiə Nazirliyinin rayondakı hərbi hissənin rəhbərliyinin təzyiqi ilə "Ziyalılar" batalyonu ümumiyyətlə, ləğv edildi. Açıq etiraf etməliyəm ki, "Ziyalılar" batalyonunda o vaxtlar çox yüksək döyüş əhval-ruhiyyəsi vardı. Onlar heç bir siyasi oyuna qoşulmadan ancaq rayonun müdafiəsi yolunda çalışırdılar və bu sahədə də çoxlu işlər görürdülər.

**Əlisahib Əroğul:** – Dövlətçiliyimizin keşiyində duran bir orqana çevrilmənizlə yanaşı, bəs qısa toxunduğunuz əməliyyat axtarışları haqqında mükalimənizə daha nələri əlavə etmək istərdiniz?

**Vaqif Əfsər oğlu:** – Azərbaycan polisinin ayrılmaz tərkib hissəsi kimi Cəbrayil polisi də dövlətə və dövlətçiliyə hər zaman sədaqətlik nümunəsi göstərmişdi. 1990-1993-cü illərdə şöbəmizin kollektivi düşmənlə ölüm-dirim mübarizəsi aparmaqla, erməni quldur dəstələrinin hücumlarını dəf etməklə yanaşı, birbaşa öz xidməti fəaliyyətinə daxil olan cinayətkarlıqla mübarizə və əməliyyat-axtarış fəaliyyəti sahəsində də uğurlar qazanırdı. Həmin illərdə "Bəy" ləqəbi ilə məşhur olan oğrubaşının rəhbərlik etdiyi dəstənin bütövlükdə ifşa olunaraq məsuliyyətə cəlb olunması, dəstənin 4 nəfərdən ibarət üzvü tərəfindən oğurlanmış 12 baş mal-qaranın tapılaraq sahiblərinə qaytarılması kimi bir çox oğurluq hadisələrinin vaxtında açılmasında böyük xidmətlərimiz olub. Əslən Çaxırlı kəndindən olan, əvvəllər uzun müddətə həbs cəzasına məhkum edilən, sonradan cəza yerindən qaçaraq Beyləqan və Cəbrayıl rayonlarında bir sıra quldurluq cinayəti törətmiş şəxsin-Məmmədav Eynulla Musa oğlunun tutulmasında fədakarlıq göstərmişik. Lakin üstəlik tutulduqdan sonra müvəqqəti saxlama təcridxanasını yararaq qaçmışdı. Bu təhlükəli cinayətkarın cəmi 5 saat müddətində yerinin müəyyənləşdirilərək

tutulması əməliyyatının uğurla həyata keçrilməsi əməkdaşlarımızın peşəkarlığına dəlalət edən faktlatdan biridir.

Qubadlı rayonunun bir qrup adamı qızqaçırma üstündə öz həmkəndlilərinin idarə etdiyi maşınla Cəbrayıl rayonunun Şahvəlli kəndi ərazisindəki dərəyə gətirib sürücünü öldürmələri, sonra isə meyitini maşınla birlikdə od vurub yandırmaları kimi ağır cinayət faktı şöbənin əməliyyat qrupu tərəfindən tamamilə açılmış, 4 nəfərdən ibarət mütəşəkkil dəstə isə cinayət məsuliyyətinə cəlb olunaraq zərərsizləşdirilmişdi.

Çərəkən kənd sakini Müstəqimin odlu silahla qətlə yetirilməsi kimi baş verən cinayət hadisəsi əhali arasında ciddi təşviş doğurmuşdur. Bununla əlaqədar şöbəmizin bir qrup əməkdaşı tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində məlum olmuşdur ki, onu avtomat silahdan açılan atəşlə həmkəndlisi Rəhimov Arzuman qətlə yetirib. Cinayətkar sərxoş vəziyyətdə əlində avtomat silahla heç kəsi yaxına buraxmır və ciddi təhlükə yaradırdı. Azğınlaşmış cinayətkar növbəti hadisəni törətmək fikrində idi. Əməkdaşlarımızdan Əli Xankişiyev, Tofiq Əhmədov, İqbal Alışov və başqaları böyük ustalıq nümayiş etdirərək, məharətlə Arzumanı tərksilah edib zərərsizləşdirdilər. Təhlükəli cinayətkar istintaq orqanlarına təhvil verirdi.

Əməkdaşlarımız dəfələrlə erməni basqınlarının qarşısını alaraq, əhalinin təhlükəsizliyini qorumaqla yanaşı, yuxarıda göstərilən ağır cinayətlərin açılmasında xüsusi fəallıq nümayiş etdirən xidməti hərəkətləri göstərmişlər. Məncə, bütün bu danışdıqlarım Cəbrayıl polisinin dövlətə və dövlətçiliyə, öz peşəsinə sədaqətindən başqa bir şey deyildir.

**Əlisahib Əroğul:** – Vaqif müəllim, Cəbrayılın süqutu reallıqdır. Uğrunda qan tökməyimizə, şəhidlər verməyimizə baxmayaraq, torpağımız indi düşmən tapdağı altındadır. Deyirlər, güclü düşmən yoxdur, zəif tərəf var, bunu necə başa düşürsünüz?!



**Vaqif Əfsər oğlu:** – Bəli, Cəbrayıl şəhəri 23 avqust 1993-cü ildə Rusiyanın dəstəyi ilə Ermənistanın hərbi birləşmələri tərəfindən işğal olundu. 23 oktyabr 1993-cü ildə isə Arazboyu da daxil olmaqla Cəbrayıl rayonunun ərazisi bütövlükdə erməni yaraqlılarının əlinə keçdi. Bu işğala yaranan şəraitin bəzi səbəblərini Sizə də açıqlamaq istəyirəm: Birinci, onu qeyd etmək istəyirəm ki, Milli ordunun yaradılması ilə əlaqədar 1993-cü ilin mart ayından Cəbrayıl polisinin şəxsi heyəti postlardan çıxarıldı.Bütün postlar rayonda fəaliyyət göstərən hərbi hissəyə verildi. N-saylı hərbi hissə 3 batalyondan ibarət idi. Hərbi hissə özü rayon mərkəzində, batalyonlardan biri Sirikdə, o biri Süleymanlıda, digəri isə Hərəkül kəndində yerləşdirilmişdi. Strateji baxımdan batalyonların hər üçü cox əhəmiyyətli və əlverişli yerlərdə mövqe tuturdular. Ancaq rayonun işğalı ərəfəsində həmin batalyonların heç biri düşmənlə ölüm-dirim savaşına girə bilmədi. Başıpozuqluq və təxribat öz işini gördü. Digər bölgələrimiz kimi Cəbrayıl da düşmən tərəfindən işğal edildi.

Ağır günlər keçirirdik. 15 avqust 1993-cü ildə mənə şöbə rəisi kimi səhər saat $5^{00}$ radələrində məlumat daxil oldu ki, erməni yaraqlıları Daşbaşı kəndinə hücum ediblər. Cəbrayıllılar Daşbaşı kəndinin Cəbrayıl şəhəri üçün nə dərəcədə əhəmiyyətli mövqe olduğunu yaxşı bilirlər. Yəni əgər Daşbaşı işğal olunarsa, Cəbrayıl şəhərində yaşamaq çox təhlükəli olacaqdı. Qeyd etdiyim kimi, bütün postlarda, o cümlədən, Daşbaşı postunda da Milli Ordunun əsgərləri dururdular. Mən bu məlumatı alan kimi dərhal şöbəyə gəldim, şəxsi heyəti həyəcan siqnalı ilə ayağa qaldırdım, hərbi hissə ilə əlaqəyə girdim. Dedilər ki, Daşbaşıya edilən hücumdan xəbərimiz var və oraya əlavə qüvvələr göndəririk. Mən şöbənin növbətçi hissəsinə göstəriş verdim ki, şəxsi heyət yığılan kimi mənim komandamı gözləsin. Məqsədim bu idi ki,özümü tez Daşbaşıya yetirim, əsgərlərə ürək-dirək verim, real şəraiti tez öyrənim

və oradan şəxsi heyətə düşmənə haradan, necə zərbə endirmək barədə göstərişlər verim. Bu məqsədlə xidməti "Niva" maşınıma oturdum. Sürücüm Rafiq Əliyevlə Daşbaşı istiqamətində hərəkət etdik. Biz Hərəkül kəndinin yanından keçərkən qarşımızda ZİL-131 markalı hərbi hissəyə məxsus maşınını əsgərlə dolu köməyə getdiyini gördük. Səhər saat $5^{30}$ olardı. Biz Yuxarı Məzrə kəndinin girəcəyindəki çaylaqdan keçərkən Daşbaşı postundan (Daşbaşı postu Yuxarı Məzrə kəndinin sağ tərəfindəki sıldırım qayalığın başında yerləşirdi. Biz ora Yuxarı Məzrə kəndindən keçərək dağın arxa tərəfindən çıxmalı idik ) bizi avtomat və pulemyotlardan güclü atəşə tutdular. Sən demə, düşmən tərəf gecə saat $3^{00}$ radələrində postdakı qüvvələrin səhlənkarlığından istifadə edərək gizli şəkildə sığınacağa daxil olmuş və sığınacaqdakı əsgərləri vəhşiliklə, amansız qəddarlıqla qətlə yetirərək postu ələ keçirmişlər. Bizə atəş açanlar da erməni yaraqlıları imiş. Biz artıq mühasirəyə düşdüyümüzü hiss etdik. Güllələrdən yayınmağa, düşdüyümüz ağır vəziyyətdən şıxmağa çalışırdıq. Hərbi hissənin qarşımızda gedən ZİL-131 markalı maşını bu zaman geri qayıtmaq istədi. Elə bu vaxt hərbi hissə komandirinin müavini Kamil Vəliyev və zabitlərdən Ramiz Mirkişiyev, kəşfiyyatçı kimi tanıdığım İxtiyar və əlavə 2 nəfər əsgər maşından tullanaraq sol tərəfdəki yamaca sarı qaçdılar. Onların üstünə güllə yağış kimi yağırdı. Trayserli (işıqsaçan) güllələr həmin əsgərləri bərk qorxuya salmışdı. Onlar nisbətən təhlükəsiz yerə çata bildilər. Hərbi hissənin ZİL-131 markalı maşını geri qayıdarkən düşmən tərəf qrantomyotla vuraraq maşını aşırtdılar. Eyni vaxtda mən oturan "Niva" da dəhşətli güllə yağışına düşdü. Mən güllələrin benzin bakına dəyməsindən ehtiyat edərək maşın gedə-gedə özümü yerə tulladım. Döyüş paltarında idim. Sürücü Rafiq cəldliklə maşını fırlayıb özünü və maşını güllə yağışının altından çıxara bildi. Tullandığım andaca yolun ortasına uzandım. Güllələrdən yayın-



mağa çalışırdım. Yağış kimi üstümə yağan güllələri bir-bir yerə sancılırdı. Təxminən 20 dəqiqəyə yaxın güllələr mənə uzandığım yerdən qalxmağa imkan vermədi. Bir az keçəndən sonra özümü ələ aldım. Özüm üçün çıxış yolu axtardım. Bu məqsədlə Ramiz Mirkişiyevlə Kamil Vəliyevə (onlar yuxarıda ağaclıqda gizlənmişdilər) bildirdim ki, onlar eyni vaxtda düşmənin atəş nöqtəsini avtomatlardan atəşə tutsunlar. Düşmən tərəfin diqqətini yayındırsınlar. Mən bundan sonra güllələr altından çıxaraq sağ tərəfdəki qayalığın altına keçə bildim. Ancaq qayalığa çatanda gördüm ki, başımdan güclü qan açılıb. Güllənin mənə nə vaxt dəydiyini hətta hiss edə bilməmişəm. Həm K.Vəliyev, həm də R. Mirkişiyevin dəstəsi və mən xoşbəxtlikdən bir-birimizi görə bilirdik. Bu yenidən başlanacaq döyüşdə bizə kömək idi. Özümüzə istehkam düzəldirdik ki, düşmənlə qeyri-bərabər döyüşdə axıra qədər davam gətirə bilək. Gündüz saat $15^{00}$ qədər çox ağır və həyəcanlı dəqiqələr yaşadıq. Ermənilər Daşbaşıdan rayon mərkəzinə iri çaplı pulemyotlardan atəşlər açırdılar. Nəhayət, döyüşə qoşulmuş Cəbrayıl polisinin, hərbi hissə əsgərlərinin, habelə Qubadlıdan köməyə gəlmiş polis və hərbiçilərin həyata keçirdikləri birgə döyüş əməliyyatları uğurla nəticələndi. Düşmən tərəf Daşbaşıda 23 nəfər canlı qüvvə itirərək geri çəkildi. Onu da qeyd edim ki, həmin döyüşlərdə bizim hərbi hissədən də xeyli əsgər itkisi oldu. Axşama yaxın Daşbaşıda postumuzu bərpa etdik. Rayon mərkəzinə qayıdarkən bir xəbər məni şoka saldı. Bu nə demək idi. Rayonun bütün bölgələrinə xüsusi maşınlar gedərək kəndlərdə şaiyə yaymışdılar ki, bəs polis rəisi qaçıb. Şöbənin növbətçi hissəsindən Azər Bünyatov mənə bildirdi ki, DİN-nin rəhbərliyi və növbətçi hissəsi 10 dəfə zəng edib səni soruşublar, Deyirlər ki, nazirliyə məlumat çatdırıblar ki, guya rəis rayondan qaçıb. Bizim növbətçi onlara izah edib ki, rəis döyüşdədir və bütün deyilənlər yalandır, şaiyədir. Mən özüm də nazirliklə telefon əlaqəsinə girib və-

ziyyəti məruzə etdim, rayonun çox ağır döyüş şəraitində olduğunu onlara çatdırdım. İndi baxın: rayonun təslim olmağını görmək istəyən ayrı-ayrı qüvvələr əhalini ruhdan salmaq üçün nələr etmirdilər, hansı oyunlardan çıxmırdılar. Hətta polis şöbəsinin rəisi haqqında bu cür şaiyələr yayırdılar. Pozuculuq fəaliyyəti, təxribatlar tək bununla bitmədi. Bir-birinin ardınca müxtəlif məzmunlarda təxribat xarakterli addımlar atılırdı. Bunlardan bir neçəsini açmaq mümkün oldu. O ərəfələrdə fişəng atıb əhalini təşvişə salanlar tərəfimizdən müəyyənləşdirildi. Bir çoxu həbs edildi. "Erməni tankları üstümüzə gəlir, qaçın!" deyib əhalini təşvişə salanlar, Gəncə şəhərindən guya əhalini köşürmək üçün rayona göndərilmiş və ayrı-ayrı kəndlərə doldurulmuş 80-dən çox yük maşını aşkar edilib tutuldu. Yoxlamalar apardıq. Bu işin dövlət səviyyəsində olmadığını aydınlaşdırdıq. Təcili surətdə həmin maşınlar tərəfimizdən rayon ərazisindən çıxarıldılar.

**Əlisahib Əroğul:** – Vaqif müəllim, Cəbrayıl rayonunun sabiq icra başçısı Kərəm Əliyev səhv etmirəmsə, 1996-cı ildə mərhum Prezidentimiz H.Əliyevin rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə açıq şəkildə səsləndirdiyi (1) "1993-cü il iyul ayının 2-də Cəbrayıldakı hərbi hissənin komandanlığına zəng açılıb ki, ermənilər Füzulini tutublar. Füzuli-Cəbrayıl istiqamətində irəliləyirlər. Yoxlama zamanı məlum olub ki, bu göstərişdən MN-nin xəbəri yoxdur. (2) 1993-cü il 4 iyul tarixdə naməlum şəxs Qaracallı-Balyand kəndlərinə gəlib deyir ki, "9-cu km" adlanan sahədən ermənilər gəlir. Sonra gec olacaq"- kimi təxribat faktlarını təsdiqləyirsinizmi? Habelə istər məlum Qarabağ hadisələri başlayan dövrdə, istərsə də Cəbrayıl işğal edildiyi zaman məsul vəzifədə olmusunuz. İşin içində olan bir adam kimi deyə bilərsinizmi, daha hansı səbəblərə görə Cəbrayıl düşmənlərimiz tərəfindən belə asanlıqla işğal olundu?



**Vaqif Əfsər oğlu:** – O vaxtkı şəraiti yadınıza salın. Hüseynov Surətin dəstəsi döyüşlərdən çıxarılıb Nəvahiyə qədər gəlmişdi. Əlikramın silahlı dəstələri respublikanın 6 böyük rayonunu öz nəzarəti altında saxlayırdı. Xalq Cəbhəsinin səriştəsiz rəhbərliyi tamamilə başını itirmişdi, ölkənin prezidenti respublikanın paytaxtını tərk edib qaçmışdı. Ordu demək olar ki, siyasiləşmişdi. Bütün bu məsələlər döyüşən Cəbrayıla öz mənfi təsirini göstərdi. Kənardan bizə ezam olunan insanların təxribatlarının qarşısını heç cürə ala bilmirdik. Gəlin bir daha faktlara müraciət edək. Belə ki, Sirik kəndini və bölgəni qorumalı olan hərbi hissənin batalyonu heç bir atəş açmadan, bir nəfərin də burnu qanamadan hərbi hissənin ərazisini tərk edərək geri çəkilmişdir. Sirik batalyonunun komandiri (səhv etmirəmsə, əslən Bərdədən olan Şamil Abdullayev adlı bir şəxs idi) düşmən hücumu zamanı batalyonu, döyüşə hazır vəziyyətə gətirmək və döyüşmək əvəzinə batalyonun sənədlərini qərargah rəisinə verərək aradan çıxmışdır. Mən həmin şəxsi sonradan bir daha görə bilmədim. Bax, beləcə o vaxtki ordunun səriştəsizliyi, siyasiləşməsi, respublikada ayrı-ayrı qrupların hakimiyyət çəkişməsi, separatçılıq Cəbrayıl əhalisində də ruh düşkünlüyü yaratdı. Əsgərlərimizin döyüş əzmini qırdılar. Təxribatla əlaqədar başqa bir misal: Cəbrayıl hələ işğal olunmamışdı, ancaq ağır günlərini yaşayırdı. Bu vaxt müdafiə nazirliyindən iki batalyon guya köməyə göndərildi. Bunlardan birini Yevlax batalyonu, digərini isə Bərdə batalyonu deyə çağırırdılar. Biz batalyonlara böyük ümid bəsləyirdik. Odur ki, onlara qısa müddətdə lazımi şərait yaratdıq. Ancaq bu batalyonlar, xüsusilə, Yevlaxdan gələn batalyon sözün həqiqi mənasında idarə olunmaz bir hərbi qurum idi. Onların arasında narkotik vasitə qəbul edənlər çoxluq təşkil edirdi. Bu batalyonun əsgərləri evlərini qoyub getmiş vətəndaşlarımızın həyətlərinə soxulur, soyğunçuluqla, qarətlə məşğul olur, heç bir həddi gözləmirdilər. Onların azğınlığı

artıq son həddə çatmışdı. Belə ki, yerli rəhbərliyi qətiyyən eşitmirdilər, hətta Cəbrayıl hərbi hissəsinin komandiri Mahir Həsənov belə onların məskunlaşdığı əraziyə getməyə cürət etmirdi. Bu hərbi hissəyə-hərbi hissə yox, quldur dəstəsi demək daha düzgün olardı. Onlar, doğrudan da, çox böyük təxribat işləri ilə də məşğul olurdular. Biz, yəni Cəbrayılda müdafiə işləri ilə məşğul olanlar həmin batalyonun azğınlıq və təxribatlarını görərək o vaxtlar rayon İcra hakimiyyətinin başçısı işləyən Kərəm Əliyevdən xahiş etdik ki, (o həm də rayon müdafiə şurasının sədri idi ) Müdafiə Nazirliyi ilə əlaqəyə girib, tezliklə bu batalyonları rayonun ərazisindən çıxartdırsın. O vaxt Müdafiə Nazirliyinin yüksək çinli şəxsi (adın çəkmək istəmirəm) bizim tələbimizlə rayona gəldi. Biz həmin şəxsə köməyə göndərilmiş bu batalyonun kömək əvəzinə əhalinin olan-qalan ümidini də qırmasından, düşmənlə döyüşmək əvəzinə rayon mərkəzində və kəndlərdə qarət və soyğunçuluqla məşğul olmalarını, heç bir çərçivəyə sığmayan xüsusi azğınlıqla fərqlənən quldur mövqeyində durmalarını çatdırdıq. Çox xahiş etdik ki, tez bu quldur dəstəsi rayondan çıxarılsın. Onsuz da heç bir müdafiə işləri ilə məşğul deyildilər. Beləliklə, rayona köməyə gələn hərbi hissələr, bax beləcə, yerli əhalinin və döyüçən qüvvələrin ümidini də puça çıxarırdılar. O vaxtlar köməyə gələn başqa bir batalyon da Cəbrayıl şəhərinin Xubyarlı kəndi yaxınlığında strateji əhəmiyyətli postlarda yerləşdirilmişdi. 23 avqust 1993-cü ildə düşmənin Cəbrayıl şəhərinə hücumu Xubyarlı kəndi istiqamətindən başlaması bizə sanki ağır zərbə oldu. O yerdən ki, oranı rayona köməyə gəlmiş həmin batalyon müdafiə etməliydi. Lakin həmin gün düşmən hücuma keçərkən bu batalyon mövqeyini tərk edərək qaçdı. Düşmən həmin istiqamətdə heç bir maniəyə rast gəlmədən şəhərə daxil oldu. Bax beləcə, kömək adıyla rayona gələn qüvvələr rayonda açıq-aşkar çaşqınlıq yaradır, əhalinin əmlakını soyub talan edir, hücum vaxtlarında



isə mövqelərini döyüşsüz-filansız, sahibsiz qoyub geri çəkilir, qaçıb aradan çıxırdılar. Doğrudan da, S. Hüseynovun, R. Qazıyevin rəhbərlik etdikləri siyasiləşmiş ordu hissələrinin təxribatları səngimək bilmirdi. Bəli, yuxarıda göstərdiyim kimi başqa variantlarla bərabər rayonun işğal olunmasında daxili düşmənlər cürbəcür təxribatlardan geniş istifadə etməyə çalışırdılar. 4 iyul 1993-cü ildə nəinki Qaracallı, Balyand, hətta rayon mərkəzində və bütün ətraf kəndlərdə xəbər yayıldı ki, ermənilər “ 9-cu km “ deyilən sahədən tanklarla və BTR-lə güclü hücuma keçiblər. Həmin vaxt mən rayonun Sirik postundan qayıdırdım. Ratsiya ilə növbətçi mənə məlumat verdi ki, təcili mərkəzə gəlmək lazımdır. Mən rayon mərkəzinə gələrkən əhalinin çaxnaşmada olduğunu gördüm. Camaat təşviş içində idi. Füzuli tərəfdən hücum olduğunu deyirdilər. Mən dərhal öyrənmək istədim ki, bu xəbərləri kim yayıb. Mənə verilən məlumata mat-məəttəl qaldım. Elə adamın adı çəkilirdi ki. Nə isə... Mən təşvişə düşmüş əhalini bir yerə yığıb, onları sakitlışdirdim və dedim ki, mənə bir nəfər etibar etdiyiniz ağsaqqal verin. O da mənimlə getsin, öz gözüylə görsün, sonra real vəziyyəti o özü gəlib sizə desin. Səhv etmirəmsə o vaxt İsmayılov İldırımla birgə mənim xidməti maşınımda Balyanda getdik. Qaracallı-Balyand zonasından keçərkən nələr gördük, ilahi! Əhali qocalı-cavanlı, qadınlı-kişili pərən-pərən düşmüşdülər, hərə əlinə bir çamadan, bağlama alıb qaçırdı. Mən onların qarşısını kəsdim. Onlar bildirdilər ki, «9 km»-dən tank və BTR-lər gəlir. Mən bu məlumatın tam yalan olduğunu əhaliyə çatdırdım, geniş izahlı söhbətlər apardım. Axır ki, Qaracallı-Balyand zonasından 2-3 ağsaqqal götürüb Balyand dağının başına qalxdıq. “ 9-cu km “ yolunda tam sakitlik idi. Heç bir hərəkət yox idi. Mənimlə gedən ağsaqqallar da bunu öz gözləri ilə gördülər. Mən tez rayon mərkəzinə gedib bu xəbərlərin təxribat olduğunu dedim və camaatı xeyli sakitləşdirdim. Beləliklə, bu təxribatın da qarşısını bu sayaq aldıq.

Dərhal əməliyyat qrupunda kimlərin bu şayiəni yaymasını öyrənmək tapşırığı verdim. Məlum oldu ki, o vaxt rayona köməyə gəlmiş Gəncə hərbi briqadasının üzvlərindən bir neçə nəfər bu şaiyəni bilərəkdən yayıblar. Sonralar bu silahlı birləşmənin tərkibində olan həmin arzuolunmaz şəxslər daha azğın hərəkətlər etməyə başladılar. Onlar rayonun Minbaşılı, Daşveysəlli, Şahvəlli – yəni döyüş bölgəsindən kənarda olan kəndlərə gedərək gecələr BTR – dən atəşlər açırdılar. Soruşanda siz niyə belə hərəkətlər edirsiniz? Onlar cavab verirdilər ki, burda nə var, texnikanı yoxlayırıq. Ancaq Gəncə briqadasında çox vətənpərvər oğullar da var idi. Onların böyük əksəryyəti Cəbrayıl uğrundakı döyüşlərdə həlak oldular. Təxribatçı qruplar barədə dərhal əlaqədar komandanlıqlara məruzələr edildi, ancaq heç bir tədbir görülmədi. Demək istəyirəm ki, silahlı qüvvələrin içərisində yüksək eşalonda da satqınçılıq və xəyanətlər baş alıb gedirdi, təxribatçılara havadarlar tapılırdı. Biz bu barədə Müdafiə Nazirliyinin o vaxtki yüksək çinli zabitlərinə və o vaxtki Daxili İşlər Naziri Vaqif Novruzova məruzə edirdik. Deyilənlərin heç bir nəticəsi olmurdu. V.Novruzov bizə açıq-aşkar bildirirdi ki, mən bu barədə Müdafiə Nazirinə heç nə deyə bilmərəm. Əgər desəm də inanmayacaqlar. Nazir bizə məsləhət görürdü ki, yaxşı olar ki hərbiçilərin işinə qarışmayasınız.

**Əlisahib Əroğul:** – Televiziya ekranlarında tez-tez Şayaq yüksəkliyinin ermənilər tərəfindən geri qaytarılmasını Cəbrayıla edilən xəyanətin başlanğıcı kimi qiymətləndirirlər. Doğrudan da, bu yüksəkliyin əldən getməsi istənilən an rayon mərkəzinin «qrad yağışı»na tutulması demək idi. Bu hadisə isə 15 noyabr 1991-ci ildə olmuşdu. Hadisənin təfsilatı barədə nə deyə ğilərsiniz?

**Vaqif Əfsər oğlu:** – Şayaq deyilən yer Dağlıq Qarabağın Hadrut rayonunun şimal-qərbində yerləşən strateji əhəmiyyəti olan bir yüksəklikdir. O yüksəklikdən baxanda Hadrutun mərkəzi belə ayaq altında qalır. Şayaq yüksəkliyindən baxanda Şuşa dağları da görsənir. Şayaqda 15-20 evdən ibarət eyni adda erməni kəndi var. Hadrut rayonunun televiziya ötürücüsü də Şayaq zirvəsində yerləşir. Ötürücünün altında beton panellərdən tikilmiş 3-4 otaq vardı. 1991-ci ilin may ayında biz Şayaq kəndini və eyni adlı yüksəkliyi erməni yaraqlılarından təmizləmişdik. Şayaq yüksəkliyi böyük strateji əhəmiyyətə malik olduğundan bizim polislərlə yanaşı 25 nəfərdən ibarət Xüsusi Təyinatlı Milis Dəstəsinin əməkdaşları da bu postda keşik çəkirdi. Ermənilər həmin postu bizdən almaq üçün əvvəlcə dövlət səviyyəsində iş aparmağa başladılar. İlkin olaraq DİN-nin o vaxtkı rəhbərliyi vasitəsi ilə rayona təzyiqlər göstərməyə önəm verdilər. Rəhmətlik Rəşid Məmmədov (şöbə rəisi) Şayaq yüksəkliyinin strateji əhəmiyyətindən ağız dolusu DİN-nin rəhbərliyinə məruzə edir, rəhbərliyi inandırmağa çalışırdı ki, Şayağı heç cürə ermənilərə qaytarmaq olmaz . Ən nəhayət, Daxili İşlər Nazirliyinin yüksək çinli zabitlərindən, baş idarə rəislərindən, polkovnik Aydın Nəsirov, polkovnik Zapletin, polkovnik Həmid Cəfərov və SSRİ DİN-nin yüksək çinli bir qrup zabitləri Şayaq məsələsini həll etmək üçün Cəbrayıla gəldilər. Doğrusu, Rəşid müəllim Şayağı əldən verməmək üçün dəridən-qabıqdan çıxırdı. Həmin dövrdə Şayağın əhəmiyyətini Rəşid müəllim qədər bilən, Şayağı düşmənə verməmək üçün açıq-aşkar mübarizə aparan və çox vaxt inadla risqə gedən 2-ci bir şəxs bəlkə də yox idi. Rəşid müəllimin inadkarlığı hesabına postun boşaldılması işi dayandırıldı. Lakin gələn komissiya yerindəcə böyük bir arayış yazaraq bizim postdan 300 metr aşağıda SSRİ DİN-nin DQ hissəsinin ruslardan ibarət postunun yaradılmasının vacibliyini bildirdilər və post qoymaq üçün dövlət səviyyəsində icazə aldılar. Rusların ikibaşlı oyunu da elə bundan sonra başladı. Təsəvvür edin, Şayaq yüksəkliyində teleqüllənin altında bizim post idi. Ondan 300 metr hava məsafəsində (bunu xüsusi olaraq aşağıda deyəcəyim

faktla əlaqədar vurğulayıram) ruslardan ibarət post var idi. Rus postunun canlı qüvvəsində minimum 30 əsgər, 1 BTR, 1 BRDM kimi zirehli texnikalar var idi. İndiyə qədər şəxsən mənə qaranlıq qalan bir məsələ haqqında danışmaq istəyirəm. Oktyabrın axırı və ya noyabrın 1-də Xüsusi Təyinatlı Milis Dəstəsinin (OMON) əməkdaşları qəflətən, bizə xəbər vermədən Şayaq postunu tərk edib Bakıya gedirlər, onlardan bir nəfəri, adını anonim saxlayan şəxs Mahmudludan növbətçi hissəyə zəng vuraraq , XTMD-nin postu nəzarətsiz qoyaraq aradan çıxdığını bildirdi. Bu bizim üçün gözlənilməz xəbər idi. Həmin vaxt şöbə rəisi Rəşid Məmmədov məzuniyyətə təzə çıxmışdı. Mən rəisi əvəz edirdim. Yağışlı bir gün idi. Biz postu qəbul etməyə hazır deyildik. Dərhal nazirliyin rəhbərliyinə məruzə etdik, Saatlı, Sabirabad və İmişlidən təcili olaraq bizə əlavə qüvvələr göndərildi. Nəzarətsiz qalmış postda 24 nəfərdən ibarət öz postumuzu yaratdıq. Yağışlı gün olduğundan Şayağa çıxmaq çox çətin idi. QAZ-66 və UAZ-la biz 6-7 saata ancaq postu bərpa etdik. Xoşbəxtlikdən postun boş qalmağından ermənilər xəbər tutmamışdılar. Beləliklə, 1991-ci il noyabr ayının 15-nə qədər Şayaq yüksəkliyi bizdə qaldı. Həmin gün səhər saat $6^{00}$ olardı. Həmin dövrdə polis baş sahə inspektoru Qəhrəman Həmidov posta rəhbərlik edirdi. O, ratsiya ilə məlumat verdi ki, ermənilər 300 nəfər canlı qüvvə ilə Zamzur kəndinə hücum ediblər. (Zamzur kəndi Şayağın Cəbrayıl istiqamətində dərənin dibində yerləşdiyindən kənd oradan aydın görünürdü) Sübh tezdən həyəcan siqnalı ilə Cəbrayıl polisi ayağa qaldırıldı. Ehtiyat qüvvə iki hissəyə bölündü. Axşam saat $17^{00}$dək bütün gün ərzində Zamzur uğrunda qızğın döyüş getdi. Döyüş məhəllə-məhəllə gedirdi, düşmən tab gətirməyib geri çəkilirdi. Biz Zamzurun mərkəzində yerləşən məktəbə yenicə çatmışdıq ki, milliyyətcə rus olan Hadrut rayonunun hərbi komendantı bizə ratsiya ilə müraciət etdi. Mən ratsiyaya cavab verib, özümü təqdim



etdim. O, mənə dedi ki, partizanlar (o,erməni quldurlarını partizan adlandırırdı ) mənə 10 dəqiqə vaxt veriblər. Şərtləri budur ki, Şayaq postunda olanlar silahı yerə qoyub təslim olsalar, onları öldürmərik, əks halda hamısını məhv edəcəyik. Əslində həmin gün həm Zamzur. həm də Şayaq döyüşçülərinin tərkibi rus-erməni hərbi birləşməsindən ibarət idi. Çünki biz Zamzur uğrunda 300 nəfərə yaxın erməni-rus yaraqlısı ilə döyüşürdük. Heç demə, ermənilər gündüz saat $12^{00}$-dan sonra Hadrut rayonunun hərbi komendantlığının əsgəri qüvvələrinin köməyi ilə Şayaqda olan posta hücum etmiş və 5-6 saatdır ki, orada da döyüş gedirmiş. Mən komendanta ratsiya ilə sərt cavab verdim və bildirdim ki, təslimçilikdən danışmaq olmaz. Bu vaxt komendant bizim postun rəhbəri Qəhrəman Həmidovu ratsiyaya çağırdı və onu mənlə danışdırdı. Mən Qəhrəmana toxtaqlıq verdim və dedim ki, biz Zamzuru azad etmişik, indi Şayağa çıxırıq, bir neçə saata sizi azad edəcəyik. Silahı yerə qoymayın. Təslim söhbəti qəti ola bilməz. Həmidov mənim inadımı görüb real vəziyyəti məruzə etdi. O dedi ki, çoxlu itki vermişik, xeyli yaralımız var. Sursatımız tükənib və beş dəqiqə belə döyüşmək üçün ehtiyatımız qalmayıb. Bu sözlərdən sonra postun rəhbəri Qəhrəman Həmidov kövrəldi və ratsiyanı yerə qoydu. Artıq qaranlıq düşmüşdü. Düşmən tərəf yüksəklikdə idi. Gecə döyüşü davam etdirmək, güclü itki verməkdən başqa bir nəticə verməzdi. MTN-nin Cəbrayıl şöbəsinin o vaxtkı rəisi Aydın Şəmiyev MTN-nin Füzuli və Hadrut rayon şöbələri ilə əlaqəyə girdikdən sonra razılıq əldə edildi. Axşam saat 2100 radələrində rus hərbçiləri sağ qalmış və yaralı polisləri silahı yerə qoymaq şərti ilə azad etdilər. Özləri də sağ qalanları, yaralıları və həlak olmuşların meyitlərini rayona gətirdilər. Məlum oldu ki, o döyüşdə 4 nəfər əməkdaşımız həlak olub, 5 nəfər isə yaralanıb. Yaralananlardan ən ağırı bizim əməkdaş, polis nəfəri Nübarək Sevdimalıyev idi. Düşmənin qrantamyotu onun bel sümü-

yünü dağıtmışdı. Həmin gün döyüş gedərkən yuxarıda qeyd etdiyim kimi rus postu ilə bizim post arasında 300 metr məsafə olmasına baxmayaraq 5 saatdan bəri davam edən döyüşü, guya həmin post eşitməmişdi. Bu rusların bizə qarşı işlətdikləri növbəti hiyləydi. Köməyə gəlmək əvəzinə onlar ermənilərlə birləşərək çox güclü və əhatəli hücum planı hazırlayıb Şayaq yüksəkliyini bu sayaq aldılar. Respublikanın o vaxtki rəhbərliyi isə biganəlik və laqeyidlik göstərirdi. Cəbrayıllılar və Cəbrayıl polisi 15 noyabr 1991-ci ili heç vaxt yaddan çıxarmayacaqlar. Bu tarix bizim Qarabağ döyüşlərində ən dəhşətli günlərimizdən biri oldu. Bundan öncə davam edən və başa çatan Zamzur döyüşündə əməkdaşlarımız canlarından keçərək son damla qanlarınadək erməni yaraqlıları ilə vuruşmuşdular. Təslim olmamışdılar. Kazım Məmmədov, Elçin Aslanov, Şükür Abdullayev kimi igid əməkdaşlarımız düşməni çoxsaylı itgilər verməyə məcbur etmişdilər. Özlərinə sığınacaq etdikləri evdə yanıb kül olmağı düşmənə təslim olmaqdan üstün tutmuşdular.

Biz tənhalığımızı açıq-aşkar hiss edirdik. Onu da qeyd edim ki, rayonun böyük əksəriyyəti Şayağın əldən getməməsi üçün əliyalın olsalar da, Cəbrayıl polisinin arxasınca Zamzura qədər gəlmişdilər. Şayağın əldən getməsi döyüşlərdə sonrakı uğursuzluqlarımızın başlanğıcı oldu.

**Əlisahib Əroğul:** – Cəbrayılın sonrakı işğalına təkanverici bir amil kimi uğurlu başlanğıcı olan Sur əməliyyatının müvəffəqiyyətlə başa çatmaması faktını da tez-tez hallandırırlar. Əməliyyatın sonucda qələbə tapmamasına səbəb nə oldu? Axı həmin dövr AXCP və Müsavat hakimiyyətinin uğurlu əməliyyatlar seriyası ayaq açıb inamla Xankəndi üzərinə yeridiyi bir dövr idi...

**Vaqif Əfsər oğlu:** – Əvvəlcə onu deyim ki, 15 avqust 1992-ci ildə keçirilən bu döyüş Sur-Şişqaya əməliyyatı adlanırdı. Artıq Cəbrayıl rayonunda ordu yaranmışdı, rayonun o vaxtkı hərbi komissarı Nazim Yusifov həm də rayon özünümüdafiə batalyonunun komandiri idi. Həmin ərəfədə Gəncədən, bir az əvvəl yada saldığım döyüş briqadası Müdafiə Nazirliyinin xətti ilə Cəbrayıla gəlmişdi. Bu döyüş Cəbrayıl özünümüdafiə batalyonu ilə Gəncə hərbi briqadası tərəfindən Müdafiə Nazirliyinin razılığı ilə keçirilirdi. Məqsəd o idi ki, Şişqaya yüksəkliyi və onun ətəyində yerləşən Sur kəndi düşməndən azad edilsin. Əslində çox gözəl və yerində düşünülmüş bir plan idi. Çünki Cəbrayılın Süleymanlı və Qışlaq kəndində yaşayan əhali daim qorxu və vahimə içindəydi. Şişqaya-Sur əməliyyatı uğurla başa çatsaydı, Süleymanlı və Qışlaq kəndindən təhlükə xeyli uzaqlaşacaqdı. Həmin döyüşə Cəbrayıl polisini qatmamışdılar. Onlar polissiz bu əməliyyata başladılar, əvvəlcə sürətli hücum uğurlu alındı, Sur kəndi düşməndən təmizləndi. Şişqaya yüksəkliyi azad edildi, ermənilər itki verərək geri çəkildilər. Günortadan sonra isə düşmənin güclü əks hücumu başladı. Bizimkilər itki verərək geri çəkildilər. Elə bu vaxt batalyon komandiri Nazim Yusifov məndən köməyə 30 nəfər əməkdaş tələb etdi və onları döyüşə göndərdi. Həmin gün mənim əməkdaşlarıma rəhbərliyi bölmə rəisi, vzvod komandiri, təcrübəli döyüşçü Məmmədov İsgəndər Qulam oğlu edirdi. Lakin döyüşə əvvəlcədən qatılmamaqları və döyüşdəki uğursuzluqları əməkdaşlarımızı da çaşdırmışdı. Əfsuslar olsun ki, günün axırına qədər düşmən tərəfdən edilən güclü hücumlar ordumuzun gün ərzində əldə etdikləri bütün müvəffəqiyyətləri puça çıxardı. Ordu əvvəlki yerinə qayıtmalı oldu. Həm də bu uğursuz döyüş bizim tərəfə çox baha başa gəldi. Bu döyüşdə 102 nəfər yaralandı, 31 nəfər həlak oldu. Mənim kollektivimdən 2 nəfər-Faiq Mehdiyev və Sahib Quliyev həlak oldular, 6 nəfər polisimiz isə yaralandı. Qrupun rəhbəri İsgəndər Məmmədovun özü də ağır güllə yarası aldı. Şişqaya əməliyyatının uğursuzluqla başa çatmasının səbəblərindən biri də, heç şübhəsiz, Füzuli tərəfdən gəldi. Əməliyyat hazırlanarkən Cəbrayıl və Fü-

zuli hərbi hissə komandirlərinə göstəriş verilmişdi ki, eyni vaxtda hücuma keçsinlər. Füzuli hərbi hissəsi Məlikcan kəndinin üstündəki yüksəkliyi götürməli idi, Cəbrayıl isə Şişqayanı. (Məlikcan "9-cu km" deyilən yolun sağ tərəfində Şişqaya ilə eyni bərabərlikdə olan yüksəklikdir). Ancaq Füzuli hərbi hissəsi Məlikcanın üstündəki yüksəkliyi götürə bilmədilər. Ona görə də həmin yüksəklikdən Şişqaya güllləbaran edildi. Bu da birbaşa həmin döyüşün uğursuz nəticələnməsinə təsir göstərən ən əsas səbəblərdən biri oldu. Həm də ön cəbhə ilə arxa cəbhə arasında əlaqə çox zəif idi. Bu da öz mənfi təsirini göstərdi. Bütün bunlarla yanaşı mənə elə gəlir ki, ordunun günün birinci yarısında əldə etdikləri uğurları onlarda müvəffəqiyyətdən baş gicəllətmə vəziyyəti yaratdı. Ordu əldə etdikləri yüksəkliklərdə dərhal istehkamlar qazıb müdafiə sədləri yaratmaq əvəzinə bu müvəffəqiyyəti qeyd etməyə başladılar. Düşmən tərəf isə bundan məharətlə istifadə etdi. Bir də ki döyüş bir nəfər şəxs tərəfindən idarə olunmurdu. Günün ortasında Gəncə briqadasının rəhbərliyi ilə bizim komandirlər arasında mübahisələrə də rast gəldim. Bu əməliyyat Cəbrayılda ölənlərin və yaralananların sayına həm də bu itkinin müqabilində heç bir müvəffəqiyyətin əldə edilməməsinə görə rayonun ictimai-siyasi durumunda böyük çaxnaşmaya səbəb oldu.

**Əlisahib Əroğul:** – Yeri gəlmişkən deyim ki, tabor komandiri Şakir Abbasovun bayaq yuxarıda adını çəkdiyiniz Şamil Abdullayev adlı birisi ilə əvəz edilməsi məsələsini də təxribat faktı kimi ortaya qoyanlar var. Guya sonuncu özünü çox şübhəli aparırmış, gizli şəraitdə naməlum adamlarla ratsiya vasitəsilə əlaqə saxlayırmış, hətta ermənilərlə danışığa girdiyini söyləyənlər də var. Bu faktlara münasibətiniz...

**Vaqif Əfsər oğlu:** Şakir Abbasov ali təhsilli hərbi müəllimi idi. İdmançı idi. Hələ ordu yaranmamışdan öncə könüllü olaraq Cəbrayıl polisinin tərkibində fəaliyyət göstə-



rən "Ziyalılar" batalyonunun üzvü kimi postlara gedir, döyüşlərdə iştirak edirdi. Sonradan rayonda özünümüdafiə batalyonu yaradılarkən Ş.Abbasov orduya keçdi, əvvəlcə ordunun mərkəzi aparatında işlədi, sonra isə Sirik batalyonunda komandir oldu. O, komandir olarkən çox təşəbbüskar idi. Mən dəfələrlə onun batalyonunun şəxsi heyəti ilə görüşmüşəm və çox razı qalmışam. Rayon əhalisi, habelə komandir korpusu da onu çox istəyirdilər. Ancaq sonradan nəyə görə isə Şakir Abbasov birdən-birə batalyon komandirliyindən çıxarıldı və onun yerinə ixtisasca dil və ədəbiyyat müəllimi olan Şamil Abdullayev adlı birisi qoyuldu. Səbəbi mənə məlum deyil. Onun düşmən kəşfiyyat orqanlarına xidmət etməsi barədə məndə heç bir məlumat yoxdur. Ancaq Şamil Abdullayev çox səriştəsiz, hərbi işdən başı çıxmayan, qorxaq bir adam idi. Onun batalyonunun qoruduğu əraziyə düşmən hücum edərkən Şamil Abdullayevin özü heç bir müdafiə tədbirləri görmədən ərazini tərk etmişdi. Ş. Abdullayevin döyüş vaxtı bu hərəkətsizliyi və batalyonu həlledici anda buraxıb döyüş zonasından qaçması və rayon ərazisindən çıxması faktını sonralar başlayan cinayət işinin məhkəmə prosesində mən çılpaqlığı ilə demuşəm. Şakir Abbasov isə doğrudan da, çox mərd, qorxmaz, cəsur və vətənpərvər bir oğul idi. Sonrakı döyüşlərdə o, qəhrəmanlıqla həlak oldu. Ordunun (siyasiləşmiş) başsız təyinatları tək Şamil Abdullayevlə yekunlaşmadı. Döyüş gedən rayonda bir ildə hərbi hissə komandiri dörd dəfə dəyişdirildi. O vaxt hakimiyyətdə olan AXC-nin və onun Müdafiə Naziri Rəhim Qazıyevin bu cür sərsəm təyinatları nəinki Cəbrayıla, habelə Azərbaycan xalqına çox baha başa gəldi.

**Əlisahib Əroğul:** – AXCP-Müsavat cütlüyünün hakimiyyətinə münasibətiniz haqqında nə deyə bilərsiniz?! S. Hüseynov, Ə.Hümbətov, R.Qazıyev kimi anormal, debil, satqın, bişərəf insanların öz xəyanətlərini Milli Ordu səviyyəsində həyata keçirmələrinə rəvac verən Sizcə nə oldu?

**Vaqif Əfsər oğlu:** – Heç bir siyasi prosesə qoşulmamışam. Ümumiyyətlə, polis siyasətdən kənar bir orqandır. Ancaq bir vətəndaş kimi deyə bilrəm ki, o vaxt AXCP-nin iqtidarda olan nümayəndələrinin səriştəsizliyindən sui istifadə edərək, Vətənin müdafiəsinə məsul şəxslər demək olar ki, torpaq haqqında fikirləşmədilər. Təkcə onu deyə bilərəm ki, (bu barədə yuxarıda çoxlu misallar çəkmişəm) doğrudan da, S.Hüseynovun, R. Qazıyevin rəhbərlik etdikləri siyasiləşmiş ordu hissələrinin təxribatları heç cürə səngimək bilmirdi. Onların təxribatlarının qarşısını almaq bizim imkanımız xaricindəydi. Ə. Hümbətovun isə separatçılığı Azərbaycan xalqına, onun dövlətçiliyinə qarşı yönəlmiş ən böyük xəyanət və satqınçılıqdan başqa bir şey deyildi. Görün iş nə yerə çatmışdı ki, mən rayonun müdafiə olunması, xüsusilə Milli Ordudakı başıpozuqluqlar və özbaşınalıqlar barədə yuxarı aidiyyəti orqanlara məlumatlar verir, rayonun sağlam qüvvələrini səfərbər edərək öz gücüm daxilində rayonun müdafiəsinin möhkəmləndirilməsinə səy göstərirdim. Ancaq baxın həmin günlərdə mənə suiqəsdlər üçün cəhdlər edilirdi. Atam Hüseynov Əfsərin Soltanlı kəndində yaşadığı ev (3 dəfə, hər dəfə 1 saatdan çox) avtomat və pulemyotlardan atəşə tutuldu. Halbuki Soltanlı kəndi həmin vaxtlar döyüş zonasından xeyli aralı idi. (O vaxt İcra başçısı işləyən Kərəm Əliyev, prokuror İsrafil Rəhimov, MTN rayon şöbəsinin rəisi İbrahim Şirinov hər üç halda hadisə yerində oldular).

**Əlisahib Əroğul:** – Vaqif müəllim, Cəbrayıl rayonunun inzibati ərazisinə daxil olan Arazboyu torpaqlarımız 23 oktyabr 1993-cü ildə, yəni Cəbrayılın qəsb edilməsindən 2 ay sonra işğal olundu. Bu işğal ərəfəsində və işğaldan sonra Cəbrayıl polisinin fəaliyyəri nədən ibarət oldu? Bu haqda nələri demək istərdiniz?..

**Vaqif Əfsər oğlu:** – Cəbrayılın, Arazboyu da daxil olmaqla bütün ərazisi 23 oktyabr 1993-cü ildə işğal olundu. Yuxarıda qeyd etdiyim kimi Cəbrayıl şəhərinin işğalından



sonra hərbi hissənin rəhbərliyi dəyişdirildı. Soyadı Əhmədov olan bir nəfər hərbi hissəyə komandir təyin olundu. Onun səriştəsizliyi, müdafiə işləri ilə səthi məşğul olmağı göz qabağında idi. Oktyabrın 23-də yəni rayon işğal olunan gün hərbi hissənin komandiri özünü tankla Araz çayına vurdu. Tank çayın ortasında qaldı, özü isə tankın lüləsindən sürünə-sürünə İran tərəfə keçdi. Başsız qalmış ordu pərakəndə halda döyüşlərə girdi. Tərkibi əslən Cəbrayıllılardan ibarət olan ordu hissələri rayon uğrunda döyüşdü. Ancaq başsızlıq açıq-aşkar hiss olunurdu. Oktyabrın 23-ü günortadan sonra demək olar ki, rayon müdafiəsiz qaldı. Əliyalın camaatı sakitləşdirmək, onların atəş altından çıxmalarını təşkil etmək, təhlükəsiz yerə köçürmək bütövlükdə mənim üzərimə düşmüşdü. 10 minlərlə arvad-uşaq, qoca Arazboyu kəndlərdə böyük sarsıntılar içərisində imdad gözləyirdilər. Cəbrayılın polis şöbəsi həmin insanlara ürək-dirək verir, onları düşmən əlinə keçməkdən qoruyaraq, hissə-hissə məşhur "Xudafərin" körpüsü istiqamətində Qumlaq kəndinə yığırdılar. Nəhayət, Cəbrayıl polisi müdafiəsiz qalmış əhalini "Xudafərin"-ə yığdı. Onların müdafiəsini təşkil etdi. Həmin vaxtdan başlayaraq 25 oktyabra qədər əhali Xudafərini keçərək İran tərəfə adladı və İmişli rayonunun ərazisindən sərhədi keçərək Bəhrəmtəpəyə toplandılar. Cəbrayıl polisi isə 75 nəfərlik şəxsi heyəti ilə noyabr ayının 1-nə qədər ərazini tərk etmədi. Hətta, mən özüm partizan hərəkatına keçməyi qarşımda məqsəd qoymuşdum. Lakin rəhbər orqanlardan göstəriş gəldi ki, bununla sən nə etmək istəyirsən? Kiçik bir dəstəylə heç nəyə nail ola bilməyəcəksən. Mən o zaman heysiyyata qapıldığımı sonralar anladım. Respublika DİN-nin göstəriş əmrindən sonra Cəbrayıl polisi noyabrın 1-də rayon ərazisini tərk edərək İran sərhədçilərinin müşaiyəti ilə sərhəd keçid məntəqəsindən keçərək İmişliyə gəldi. Biz sərhəddi keçəndən sonra bir neçə gün komplektləşmə ilə məşğul olduq. Rayon işğal olunduğundan DİN-nin

əmri ilə Daxili Qoşunların tərkibinə verildik, yenidən cəbhənin Füzuli bölgəsində döyüşlərə qatıldıq. Burada yeri gəlmişkən daha bir məsələ barədə açıqlama vermək istəyirəm. Yuxarıda qeyd etdiyim kimi Cəbrayılın işğalından 11 gün keçməsinə baxmayaraq Cəbrayıl polisi rayon ərazisini tərk etməmişdi. O vaxtlar DİN-nin İctimai Təhlükəsizlik İdarəsinin rəisi Fətulla Hüseynov bir neçə rəsmi şəxslərlə İran İslam Respublikası ərazisindən keçib Xudafərin körpüsünün o başına gəldi və məni yanına çağırtdırdı. Biz orada görüşdük. O vaxtkı Daxili İşlər Naziri Vaqif Novruzovun adından mənə göstəriş verdi ki, şəxsi heyətinlə birlikdə ərazini tərk et. Və İmişli rayon polis şöbəsinə getməli olduğumuzu bildirdi. Beləliklə 1993-cü il noyabrın 2-də çox ağır vəziyyətdə ərazini tərk edib, İran İslam Respublikası ərazisindən keçərək İmişliyə gəldik. Bir neçə gün İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsindəki yol idarəsinin binasında yerləşdik, silah-sursat və şöbənin digər əmlakının DİN-in əməkdaşları tərəfindən yoxlanılması başa çatdı. Və mən valideyinlərimin və övladlarımın harda məskunlaşdığını öyrənib geri qayıtmaq üçün rəhbərlikdən icazə aldım. O, vaxtlar işğal olunmuş rayonların polis şöbələrinə rəhbərlik etmək üçün bölgəyə göndərilmiş İctimai Təhlükəsizlik İdarəsinin rəisi,polis polkovniki Fətulla Hüseynov Respublika rəhbərliyinin və Daxili İşlər Nazirinin hörmətini qazanmaq üçün yüz oyundan çıxırdı. Rəhbərliyə yalan məlumatlar verməklə ucuz hörmət qazanmaq istəyirdi. Yəqin ki, o vaxt rayonun müdafiəsində yaxından iştirak etmiş 2 hərbiçi zabitə təxribatçı damğası vurması cəbrayıllıların yaxşı yadındadır. Mən bir günlük valideynlərimdən soraq almaq üçün Şəmkirə gedərkən Fətulla Hüseynov mənim şəxsi heyətimə çatdırır ki, sizi yenidən döyüşə göndərəcəklər. Ancaq hamınız nazirin qəbulunda olsanız və xahiş etsəniz sizi arxa cəbhəyə göndərərlər. Daxili İşlər Naziri Vaqif Novruzova isə məlumat verir ki, Cəbrayıl polisi döyüşə getməkdən imtina edir



və bu işi təşkil edən də polis rəisi Vaqif Məhərrəmovdur. Bu məsələlər mənə sonradan aydın oldu. Beləliklə, mən Şəmkir rayonundan səhərisi gün geri qayıdarkən, şöbədə növbətçidən və bir neçə əməkdaşdan başqa heç bir kəsi görmədim. Mənə dedilər ki, şəxsi heyət Daxili İşlər Nazirliyinə gedib. Ancaq konkret heç nə məlum deyildi. Bu barədə dəqiq məlumat öyrənə bilmədim. Mən də dərhal Bakıya - Daxili İşlər Nazirliyinə getdim. Səhərisi gün saat $10^{00}$ tamamda Daxili İşlər Nazirinin qəbul otağında Vaqif Novruzovun mənim haqqımda sərt sözləri məni sarsıtdı və şoka saldı..Nazir məni qəbul etmədi. Akt zalına yığıldıq. Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarının polis əməkdaşları demək olar ki, bir nəfər kimi buraya toplanmışdılar. Mənim barəmdə nazir Vaqif Novruzovun təkrar işlətdiyi ifadələri Cəbrayıl polisinin əməkdaşları qətiyyətlə rədd etdilər. Vəzifədən kənarlaşdırılmağım mənə əsər eləməzdi. Lakin haqqımda qeyri-dəqiq və böhtan xarakterli ifadələr mənə rahatlıq verməzdi. Əməkdaşlarımın məni elliklə müdafiəyə qalxmağı isə gözləmədiyim bir hal idi. Gözlərimdə yaş giləlendi. Özümü güclə toxtadıb nazirlə dialoqa girə bildim. Cəbrayıl polisinin döyüş bölgəsinə qayıtmaq istəməməsi fikri ağ yalan idi. Mən nazirə bildirdim ki, Sizə düzgün informasiya verməyiblər, nə mənim haqqımda, nə də əməkdaşlarım barəsində. Bizim torpağımız işğal olunub. Bəs döyüşə biz getməyəndə, kim getməlidir. Fətulla Hüseynovun alınmağından nazir hər şeyi başa düşdü. Söz-söhbət bununla bitdi.

Biz əvvəlcə Füzuli rayonunun Böyük və Bala Bəhmənli kəndləri ətrafında ön cəbhədə postlarda durduq. Cəbrayıl polisinin hər bir əməkdaşı Daxili Qoşunların tərkibində sıravi döyüşçü kimi, kazarma şəraitində xidmət aparaaraq döyüşlərdə iştirak edirdi. O dövrlərdə bizimlə bağlı bir neçə faktı qeyd etmək istəyirəm: 25 dekabr 1993-cü ildə Böyük Bəhmənli ilə Bala Bəhmənli kəndlərinin sağ tərəfindəki yüksəklikdə 1 km-ə qədər məsafə bizim polislər tərəfin-

dən qorunurdu. Həmin gün günortadan sonra düşmənin gözlənilmədən dayandığımız mövqelərə hücumu başladı. Düşmən tərəf əvvəl artilleriya ilə mövqelərimizi atəşə tutdu, sonra isə tank, BMP, BTR-lər və digər zirehli texnika ilə üstümüzə gəldilər. Həmin gün postlarda olan Cəbrayıl polisinin əməkdaşları doğrudan da, qəhrəmanlıq nümunələri göstərdilər. Onu da deyim ki, düşmənin həmin hücumu vaxtı mən də postda olan əməkdaşlarımızın arasındaydım. Hər şey gözümün qarşısında baş verirdi. Düşmənin artilleriya zərbələrindən sonra zirehli texnikası sürətlə üstümüzə gəlirdi. Bizim qranatamyotçular düşmənin bir tankını vurdular. Bir BMP də bizim postun qarşısındakı minaya düşüb darmadağın oldu. Ancaq əməkdaşlarımız geri çəkilmədilər. Bu döyüşdə Cəbrayıl polisinin 16 əməkdaşı döyüş qabiliyyətini itirdi. Onlardan 2-si, Rahib Məhərrəmov və Cabbar Cabbarov qəhrəmancasına həlak oldular. 14 nəfər əməkdaşımız isə müxtəlif dərəcəli bədən xəsarəti aldılar. Ancaq bir addım da geri çəkilmədilər, əksinə düşmən canlı qüvvə və texnika itkisi verərək geri çəkildi. Bu döyüşlərdə iştirak edən əməkdaşlarımızdan Əli Xankişiyevin, Tofiq Əhmədovun, Nadir Mustafayevin, İqbal Alışovun, Nizami Şirinovun, Zəkara Qarayevin, Sirac Hüseynovun, Həbib İmanovun, Şahlar Səfərovun, Nurəddin Yaqubovun və başqalarının döyüşləri xüsusilə yadda qalan oldu. Bu cür döyüş səhnələri ilə biz Daxili Qoşunların tərkibində olarkən çox qarşılaşdıq.

5 yanvar 1994-cü ildə Böyük Bəhmənlidən başlamış Qazaxlar kəndinə qədər Arazboyu kəndlərimizin, o cümlədən Horadiz qəsəbəsinin düşməndən azad edilməsində Cəbrayıl polisinin də sanballı payı vardı. Cəbrayıl polisi Füzuli rayonunda gedən döyüşlərdə 4 əməkdaşını (Rahib Məhərrəmov, Cabbar Cabbarov, Taleh İsmayilov, Həbib İmanov) itiridi. 67 nəfər əməkdaşımız Füzuli uğrunda gedən döyüşlərdə güllə yarası aldı. Cəbrayıl polisi atəşkəsdən sonra da, 12 may 1994-cü ildən 1998-ci il oktyabr



ayının 1-nədək düşmənlə üzbəüz xətdə, yəni birinci səddə - Cəbrayıl rayonunun bizdə yeganə kəndi olan Cocuq Mərcanlı ilə Mehdili arasında səngərdə dayandı. 2001-ci ilə qədər isə Cəbrayıl polisinin bütün şəxsi heyəti Füzuli bölgəsində bu və ya başqa sahələrdəki postlarda olublar. 2001-ci ilin otyabr ayında AR DİN-nin əmri ilə şöbənin bir qrup əməkdaşı əvvəlcə Biləsuvar rayonu ərazisində yerləşən 5 böyük çadır şəhərciklərində xidmətə başladı. 2003-cü ilin ortalarından isə Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Cəbrayıldan olan məcburi köçkünlər üçün salınmış 2560 evdən ibarət 6 böyük qəsəbədə xidmətimizi davam etdiririk. Hazırda Cəbrayıl polisinin bir hissəsi qəsəbələrdə əhalimizə xidmət edir, bir hissəsi cəbhənin Füzuli bölgəsində postda dayanır, bir hissəsi isə Bakı və Sumqayıt şəhərlərində, eləcə də respublikanın müxtəlif kənd rayonlarında məcburi köçkün kimi məskunlaşmış cəbrayıllılar arasında xidməti iş aparır.

**Əlisahib Əroğul:** – Nə isə... Bir çin məsəlində deyilir ki, məğlubiyyətsiz qələbə yoxdur. Bir məğlub tərəf kimi qələbəmizi nədə görürsünüz? Vətən və vətəndaşlıq Sizin üçün nədir? Sizin üçün Vətənin sərhədləri haradan başlayır, harada qurtarır? Yurd sevərlik, Vətən sevgisi, yoxsa bütün bunlar, yoxsa dildə deyilən, sadəcə pafoslu sözlərdi...

**Vaqif Əfsər oğlu:** – Məsəl çəkdiniz, bir türk məsəli yadıma düşdü: "Görünmədən görmək, vurulmadan vurmaq". Torpaqların geri qaytarılması üçün hamılıqla ayağa qalxmaq, döyüşə girmək, düşməni it leşi kimi sürümək, tarixdə yadda qalan qələbə çalmaq haqq işimizdir. Hər birimizin vətənə bir can borcumuz var. O günün gələcəyinə mən göydəki günəş qədər inamlıyam. Mütləq o gün gələcək. O gün çox uzaqda deyil. Ermənilər məhşər ayağına çəkilməlidilər. Xar olduqları o günü görməlidilər. Bunun üçün hər bir vətəndaş Silahlı qüvvələrimizin baş ko-

mandanı, ölkə Prezidenti İ. Əliyevin ətrafında yumruq kimi birləşməlidilər. O zaman bu qələbə daha asan başa gələcək.

Mən doğulduğum torpağı, kəndi, rayonu çox sevirəm. Həmin yerlərin hər qarışına vurğunam. Özümü Cəbrayılsız təsəvvür edə bilmirəm. Bu ölkənin vətəndaşı kimi ən böyük vətəndaşlıq borcum o torpaqları düşmən tapdağından azad etməkdir. Mən vətəndaşlıq borcumu birinci bunda görürəm.

Tez-tez Cəbrayıllı günlərimi xatırlayıram. O günlər və o yerlər tez-tez yuxuma girir. Səhər yuxudan ayılanda bir neçə dəqiqə o yuxuların təsirindən çıxa bilmirəm. Və fikirləşirəm: «Görəsən o torpaqlar nə vaxtsa doğma övlad kimi mənə qucağını açacaqmı, öz ağuşunda bizə yer verəcəkmi?!» Doğma torpaqlarımıza qayıtmaq üçün böyük ümidlərlə yaşayıram. Və əminəm ki, o gün çox uzaqda deyil!! Məni o günlərə səsləyən, məni yaşadan elə Vətən sevgisidir. Bu sevgi damarlarımda axan qanımda, canımda, hisslərimdə, duyğularımdadır. Bu sevgi mənim üçün Tanrı eşqidir. Əbəs yerə deməyiblər ki, Vətən sevgisi – Tanrı eşqidir!!

**Haşiyə:** Bəli, «Vətənimiz Böyük Azərbaycanın sərhədləri hardan başlayır, harada qurtarır» sualına cavab vermədi, Vaqif müəllim. Lakin qəlbindəki Vətən sevgisini Tanrı eşqi qədər ucalıqda tutdu. Bu ucalığın zirvəsində sonucda Böyük Azərbaycanın altun şəhərləri ulduz-ulduz parladı, içimdə od olub közərdi, müqəddəsləşdi, qan yaddaşımda yurdlaşdı. Hər qarıc torpağı Tanrı payım, Tanrı eşqim oldu. Vətənləşdi-Vətənim ürəyimin başında. Vətən sərhədlərini ürəyimdə başlayan, ürəyimdə qurtaran gördüm. Ana Vətənin sərhədləri cızıldı ürəyimin pərdəsi üstə.



## AZƏRBAYCAN

Aranına, yaylağına,
Qan çilənən torpağına,
Ay-ulduzlu bayrağına
Qurban olsun, dedim bu can,
Azərbaycan! Azərbaycan!

Taleyimə bir yazısan,
İftixarım, Vüqarımsan,
Ər oğullar diyarısan,
Yağılara vermə aman,
Azərbaycan! Azərbaycan!

Anam dedim - İrəvana,
Qan yaddaşım – Həmədana,
Nəqşicahan – Naxçıvana,
Şöhrətindir Təbriz, Zəncan
Azərbaycan! Azərbaycan

Qəzvin, Kərkük – qərib elim,
Qoca qartal – Ərdəbilim,
Qeyrət tacım – Şuşam mənim,
Qırxqızındı - könlü viran,
Azərbaycan! Azərbaycan!

Göy Tanrıya yurddu – Bakı,
Göy üzünə Dərbənd – qapı,
Babil yaşda Gəncəm vardı,
Kür-Arazdı səni qucan,
Azərbaycan! Azərbaycan!

Mayan layla, bayatıdı,
Muğam – sevgi harayıdı,
Arazbarı, Heyratıdı,
Segah, Şurdu vurğun, hecan,
Azərbaycan! Azərbaycan!

Nur dağıdı – Kəpəz, Qoşqar,
Savalanın, Şahdağın var,
Xəzərtək bir ümmanın var,
Göyçəm inci, Göy –göl mərcan,
Azərbaycan! Azərbaycan!

Sən olmusan, Vətən payım,
Al günəşim, parlaq ayım,
Həm əzəlim, son pənahım,
Həm canımsan, varsan buncan,
Azərbaycan! Azərbaycan!

Azərbaycan! Sən ey türkün, türk oğlunun əzəli, əbədi məkanı. Yurd – yuvası, odu ocağı, Tanrı payı, Tanrı qisməti. Kimlər tarixinə qara yaxmadı. Əli qələm tutan dəmkeşlər, antitürk siyasətinə, stalinçi tarixçilərə züytutanlar, quyruq bulayanlar bostanına daş atmadı. Lakin külək dağdan nə aparar dedin. Yenə də türk sənin oldu, sən türkün.

Azərbaycan! Aşağısı Həmədan, yuxarısı Dərbənd, sinəsi Xəzər, kürəyi Anadolu olan məmləkətim mənim. Dünyanın ilk insan, ilk dil doğuşunun, yaranmasının meydana gəldiyi, ilk insan məskənlərininsalındığı bu ərazidə ta qədimdən müxtəlif adlı, eynidilli türk tayfaları yaşamış, qaynayıb-qarışmışlar. Yer-yurd adlarımız qan yaddaşlarımızda həmşə yaşar qalmış, nəsildən-nəslə keçər olmuşdu. Əcdadımız Azıx mağarasını özünə məskən etdi. Kamanı-oxu Qobustan qayalarında daşlaşdı, daş yaddaşımızda qaldı.



## AZƏRBAYCANDA TÜRK DİLLİ TAYFALARIN KONSOLİDASİYASI

∑ M.Ö (- ∞ ) – dan M.Ö. VI minilliyədək: Odərlər ( türk mənşəli ilk insan ismaları );

∑ M.Ö. VI minillikdən M. Ö. II minilliyədək: Sumerlər, sumer tipli kutilər, lullubilər, turikkilər və prototürklər, azlar və arattalılar (türk mənşəli və türk dilli qəbilələr və tayfa topluları);

∑ M.Ö. XX yüzillikdən M.Ö. IV yüzilliyədək: Kimerlər, iskitlər, saklar, quqarlar, şiraklar, mastagetlər, kaspilər, mığrılar, maqlar, mannalılar, madaylar, buntürklər, haylantürklər, peçeneqlər, ağhunlar ( türkdilli tayfa birlikləri və qövmləri);

∑ M.Ö. IV yüzillikdən eranın X yüzilliyinədək: Albanlar, qıpçaqlar, qara hunlar, kəngərlər, tərtərlər, qarqarlar, bulqarlar, vərəndlər, vənglər, qoruslar, baharlılar, tuğlar, tağlar, qordmanlar, dondorlar, uliqular, aranlar, qullar, suvarlar, xəzərlər, quşanlar, çollar, toloslar (türkdilli tayfalar və tirələr);

∑ X yüzillikdən XIV yüzilliyədək: Səlcuqlar, türkmənlər, moğollar, tatarlar, dolan və domanlar, cəlayirlər ( türk dilli tayfalar )

**H A Ş İ Y Ə**: Türk – Tanrı millətidir. Ulu əcdadlarımız əzəldən özlərini səmavi sanmışlar. Əsrarın sirlərini ilkinliklərindən göydə arayıb, göydə axtarmışlar. Ulu yaradana Tanrı-Ata demişlər. Göy Tanrım deyə səsləmişlər. Tanrı mələyi həzrəti Cəbrayılın müjdəsini yerdə gözləmişlər. Osa ilk müjdəsini, Türk-Turan dünyasının bir əlçim parçası olan Cəbrayıl torpağına öz müqəddəs adını ərmağan etmişdi. Bəli, bu gün bizim diqqətimizi çəkən, Vətənimiz – Böyük Azərbaycanımızın kiçik bir parçası, lakin müqəddəs, dilbər guşəsi olan Cəbrayıldır. Bu gün əldən verdiyimiz, torpağına ayaq basa bilmədiyimiz Cəbrayıl.

Yüyürüyümüzün asıldığı, yırğalandığı, uşaqlıq çağlarımızın beşiyi, müdriklik dövrümüzün ocağı – Cəbrayıl! Hissimlə, həyəcanımla üz tuturam gedə bilmədiyim Cəbrayıla…

### VƏTƏN ŞERİM

Xudafərin – naləm, neyim,
Araz – yanğım, Dirim – qala,
Azərbaycan – Kəbə evim,
Qibləm dedim Cəbrayıla.

Xan çinara könül verdim,
Dədə çinar küsər dedim,
Göy gədikdən bir gül dərdim
Nişan verdim Cəbrayıla.

Pərvaz etdim, süzə-süzə
Ziyarətdən Araz üzə,
Gəyənimdən Lələ düzə
Vətən dedim Cəbrayıla.

Əsirlikdə qalan Vətən,
Çəmənzarı viran vətən,
Sən kömək ol, dada yetən,
Səfər edim Cəbrayıla.

Bağrım başı qara qandı,
Dağım nə vaxt dağılandı,
Əroğuldan ərmağandı,
Vətən şerim Cəbrayıla.






# I BÖLMƏ

# CƏBRAYILIM

# MÜQƏDDƏS TORPAQ



Cəbrayılın məşhur "Çinar" pavilyonu



Hər qarıc torpağına, hər pənpəz daşına, cınqı çınqılına bir kitab bağlasam azdır. Gözümün didəsi Cəbrayılım mənim – müqəddəs torpaq. Hər xışma torpağını tutiyam bildim. Hər qum dənəsi boyda çiminə belə təbərrük kimi baxdım. Üzümü mamırlı daşına, qızılı qayalarına sürtdüm. Dibi görünməz, ceyranlar keçməz dərəsindən, göz oxşayan düzündən keçdim. Neçə-neçə kəhrizinə ayaq salladım, suyunda sərinlədim. Dağ çeşmələrinin, daşların sinəsini yarıb göz-göz pıqqıldayıb çıxan şırnovların, zümzüməli qaynamaların, göz yaşı kimi dup-duru durna gözlü bulaqların suyundan içdim. "Oxay!"-dedim. Sayı-hesabı bilinməyən, kəkliklər səkən dağ gəzlərinə, yal bellərinə, üfüqlər üstən boylanan göy təpələrin tillərinə qalxdım. Gədiklər aşdım. Sal, dimdik sıldırımlı qayaların, buludlar arxasından, ucalığından boylanan qos-qoca dağların zirvələrinə dırmandım. Göy Tanrının ətəyinə əl açdım. Mavi ənginliyin dərinliyinə varan bir səyyaha döndüm. Dərindən-dərinə nəfəs aldım, nəfəs verdim. Hər udum havasında dilimə gələn tək bir inci söz oldu, Cəbrayılım – Müqəddəs torpaq. Ana Vətənim – Cəbrayılım mənim. Sənə Kəbəm desəm, qoy Kəbə inciməsin məndən. Cəbrayıl qibləmdir mənim. Barlı-bəhərli torpağı özü boyda ocaqdı, pirdi, ziyarətgahdı, səcdəgahdı. Biz bu müqəddəs torpağın qoynunda ikən Vətənsevərliyin, yurd sevgisinin torpaq şirinliyinin bolluğundan barınmışıq, məst olmuşuq. Torpağın müqəddəsliyinə sığınmışıq. Adını da,varlığını da vəhy mələyi – Cəbrayılın özü bilmişik. Bəri başdan deyək ki, Cəbrayılın müqəddəslik nişanəsini saymaqla qurtaran deyil. Sıralasan sıraya sığmaz. Sayarsan saya gəlməz, boy sırası uzandıqca uzanar. Qurtarmaq bilməz. Ən başlıcası isə Cəbrayıl torpağı ona görə müqəddəsdir ki, Nuh əyyamından bu torpaqda türk mənşəli etnoslar yaşayıb, yaşayır və yaşayacaqlar. Cəbrayıl bir türk ocağıdır, deməzsən özü boyda elə Tanrı ocağıdır. Axı, türk - Tanrı millətidir. Peyğəmbər Əfəndimiz-Həzrəti Məhəmməd (s) türkü "İsla-

mın qılıncı", Avropanın işıqlı insanları isə Böyük Hun İmperatoru " Atillanı "Tanrının qılıncı" deyə ünvan sahibi ediblər. Bəli, Cəbrayıl torpağı türk-Turan dünyasını özündə əks etdirən bir zərrədir. Bu zərrənin nuruna tapındım. İşığına güzgü tutdum. Qövsü qüzehə dönmüş spektrini analizdən keçirdim türklüyün, türkçülüyün bütün rənglərini, hər növ çalarlarını bu torpaqda sezdim. Bu işıqda göz oldum, əl oldum, bir sözlə gözəl oldum.

Mahmud Kaşğarlının Qurani – Kərimdən iqtibas etdiyi ayədə deyilir: "Uca tanrı, mənim bir ordum vardı, ona türk adı verdim, onları gündoğanda yerləşdirdim. Bir qəbiləyə, xalqa acığım tutsa, türkləri o qəbilə üzərinə göndərirəm". Bibliya hekayətlərində isə Yəhva deyir: "Ey İsrail evi, mən sizə qarşı üzərinizə bir xalq gətirirəm. Bu xalq qədimdir, əbədidir". Bəli bu xalq odərlərdi, şumerlərdi, işquzlardı (oğuzlardı), bir sözlə, türklərdir, qısası türklərin əcdadıdılar. Qədim türklərin inam və etiqadı Tanrıya bağlı olubdu. Tanrıların vəhdəniyyəti ideyası son məqamda məgər oğuz xaqanı Mete tərəfindən irəli sürülmədimi? İslamın qəbulunda Allah Tanrının, Tanrı Allahın sinoniminə çevrilmədimi?!

Daha bir nüansdan söz açaq. Cəbrayıl torpağı ona görə müqəddəsdir ki, bu torpaqda çox saylı müqəddəs ata və ana xaqanlığını özündə əks etdirən Ata və Nənə qəbirləri var. Ən qədim türklər bir zamanlar Tanrıya Ata, Allahlar anasına Nənə, Nanə adı veriblər. Ata sırf türk sözüdür. Türklər zaman-zaman heç də hər ağsaqqala, qocaya, ailə başçısına ata deməyiblər. Ata və ya ağa sözləri m.ö.-ki dövrlərdə müqəddəsliyi olan mənəviyyat sahiblərinə, nüfuzlu şəxslərə, elini sevən xeyirxah insanlara, tayfa, qəbilə, əyalət başçılarına, sərkərdələrə verilən ad olub. Bu müqəddəs, qadirşünas insanların qəbirlərini ziyarətgahlara çevriliblər. Günlərimizədək qan yaddaşımızda yaşadıblar, yaşayır və yaşadacaqlar. Bu qəbildən Cəbrayılın qəza ərazisinin daxilində 10 ata qəbirləri mövcuddur: Tu-



mas-Ata, Günəş-Ata, Çəpik-Ata, Dom-Ata, Müşg-Ata, Şıx-Ata, Cəbrayıl-Ata, Çomaq-Ata, Məngələn-Ata, Şirvan-Ata. Bu müqəddəs ata qəbirlərindən sonuncu ikisi (Məngələn-Ata, Şirvan-Ata) hal-hazırda Füzuli rayonunun inzibati ərazisində yerləşir. Mazan nənə məqamı anaxaqanlıq zamanının yadigarı hesab olunur. Ondan cənub-şərqdə, Araz sahilində qəbri pir kimi qəbul edilən Sarı Mərmər nənə Mazan nənənin anasıdı, deyirlər. Bəlkə də, elə Diri dağının görümlü, ən uca zirvəsində yerləşən Mazan nənənin qəbri həyatı bu yerlərdə çarpışmalarda keçmiş, Böyük Tiran hökmdarı Alp Ər Tunqun (Əfrasiyabın) xanımı Anaqızın 9-cu qarnından doğulması rəvayət edilən Tomris ananın elə öz qəbridir. Qəbrin müqəddəsliyi də elə o dövrdən qorunub saxlanılır. Sadəcə Xudafərin körpüsünün adı kimi onun da adı farsların hakimiyyəti dövrlərində təhrif olunubdu. Axı, sonralar sasanilərin işğalı dövründə Aran- Əhristan, Ərsaq-Dizaq, Alp Ər Tunq körpüsü – Xudafərin adıyla yazıya alınıbdı.

Daha bir əlamətə müraciət edək. Cəbrayıl torpağı ona görə müqəddəs sayılır ki, Azərbaycan Türk dünyası üçün qızıl körpüdürsə, Cəbrayıl da Azərbaycan dünyası üçün elə odur. Cəbrayıl da Azərbaycanın varlığı üçün qızıl körpüdür. Azərbaycanın orta göbəyində yerləşir. Bakıdan İrəvana, Gəncədən Təbrizə gedən karvan yolları bu torpaqda kəsişir, yarılanır. Nəhayət, öz keçmişi, iqtisadi-siyasi əhəmiyyəti ilə ulu tariximizin yaddaşında silinməz izlər buraxan, xarqımızın tarixi abidəsi, mənəvi sərvəti kimi qiymətləndirilən Azərbaycan varlığının, bütövlüyünün, vəhdəniyyətinin simvolu olan Xudafərin körpüləri də Cəbrayıl torpağında yerləşir. Bəli, Cəbrayıl torpağı ona görə müqəddəsdir ki, bu torpaq həm dünyada ən qədim insanların ilk yaşayış məskənlərindən biri, həm də əzəli türk torpağıdır. Cəbrayılın hər qarış torpağında türkün həyat nişanəsini əks eytdirən müqəddəsliklər var. Min illər boyu salınan bu izlər əsla silinməzdi. Qədim türklər bütövlükdə

göy qübbəsini – Günəşli, Aylı, həmçinin ulduzlarla dolu göy qübbəsini hər şeyə qadir Göy Tanrısı - Allah hesab etmişlər. Türklərin həyat tərzi Tanrıdan asılı olub. Daim təbiətlə təmasda, hərəkətdə olan türklər qışı aranda, yayı yaylaqda keçirmişlər. Yazlaqlarda günə gün calamışlar. Payız qışlaqlarında yeri qaralan ocaqlar çatmışlar. İlkinliklərindən yer-yurd yerlərini müəyyənləşdirərkən dünyanın cəhətlərinə görə düzgün-dürüst istiqamət götürməyi ulduzlardan öyrənmişlər. Günəşə, Aya, Oda sitayiş etmişlər. Cəbrayıl şəhərinin cənub qərbində yerləşən «Qurban Təpə» piri türk tayfalarının məhz Günəşə, Aya, Oda sitayiş etdikləri dövrlərin – ilk tunc dövrünün sonlarından qalma bir nişanədir. Burada təzə il yaxşı gəlsin, məhsul bol olsun deyə bu təpədə xoruz qurbanları kəsilir, bişmişin suyundan gündoğana tərəf səpmək, sonra isə xörəyin ətini yeyib Günəşə sitayiş ayinləri icra etmək, kütləvi şadlıqlar keşirmək adəti bu günlərimizədək qorunub saxlanmaqdadır. "Ağoğlan" piri də bütpərəstlik dövründən qalmadır. Burdakı oğlan sözü müasir mənanı deyil, qədim türklərdə hörmət, şərəf, hərbi rütbə, şahzadə titulundakı mənaları kəsb edən bir söz olmuşdur. Habelə qəhrəman, mübariz, mətanətli adam anlamları daşıyır. Ağoğlan rəvayətə görə qeyri-bərabər savaşda şəhid düşən gənc, gözəl bir qəhrəmanın uyuduğu məzardı. Məqamı yüksək bu pir Cəbrayıl şəhərinin şimal-şərqindəki eyni adlı təpədə yerləşir. Cəbrayıl çaylağının sinəsinə söykəndiyi Ziyarət dağının zirvəsində "Ocaqqalanan" yerindəki məbəd də bu qəbildəndir.

Ümumiyyətlə, Cəbrayılda müqəddəsliklə bağlı yer-yurd adları, pirlər, ocaqlar saya gəlməzdi. Cəbrayıla Həzrət Əli yurdu da deyirlər. Bu söz, bu fikir deyilişi, gəlişi xoş və ya özündən uydurma bir ifadə deyil. Nə də birdən-birə əqlimə gələn, yaddaşıma sızan, vərəqə yazılan söz də olmadı. Həmişə fəxrlə demişəm: "Həzrət Əli yurdu, Cəbrayılım mənim!" Azərbaycanımızın çox bölgələrində oldum. Təbrizə, Ərdəbilə səfər etdim. Həzrət Əliyə Cəbrayıl övladları qədər məhəbbəti, sevgisi olan, Cəbrayıl torpağındakı qədər çox saylı, Həzrət Əli nişangahlı ziyarətgahları, pirləri olan ikinci bir bölgəyə rast gəlmədim. Sanki Həzrət Əlinin əfsanəvi Düldülü Cəbrayılın günbatanından gündoğanınadək hər 10-15 km-dən bir dağa-daşa dırnaq sala-sala sıçrayışlar edib, 9 yerdə iz, ləpir salıbdı. Öz mübarək rədləriylə Cəbrayıl torpağını daha da müqəddəsləşdiribdi. Bu rədlər, ləpirlər Tumas-Ata dağının güneyində- Kiçik kovda, Ənsər bulağının başındakı yastı daş üstə, Tey dağının cənub yanacında – Dəlik daşda, Qabaq düzün enəcəyindəki bitili daşda, Daşveysəlli kəndinin özündə, habelə Ağtəpə məhəlləsində, Bulul çeşməsində, Küfilyataq kəndiylə Karyer arasında, Balyand irəməsində Xalaç dağının ətəyində qərar tutubdu. Həzrət əlinin adıyla bağlı pirlər Düldülə məxsus rədlərlə bitmir. Gizgə dağının gündoğanında Həzrət Əli səngəri, Sirik, Quşçular kövşənlərində, Cəbrayıl şəhərinin orta göbəyində Həzrət Əlinin sapand daşları, məşhur Hacı Qaraman məzarlığında Əlamdar qəbirləri var. Həzrət Əlinin ömür-gün yoldaşı Fatimeyi-Zəhranın əl-barmaqlarının izlərini yaşadan daş kündələr də bu torpaqda mövcuddur. Bir sözlə, bu torpaqda Həzrət Əlinin adıyla bağlı yer-yurd adlarını, şəninə--şərəfinə qoşulan mövlanələri, olub keçən söz-söhbətləri sadalamaqla, deməklə qurtaran deyil. Əlbəttə, tarixi qaynaqlar Həzrət Əlinin, onun əfsanəvi Düldül atının bu ərazilərdə olmasını təsdiqləmir. Lakin söhbət bu pirlərin, ziyarətgahların mövcudluğundan Həzrət Əli böyüklüyünə, irsinə sevginin, məhəbbətin, vurğunluğun misli-bərabəri olmayan, müqayisə edilməz bir kökə söykəndiyi ümumxalq məhəbbətinin ifadəsindən gedir. Sözsüz ki, Cəbrayıl məfkurəsində, Cəbrayıl cəmiyyətində formalaşan bu fikirlər Cəbrayılı müqəddəs ziyarətgahlar diyarı kimi xarakterizə edir. Mən burada, bu məqamda bilavasitə daşlarına üz sürtdüyüm, torpağına əl vurduğum, təmasından doymadığım ziyarətgahların siyahısını verməyi məqsədə uyğun sandım. Bir daha onları xatırlamağı özümə borc bildim.

# CƏBRAYIL ZİYARƏTGAHLARI

1. **Yel piri** – Söyüdlü kəndinin şimal-şərqində – Moda zəmidən Pul kövşənə adlayan yolun altında, Quş bulağının 50 m-liyində çox mənzərəli və alp çəmənli meşə talasında yerləşir. Kiçik daş topasından ibarətdir. Burada övliya qəbri olması və ya nəyləsə əlaqədar pirə çevrilməsi yaddaşlardan silinib. Söyüdlü, Qazanzəmi kəndlərindən yel xəstəliyinə tutulanlar niyyət və diləklə piri ziyarət edirlər;

2. **Palçıqlı piri** – Qazanzəmi kəndinin günbatanında eyni adlı kövşəndə yerləşir. Təpə üstə daş hərləməsi olan qəbirdi. Qəbir üstə ardıc ağacı bitib. Övliya qəbri olduğu söylənilir. Əsasən Qazanzəmi camaatının inanc ocağıdır. Niyyət edənlər ardıc ağacına ip, sap, parça qırıqları bağlayır. Pir öz adını buz sulu Palçıqlı bulağının adından alıb;

3. **Yaxın pir** – Söyüdlü kəndinin qəbiristanlığında yeri seçilən tək qəbirdi. Kimə məxsusluğu məlum deyil. Söyüdlü camaatının kəsərli inanc ocağıdır;

4. **Susdalıq piri** – Qazanzəmi ilə Söyüdlü kəndləri arasındakı Susdalıq kövşənində kiçik təpə üstə daş hərləməsi olan naməlum övliya qəbiridi. Pir öz adını kövşənin adından alıb;

5. **Təknur** – Təktüklü də adlanır. Qazanzəmi kəndinin şimal-şərqində eyni adlı konusvari təbənin tilində daş hasara alınmış qəbirdi. Qəbirin kimə məxsusluğu məlum deyil. Qəbir üstə ağcaqayın ağacı bitib. Ətraf meşəlikdi. Əliklər hasar ətrafındakı ağacların gövdəsinə buynuz sürtürlər. Kənd camaatı hər il Novruz bayramını burada qələbəliklə keçirir, qurbanlar kəsir, şənlik edirlər. Yeni ilin yaxşı gəlməsini, məhsuldar olmasını Ulu və Uca Tanrıdan diləyirlər;

6. **Hacanur** – Hacatüklü də adlanır. Təktüklü ilə yanaşı, qabaq-qənşər eyni adlı təpənin iki tili arasında yerləşən qəbirdi. Zirvənin tili dəvə hürgücü kimi iki kiçik təpəyə ayrılır. Hər iki təpə başında tək ağcaqayın ağacı bitib. İki təpə arasında hasara alınmış qəbir var. Ziyarətgahdı. Kimə məxsusluğu bilinmir. Ətrafı meşəlikdi. Burada da mövsümdən-mövsümə əliklər yaxındakı ağacların gövdəsinə sürtürlər. Buynuz sürtməkdən ağacların gövdələrinin qabıqları soyulub. Kənd camaatı Novruz bayramlarında Hacanura qurbanlar deyir, şənliklər keçirir, ilin məhsuldar olmasını ocaqdan dilək edirlər;



7. **Molla Abasqulunun qəbri** – Qazanzəmi kəndinin qəbiristanlığında yerləşir. Molla Abasqulu Qazanzəni kəndinin say- seçmə kişilərindən olub. Nəqsibəndiyyə təriqətinə müridlik edib. Namaz qıldığı yerdə soyğunçular tərəfindən qətlə yetirilib. Cənazə namazını Böyük övliya Şıx Hacı Qasım Çələbi qılıb. Qazanzəmi qəbiristanlığında dəfn olunub. Qəbir üstü sonralar oğlu Molla Mustafa Molla Abasqulu oğlu tərəfindən götürülüb. Qəbir kənd camaatının ziyarətgah yeridır;

8. **Çələbi qəbri** – Qazanzəmi kəndinin qəbiristanlığında yerləşir. Deyilənlərə görə Məhyəddin Çələbinin ötən əsrin ilk illərində Qazanzəmi kəndinə yaylağa qalxan, yeniyetmə oğlu qəflətən xəstələnib və burada dünyasını dəyişir. Kənd camaatının xahişi ilə mərhumun cənazəsi Həkəri sahilindəki Türk-Əfəndilər kəndinə aparılmayır. Qazanzəmi kəndinin qəbiristanlığında dəfn olunurb. Kənd camaatını ziyarətgahına çevrilib. Mərhumun uyuduğu qəbir "Çələbi qəbri" kimi anılır;

9. **Şıx Əzəddin ocağı** – Quru dərədə, Çullu kəndindən Həkəri sahilinə enən yolun kənarında daş hasara alınmış qəbirdi. Burada dövrünün tanınmış mömini Şıx Əzəddin Əfəndi dəfn olunub. Şıx Əzəddini Qazanzəmi camaatı özlərinin ulu babası hesab edir.Qəbrin ətrafı xırda meşəlikdi. Hasarın daşları üstə hər vaxt xınalı kəkliklər görsənir. İnanılmış ocaqdı. Cin toxunmuşlara, ürək keçməsi olan xəstələrə şəfa verir;

10. **Dərvişpirim** – Sınanmış pirdi. Həkəri sahilindən Gəyən düzünə qalxan eyni adlı yoxuşun başında, yaylaq yolunun altındakı kiçik təpə üzərində qəbirdi. Qəbrin tərki–

dünyalığı qəbul etmiş, sufi bir mömin bəndəyə, Dərvişpirim babaya məxsus olduğu söylənilir. Tumas oymaqları ilə yanaşı elat, tərəkəmə camaatının da inac ocağıdır. Yaylaq yolu üstə yerləşdiyindən yaylağa qalxanlar, arana qayıdanlar burada qurbanlar kəsir, özlərinə əmin-amanlıq diləyirlər;

11. **Şeyidlər** – Şəhidlər yerli şivədə belə adlanır. Köhnə yurd yerindən Gəyən düzünə köçmüş Dağmaşanlı kəndinin günbatanında yerləşən 7-8 topa qəbirdən ibarətdir. Sıx qəbirlər arasına əkmə daşlar düzülüb. Qəbirlərin üstə bitmiş sıx qaratikan kolları daşları görünməz edib. Qəbir üstlərinin tapdanmaması, heyvan dırnaqları dəyməməsi üçün kolluq toxunulmazdı. Qəbir üstləri keçilməz olub. Burada uzaq keçmişlərdə kafirlərə qarşı vuruşan zaman şəhid düşmüş mücahidlərin dəfn olunduğu söylənilir;

12. **Nəcəfqulu piri** – Başı kəsik künbəzdən 1,5 km qərbdə, aşağı Tumas kəndinin üst tərəfində yerləşir. Daşdan hörülmüş hasarı var. Hasarın içərisində yıxılı dağdağan ağacının iri gövdəsi hələ də durur. Deyilənə görə ağzı dualı bir kişi olan Nəcəfqulu adlı nirani dağdan arana qayıdarkən halı pisləşib, burada, bu dağdağan ağacının altında dünyasını dəyişib. Cənazəsi ana vətəninə aparılsa da nişangahı saxlanılıbdı. Ziyarətgaha çevrilib;

13. **Qız qəbiri** – Dağtumasdan Çaytumasa enən yolla Cədənin – el yolunun kəsişdiyi yerdə yerləşir. Burada böhtana salınaraq qardaşı tərəfindən qətlə yetirilən elat qızının dəfn edildiyi söylənilir. Günahsız olduğu bilinəndə qız qəbiri pirə çevrilib. Ümumiyyətlə, namus, ismət, izzət, iffət sahibləri kimi qız qəbirləri müqəddəsləşdirilir. Bu müqəddəslik qadın hüquqlarının tapdanmasına, haqsızlığa, böhtana qarşı üsyan kimi səslənir. Müqəddəslik simvolu kimi pirə çevrilir.

14. **Günbəz piri** – Dağtumas kəndindən 3 km cənubda Gəyən düzündə tökmə təpə üzərində günbəzdi. Üst örtüyü olmadığından o, başı kəsik künbəz də adlanır. Üzlük daşı ağdır. Günəş günbəzi hesab edilir. Hava uzun müddət yağmurlu keçəndə, yağış, çiskin kəsmək bilməyəndə günbəzdə



mal qurbanları kəsilir. Əti evlərə paylanır. Yağışın kəsməsi, günəş çıxması Günbəz pirindən dilək edilir.

**Haşiyə:** Eynən belə bir Başı kəsik günbəz də Ağdam rayonunun ərazisində, Xaçın çayının sol sahilində, Qaraman dağının ətəyində, Qızılı Kəngərli kəndinin qəbiristanlığında qərər tutur. Hər iki Başı kəsik günbəz haqqında eyni rəvayət danışılır. Rəvayət edirlər ki, Xaçın-Dərbənd kənd qəbiristanlığındakı Sarımusa günbəzini tikən usta günbəz yüksəyə qalxarkən Qızılı Kəngərli kəndində də belə bir günbəzin ucaldıldığını, gunbəzin günəş altında bərq vurduğunu görür. O mat- məəttəl qalır. Ustanın heyrətləndiyini görən şagirdi əhvalatı açıb ustasına söyləyir ki, həmin günbəzi gizli olaraq gecələr o tikir. Ustanın isə şagirdinə xainliyi tutur. Onu qətlə yetirir. Günbəz yarımçıq qalır. Dağtumas kəndindəki Başı kəsik günbəzi xəlvət tikən şagirdini də rəvayətə görə Qara günbəzi tikən ustası tərəfindən qətlə yetirilibdi. Son illər Başı kəsik günbəzdə bərpa işləri görülərkən günbəzin daş piltəli döşəməsi üstə kəllə sümüyü olmayan insan nəşinin sür- sümüyü aşkar edilmişdi;

15. **Tumas - Ata ziyarətgahı** – Eyni adlı dağın zirvəsində üzü günəşə dəfn edilən və daş hasara alınan qəbirdən ibarətdir. E.ə. VI-V əsrlərdə tayfa başçısı olan Tumas adlı ərən düşmənlərlə döyüçdə yaralanır. Yağı əlinə keçməmək üçün dağlara çəkilir. Qanı axa-axa dağın zirvəsinə qalxır və burada dünyasını dəyişir. Silahdaşları qan iziylə onun meyitini tapır və burada dəfn edirlər. Quraqlıq olanda, yağış yağmayanda camaat Tumas-Ataya qalxır, mal qurbanı kəsirlər. Tumas oymaqları, Qubadlının Xanlıq camaatı ildə ən azı bir dəfə Tumas-Atanı ziyarət edirlər. Tumas-Ata həm də arzu, istək, ümid xarakterli niyyətləri müstəcab edən pir kimi tanınır;

16. **Hacı Rəhim ocağı** – Dağtumas kəndinin qədim qəbiristanlığında daş hasara alınmış qəbirdi. Burada din alimi Hacı Rəhimin dəfn edildiyi söylənilir.

17. **Şərbatalı ocağı** – Dağtumasın qədim bağında daş hasara alınmış nəhəng gövdəli dağdağan ağacından ibarətdi. Dağtumas kənd sakini, Hacı Qaramanın təmsilçisi hesab olunan Sərbatalı adlı mömінin bu ağacın kölgəsində dini toplantılar keçirdiyi, ustadından öyrəndiklərini burada əhaliyə təlim etdiyi söylənilir;

18. **Üçqardaş piri** – Dağtumasın Tanqut bağında gövdələri bir-birinə söykənən üç nəhəng dağdağan ağaclarından ibarətdi. Diblərində bir zamanlar işıq şöləléndiyi, övliyalar oturduğu söylənilir. Pirdə niyyət duaları, dilәkləri oxunur;

19. **Düldül rəddi** – Dağtumas kəndinin cənub girəcəyində Kiçik kovun qaya keçidi üzərində surçaq şəkilli at ləpirindən ibarətdi. Ləpirin Həzrəti Əli (ə)-ın əfsanəvi Düldül atına məxsus olduğu söylənilir;

20. **Günəş-Ata** – Tumas - Atanın yeddi qardaşından biri hesab edilir. Çaytumas kəndinin yuxarı məhəllə qəbiristanlığının cənubunda, gündoğan çalasında dəfn edildiyi söylənilir. Qaratikan kolluğu və daş izləri qəbrin son nişanəsidir. Havalar yağmurlu keçəndə kənd camaatı Günəş - Ataya qurban deyər, gün çıxmasını ondan dilərlər;

21. **Çəpik-Ata** – Tumas-Atanın yeddi qardaşından ən kiçiyi hesab edilir. Çaytumas qaşı adlanan ərazidəki təpə üzərində qəbirdi. Çaytumas camaatı hər vaxt qəbiri ziyarətə qalxırlar;

22. **Sofiya nənənin yuyat yeri** – Çaytumas kəndinin ortalığında, aralıq yolun üstə daş nişangahıdır. Böyük övliya Şıx Hacı Qasım Çələbinin adıyla bağlıdı. Sofiya nənə onun anası olub. Deyilənə görə Sofiya nənə Çaytumas kəndində dünyasını dəyişdiyindən nəşi burada qüsl edilib kəfənə tutulub. Mübarək nəşi isə Hacı Qaraman məzarlığında dəfn edilib;

23. **Salahan baba** – Hacı Qaramanın cənazə namazını qılmış ürfan sahibi olub. Qəbri Mərdanlı kəndinin yuxarı başında, Akara-Laçın magistiralının üstə yerləşir;



24. **Kosa Qənbər** – Dağtumasla Xanlıq kövşənlərinin sərhəddində, Gəyən düzündə, Qara qayanın ardında təpə üstündə daş hasara alınmış qəbirdi. Burada Kosa Qənbər adlı ruhani, mömün bir şəxsin dəfn olunduğu söylənilir. Kəramətli pirlərdən hesab olunur;

25. **Çələbi damı** – Qubadlı rayonunun Əfəndilər kəndində yerləşir. Bir zamanlar böyük övliya Şıx Hacı Qasım Çələbi bu damda yaşamışdı;

26. **Ardıc piri** – "Pir dayı" da adlanır. Qarağac kəndindən 1 km cənubda qurulmuş, lakin hələ yıxılmamış iri gövdəli ardıc ağacından ibarətdir. Qəbir yeri bilinməsə də barada, ağacın dibində adı naməlum övliyanın dəfn olunduğu söylənilir. Ətrafda ərəb əlifbası ilə yazılı daş kitabələrə təsadüf edilir;

27. **Həzrət Əli səngəri** – Gizgə dağının gündağan yamacında uzunluğu 50 m, hündürlüyü 1 m olan daşdan hörülmə divardı. Rəvayətə görə Həzrət Əli (ə)-nın qoşunu bu səngərdən istifadə edərək kafirlərlə döyüşmüşdü;

28. **Hacı Qaraman ocağı** – Çələbilər kəndindən 0,5 km cənubda - Gəyən düzünün Gizgə dağına söykənəcəyində eyni adlı məzarlıqda daş hasara alınmış qəbirdi. Hasarın qapısında Qara daş, içində ardıc ağacı var. Burada zəmanəsinin böyük övliyası, din xadimi Hacı Qaraman dəfn olunub. Böyük hikmət ocağıdır;

29. **Gül ocaq** – Çələbilər kəndində Hacı Qaramana məxsus qədim Qara damın ocaq yeridi. Dəfələrlə ocaq yerindən gül bitməsi, çiçək açması müşahidə olunub. Qara damın bir möcüzəsi də orta dirəyinin hələ də yerində olmasıdı. Bu dirəyin indi ancaq kol bitkisi kimi rast gəlinən topurqulu ağacından yonulması bildirilir;

30. **Çələbi damı** – Çələbilər kəndində yerləşir. Bu damda zaman-zaman böyük övliyalar- Böyük Çıx Hacı Alı Çələbi və oğlu, təriqət davamçısı Şıx Hacı Qasım Çələbi yaşamışlar;

31. **Lələ piri** – Çələbilər kəndində gövdəsi daş hasara alınmış sıx yarpaqlı tünd-göy qabıqlı dağdağan ağacından ibarətdir;

32. **Böyük Şıx Hacı Alı Çələbinin qəbir hasarı** – Hacı Qaraman məzarlığında yerləşir. Hasarda Hacı Qaraman övladı, XIX əsrdə yaşamış təriqət rəhbəri, mürşidi-kamil Böyük Şıx Hacı Alı Çələbi dəfn olunub;

33. **Böyük övliya Şıx Hacı Qasım Çələbinin hasarı** – məşhur Hacı Qaraman məzarlığında yerləşir. Hasarda təriqət rəhbəri, mürşidi-kamil, Hacı Qaraman övladı, XIX-XX əsrin qovşağında yaşamış böyük övliya Şıx Hacı Qasım Çələbi dəfn edilib;

34. **Düldül rəddi** – Ənsər bulağından 30-40 m yuxarıda yastı sal daş üzərində eyni ölçüdə, eyni biçimdə 8 at ləpiridi.Ləpirlərin əfsanəvi Düldülə məxsus olduğu söylənilir;

35. **Pirəsəd** – Hacı Qaraman ocağından 0,5 km gündoğanda Dağtumas-Hovuslu yolunun sağ kənarında eyni adlı qəbirdi. Burada dəfn olunan el ağsaqqalı Əsədi Sofulu camaatı özlərinin piranisi, ulusu sayırlar;

36. **Çələbinin məqam yeri** – Pirəsəddən bir neçə yüz metr cənubda Dağtumas-Hovuslu yolunun dolayı üstə daş qalağından ibarətdir. Gündoğan istiqamətindən gələn yolçunun ilkin olaraq Hacı Qaraman ocağını bu yerdən gözü alır. Səfərlərindən qayıdan Şıx Hacı Qasım Çələbi həmişə bu yerə çatanda durar, ulusu Hacı Qaramana üz tutub dua verərmiş;

37. **Yazılı daş** – Daş piri də deyilir. Qədim yaşayış məskənin olmuş Yalyurddakı Qulu bulaqının növü və onun üzərindəki yazı nəzərdə tutulur. Daş kitabə böyük Şıx Hacı Alı Çələbi tərəfindən yazdırılmış Quran ayəsidir;

38. **Böyük Şıx Hacı Alı Çələbinin zikir yeri** – keçmişlərin yaşayış məntəqəsi olmuş Təzə Bazavuzda daş nişangahdır. Deyilənə gürə yay aylarında burada dincələn Böyük Şıx Hacı Alı Çələbi bu yerdə zikrə dalarmış;



39. **Cingir nənə və ya Cingir bulaq piri** – Keyxalı kəndi ilə Niyazqulular arasındakı yolun üstə, qarquluqlu dərədə iki lağımı olan bulaqdır. Şəfalı suyu olduğundan dəri xəstəliyi olanlar niyyət edib üç çərşənbə burada suya girərlər, şəfa taparlar. Lağımların sonu görünmür. Yosunlardan su damcılayır. Zınqıltılı səsdən uğultu yaranır. Rəvayət edirlər ki, lağımlardan biri Hacı Qaraman, digəri isə Mazan nənə istiqamətində uzanır. Daşları sarı rəngə boyanır. Görünür suyun tərkibində kükürd var;

40. **Qasım nişangahı** – Cingir bulağının qabağında daşdan nişangah var. Deyilənə görə Şıx Hacı Qasım Çələbi Cingir bulağının suyu ilə abdəst alıb, burada namaza durubdu;

41. **İncirli piri** – Əhmədli oymağı olan İsaxlı kəndinin baş tərəfindəki yamacda daş hərləmədən ibarətdir. Vaxtı ilə daş hərləmənin içərisində incir ağacı olub. İndi ancaq kötüyü bildirir. Deyilənə görə burada din uğrunda mübarizə aparan mücahid qətlə yetirilib. Lakin hasar içində qəbir yeri bilinmir. Pirə niyyətlər edir, nəzir- niyaz qoyulur. Əsasən isə hasar içərisinə vəhşi quşlar üçün dən səpilir;

42. **Qarağaclı piri** – Şahvəlli kəndinin ayağında Qarasu adlanan ərazidə balaca təpə üstə, ortası otlaq olan daş hərləmədən ibarətdir. Ətrafında çoxlu qarağac olduğundan Qarağaclı piri adlanır. Deyilənə görə bura şəhid düşmüş mücahidin nişangahıdır. Qəbir yeri bilinmir;

43. **Qızlar piri** – Şahvəlii kəndində köhnə poçtun arxasındakı dərədə daş hərləmədən ibarətdir. Şəfa paylayan qızlar piri də adlanır. Burda mücahidlərə yardım göstərən cüt bacının qətlə yetirildiyini deyirlər. Lakin hasar içində qəbir izləri yoxdur;

44. **Əli Çələbinin nişangahı** – Şahvəlli-Hacı İsmayıllı yolu üstə daş topasıdı. Bura Əli Çələbinin ZİM maşınını saxladıb camaatla görüşdüyü yerdi;

45. **Yaldakı pir** – Şahvəllinin köhnə poçt yerindən İsaxlı oymağına aşan yalın tilində daş topasıdı. Buradan Hacı

Qaraman ocağı görsənir. Ürəyində niyyəti olanlar dikə qalxıb Hacı Qaramana üz tutur, dua edirlər, istəklərini ocaqdan diləyirlər;

46. **Çıx Sədi piri** – Hacı İsmayıllı kəndinin qəbiristanlığında içi otlaq olan daş hasardan ibarətdir. Qəbir izi yoxdur. Deyilənə görə keçmiş zamanlarda eyni adlı övliya burada namaz qılıbdı;

47. **Çinar piri** – Çay yatağındakı böyük çinarın 5-6 metrliyində daş topasıdı. Burada yatmaq yasaqdı. Deyilənə görə həmin yerdə bir mömin bəndə qətlə yetirilib. Lakin qəbri orada yoxdur;

48. **İydəli piri** – Qoşabulaq kəndindən Aşağı Siriyə gedən yolun üstə, Qamışlı dərədə yerləşir. Gövdəsi çarhalqa daş hərləməsinə alınan iydə ağacından ibarətdir. Həmin ağacın kölgəsində Əli Çələbinin dincəldiyini söyləyirlər. Qoşabulaq camaatı ürəklərində niyyət tutub həmin ağacın budaqlarına ip, sap, rəngbərəng parça qırıqları bağlayırlar;

49. **Çələbi damı** – Aşağı Sirik kəndində yerləşir. Hal-hazırda üstü torpaq bərabərindədir. Ancaq divar və dirəkləri durur. Damın Böyük Şıx Hacı Alı Çələbiyə məxsus olduğu söylənilir;

50. **Mirim ocağı** – Şahvəli-Tinli yolunun solunda, İsaxlı oymağının qəbiristanlığı ilə yol arasındakı kiçik təpə üstədir. Daş hasara alınmış qaramıx kolundan ibarətdir. İsaxlı camaatı niyyət edir, kolun qanadlarına, ləläklərinə rəngbərəng parça qırıqları bağlayırlar;

51. **Ağhərəm piri** – Göyərçin Veysəlli kəndinin şimal-şərqində eyni adlı kəhrizin yanında, qədim karvan yolunun üstədir. Daş hasardan və hasar içində həcmi 1 kvadrat metr olan qara daşdan ibarətdir. Hasarın girəcək qapısı şimaldandır;

52. **Şeyid daşı** – Ağhərəm hasarının 5-10 metrliyində yerləşir. Burada din uğrunda vuruşub şəhid düşən mücahidin dəfn olunduğu söylənilir;



53. **Yalaşan piri** – Göyərçin Veysəlli kəndinin köhnə yurd yerində daş qalağından ibarət hasardı. Deyilənə görə burada Şıx Hacı Qasım Çələbi namaz qılıb. Camaat tərəfindən ziyarətgaha çevrilib;

54. **Rəsul ziyarərgahı** – Göyərçin Veysəlli kəndinin qəbiristanlığının yaxınlığındakı küfüldən və içindəki daş nişangahdan ibarətdir. Burada vaxtılə öz mömınliyi, halallığl ilə seçilən, Şıx Hacı Qasım Çələbinin duyumlu müridlərindən olmuş Rəsul kişi yaşayıb. Onun namaz qıldığı yerə nişangah qoyulub və ziyarətgaha çevrilib;

55. **Göytəpə nişangahı** – Göyərçin Veysəlli ilə Keyxalı kəndlərinin arasından keçən qədim karvan yolunun kənarındakı təpə üstə yerləşir. Nişangah hərrəmə daş qalağından ibarətdir;

56. **İmmi ocağı** – Keçəlməmmədli kənd sakini Nəcim İsmayıl oğlunun həyətyanı sahəsində hasara alınmış ocaq yeridi. Yel ocağı da adlanır. Bura İmmi adlı mömin bir qadının dam yeri olub, ziyarətçilər burada şam yandırır, torpağından bədənlərinin ağrıyan nahiyələrinə sürtürlər. Deyilənə görə İmmi ocağında gecələr öz-özünə işıq şöləsi müşahidə olunur . Yaxınlaşanda işıq sönür, aralananda təkrar yanır;

57. **Qız Perxan ocağı** – Keçəlməmmədlinin Abaslı kövşənində, Alıkeyxalı- Cəbrayıl yolunun altında yerləşir. Ocaq ətrafına daş düzülmüş çala yerindən və çala içərisində insan şəklinə bənzər daş parşasından ibarətdir. Quraqlıq vaxtında torpağından suya atanda yağış yağdığını, afat vaxtı torpağından qabağına sovuranda çəyirtkə sürüsünün geri döndüyünü söyləyənlər var. Rəvayət edirlər ki, Arazın o tayında Perxan adlı gözəl bir qız aldadılaraq idbar sifətli bir qocaya ərə verilir. Ərini gərdəyə girən və aldadıldığını görən Perxan ona yalan sataraq bayıra çıxır. Baş götürüb gecəykən Arazın bu biri tayına adlayır. Dan üzü ağaranda özünü bu yerdə tək-tənha görür, çoban-çoluq əlinə düşməməsi üçün Allaha üz tutur. Sidqi-urəkdən Allahdan dilək edir ki, onu daşa döndərsin. Böyük Yaradan onun diləyini eşidir.

Qız daşa dönür. Əlində tutduğu yaylıq yerə düşür. Qızı soraqlayıb axtaranda onu yaylığından tanıyırlar;

58. **Məhəmməd ocağı** – Soltanlı kəndinin köhnə yurd yerində, Əmirvarlı-Soltanlı arasında, dəmiryolunun üstəki ipək bağının küncündə qara dam yeridi. Damın qazma yerində üstünə Quran ayəsi yazılmış daş parçalar var. Soltanlı camaatının ziyarət yeri, inanc ocağıdır;

59. **Sarı Mərmər nənə** – Hasanlı qəbiristanlığında qədim qəbirdi. Camaat Sarı ləqəbli Mərmər nənəni Mazan nənənin anası hesab edir;

60. **Mazan nənə ocağı** – Diri dağının ən uca zirvəsinin gündoğan yamacında yerləşir. Daş hasar içində dairəvi hörgülü qəbirdən ibarətdir. Qəbirin Mazan nənəyə məxsus olduğu söylənilir. Mazan sözünün açması bizim üçün qeyri müəyyəndi. Nənə isə qədim türk tayfalarında Allahlar anasına verilən addı. Tarixçilər tərəfindən Mazan nənə ocağı sonralar İslam dininə uyğunlaşdırılmış ziyarətgaha çevrilsə də anaxaqanlıq dövrünün yadigarı kimi qiymətləndirilir. Məşhur İlan ocağının varisi kimi ad çıxarmış Qumlaq kənd sakini Sofu Usub baba deyərmiş ki, Mazan nənə ocağı " Nuh tufanı " dövründə mövcud olub. Ocağın ətrafı çinar, saqqız, dağdağan, əncir, nar, meynə ağacları ilə əhatə olunub. Qəbir divarına söykənən dağdağan ağacının gövdəsi ziyarətə gələnlərin niyyət edib parça qırıqları bağladığı və mıx çaldığı nişangahdı. Ziyarərçilər əsasən çərşənbə günləri, pak halda ocağa gəlirlər. Əvvəl hasarın başına üç dəfə hərlənər, daşları öpər, pıçıltı ilə öz hacətlərini ocaqdan diləyərlər. Sonra ayaqqabılarını soyunar, hasarın içərisinə daxil olarlar. Burada da daşları öpə-öpə qəbrin başına üç dəfə dolanar, niyyətlərini təkrarlar, nəzir-niyazlarını qəbir üstə qoyarlar. Qəbir divarının imkan, çıxıntısı olan daşları üstə niyyət şamı yandırarlar. Nəzir deyilmiş və buraya gətirilmiş qoç, quzu, keçi, hinduşka və ya toyuq, xoruz qurbanlıqlarını kəsər, bişmişindən və ya çiyindən ziyarətçilərə paylayarlar. Qayadan süzülən şəfalı bulaq suyundan çay dəmlər, içər,



sonra da sudan qab-qacaqları doldurub geri dönərlər. Sofi Usub babanın sonuncu varisi Sofi Bilalın deməsinə görə əvvəllər qəbrin ətrafında daş kündələr, daşdan yayma lavaşlar olub. Sonralar isə onlar yoxa çıxıbdı;

61. **İncir piri** – Diri dağının günbatan ətəyində yerləşir. Böyük gövdəli incir ağacından və onu dövrəyə alan daş hərləmədən ibarətdir. Əsasən bu pirə ilan vuranları aparırlar;

62. **Dağdağan piri** – Sunq dərəsinin Dərbənd adlanan dar və su axan daşlı keçidindən sonra gələn Diri dağının "Böyük qarağaclı" adlanan talasında ucalan nəhəng və iri gövdəli dağdağan ağacından ibarətdir. Ətrafında heç bir hasar və ya daş düzümü yoxdur. Ziyarətçilər eləcə ağacın kölgəsində oturar, öz dualarını edər, Ulu və Uca Tanrıdan özlərinə şəfa diləryər;

63. **Saqqız piri** – Qumlaq kəndinin ortalığında, kənd mağazasının böyründə yaşı bilinməyən yoğun gövdəli saqqız ağacından ibarətdir. Mənşəyi məlum deyil. Vədi olanlar ağacın haçasına nəzir-niyaz qoyub niyyət edərlər;

64. **Dərzili piri** – kənd qəbiristanlığının kənarında daş hərləməli nazik gövdəli dağdağan ağacından ibarətdir. Çərşənbə günlərində sonsuzluğu olan qadınlar pirə gələr, niyyət edərlər. Ağacın budaqlarından yüyürcəklər asarlar. Bir qisim ziyarətçilər isə ocaqdan uzaqda olanlarına şəfa diləyərlər;

65. **Uşaq piri** – Dərzili kəndindən şimalda, 100-150m Mahmudlu - Akara asfalt yoluna yaxın məsafədə yerləşir. Ağac kötüyündən və onu hərləməyə alan daş hasardan ibarətdir. Əlil, xəstə uşaqları hasarın başına dolandırır, nəzir qoyur, qurban deyirlər. Uşaq şəfa tapdıqda, niyyətləri hasil olduqda ziyarətçilər vədlərinə əməl edirlər;

66. **Yel piri** – Ceyran düzündə yerləşir. Dərzili-Tinli yolunun gündoğanında bitən dağdağan ağacından və onu içərisinə almış daş hasardan ibarətdir. Yel xəstələri həmin hasarın başına dolanar, ağacın kölgəsində yatarlar. Ağrıyan ətraflarına hasarın daşlarından qoyarlar. Dağdağanın budaq-

larından kəsib muncuq düzəldər, xəstə uşaqların boynundan asarlar. Habelə, quru çör-çöpündən yığar, üzərlik, pişik tükü, dəvə yunu, soğan qabığı və duzla birgə yandırar, xəstə və qorxusu olan uşaqları həmin alovun tüstüsünə verərlər;

67. **Dirili Qurbaninin qəbiri** – Qurbanlı piri də deyilir. Daş düzümü ilə hasara alınmışdır. Qəbir Diri dağının Araza sallanan yamacında, st. Xələfli kəndinin gündoğanında, dəmir yolu keçən tunelin üstündəki hündür təpənin aşırımında yerləşir. Haqq aşığı olduğundan Aşıq Qurbaninin qəbiri ziyarətgaha çevrilib. Bu qəbirdən Araz çayına doğru eni 1 m olan, yanlarına çay daşları düzülmüş cığır uzanır. Bu da dastanda göstərilən təsvirlərə çox uyğun gəlir. Pirə əsasən duz, çərşənbə günləri ziyarət edirlər. Xoruz, erkək qurbanları kəsirlər. Novruz qabağı, İlaxır çərşənbə günlərində pirə daha çox ziyarətçilər gəlir;

68. **Dirili Qurbaninin II qəbiri** – buna da Qurbanlı piri deyilir. Məzar st. Xələfli kəndinin qərbində, Mazan nənənin qəbrindən təxminən 100 metr gündoğanda, Diri dağının əsas zirvəsində yerləşir. Camaat əsasən pir kimi birinci qəbiri ziyarət edir. Mazan nənəni ziyarətə gələnlər mütləq Qurbaninin buradakı 2-ci qəbrinə də baş çəkər, Dirili Qurbanini bir daha yad edərlər;

69. **Seyid Alının Yel piri** – Soltanlı kəndi ilə Əmirvarlı kəndinin arasında, nisbətən şimalda, Yantəpədə kiçik diametrli daş düzümü olan hasardı. Yel xəstəliyinə tutulanlar bu hasarın başına dizin-dizin hərlənir, Allahdan özlərinə şəfa diləyir, pirin vəsilə olmasına, şəfa tapmalarına arzu-dilək kimi baxarlar. Əsasən Soltanlı və Əmirvarlı camaatının inac göstərdiyi ocaqdı;

70. **Üç qardaş piri** – Sarıcallı ilə Aşağı Məzrə kəndləri arasında təpəcikdə kökdən ayrılma üç qanad, üç çinar ağacından ibarətdi. Pirə niyyət edilir, qurbanlar kəsirlər;

71. **Ləngi Əhməd piri** – Şıxalıağalı kəndi yaxınlığındakı qədim Bekavıl oymağının yurd yerinin arxasında, Bekavıl çaylağının gündoğanında yerləşir. Eyni adlı bulağın başındakı nəhəng gövdəli çinar ağacından və dibində 6-7 qırmızı rəngli daş parçalarının toplu qalağından ibarətdir. Pirə niyyəti olanlar həmin daşlar üstündə şamlar yandırırlar;

72. **Mirmustafa piri** – Sarıcallı kənd sakini İbi Paşa oğlunun həyətyanı sahəsində yerləşir. Buranın kəndin ulusu Mirmustafa adlı möminin məqam yeri olduğu söylənilir. Nişanə olaraq həmin yer daş hərləməyə alınıb. Əvvəl hərləmənin içində iri qarağacın olduğu, sonralar quruyub məhv olması söylənilir;

73. **Dalaq daşı** – Şükürbəyli kəndinin kövşənində Quycaq dağı deyilən yamacda, hündürlüyü 1 m-dən artıq olmayan prizma şəkilli daşdır. Daşın bir üzündə yaraqlı atlı və vəhşi heyvan şəklinin cizgiləri var. Dalağı, qara ciyəri ağrıyan və ya şişən xəstələr niyyət edib daşın dibinə duz bastırırlar. Sonra isə qarın boşluğunda ağrıyan nahiyələrini həmin daşa sürtürlər;

74. **Şıx çinarı** – Şükürbəyli qəbiristanlığının günbatanındakı eyni adlı dərənin ayağında koğuşunun çevirməsi 5-6 metrə çatan nəhəng çinar ağacıdır. Bu çinara adı deyilməyən imamın at bağladığı söylənilir. Ziyarətçilər çinarın koğuşuna girərək Allahdan dilək edirlər;

75. **Divanə - Maqsud ocağı** – Şükürbəyli qəbiristanlığından 200 m şərqdəki kiçik təpə üstə yerləşir. Ocaq hərləmə hasardan və içərisində eni 30 sm-ə, hündürlüyü 0,7 metrə yaxın olan büt daşdan ibarətdir. Ocaq Maqsud adlı ürfan sahibinin məqam yeri sayılır. Əsasən cin toxunmuşlar, övlad əhdində olanlar bu ocağa ziyarətə gəlir. Hasarın qarşısındakı yastı daş üstündə şam yandırır, arzu-diləklərini dilə gətirirlər. Ulu və Uca Tanrıdan səfa istəyirlər;

76. **Ziyadxan piri** – Füğanlı kəndinin şimal-qərbində eyni adlı yalın tilində qəbirdi. Qəbir daş hasara alınıb. Hasarın içərisində dağdağan ağacı var. Qəbrin Ziyadxan adlı ütfan sahibinə məxsus olduğu bildirilir. Əsasən pirin ziyarətinə

övlad həsrətində olan qadınlar gəlir. Onlar niyyət edib ağacın lələklərinə ip,sap bağlayır,yüyürcəklər asırlar;

77. **Həvəzə Çələbinin nişangahı** – Füğanlı kənd sakini Tapdıq Rza oğlunun evinin arxasında daş nişangahıdı. Vaxtı ilə kənddə müsafir olmuş Həvəzə Çələbi burada namaz qılıb, Ulu və Uca Tanrıya dualar edib;

78. **Düldül rəddi** – Balyand kəndi ərazisindəki Xalac dağının ətəyində, Balyand irəməsi adlanan kövşəndə yerləşir. Daş üzərində at rəddidir. Pir 50-ci illərdə dağıdılıb. Üzərində at rəddi olan yerə batmış qara daş iki yerə parçalanıb. Yenidən bərpa olunub. 1990-cı ildə Balyand kənd sakini Musa Hüseynqulu oğlu ləpirli daşı səliqəli hörgü ilə hasara aldırıb. Ətrafında abadlıq işləri gördürüb;

79. **Xırxa ocağı** – Balyand ilə Qaracallı kəndləri arasındakı Çaqqalaşan adlı yalın gündoğanında yerləşir. Ocaq iki yerə ayrılmış iri daş qalağından və qalaq üstə tökülmüş quru dağdağan ağacının qol-budağından və ağacın kök yerindən boy atmış 4-5 dağdağan pöhrəsindən ibarətdir. Daş qalağının ortasından cığır keçir. Ziyarətçilər niyyət edib bu cığırdan keçir və daşlar üzərinə nəzir-niyaz qoyurlar. Ziyarətə daha çox sonsuzluğu olan qadınlar gəlir. Övlad diləyi edib ağacın lələklərindən yüyürcəklər asır, ip, sap, parça qırıqları bağlayırlar;

80. **İsbiri ocağı** – Balyand kəndinin qabağındakı Kollukənd adlanan köhnə qışlaq yerində yerləşir. Topa bitişli qaratikan kolluğundan ibarətdir. Kollara əsgilər bağlanır, niyyət edilir. Ocağın ən çox torpağından istifadə olunur. Bədənində ağrısı, yarası olanlar bura gəlir. Pirin torpağından yara yerlərinə, ağrı nahiyələrinə sürtürlər;

81. **Çinar piri** – Balyand bağının aşağı başında qocaman çinar ağacıdı. Çinar Sovet hakimiyyətinin ilk illərində işğalçı qırmızı ordu hissəsinin əsgərləri tərəfindən partladılıb. Lakin sonralar kötüyündən pöhrə çinarlar bitib ucalıblar. Kənd camaatı quraqlıq zamanı çinar dibində qurbanlar kəsir, yağış yağdırmasını ocaqdan dilək edirlər;



82. **Qara Molla piri** – Daşkəsən kəndinin cənub girəcəyində iki quru çaylağın qovşağında yerləşir. Daş hasara alınmış, qabıq qoymuş qos-qoca saqqız ağacından ibarətdir. Hasarın girişindən içəri tərəfdə ocaq yeri və ətrafında daşlar var. Ziyarətçilər daşlar üstə şam yandırır, niyyət edib ağacın qanadlarına parça qırıqları bağlayırlar;

83. **Lələ piri** – Cocuq Mərcanlı kəndinin Lələ düzü adlanan kövşənində yerləşir. Daş hasara alınmış yabanı armud ağacından ibarətdir. Pirə niyyət edilir, qurbanlar kəsilir. Deyilənə görə bura Aşıq Lələnin məqam yeri olubdu;

84. **Qız qəbri** – Mərcanlı kəndinin qəbiristanlığındadı. Burada böhtan atılmış və qətlə yetirilmiş qızın dəfn edildiyi söylənilir. Günahsızlığı bilinəndə qız qəbri saflıq, ismət, təmizlik rəmzi kimi müqəddəsləşdirilib;

85. **Bəylər ocağı** – Qara dərənin Araz qırağına açılan düzündə, Qaradiz-Akara şossesinin altında yerləşir. Qədim yurd yerinin çalasında ölçüləri təqribən 0,8 m x 0,6 m x 0,3 m olan prizma şəkilli daşdan və daş hərləmədən ibarətdir. Ziyarətçilər niyyət edib həmin daş üstə nəzir-niyaz qoyurlar;

86. **İsbiri piri** – Şəybəy kəndinin kəhrizi ilə məktəb binası arasında, çaylağın gündoğanında yerləşir. Enli daş hərləməsindən və onun içərisindəki kiçik daş hərləməsinin ortasında qoyulmuş iri həcmli dəmir kasadan ibarətdir. Niyyəti olanlar kasada piltə yandırır. Pirə ən çox dəri xəstələri, əzalarında ağrısı olanlar pənah gətirir. Pirin daşlarından xəstələr ağrıyan bədən nahiyələrinə sürtməklə şəfa tapmaları söylənilir;

87. **Mirim evinin ocağı** – Quycaq kəndinin aşağı başında yerləşir. Köhnə yurd yeridir. Üstünə çovustan vurulub. Evin ortasında üstə əski əlifba ilə yazıları olan daş kitabələr var. İldə bir dəfə təxminən yanvar ayının 15-17-si arası burada dini mərasim keçirilir. Hər evdə xoruz kəsilir. Aş bişirilir. Düyü məcməyiyə çəkilir. Xoruz əti də bütövlükdə yanına qoyulur və ocağa aparılır. Ocaqda müjəvir tərəfindən aşlar bir-birinə qarışdırılır. Qarışıqdan hər evin qabına pay qoyu-

lur. Qarışıq aşlar ancaq evdə yeyilir. Qarışıq evə gətirilməyincə hətta, evdəki aşın həlimi belə içilməməlidir. Bundan başqa ocaqda bişmiş qurbanı da paylanır. Belə ki, vəd edənlər qurban dedikləri erkəyi ocağa gətirirlər. Müjəvir qurbanlığı kəsir, ətini doğrayıb qazana tökür. Sümük ətdən çıxana və bişmişin suyu tam quruyana qədər qaynadılır, sonra isə bişmiş təmiz süzülür. Ət qaşıqlanaraq yuxa arasına yığılır və ocağa gələnlərə paylanır. Bişmiş qurbanıq ayini Horovlu camaatı tərəfindən də icra olunur. Bişmiş qurbana Mustafa qurbanı da deyilir. Qurbanlığın sümükləri, qazılaraq torpağa basdırılır;

88. **Yel piri** – Cəfərabad və Çapand kəndlərinin günbatanındakı çaylağın kənarında ucalan nəhəng gövdəli çinar ağacından və ağacın dibindən axan müalicəvi əhəmiyyəti olan, həm də suyu içilən bulaqdan ibarətdir. Bulağın palçığından yel ağrılarını götürmək üçün istifadə edilir. Palçıq ayağa və ağrısı olan ətraflara sürtülür. Habelə, bulağın suyundan içməklə şəfa tapırlar. Pir Cəfərabad, Safarşa, Horovlu, Çapand camaatının inanc yeridi. Hər ilin axır çərşənbəsində camaat pirə toplanır. Gecəni burada keçirirlər. Niyyət edib çinarın budaqlarına, əl çatan ətəklərinə iplər, parça qırnıqları bağlayırlar. Bir-birlərini gətirdikləri sovqatlara qonaq edirlər;

89. **Sarı ocaq** – Horovlu kəndinin aşağı başında, dərənin gündoğan yamacında, kənd qəbiristanlığının altında, Pətəkli məhəlləsində yerləşir. Təxminən 6m x 4m x 1,8m ölçülü düzbucaqlı şəklində büt daşından hörülmüş hasardı. Hasarın içərisində hündürlüyü təqribən 0,3m olan kvadrat hasar və kvadrat hasarın içərisində 0,4m hündürlüyündə kələ-kötür qara daş var. Deyilənə görə Sarı adlı bir seyid övladı qarlı-boranlı qış günü Horovlunun köhnə yurd yerinə, Mollalıya çata bilmir. Yorulur, yarı yolda qalır. Həmin bu qara daşın yerinə mıx çalaraq atını burada hörükləyir. Özü də Allahı çağırıb mıxın dibindəcə qış yuxusuna gedir. Gecə qar yağır. Atın hörük ipinin radiusu boyunca çevrəyə qar düş-



mür. Seyid müsafirlərinin bu möcüzəsini görən camaat Sarı seyiddən nişanə kimi buranı inac ocağına çevirirlər. Qara daşın söykəyinə ələm ağacı basdırırlar. Nəql edirlər ki, Sovet dönəmində kolxoz sədrinin sürücüsü İzzət Aman oğlu rəhbər göstərişi ilə məcburiyyət qarşısında qalaraq ələm ağacını ocaqdan çıxarıb atır. Lakin həmin gecə naməlum pirani tərəfindən sillələnən İzzət Aman oğlu tövbə edərək elə həmin gecə ələm ağacını aparıb yerinə basdırır. Əsasən ocağa ağzı əyilənlər, cin toxunmuşlar kimi xəstələr gətirilir. Sarı ocağın 2 metrliyində daha bir nişangah var. Deyilənə görə burasa atın alığı qoyulan yerdi;

90. **Yemişan piri** – Papı kəndinin girəcəyində "Qaradağlı yurdu" adlanan keçmiş əkin sahəsində yerləşir. Pir yemişan kolundan və onun dibinə yığılmış daş qalağından ibarətdir;

91. **Seyid Fərzəlinin qəbri** – Papı kəndinin Hacı İmamverdilər məhəlləsinin qəbiristanlığında yerləşir. Qəbir XIX əsrdə yaşamış Qoçəhmədli Seyid Həsənin oğlu Seyid Fərzəliyə məxsusdur. Seyid Fərzəli Papı kəndində yaşamış və burada dünyasını dəyişmişdi. Öz comərdliyi ilə ad çıxaran seyidlərdən olub. Niyyəti olanlar qəbir üstə şam yandırırlar;

92. **Qarnıyarıq piri** – Horovlu kəndinin mərkəzi hissəsində, Orta kəhrizin 20 m-də bitən, nəhəng gövdəli, iri diametrli koğuşu olan bir kötükdən çıxma üç qanad çinar ağacından ibarətdir. Çinarın koğuşuna 5-6 adam yerləşir. Novruz bayramlarında, ilaxır çərşənbələrində niyyəti olanlar çinarın koğuşunda qara çıraq yandırırlar. Ümumiyyətlə,Qarnıyarıq pirə niyyət edənlər ziyarətə çərşənbə günləri gəlir;

93. **Yemişan piri** – Çapanddan Horovluya uzanan dərənin başında yerləşir. İri yemişan ağacından və ağacın dibinə yığılmış daş topasından ibarətdir;

94. **Hacı Axund məscidinin yeri** – Soltanlı kəndinin köhnə məktəb binasının arxasında, ipək bağı ilə kanal arasında kiçik sahədi. Burada vaxtı ilə Hacı Axund məscid bi-

nası tikdirib. Çoxsaylı müqəddəs kitablar toplanan məscid 30-cu illərdə allahsızlar cəmiyyətinin üzvləri tərəfindən dağıdılmış, kitablar yandırılmışdı. Məscid yeri əkin sahəsinə çevrilsə də məscidin kalafa yerində əkilən ağac, pambıq kolları cücərməmişdi. Yer xam qalmışdı. Camaatın inam, inanc yerinə çevrilmişdi;

95. **İncir piri** – Qovşudlu kənd sakini Adıgözəl Adil oğlunun evinin arxasında, Burnukəsik dağın güney yamacında 2-3 sotluq incirli sahədir. Sahə sıx incir ağacları ilə örtülmüşdü. İncirlik dörd yandan böyürtkən, həməsür kolları ilə əhatə olunub. Pir sayıldığından ağaclar toxunulmazdı. Böyüyüb quruyan budaqlar da yerində qalıb çürüyür. Burdan çıxan çeşmə suyunun müalicəvi əhəmiyyəti var. Dəri xəstəliyi olanlar bu sudan istifadə edirlər. Bura həm də Hacı Qaramanın qənşəridi. Əsasən çərşənbə günlərində kənd camaatı ocağı ziyarətə gəlir;

96. **Armud piri** – Qoturlu kövşənində, Qovşudlu kəndinin köhnə yurd yerində daş hərləməsi olan iri yabanı armud ağacından ibarətdir. Ziyarətə gələnlər ağacın qol-budağına ip, sap, parça qırıntıları bağlayıb niyyət edirlər;

97. **Qara oyuq** – Qovşudlu kəndinin eyni adlı kövşənində yerləşir. Hündürlüyü 1 metr olan yerə bitili qara dik daşdır. Qara daşın hərləməsi var. Ziyarətə gələnlər bədənlərinin ağrıyan nahiyələrini həmin daşa sürtür, ocaqdan özünə şəfa diləyirlər;

98. **Yel piri** – Tinli kənd sakini Göyçək arvadın qara damının ocaq yeridi. Yel xəstəliyi olanlar niyyət edib həmin ocağın başına hərlənirlər. Nəsil nümayəndələri daha doğrusu, ocağın müjəvirləri xəstələrə Ulu və Uca Allahdan şəfa diləyirlər. Nəslin son nümayəndəsi Şamama arvad məcburu köçkün həyatı sürərək Bakı şəhərində dünyasını dəyişib;

99. **Müşg-Ata** – Yarəhmədli kəndinin köhnə qışlaq məhləsində yerləşən qəbirdi. Qəbir daş hasara alınıb. Qəbirin üstə qara tikan kolları ilə əhatə olunmuş saqqız ağacı var;



100. **Dom-Ata** – Yarəhmədli kəndinin şimalında eyni adlı dağın zirvəsində yerləşən qəbirdi. Dağa ərən uyuyan yer də deyilir. Qəbir üstə çaqqala ağacı bitib. Daş hasara alınıb;

101. **Nişanlı qızın qəbri** – Yarəhmədli kəndinin cənub girəcəyində, saqqız ağacının altında qəbirdi. Büt daşıyla hərləməsi var. Mənşəyi naməlumdur. Pirə ən çox ərgən qızlar ürəklərində niyyət tutub gedirlər. Pirə xəstə uşaqlar da aparılır;

102. **Qəjim nənə** – Çilə ocağı da adlanır. Gordu baba dağının cənub ətəyində xarabazarlığı qalmış Qarıqışlaq kəndinin qədim məzarlığında qəbirdi. Qəbir üstə haçaqanad dağdağan ağacı bitib. Vaxtında yeriməyi bacarmayan uşaqları dağdağan ağacının haçasından keçirirlər. Buna çilədən keçirmə deyilir;

103. **At piri** – Yarəhmədli kəndinin gündoğanında yerləşir. Daş hərləməyə alınmış qosqoca ardıc ağacından ibarətdir. Xəstə atları sahibləri aparıb həmin hasarın başına dolandırırlar;

104. **Molla Məhəmmədqulu piri** – Yarəhmədli kəndinin qəbiristanlığında qəbirdi. Qəbir üstə qaramıx kolu bitib. Qəbrin daş hərləməsi var. Keçmiş zamanlarda burada kəndin oxumuşu, ağsaqqalı olmuş Məmmədqulu adlı halal bir şəxsin dəfn olunduğu və qəbrinin ziyarətgaha çevrildiyi söylənilir;

105. **Bulul piri** – Daşveysəlli kəndinin Bulul kövşənindəki Allahverən qışlağının yaxınlığında qədim qəbiristanlıqda yerləşir. Hərləməsi olan qəbirdi. Burada adı bilinməyən övliyanın dəfn olunduğu söylənilir;

106. **Düldül rəddi** – Bulul pirinin yaxınlığında yerləşir. Sıldırım dağın günbatan ətəyində sal qayanın üzərində 4 at rəddindən ibarətdir. Nalların mıx batan nöqtələrindən su qaynayır. Çeşməyə Bulul bulağı da deyilir. Sərin və şirin suludu. Ləpirlərin Həzrət Əli (ə)-ın əfsanəvi Düldül atına məxsus olduğu söylənilir;

107. **Düldül rəddi** – Daşveysəlli kəndinin mərkəzi hissəsində bitili yastı daş üzərində bir neçə at rəddi var. Bu rədlərin də əfsanəvi Düldülə məxsus olduğu deyilir;

108. **Yel piri** – Daşveysəlli kəndinin şimal-qərbində Hasan qışlağı kövşənində ən hündür dağın zirvəsində yerləşir. Daş hasara alınmış qara tikan kolluğudur. Yel xəstələri pirə ziyarət edir, ağrıyan ətraflarını hasarın daşlarına sürtürlər;

109. **Qərib Ağanın qəbri** – Daşveysəlli kəndinin günbatanında, el yolunun üstündə, kənd qəbiristanlığının ortalığında yerləşən daş hərləməyə alınmış qəbirdi. Şəxsiyyəti məlum olmasa da qəbirdə uyuyanın mömin olduğu söylənilir. Qəbir üstə qaratikan kolpanlığı var. Qəbirin daşları üstə nəzir-niyaz qoyulur. Dilək edənlər kolun qol-qanadına yaylıq, parça qırıntıları bağlayır.Tutiya torpağından alınlarına sürtürlər;

110. **Dağdağan piri** – Alpaşa ilə Gordubaba dağı arasında eyni adlı dağın zirvəsində yerləşir. Pir daş hərləməyə alınmış dağdağan ağacından ibarətdi. Pirin mənşəyi dəqiq məlum deyil. Xələfli camaatının inanc göstərdiyi ocaqdır. Ziyarətçilər niyyət edir, nəzir-niyaz qoyurlar;

111. **Qotur piri** – Xubyarlı kəndi ilə Binnətli arasında, Şır-şır bulağının bərabərində ayrıca çeşmədi. Müalicəvi, şəfa verici əhəmiyyəti olan suya malik olduğundan çeşməyə ziyarətgah kimi də baxılır. Dəri xəstəliyi, xüsusilə qoturu olanlar bu suda yuyunurlar;

112. **Qasım ocağı** – Sədili kəndinin qəbiristanlığında yerləşir. Minbaşılı kəndinin mömin bəndəsi, Böyük Sıx Hacı Alı Çələbinin müridi olmuş Qasım bəyin qəbridir. Qəbirin daş hərləməsi var. Minbaşılı, Sədili kəndlərininm camaatının inanc yeridir. Ziyarətçilər niyyət edib ocağa nəzir-niyaz qoyurlar;

113. **Xələf piri** – Eyni adlı dağın gündoğan yamacında qəbirdi. Qəbir daş armud ağacının dibində yerləşir. Hasara alınıb. Burada Xələf adlı tayfa ağsaqqalı dəfn olunub. Kənd



də onun adını daşıyır. Xələfli camaatı öz uluslarına hörmər əlaməti olaraq qəbiri ziyarətgaha çeviriblər;

114. **Gordu baba** – Eyni adı dağda, Xələfli kəndinin qənşərində qəbirdi. Xələfli camaatının inanc ocağıdır. Qədim tarixə malikdi;

115. **Cəbrayıl-Ata** – Cəbrayıl şəhərinin günbatanında, Alpaşa dağının gündoğan yamacında, yaşıl çəmənlikdə yerləşir. Ölçüləri 4,5 m x 2,4m x 1,8m olan daş hasara alınmış qəbirdi. Mirzəcanlı, Şahvələdli, Hasanlı, Yarəhmədli, Maşanlı camaatı özlərinin ulusu hesab etdikləri Cəbrayıl Atanın burada dəfn edildiyini söyləyirlər. Qəbir həmin kəndlərin camaatı tərəfindən ziyarətgah kimi qəbul edilir;

116. **Ağoğlan piri** – Çərəkən kəndinin günbatanında, eyni adlı dağın zirvəsində yerləşir. Daş qalağı və qaratikan kolluğu ilə örtülmüş qəbirdi. Qəbir üstə ölçüləri təqribən 0,8m x 2m x 0,6m olan daş kitabə var. Yazılar türk runi hərfləri ilə döyülüb;

117. **Qurbantəpə piri** - Cəbrayılın cənub qərbində eyni adlı təpənin tilində dibi daş topası ilə örtülmüş yemişan kolundan ibarətdir. Pirin ulu əcdadlarımızın Günəşə, Aya sitayiş etdikləri tunc dövrünün nişanəsi olduğu söylənilir. Təzə il yaxşı gəlsin, məhsul bol olsun deyə ziyarətçilər pirdə qurbanlar kəsir, müxtəlif yeməklər bişirirlər. Yeməklərin suyundan gündoğana tərəf atır, səpir , xörəyin ətini yeyir və şənlik edirlər;

118. **Gülyaz piri** – Minbaşılı kəndinin gündoğanındakı eyni adlı Pir dərəsində yerləşir. Kiçik daş hərləməsindən ibarətdir. Mənşəyi qeyri- müəyyəndi. Minbaşılı camaatının inanc yeridi. Niyyət edirlər, daşlar üstə şam yandırırlar;

119. **Düldül rəddi** – Küfülyataq kəndi yaxınlığında yerləşir. Bitili yastı daş üzərində at rəddidir. Ləpirin əfsanəvi Düldülə məxsus olduğu bildirilir;

120. **Dursun piri** – Bu pirə Qərər və ya Qara Əli piri deyənlər də var. Qərər kəndinin aşağı ayağından keçən Cəbrayıl-Xələfli yolunun üstündə yerləşir. Ətrafında şümal çinarlar

bitən qəbirdi. Burada Dursun adlı mömin bəndənin dəfn olunduğu bildirilir. Qəbir Qərər kənd icmasının inanc yeridir;

121. **Qara daş** – Ona Həzrət Əli (ə)-ın sapand daşı da deyilir. Cəbrayıl şəhərinin mərkəzində, M.Ə. Rəsulzadə adına küçədə yerləşir. Hündürlüyü 1 metrə yaxın olan, qara rəngli büt daşıdır. Niyyət edənlər daşın üstə nəzir-niyaz qoyurlar. Bundan başqa Qara daşda ev quşlarından qurbanlar da kəsilir;

122. **Ziyarət məbədi** – Dəniz səviyyəsindən 2200 m hündürlükdə, Ziyarət dağının zirvəsində yerləşir. Ağoğlan məbədidir. Tumas, Əhmədli, Sirik oymaqlarının inanc yeridir. Miladdan öncəyə aid edilir. Tonqal yeri var. İslam ziyarətgahına çevrilib. Ziyarətçilər burada ancaq ev quşlarından qurbanlar kəsirlər. Niyyət edib Ulu və Uca Tanrıdan niyyətlərinin müstəcab olmasını istəyirlər;

123. **Zaman piri** – Çərəkən kəndinin günbatanında, Çərəkəndən Cəbrayıla aşan piyada yolunun üstə yerləşir. İri yemişan kolundan və dibinə qalaq edilmiş daş topasından ibarətdir;

124. **Çomaq-Ata** – Yel piri də adlanır. Əfəndilər ilə Banazur kəndləri arasındakı eyni adlı təpə üzərində qəbirdi. Daş hərləməsi var. Hasarın içində həmişəyaşıl iki ardıc ağacı bitib. Ağaclardan birinin gövdəsində balta yarası var. Hər iki kəndin camaatı həm türklər, həm də ermənilər Çomaq-Ataya ziyarət edirlər. Ən çox da yel xəstəliyinə tutulanlar hasarın başına dolanır, ocaqdan özlərinə şəfa diləyirlər;

125. **Seyid qəbri** – Əfəndilər kəndinin qəbiristanlığında yerləşir. Qəbir üstə ancaq baş daşı var. Ətraf kəndlərin camaatının inanc ocağıdır. Burada Əfəndilər seyidlərinin ulu babası Mirhəşim ağa dəfn edilib;

126. **Fatmeyi-Zəhranın kündə daşı** – Fatimə nənənin kündə daşı da deyilir. Cəbrayıl şəhər sakini, qaçqınçılıqda dünyasını dəyişmiş Niftalı Atakişi oğlunun həyətyanı sahəsi ilə şəhərkənarı asfalt yolun arasında yerləşir. Qaramıx kolundan və kolun ətrafında üzərində barmaq izləri oan daş



kündələrdən ibarətdir. Deyilənə görə kündə üzərindəki barmaq izləri Fatimeyi-Zəhraya məxsusdur;

127. **Şıxbaba piri** – Şıxlar kəndinin qədim məzarlığında günbəzi uçmuş dairəvi türbədi. Türbənin bu kənddə zaman-zaman fəaliyyət göstərmiş Qədriyyə təriqətinin alim və şeyxlərinin ulusuna məxsus olduğu söylənilir. Türbənin Qədriyyə təriqətinin daşıyıcısı olan şeyxlərindən XII – XIII əsrlərdə yaşamış şeyx Məhyəddin və ya şeyx Qiyasəddin həzrətlərinə məxsus olduğu da deyilir;

128. **Qızılca piri** – Şıxlar kəndinin aşağı başında üstünü qaramıx kolları basmış övliya qəbridi. Əl yerindən götürülən torpağı çimdik-çimdik suya qatıb qızılca tutmuş uşağa içirirlər. Deyilənə görə qızılca söhbəti bununla bitir;

129. **Təzə pir baba** – Qızılca pirindən təqribən 250 metr aşağıda Ağdonlu şıx baba yolu üstə daş hərləməsi olan qəbirdi. Bu adla da çağrılır. Qəbirdə deyilənə görə Şıx babanın kiçik, kasıb qardaşı uyuyur. Bu pir Şıxlar camaatı tərəfindən diləyi tez eşidilən pirlərdən hesab olunur;

130. **Düldül rəddi** – Şıxlar kəndinin Dəlikdaş kövşənində daş üzərində at rəddidir. Ləpirin əfsanəvi Düldülə məxsus olduğu söylənilir. Nal izinin mıx yerlərindən buz kimi su qaynayır;

131. **Naməlum övliya qəbri** – Tatar kəndi ilə Xələfli kəndi arasında kiçik selavdan adlayan yolun üstə, hərləməsi olan qəbirdi. Qəbir uzun ölçüləri ilə adi qəbirlərdən seçilir. Qəbirdə adı naməlum övliyanın uyuduğu söylənilir;

132. **Şah pir** – Nüsüs kəndinin şimalındakı Zamaxan dağının döşündə yerləşir. Daş hərləmədən ibarətdir. Ortada topa qaramıx kolu var. Hərləmədə qəbir olub-olmadığı qeyri müəyyəndir. Kolun ətrafı otlaqdır. Kəramətli pir olduğu iddia olunur;

133. **Şıx İbrahim qəbri** – Sirik kəndi ilə Nüsüs kəndləri arasındakı Mahmudcan düzünün yuxarı başında yerləşir. Qədim qəbiristanlıq yerinin kənarında daş hərləməsi olan

qəbirdi. Deyilənə görə burada sayılan övliyalardan olmuş ürfan sahibi Şıx İbrahim uyuyur;

134. **Şıx Əfəndi nişangahı** – Mahmudcan düzünün ayağında daş çevirmədi. Çevirmənin yaxınlığında qaynama bulaq var. Bulağa Həmzə bulağı da deyirlər. Bir vaxtlar Şıx Əfəndinin (Seyid Nigari, Mir Həmzə Mir Paşa Rükvəndi oğlu) bu bulağın suyu ilə dəstəmaz alıb çevirmə yerində namaza durması, zikirə dalması söylənilir;

135. **Ramazanın qara damı** – Sirik kənd sakini Səməd Ramazan oğlunun həyətində qara damdı. Vaxtı ilə Şıx Əfəndinin bu damda qırxa girdiyi söylənilir;

136. **Hacı Xoşdan** – Tey dağının günbatan gədiyindəki talada qəbirdi. Talanın günbatanında çeşmə var. Qoturbulaq adlanır. Deyilənə görə qəbirdə uyuyan pirani bir şəxs olan Hacı Xoşdan həmin bulağın suyu ilə dəstəmaz edər, talada namaz qılarmış. Pirin yağış yağdırma kəraməti var. Quraqlıq vaxtlarda halal bir insanın qəbir üstə qalxmağı, əhdlə xoruz qurbanı kəsməsi yağış yağmasına kifayət edər deyirlər;

137. **Xəlifə Qürbət** – Sirik kəndinin ayağındakı Çay dərəsinin gündoğan üzündə böyük hərləməsi olan qəbirdi. Hərləmənin içərisində iri gövdəli ardıc ağacı var. Niyyətlər edilir, qurbanlar kəsilir. Çox qədim qəbirdi. Ətrafında qədim yaşayış yerinin qalıqları, yurd yerinin izləri var;

138. **Həztət Əlinin sapand daşı** – Çay dərəsinin gündoğanında, Xəlifə Qürbətin qəbrindən təqribən 100 m cənubda yerləşən, 2 kub metr həcmində qırmızı çaxmaq daşıdı. Daşın Həzrət Əli (ə)-ın sapandından atıldığı söylənilir;

139. **Göy atlı piri** – Sirik kəndinin sol əldəki ayağında Qoravar düzünün başında yaşı bilinməyən qəbirdi. Bu qəbirdə qara qazağı papaqlı göy atlı ərənin uyuduğu söylənilir;

140. **Şeyid daşı** – Sirik kəndinin qənşərindəki Birəli meşəsinin talasında daş nişangahıdı. Şəhid qəbiri olduğu söylənilir;



141. **Yurd yeri** – Göy gədikdə yerləşir. Həvəzə Çələbinin Qalaq yeri də deyilir. Yay mövsümlərində Həvəzə Çələbi burada muxur qurdurar, istirahət edərmiş. O, sürgün edildikdən sonra bura qardaşı oğlu Əli Çələbinin ən sevimli yaylaq yeri olubdu;

142. **Ocaq yeri** – Kəhriz qozdakı Şırnalı bulağın üstündə daş nişangahıdı. Burada Həvəzə Çələbi oturar, namaz qılar, zikrə dalarmış;

143. **Çələbi meydanı** – Şirik kövşəni sayılan Qabaq düzün başında, Gilavlığın qabağında yurd yeridi. Bura Çələbi babanın yazlaq dövrü müvəqqəti düşərgə saldığı yer olub;

144. **Çələbi nişangahı** – Birəli meşəsinin eyni adlı düzündə daş topasıdı. Bura Çələbi babanın payız mövsümündə müvəqqəti dincəlmə yeri olub;

145. **Qara daş** – Araz Maşanlı ilə Alıkeyxalı kəndlərinin arasında, kolxoz qarajının üst tərəfində iki böyük qara daşdı. Ətrafı iydə ağacları ilə əhatə olunub.Niyyət edib çıraq yandırırlar. Deyilənə görə bura qədim zamanlarda Sarı Mərmər nənənin oturaq yeri olub;

146. **Şəkəralının qazma damı** – Araz Maşanlı kəndinə söykənən əkin yerinin kənarında damdı. Ziyarət yeri kimi qorunub saxlanılır. Deyilənə görə bu dam böyük övliya Şıx Hacı Qasım Çələbinin düşərgə yeri olub;

147. **Bulaq ocaqları** – Sarıcallı kəndinin ətrafında yerləşən beş bulaqdan ibarətdir.(1) Susalıq bulağı kəndin şimal söykənəcəyindəki dağın başında, (2) Göy-göl bulağı Sarıcallı ilə Kavdar kəndi arasındakı dərənin başında , (3) Tək armud bulağı kəndin aşağı başındakı nəhəng gövdəli daş armud ağacının dibində, (4) Üç çinar bulağı Sarıcallı kənd sakini Əliyev Zülfüqarın evindən yuxarıdakı üç çinarın dibində, (5) Qarağac bulağı kəndin aşağı ayağındakı nəhəng qarağac ağacının dibində yerləşir. Hər beş bulaqda qaynamadan çıxan şirin sular saflığına, müalicəvi əhəmiyyətlərinə görə müqəddəs sayılır, ocaq kimi qorunur;

148. **İncir ocağı** – Ziyil ocağı da deyilir. Sarıcallıdan keçən asfalt yolun altındakı toxmaçarlığın içində topa incir kolluğundan ibarətdir. Əlində, barmağında ziyili olanlar incirin qanadından birini burub buraxır. Dibinə nəzir-niyaz qoyur. Ziyilləri bununla da tökülür;

149. **Seyid Rza qəbri** – Cocuq Mərcanlıya enən asfalt yolun sağında, dəmir yolu keçidinə 40-50 metr qalmış çəkilliyin kənarında tənha qəbirdi. Deyilənə görə kənar eldən olan həmin adda seyid övladı burda dünyasını dəyişib, buradaca dəfn edilib. Qəbir dəmir hasara alınıb. Cocuq Mərcanlı, Mehdili camaatının inanc yerinə çevrilib;

150. **Pirabid qəbri** – Mənsümlü kənd sakini Mıqdat İbnisalam oğlunun həyətyanı sahəsində yerləşir. Hacı Qaramanla bir dövrdə yaşamış, onun təmsilçisi kimi ətraf kəndlərdə dini təbliğ etmiş mömin bəndəyə məxsus qəbirdi. Haqqında söyləyirlər ki, Pirabıd çox zəhmətkeş insan olub. Bostan bitkilərini, tərəvəzi həmişə alaqlı yerdə əkib becərər, sahəni müdam alaqdan təmizlər, yoruldum deməzmiş. Hacı Qaraman bir gün Piradidə deyir ki, əkin yerini dəyiş, buralar çox alaqlıdı. Özünü bu qədər əziyyətə salma. Osa deyir: "Ya Hacı Qaraman baba, yox, sahədə alaq nə qədər çox bitsə mənə xoşdur. Çünki hər dəfə əyilib qalxanda "Ya Allah!" deyirəm. Tanrıma daha çox zikr edirəm". Mənsümlü kəndinin camaatı il quraqlıq gələndə Pirabidə mal-qara qurbanı deyirlər. Duaları müstəcab olur;

151. **Uşaq qəbiri** – Mənsümlü kəndinin Pirabid dərəsinin gündoğan üzündə yerləşir. Qəbirdə Əli Çələbinin Suqra Çələbidən doğulan və 5 aylığında dünyasını dəyişən Yasin adlı körpəsi dəfn olunub;

152. **Şıx-Ata** – Qalacıq kəndiylə üzbəüzdəki eyni adlı dağın zirvəsində qəbirdi. Burada Şıx-Ata adlı övliyanın dəfn edildiyi söylənilir. Deyilənə görə Şıx-Atanın sevimli yeməyi süddaş olub. Evlərdə tez-tez Şıx-Atanın ehsanı olsun deyə süddaş bişirilir. Ocaq yerində mal-qara qurbanları kəsilir.



Yerli camaatın deməsinə görə Şıx-Ata Tumas-Atanın kiçik qardaşı olub;

153. **Həvəzə Çələbinin nişangahı** – Qalacıq bağının bərabərində, Çaxmaq çaylağında yerləşir. Daş hərləməyə alınmış Mərmərik ağacından ibarətdir. Burada Həvəzə Çələbinin namaz qıldığı, zikr etdiyi söylənilir;

154. **Çələbi çevirməsi** – Mənsümlü kəndi ilə Tatar kəndi arasında daş nişangahıdı. Deyilənə görə Şıx Hacı Qasım Çələbi burada namaz qılıb. Allaha həmd-sanalar oxuyub;

155. **Sənəm qəbri** – Quşçular kəndinin yaxınlığında tənha qəbirdi;

156. **Qərib seyid qəbri** – Tatar kəndinin qəbiristanlığında yerləşir. Qəbrin kimə məxsusluğu bilinmir. Burada müsafir olmuş və dünyasını dəyişmiş seyid övladının dəfn edildiyi bildirilir;

157. **Kiçik Hacı Qaraman** – Tatar kəndinin cənubundakı Qara dərənin tapında daş nişangahıdı. Deyilənə görə Hacı Qaraman Çələbilər kəndində yurd salmamışdan öncə burada məskunlaşıb. Bir müddət burada yaşayıb. Bu yerlərdə ona məxsus torpaq sahələri kifayət qədər çoxdu;

158. **Yasin Çələbinin Pir daşı** – Niftalılar kəndindəki çinarlıqda Yasin Çələbinin yurd yerində qara daşdı. Daş üstə Yasin çələbi tərəfindən Qurandan ayə yazdırılıb;

159. **Məhəmməd Çələbinin yurd yeri** – Hacı Qaramanın oğlu Məhəmməd Çələbiyə məxsus yurd yerində toplanmış daş nişanəsidir. Nişangaha ziyarət kimi baxılır. Ziyarətgah Qalacıq – Niftalılar yolu ilə keçmiş M.Əzizbəyov adına üzümçülük sovxozunun qarajı arasında yerləşir;

160. **Şeyidlər** – Əsgərxanlı kənd sakini Misirxan Mikayıl oğlunun evindən şimalda, Əsgərxanlı ilə İsaxlı kəndi arasındakı yamacda yerləşir. Toplu qəbirdi. Burada din uğrunda döyüşən mücahidlərdən şəhid düşənlərin dəfn edildiyi söylənilir;

161. **Yemişan piri** – Əsgərxanlıdan İsaxlıya qalxan yolun döngəsində yerləşir. Dibinə daş toplanmış yemişan ağacından ibarətdir. Buranın adı bilinməyən övliyanın məqam yeri olduğu söylənilir;

162. **Əli Çələbinin yuyat yeri** – Fatimə Çələbinin Kolavat yaşayış məntəqəsində yerləşən evinin həyətində nişangahdı. Burada 1962-ci il 12 yanvarda haqq dünyasına köçmüş möhtərəm Əli Çələbi Alı Çələbi oğlunun mübarək nəşi qüsl edilib, kəfənə tutulubdu;

163. **Dalaq daşı** – Çaxmaq çaylağından Ümürü düzünə qalxan yolun kənarında iki yerə bölünmüş, mamırlı qara daşdı. Daş yarığına Həzrət Əli (ə)-ın qılınc yeri də deyilir. Hovuslu camaatının and yerlərindən biridi. Dalağında, qara ciyərində ağrı-acısı olan xəstələr qarın boşluğundakı müvafiq nahiyələrini daşa sürtürlər;

164. **Şeyidlər** – Marahan düzündən Hovusluya enən yolun üstə daş qalağının altında qalmış qəbirlərdi. Şəhid qəbirləri olduğu söylənilir. Hovuslu camaatının ziyarətgahına çevrilib. Ən çox qorxusu və xəstəliyi olan uşaqlar ziyarətgaha gətirilir;

165. **Cələbabanın çevirməsi** – Hovuslu kənd sakini Şülü kişinin evinin arxasında daş nişangahıdı. Burada Şıx Hacı Qasım Çələbinin namaz qıldığı, zikr etdiyi söylənilir;

166. **Hacı Seyid babanın çevirməsi** – Saqqız piri də deyilir. Hovuslu kəndinin köhnə yurd yerinin qabağında hərləməsi olan, daş hasara alınmış saqqız ağacından ibarətdir. Deyilənə görə burada Hovuslu elatının mömin bəndəsi Hacı Seyid baba namaza durmuş, zikr etmişdir. Hacı Seyid babanın qəbri isə Sisyan rayonu ərazisində Hovuslu kəndinin yaylaq yerindədir;

167. **Soltanqulu ocağı** – Yel ocağı da adlanır. Çaxırlı kəndi ilə zastavaya gedən yolun solundakı tut bağında yerləşir. İçərisində alça ağacı olan daş hərləmədən ibarətdir. Hərləmədə çala yeri olan yuvalar var. Bu yuvacıqlarda şam



yandırırlar. Ziyarətçilər niyyət edib nəzir-niyaz qoyur, ağacın qol-budağına ip, sap bağlayırlar;

168. **Kol ocağı** – Qaracallı kəndinin Qışlaq adlanan ərazisi ilə kəndin arasında yerləşir. Üzüm bağının ortasında kol topasından ibarətdi. Qaracallı camaatının inac yeridir. Ocağın mənşəyi qeyri-müəyyəndir;

169. **Düldül rəddi** – Sirik kəndinin kövşəni sayılan Qabaq düzdən Çaxmaq dərəsinə enən yolun başında yerə bitili qalın daş üzərində at ləpiridir. Bu ləpirin də əfsanəvi Düldülə məxsus olduğu bildirilir;

170. **Ağca quzu piri** – At piri də deyilir. Quşçular qəbiristanlığında tökmə təpə və daş hərləməsindən ibarətdir. Əsasən xəstə atlar bura gətirilir;

171. **Yel piri** – Məlikli kəndi ilə Mülkədərə erməni kəndi arasındakı Ağ güney dağının zirvəsində yerləşir. Kaha və daş hərləmədən ibarətdir. Bura yel xəstəliyi olanlar ziyarətə gəlir;

172. **Yeddilər piri** – Quşçular kəndinin günbatan girəcəyindəki tək armud ağacından və onun həndəvərindəki böyük daş hərləmədən ibarətdir;

Yuxarıda adları sananan ziyarətgahların sayının çoxluğundan çismənməyin. Mənə görə Cəbrayıl torpağının hər bir qarıcı bu sayaq fərqləndirici nişangahı olan ocaqdı, pirdi, ziyarətgahdı, müqəddəsdi. Elə də qəbul edirəm. Bu sayda Cəbrayıl torpaqlarında ibadət yerlərinin, pir, ocaq, ziyarətgah və səcdəgahların olması, sayılması heç də mövhümatın, cəhalətin, xürafatın ayaq açıb yeriməsi, bütpərəstlik vərdişindən əl çəkilməməsi, yaşadılması deyildir. Bütün bunlar xata-balanı qaytaran, pisliklərin boy atmasına mane olan rəmzlərdir. Əcdadlarımızın lirik dünyagörüşünü özündə əks etdirən əsatirlər, miflərdi. Hər biri daşa,ağaca,torpağa, suya əksi inamdan doğur. Ən başlıcası isə bu müqəddəsliyə ən azı Vətənə, vətəni vətən edən torpağa, daşa insanın bağlılığı, irsi varisliyin qorunması, insanın ətraf mühitə münasibətinin göstəricisi kimi baxmaq lazımdır. Totemçilik, inanc bəsl-

əmək insan həyatında mühüm yer tutan, öz funksional dəyərini itirməyən, mənəvi baxımdan bir güvənc işidir. Mənəviyyat məsələsidir. Bu müqəddəslik insana ruhi-mənəvi sağlamlıq gətirir. Bəzən əli hər yerdən üzülmüş insan son ümid yeri bildiyi, sandığı ocağa üz tutur. İnamı özünə qayıdır. Azından andiçmə, acılı-şirinli yalvarışlarıyla içini boşaldır. Yüngülləşir. Niyyəti müstəcab olur. İnsan təmiz əməllə, qüsursuz, saf istəklə, xoş məramla, həm də qüsl edərək inanc ocağına üz tutur. Həm ruhən, həm də cismən təmizlənir. Digər tərəfdən inamla deyə bilərik ki, pirlər, ocaqlar, ziyarətgahlar ətraf mühitin qorunmasına xidmər edir. Dağdağana şər qüvvələrdən insanları qoruyan müqəddəs ağac kimi baxılır. Susuzluğa davamlı, səhrada, biyabanlıqda tək--tənha bitən, qaraltısı, kölgəsi yolçulara ümid yeri olan dağdağan ağacı bu adla nankor baltasından niyə qorunmasın?! Bu qəbildən olan saqqız, daş armud, yemişən,iydə, həmişəyaşıl ardıc ağacı nə üçün müqəddəs sayılmasın. Çinar ağacları öz əzəmətiylə seçilir. Çirk götürməyən, beş barmaq yarpaqları ələ bənzəyən, bör-böcəyə yuva yeri verməyən, sərinlik gətirən, uzun ömürlü şərq çinarları niyə qorunması, türk öz xan çinarlarını niyə müqəddəsləşdirilməsin?!

Su həyatdır, su aydınlıqdır, su saflıqdır, şəffaflıqdır. İnsan yuxusunu nə üçün duruluq, aydınlıq rəmzi olan suya danışmasın, yüngülləşməsin. Şirin, içməli suyu, müalicəvi əhəmiyyəti olan mineral su çeşmələri, bulaqlar nə üçün ocaq sayılmasın, qorunmasın. Çirkabdan, murdarlıqdan, natəmizlikdən bu torpaq niyə uzaq tutulmasın?! Müqəddəslik insanın dünənindən gəlib bu günündən keçən bir körpüdü, sabahına, gələcəyinə açılan bir ümid qapısıdı. Ocaqlar, pirlər insanı Tanrı dərgahına qovuşduran bir vəsilədir. Cəbrayılım, müqəddəs torpaq, sənə özün boyda müəddəslik gətirən ocaqların var. Özün boyda Tanrı ocağısan Bəs mən sənə müqəddəs torpağım, müqəddəs ocağım deməyim, bəs nə deyim?!



## CƏBRAYIL ÖZ İNSANLARIYLA DA FƏRQLƏNİR

Cəbrayıl torpağı ona görə müqəddəsdir ki, bu torpaq qənimət insanlar yetirib, bu torpaqda zəkalı, iradəli, idraklı insanlar doğulub, yaşayıblar. Bu torpağın yetirməsi olan elm adamları və ictimai xadimlər öz xarakterlərindəki spesifik xüsusiyyətləri ilə seçilib, tanınıblar. Xarakterlərindəki təmkinlikləri, sanballı hərəkətləri və ləngərli davranışlarıyla, ziyalılıqları, sadəlikləri, intellektual səviyyələri ilə fərqləniblər. İşdə ciddi və prinsipial, dürüstlüyü sevən, qayğıkeş, işgüzar, doğruçu, mehriban, hakimiyyətçilikdən uzaq, realist, bir sözlə, iradəli və idraklı insanlar olublar. Adları bu gün də hörmətlə çəkilir. Ünvanlarına ürək dolusu xoş sözlər deməkdən çəkinmirik:

**Akademik Əşrəf Hüseynov** – Azərbaycanda fundamental riyaziyyatın, funsional analizin əsasını qoyan elm xadimi olub. Təmənnasız insan kimi tanınıb. Azərbaycanda böyük riyaziyyatçılar nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərib. Xeyirxah əməllərinindən ağaz dolusu danışılır. Yardımını ehtiyacı olanlardan əsirgəməyib. Alimlər arasında öz köməkdarlıq xidmətləri sayəsində xeyriyyəçilik mücəssəməsinə çevrilib.

**Akademik Mehdi Mehdizadə** – Azərbaycan maarifinin qurucusu, Azərbaycanda pedaqogika elminin əsasını qoyan elm xadimi kimi ad çıxarıb. Böyük pedoqoq və Maarif naziri kimi cəmiyyətdə ideala çevrilib, əvəzolunmaz bir şəxs sayılıb;

**Professor Allahverdi Verdizadə** - Azərbaycanda qeyri-üzvi kimyanın əsasını qoyan kimyaçı, alimlərdən biri kimi tanınıb;

**Professor Məhəbbət Nəcəfov** – Psixologiya elminin inkişafında öz sözünü demiş alimlərdən biri hesab edilir. Danışığında riya hiss olunmayan, alicənab, səmimi, prin-

sipial, qürurlu, yüksək intellektual səviyyəsi olan bir şəxs kimi anılır;

**Azərbaycan MEA-nın müxbir üzvü Tofiq Hacıyev** – Sovet türkologiya elminin ən çətin məqamlarında onun ağırlığı altına çiyin çevirmiş türkoloq alim kimi tanınan söz sahibidi. Bütün türk dünyasında öz çəkisi, öz nüfuzu olan, hər zaman dilimizin keşiyində duran elm fədaisidir. Təkcə bir faktı qeyd edək ki, Tofiq Hacıyevin doğulduğu Soltanlı kəndində 10-dan elmlər doktoru, 30-a yaxın elmlər namizədi alimlik dərəcəsi almış elm adamları, elm fədailəri var. Onların sırasında dayanan Azərbaycan MEA-nın müxbir üzvü Arif Həsənovun və bu qəbildən olan bir sıra fədakar alimlərimizin adını çəkməmək olmur. Bu gün Cəbrayıl torpağının yetirməsi olan onlarla, yüzlərlə elm adamlarımız zehni əmək sahəsində əzmlə çalışırlar. Ayrı-ayrı elm sahəsinin aparıcı alimləri, ardıcılları, xələfləri öz sələflərinin işini ləyaqətlə davam etdirirlər. Bu gün müstəqilliyimizin bu keşməkeşli keçid dövründə yaşasaq da Sovet dönəmində işləmiş, adları hörmətlə çəkilən dövlət xadimlərimizdən söz salmamaq olmur. Azərbaycan SSR NS-nin 17 il sədri vəzifəsində işləmiş Teymur Quliyev, uzun illər Azərbaycan KP MK-nin katibi, büro üzvü seçilmiş, şöbə müdiri olmuş Həsən Həsənov, nazir, səfir vəzifələrində çalışmış Yəhya Ağakişiyev dövrünün saf və qeyrətli siyasi xadimləri kimi ad çıxarmışlar. Cəbrayılın yetirdiyi, xalqımıza bəxş etdiyi vicdan sahibləri olmuşlar. Ümumiyyətlə, Cəbrayıldan respublika səviyyəsində tanınan nomenklatur kadrlar – rayonlarda partiya komitəsinin katibləri, çoxlu sayda polis rəisləri, idarə, təşkilat, müəssisə rəhbərləri zaman-zaman iş başında olmuşlar. Cəbrayıllı kadrlar öz təmizlikləri, səmimiyyətləri, rüşvətdən, alverdən uzaq olmaları, yerliçiliyə, regionçuluğa, tayfabazlığa meyilli olmamaları ilə seçiliblər. Təmiz adlarını qoruyub saxlayan olublar. Yüksək insani keyfiyyətləri, təşəbbüskarlıqları, təvazökarlıqları ilə fərqləniblər. Qabiliyyətli, enerjili işçi kimi



özlərini göstəriblər. Həmişə çətin anlarda ağıl-dərrakə, dözüm nümayiş etdiriblər. Bir sözlə, aza qane, nəfisi comərd, haramdan uzaq insanlar olublar.

Cəbrayıl torpağı öz aşıqları, el şairləri, söz-sənət adamları ilə də məşhurdu. Dirili Qurbani – haqq aşiqi, ustad aşıq kimi Azərbaycan aşıq ədəbiyyatının banisi hesab olunur. Adı Aşıq Abbas Tufarqanlıdan, Dədə Ələsgərdən öndə gəlir. Əbəs yerə demirlər ki, türk dilli ədəbiyyatımızın yaranmasının bir qütbündə Böyük Füzuli durursa, o biri qütbündə haqq aşiqi, el şairi, ustad Qurbani durur. Maralyanlı Aşıq Pərinin də adı qadın aşıqlarımızın ustadı, banisi kimi tarıxə düşüb. Cəbrayıl elində Mücürüm Kərim (Horovlu k.), Aşıq Lələ (Nüzgar k.), Aşıq Mahmud (Quşçular k., Seyid Nigarinin müridi olub. Ömrünün sonlarını Türkiyədə yaşayıb, yaradıb), Aşıq Şükür (Dağtumas k., həmişə özüylə saz və qılınc gəzdirib), Aşıq İmiş (Söyüdlü k.), Aşıq Surxay (Qalacıq k., BVM-də həlak olub), Aşıq Humay (Daşkəsən k.), Dirili Surxay (Xudayarlı k.), Aşıq Abdulla (Söyüdlü k.) kimi el sənətkarları yaşayıb yaratmışlar. Zahid Quliyev (Söyüdlü k.), Yaqut Abdullayeva (Cəbrayıl ş.), Tahir Xəlilov (Çərəkən k.) və onlarla başqa xanəndə və müğənnilərimiz bu gün də xalqımızın xidmətindədilər. Mustafa Məmiş oğlu, Xurşud Mürşüd oğlu kimi Cəbrayılda qarazurna, balaban ustaları olub. Cəbrayıllı sənətkarlar, çalğıçılar, ümumiyyətlə, o üz Qarabağda adla deyiliblər.ı

Cəbrayılın yaradıcı insanları da öz fəaliyyət sahələrində söz sahibi olublar. Ötən əsrin 60-cı illərində nəsrdə Sabir Əhmədli, Sabir Sülemanov, şeirdə Sərdar Əsəd, Çərkəz Məcid Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirən nəslin pionerləri sayıla bilərlər. Bu günün yazarlarından Vaqif Bayatlı Odər, İsmayıl İmanzadə, Elçin Hüseynbəyli və digər onlarla yazarlarımız günün tələbləri ilə ayaqlaşan şeir, nəsr nümunələri yaradırlar. Rəssamlardan Şamo Abbasov, Yavər Əsədov, Fəxrəddin Məmməd-

vəliyev, ağac üzərində oyma ustası Seyfəddin Məsim oğlu, rejissorlardan Hafiz Quliyev və başqaları öz dəst-xətləri ilə tanınan yaradıcı insanlarımızdandılar.

Cəbrayılın zəhmət adamlarının əmək fədakarlıqlarından, onların rayon iqtisadiyyatının yüksəldilməsində rəşadətli əməklərini əsirgəməmələrindən söz salmaq yerinə düşər. Bu qəbildən zəhmət adamlarımız çoxdu. Əmək qabaqcıllarından Bayaz Həsənova, Şahnaz Əhmədova, Köçəri Babayev, Məhəmməd Əhmədov, Qaçay Səfərov, Yusif Fərzəliyev, Sərdar İmrəliyev Sosialist Əməyi Qəhrəmanı kimi Sovetlər Birliyinin ən yüksək fəxri adına layiq görülmüşlər.

Cəbrayıl torpağının övladları tariximizin qəhrəmanlıq səhifəsinə də öz imzalarını atmışlar. Məxsus olduqları millətin şərəfini öz qanlarıyla qorumuşlar, yüksəltmişlər Böyük Vətən müharibəsində 4242 nəfər Cəbrayıllı gənc faşistlərlə döyüşə yollanıb. Onlardan 1672 nəfəri geri qayıtmayıb. Faşistlərə qarşı mərdliklə savaşıblar. Öz canlarından belə keçiblər. Cəmil Əhmədov isə adını tarixə yazdırıb. Qəhrəmanlığın ən yüksək zirvəsinə qalxıb. Ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Xələfləri C. Əhmədovun qəhrəmanlığını erməni-daşnaqk faşistlərinə qarşı mübarizədə təkrar etməli oldular.

Beləki, Qarabağda ölüm-dirim savaşı başlayanda elə ilk gündən Vətənin mərd oğullarının sırasına Cəbrayılın igid ərənləri də qoşuldular. Sinələrini torpağa sipər etdilər. Bəli, onlar ön cərgənin döyüşçüləri sırasında durdular. Cəbrayıl ilk şəhidini 20 yanvarda verdi. Bakının bağrını yaran güllələr həmin gecə Cəbrayıl övladının sinəsinə də sancıldı. Səxavər Quliyev Vətənin istiqlal aktına öz şəhid qanıyla imza atdı. I Qarabağ müharibəsində Cəbrayıl 367 şəhid verdi. Cəbrayıl döyüşdü. Cəbrayıllılar düşmənə layiq olduqları dərsi verdilər. Ətrafdakı 11 erməni kəndini faşist yaraqlılarından təmizlədilər. Qarabağ uğrunda gedən savaşda Cəbrayıl torpağının yetirmələrindən Məmmədov Kazım, Aslanov Şikar, Quliyev Mətləb, Hüseynov Vüqar, Quliyev Vahid, Əkbərov Akif Azərbaycanın Milli Qəhrəmanı kimi ən yüksək fəxri ada layiq görüldülər. Torpaq, Vətən sınağından mərdliklə çıxan peşəkar hərbiçi Mübariz Qasımov, kəşfiyyatçı, Mirələm ləqəbli Sahib Quliyev, tələbə Fuad Əsədov, mətin döyüşçü Söhrab Məmmədov, 11 yaşlı Samir Əliyev (Tiqana) kimi oğulların adını bu gün də cəbrayıllılar böyük hörmət və ehtiramla yad edir, iftixar hissiylə xatırlayırlar. Girov düşmüş Cəbrayıl şəhər sovetinin sədri İlqar Mehdiyevin bütün işgəncələrə və məhrumiyyətlərə dözərək üç rəngli Azərbaycan bayrağını təhqir edən hərəkətlərə yol verməməsi onun bayraq sevgisinin müqəddəsliyindən xəbər verir. Cəbrayıl övladı, Azərbaycan Milli Ordusunun baş leytenantı Ramil Səfərovun Azərbaycan bayrağını təhqir edən erməni zabitini qətlə yetirməsi, Azərbaycan türkünün gələcək, potensial bir düşmənini məhv etməsi köksümüzü qabardır. Eloğlumuzun bu hərəkətini bu gün hər bir Azərbaycan övladı millətin qürur və şərəfinin, ləyaqətinin keşiyində durmağın etalonu, meyarı kimi qiymətləndirir. Vicdanımız hər birimizi o sayaq hərəkət etməyə, mübarizliyin bariz nümunəsi kimi tərbiyə olunmağa səsləyir bizi. Qarabağın azadlığı uğrunda mübarizəyə, ölüm-dirim mücadiləsinə çağırır bizi. Bəli, döyüş alın yazımızdır. Nə qədər Cənnət Qarabağımız, onun dilbər guşəsi olan Cəbrayılımız, bu müqəddəs torpaq erməni-daşnaq faşistlərinin tapdağı altındadır, bizə dinclik olmamalıdır, olmayacaqdır da. Bu müqəddəs torpağa can borcumuz var. Bu borcu ödəmək hər bir cəbrayıllının içindən gələn istəkdir, Tanrı haqqıdır. Vicdan borcudur. Biz müasir tariximizin qoruyucuları, qurucuları və yaşadıcılarıyıq.

**Haşiyə:** Belikorus millətçilərinin, erməni daşnak-faşizminin, fars şovinistlərinin mövqeyini əks etdirən, antitürk siyasətinin təsiri və tələbləri əsasında türk xalqlarına tarix yazılması, türkə düşmən münasibətin sovet dönəmlərin-

dəki hegemonçuluq və yasaqları bu sahədə valyuntarist nəzəriyyənin ortaya çıxması üçün münbit metodoloji şəraitin yaradılmasına səbəb olmuşdu. Türklərə öz etnik mənşəyini unutdurmaq baxımından ortaya atılan mürtəce konsepsiyalar, xüsusilə Stalinçi tarixçilərin özbaşnalığı Sovetlər Birliyində öz pik zirvəsinə qalxmışdı. Bu cür siyasətə qulluq edən, siyasiləşən üzdən iraq tarixçilər həqiqi tarixi faktları gizlətməklə, dərin-dərin quyulara basdırmaqla, saxta faktları isə ərşi-əlana qaldırmaqla məşğul olurmuşlar. Böyük, əbədi və əzəli türk millətinə, onun tarixinə həqarətlə yanaşmışlar. Azərbaycan türkünün etnik tarixinə ləkə vuran, cəfəngiyatla dolu satqın konsepsiyalara rəvac vermişlər. Azərbaycan tarixinin yazılmasında Stalin konsepsiyasını yaradan bu cür "tarixçilər" xalımıza hər vəchlə köçəri damğası vurmağa çalışmışlar. Rus tarixçisi V.P.Alekseyev bizi hətta, sarımaq yox, lap ələ salaraq yazır ki, biz guya dərimizin rənginə görə hind-əfqan, sümüyümüzə görə isə Qafqaz-iber kökünə bağlıyıq. Ona dəm tutan Ə.Sumbatzadəyə, İ.Əliyevə görə guya Quzey Azərbaycanda qara üzlü türkmənlər, Güney Azərbaycanda isə iranlılar yaşamışlar. Bu cür eybəcərliklərdən əl çəkməyən, antitürk siyasətinə quyruq bulayan tarixçilər türklərin Azərbaycanda X-XII əsrlərdə gəlmə xalq olduğunu isbat etmək üçün dəridən – qabıqdan çıxmışlar. Bu tip tarixçilər və onların tör-töküntüləri bu gün də öz istəklərindən əl çəkmirlər. Sovetlər dönəmində Stalinçi tarixçilər tərəfindən Azərbaycan xalqının tarixi saxtalaşdırılaraq və tarixi keçmişimizə aid qaynaqlar təhrif olunmuş şəkildə bizə çatdırılmışdı. Bütün bunlara istinadən bu boşluqları doldurmaq hər birimizdən ciddi məsuliyyət hissi tələb edir. Bu məqsədlə Cəbrayılın tarixinə kiçik bir ekskursiya etməyi məqsədəuyğun hesab edirik. Çünki Cəbrayılın tarixi həm də Azərbaycanın öz tarixidir.



## CƏBRAYILIN TARİXİ HƏM DƏ AZƏRBAYCANIN ÖZ TARİXİDİR

Cəbrayıl rayonunun inzibati ərazi vahidi ən qədim zamanlardan türk etnoslarının yaşayış məskəni olub desək əsla səhv etmərik. Üçünki türkün Cəbrayıl torpağında yaşam tərzinə aid izlər tarixi ilkinlikdən, Nuh əyyamından öncə başlayır. Belə ki, türkün bu torpaqda varlığının ən yaxın tarixi mixi yazılarda 6 min il öncəyə təsadüf edir. Hətta, avtoxton türklərdən öncə belə bu torpaqda yaşayan ilk insan icma və toplumları olan odərlərin özləri də tarix səhnəsinə türk söykəyi kimi çıxmışlar. Ərgünəş yer, dağ adları, Günəş-Ata ocağı, Ziyarət dağında ocaq qalan-an təbii buxarı yeri, Alban məbədi, Ağoğlan və Qurbantəpə pirində Günəşə sitayiş kultunun qalığı sayılan inanclar, dini ayinlərin və ritualların yerinə yetirilməsi bu əsasda durur. Odərlərin türk mənşəli yaşam tərzindən xəbər verir. Ümumiyyətlə, Cəbrayıl torpağı ilk insan yaşayışının izləri olan inzibati ərazi vahididir. İncə dərəsində Divlər sarayı ( Dağtumas k.), ona yaxın ərazilərdə Azıx, Tağlar mağaraları (Cəbrayıl qəzası) ibtidai insan icmalarının məskən yerləridi. Diri dağındakı Qala yeri daş dövrü abidələrindən sayılır. Burada əhatə dairəsi 150 addım olan hündür qayanın sinəsi çapılaraq təbii taxt şəklinə salınmışdı. Bu qaya çıxıntısından bir zamanlar səngər kimi istifadə olunduğu ehtimal edilir. Səngər şəklinə düşmüş sunqar sözü qədim türkcədə elə dağ çıxıntısı deməkdir. Həmçinin vannayabənzər şirəviclər (Diri dağı), yağış suyu saxlamaq üçün qayalar üstə çapılmış oyuqlar – qaqqıldaqlar (Tumas-Ata dağı), siklop tikintiləri (Qızılqaya dağı), Hovuslu kəndinin söykəndiyi Qala dağının başındakı Təpəgöz qalası və s. həmin dövrün maddi-mədəniyyət abidələrindən bu günümüzə qalan nişanələrdir. Köhnə qala, Salın dibi, Çinafarlı, İrəzgə, Köhnə və Təzə Bazavuz (Dağtumas k.), Maxav (Qazanzəmi k.), Poçtun yalı (Qarağac k.), Yalyurd (Çələ-

bilər k.), Topçaq (Soltanlı k.), Nəbi yolu, Sulu dərə, Abbas haləngi (Qışlaq k.), Şəhərcik, Qışlaq yeri, Dilbərli (Şıxlar k.), Orta yer, Qürbət Xəlifə (Sirik k.), Harıs (Cəbrayıl qəzası), Dirili, Aşağı və Yuxarı Xudayarlı yurd yerləri (St. Xəlefli k.), Xudafərin, Hasanlı, Horovlu kəndlərinin ərtafında aşkar edilən və qeydə alınan yaşayış məskənlərinin yurd yerlərində və qala xarabalıqlarının torpaq örtüklərində qalın mədəni təbəqələr mövcuddur.Məscid təpəsi (Qalacıq k.), Günbəz, Dəmçi təpə, İmamqulu təpəsi (Dağtumas k.), Sirli təpə (Hasanlı k.), habelə Şıxlar, Karxulu kəndləri ətrafında, Çaxmaqçay sahillərində torpaq və daşdan tökmə çox saylı süni təpələr isə son neolit, eneolit dövrü və tunc dövrlərinin əvvəllərində kurqan yaratmaq adətlərinin bu ərazilərdə də mövcud olmasına dələlət edir. Həm də bu adətlərin əsasən türk dilli xalqların həyat tərzinə mənsub olduğunu nəzərə alsaq bir daha Cəbrayıl rayonunun inzibati ərazi vahidində e.ə. III-II minilliklərdə türkdilli etnosların yaşadığını təkrar-təkrar təsdiq və təsbit etmiş olarıq. İstər arxeoloji (qədim elm), istər antropoloji (qazıntı zamanı tapılan kəllə sümüklərinin uyğunluğu), istər etnoqrafik (adət-ənənələr, maddi-mədəniyyət təzahürləri, ailə münasibətləri və s.), istərsə də yazılı qaynaqlar dediklərimizi bütünlüklə tamamlayır. Əlqərəz, Cəbrayıl torpağı bəşər cəmiyyətinin ilkin inkişaf dövründən yerli, köklü, yekcins əhalisi tarixən müxtəlif adlı, müxtəlif biçimli, lakin eyni dilli türk tayfalarının yaşadığı, qaynayıb qovuşduğu ən qədim oğuz yurdudur. Bütün yer, yurd, kənd, oba, oymaq, tirə, tayfa adları – nə etnonimlər, toponimlər, antroponimlər, oykonimlər, oronimlər, hidronimlər, xoronimlər, zoonimlər, büsbütün nələr var, nələr, başdan-başa türk mənşəlidilər. Zaman-zaman batıdan-doğuya, doğudan-batıya, quzeydən-güneyə, güneydən-quzeyə köç edən elə bir türk toplumu, türk mənşəli tayfa birlikləri yoxdur ki, onun bu torpaqda yaşantısı, sezintisi, sızıntısı, əsintisi duyulmamış olsun, izi, səsi-sorağı bu torpağa



çökməmiş, hopmamış keçsin. Bu günümüzdə belə o adlar yaşamaqda, qalmaqdadılar.

Diri dağ, Diri, Tiri qala və kənd adları öz varlığını, mənşəyini şumer türkcəsindəki həyat və dirilik mənaları verən tir, tiri sözlərindən alır. Karxulu kənd adındakı kar komponenti şumer türkcəsindəki kar sözünü, Niyazqulular kəndi ərazisindəki Əkərək tapı kövşən adındakı əkərək sözü şumer türkcəsindəki akar, əkər (əkilən yer, sahə) sözünü özündə ehtiva edir. Akara kənd, Əkərə (Həkəri) çay adları da akar, əkər sözlərindən törəmə adlardı. Cingir bulaq, Cingir nənə pirləri (Şahvəlli k.) adındakı cingir sözü şumer türkcəsindəki dingir sözünün bu günki dilimizdə işlənən formasından başqa bir şey deyildir. Bu qəbildən olan al, qaşqa, köyər teonimləri də odərlərdən, sumerlərdən, saklardan üzü bəri yaddaşdan-yaddaşa keçən, yaşayan, bu gün də dilimizdə işlənən yadigar, dəyişməz, köklü sözlərdi. Mənə elə gəlir ki, Azərbaycan və şumer türkcəsindəki teonimlər dərindən və tam şəkildə işlənsə qədim və ortaq bir Azər-Sumer danışıq dili əldə etmiş olarıq. Sübut olunmuşdur ki, miladdan öncə II minilliyin ortalarında, o cümlədən Azərbaycan ərazisindəki dəfn mərasimləri, qəbir əşyaları qədim Mesopotomiya mədəniyyəti ilə oxşardır. Bütün bunlar şumerlərlə Azərbaycan türkünün eyni köklü türk xalqı olmasına tutarlı sübut deyilmi?!

Dağtumas kənd, Tumas-Ata dağ, eyni adlı dağın ən uca zirvəsində qərar tutan, üzü Günəşə yönələn Tumas-Ata qəbir məqbərəsindəki Tumas sözünü Tomiris adına bağlayanlar zənlərində yanılmamışlar. Çünki Tumas adı Tumandan gəlir. Adlarda ancaq “n” hərfi ilə “s” səsinin yerdəyişməsi var. Bununla yanaşı hər iki adın ayamasında adlar üst-üstə düşür. Tuman xaqana Qaraxan deyildiyi kimi, Tumas atanın da ikinci adı Qaraxan olub.Bu gün də Tumas-Atanın Həkəri qırağındakı əkin sahəsinə Qaraxan yeri deyilir. Kəndin qədimliyi isə göz qabağındadır. Belə ki, əhali yeni yaşayış yerlərinə köçərkən habelə köməkçi bin-

alar üçün özül yerləri qazan zaman torpağın alt qatlarından addıma bir iri tutumlu nəhəng saxsı küpləri üzə çıxır. Bu çaxır, şərab küpləri ətrafından tapılan Parfiya çarlığına məxsus metal manatlıqlar göstərir ki, e.ə. II və e. III əsrlərində Dağtumas kəndi (təbii qala yeri) öz çiçəklənmə dövrünü keçirən bir yaşayış məskəni olmuşdu. Habelə, Dağtumasın cənub-şərqindəki kəmərlər otlaq, cənub-qərbindəki kəmərə dağ adları kimer türklərinin də saklarla bərabər bu yerlərdə yaşam izlərindən soraq verən oronimlərdi.

Kovdar kənd, kov dağ keçidlərinin adlarındakı kov komponenti peçenek türklərinin qov tayfa adını, Göyərçin Veysəlli kənd adındakı Göyərçin sözü peçeneklərin küyərçi türk tayfasının adını özündə əks etdirən, yaşadan komponentlərdi.

Qaracallı kənd adı kəngər türk tayfasının qaracalı tirəsinin (Bəydili boyunun bir tirəsi sayanlar da var) adından qalmadı. Bu adda Qubadlı, Xaçmaz, Ucar rayonlarında, Qərbi Azərbaycanın Qırxbulaq və Zarzəm mahallarında çoxsaylı kəndlər olubdu. Sofulu kənd adı kəngərlərin sofulu tirəsinin, Əmirvarlı kənd adı İmirli türk tayfasının, Qovşudlu adı qədim qovşud türk tayfasının, Qarağanlı (Sirik k., Şükürbəyli k.), Qılıclı (Soltanlı k.) oronimləri müvafiq olaraq qədim Qarağan və kılıc türk tayfalarının adlarını özlərində əks etdirirlər.

Qazanzəmi kənd adı e.ə. II əsrdə Şimali Qafqaza gələn bulqar türklərinin Qazan tayfasının Qazanzəmi tirəsinin, Çaxırlı kənd adı bulqarların çakir tayfasının, Xubyarlı kənd adı isə bulqarların xuvyar tayfasının adını bir araya gətirir. Bu adlarda respublikamızın müxtəlif bölgələrində, Qərbi Azərbaycanın ayrı-ayrı mahallarında onlarla kənd adları olubdu. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Çakirli kənd adlarını Çar Rusiyasının işğalından sonra vergi yığmaq məqsədi ilə 1923-cü ildə siyahıya alma aparan senator Magilevski və polkovnik Yermolov tərəfindən təhrif edilərək Çaxırlı şəklində qələmə alınıblar. Bundan



başqa Qazan tayfası eramızın I əsrində Hunların, eramızın V-VII əsrlərində isə suvar, avar və xəzər türklərinin tərkibində də təkrar-təkrar Azərbaycan ərazilərinə daxil olmuşlar.

Çullu və Quşçular kənd adları eramızın II əsrində Azərbaycan ərazisinə gələn Qara Hunların Çol və Quşdan türk tayfalarının adından qalmadı. Ağdamda, Zəngəzurda, Şərurda, Dərələyəzdə Çullu adında, habelə respublikamızın müxtəlif bölgələrində Quşçu adında onlarla kəndlər var. Dağtumasda Şatır Alı, Sirikdə Şatır Mahmud nəsillərindəki şatır sözü Hun türklərinə məxsus olan şatır tayfa adını özündə əxz edir. Şatır sözü qədim türkcədə çapar mənası verən sözdür. Şatır tayfa adı ilə bağlı Bərdə, Cəlilabad, Masallı, Zəngilan rayonlarında çox saylı yer, yurd, kənd, çay adları mövcuddur. Hazırda Türkiyə və İran ərazilərində şatır tayfaları yaşayan kəndlər, obalar var.

Qullular tayfası (Dağtumas k.), İnçə kəhrizi, İnçə dərəsi, İnçə düzü (Dağtumas k.) adlarındakı qul və inçə sözləri müvafiq olaraq Qıpçaq türklərinin qul və inçə tayfalarının adlarını özlərində əks etdirən sözlərdi. Köhnə Tağ, Tuğ kəndi (Cəbrayıl qəzası), Tağlı yatağı (Çərəkən k.), tağlı tayfası (Şıxalıağalı k.) adlarındakı tağ, tuğ sözləri müvafiq olaraq Qıpçaq türklərinin taq, tuq tayfalarının bu yerlərdə məskun olmalarından xəbər verir.

Şıxlar kənd adı V-VII əsrlərdə Azərbaycana axın edən xəzər türklərinə məxsus qazax tayfasının şıxlar tirəsinin izini, varlığını özündə yaşadır.

Bəydili yeri, Bəydili arxı (Soltanlı k.), Cüllab düzü, bəydililər, pürnək, bayatlar nəsil adları (B.Mərcanlı k.), Bala Bayat kənd adı (tədqiqatçı F.Abbvsov Balyand kənd adının bu sözdən törəməsini qeyd edir) müvafiq olaraq 24 oğuz boylarından olan Bəydili, Bayindir, Boyat boylarının adını özlərində doğmalaşdırırlar. Soltanlı kənd adı

Şəcərayi – tərakimədə adı çəkilən sultanlı obasının, soltanbud toponimlərinin adını özündə inikas etdirir.

Horovlu kənd adındakı Hor və horov komponentləri xürrəmilərdən, Sur kənd adı (Cəbrayıl qəzası) Cəlayir türklərinə məxsus sur tayfa adından, Mirənşə meşə adı (Dağtumas k.) vaxtı ilə bu yerlərdə qoşunu düşərgə salmış Teymurləngin oğlu Miranşahın izindən xəbər verir. Hun düzü (Quycaq k.) toponimi isə Hun türk tayfalarının bu ətrafda yaşamalarına dəlalət edən faktorlardan biridir.

Dolanlar, Domu kənd (Cəbrayıl qəzası), Tatar kənd, Dom-Ata (Yarəhmədli k.) qəbir məqbərə, Tulus kənd, Tinli kənd adları XIII əsrdə Azərbaycana yürüş etmiş Monqol-tatar qoşunlarının tərkibində olan türk mənşəli tolon, tomon, tolos və tin tayfalarının adlarını özündə yaşadırlar.

Bütün bunlarla yanaşı bu kimi təsdiqlər Cəbrayıl rayonunun ərazisindəki maddi-mədəniyyət və memarlıq abidələrinin təqdimatında da öz əksini tapır. Bu təqdimatın parlaq nümunələrindən biri Azərbaycan memarlıq tarixinə adı qızıl hərflərlə yazılan, monumental sənət nümunəsi sayılan Baş Xudafərin körpüsüdür (11 aşırımlı ). Baş Xüdafərin körpüsü e.ə. VII əsrdə Böyük Turan xaqanı (Sak hökmdarı) Alp Ər Tunq (Əfrasiyab) tərəfindən salınmışdı. Fars mənşəli Xudafərin adını isə sasanilərin hakimiyyəti dövründə almışdı. Sasanilər Parfiya çarlığının hamiliyini Albaniyadan uzaqlaşdırdıqdan sonra burada öz hakimiyyətlərini bərqərar etmişlər. Bu zaman bir sıra adları farslaşdırmaları tarixə məlumdur. Belə ki, Peşeneklər ölkəsini Əhristan, Ərsaq mahalını Dizaq adlandırmışlar. Bununla bir sırada Roma şairi Vergilinin hələ e.ə. I əsrin 70-19-cu illərində Araz körpüsü adlandırdığı Alp Ər Tunq körpüsünə isə görünüşcə ilahidən yaranma olduğunu vəsf edərək Xudafərin adı vermişlər;

**Haşiyə-1:** Qəribədir, erməni müəllifləri həyasızcasına Baş Xudafərin körpüsünün II Tiqran tərəfindən, rus müəlliflərinin bir qismi Makedoniyalı İsgəndər tərəfindən, başqa bir qismi Roma sərkərdəsi Pompey tərəfindən, digər bir qismi erkən orta əsrlərdə, fars tarixçiləri Sasani şahı IV Qubad tərəfindən, müsəlman tarixçilərinin bir qismi xilafət zamanında, başqa bir qismi isə daha qədim zamanlarda tikilməsini qeyd edirlər. Lakin Gəncə şəhərinin tarixi ilə bağlı tədqiqatlar apararkən mənə bəlli oldu ki, həm Gəncə şəhəri, həm də Xudafərin körpüsü qurucu hökmdar kimi tanınan Böyük Turan xaqanı Alp Ər Tunq tərəfindən salınmış və tikilmişdilər. Birincisi, Firdovsi öz «Şahnamə»sində İran qoşunlarının Əfrasiyaba qarşı yürüş istiqamətini bir qayda olaraq şərqdən-qərbə hərəkətdə göstərir. Deməli, Azərbaycan Turanın tərkib hissəsidir. İkincisi, Nizami öz Xəmsəsində Gəncənin Babil yaşda olmasını dilə gətirir. Tarixi mənbələrdə Alp Ər Tunqun sak türklərinin Gəncək tayfasına mənsub olması qeyd edilir. Həmin dövrlər artıq sak hökmranlığının Babilistanda çökməsi, Midiya hakimiyyətində türk mövqeyinin zəifləməsi, fars elementlərinin surətli şəkildə çoxalması fövqündə Alp Ər Tunq məcburiyyət qarşısında qalaraq Urmiya gölü civarında yerləşən gəncək tayfasının gələcəkdə təhlükəsizliyini təmin etmək üçün Azərbaycanın şimal ərazisinə köçürür. O, bu məqsədlə Araz üzərində körpü saldırmaq fikrini əfsəl sanır və Xudafərin körpüsünü tikdirir. Bundan sonra isə Gəncək tayfasını indiki Gəncəbasar ərazisinə köçürür. Beləliklə 11 aşırımlı baş Xudafərin körpüsü tikilmiş olur.

Araz üzərindəki ikinci, 15 aşırımlı Xudafərin körpüsünün tikilməsi barədə də əsasən iki ehtimal irəli sürülür. Birinci ehtimala görə 15 aşırımlı körpü Elxanilərin hakimiyyəti dövründə böyük nüfuz sahibi olan Qarabağ və Qaradağ Şıxları tərəfindən XIII əsrdə tikilməsi söylənilir. İkinci ehtimala görə isə bu körpünün I Şah Abbas tərəfindən tikdirildiyi qeyd olunur. XVI-XVII əsrlərdə Osmanlı sultanları ilə səfəvi şahları arasında gedən qanlı müharibələr zamanı I Şah Abbasın geri çəkilərkən və ya hələ

müharibə başlanmazdan öncə bir qayda olraq Osmanlı qoşunlarının keçə biləcəyi əraziləri, abad yerləri xarabazarlığa çevirməsi faktdır. Daha doğrusu, onun bu sayaq müharibə aparmaq taktikası tarixə bəllidir. Söz yox ki, o, həmin dövrlərdə Osmanlı sultanları ilə apardığı müharibələr zamanı Baş Xudafərin körpüsünü də yararsız hala salmamış deyildi. Qələbə çaldıqdan sonra isə 11 aşırımlı körpünü yenidən bərpa etməyin mümkünsüz olduğunu görüncə XVI və XVII əsrlərin qovşağında 15 aşırımlı körpünü tikdirməsi güman edilir. Deməli, birinci ehtimal ehtiyatdan , ikinci ehtimal isə zərurətdən yaranmışdı. Hər halda ikinci ehtimal daha ağlabatandır. Bunu da əlavə edək ki, I Şah Abbas dövründə köhnə Gəncə şəhəri indiki yerinə köçurulmüş və yenidən tikilmişdi. Gəncənin həmin dövürdəki tikinti memarlığı ilə 15 aşırımlı körpünün görünüşü və tikilişi eyniyyət təşkil edir. Məncə ikinci ehtimala güvənc daha çoxdur.

Yeri gəlmişkən qeyd edək ki, bizim zamanımızda tikilən 5 aşırımlı üçüncü körpü isə ağır tonajlı yük avtomaşınlarının hərəkəti üçün nəzərdə tutulmuşdu. Tikintisinə 80-ci illərin ikinci yarısında başlanan 5 aşırımlı Xudafərin körpüsü 25 aprel 1993-cü il tarixdə istifadəyə verilmişdi.

İndi erməni-daşnak faşizminin işğalı altında qalan Xudafərin körpüləri bu günlərdə, habelə uzun illər öz keçmiş iqtisadi-siyasi əhəmiyyətini itirsə də xalqımızın tarixi, maddi-mədəniyyət abidəsi, mənəvi sərvəti, Azərbaycan xalqının Vəhdəniyyətinin simvolu, rəmzi kimi həmişə yaşardı. Bu günün özündə də Cənnət Qarabağımızın erməni-daşnak faşizminin işğalından azad edilməsi baxımından mübarizə və mücadilə ruhumuzu yüksəltməkdə misilsiz əhəmiyyət kəsb etməsi məlum məsələdir. Üçrəngli bayraq qəlbimizin odu, atəşisə, Xudafərin körpüləri vuran nəbzimizin özüdür. Ürəkdən-ürəyə açılan qapıdır. Bu körpü üstə Alp Ər Tunqun ruhu, nəfəsi, arzu-diləyi yaşayır. Xudafərin körpüləri Azərbaycan varlığının nüvəsidir.



Vahid və bütöv Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin simvoludur.

**Haşiyə-2:** Tarixçilərimiz arasında türkün ilkin yurdu, göbəkkəsdi yeri haqqında fərqli, bir-birinə əks baxışlar mövcuddur. Bir qisim tarixçilər türklərin ilkin olaraq Qafqazlarda təşəkkül tapdığını və Altaylara miqrasiya etdiyini və qayıdışını deyir, başqa bir qismi isə əksinə, birinci olaraq Altayların Qafqazlara inikası fikrində israrlıdılar. Mən məsələyə aydınlıq gətirməzdən öncə bir hipotez haqqında çözmə aparmaq istərdim. 5 milyard il öncə böyük partlayışdan sonra yaranan yer kürəsi şübhəsiz ki, odlu kütlə şəklində olmuşdu. Sözsüz ki, birinci insan yaranışının, daha doğrusu canlı orqanizmin doğulma və yaranma tarixi, sanlanma prosesi çox uzun bir dövrü əhatə edir. İlk insan yaranışının başlanğıcı 3 milyon il əvvələ aid edilir. Onda tədrici canlanmanın perspektivi, ilk inkişafı üçün münbit şərait ancaq və ancaq odlu kürəmizin soyuma prosesi nisbətən daha tez başlayan nahiyəsində ola bilmə ehtimalı tamdı, danılmazdı. İlk belə bir münbit şəraitin yarandığı ərazi kimi Sibir bölgəsini qəbul etməyin mümkünlüyü labüddür. Eləcə Baykalda 200 minillik tarixə malik türk qəbirlərinin aşkar edilməsi təəccüb doğurmur. Sibirin və Sibir dağlarının qalın buz və qar qatının altında, donu açılmamış torpaq təkində hələ bizə məlum olmayan çox sirlər, öyrənilməmiş insan izləri yatır. Biz ilk insanın doğum məkanını Aralıq dənizi hövzəsində, Nil ətrafında deyil, Sibirdə axtarmalıyıq. Türkün doğum tarixi insan oğlunun yaranışı qədər qədimdir. İqlim balansının, buna müvafiq türk insanının yer dəyişməsi zaman-zaman türk dilində və türk insanında öz rəngarəngliyini irq çalalarında, rəng çeşidlərində, iri miqyaslı köç və yayılma arenasında özünü göstərir. Türk dilli xalqların avropoidlərin, monqoloidlərin, qırmızı dərili hindular arasında mövcudluğu, İtaliyada tursakaların, Fransa torpaqlarında odər elementli daş kitabələrin mövcudluğunun tarixçilər tərəfindən

etirafı çox mətləblərdən xəbər verir. Türk dilli xalqların həm Avrasiya, həm də Şimali Amerika materiklərində avtoxtonluğu olduğundan Turan məkanının bütövlükdə Kürreyi-Ərzin Şimal Yarımkürəsini əhatə etməsi fikrini doğurur. İstər Ulu insan, istər Ulu dil, istərsə də Tək Allahlığın fövqündə Türk insanının, Türk dilinin, Türk Tanrısının durması faktı gec-tez tarix elmi üçün qarşısı alınmaz və danılmaz, özünü təsdiq edən faktlar olacaqdır. Yaxın şərqdə, «İki çay arasında» şumer türk tayfalarının mövcudluğu tarixə məlum ilk birinci köç görüntüsü kimi qəbul edilir. Bu miqrasiya dini baxışlarda insanın, Adəm övladının yaranma tarixi ilə üst-üstə düşür. Doğurdan da Adəmlə Həvvanın cənnətdən qovulma, Tovidin təbliği, peyğəmbərlərin doğum təvəllüdləri, Bibliya nağıllarının yaranma tarixləri Şumer türklərinin Yaxın Şərqə gətirdikləri Tanrıcılıq kultunun nəticəsi kimi özünü göstərir. Türk tarixi antropolisi konteksində axtarmaqla deyil, insanın, insanlığın yaranması, dilin yaranması kontekstində araşdırılmalıdır. Belə bir konsepsiyanın qəbulu bütün suallara cavab verəcəkdi. Mürtəce antitürk və hind-avropa konsepsiya və baxışlarının tüğyan etdiyi bir zamanda həqiqi elmi konsepsiyalara meydan verilməməsi başa düşülən və dərk olunandı. Ümumiyyətlə, türklərin "Altaydan çıxma" nəzəriyyəsi qəbul olunandı. Lakin onların Altaydan şərqə, qərbə miqrasiyasının tarixi yüz min illərlə öncədən başlayır. Lakin oryentrist tarixçilərin hələ ki, qəbul etdikləri şərqdən qərbə ilk köçü m.ö. VI-III minilliyə təsadüf edəni şumer və iskit türk tipidir. Bundan öncə baş verən köçlər, yerdəyişmələr hələ də tarixin qaranlıq qatlarında qalmaqdadır. Şimal yarımkürrəsinin bir nöqtəsindən türkün istər şərq, istərsə də qərb yarımkürəsinə ibtidai insan olaraq köç etməsi diqqət çəkəndir. Bu köçün tədricilik prosesinin mərhələləri yüz min illərlə, bəlkə də, milyon illərlə ölçüldüyünü nəzərə alsaq qənaətimizə geçəklik kimi baxmış olarıq. Türk mənşəli ilk insan icmalarının, odərlərin(Pəhləvi, sami şivələrin-



də azərilərin) Qafqazlara ilk axını milyon illərin o taylarından üzü bəri baş alıb gəlir.

**Haşiyə-3:** Antitürk tarixçilərin ən çox gəvələdikləri fikirlərdən biri də «Azərbaycan-Atropatenan ölkəsi deməkdir» ifadəsini tutuquşu kimi təkrarlamalarıdı. Halbuki Odər yurdu, Odlar ölkəsi, Odər-Azər sözünün işlənmə tarixi Atropatena adından 2-3 min il öncəyə təsadüf edir.Odərlər şumer və iskit türk tipinin alt qatında duran ilk türk mənşəli insan icmaları və toplumları kimi özünü büruzə verir. Azər sözü ilk dəfə yazılı ədəbiyyatda, daha doğrusu, İbrahim peyğəmbərin atası Azər baba adı kimi Bibliya hekayələrində çəkilir. Xalqımızın minillikəri aşıb gələn qan yaddaşı, mifik düşüncəmiz keçmişi bu günümüzə çatdıran əvəzsiz sərvərdir, mənəvi dəyərdir. Hər birimiz unutmamalıyıq ki, Böyük və Ulu tariximizin canlı daşıyıcıları qan yaddaşımızdan keçir. Azərbaycan sözünün ilkinliyini Atropatenaya bağlamaq qətiyyən yol verilməzdi. Atropat və ya Atropatena Odərin böyüyü (Azərin böyüyü) mənasını verən sözdən başqa bir şey deyildir. İran dilli etnoslar Azərbaycan ərazisinə daxil olanda artıq türk etnosları, türk mənşəli odərlər buranın oturuşmuş sakinləri olub. Odəri pəhləvi və sami dillilər Azər şəklində ifadə etmişlər. Bir sözlə Azərbaycan Odər yurdu, Odərlərin yurdu, Odlar yurdu deməkdir. Bu fikri yazalı məxəzlərdə inkar etmək olmaz. Sadəcə əxz etmək, həzmi-rabedən keçirmək lazımdır.

**Haşiyə-4:** Cəbrayıl qəzasında və ya Yuxarı Qarabağda ermənilərin məskunlaşmasının tarixi məsələsi də mübahisəli söz oyunu olduğundan bu problemə də şərh verməyi lazım bilirik. Çar Rusiyasının 1842-ci ildə Şuşa qəzasının Vərənd uçaskasının – sonralar Cəbrayıl qəzasının tərkibinə daxil olan erməni kəndlərində apardığı siyahıya almada Cəbrayıl rayonu ilə həmsərhəd erməni kəndləri əhalisinin haradan köçüb gəlməsi barədə müfəssəl məlumatlar vardı (F.29. Siyahı 1):

Hərəkül – 1828-42-ci illər arasında xaricdən və Çelaberdin Çardaxlı kəndindən köçüb gəlmiş və Şıxalıağalı torpağında məskunlaşmışlar; Binnətli – 1840-cı ildə İrandan gəlmiş erməni ailələridi. Feyzulla bəy Mehralı Minbaşı oğlunun torpağında yerləşiblər; Daşbaşı–1837-ci ildə İrandan gəlmədilər və Şıxalıağalı torpağında məskunlaşıblar; Cilan–1828-40-cı illərdə İrandan gəlmədilər, Cəbrayıl mülkədarı Hüseyin bəyin torpağında məskunlaşıblar; Şayaq–1840-cı ildə Çelaberdin Qabartı kəndindən köçüb gəlmədilər; Quşçular–1829-cu ildə İrandan köçüb gəlmədilər, Doşulu torpağında məskunlaşıblar; Məlikcan–1829-39-cu, Xırmancıq–1840-cı, Arış–1836-cı illərdə İrandan köşüb gəlmədilər, polkovnik Cəfərqulu ağanın torpaqlarında yerləşiblər; haradan gəlmələri göstərilməyən Sur, Banazur, Mülkədərə kəndlərinin isə polkovnik Cəfərqulu ağaya, Zamzurun proporşik Əlibəy Tanrıqulu oğluna, Ağcakəndin Şirxan bəyə məxsus olduqları göstərilir; Siyahıya almaya adı düşməyən Dolanlar kəndi 1860-cı illərdə İrandan gəlmə olub, Keçəlməmmədli kəndinin Dolan yatağı adlanan yazlaq yerində məskunlaşıblar. Günü bu gün də ətraf kəndlərin əhalisi tərəfindən Təzəkənd adlanır. Köçmə tarixləri göstərilməyən erməni kəndlərinin Xaçın çay hövzəsi çıxmaqla Yuxarı Qarabağda yerləşmə tarixləri XVI əsrin axırlarına – XVII əsrin əvvəllərinə təsadüf edir. Səfəvi şahları ilə Osmanlı Sultanları arasında davam edən aramsız müharibələr nəticəsində bu və ya digər tərəfin məğlub və ya qalib gəlməsindən asılı olaraq məcburi miqrasiyaya məruz qalan sünni və ya şiə qardaşların – türklərin boşalmış kəndlərinə erməni ailələri yerləşdirmişlər. Xüsusilə də, ermənilərin Yuxarı Qarabağa köşürülməsi ermənipərəstliyi ilə seçilən I Şah Abbas tərəfindən planlı şəkildə həyata keçirilmişdi.Təkcə bir faktı qeyd edək ki, erməni tarixçisi Kanakerli Zakari (Xronika, M. səh. 113) göstərir ki, ermənilərin Gəncə-Qarabağ əyalətinə köşüb gəlmələri Osmanlıların 1635-ci ildə İrəvan



bəylərbəyliyini tutmaları ilə də bağlı olmuşdu. Belə ki, İrəvan xanı əhaliyə qarşı əyalətlərə köçmə əmri verir. O zaman ermənilər Gəncəyə, Zəyəmə, Vərəndə, Xaçına, Keştəyə köçür. Əlavə olaraq bildirmək lazımdır ki, erməni ailələri boş qalmış türk kəndlərinə köçmüşlər. İndi də bütün kəndlər türk mənşəli kənd adlarını saxlayıblar. Ümumiyyətlə, Yuxarı Qarabağda erməni dili ilə izah olunan və cüzi sayda olan, toponimlərin yaranma tarixi Rus imperiyasının erməni ailələrini kütləvi şəkildə İrandan və Türkiyədən Yuxarı Qarabağ bölgəsinə köçürmələrindən sonraya, daha çoxu isə sovet dönəminə təsadüf edir. Ümumiyyətlə, Yuxarı Qarabağ erməniləri prinsip etibarı ilə iki yerə bölünürlər: gəlmə ermənilərə (qartağanlar) və dönmə və ya tərs düşmüş ermənilərə (şurtvatslar); Erməni müəllifi B.İşxanyan yazır: "Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi qədim albanların nəslindəndir... digər hissəsi Türkiyədən, İrandan gəlmiş qaçqınlardır. Azərbaycan torpaqları onlar üçün təqiblərdən sığınacaq yeri olmuşdur." Tanınmış erməni akademikləri İ.A.Orbeli, S. T.Yeremyan və başqaları da bir tərəfli də olsa bu tarixi gerçəkliyi inkar və ya təkzib etmək iqtidarında olmamışlar. Burada İşxanyan dönmə erməniləri Alban nəslinə bağlamağa cəhd etmişdir. Halbuki, dönmə ermənilərin albanlarla heç bir milli bağlantısı yoxdur. Dönmə ermənilərin özləri də Qarabağa gəlmə qeyri-türk dilli udin dillilərdən başqa bir kimsə olmamışlar. Beləki, Yuxarı Qarabağ ərazisinə daxil olan 5 erməni məlikliyindən 4-ünün, Dizaq, Vərənd, Çelaberd və Gülüstanın əraziləri XV – XVI əsrlərədək tam ermənisiz ərazilər olmuş, burada ancaq və ancaq türk etnosları yaşamışlar. Dönmə ermənilər əsasən Xaçınçay vadisindəki – Canyataq, Gülyataq, Ballıqaya, Bazarkənd, Şahmarlı, Vəng, Dovşanlı, Koladəy, Seyidbəy, Ulubaba, Həsənriz, Qızılkörpü, Qızılqaya, Mehmana, Ortakəndlər hesab olunur. Demək olar ki, bu kəndlərin heç birində qriqoryan və ya alban kilsələri olmamışdır. Dindarlıq dərəcə-

ləri gəlmə ermənilərə nisbətən çox aşağı səviyyədə olmuşdur. Ətrafdakı alban kilsələrinə belə rəğbətləri olmamışdır. Sadəcə olaraq onlar, yəni dönmə ermənilər gəlmə ermənilərdən bir neçə əsr öncə bura köçmüş udinlər və ya udindillilər olmuşlar. Xilafətin əl altısına çevrilmiş, alban kilsələrini öz hökmranlığı altına almış qriqoryan kilsəsinin təcavüzü altında dinlərini saxlayaraq dillərini dəyişmiş və tədricən erməniləşmişlər. Qılıncdan keçirilən Alban türkləri isə dinlərini dəyişsələr də dillərini saxlamışlar. Boş qalmış bütöv türk kəndlərində, yer-yurdlarında isə dönmə ermənilərin əcdadları məskunlaşmışlar. Udindillilərin bu civarda məskunlaşmasını üç mərhələyə bölmək olar. Alban katalikosu 551-ci ildə Çoldan Bərdə şəhərinə köçürülərkən və ya 630-cu ildə Albaniyanın paytaxtı Qəbələnin süqutundan sonra Bərdə şəhərinə köçərkən udinlərin Xaçın civarına axın etmələrinə səbəb olmuşdu. Dönmə ermənilərin alban türklərinə mənsub olmamalarına dəlalət edən daha iki nüansa toxunmaq istərdim. Dönmə ermənilər yaşayan kəndlərin ətrafındakı alban kilsələri baxımsızlıqdan uçulub dağılmış, xarabazarlığa çevrilmişdi. Hələ də dönmə və gəlmə ermənilər daşları üzərində Alban xristianlığına məxsus xaç nişanları olan və ya olmayan məbədlərə yaxın düşmürlər. Halbuki, biz Qarabağ türkləri üstə alban xaç nişanı olmayan, lakin alban kilsələri ilə eyni memarlıq formasında olan alman məbədlərinə bu gün də pir, ziyarərgah kimi baxırıq. Ziyarət dağının (Ocaqqalanan da deyilir) zirvəsindəki alban məbədinə Dağtumas, Əhmədli, Sirik oymaqlarının camaatı inanc ocağı kimi sitayiş edir, qurbanlar kəsirlər. Bu məbədin daşlarında alban xristianlığını əks etdirən xaç nişanəsi-filan yoxdur. Dönmə ermənilərlə yanaşı gəlmə ermənilərin özləri də alban xaç nişanı olan kilsələrə zaman-zaman yaxın düşməmişlər. Rus tarixçilərinin Gəncəsər məbədinə ən çox elat türkləri inanc göstərir demələri və bu tip yazılarını oxuduqdan sonra bu məbəddə olmuş dostlarımdan



öyrəndim ki, həqiqətən Gəncəsər məbədinin daşlarında alban və ya digər xaç nişanı-filanı olmamışdı. Nəhəng sal divar daşları üzərində dəvə karvanlarının şəkilləri həkk edilmiş cizgilər olmuşdu. Yaxınlıqdakı Vəng kəndinin dönmə erməniləri məbədə ancaq sovet dönəmində mayovkadan-mayovkaya yeyib içmək üçün, şənlik, məclisi təşkil ediləndən - edilənə getmişlər. Qarabağ ətrafında söz--söhbətlər çıxandan sonra isə karvan şəkilləri yonulub daşlardan silinmişdi. Abidələrin bərpası adı altında məbəddə yenidənqurma işləri görən erməni ustaları onu kilsə halına salmağa cəhd göstərmişlər. Halbuki, XIII əsrdə yarım-müstəqil Xaçın knyazlığı yaradan Həsən Calal bu məbədi knyaz iqamətgahı və ya karvansara xidməti qismində tikdirmişdi. Nəslin son nümayəndəsi isə XV əsrdə xəyanətkar ermənilər tərəfindən zəhərlənərək məhv edilmişdi. Burada bir məsələni qeyd etmək lazımdır ki, ermənilər alban türklərinin irsini mənimsəmək prosesinə VIII əsrdən başlayaraq əsrlər boyu bu işi davam etdirmişlər, günü bu gün də öz saxtakarlıqlarından əl çəkməmişlər. Məsələni daha çox siyasiləşdirməklə öz iyrənc arzularını reallaşdırmaq əzmindədilər. Bizsə İslamdan öncəki doğma əcdadlarımıza kavur damğası vurmaqla, irslərinə sahib durmaqdan uzaq düşməklə ermənilərin öz iyrənc arzularını həyata keçirmələri üçün yolları üstə yaşıl işıq yandırmışıq.

Daha bir nüansı da qeyd etmək yerinə düşər ki, Böyük Qafqazdakı alban məbəd və kilsələri ilə Kiçik Qafqazdakılar arasında gözlə asan müşahidə edilən fərqləndirici memarlıq üslubları var. Kiçik Qafqazda tikilən məbədlər balıqbeli və uzunsov düzbucaqlı şəklindədir. Böyük Qafqazdakıların tavanı günbəzvari və oturacaq ölçüləri kvadrata yaxındır. 1-cilərin daxilində heç bir əlavə gözlər və ya yardımçı xidmət guşələri yoxdu. İkincilərdə isə müxtəlif tipli arakəsmələr mövcuddur. Özlərini ağvan adlandıran dönmə ermənilərin XVIII əsrdə Gəncə şəhərində tikdirdi-

kləri alban kilsəsi ikinci memarlıq tipindədir. Alban xaç nişanlarına rast gəlinmir. Bir sözlə, dönmə ermənilər daha doğrusu tərs düşmüşlər udin tipli etnoslardan qeyri kimsələr olmamışdı. Alban türklərinə məxsus xaç nişanlı kilsələrdən belə imtina etmiş, üz döndərmişlər. Udinlərin erməniləşməsi prosesinin üçüncü mərhələsi bu günün özündə də bizim gözlərimiz qarşısında baş verən bir prosesdir.

**Haşiyə-5:** Çaxmaq çaylağının yuxarı hövzəsində yerləşən və Əhmədli oymağı olan 5-10 evli Gödəklər kəndinin Cəbrayıl rayonunun yaşayış məntəqəli sırasında Kürdlər kənd adıyla qabardılması və kitabdan-kitaba köçürülməsini bilməməzlikdən, yoxsa qəsdən hallandırılmasının nə məqsəd daşımasının fərqinə varmazdım, hərgah ikinci belə bir faktla rastlaşmasaydım. 2001-ci ildə buraxılmış Cəbrayıl xəritəsində Diri dağının adı yerinə kürd qəbiristanlığı sözləri yazılmasını, zirvənin dəniz səviyyəsindən hündürlük ölçüsünü göstərən rəqəmində bu adın altında yazılmış olduğunu görməsəydim. 1-ci halda Kürdlər Gödəklər kəndinin ayamasıdır. 2-ci halda isə 7 qəbirin yerləşdiyi kiçik təpəcik Diri dağının quzeyində, dərənin dibində, hardasa Araz çayının səviyyəsində olub, köhnə karvan yolunun kənarında yerləşir. Dövri-binadan Qaradağlı qəbiristanlığı adlanıb. Hətta, mən bu qəbiristanlığın yaranmasına səbəb olan hadisəyə «Qarabağ kişisi» adlı bir hekayə də həsr etmişəm. 7 nəfər həmin Qarabağlı çapavılçısı Dağtumaslı Aşıq Şükürün qoyun sürüsünü Arazdan o taya adladmaq istərkən ikinci tərəfin silahlı dəstəsi tərəfindən qətlə yetirilmişlər. Meyitləri həmin təpəcik üstə basdırılmışdı.

Görünür müqəddəs Cəbrayıl torpağının halallığına xələl gətirən barmaqlar hələ də kəsilməmişdi, hələ də aramızda öz çirkin işini görməkdədir. Hələ də saflaşa bilmirik. Hələ də içimizdə öz işini görən erməni barmaqlarını kəsib atmaq iqtidarında deyilik.



# CƏBRAYIL RAYONUNUN MÖVCUD İNZİBATİ ƏRAZİSİNİN ZAMAN-ZAMAN DAXİL VƏ YA TABE OLDUĞU AYRI-AYRI İCMA VƏ DÖVLƏT QURUMLARININ SİYAHISI

∑ Başlanğıcı bilinməyən ən qədim zamanlardan, daha doğrusu (-∞ )-dan m.ö. VI minilliyədək türk mənşəli odərlərin – ilk insan toplularının və icmalarının yaşadığı baxımsız bölgə olub;

**Haşiyə:** Odər sözü Pəhləvi və Sami dillərdə azər kimi tələffüz edilən sözdür. Şübhə yoxdur ki, Təkallahlığın ilk təbliğatçısı İbrahim Peyğəmbərin atası Azər baba da odərdən törəmədir. İbrahim Peyğəmbərin atasının Ərəbistan yarmadasına gəlmə olması Türk Tanrıçılığının iudizm, xristianlıq və İslam dinlərinin fövqündə və qaynağında durmasına isnad və bir daha dəlalət edən faktordur.

∑ m.ö. VI minillikdən – m.ö. II minilliyədək şumer və şumer tipli türk tayfalarının sıxlaşdığı ərazi olub;

∑ m.ö. XX yüzillikdən – m.ö. V yüzilliyədək Böyük Sak və ya Turan adlanan xaqanlığın Ərsaq adlanan vilayətinin tərkibinə daxil olub;

∑ m.ö. V yüzillikdən m.ö. IV yüzilliyədək Midiyada hakimiyyəti ələ keçirmiş fars mənşəli Əhəmənilər sülaləsinin hakimiyyəti altına keçib. Ərsaq vilayətinin inzibati ərazisi genişləndirilərək burada peçenek türk tayfasından olan tirələrin daha çox cəmləşdiyi nəzərə alınaraq Ərsaq adı Peçenek ( Pazkank ) ölkə adıyla əvəzləşdirilib;

∑ m.ö. IV yüzillikdən – m.ö. II yüzilliyin birinci yarısınadək Əhəmənilər sülaləsini çökdürən Makedoniyalı İsgəndərin hökmranlıq etdiyi dövlət qurumunun tabeliyində olub. Bu zaman Peçenek ölkə adı inzibati ərazisi aşınmaya məruz qalır. Alban türklərinin tayfa birliyinin nüfuz dairəsi artır. Albaniya adlı dövlət qurumu yaranır. Albaniya-

nın tərkibində vilayətin adı yenidən bərpa edilərək Ərsaq adlanır;

∑ m.ö. II yüzilliyin birinci yarısından – e. 250-ci ilinədək Parfiya çarlığının himayəsində olan Albaniyanın hakimiyyəti altında olub;

∑ III yüzilliyin II yarısından – V yüzilliyədək İran Şahənşahlığını yaradan Sasanilər sülaləsinin hakimiyyəti altında olub;

**Haşiyə:** Albaniyanı öz hakimiyyətləri altına keçirən və bu dövrdə Ərsak ölkəsinin inzibati ərazisini genişləndirən Sasanilər Ərsak ölkəsinə Əhristan, inzibati ərazisi kiçildilən Ərsak vilayətinə isə Dizak mahal adı veriblər. Hər iki ad fars mənşəli sözlərlə əvəzlənibdi. Albaniyada hökmüranlıq isə ərsak türklərinin əlindən çıxıb. Hakimiyyət Mığrı türk tayfasından olan Mığrılar-fars yazılarında Mehranilər adlanan sülalənin ixtiyarına keçib. V-VII əsrlərdə xəzər türklərinin çox saylı tayfa və tirələrinin bu ərazilərdə cəmləşməsi ilə bağlı Əhristan adı Qarabağ, Albaniya adı isə tədricən Aran adıyla əvəzləşibdi;

∑ V yüzillikdən – VII yüzilliyədək Albaniyanın adı ilə eyniləşən Aran şahlığının tərkibində olub;

**Haşiyə:** Dizak mahal adı inzibati ərazi vahidi kimi Qarabağ xanlığının Çar Rusiyasının tərkibinə ilhaq edilməsinədək, XIX əsrin əvvəllərinədək saxlanılıb. Bu ad, hətta, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra yenidən bərpa edilib. DQMV yaradılarkən Dizak adı, mərkəzi Hadrut yaşayış məntəqəsi olan rayona verilən bir ad olub;

∑ VII yüzillikdən – IX yüzilliyin 80-ci ilinədək xilafətin hakimiyyəti altına düşən Qarabağ vilayətinin tərkibində olub;

∑ 880-ci ildən 940-cı ilədək Sacilər; ∑ 940-ci ildən 981-ci ilədək Salarilər; ∑ 981-ci ildən 1054-cü ilədək Şəddadilər dövlətinin tərkibində olub;



∑ 1054-cü ildən 1157-ci ilədək Səlcuq imperatorluğunun; ∑ 1157-ci ildən 1256-cı ilədək Atabəylər (Eldəgizlər) dövlətinin tərkibinə daxil olub;

∑ 1256-cı ildən 1344-cü ilədək Elxanilər; ∑ 1344-cü ildən 1358-ci ilədək Çobanilər; ∑ 1358-ci ildən 1386- cı ilədək Cəlayirlər; ∑ 1386-cı ildən 1410-cu ilədək Teymurilər dövlətinin hakimiyyəti altına düşüb;

∑ 1410-cu ildən 1468-ci ilədək Qaraqoyunlular; ∑ 1468-ci ildən 1501-ci ilədək Ağqoyunlular; ∑ 1501-ci ildən 1736-cı ilədək Səfəvilər dövlətinin tərkibinə daxil olub. Qaraqoyunlular və Ağqoyunlular dövlətlərinin tərkibinə Qarabağ vilayətinin Dizak mahalı, Səfəvilər dövlətində isə Qarabağ bəylərbəyliyinin Dizak mahalı kimi adlanan inzibati ərazi bölgüsünün tərkibində olub;

∑ 1736-cı ildən 1747-ci ilədək isə Səfəvilər dövlətində hakimiyyəti ələ keçirən Nadir Şah Əfşarın yaratmış olduğu İran şahlığının tərkibinə keçib. Bu dovrdə Nadir şah Əfşar onun şahlığını qəbul etməyən Qarabağ bəylərbəyi Ziyadxan oğullarından heyif çıxmaq, onların hakimiyyətinin dayaqlarını sarsıtmaq üçün Qarabağ bəylərbəyinin inzibati ərazi vahudini kiçiltmək və yox etmək üçün bir sıra dəyişikliklər edib, gücünü zəyiflədəcək tədbirlərə əl atıb. Qarabağ bəylərbəyliyinin Qazax, Borçalı bölgələrini Gürcüstan knyazlığının tərkibinə kesirib. Qarabağ vilayətinə daxil olan bir sıra mahallarına, o cümlədən Dizak mahalına məliklik statusu verməklə onların tabeçiliyini birbaşa şahlığın özünə yönəldib;

∑ 1748-ci ildən 1822-ci ilədək Qarabağ xanlığının tərkibinə daxil olub. Xanlıq dövründə məliklərin rütbəsi saxlansa da onların statusları tamamilə heçə endirilib. İri əraziyə malik mahalların tərkibində qismən əraziləri kiçildilən mahallar yaradılıb. Cəbrayıl rayonunun hazırki inzibati ərazisi üç qismdə yeni yaradılan Xırdapara – Dizaq, Dizaq-Cavanşir və Xudafərin adlanan mahalların tərkibinə daxil edilib;

∑ 1822-ci ildən 7 noyabr 1917-ci ilədək Çar Rusiyasının yaratdığı qurumların tərkibində olub;

**Haşiyə:** 1822-ci ildən 1840-cı ilədək Qarabağ komendatlığının, 1840-cı ildən 1846-cı ilədək mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin Qarabağ qəzasının Vərənd uçaskasının tərkibinə daxil olub. 1846-cı ildə Xəzər vilayəti Şamaxı quberniyası adıyla əvəz edilib. Qarabağ qəzasının da adı dəyişdirilərək Şuşa adıyla əvəzləşib. 1859-cu ildə baş verən zəlzələdən sonra Şamaxı şəhəri tamamilə dağılıb. Quberniya mərkəzi Bakı şəhərinə köçürülüb. Quberniyanın adı da dəyişdirilərək Bakı quberniyası adlandırılıb. 1868-ci ildə Azərbaycan ərazisində ikinci bir quberniya – Yelizavetopol (Gəncə) quberniyası, 1873 –cü ildə isə mərkəzi Cəbrayıl kəndi olan Cəbrayıl qəzası yaradılıb. 1873-cü ildən 1905-ci ilədək Cəbrayıl qəzasının, 1905-ci ildən 1918-ci ilədək Qaryagin qəzasının tərkibində olub;

∑ 28 may 1918-ci ildən 28 aprel 1920-ci ilədək AXC-nin Cəbrayıl qəzasının tərkibində olub;

∑ 28 aprel 1920-ci ildən 18 oktyabr 1991-ci ilədək Sovet Rusiyasının tərkibində olub.

**Haşiyə:** 28 aprel 1920-ci ildən 8 avqust 1930-cu ilədək Azərbaycan SSR-in Qaryagin qəzasının ərazisinə daxil olub. 8 avqust 1930-cu ildə hazırkı ərazi vahidinə malik Cəbrayıl rayonu yaradılıb;

∑ 23 avqust 1993-cü ildən Cəbrayıl rayonunun inzibati ərazisi Ermənistan Respublikasının işğalı altındadır. Həm də erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinə məruz qalıb;

## 23 AVQUST 1993-cü il

Cəbrayıl tarixinə qara hərflə yazılan 23 avqust günü – adi bir gün deyil. Bu məşum gün hər bir cəbrayıllının ömrünə qənim kəsilən, balta çalan bir gündür. Ağ günümüzü qara əskiyə bükən bir gündür. Allah-Təala qəhr etsin 1993-cü ilin 23 avqust gününü! O gündən üzü bəri Cəbrayıl elindən, bu müqəddəs torpaqdan uzaq düşüb bu həyatla vidalaşan çox insanlar tanıyıram, xatırlayıram. O insanların çoxu ana torpağa, doğma yurda-yuvaya, isti ocağa həsrət qalıb dünyasını dəyişən oldular. Acıya-ağrıya, ayrılığa, nisgilə, həsrətə dözəmmədilər, həyatdan vaxtsız, nakam köçdülər. Bu nahaq, yaman, yanan, yalan dünyayla halallıqla vidalaşmadılar. Çoxu da əcəli-mayallaq girdabına yuvarlanan oldular. Fikirdar oldular, huşdan-huşa, təbdən-təbə girifdar oldular. Ayılanda özlərini maşın qəzasına düşən gördülər. Və ya ürəkləri günbgün artan əsəb gərginliyinə tab gətirmədi. Azar-bezara tutuldular. Yıxılanın ayağa qalxması müşkülə düşdü. Sağ qalanlar hələ də o yurdun həsrəti ilə qovrulurlar.Ağ keçən hər günlərini belə qara sayırlar. Eyvah! Vətən ayrılığının, yurd-yuva həsrətinin nə olduğunu bir zamanlar içimizdə duymamışıq, gətirəcəyi bəlaların, məlalın dərinliyinə varmamışıq, zehniyyətdəki izini heysiyyatımızla olduğu kimi dərk etməmişik, torppqdakı müqəddəsliyi lazımınca qavramamışıq, halallıqla davranmamışıq. Qədrini itirəndə bilmişik. Bu gün qanımıza hopan Cəbrayıl qüdsiyyətinin cazibəsindən çıxmaq mümkün deyildir. Buna nail olacak hər hansı bir cəbrayıllının, Cəbrayıl adamının ola biləcəyinə, onun mövcudluğuna inanmağım əsla gəlmir.

Cəbrayıl sevgimiz , istəyimiz nə vaxtdan başladı?! Deyirlər uşağın anaya olan sevgisi ananın ilk dəfə onu qucağına aldığı gündən başlayır! Bəs görəsən həmin uşağın Ana Vətənə sevgisi, torpağa məhəbbəti nə vaxtdan başlayır?! Ana bətnindənmi, doğulduqdan sonramı, yoxsa məktəb partasından?! Yox, yox. Yaşamından başlayır. Vətən sərhəddi hardan başlayırsa, sevgi də elə o yerdən başlayır. O sevginin sərhəddi ürəkdən keçir. O sevgi ürəyin döyündüyü andan başlayılr. Nə yazıqlar ki, bizim Cəbrayıla olan sevgimiz onu itirdiyimiz andan başladı. Bu bir duyğu anıydı. Oğuz yuxusundan ayıltdı bizi. Bəlkə də, sevgimizin donu da bu sayaq açıldı. Cəbrayıl sevgimiz sanki ona həsrət qaldığımız, onu görmək arzusu ilə alışıb yandığımız, qovrulduğumuz andan baş-

ladı. Qəribsədiyimiz, ağrısını, acısını hiss etdiyimiz gündən başladı. Daşına, torpağına həsrət qaldığımız, gəzib dolaşdığımız çöllərdən, diş göynədən bulaqlarından uzaq düşdüyümüz, min dərdə dərman təmiz, saf havasından, ənbər qoxulu çəmənlərindən, təzə-tər çiçəklərindən, əfsanəvi Gəyən düzünün yovşan ətrindən ayrı düşdüyümüz, kənar aldığımız andan başladı. Kindən küdurətdən, qəzəbdən uzaq, əlindən yaxşılıqdan başqa bir şey gəlməyən təmiz qəlbli, saf ürəkli insanlarının ilan mələşən çöllərə tökülüb dilənçi kökündə yaşadıqlarını gördüyümüz andan, haqlı olub haqsız sayıldığımız gündən, onun-bunun qapısında qaçqın, didərgin, məcburu köçkün damğasına ürcah şıxdığımız andan, min türlü qərib qəbirlərə, qurdsuz qəbiristanlıqlara gömüldüyümüz andan başladı Cəbrayıl sevgisi, Vətən eşqi!

Cəbrayıl, Ana Vətənim, ana torpağım, ana yurdum mənim! Sən yoxsan, biz də yoxuq. Sən varsan, biz də varıq! Həsrətində qaldığım, qovrulduğum Cəbrayılım mənim!

Nələrimiz qaldı o yerlərdə?! Namusumuz, qeyrətimiz, ləyaqətimiz, vicdanımız, insanlığımız! Bəs qazancımız nə oldu ?! – Haqsızlıq, təhqir, iftira,... Bir sözlə, çoxdur itirdiklərimiz. Ən başlıcası torpağımız qaldı, evimiz, eşiyimiz, ata-baba qəbirlərimiz, yurd yerlərimiz, pirlərimiz, ziyarətgahlarımız, müqəddəs ocaqlarımız qaldı. Hamısı qaldı Vətəndə. Həsrət qaldıq onlara! Bəs görəsən biz bir daha o yerlərə ziyarət edə biləcəyikmi?! O müqəddəs torpaq üstə diz çökə biləcəyikmi?! Axı ora Vətəndir, köynəyi kətandı! Əlbəttə, o torpaqlara qayıtmaq, qayıdış hökmən olacaqdır. Mütləq mənada dönüş olacaqdır! Görkünü göstər Allahım, axı ora Vətəndi, bizim Vətən! O torpağın boynumuzda haqqı var, torpaq haqqı! O Vətənin köksümüzdə and yeri var, Vətən andı! Bir də, bir də mənliyimizin, qürurumuzun ucalıq zirvəsində dayanan, istiqlalımızın simvolu kimi dalğalanan üç rəngli bayraq sevgisi!

**Torpaq haqqı:** İnsanın torpaq haqqı torpağa qayıdış haqqıdır. Onun torpağa can vergisi, can borcudur. Cismani can torpaq sələmidi. Torpağa qayıdış haqqı var insan tutumunda, insan boyunda, insan boynunda. Boy ata-ata torpaqdan boy atır insan. Boya-boy verməyəndə zamandan asılı qalır insan. Ömürdən bac ala-ala torpağa əyilir insan. Torpaq çəkir insanı. Ağıldan, idrakdan kənardır o cazibə qüvvəsi. İnsanın varlığındakı, mayasındakı torpaq cövhəridir, o qüvvə. Fiziki can yerə çəkir insanı, ruhi can göyə. Yerlə göy arasında beşikdən qəbir evinə ötərgi bir ömür yaşayır insan. Çarpışma, mübarizə, mücadilə, iki nöqtə, iki sərhəd, ölüm-dirim məngənəsində, xeyirlə-şər savaşında keçir ömür. Torpaq qoynundan çıxarıb, yenidən qoynuna qaytarır insanı. Ruhi can insanın göy haqqı, cismani canı torpaq haqqıdır. Yaşamaq özü də torpaq haqqıdır, torpaq muzdudur. Həyat bu minvalla maddiləşir. Ruhi can isə əbədiyyətə qovuşur, həmişəyaşar olur. Cismani varlıq torpağa qarışır. Biri yoxdan var olur. Digəri vardan qeybə çəkilir, gözəgörünməz olur. Görünən torpaq haqqıdır!

**Vətən andı:** Birliyimiz, bütövlüyümüz bir-birimizə olan sevgidən, məhəbbətdən başlayır. Mübarizəmiz, mücadiləmiz isə Vətən savaşından! Torpağı toxunulmaz, Vətəni azad, dövləti müstəqil olmayan millətin Vətən andı olmaz! Bir ovuc qandır Vətən andı! Vətən yolunda axıdılan hər damla qan Vətəni yaşadır! Tökülən qan Vətənə içilən anddı! O bir damla qan Vətən üçün dirilik suyudur. O qanla böyüyür. O qanla suvarılır Vətən ağacı. O, ağacdan asılır körpə beşiyimiz də, yeniyetmə yüyrüyümüz də. O ağacdan şirə çəkir vuran ürəyimiz də. Vətəndə vətənləşir insan. Vətən cəlalımızdır. Vətən millətə tacdır. Vətən azad deyilsə, o başsız bədəndir, bəşəri deyil insan özü də. Bizi haqqa çağırır, Qarabağ uğrunda savaşa səsləyir Vətən andı!

**Bayraq sevgisi:** Öz bayrağı olmayan millətin mənliyi olmaz! Şərəfi, şanı, vüqarı, qüruru olmaz! Millət öz mənliyinə qayıtmaq, qovuşmaq üçün özünə məxsus bildiyi, başı üstə ucaltdığı bayrağı ətrafında birləşir. Bayrağı, torpağı tapdanan, paralanan, parçalanan millətin mənliyi, qüruru olmaz. Bay-

raqsız, yolsuz yolun yolçusu olma, amandı Vətən oğlu, hayqırır Vətən !!!

## QALX, AYAĞA VƏTƏN OĞLU

Qalx, ayağa Vətən oğlu!
İxlasını ver Allaha,
Addımını at inamla,
İşıqlı, aydın sabaha!

Qalx, ayağa Vətən oğlu!
Boğ düşməni beşiyində,
Ayıq-sayıq ol, mətin dur,
Ədalətin keşiyində.

Bu haqq sənin öz haqqındır,
Qamətini əymə əsla,
Alnı açıq, başı uca,
Bir millətin övladısan.

Qalx, ayağa Vətən oğlu!
Öz kökünə söykənməsən,
Haqq səsini yüksəltməsən,
Vətən enər, düşmən enməz,
Vətən sənə oğul deməz!

Qalx, ayağa Vətən oğlu!
Qarşındadır zəfər yolu,
Bu yol sənə tanış yoldur,
Bu yol Məmməd Əmin yolu,
Bu yol nicat, haqq yoludur!!!






II BÖLMƏ

# CƏBRAYIL POLİSİNİN YARANMA TARİXİ VƏ KEÇDİYİ YOLUN QISA XRONİKASI



Cəbrayıl rayon polis şöbəsinin əməkdaşları gündəlik tapşırıqları alarkən



# CƏBRAYIL YAŞAYIŞ MƏNTƏQƏSİNİN İNZİBATİ ƏRAZİ MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ

Cəbrayıl yaşayış məntəqəsi tirə, oba, oymaq, kənd, qəsəbə, qəsəbə tipli şəhər, nəhayət, indiki şəhər statuslu yaşayış məntəqəsi olmaq etibarı ilə 1500 illik tarixə malikdir. Yarandığı gündən bu günə Cəbrayıl adı ilə mövcuddur. Cəbrayıl oykonimi Cəbrayıl – Atanın adıyla bağlı yaranıb. Söz ilkin mənbəyini Tanrı mələyi Cəbrayılın adından alır. Mələyin funksiyası Şumer Tanrıçılığından Bibliya hekayələrinə keçmədir. Sami dillərdə öz adına yazılı ünvan tapıb. Bu ad ilkin olaraq Alban türklərinə şəxs adı kimi Albaniyada xristianlığın qəbul edildiyi dövrlərdə keçib, "Cibreil" şəklində ifadə olunub. İslam dönəmində isə Azərbaycan türkləri arasında ən geniş yayılmış adlardan birinə çevrilib. Tədqiqatçıların araşdırmalarına görə Cəbrayıl sözü ərəbcədən tərcümədə "Allahın qulu", ibranicədən isə tərcümədə "bir işi az-çox çətində olsa görmək" anlamlarını verir. Hər halda bizim üçün xoş olan odur ki, müqəddəs kitabımız Qurani-Kərimdə Cəbrayıl Allahın xeyirxah və xoşməramlı mələklərindən birinin adı kimi anılır. Cəbrayıl-Ata e. V əsrində yaşamış tarixi şəxsiyyət olmuşdu. Alban türk tayfalarının məxsusi tirələrindən birinə rəhbərlik etmiş, böyük nüfuz sahibi kimi ad çıxarmışdı. Övliya mərtəbəsinə yüksəlməsinə rəğmən titulu "Ata" sözüylə ismarlanmış və müqəddəsləşmişdi. Dünyasını dəyişəndə isə nəşi ümumi qəbiristanlıqdan kənarda, üzü Ağoğlan qəbir-məqbərəsi istiqamətində və onun bərabərində, Alpaşa dağının görümlü zirvəsində dəfn edilmişdi. Qəbri Cəbrayıl-Ata adıyla ziyarətgaha çevrilmişdi. Hazırda yenə də pir kimi anılır. Maşanlı, Mirzəcanlı, Şahvələd, Hasanlı, Alıkeyxallı, Bəyallar, Yarəhmədli, Xubyarlı və bir çox yaşayış məntəqələrinin, oymaq və məhəllələrin camaatı, hətta, Qubadlı rayonunun Əlyanlı tirələrinin bir çoxu belə özlərini Cəbrayıl-Atanın övladları, törəmələri he-

sab edirlər. Lakin Cəbrayıl yaşayış məntəqisinin adı uzun illər diqqət çəkən olmamışdı. Cəbrayıl tayfa adı yazılı ədəbiyyatda XV əsrdə, Cəbrayıl kənd adının qələmə alınması isə ilk dəfə 1593-cü ilə təsadüf edir. 1727-ci ildə Osmanlı imperatorluğu tərəfindən əhalinin siyahıya alınması tədbiri həyata keçirilərkən, Cəbrayıl kəndinin adı və kişi əhalisinin siyahısı-adları və ata adları "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə qeydə alınmışdı. Bundan başqa Cəbrayıl kəndinin, Cəbrayıl bağlarının adı, Cəbrayıllı tayfa adları Ağaməhəmməd Şah Qacarın Qafqaza yürüşləri, habelə XIX əsrin əvvəllərində baş verən İran-Rusiya müharibələri zamanı tez-tez çəkilir. Cəbrayıl yaşayış məntəqəsinin gələcəkdə inzibati ərazi mərkəzi kimi formalaşmasını şərtləndirən əsas amil isə 1802-ci ildə Çar Rusiyasının ordu hissələri üçün Cəbrayıl yaşayış məntəqəsində hərbi şəhərciyin salınması oldu. Kazarmalar tikildi, burada hərbiçilər yerləşdirildi. İkinci, addım 1831-ci ildə Daşkəsən kəndində yaradılmış karantin zastavasının 04.05.1947-ci ildə Karantin-Kömrük zastavasına çevrilərək Cəbrayıl yaşayış məntəqəsinə köçürülməsi və zastavanın 1861-ci ildə daha da genişləndirilərək Karantin-Gümrük kontoruna çevrilməsi oldu. Artıq Cəbrayıl yaşayış məntəqəsi Şuşa qəzasının Vərənd bölgəsində ən önəmli əhəmiyyət kəsb edən bir yaşayış məntəqəsi kimi adı hallanmağa başladı. Cəbrayıl kəndi strateji cəhətdən çox mühüm əhəmiyyət kəsb edirdi. Rus hərbi qornizonu, Xudafərin karvan yoluna nəzarət edən Karantin-Kömrük idarəsi, çar hökumətinin müvəkkili bu kənddə yerləşirdi. Artıq Cəbrayılda xüsusu karvansaralar, həftə bazarı fəaliyyət göstərirdi. Daha bir mühüm addım atıldı. 1868-ci ildə Bakı quberniyasının bazasında yaradılan Yelizavetpol quberniyasının yeni inzibati ərazi sistemi təsis edildi. Bu sistemə uyğun olaraq 1873-cü ildə Şuşa qəzasının əhatə sahələri daxilində yeni qəzalar, o cümlədən mərkəzi Cəbrayıl kəndi olmaqla Cəbrayıl qəzası yaradıldı. Cəbrayıl kəndi qəza mərkəzi olduqdan sonra daha da böyüdü və inkişaf etdi. Qəza rəisliyi, xəznədarlıq, poçt-teleqraf kontoru, qəza meşəbəyiliyi, məhkəmə idarəsi və s. aidiyyəti təşkilatlar fəaliyyətə başladı. Bunlarla yanaşı polis idarəsi yaradıldı. 1876-cı ildə Cəbrayılda bir sinifli, 1884-cü ildə isə iki sinifli normal rus məktəbi açıldı. 1882-ci ildə qəzada ilk dəfə həkim vəzifəsi təsis edildi. 1884-cü ildə isə xəstələri qəbul edən həkim otağı açıldı. Tezliklə bu qəbul otağı xəstəxanaya çevrildi, 1897-ci ildə Cəbrayıl Karantin-Kömrük kontoru daha da böyüdülərək ayrıca kömrük idarəsinə çevrildi. Cəbrayıl yaşayış məntəqəsi məhz bu sayaq – qəza mərkəzi olmaqla inzibati ərazi mərkəzinə çevrildi.



**Haşiyə:** Cəbrayılda Karantin-Kömrük zastavasının təsis edilməsi ilə bağlı XIX əsrin ortalarından, daha doğrusu, 50-ci illərdən başlayaraq Cəbrayıl kənd camaatı arasında özünə ikinci bir aralıq ad qazandırdı. Karantin (qırx gün) sözü Cəbrayıla Qıraxdın adı gətirdı. Nə 1847-ci ildən öncə nə də sonralar belə heç bir zaman rəsmi sənədlərdə Cəbrayıl adı Qıraxdın kimi ifadə olunmamışdı. O taydan bu taya, bu taydan o taya adlayanların, arandan dağa, dağdan arana sürü çəkənlərin tez-tez karantinə gedirəm və ya karantindən gəlirəm ifadəsi öz şəklini dəyişəcək, yerli şivədə Qıraxdına gedirən, Qıraxdından gəlirəm ifadəsi ilə əvəzləndi. Mığrı ətrafında Qıraxdın yolu toponimi də o dövrlərdə bu sayaq yaranma söz oldu. Laçın rayonu ərazisindəki Qıraxdın yaylağı toponimi isə 1950-ci ildən sonra yaranan və işlənən ifadədi. Çünki Cəbrayıl rayonundakı kəndlərin dədə-baba yaylaqları və yurd yerləri Ermənistan SSR-in Sisyan və Əzizbəyov rayonları ərazisində yerləşir və özlərinin də min illərdən bəri məxsusi adları var. 1950-ci illərdən başlayaraq Ermənistan tərəfindən yaylaq yolları bağlandıqdan sonra, daha doğrusu, SSRİ hökuməti tərəfindən yaylaqdakı dədə-baba yurdlarımız əlimizdən alınıb ermənilərə peşkəş edildikdən sonra

Cəbrayıl rayonunun təsərrüfatları üçün əlverişsiz Laçın rayonu ərazisində yaylaq sahələri ayrıldı. Həmin ifadə də bundan sonra işlədilmişdi. Qraxdın sözünün "dindən qırax yer", "qırax tin" kimi söz oyunları, sözün çək-çevir edilməsi və ya hər hansısa qıraxtın adlı tayfanın guya Cənubi Azərbaycandan Cəbrayıla köçüb gəlməsi kimi iddialar cəfəng söhbətlərdir. Cəbrayıl əhalisinin əsas hissəsini yuxarıda adları çəkilən yerli tayfaların nümayəndələri və ya ətraf kəndlərdən köçüb gələn ailələr təşkil edir. Bura kənardan gələnlər ancaq qalalılar məhəlləsində yaşayanlar hesab oluna bilər. Onlarsa Şuşa şəhərinin erməni-daşnak faşistləri tərəfindən dağıdıldığı dövrlərdə yer-yurdundan didərgin düşüb Cəbrayıla pənah gətirən və burada ticarətlə məşğul olan əhalidən, Qalaya qayıtmayan ailələrdən ibarətdir. Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra Cənubi Azərbaycandan Cəbrayıla köç edən tayfa nədir, heç barmaqla sayılası ailə belə olmamışdı. Əksinə həmin dövrdə ayrı-ayrı kəndlər bütövlükdə, habelə, ayrı-ayrı kəndlərdən ümumilikdə yüzlərlə ailə təqiblərdən can qurtarmaq üçün Arazı o taya adlamışdılar.

## CƏBRAYIL POLİSİNİN YARANMA TARİXİNƏ ÖTƏRİ BİR BAXIŞ VƏ YA SÖZ ÖNÜ

Ümumiyyətlə, "Polis" yunan sözü olub, mənası şəhər deməkdir. Görünür, polis sözünün işlənməsi və yaranması tarixi də şəhərlərin yaranması, əhalinin bir məkanda çox saylı şəkildə toplanması, orada əmin-amanlığın qorunması zərurətindən doğmuş belə bir qurumun yaradılması istər-istəməz meydana gəlmişdi. Antik dövrün şəhər dövlətlərində polis ifadəsi ən populyar şəkildə işlənən bir söz olmuşdu. Qurum özünü doğuran səbəb kimi adını da elə şəhər sözündən almışdı. Lakin Cəbrayılda polis sözü ifadəsinin işlənmə tarixi Azərbaycanın Çar Rusiyası tərəfindən işğalından sonra başlanması kimsəyə sirr deyildi. Lakin bu heç də o demək deyil ki, Azərbaycan tarixində polisin funksiyasını həmin dövrədək yerinə yetirən qurum və ya hər hansı bir idarə sistemi olmamışdı. Erkən orta əsrlərdən üzü bəri Azərbaycanda mövcud olmuş dövlət və xanlıq qurumlarında, kənd və oymaqlarda, elatlarda, ayrı-ayrı tayfa və icmalarda istər idarəetmədə, istərsə də əhali arasında asayişin, əmin-amanlığın qorunmasında, təbəələrin müəyyən olunmuş qanun-qaydalara riayət etmələrinə göz qoyan və məcbur edən nəzarət sistemi və ya bu işə rəhbərlik edən ayrı-ayrı şəxslər olmuşlar. Şəhərlərdə qalabəylər və darğalar, kənd və oymaqlarda, elatlarda başqa işlərlə yanaşı bu funksiyanı yerinə yetirən və bir-birinə sinonim sözlərlə adlandırılan- kəttat, kovğa, yüzbaşı, kənbxuda, keyxa kimi kənd nümayəndələri, kənd böyükləri və yaxud onların bu işə baxan əlaltıları olmuşlar. Həmçinin kənd və mahallarda bu rütbələrdən bir qədər yüksək hesab edilən xan, sultan, bəy, ağa, minbaşı mərtəbəsində şəxslər də olmuşdu. Onlar kəndi və ya kəndlər qrupunu öz mülkləri saymışlar. Bunu da qeyd etmək lazımdır ki, yerli hakimiyyət nümayəndələri mahal bəylərinin və ya onlarla kəndi və ya inzibati ərazi vahidlərini öz hakimiyyəti altında saxlayan, müəyyən gücə malik xanların, naiblərin rəhbərliyi altında fəaliyyət göstərmişlər. Bu qurumlar və ya qurum nümayəndələri fərqli adlarla ünvan tapmış olsalar da, zaman-zaman, həm də polis funksiyasını yerinə yetirməli olmuşlar.

Çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra birdənbirə polis idarəçiliyi yaratmadı və heç buna tələsmədi də. İlkin olaraq işğal etdiyi ərazilərdə komendat üsul-idarəsi tətbiq etdi. İşğal ərazisini hərbi səhra qanunları ilə idarə etməyə başladı. Qarabağ xanlığını 1822-ci ildə ləğv etdi. Qarabağda da komendant üsul-idarəsi təsis etdi. Bütün hakimiyyət komendantın ixtiyarına keçdi. Hərbi polis kazarması yaradıldı. Hakimiyyətin başında yerli əhali tərə-

findən cəllad adlandırılan qaniçən Çar generalları oturdular. Qarabağın komendantı vəzifəsinə əvvəl Reutt, sonra isə Çilyayev təyin edildilər. Qarabağda komendant üsul-idarəsi 18 il, daha doğrusu, 1840-cı ilədək davam etdi. 1840-cı ildə komendant-üsul idarəsi ləğv edildi. Çar Rusiyasının başqa yerlərində olduğu kimi quberniya, qəza, sahə inzibati ərazi bölgüsünə keçilməyə başlandı. Həmin dövrdə Cəbrayıl kəndi və onun bu günki inzibati ərazisi Qarabağ qəzasının Vərənd sahəsinin tərkibinə daxil edildi. İlk dəfə olaraq Qarabağ qəza polis idarəsi yaradıldı. Cəbrayılda asayişin qorunması, qayda-qanuna riayət edilməsinə nəzarət işi Vərənd polis sahəsinin – Vərənd pristavının tabeçiliyinə keçdi. Polis sistemi yaradılan dövrədək və xanlıq dövründə ayrı-ayrı kəndlərdə kənd böyüklərinin kimlər olmasının maraq doğuracağını nəzərə alaraq bu barədə arxiv materiallarından əldə etdiyimiz məlumatları oxuculara çatdırmağı lazım bilirik. Çünki bir növ onlar yaşayış məntəqələrində polis vəzifələrinin də icraçısı olmuşlar. Belə ki, 1823-cü ildə verginin miqdarını müəyyənləşdirmək və yığımını təşkil etmək məqsədilə senator Magilevski və polkovnik Yermolov tərəfindən siyahıyaalma aparılmışdı. Siyahıda ayrı-ayrı kəndlərdə yaşayan əhalinin ailə üzvləri ilə birgə, onların sosial və ictimayi vəziyyətləri göstərilməklə əlavə qeydlər aparılmışdı. Hətta, həmin kəndlərin kimə məxsus olmaları barədə maraqlı məlumatlar da siyahıya almada öz əksini tapmışdı. Siyahıların doğruluğuna kənd böyükləri imza atmış, imzalarını möhürləri ilə təsdiqləmişlər.



## 1823-CÜ İLDƏ CƏBRAYIL RAYONUNUN İNZİBATİ ƏRAZİSİNƏ DAXİL OLAN KƏNDLƏRƏ SAHİBLİK EDƏN STARŞİNALARIN-KƏND BÖYÜKLƏRİNİN SİYAHISI

| s\s | KƏNDİN ADI | KƏNDİN BÖYÜYÜ |
|---|---|---|
| 1 | Süleymanlı kəndi | Əli Yüzbaşı Molla Qasım oğlu |
| 2 | Qaracallı kəndi | Yusif kəndxuda Xəlil kəndxuda oğlu; kənd Mirzə Camal Məmmədxan oğluna məxsusdu |
| 3 | Balyand kəndi | Cəfər kəndxuda Bəymurad oğlu; kənd proporşik Sadıq bəyə məxsusdu |
| 4 | Horovlu kəndi | Ağayar kəndxuda Vəli oğlu |
| 5 | Quycaq kəndi | Haqverdi kəndxuda Seyid Yüzbaşı oğlu |
| 6 | Səfibəyli (Şəybəy) kəndi | Bafadar kəndxuda Tanrıverdi oğlu |
| 7 | Nüzgar kəndi | Vəli kəndxuda Qədirqulu oğlu; kənd Şükür ağaya məxsusdu; ölümündən sonra oğlu İsmayıl bəyə keçib |
| 8 | Karxulu ( Safarsa, Mollalı, Çapand kəndləri ilə birgə) kəndi | Xudaverdi kəndxuda Vəli oğlu |

| | | |
|---|---|---|
| 9 | Cəfərabad kəndi | Dədə kəndxuda Məmmədyar oğlu |
| 10 | Maralyan kəndi | Kərim bəy Məşədi Ağası oğlu |
| 11 | Sarıcallı kəndi | Məmmədəli Kələntər oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| 12 | Soltanlı kəndi | Məşədi Əli kəndxuda Kərbalayi Əlihüseyn oğlu; kəndin torpaqları Hüseyn bəy Hacı Camalxan bəy oğluna məxsusdu |
| 13 | Cocuq Mərcanlı kəndi | Allahverdi kəndxuda Vəli oğlu; kənd polkovnik Cəfərqulu Ağaya məxsusdu |
| 14 | Əhmədli kəndi (1) | Qurban yüzbaşı Məmmədağa oğlu; kəndin torpaqları mayor Rüstəmbəy oğlu Əsəd bəyə məxsusdu |
| 15 | Dağtumas kəndi | Mikayıl Sultan Həsən ağa oğlu |
| 16 | Çullu kəndi | Abdulla yüzbaşı Hacı yüzbaşı oğlu, kənd Diri dağında, polkovnik Cəfərqulu ağaya məxsus torpaqlarda yerləşir |
| 17 | Çaxırlı kəndi | Məşədi Niftalı Mövlaqulu oğlu; kənd general-mayor Məmmədhəsən ağanın torpaqlarında yerləşir |



| | | |
|---|---|---|
| 18 | Sirik kəndi | Mahmud yüzbaşı Ağamməd oğlu; kənd Şükür ağa Məmmədhəsən ağa oğluna məxsusdu; ölümündən sonra oğlu İsmayıl ağaya keçib |
| 19 | Əhmədli kəndi (2) | Əhməd yüzbaşı Mustafa yüzbaşı oğlu; kənd mayor Rüstəmbəyə məxsusdu. Ölümündən sonra oğlu Əsəd bəyə keçib |
| 20 | Şıxlar kəndi | İbrahim bəy Sarı bəy oğlu; kənd mayor Rüstəm bəyin oğlu Əsəd bəyə məxsusdu |
| 21 | Feyzullabəyli və ya Minbaşılı kəndi | Həsənəli Nağı oğlu; kənd Feyzulla bəy Mehralı Minbaşı oğluna və Hüseyn bəy Fətəli bəy oğluna məxsusdu; Feyzulla bəyin ölümündən sonra kənd Allahverdi bəy Feyzullabəy oğlunun adına keçib |
| 22 | Qovşudlu kəndi (Hüseynbəyli kəndi ilə birgə) | Hüseyn Məşədi Məmməd oğlu və Mirzə kəndxuda Seyidəli oğlu; kənd Hüseyn bəy Hacı Camalxan oğluna məxsusdu.Kənd Şıxçinar torpağında qışlayır |

| | | |
|---|---|---|
| 23 | Cəfərağalı ( Məstalıbıyli kəndi ilə birgə) kəndi | Səlimxan Məmməd oğlu; kənd Məstalı bəy Cəfərbəy oğluna və Fətəlibəy Yaqub bəy oğluna məxsusdu |
| 24 | Alıkeyxalı kəndi | Rəhim kəndxuda Qılıc oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdur; kənd Bəydili torpağında qışlayır |
| 25 | Mehdili kəndi | Allahqulu yüzbaşı Rəhim oğlu; kənd Maşrafa xana məxsusdur; ölümündən sonra oğlu Böyük xanın adına keçib |
| 26 | Hacılı (Eyvatlı kəndi ilə birgə) | Məmmədxan kəndxuda Bədirxan oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| 27 | Yarəhmədli kəndi | Məhərrəm kəndxuda Bəymurad oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| 28 | Mirək kəndi | Məmməd kəndxuda Rəhim oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| 29 | Maşanlı kəndi | Əli kəndxuda Vəli oğlu |
| 30 | Hasanlı kəndi | Qəvliyəli kəndxuda Yusif oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |



| | | |
|---|---|---|
| 31 | Veysəlli kəndi | Əliməmməd Bayraməli oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| 32 | Çərəkən kəndi | Məmməd kəndxuda Rəsul oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| 33 | Əlibəyli ( Kazımağalı kəndi ilə birgə) kəndi | Musa Allahverdi oğlu; kənd Əlibəy Kazımağa oğluna məxsusdu |
| 34 | Məzrə ( Bekavıl kəndi ilə birgə) | Əbdürrəhman kəndxuda Rüstəm oğlu; kənd polkovnik Cəfərulu ağaya məxsusdu |
| 35 | Hovuslu kəndi | Mehdiqulu yüzbaşı Əziz oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| 36 | Mərcanlı kəndi | Hüseyn yüzbaşı Allahverdi yüzbaşı oğlu; kənd Nəsibbəy Xançanağa Ağaxan oğlu və onun qardaşlarına məxsusdu; kənd Cəfərqulu ağaya məxsus Maralyan torpaqlarında qışlayır |

| | | |
|---|---|---|
| **37** | Şükürbəyli kəndi | kəndi Şükür bəyin özü idarə edir; kənd Şükür bəyə və polkovnik Cəfərqulu ağaya məxsusdu; kənd Sayaq və Araz qırağında qışlayır |
| **38** | Mahmudlu kəndi | Əli kəndxuda Hümbətalı oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu |
| **39** | Şıxalıağlı kəndi | Qəhrəman kəndxuda Əlicəfər oğlu və Molla Məmməd Məhərrəm oğlu; kənd Şirəli ağa Nəbi ağa oğluna məxsusdu; kənd İbiya yerində qışlayır |
| **40** | Mirzəcanlı (Fuğanlı kəndi ilə birgə) kəndi | Niftalı kəndxuda Seyidəli oğlu; kənd polkovnik Cəfərqulu ağaya məxsusdu; Mirzəcanlı kəndi İmam bağında, Fuğanlı kəndi Qarqu yerində qışlayır |

Artıq Cəbrayıl kəndinin qəza mərkəzi olması ilk dəfə Cəbrayılda qəza polis idarəsinin təsis edilməsinə gətirib çıxardı. Cəbrayılda ilk polis İdarəsi 1873-cü ildə yaradıldı. Sahə polis böımələri təşkil edildi. Qəza polis idarəsinə yüksək rütbəli rus zabitləri, sahələrdəki polis məntəqələrinə isə pristavlar rəhbərlik edirdilər. Hakimiyyət bütünlüklə qəza rəisinin əlində cəmləşirdi. Onu isə Yelizavetpol qubernatoru təyin edirdi. Cəbrayıl qəzasında Cəbrayıl, Horadiz, Bəhmənli, sonralar isə Xanlıq, Bartaz polis məntəqələri fəaliyyət göstərmişdi. Pristavları, kənd böyüklərini qəza rəisi təyin edirdi. Qəza idarələrində, polis məntəqələrinə mürtəce əhval-ruhiyyəli rus məmurları qulluq edirdilər. Polislər özlərini istədikləri kimi aparırdılar. Onlar səhər tezdən atlı, yaxud da piyada küçələrə çıxır, adamlara xüsusilə Arazın o tayından gələn tacirlərə göz qoyur, təqsiri olub-olmamasından asılı olmayaraq xoşları gəlməyənləri şallaqlayır, döyə-döyə polis məntəqəsinə aparır, istədiklərini əllərindən alıb sonra buraxırdılar. Polisin özbaşınalığından şikayət edənlərin özlərini ölüncə döyüb yola salırdılar. Polis İdarəsində kim nə istəyir onu da edirdi. Polis İdarələrində özbaşınalıq hökm sürdüyünə görə cinayətkarlıq artırdı. Cəbrayıl qəzasında təkcə 1895-ci ildə müxtəlif cinayətlər üstündə 251 nəfər həbs edilmişdi ki, onların da 36-sı ölüm, 43-ü oğurluq, 62-si basqınçılıq üstündə tutulmuşlar. Əhali çarizmin müstəmləkəçilik siyasətinə, polis özbaşınalığına və süründürməçiliyinə qarşı mübarizə aparırdı. 1895-ci ildə polis özbaşınılığına müqavimət üstündə qəzada 16 nəfər həbs edilmişdi.

1905-ci ildə Qarabağ xanlığının ilhaqını təmin edən Kürəkçay sazişinin 100 illiyi ilə əlaqədar olaraq çar fərman vermişdi. Qarabulaq kəndinin adı dəyişdirilərək Qaryagin qoyuldu. Polkovnik Pavel Mixayloviç Qaryagin Qarabağda ilk hərbi hissənin rəhbəri, çar ordusunun qaniçən komandirlərindən biri olmuş və Şuşa şəhərində yaşamışdı. O, 21 iyun 1805-ci ildə Abbas Mirzə tərəfə keçmiş İbrahim xanın oğlu Əbülfət xanla döyüşdə məğlub olur və kontuziya alır. Aldığı xəsarətdən 1807-ci ilin dekabrında vəfat edir. Çar hökuməti onun adını əbədiləşdirmək üçün bu addımı atır. Cəbrayıl qəzasının adı da dəyişdirilərək ona Qaryagin adı verilir. Qəza mərkəzinin özü də Cəbrayıl kəndindən Qarabulağa-Qaryaginə köçürülür. Cəbrayılda ancaq hərbi şəhərcik və bir də polis məntəqəsi –pristavlıq öz fəaliyyətini davam etdirir. Çar Rusiyasının işğalçılıq siyasətinə xidmət edən polis heyəti, pristavlar, mə-

həllə nəzarətçiləri, kovxalar bir qayda olaraq milli mənafe baxımından xalqa ancaq düşmən mövqeyindən münasibət göstəriblər. Yerli sakinlər polis heyətlərində qulluqdan kənarda saxlanıblar. Polislərin daim çatışmaması ancaq qoşun hissələrinin, habelə sərhəd və gömrük mühafizəsi işçilərinin hesabına aradan qaldırılıb. Odur ki, Cəbrayıl polisinin çarizm dövründəki yaranış tarixi, onların fəaliyyəti əsla ilkin təşkilat qismində hallandırıla bilməzdi. Daxili işlər orqanlarının fəaliyyətinin Azərbaycan xalqının və milli dövlətçiliyin mənafeyinə tabe edilməsi yalnız 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra mümkün olmuşdu. Azərbaycanda polis gününün tarixi də məhz Azərbaycan Xalq Cümhuriyyətinin bu orqanı təsis etdiyi gündən başlaması heç də təsadüfi deyildi. Tarixi reallıqdır.

## AZƏRBAYCANDA POLİS GÜNÜ

28 May 1918-ci ildə Azərbaycan Milli Şurası Tiflis şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu elan etdi. Milli Şuranın sədri M.Ə. Rəsulzadə, ilk müstəqil Azərbaycan hökumətinin başçısı F.İ. Xoyski elan edildi. Fətəlixan İsgəndərxan oğlu Xoyski, həm də Azərbaycan Xalq Cümhuriyyətinin ilk Daxili İşlər Naziri təyin edildi. 16 iyun 1918-ci ildə Azərbaycanın mühacirət hökuməti Tiflisdən Gəncə şəhərinə köçdü. 17 iyun 1918-ci ildə AXC-nin Dİ naziri vəzifəsinə Behbudağa Azad oğlu Cavanşir təyin edildi. 24 iyun 1918-ci il tarixdə Azərbaycan hökuməti "Hökumət müəssisələri və idarələrinin öz vəzifələrini tərk etmiş qulluqçuları haqqında" 178 saylı qərarını verdi. Həmin qərarla vaxtı ilə inzibati idarələrdə işləmiş bütün qulluqçular 01 iyul 1918-ci tarixədək öz iş yerlərinə dəvət olunurdular. 2 iyul 1918-ci il tarıxdə isə Azərbaycan hökuməti 24 iyun tarixli 178 saylı qərarının icrasına qayıtı. Hökumər qərarın yerinə yetirilməsi ilə əlaqədar olaraq Gəncə quberniyası üzrə ilk milli nizami polis orqanlarının təsis edilməsi barədə sərəncam verdi. Polis orqanlarının yeni ştat vahidləri, artırılmış əmək haqları üzrə yeni tarif dərəcələri müəyyən edildi. Beləliklə, Azərbaycan polisinin milli, peşəkar kadrlarının formalaşması tarixi məhz bu tarixdən, bu gündən–2 iyul 1918-ci ildən başladı. Bütün bunlar nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 24 may 1998-ci il tarix də "Azərbaycan Polisinin yaradılması gününün təsis edilməsi haqqında" fərman imzaladı. Həmin fərman ilə "2 iyul" Azərbaycan polisi günü elan edildi. Məhz həmin gün Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının yaradılması öz inikasını tapdı. Cəbrayıl polisi üçün əlamətdar olan hadisə bir də odur ki, Cəbrayıl qəza polis idarəsi və onun bölmələrinin təsis edilməsi, ştat vahidlərinin sayı tam şəkildə məhz həmin gün AXC hökumətinin 2 iyul 1918-ci il tarixli sərəncamında öz əksini tapmasıdı.

## CƏBRAYIL POLİSİ ADR, AZƏRBAYCAN SSR VƏ AR DÖNƏMLƏRİNDƏ

Ilk gündən ADR hökumətinin qərar və sərəncamlarında Yelizavetpol quberniya və Qaryagin qəza adları müvafiq qaydada Gəncə quberniyası və Cəbrayıl qəzası adlandırılsa da rəsmiləşdirmə sonrakı tarixlərdə aparılmışdı. 30 avqust 1918-ci il tarixdə ADR hökumətinin qərarı ilə Yelizavetpol adı ləğv olundu. Gəncənin tarixi adı bərpa edildi. 1918-ci ilin dekabr ayında isə Qaryagin adı ləğv edilərək, qəza yenidən Cəbrayıl qəzası kimi qeydə alındı. Lakin qəza mərkəzi yenə də Qarabulaq kəndində saxlanıldı. Cəbrayıl qəza Polis idarəsinin ilk rəisi Bəhrambəyov, Cəbrayıl nahiyə pristavı isə Qalabəyov Fərruqbəy təyin edildi. Sonralar isə Cəbrayıl nahiyə pristavı vəzifəsinə Əlibəyov Cəmilbəy təyin edildi. Cəmilbəy Əlibəyov həmin

vəzifədə ADR süqut edənədək- 27 aprel 1920-ci ilədək işləmişdir. Cəbrayıl qəza polis idarəsi Gəncə qubernatorluğunun tərkibindən çıxarılaraq Şuşa, Cavanşir, Zəngəzur qəzaları ilə birgə 16 yanvar 1919-cü il tarixdə yaradılan Qarabağ general-qubernatorluğunun tərkibinə daxil edildi.

Azərbaycan Demokratik Respublikası dövründə Cəbrayıl polisinin işi üç istiqamətdə göstərdiyi fəaliyyətlə xarakterizə olunur: (1) asayişin qorunması, qanunçuluğa riayət olunmasına nəzarətin təşkili, cinayətkar elementlərə qarşı mübarizə; (2) gizli və açıq şəkildə Azərbaycan Milli Hökuməti əleyhinə pozuculuq fəaliyyəti göstərən bolşevik-daşnak qruplaşmalarına qarşı mübarizə; (3) ən başlıcası isə Qarabağda daşnakların təhrikiilə üsyana qaldırılan silahlı erməni qiyamlarının yatırılmasına qarşı dövlət qüvvələrinin tərkibində çıxış etmək fəaliyyəti; Belə ki, 22 mart və 3-15 aprel 1920-ci il tarixlərdə Əsgəran və Şuşada erməni-daşnak faşistləri Azərbaycan Milli hökuməti əleyhinə qaldırılan qiyamların yatırılmasında Qarabağ general-qubernatorluğunun tərkibində fəaliyyət göstərən Cəbrayıl qəza polis idarəsinin əməkdaşları da güc nazirliklərinin tərkibində mərdliklə vuruşmuşdular. Hətta, döyüş təcrübəsi qazanmış Cəbrayıl qəzasının bir qrup polis əməkdaşı 1920-ci ilin aprel ayında Gəncəbasarda (Goranboyda) Azərbaycan Milli Hökuməti əleyhinə mübarizə aparan Məmməd Məmmədovun (bolşevik-daşnak qaragüruhunun fitnəsinə uymuş və Qatır Məmməd adı almış şəxsin) başçılıq etdiyi quldur dəstəsnin də zərərsizləşdirilməsində yaxından iştirak etmişdi. Qısa bir zaman kəsiyində fəaliyyət göstərən Cəbrayıl qəza polis idarəsinin əməkdaşları xalqa arxalanaraq qəzanın erməni kəndlərində baş qaldıran və ətraf kəndlərə silahlı basqınlar edən, evləri od vurub yandıran, silahsız, dinc əhalini qoca, qadın, uşaq demədən qıran erməni-daşnak faşistlərinin təşkil etdiyi quldur dəstələrinin təcavüzkar hərəkətlərinin qarşısını almağa müvəffəq olmuşdu. Lakin Azərbaycanı



işğal edən bolşeviklərin XI qırmızı ordusu Azərbaycan Xalq Cümhuriyyəti hökumətini məhv etməklə Cəbrayıl qəza polis idarəsinin də fəaliyyətinə xitam verdi. Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə Rusiya işğalının sanki təkrar rəmzi olaraq Cəbrayıl qəzasının adı təzədən ruslaşdırıldı. Yenidən Qaryagin qəzası adlandırıldı. Qarabulaq kənd adı isə bir daha öz adını dirçəltmədi. Bu ad dəyişmə təcavüzü Rusiyanın işğalçılıq ənənəsini xalqın beyninə yeritmək, onu bir növ manqurtlaşdırmaq səyi idi. 11 may 1920-ci ildə Qaryagin qəza milis idarəsi və onun 6 bölməsi təşkil edildi. Cəbrayılda da bu bölmələrindən biri, Qaryagin qəza milis idarəsinin Cəbrayıl xalq milisi təşkil edildi. Qeyd etmək lazımdır ki, xalq milisi adı 6 iyun 1920-ci ildə dəyişdirilərək qırmızı Fəhlə-kəndli milisi adlandırılmağa başladı. Cəbrayıl qırmızı Fəhlə-kəndli milisinin ilk rəhbəri, daha doğrusu Qaryagin qəza fəhlə-kəndli milisi idarəsinin Cəbrayıl bölməsinin baş milisi vəzifəsinə Şahmuradov Sultanmurad Həsən oğlu təyin edildi. Həmin dövrlərdə Cəbrayıl qırmızı Fəhlə-kəndli milisinin həyatı ilə bağlı onun fəaliyyət sahəsinin bir parçası aşağıdakı arxiv materiallarında öz əksini tapır. Belə ki, 1920-ci ilin sentyabr ayında Bakı şəhərində qəza milis rəislərinin qurultayı keçirilir. Qurultayda söz alan Qaryagin qəza milis idarəsinin rəisi öz çıxışında göstərir ki, milis əməkdaşlarının geyim paltarları, ayaqqabıları çatışmır. Milis bölmələrində xüsusi at yerləri yoxdur. Milis atları şəxsi həyətlərdə, şəxsi tövlələrdə saxlanılır. Tüfəng, sursat sarıdan da korluq çəkirik. İrandan gələn və onların başçılıq etdiyi banditlərlə mübarizə aparmaqda silahlarımız, ehtiyat patronlarımız çatışmır. Qırmızı ordu hissələri də tez-tez milislərin tüfəng və atlarını əllərindən alırlar. Milisləri tərksilah edib buraxırlar. Lakin buna baxmayaraq sovet hakimiyyətinə qarşı çıxanlara, sovet hökumətinə güllə atanlarla mübarizəmizi bir an belə səngitmirik. Arxiv materiallarında qəza milis idarəsi rəisinin adı, soyadı göstərilmir. Başqa bir sənəddə

isə 1921-ci ildə Qaryagin qəza milis idarəsinin şəxsi heyəti tərkibinin 300 nəfərdən ibarət olduğu göstərilir. Həmin dövrlərdə qəza milis idarəsinin rəislərinin tez-tez dəyişdirilməsi xarakterik hal olduğundan 1930-cu ilədək Qaryagin qəza milis idarələrinə kimlərin rəhbərlik etməsini müəyyənləşdirmək qeyri-mümkündür. Həm də Azərbaycan Daxili İşlər Nazirliyinin arxivində toplanan sənədlər əsasən 1930-cu ildən sonrakı dövrləri əhatə edir.

Ümumiyyətlə, 1920-40-cı illər ərzində Azərbaycan daxili işlər orqanlarının fəalları 483 iri və xırda bandit dəstə və qruplarını (3742 nəfər) ləğv etmişdi. Bu mübarizədə 500 nəfərdən çox daxili işlər orqanlarının əməkdaşı həlak olmuşdu. Cəbrayıl qırmızı Fəhlə-kəndli milisinin əməkdaşları 1921-1922-ci illərin yanvar-dekabr aylarında Sovet hakimiyyətinə, qırmızı əsgərlərin işğalçılıq hərəkətlərinə qarşı çıxan və döyüşən Əhmədalıda qaçaq Xanəlinin, Əhmədli oymağı Quşçularda Kor Abdullanın həmkəndliləmrindən təşkil etdikləri dəstənin zərərsizləşdirilməsində yaxından iştirak etmişlər. Sovet hakimiyyəti əleyhinə qalxan digər qaçaq dəstələrinə qarşı mübarizədə Cəbrayıl qırmızı fəhlə-kəndli milislərinin qırmızı partizan dəstələri yaratmaları tarixi reallıqdır. Mirzəcanlı Quliyev Şamil, Həsənov Xanlar, Səfərov Muxtar, Məmmədov Nəbi, Məzrədən Şahmuradov Soltanmurad, Məmmədov Surxay, Hacılı kəndindən Həsənov Həsənqulu, Əliyev Teymur, Çərəkəndən Əliyev Alı, Yarəhmədlidən Mustafayev İsmayıl, Daşveysəlli kəndindən Hüseynov Murtuza, Mərcanlıdan Əliyev Muxtar, Hasanlıdan Ələkbərov Ələkbər, Qovşudludan Mustafayev Qardaşxan, Balyand kəndindən Baxşalıyev Misir, Göyərçin Veysəllidən Abdulla Həşim oğlu, Dağtumasdan Hacıyev Mütəllim, Şahvəllidən Məhəmməd Niftalı oğlu, Şıxalıağlı Orduxan, Papılı Nəsib, Şıxlardan Məcid və başqaları qırmızı Fəhlə-kəndli milisinin ən fəal üzvlərindən olmuşlar. Onlardan bir çoxu, Mustafayev İsmayıl (Yarəhmədli k.), Məmmədov Nəbi (Mirzəcanlı k.), Əliyev



Alı (Çərəkən k.), Bəylər, Ağalar (Hacılı k.), Həsən (Xudaverdili k.) və başqaları döyüşlərdə həlak olmuşlar. Milis nəfərlərindən Həsənov Həsənqulu (Hacılı k.), Mustafayev Qardaşxan (Qovşudlu k.) və bir çoxları özlərini şikəst edən ağır güllə yaraları almışlar.

Cəbrayıl milisi əsas itkisini 1930-cu illərdə kolxoz quruluşuna qarşı aparılan qaçaq hərəkatına və xalq üsyanlarına qarşı mübarizədə vermişdi. 9-10 mart 1930-cu illərdə Şahbuz rayonunun Keçili kəndində xalq üsyanına rəhbərlik edən Kərbəlayi Qurban öz elçiləri vasitəsi ilə Cəbrayıl rayonunun Dağtumas, Sirik, Əhmədli oymaqlarında hökumətdən narazı qüvvələrə ciddi təsir göstərmiş və onların dinsiz hökumətə və onun kolxoz quruculuğuna qarşı tez bir zamanda üsyan qaldırmalarına nail olmuşdu. Bunun müqabilində isə 27.XII. 1932-ci ildə Cəbrayıl milisi və onun öncül dəstəsi olan qırmızı partizanlar "Hər bir milis işçisi zərbəçi olmalıdır!" şüarı altında mübarizəyə atılmışdı. Milis əməkdaşlarının peşə və fiziki hazırlığını artırmaq üçün keşik və konvoy xidməti Nizamnamələrinin öyrənilməsi və Nizamnamələrin tələblərinə riayət olunması işinə xüsusi diqqət yetirilmişdi. Cinayətkarlığa-oğurluğa, möhtəkirliyə, xuliqanlığa, rüşvətxorluğa qarşı mübarizə işi günbəgün gücləndirilmişdi. Bununla yanaşı qeyd etmək lazımdır ki, polis orqanlarında struktur dəyişmələri həmişə davam etdirilmişdi.

1929-cu ildə Qaryagin qəzası ləğv edilir və qəza inzibati ərazi vahidi Qarabağ mahal inzibati ərazisinə çevrilir. Lakin mahal inzibati ərazi bölgüsü yaratmanın heç bir ili tamam olmamış bu bölgü sistemi ləğv edilir. Əksinə kiçilmə-qəzaların tərkibində rayonlaşma kimi inzibati ərazi bölgüsü aparılır. Qaryagin qəzası iki rayona Cəbrayıl və Qaryagin rayonlarına bölünür. Beləliklə 8 avqust 1930-cu ildə Cəbrayıl rayonu yaradılır. Bununla da yuxarı respublika orqanlarının Cəbrayıl rayonunda müvafiq qurumları təsis edilir. Yeni yaradılmış Cəbrayıl rayon milis şöbəsinin

rəisi vəzifəsinə Qarakollu Feyzullayev Famil təyin edilir. Milis şöbə rəisi həm də XDİK-nın rayon şöbə rəisinin müavini vəzifəsini daşıyır. Ümumiyyətlə, Stalinin hakimiyyəti dövründə milisin siyasi idarənin tərkibinə verilməsi və ayrılması demək olar ki, tez-tez baş verən bir hal olub. Dəyişməyən hal isə mahiyyət etibarı ilə milisin daim siyasi idarəyə tabeçiliyinin dəyişməməsi məsələsi olub. Sovet hakimiyyətinin ilk illərində Xalq Daxili İşlər Komissarlığı ayrıca, müstəqil qurum kimi yaradılsa da işini Azərbaycan Dövlət Siyasi İdarəsinin rəhbərliyi altında qurması tələb olunub. 25 mart 1930-cu il tarixdə isə DİO-ları bilavasitə Azərbaycan Dövlət Siyasi İdarəsinin tərkibinə qatılır. Azərbaycan SSR XDİK adını alır. 13 dekabr 1930-cu ildə SSRİ ÜİMİK və XKS-nın birgə qərarı ilə milis şöbələri yerli icraiyyə komitələrinin tərkibinə verilir. Lakin işini yenə də Azərbaycan Dövlət Siyasi İdarəsinin yerli orqanlarının rəhbərliyi altında qurması qərara alınır. Respublika Baş Milis İdarəsi isə öz işini Azərbaycan SSR XDİK-nın, daha doğrusu, Azərbaycan Dövlət Siyasi İdarəsinin rəhbərliyi altında qurub. 3 fevral 1941-ci ildə Azərbaycan SSR-də XDİK-i iki komissarlığa – XDİK-nə və Dövlət Təhlükəsizlik Komissarlığına bölünüb. Bu bölgü çox çəkməyib. 20 iyul 1941-ci ildə yenidən hər iki komissarlıq bir tərkibdə-XDİK-da birləşib. Mart 1946-cı ildə XDİK bölünür, adı dəyişdirilərək DİN-nə və DTN-ə çevrilir. Aprel 1949-cu ildə DİN-nin yerli orqanlarında siyasi hissə üzrə rəis müavini vəzifələri təsis edilir. Oktyabr 1949-cu ildə milis yenidən DTN-ə verilir. Mart 1953-cü ildə DİN və DTN birləşərək DİN-nə çevrilir. İyul 1954-cü ildə DİN yenidən iki nazirliyə - DİN və DTN-ə bölünür. DİN-nin yerli orqanlarında siyasi hissə üzrə rəis müavini ştatları ləğv edilir. Yeri gəlmişkən qeyd edək ki, bu ştatlar 1983-cü ilin noyabr ayında yenidən bərpa edilib, mart 1990-cı ildə yenidən ləğv edilir. Əvəzində şəxsi heyətlə iş üzrə müavinlik vəzifələri yaradılıb.



13 sentyabr 1966-cı ildə DİN-nin adı dəyişdirilərək İctimai Asayişi Mühafizə Nazirliyinə çevrilir. Lakin bu adda çox yaşamır. 25 noyabr 1968-ci ildə təkrar əksi adına qaytarılır. İctimai Asayişi Mühafizə Nazirliyi adı dəyişdirilərək yenə də Daxili İşlər Nazirliyinə çevrilir.

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini əldə etdikdən sonra – 5 iyun 1992-ci ildə mövcud hüquqi statusu saxlanılmaqla milis sözü polis adıyla əvəzlənir.

İstər ADR, istər Azərbaycan SSR, istərsə də AR dövrlərində daxili işlər orqanlarına rəhbərlik etmiş şəxslərin kimlər olmasının maraq doğuracağını nəzərə alaraq onların siyahısını burada dərc etməyi məqsədəuyğun sayırıq.

## RESPUBLİKA DAXİLİ İŞLƏR NAZİRLİYİNƏ RƏHBƏRLİK ETMİŞ ŞƏXSLƏRİN SİYAHISI

| Hökumət dönəmləri | S/S | İşlədikləri müddət | Nazirlərin adı, atasının adı, soyadı |
|---|---|---|---|
| ADR | 01 | 28.V – 16.VI.1918 | Fətəlixan İsgəndərxan oğlu Xoyski |
| | 02 | 17.VII – 07.XII.1918 | Behbudağa Azad oğlu Cavanşir |
| | 03 | 26.XII.1918-14.III.1919 | Xəlilbəy Ələkbərbəy oğlu Xasməmmədov |
| | 04 | 14.03 – 16.04.1919 | Məmmədsadıq bəy İsmayil bəy oğlu Ağabəyzadə |

| | | | |
|---|---|---|---|
| | 05 | 16.04 – X,1919 | Nəsibbəy Yusif bəy oğlu Yusifbəyli |
| | 06 | X- XI, 1919 | Məmmədsadıqbəy İsmayıl bəy oğlu Ağabəyzadə |
| | 07 | 15.XI.1913-18.II.1920 | Məmmədhəsən Səfərqulu oğlu Hacınski |
| | 08 | 18.II. – 27.IV.1920 | Mustafabəy Nadirbəy oğlu Vəkilov |
| Azərbaycan SSR | 09 | 1920-1921 | Həmid Həsən oğlu Sultanov |
| | 09 | 1921- 1924 | Əlibəy Şahkərim oğlu Bəylərbəyov |
| | 10 | 1925-1926 | Musa Məmməd oğlu Şəmsəddinski |
| | 11 | 1926-1927 | Əli Səməd oğlu Məmmədov |
| | 12 | 1927-1929 | Novruz Kərim oğlu Rizayev |
| | 13 | 1929-1934 | Stepan Fyodoroviç Yemelyanov |
| | 14 | 1934-1937 | Yuvilyan Davidoviç Sumbatov-Topurudze |
| | 15 | I - X 1938 | Mixail Qriqoryeviç Rayev |
| | 16 | X.1938-II.1939 | Yuvilyan Davidoviç Sumbatov- Topurudze |
| | 17 | II.1939-1941 | Stepan Fyodroviç Yemelyanov |
| | 18 | 1941-1950 | Mir Teymur Mir Ələkbər oğluYaqubov |
| | 19 | 1950-1953 | Ağasəlim İbrahim oğlu Atakişiyev |



| | | | |
|---|---|---|---|
| | 20 | 1953-1956 | Anatoli Mixayleviç Quskov |
| | 21 | 31.I-11.08.1956 | Baraşkov |
| | 22 | 11.08.1956 05.02.1960 | Əli Həbib oğlu Kərimov |
| | 23 | 1960-1965 | Xəlil Məmməd oğlu Məmmədov |
| | 24 | 1965-1970 | Məmməd Əli oğlu Əlizadə |
| | 25 | 1970-1978 | Arif Nəzər oğlu Heydərov |
| | 26 | 1978-1987 | Cəfər Cəbrayıl oğlu Vəliyev |
| | 27 | 1987-1990 | Aydın İsrafil oğlu Məmmədov |
| | 28 | 1990-1991 | Məhəmməd Nəbi oğlu Əsədov |
| Azərbaycan Respublikası | 29 | 1991-1992 | Tofiq Mirzə oğlu Kərimov |
| | 30 | 17.03-25.05.1992 | Tahir Yunis oğlu Əliyev |
| | 31 | 26.05.1992 16.04.1993 | İsgəndər Məcid oğlu Həmidov |
| | 32 | 16.04-17.06.1993 | Abdulla Museyib oğlu Allahverdiyev |
| | 33 | 03.07.1993 29.04.1994 | Vaqif Yusif oğlu Novruzov |
| | 34 | 29.04.1994-cü ildən | Ramil İdris oğlu Usubov |

Statistik məlumatlara görə 37-nin irticası DİO-nın təkcə komandir heyətindən 318 nəfəri öz qurbanına çevirmişdi. Represiya zamanı DİN-nə rəhbərlik etmiş H.Sultanov, Ə.Xanbudaqov, N.Rizayev, Ə.Bəylərbəyov, uzun illər Respublika Baş Milis İdarəsinin rəisi işləmiş İ.İbrahimov, mü-

aşağı işlərə keçirilmə hallarına belə təsadüf edilməmişdi. Bu kimi qüsurlara başqa rayonlarda işləyərkən yol vermiş kadrlar olsa da Cəbrayıl rayonunda işlərkən bu kimi təəssüf doğuran xətadan uzaq olmuşdular. Bəlkə də buna onların öz xarakterlərindəki, iradələrindəki möhkəmlik, dəyanət deyil, Cəbrayıl cəmiyyətindəki təmizlik, Cəbrayıl mühitindəki saflıq, insanlar arasındakı qarşılıqlı hörmət, səmimi münasibət və qanunçuluğa riayət etmədə olan məsuliyyət hissləri imkan verməmişdi. Vəzifə sahiblərinın qüsursuz işləmələrinə, kobud pozuntulara yol verməmələrinə cəbəb olmuşdu. Bir qayda olaraq şöbə rəisləri idarəçilik və təşəbbüskarlıqları ilə bir-birlərini üstələməyə çalışmışlar. Fəaliyyətləri dövründə ayrı-ayrı xidmət sahələrində sələflərinin hər hansı bir şəkildə yol vermiş olduqları nöqsanların və ya çatışmamazlıqların aradan qaldırılmasında səylərini əsirgəməmişlər. Əməliyyat şəraitinin dərindən öyrənilməsi, cinayətin başvermə səbəblərinin araşdırılması, əməliyyat müşavirələrinin lazımi səviyyədə keçirilməsi, real kriminogen vəziyyəti əks rtdirən planların tutulması və tam icrası işlərində prioritetliyi həmişə gözləmişlər. Mülkiyyət əleyhinə yönəlmiş cinayətlərin qarşısını vaxtlı-vaxtında almağa müvəffəq olmuşlar. Soyğunçuluq, quldurluq, xuliqanlıq cinayətləri azalan xətt üzrə sonuc tapmışdı. Agentura-kəşfiyyat işinin keyfiyyəti həmişə yüksək səviyyədə qurulmuşdu. Hüquq qaydalarının mühafizəsi və hüquqpozmalar ilə mübarizə işi daim gücləndirilmişdi. Şəxsi heyətin yüksək əxlaqi və siyasi, mənəvi keyfiyyətlərinin səviyyəsini yüksəltmək, qaldırmaq sahəsində işin təşkili və ideoloji tədbirlərin görülməsi də ön planda saxlanılmışdı. Təşəbbüskarlıq, kadrların seçilib yerləşdirilməsində düzgün seçim üsulunun tətbiqi öz müsbət nəticəsini həmişə büruzə vermişdi. Bütün bunların nəticəsində Cəbrayıl RPŞ-nin əməkdaşları təhlükəli cinayətkarların tutulmasında, zərərsizləşdirilməsində bir qayda olaraq qorxmazlıq, cəsarət və fədakarlıqları ilə fərqlənmişlər. Şəxsi

igidlik, şücaət nümunələri göstərmişlər. Milis şöbəsinin əməkdaşları rayonun təsərrüfat həyatında da yaxından iştirak etmişlər. Xüsusilə də kənd təsərrüfatı məhsullarının yığımı vaxtlarında, mövsümi işlərdə əmək qabiliyyətli əhalinin , habelə idarə, müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçuların yığıma, tədarük işlərinə cəlb edilməsində bilavəsitə iştirak etmişlər. Özləri də bu işlərə səfərbər edilmişlər. Lazımi hallarda gücləndirilmiş iş rejimində işləmişlər. Bu gün də Cəbrayıl RPŞ-də müxtəlif vəzifə və xidmət sahələrində işləmiş ayrı-ayrı əməkdaşların adı hörmətlə yad edilir. Onların iş təcrübələrinə müraciətlər olunur. Onlardan iqtibaslar gətirilir.

Belə ki, rayon daxili işlər şöbəsində rəis müavini vəzifələrində uzun müddət işləmiş Süleymanov Süleymanın, Xanlarov İsrafilin, Novruzov Sabirin adları nümunəvi rəis müavinləri sırasında çəkilir. Yeri gəlmişkən qeyd edək ki, həmin vəzifədə ən uğursuz təyinat sahibi kimi Babayev soyadlı bir şəxs ad çıxarmışdı. Rəis müavini işlədiyi qısa müddətdə öz davranışıyla polis adına ləkə gətirən hərəkətə yol vermiş və rayon ərazisini tərk etmək məcburiyyətində qalmışdı.

Şöbənin Cinayət Axtarış xətti üzrə baş əməliyyat müvəkkili vəzifəsində işləyənlərdən Abbasov Xudayarın, Abbasov Müslümün, Quliyev Şahların, Quliyev Hikmətin müsbət işləri tez bir zamanda diqqət çəkən olmuş, onlar bir--birlərinin ardınca daha yüksək vəzifələrə təyinat almışdılar. SƏDM xətti üzrə inspektorlardan Axundov Fətulla öz işgüzarlığı və sərtliyi ilə, Məmmədov Təyyar öz yumşaqlığı, Hüseynov İbrahim oz alicənablığı ilə yadda qalan olmuşlar. Lakin bu sahə üzrə əməliyyat inspektoru işləmiş Dadaşov Sabir Yunis oğlu ən zəif SƏDM əməkdaşı kimi qeydə alınmışdı.

Şöbənin müstəntiqlərindən Cəfər Cabbarov, Məmmədxan Babayev öz sakitlikləri və dönməzlikləri, səbrlə, tələsmədən, cinayət işlərini çözmələri ilə öz iş xüsusiyyətlərini



qabardıblar. Pasport masa rəisi Hacıyev Nəsibin öz xətti ilə yazdığı pasportlardakı muncuq düzümlü hərfləri həmişə xətlər içində seçilibdi.

Cəbrayıl Daxili İşlər Şöbəsində dövlət avtomobil müfəttişi işləmiş Abbasov Sabirin, Quliyev Sabirin, Abbasov Valehin və Rzayev Vaqifin təsərrüfatlarda avtonəqliyyatdan istifadə və yol hərəkəti qaydalarına riayət olunması sahəsində həyata keçirdikləri profilaktika tədbirləri, hərəkət qaydalarını pozanlara qarşı apardıqları səmərəli mübarizələri həmişə yekunda öz bəhrəsini vermişdi. Belə ki, rayonda böyük əks səda doğurmuş və 31 dekabr 1966-cı ildə "Ceyran düzü" kimi biyabanlıqda gündüz saat $10^{00}$-da "407"markalı, 94-17 AZM dövlət nömrə nişanlı maşının sahibi Hüseynov Cəlal Cabbar oğlunun qətlə yetirilməsi hadisəsi zamanı Abbasov Sabirin peşəkarlığı öz ünvanını tapmışdı. Onun fədakarlığı nəticəsində qatil elə həmin gün aşkar edilib cinayət məsuliyyətinə cəlb edilmişdi.

Dövlət yanğın nəzarəti müfəttişi Şükürov Fərmanın bir qayda olaraq öz işini səliqə-sahmanlı və sürəkli şəkildə yerinə yetirməsi diqqət çəkən olmuşdu. Onun təqaüdə çıxması ilə bağlı həmin vəzifəyə təyin edilmiş Bəhrəmov Fazil də öz işiylə sələfini təkrarladı. Etimadı doğuran vəzifə sahibi kimi ad çıxardı. Şöbənin Mühafizə bölməsinin rəisləri kimi Abduləzimov Hünbət və başqaları xidməti vəzifələrinin öhtəsindən lazımi səviyyədə gəlmişlər.Xidməti işlərində sayıq olmaları, qüsursuz işləmələri ilə fərqlənmişlər.

Cəbrayıl rayon daxili işlər şöbəsinin sahə müvəkkillərindən Baxşalıyev Musanın, Böyük Vətən müharibəsinin iştirakçısı Qurbanov Xanışın, xələfləri Atakişiyev Aydının, Qurbanov İzzətin, adları hörmətlə çəkilir. Yerlərdə onların ərizə və şikayətləri aidiyyəti üzrə həll etmələri, heç bir ictimai faydalı əməklə məşğul olmayanların əməyə, işə cəlb etmələrində, ərazilərdə baş verən cinayət hadisələrinin açılmasında prinsipial mövqedən çıxış etmələri müs-

bət hal kimi qiymətləndirilibdi. Bu xidmət sahəsindəki əməkdaşlar sırasında ən uğursuz təyinat alan Ələkbərov Qurban Əli oğlu olmuşdu. Cinayət hərəkətinə yol verdiyinə görə Cəbrayıl polisinin həyatında müstəsna hal kimi cinayət məsuliyyətinə cəlb edilmişdi.

Sıravi-serjant heyətinin nümayəndələrindən Əliyev Müzəffərin, Mirzəyev Yəhyanın, Məmmədov Camalın, Həşimov Qurbanın, Poladov Telmanın, sürücülərdən Həziyev Qaranın, Əliyev Eldarın, Əliyev Rafiqin ictimai asayişin qorunması, ictimai qayda-qanunları pozanlara qarşı mübarizə aparmaq sahəsində səmərəli fəaliyyətləri, şöbənin daxili intizam qaydalarına ciddi əməl etmələri, həmişə onların mükafatlandırılması yaxşı işlərinin göstərişi kimi özünü büruzə vermişdi.

Biz bu səhifədə Cəbrayıl rayon daxili işlər şöbəsinə müxtəlif hakimiyyət dönəmlərində rəhbərlik etmiş şəxslər barəsində məlumat verməzdən öncə bir neçə məsələyə aydınlıq gətirmək istərdik. Ümumiyyətlə, 1930-cu ildən əvvəl DİO-da işləmiş şəxslərin DİN-nin arxivində şəxsi işlərinin olmaması təəssüf doğurur. Sonrakı dövrllərdə işləmişlərin bir çoxu partiya, sovet və dövlət təhlükəsizliyi orqanlarında işlərini davam etdirdiklərinə görə onların da şəxsi işləri görünür müvafiq təşkilatların arxiv idarələrinə köçürülmüşdü. Başqa bir faktı da burada açıqlamaq yerinə düşər. 26 yanvar 1963-cü ildə Füzuli və Cəbrayıl rayonları birləşdirilərək mərkəzi Füzuli şəhəri olan Füzuli rayonu təsis edilmişdi. Əlavə olaraq bildirək ki, Qaryagin rayon adı 1959-cu ildə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin şərəfinə Füzuli adıyla əvəzlənmişdi. Lakin bu birləşmənin ömrü də uzun çəkmədi. İl yarımdan sonra həmin rayon yenidən iki rayona Cəbrayıl və Füzuli rayonlarına bölünmüşdü. Birləşmə dövründə Füzuli rayon Daxili İşlər şöbəsinin rəisi işləmiş Niftulla Ağasıyev, həm də Cəbrayıl milis bölməsinə rəhbərlik etmişdi. Habelə, birləşmə dövründə Cəbrayıl rayon milis şöbəsi adı idarənin yenidən təsisi zamanı Cəbrayıl rayon Daxili İşlər şöbəsi kimi adlanmışdı. Cəbrayıl rayon Daxili İşlər şöbəsinin rəisi vəzifəsinə İlyasov Hidayət Qara oğlu təyin edilmişdi. Aşağıda Cəbrayıl rayon Polis Şöbəsinin rəisi vəzifəsində işləmiş şəxslərin siyahısını və onlardan bir çoxunun həyatından görüntüləri nəzər diqqətinizə çatdırırıq.



## CƏBRAYIL RAYON POLİS ŞÖBƏSİNİN RƏİSİ VƏZİFƏSİNDƏ İŞLƏMİŞ NOMENKLATUR KADRLARIN SİYAHISI

| s.s | Tarix | S.A.A. | Vəzifəsi |
|---|---|---|---|
| 1 | 1918-1919-cu illər | Qalabəyov Fərruxbəy | Cəbrayıl qəza polis idarəsinin Cəbrayıl məntəqəsinin pristavı |
| 2 | 1919-1920-ci illər | Əlibəyov Cəmilbəy | Cəbrayıl qəza polis idarəsinin Cəbrayıl məntəqəsinin pristavı |
| 3 | 1920-1922-ci illər | Şahmuradov Soltanmurad Həsən oğlu | Qaryagin qəza milis idarəsinin Cəbrayıl fəhlə-kəndli milisinin baş milisi |
| 4 | 1923-1925-ci illər | Səfərov Muxtar Əmiraslan oğlu | "--------" "---------" |
| 5 | 1925-1927-ci illər | Quliyev Şamil İmanqulu oğlu | "--------" "---------" |
| 6 | 1928-1929-cu illər | Həsənov Xanlar Səməd oğlu | "--------" "---------" |
| 7 | 1929-1931-ci illər | Feyzullayev Famil | XDİK Cəbrayıl rayon şöbəsinin milis şöbə rəisi |

| | | | |
|---|---|---|---|
| 8 | 1931-1933-cü illər | Dərgahov Feyruz Cümşüd oğlu | "-------" "---------" |
| 9 | 1934-1935-ci illər | Səfərov Muxtar Əmiraslan oğlu | "-------" "---------" |
| 10 | 1936-1937-ci illər | Həsənov Xanlar Səməd oğlu | "-------" "---------" |
| 11 | 1937-1940-cı illər | Məmmədov Şamil Salman oğlu | "-------" "---------" |
| 12 | 1940-1943-cü illər | Xəlilov İslaməli | "-------" "---------" |
| 13 | 1943-1946-cı illər | Məmmədov Şamil Salman oğlu | "-------" "---------" |
| 14 | 1946-1947-ci illər | Rüstəmov İsim Abdulla oğlu | "-------" "---------" |
| 15 | 1947-1949-cu illər | Hüseynov Ağababa Mirsadıx oğlu | "-------" "---------" |
| 16 | 1949-1951-ci illər | Babayev Mustafa | "-------" "---------" |
| 17 | 1951-1952-ci illər | Quliyev Kərim Alış oğlu | "-------" "---------" |
| 18 | 1952-1954-cü illər | Məmmədov Hüseyn | Cəbrayıl rayon milis şöbəsinin rəisi |



| | | | |
|---|---|---|---|
| 19 | 1954-1958-ci illər | Tağıyev Qədir | "-------" "---------" |
| 20 | 1958-1962-ci illər | Mirzəyev Məmməd Abdulla oğlu | "-------" "---------" |
| 21 | 1963-1964-cü illər | Ağasıyev Niftulla | Fizuli (Cəbrayılla birgə) rayon DİŞ-nin rəisi |
| 22 | 1964-1972-ci illər | İlyasov Hidayət Qara oğlu | Cəbrayıl rayon Daxili İşlər Şöbəsinin rəisi |
| 23 | 1973-1984-cü illər | Mahmudov Fikrət İsmayıl oğlu | "-------" "---------" |
| 24 | 1985-1988-ci illər | İsmayılov Novruz Cəmil oğlu | "-------" "---------" |
| 25 | 1988-1992-ci illər | Məmmədov Rəşid Cəbrayıl oğlu | "-------" "---------" |
| 26 | 1992-ci ildən | Məhərrəmov Vaqif Əfsər oğlu | Cəbrayıl Rayon Polis Şöbəsinin rəisi |

# CƏBRAYIL POLİSİNƏ RƏHBƏRLİK ETMİŞ NOMENKLATUR KADRLARIN HƏYATINDAN GÖRÜNTÜLƏR

## SƏFƏROV MUXTAR ƏMİRASLAN OĞLU

Səfərov Muxtar Əmiraslan oğlu 1896-cı ildə Yelizavetpol quberniyasının Cəbrayıl qəzasının Mirzəcanlı kəndində anadan olub. 1914-cü ilə kimi atasının himayəsində



Səfərov Muxtar

yaşayıb. 1914-cü ildə Yekaterinoslav quberniyasının Voloqrad şəhərində dəmiryol fəhləsi kimi əmək fəaliyyətinə başlayıb. 1916-cı ildə Cəbrayıla qayıdıb. 1919-cı ilədək kənd təsərrüfat işlərində çalışıb. 1919-cu ildə ADR tərəfindən hərbi səfərbərliyə cəlb olunub. Xankəndi şəhərində daşnak quldurlarına qarşı döyüşlərdə iştirak edib. 1920-ci ildə isə qırmızı partizanlara qoşularaq müsavatçılara və Domulu Tevonun quldur dəstəsinə qarşı aparılan vuruşmaların iştirakçısı olub. 1921-ci ildə könüllü surətdə Qaryagin qəza milis idarəsinin Cəbrayıl Qırmızı Fəhlə-kəndli milisinin sıralarına daxil olub. 1921-1923-cü illərdə bolşevik firqəsi daxilində milis kimi ərzaq hazırlığında çalışıb. 1923-1925-ci illərdə Qaryagin Qəza Milis idarəsinin Cəbrayıl Fəhlə-kəndli qırmızı milisində baş milis vəzifəsində işləyib. 1925-1930-cu illərdə kooperativ işlərində çalışıb. 1930-cu ildə Cəbrayıl rayon milis şöbəsinin komanda heyətinə daxil olub. 1934-cü ildə Cəbrayıl rayon partiya komitəsinin birinci katibi Məmmədəliyevin təqdimatı ilə rayon milis şöbə rəisi vəzifəsinə tövsiyə olunub. 1936-cı ilin mart ayınadək həmin vəzifədə çalışıb.

1935-ci ildə Azərbaycanda Sovet Hakimiyyətinin qurulmasının 15 illiyi münasibəti ilə xidmətləri nəzərə alınaraq gümüşdən hazırlanmış portsiqar qutusu ilə təltif edilib.

1936-cı ilin mart ayında DİO-da xidməti işdən aralanıb. 1935-1939-cu illərdə Cəbrayıl rayon icraiyyə komitəsi sədrinin müavini vəzifəsində işləyib. O, uzun illər rayonun bir sıra idarə və müəssisələrində rəhbər vəzifələrdə, dövlət qulluqlarında çalışıb. Belə ki, rayon icraiyyə komitəsinin sədr müavini vəzifəsindən azad edildikdən sonra rayon yağ-pendir zavodunun müdiri vəzifəsinə təyinat alıb.



Uzun illər həmin vəzifədə çalışıb. Sonra isə rayon yundəri istehsalı və tədarükü idarəsinin müdiri vəzifəsində işləyib. Bir müddətdən sonra isə rayon istehlak cəmiyyətində kreditlə satılan mallar mağazasının müdiri təyin edilib. Ömrünün sonuna kimi bu vəzifədə çalışıb.

Səfərov Muxtar Əmiraslan oğlu 1 may 1969-cu ildə haqq dünyasına köçüb.

## HƏSƏNOV XANLAR SƏMƏD OĞLU



Həsənov Xanlar

Həsənov Xanlar Səməd oğlu 1892-ci ildə Cəbrayıl rayonunun Mirzəcanlı kəndində anadan olub. 1903-cü ildə Cəbrayıldakı 3 sinifli rus məktəbində oxuyub. 1910-1917-ci illərdə muzdur olub. 1918-1919-cu illərdə türk ordusuna səfərbər edilib. Cəbrayıl pristavının strajniki işləyib. 1920-1921-ci illərdə Hadrut rayonunda təşkil olunan qırmızı partizan dəstəsinə qoşulub. Müsavatçılara və Tevonçulara, daşnak quldurlarına qarşı aparılan döyüşlərdə iştirak edib. 01 dekabr 1921-ci ildə Qaryagin qəza milis idarəsinin Cəbrayıl Fəhlə-kəndli qırmızı milis dəstəsinə daxil olub. 1923-cü ilədək milis nəfəri kimi Sovet hakimiyyətinın əleyhinə çıxan əks-inqilabi qüvvələrə qarşı aparılan mübarizənin fəal iştirakçısı olub. 1923-1928-ci illərdə Cəbrayıl kənd sovetinin sədri vəzifəsində işləyib.

1924-cü ildə K(b)P-nın üzvülüyünə qəbul olunub. 1928-ci ildə Cəbrayıl Fəhlə-kəndli qırmızı milis şöbəsinin 1929-cu ildə Xanlıq fəhlə-kəndli qırmızı milis şöbəsinin rəisi vəzifələrində işləyib. 1929-cu ilin sonuna Xanlıq milis şöbəsi ləğv edilənədək həmin vəzifədə çalışıb. 1930-1931-ci illərdə

Cəbrayıl rayon evlər idarəsi müdirinin müavini, 1931-1932-ci illərdə Cəbrayıl rayon su təsərrüfatı idarəsinin rəisi, 1932-1933-cü illərdə Horovlu kənd sovetinin sədri vəzifəsində işləyib.

1922-1934-cü illərdə Cəbrayılda savadsızlığın ləvği ilə bağlı fəaliyyət göstərən yaşlılar qrupunun axşam kurslarında dinləyici olub.

Həsənov Xanlar Səməd oğlu 1934-1936-cı illərdə 3 saylı Mil pambıqçılıq sovxozuna ezam edilib. Burada işləməyə cəlb edilmiş fəhlələrin Cəbrayıl rayonu üzrə müvəkkili vəzifəsində çalışıb. O, Mil sovxozundakı yaxşı işinə görə zərbəçi kitabçası ilə təltif edilmiş və 750 rubl mükafat almışdı. Həsənov Xanlar Səməd oğlu 01 mart 1936-cı ildə Cəbrayıl rayon partiya komitəsinin birinci katibi Nurullayevin təqdimatı əsasında Cəbrayıl rayon milis şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdi. 1937- ci ilin dekabr ayının 31-də Cəbrayıl rayon İcraiyyə komitəsinin sədri işləyən Mirqəniyev trotskiçi kimi enkevede tərəfindən həbs edilir. İstintaq zamanı işgəncələrə davam gətirmədiyindən o, rayonun rəhbər işçilərinin bir çoxu barəsində böhtan dolu informasiyalar, danoslar verir. Cəbrayıl rayonunda əmanət kassasının müdiri işləyən Tiqran Qriqoryanın gizli daşnak təşkilatında, rayon milis şöbəsinin rəisi Xanlar Həsənovun gizli fəaliyyət göstərən müsavat partiyasının işində yaxından iştirak etmələrindən bəhs edir. Mirqəniyev 1938-ci ilin mart ayında güllələnir. Lakin verdiyi danoslar öz təsdiqini tapmır. İstintaq işi ilə bağlı öz işindən bir müddət kənarda qalan Həsənov Xanlar Səməd oğlu 1938-ci ilin may ayının 9-da Qubadlı rayon milis şöbəsinin rəisi vəzifəsinə təyin edilir. O, 1940-cı il oktyabr ayının 10-dək bu vəzifədə işləyib.

Həsənov Xanlar Səməd oğlu 1940-1941-ci illərdə Qaryagin və Laçın rayonlarında qısa müddətli fasilələrlə rayon milis şöbələrinin rəisi vəzifələrində çalışıb. Bu dövr onun həyatının ən qalmaqallı dövrü kimi xarakterizə oluna bilər. Cəbrayıldan və Qaryagindən olan əleyhidarları



birləşərək qrup halında Həsənov Xanlar Səməd oğlu haqqında yuxarı orqanlara ardıcıl şəkildə şikayər ərizələri yazır və açıqdan-açığa üzünə dirənirlər. İki təqsirləndirici materialı məqsədyönlü şəkildə qabardırlar. Birinci halda Həsənov Xanlar Səməd oğlu barəsində istintaq-təhqiqat işi aparılır. Həsənov Xanlar Səməd oğlu Qaryagin rayon milis şöbəsinin rəisi işlərkən rayon siyasi idarəsinin rəisi Vartanyanla rayon istehlak cəmiyyətində məsul vəzifədə çalışan Ruben adlı erməninin evində təşkil etdiyi qonaqlıqda iştirak etməsi ilə bağlı olur. Sərxoş olması və süfrə arxasında dava-dalaş saldığı bildirilir. İkinci şikayət isə 1919-cu ildə Cəbrayıl pristavının strajniki işlərkən bolşevikləri təhqir etməsi ilə bağlı qabardılan bir fakt olur. Göstərilir ki, müsavat hökuməti əleyhinə gizli iş aparan K(b)P üzvü Ağakişiyev İbiş Qalib oğlu Cəbrayıl pristavı tərəfindən göz altına alınır və o, strajnik Həsənov Xanlar Səməd oğlunun nəzarəti altında baş idarəyə - Cəbrayıl qəza polis idarəsinin yerləşdiyi Qarabulaq kəndinə göndərilir. İbiş Talıb oğlunun deməsinə və üzə dirənməsinə görə Xalaç dağının ətəyindən keçən zaman Həsənov Xanlar Səməd oğlu qəflətən kolun dibindən çıxıb qaçan dovşanı ayaqda saxladığı tüfənglə vurur və deyir " Ə, İbiş, bir bolşeviki də belə öldürdüm." Bununla da bolşeviklərə loğaz edir. İndi isə o, cildini dəyişərək bolşevik partiyasına xidmət etməsi bildirilir. Həsənov Xanlar onun haqqında irəli sürülən ittihamların heç birini qəbul etmir. Şikayətçilərin bir çoxunun partiyaya soxulmasına imkan vermədiyini, bir çoxunun isə təmizləmə zamanı partiyadan xaric edilməsində fəallıq göstərdiyi və söz sahibi olduğuna görə ona qarşı birər-birər qərəzkarlıq etmələrini deyir. Bütün bu şikayətlərdən sonra Həsənov Xanlar Səməd oğlu aşağı işə keçirilir. O, 18 may 1941-ci ildə Samux rayon milis şöbəsində əməliyyat müvəkkili vəzifəsinə göndərilir. Lakin haqqında şikayət ərizələri kəsmək bilmir. Həsənov Xanlar Səməd oğlu 1943-cü ildə DİO-dan kənarlaşdırılır. Cəbrayıl rayon

partiya komitəsinin birinci katibi Qəhrəmanovun təqdimatı ilə Həsənov Xanlar Səməd oğlu 1 mart 1943-cü ildə Cəbrayıl rayonunda şosse yolları idarəsinin müdiri vəzifəsinə təyin edilir. Bu vəzifədə etimadı doğuran kadr kimi özünü tanıdıb. Hələ 1943-1944-cü illərdə rayonda olan kəndarası və şosse yollarının təmirini vaxtında və keyfiyyətlə başa çatdırdığı təqdir olunub. Arxa cəbhədə yaxşı işlədiyinə, fədakarlıq göstərdiyinə görə "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif edilib. Yol tikintisində, yol təmirində, yol işində qazandığı təcrübə, işgüzarlıq Həsənov Xanlar Səməd oğluna qalan həyatını bütövlükdə bu işə həsr etməsinə səbəb olur. Həsənov Xanlar Səməd oğlu ömrünün sonlarınadək Cəbrayıl rayon XDS İK-nin yanında fəaliyyət göstərən yol idarəsinin müdiri vəzifəsində işləmişdi.

## MƏMMƏDOV ŞAMİL SALMAN OĞLU



Məmmədov Şamil

Məmmədov Şamil Salman oğlu 1908-ci ildə Cəbrayıl rayonunun Keçəlməmmədli kəndində anadan olub. 1922-1925-ci illərdə muzdur olub. 1925-1930-cu illərdə Cəbrayılda birinci dərəcəli kənd məktəbində təhsil alıb. 1930-cu ilin oktyabr ayında Qırmızı Orduya səfərbər edilib. Alay məktəbində oxuyub. Fəhlə-kəndli qırmızı ordusunda tağım komandirinin müavini işləyib. Ordudan tərxis olunanda 1932-ci ilin sentyabr ayında Bakıda milis orqanına daxil edilib. 1932--ci ilin noyabr ayında Bakı şəhərindəki birillik milis məktəbinə göndərilib. 1933-cü ilin oktyabr ayında təhsilini başa vurub. 1933-cü ilin noyabr ayında Gəncə şəhərindəki milis diviziyasında tağım komandiri vəzifəsinə təyin edilib.



1934-cü ilin sentyabr ayınadək həmin vəzifədə işləyib. 1934-cü ilin oktyabr ayında Cəbrayıl rayon milis şöbəsində əməliyyat müvəkkilinin köməkçisi vəzifəsinə təyin edilib. 1935-ci ilin noyabr ayında əməliyyat müvəkkili vəzifəsinə keçirilib. 1937-ci ilin may ayında isə Cəbrayıl rayon milis şöbəsinin rəisi vəzifəsinə irəli çəkilib. 1940-cı ilin iyul ayınadək həmin vəzifədə işləyib. 1940-1941-ci illərdə Zəngilan rayon milis şöbəsinin, 1941-1942-ci illərdə Əlibayramlı rayon milis şöbəsinin, 1942-1943-cü illərdə Qubadlı rayon milis şöbəsinin rəisi vəzifələrində işləyib. 1943-cü ilin sentyabr ayında ikinci dəfə Cəbrayıl rayon milis şöbəsinin rəisi vəzifəsinə təyin edilib. 1946-cı ilin avqust ayınadək həmin vəzifədə işləyib. O, bu vəzifədə işlərkən tabeçiliyində olmasına baxmayaraq Baş Siyasi İdarənin rayon şöbəsi rəisinin haqsızlıqlarına qarşı çıxması tez-tez xatırlanır. Bundan başqa həmin dövrlərdə onun Respublika DİN-də banditizmə qarşı mübarizə idarəsinin rəisi vəzifəsində işləyən Ələkbər Abdullayevlə birgə bir çox cinayətkar dəstələrin zərəsizləşdirilməsi sahəsində əməliyyat tədbirlərinin hazırlanıb həyata keçirilməsində bilavasitə iştirak etməsi söylənilir. Yadda qalan səmərəli fəaliyyətləri sırasında onun 30-cu illərdə Qaradağ çapavılçılarına qarşı apardığı mübarizə, qaçaq hərəkatına qoşulmuş təsadüfi adamların, namuslu insanların üzə çıxarılmasılnda və qorunmasında mərdanəliklər göstərməsi deyilir. Onun, xüsusilə, yaylaq mövsümlərində Ermənistanın hüquq mühafizə orqanlarında çalışan daşnak xislətli milis əməkdaşları tərəfindən azərbaycanlılara qarşı aparılan qeyri-qanuni həmlə və tutuqlara, habelə ablavalara sərt münasibət göstərməsi, onların qərəzkarlıqlarına, çirkin əməllərinə qarşı fəal mübarizə mövqeyindən çıxış etməsi həmişə müsbət qiymətləndirilib. Camaata köməkliklər göstərməsi, təmənnasız iş görməsi tərifənib. Lakin onun siyasi idarə əməkdaşları ilə tez-tez üz-üzə gəlməsi və qarşılıqlı ittihamlar, yazışmalar öz mənfi təsirini göstər-

məyə bilməzdi. Onun enkevede tərəfindən daim təqib olunmasına gətirib çıxarmışdı. Təqsirləndirici materialda göstərilir ki, Məmmədov Şamilin qayınatası Kaşıyev Hüseyn 1927-ci ildə gizli şəraitdə İrana adlayıb. Həyat yoldaşının qardaşı Kaşıyev İmran hökumət əleyhinə əks-inqilabi fəaliyyət göstərdiyinə görə 1938-ci ildə həbs edilərək güllələnmişdir. Məmmədov Şamil Salman oğlu 1946--cı ilin avqust ayında Cəbrayıl rayon milis şöbəsinin rəisi vəzifəsindən azad edilərək aşağı işə - Bakı şəhər milis idarəsinin SƏDM şöbəsində əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. 1948-ci ilədək həmin vəzifədə çalışıb. 1948-ci ildən yenidən rəhbər işə irəli çəkilib. 1948-1950-ci illərdə Mirbəşir rayon milis şöbəsinin, 1950-1951-ci illərdə Nuxa rayon milis şöbəsinin, 1951-1952-ci illərdə Ağdam rayon milis şöbəsinin rəisi vəzifələrində çalışıb. 1952-ci ilin sentyabr ayında Gəncə vilayət milis idarəsində milis xidməti inspektoru, 1953-cü ilin oktyabr ayında isə Bakı şəhər milis idarəsinin 7-ci milis bölməsində baş inspektor vəzifəsinə təyin edilmişdir. 1955-ci ilin sentyabr ayınadək həmin vəzifədə çalışmışdı. Sonralar isə Bakı şəhəri Oktyabr rayon milis şöbəsində müxtəlif vəzifələrə təyinat almış, 1969-cu ildə DİO-dan təqaüdə buraxılmışdı. 1969-1977-ci illərdə Bakı Ət kombinatılnda mühafizəı dəstəsinin rəisi işləmişdi.

DİO-da işlədiyi müddətlərdə bir sıra orden və medallarla təltif edilmişdi. “Qırmızı ulduz“ ordeni, “Döyüş xidmətlərinə görə”, “Rəşadətli əməyə görə”, “Almaniya üzərində qələbə” və s. hökumət medalları almışdı.

Məmmədov Şamil Salman oğlu 1977-ci ildə Bakı şəhərində vəfat etmişdi. Cənazəsi Cəbrayıl rayonuna aparılmış, Soltanlı kənd qəbiristanlığında dəfn edilmişdi.



## HÜSEYNOV AĞABABA MİRSADIX OĞLU



Hüseynov Ağababa

Hüseynov Ağababa Mirsadıx oğlu 1920-ci ildə Lənkəran şəhərində anadan olub. Lənkəran şəhərindəki 3 saylı məktəbdə natamam orta təhsil alıb. Təhsilini 2 saylı məktəbdə davam etdirib. 1938-ci ildə Lənkəran şəhər 2 saylı orta məktəbini bitirib. 1938-1942-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakultəsinin məzunu olub. 1942-ci ilin yanvar ayından mart ayınadək Masallı rayonunun Digah kənd orta məktəbinin direktoru vəzifəsində işləyib. 1942-ci ilin mart ayında Masallı rayon hərbi komissarlığı tərəfindən hərbi səfərbərliyə alınıb. Xankəndindəki Buynakski adına Piyada Qoşunları məktəbinə göndərilib. 1942-ci ilin iyul ayında hərbidən tərxis olunub. 1942-ci ilin avqust ayında Lənkəran şəhər 5 saylıl orta məktəbində dərs hissə müdiri vəzifəsinə təyin edilib. 1943-cü ildə Lənkəran müəllimlərinin rayon həmkarlar təşkilatının sədri vəzifəsinə seçilib. 1944-cü ildə Azərbaycan SSR DİN-nin İslah əmək işləri və kaloniyaları idarəsində işə qəbul edilib və Mardakert rayonundakı 4 saylı Madaqus İƏK-na baş müfəttiş vəzifəsinə təyinat alıb. 1945-ci ilin may ayında Quba şəhərindəki 9 saylı İƏD-də nəzarət xidmətinin rəisi vəzifəsinə təyin edilib. 1945-ci ilin oktyabr ayında DİN-nin kadrlar idarəsinin sərəncamına göndərilib. 1945-ci ilin noyabr ayında Naxçıvan MSSR DİN Milis İdarəsinin cinayət axtarış şöbəsində əməliyyat müvəkkili vəzifəsinə təyinat alıb. 1946-cı ilin iyul ayında Yardımlı rayon Milis şöbəsinin, 1947- ci ilin mart ayında isə Cəbrayıl rayon milis şöbəsinin əməliyyat müvəkkili vəzifəsinə dəyişdirilib. 1947-ci ilin noyabr ayında Cəbrayıl rayon milis şöbəsinin rəisi vəzifəsinə təyin edilir. 1949-cu

ilin may ayınadək həmin vəzifədə çalışıb. 1949-1950-ci illərdə Neftçala rayon milis şöbəsinin, 1950-1952-ci illərdə Qasım-İsmayılov rayon milis şöbəsinin rəisi vəzifələrində işləyib. 1952-ci ildə Azərbaycan SSR DTN-nin Lerik rayon şöbəsinin rəisi vəzifəsinə təyinat alır. 1953-cü ilədək həmin vəzifədə çalışır. 1953-cü ildə Qazı-Məmməd rayon milis şöbəsinin rəisi təyin edilir. 1954-cü ilin avqust ayında aşağı işə keçirilir. Saatlı rayon milis şöbəsinin baş əməliyyat müvəkkili təyin edilir. 1955-ci ilin may ayından yenidən rəis vəzifəsinə irəli çəkilib. 1 may 1955-ci ildən aprel 1956-cı ilədək Xanlar rayon milis şöbəsinin rəisi vəzifəsində işləyir. 1956-cı ilin aprel ayında Tovuz rayon milis şöbəsində SƏDM xətti üzrə əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. Həmin vəzifədə 1959-cu ilin sentyabr ayına kimi işləyib. Bununla yanaşı, 8 oktyabr 1956-cı ildən 17 mart 1957-ci ilədək Bakı Xüsusi Orta Milis məktəbinin müdavimi olub. 1957-ci ildə SSRİ DİN-nin nəzdnində kurs bitirib. 4 sentyabr 1959-cu ildə Bakı şəhər Milis İdarəsinin sərəncamına göndərilir. Bakı şəhər Milis İdarəsi Cinayət Axtarışı şöbəsinin əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. 1971-ci ilədək Bakı şəhər Daxili İşlər İdarəsinin müxtəlif bölmələrində SƏDM xətti üzrə inspektor vəzifələrində çalışıb. 1971-ci ildə Bakı şəhəri oktyabr rayon DİŞ-də rəis müavini vəzifəsinə təyin edilib. 1975-ci ildə DİO-dan təqaüdə çıxıb.

Hüseynov Ağababa Mirsadıx oğlu 1993-cü il noyabr ayının 20-də vəfat edib.

## QULİYEV KƏRİM ALIŞ OĞLU

Quliyev Kərim Alış oğlu 1918-ci il mart ayının 21-də Şuşa şəhərində anadan olub. Elə həmin günlərdə erməni daşnak faşistləri Şuşaya hücum edib qırğın törədiblər. Şəhəri yandırıblar. Ailə qaçqın düşüb. Ağdam rayonunun Sarıhacılı kəndində məskunlaşıb. Anası Kubra xanım fəal





Quliyev Kərim

qadın olması ilə seçilib. Kolxoz rəhbəri olub. Oğlunun savadlı, dünyagörüşlü böyüməsinə, vətəninə layiqli övlad kimi yetişməsinə ciddi diqqət yetirib. Quliyev Kərim Ağdamın 1 saylı sahə orta məktəbini fərqlənmə attestatı ilə bitirib. Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub. Buranı da qırmızı diplomla bitirən Quliyev Kərim Alış oğlu təyinatla Laçın rayonuna göndərilib. Təyinat müddəti qurtaranda Ağdama qayıdıb. Ağdam rayonunun hərbi komissarlığı tərəfindən 1940-cı ildə hərbi səfərbərliyə alınıb. Uzaq Şərqdə hərbi xidmətbə olub. Böyük Vətən Müharibəsinin başlaması ilə əlaqədar orduda saxlanılıb. 1945-ci ilədək döyüş cəbhəsində olub. Ordudan tərxis olunan K.-A. Quliyev hərbi komissarlığın tövsiyyəsi ilə Ağdam rayon DİŞ-də əməkdaş kimi xidməti işə keçib. Biliyi, istedadı, rus dilində sərbəst danışması nəzərə alınaraq o buradan Ali partiya məktəbinə göndərilib. Partiya təhsilini başa vuraraq Tərtər rayon DİŞ-nin cinayət axtarışı üzrə rəis müavini vəzifəsinə göndərilib. 1951-ci ildə Cəbrayıl rayon DİŞ-nin rəisi vəzifəsinə təyinat alıb. 1952-ci il noyabr ayının 20-dək həmin vəzifədə işləyir. 1952-1954-cü illərdə Ağdam rayon DİŞ-nin rəisi, 1954-1961-ci illərdə Şəki şəhər DİŞ-nin rəisi vəzifələrində çalışıb. 1961-ci ildə SSRİ DİN-nin əmri ilə Gürcüstan SSR DİN-nin sərəncamına göndərilib. Quliyev Kərim Alış oğlu 1961-ci ildən 1993-cu ilədək Gürcüstan SSR-in Sarvan, Qarayazı rayon DİŞ-də SƏDM xətti üzrə əməliyyat müvəkkili vəzifələrində çalışıb. 1993-cü ildə daxili işlər orqanlarından təqaüdə çıxaraq Ağdam şəhərinə köçmüşdü. Lakin burada çox yaşaya bilməmişdi. Ağdamın erməni daşnak faşistləri tərəfindən işğal edilməsi ilə əlaqədar cənnət Qarabağdan didərgin

düşmüşdü. Məcburi köçkün kimi 23 iyul 1993-cü il tarixdən Gəncə şəhərində məskunlaşmışdı. Ömrünün axırına kimi burada yaşayıb. O, 2004-cü il yanvar ayının 17-də 86 yaşında dünyasını dəyişib. 2 oğul, 4 qız övladı var. Bütün övladları ali təhsil alıblar. İstər övladları, istərsə də həyat yoldaşı Nuridə xanım həmişə onunla fəxr etmişlər, qürurlanmışlar. Bu gün də adını hörmətlə yad edir, əziz xatirəsini qəlblərində, ürəklərində yaşadırlar.

## MİRZƏYEV MƏMMƏD ABDULLA OĞLU


Mirzəyev Məmməd

Mirzəyev Məmməd Abdulla oğlu 1914-cü ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Kəmərli kəndində anadan olub. 1932-ci ildə Kəmərli kənd natamam orta məktəbini, 1936-cı ildə Qazax pedaqoji məktəbini, 1974-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakultəsini bitirib. Əmək fəaliyyətinə muzdur kimi başlayıb. 1925-1930-cu illərdə Piril kəndində Gülməmməd adlı dövlətli şəxsin nökəri olub.

1937-1939-cu illərdə əsgəri xidmətdə olub. 1939-1940-cı illərdə Bakı şəhərindəki 1 saylı milis diviziyasında milis nəfəri kimi xidmətə qəbul olunub. 1940-41-ci illərdə diviziyada siyasi işlər üzrə vzvod komandirinin müavini, 1941-42-ci illərdə şöbənin siyasi rəhbəri, 1942-44-cü illərdə Yevlax rayon milis şöbəsinin siyasi hissə üzrə rəis müavini vəzifəsində işləyib. 1944-1946-cı illərdə həmin şöbədə əməliyyat müvəkkili vəzifəsində çalışıb. 1946-1947-ci illərdə Sumqayıt milis diviziyasında siyasi işlər üzrə komandirin müavini, 1947-1948-ci illərdə Ağdam rayon milis şöbəsində əməliyyat müvəkkili vəzifələrində işləyib.



1949-1951-ci illərdə Gəncə şəhər 1 saylı milis şöbəsinin rəisi vəzifəsində çalışıb. 1951-ci ildə Qaryagin rayon milis şöbəsinin rəisi təyin edilib. 1953-1957-ci illərdə Cəlilabad rayon milis şöbəsinin rəisi işləyib. Buradan aşağı işə keçirilib. 1957-1958-ci illərdə Cəbrayıl rayon milis şöbəsində baş əməliyyat müvəkkili vəzifəsinə təyinat alır. Mirzəyev Məmməd Abdulla oğlu Cəbrayıl rayonunda işlərkən üç halda peşəkarlığı müsbət şəkildə yuxarı dövlət orqanlarında təqdir olunub. Qafan şəhərindəki islah əmək koloniyasından qaşmış 4 cinayətkarın Qazanzəmi kəndi ətrafındakı meşələrdə aşkar edilib tutulmasında, Məzrə kənd sakini Məhərrəmov Qaməddin Məhəmməd oğlunun ölümü ilə nəticələnən yol-qəza hadisəsini törədərək hadisə yerindən qaçmış sürücünün aşkar edilib, tapılmasında, cinayət işlədərək ehtiyat fonddan pul mənimsəmiş Cəbrayıl rayon dövlət bankı əməkdaşlarının cinayət məsuliyyətinə cəlb edilməsində səmərəli və çevik fəaliyyəti təriflənib. Bunlar nəzərə alınaraq onun yenidən rəhbər işə yüksəldilməsinə rəvac verilib. Əvvələr onun aşağı işə keçirilməsində sovet hakimiyyətinə qarşı silahlı qiyam qaldırmış "xalq düşməni" kimi adı hallandırılan xan rütbəli Sərxan Şirvanlının qardaşı qızı ilə ailə həyatı qurması təqsirləndirici material qismində əleyhinə istifadə edilmişdi.

Mirzəyev Məmməd Abdulla oğlu 1958-ci ildə Cəbrayıl rayon milis şöbəsinin risi vəzifəsinə təyin edilir. 1962-ci ilin sonunadək həmin vəzifədə işləyib. 1963-cü ilin yanvar ayında Cəbrayıl rayonunun inzibati ərazi vahidi kimi ləğv edilərək Füzuli rayonunun tərkibinə daxil edilməsi ilə əlaqədar olaraq Mirzəyev Məmməd Abdulla oğlu Cəbrayıl rayon milis şöbəsinin rəisi vəzifəsindən azad edilir və DİO dan təqaüdə buraxılır.

M.A. Mirzəyev 1963-1964-cü illərdə Füzuli rayon istehsalat idarəsində kadrlar üzrə baş inspektor, Füzuli rayon iaşə idarəsinin müdiri vəzifələrində işləyib. 1964-1980-ci

illərdə isə Füzuli rayon Dövlət notariat kontorunun notariusu işləmişdi.

Mirzəyev Məmməd Abdulla oğlu DİO-da işlədiyi müddətdə "Qırmızı ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", "Əla xidmətə görə", habelə "SSRİ Silahlı qüvvələrinin 60-illiyi", Qələbənin 20 və 30 illiyi ərəfəsində yubiley medalları ilə təltif olunub. Habelə qüsursuz işinə görə birinci dərəcəli məharət döş nişanına və əmək veteranı medallarına layiq görülüb.

Mirzəyev Məmməd Abdulla oğlu 1993-cü ildə haqq dünyasına köçüb.

## İLYASOV HİDAYƏT QARA OĞLU


İlyasov Hidayət

İlyasov Hidayət Qara oğlu 1926-cı ildə Qubadlı rayonunun Qubadlı kəndində inqilabçı ailəsində anadan olub. Atası Qara İlyas oğlu 1920-ci ildə K(b) P-na daxil olub. Zəngəzur, Ağdam, Qaryagin qəza təşkilatlarında rəhbər vəzifələrdə işləyib. Əks inqilabi qüvvələrə qarşı silahlı döyüşlərdə özünü bacarıqlı komandir kimi göstərib. 1928-ci ildə Ağdam qəza milis idarəsinin rəisi işlədiyi zaman banditlər tərəfindən qətlə yetirilib. İlyasov Hidayət Qara oğlu 1934-cü ildə Qubadlı kənd orta məktəbinin birinci sinfinə daxil olub. O, 1945-ci ildə Qubadlı kənd orta məktəbini bitirib. Əmək fəaliyyətinə Qubadlı rayonundakı 26 Bakı komissarı adına kolxozda mühasib köməkçisi kimi başlayıb. 1947-49-cu illərdə Laçın pedaqoji məktəbinin məzunu olub. 1949-cu ilin oktyabr ayında Qubadlı rayon milis şöbəsində pasport qeydiyyatçısı vəzifəsinə qəbul edilib. 1950-1951-ci illərdə Bakı şəhərindəki birillik milis məktəbində oxuyub.



1951-1952-ci illərdə Qubadlı rayon milis şöbəsində pasport masa rəisi vəzifəsində çalışıb. 1952-ci ildə Zəngilan rayon milis şöbəsində əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. 1953-cü ildə Qubadlı rayon milis şöbəsində SƏDM xətti üzrə inspektor vəzifəsində xidməti işə göndərilib. 1953-cü ilin oktyabr ayında isə şöbənin baş əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. 1957-ci ildə isə Qubadlı rayon DİŞ-nin rəisi vəzifəsinə təyin edilib. 1961-ci ilədək həmin vəzifədə işləyib. 1959-1964-cü illərdə təhsilini qiyabi yolla davam etdirib. BDU-nun hüquq fakultəsini bitirib. 1961-1962-ci illərdə Zəngilan rayon DİŞ-nin rəisi vəzifəsində işləyib. 1962-1964-cü illərdə isə Füzuli rayon DİŞ-nin rəis müavini vəzifəsində çalışıb.

01 iyul 1964-cü ildə Cəbrayıl rayon DİŞ-nin rəisi vəzifəsinə təyin edilib. 18 dekabr 1972-ci ilədək həmin vəzifədə çalışıb. 18 dekabr 1972-ci ildən 25 aprel 1981-ci ilədək Beyləqan rayon DİŞ-nin rəisi vəzifəsində işləyib. Həmin vəzifədən xəstəliyi ilə əlaqədar olaraq azad edilib və daxili işlər orqanlarından polis polkovnik-leytenantı rütbəsində təqaüdə buraxılıb.

İlyasov Hidayət Qara oğlu Cəbrayıl rayon DİŞ-nin rəisi vəzifəsində işlədiyi dövrdə ancaq özünü müsbət keyfiyyətləri qismində xarakterizə edib. Rəhbər işçi kimi şəxsi heyətə nümunə olub. Tabeçiliyindəki işçilərin seçilib yerləşdirilməsində, tərbiyə edilməsində, təlimata uyğun davranmalarında həmişə yüksək tələbkarlıq göstərib. Ağır cinayətlərin açılmasında, əməliyyat tədbirlərinin operativ şəkildə aparılmasında yüksək təşəbbüskarlıq göstərib, çevik hərəkətləri ilə fərqlənib.

İlyasov Hidayət Qara oğlunun iş fəaliyyəti müntəzəm olaraq jurnalistlərin nəzər diqqətini cəlb etmişdi. "Kolxozçu" rayon qəzetinin 18 iyun 1968-ci il tarixli sayında "İnam", 12 mart 1968-ci il tarixli sayında isə "Sənin yolunla gedirəm, ata!" məqaləsi dərc edilmişdir. Sonuncu mə-

qalə "Kommunist" qəzetindən təkrar çap kimi qəzet səhifəsinə gətirilmişdi.

O, 1959-cu ildə "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə", 1965-ci ildə "Asayişin qorunmasında əla xidmətlərinə görə" və bir sıra yubiley medalları ilə təltif edilmişdi.

İlyasov Hidayət Qara oğlu 5 övlad atası olub. Böyük oğlu İbrahim gənc yaşlarında dünyasını dəyişib. Övladlarından Elxan və Elçin atalarının yolunu davam etdirirlər. Onlar hüquq mühafizə orqanlarında çalışırlar. İlyasov Hidayət Qara oğlu 1993-cü il mart ayının 17-də vəfat edib.

## «BEKARÇILIQDAN QORX Kİ, O SƏNİ HƏR CÜR FƏLAKƏTLƏRƏ DÜÇAR EDƏ BİLƏR»

*A. Bakıxanov*



Mahmudov Fikrət

**Tanıtma: Fikrət İsmayıl oğlu Mahmudov** 1931-ci il mart ayının 3-də İsmayıllı rayonunun Mican kəndində ziyalı ailəsində anadan olub. 1955-ci ildə Baki Dövlət Universitetinin Hüquq fakultəsini bitirib. 1955-1960-cı illərdə Ucar rayon DİŞ-də baş müstəntiq, 1960-1971-ci illərdə İsmayıllı rayon DİŞ-də baş əməliyyat müvəkkili, 1971-1973-cü illərdə Yevlax rayon DİŞ--də rəis müavini, 1973-1984-cü illərdə isə Cəbrayıl rayon DİŞ-nin rəisi vəzifəsində çalışıb. Sonuncu iş yerindən polis podpolkovniki rütbəsində təqaüdə çıxıb. Ömrünün son günlərinədək Respublika Ədliyyə Nazirliyinin Baş Notariat İdarəsində sahə inspektoru kimi fəaliyyət göstərib. 1989-cu ildə uzun sürən xəstəlikdən sonra 58 yaşında haqq dünyasına köçüb. Üç övladı var. Böyük oğlu Rauf ali təhsilli mexanikdi, təsərrüfatda çalışır.



Kamran hüquqşünasdı, Sumqayıt şəhər prokurorunun müavini vəzifəsində işləyir. İlham tibb elmləri namizədidi, Qədirli adına Hövzə xəstəxanasında şöbə müdiridir.

Yazıma böyük mütəfəkkirimiz A.Bakıxanovun qələmindən çıxan fəlsəfi, fikir tutumu elmi doqmatik traktatlarından heç də az olmayan sözlərindən əbəs yerə başlamadım. Bu müqəddəs kəlamlar ruhu milli-mənəvi dəyərlərimizə söykənən ürfan sözlü, mübarək üzlü dostum - Fikrət müəllimin sanki həyat deviziydi. Tez-tez təkrarladığı bu sözlər peşə baxımından onun dilində asayiş keşikçilərinin gündəlik fəaliyyətlərinə işıq tutan bir epiqraf kimi səslənirdi. Yanımızda da tez-tez təkrarladığından bu sözlər biz dostlarının diləzbərinə çevrilərək zərbi-məsəl bir sözə dönmüşdü.

Aramızda böyük yaş fərqi olmasına baxmayaraq Fikrət müəllimlə mənim dostluğum təmasda olduğumuz ilk gündən başladı. Yaxşı yadımdadı. 1973-cü ilin çisginli bir payız günü idi. Onda mən Cəbrayıl rayonunun ucqar dağ kəndində, Dağtumasda məktəb direktoru işləyirdim. 11 para kəndi əhatə edən Dağtumas kənd sovetliyində o vaxtlar xoşagəlməz abu-hava vardı. Qaramal oğurluqları səngimək bilmirdi. Qalmaqallı günlər idi. Son bir il ərzində nə az, nə çox, say etbarı ilə ərazidə 80-dən çox mal-qara oğurluğu faktı qeydə alınmışdı. Mərkəzi orqanlara göndərilən ərizələrin, şifahi, yazılı şikayətlərin ardı-arası kəsilmirdi. Nəinki respublika, ittifaq səviyyəsində belə hüquq-mühafizə orqanları işə qarışmışdılar. Məhz belə bir dövrdə bacarıqlı əməliyyatçı olması, cinayət axtarışı sahəsindəki iş təcrübəsi , peşəkarlığı nəzərə alınaraq Fikrət müəllim Cəbrayıl rayon DİŞ-nin rəisi vəzifəsinə tövsiyyə edilmişdi. Yeri gəlmişkən qeyd edim ki, həmin dövrədək Fikrət müəllimin DİO-da qulluq vəzifəsini nümunəvi yerinə yetirməsi, ictimai asayişin qorunmasındakı diqqətəlayiq fəaliyyəti, bacarıqlı əməliyyat işçisi olması yuxarı orqanlar tərəfindən lazımınca qiymətləndirilmişdi. Baş müs-

təntiq işlədiyi zaman "Milis əlaçısı" döş nişanına layiq görülmüşdü. Baş əməliyyat müvəkkili işlədiyi, polis kapitanı kimi fəaliyyət göstərdiyi dövrdə isə SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 iyul 1965-ci il tarixli fərmanı ilə "Qırmızı ulduz" ordeni ilə təltif edilmişdi. Ümumiyyətlə, işlədiyi dövrdə istintaq hərəkətlərindəki peşəkarlığına, qabaqcıl təcrübədən, mütərəqqi iş üsullarından və metodlarından bacarıqla istifadə etməyinə, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə kompleks-əməliyyat axtarış, istintaq və profilaktiki tədbirləri səmərəli təşkili etdiyinə görə Fikrət müəllim çox saylı medallarla, fəxri fərmanlarla təltif edilmişdi...

Həmin gün məktəb işi ilə əlaqədar rayon mərkəzinə gəlmişdim. Maarif şöbəsində bizim ərazinin sahə müvəkkili ilə rastlaşdım. O, mənə yanaşıb dedi ki, bəs sənin ardınca gəlmişəm. Təzə rəisimiz, yoldaş Mahmudov səni kabinetdə gözləyir. Düzü narahatçılıq hissi keçirdim. Milis rəisinin mənimlə nə işi ola bilərdi, düşündüm. Fikrət müəllimi bir neçə dəfə aralıdan-aralıya görsəm də, tanısam da ilk dəfəydi ki, üz-üzə oturmalı olurdum. Növbətçi gəldiyimi bildirincə buraxın, dedi. Məni çox mehribanlıqla, ayaq üstə, qapı ağzında qarşıladı. Oturmağa yer göstərdi. Köməkçisinə çay gətirməsini tapşırdı. İlk söhbətinə müəllim ailəsindən çıxmasından başladı. Atasından söhbət saldı. Müəllimlərə böyük hörməti olmasından, yollarını saxlamasından, inam göstərməsindən, səmimi münasibət bəsləməsindən danışdı. İş təcrübəsində ziyalılara ürək qızdırmasından, onlara arxalanmasından misallar çəkdi. Nəhayət, mətləb üstə gəldi. Bizim ərazidə baş verən qarışıqlıqdan, baş verən olaylardan, yazı-pozulardan nigarançılığını dilə gətirdi. Oğurluq hadisələrinin təhlil və təhqiqatları ilə bağlı ayrı-ayrı şübhəli şəxslər barəsində fikrimi öyrənmək istədiyini bildirdi. Sual verdi, cavab aldı. Aramızda uzun, səmimi bir söhbət getdi. Mən əlbəttə, təmiz bildiyim, başqasının malında gözü olmayan bir çox həmkəndliləri-



min adının şübhəlilər siyahısından çıxarılmasına zamin oldum. "Yoldaş Mahmudov" deməyi də elə o gündən tərgitdim. "Bu gündən olduq dost, mənə yoldaş Mahmudov yox, elə sadəcə "Fikrət müəllim" deyə müraciət edə bilərsən" dedi. "Yoldaş Mahmudov" elə o gündən mənim üçün Fikrət müəllim oldu. Əməliyyat şəraitini nəzarət altında saxlayan Fikrət müəllim kütləvi hal almış oğurluq hadisəsi ilə bağlı hay-küy salmadan, kənar müdaxilələrə fikir vermədən öz işini gördü. Tezliklə əməli fəaliyyəti öz səmərəsini verdi. Cinayətkar dəstə ifşa olundu. Rayonun ünvanına səslənən iradlar, ittihamlar səngidi. Mal-qara oğurluğuna son qoyuldu. Hər şey öz axarına düşdü.

Həmin görüşdən bir neçə il sonra isə mənim rayon partiya komitəsinə işə gəlməyim, rayon xalq nəzarəti komitəsinin sədri vəzifəsinə təyin edilməyim, büro üzvü seçilməyim Fükrət müəllimlə ünsiyyətimizi sıx-sıx artırdı. Xidməti işimiz də bir növ bizi daha da yaxınlaşdırdı. Yaxınlığımıza yeni çalarlar verdi, münasibətlərimizdə yeni nüanslar yaratdı. Çox oturub-durmağımızdan yana bu gün onun barəsində söz deyərkən, əhval-ruhiyyəsindəki notları, xarakterindəki cizgiləri ifadə edərkən hansından başlamağı, nədən başlayacağıma, hansı cəhətlərinə önəm verməkdə deməzsən çətinlik çəkirəm. Bu götür-qoyları bir tərəfə çinləyib ilk növbədə Fikrət müəllimin peşəsinə münasibəti haqqında bir neçə kəlmə söz demək istəyirəm. Fikrət müəllim hüquq tətbiqetmə fəaliyyəti ilə bağlı işinə təkcə səlahiyyətli dövlət nümayəndəsi kimi deyil, həm də yaradıcılıq baxımından da münasibət bildirir və bununla da məşğul olurdu. O, cinayətkarları ifşa etməklə işini bitmiş hesab etmirdi. İnsan taleyində silinməz izlər buraxan qayğıkeş bir tərbiyəçi kimi özünü təsdiqlədirdi. Oğurluq, dələduzluq, xuliqanlıq edənləri, ictimai-faydalı əməkdən boyn qaçıranları hər vasitə ilə islah yoluna çəkirdi. Bu sahədə özünə məxsus iş stili, iş üslubu, yanaşma tərəfləri vardı. Öz iş keyfiyyətini yüksəltmək üçün daim öz üzərin-

də işləyirdi, mütaliə edirdi. Hətta elmi fəaliyyətlə əlaqəsini kəsməmişdi. Azərbaycan SSR EA Fəlsəfə İnstitutunun Hüquq bölməsinin dissertantı olmuş, "Sosialist mülkiyyəti əleyhinə dələduzluq qəsdləri üstündə cinayət məsuliyyəti" adlı mövzu da götürmüşdü. Namizədlik dissertasiyası kimi elmi iş üzərində də işləyirdi. Tez-tez Respublika mətbuatında, müxtəlif KİV-də, "Sosialist Qanunçuluğu" jurnalında, habelə "Kolxozçu" rayon qəzetində peşə yönümlü işlər, mövzular çərçivəsində polemik yazılarla çıxış edirdi. Əhali arasında ictimai təhlükəsizliyin təmini sahəsində izahat işi aparılmasını,cinayət hallarının azalması yönümündə profilaktiki tədbirlərin görülməsini həmişə diqqət mərkəzində saxlıyardı. Mütəmadi olaraq ictimaiyyət arasında görüşlər keçirir, tədris müəssisələrində, əmək kollektivlərində mühazirələr oxuyurdu. Əhalinin ərizə və şikayətlərinə diqqətlə yanaşardı. Onların həll olunmasını diqqət mərkəzində saxlardı. Vaxtaşırı müzakirələr aparardı. Şərəfli hüquq işçisi olmasını vətəndaşlıq qayəsi hesab edərdi. Yurdsevərlik, vətənpərvərlik duyğuları ilk sözündən bəlli olardı, ziyalılığı hər addımda özünü açıq-aşkar büruzə verirdi. Bütün keyfiyyət halları ondakı ziyalı potensialından, intellektindən maya tuturdu. Daha doğrusu bu işıq kökdən gəlirdi. Şəcərəsinə layiq bir xələf adı daşıyırdı. Babası Hacı Mahmud Əfəndi Şirvan elində tanınan, adlı-sanlı ürfan sahibi kimi ad çıxarmışdı. Oğlu İsmayıla da ürfan elminin sirlərini özü mənimsətmişdi. İsmayıl müəllim sovet dönəmindən öncə realnı və rus-tatar məktəblərində oxumuşdu. Sovet hakimiyyəti illərində isə ali təhsil almışdı. Müəllimlik fəaliyyətini davam etdirmişdi. Ömrünün sonunadək pedaqoji fəaliyyətlə məşğul olmuşdu. "Əməkdar müəllim", "Maarif əlaçısı" kimi fəxri adlar almışdı, "Şərəf nişanı" ordeni və bir çox dövlət medallarlı ilə təltif edilmişdi. Vətən üçün layiqli övladlar yetirməyi isə ən böyük istəyi oldu, Övladlarından Rəşid ictimai xadim kimi özünə cəmiyyətdə mövqe qazandı. Ədhəm elm xadimi kimi uca



mərtəbələr fəth etdi. Kiçik oğlu Hikmət geologiya-mineralogiya elmləri namizədi kimi alimlik dərəcəsi alsa da, şair kimi də ad-san çıxardı. Fikrət müəllim isə hüquqşünas peşəsinə yiyələndi. Lakin ziyalı kimliyindən uzaq düşmədi. Maarifpərvər bir ailə tərbiyəsindən çıxan Fikrət müəllimin kimliyini təsdiq edən, addımbaşı ziyalılığını qabardan ən uca dəlaləti onun şəxsi Məni oldu. Özünü mənliyində tapır və tanıdırdı. Fikrət müəllim ilk baxışda onu tanımayanlara diletant, eqoist adam təsiri bağışlaya bilərdi. Əslində isə Fikrət müəllim kövrək ürək sahibi olan, hədsiz dərəcədə sadə, səmimi, mehriban, təvazökar bir insan idi. Ağsaqqal davranışı, təmkinli, sanballı, alicənab hərəkəti və ünsiyyətdə dilavərliliyi ilə seçilirdi. İctimaiyyətçi, böyük məsləhətçi, fəallara örnək olmağı heç kimdə şübhə doğurmurdu. Onun gözəl aurası və geniş erudisiyası vardı. Şirin natiqlik qabiliyyəti, ilhamla, şairanə danışması, pak amalı, maraqlı söz-söhbərləri ilə auditoriyanı ələ alması diqqət çəkən idi. Bir çox tədbir və mərasimlərdə, bayram və tarixi günlərdə təşkil etdiyimiz məclislərdə masabəyi həmişə mübaliğəsiz Fikrət müəllimi seçərdik. Öz şeriyyəti, şairanə sözləriylə, şən ovqatı, yüksək əhval-ruhiyyəsi ilə məclisimizə rövnəq verməyindən heç olmazdı. Ədəbiyyatdan, musiqidən yetərincə xəbərdar idi. Şeir xiridarıydı. Muğamın, xalq mahnılarının, aşıq musiqisinin aludəçisi idi. Arabir özü də zümzümə edərdi. Şirazinin "Gülüstan" kitabı stol üstü kitablarından biriydi. Füzuli şerinə vurğunluğu isə öz yerində. Ovqatının saz saxlanmasında Füzuli qəzəllərindən ayrı-ayrı misra və beytləri elə bir intonasiya ilə, avazla, yerli-yataqlı qiraət edərdi, deyərdi ki, kimsə vurğusunda bir qüsur tapa bilməzdi, qabağında bir söz deyə bilməzdi. Əruz vəzninə kifayət qədər bələdçiliyi ifa tərzindən aşkarca bəlli olardı. Fikrət müəllim əski əlifbanı da mənimsəmişdi. Görünür Quranı qiraət etməsi nəsildən irsən gəlirdi. Hafiz olmaları nəsildən-nəslə ötürülməliydi. Bir sözlə, Fikrət müəllim Allah adamıydı. Biz hamımız

özümüzü Məhəmməd ümməti hesab etsək də, hətta, Qurani-Kərimi evdə belə gizlincdə saxlayırıq. Bəlkə də Fikrət müəllim respublikada yeganə polis rəisi, dövlət məmuruydu ki, bu müqəddəs kitabı kabinetində öz seyfində saxlayırdı. Asudə vaxtlarında "Yasin" surəsini mütaliə edirdi. İmkan tapanda namaza da dururdu. Tanrı elmindən hali olmasını bir kimsədən gizlətməzdi. Mehriban, məlhəm sözü, mərhəm səsiylə, hədislər deyərdi, gülşən, gülümsər sifətiylə özünü adama sevdirərdi, doğmalaşdırardı. Maddi-mənəvi dəyərlərimizə bağlı adam idi. Dost qədri bilən qədirşünas idi. Ona tez-tez ağız açırdıq, xahişlər edirdik. Amma Fikrət müəllim bəri başdan bizi xəbərdar edirdi ki, heç vaxt sərxoş vəziyyətdə avtomaşın idarə edənlərin xahişini əsla məndən etməyin. Çünki mən and içmişəm ki, bu cür şəxslər tək özlərini, öz ailələrini bədbəxt etmirlər, onların bu naqis əməlindən tamam başqa ailələr, günahsız insanlar fəlakətə düçar olurlar. Bunu dərk edən şəxs sərxoş vəziyyətdə sükan arxasına keşməməlidir. Fikrət müəllim inadında, iradında haqlıydı. Mən yeri gəlmişkən Fikrət müəllimin bu təvəqqəsini genişləndirərək, boy sırasını artıraraq bu günümüz üçün xarakterik və axırı olmayan üç motivlə silah, "ağ ölüm" və saxta valyuta qaçaqmalçılığı ilə müşahidə olunan cinayət hadisələri törədənlərin də xahişini əsla eşitməməyi hüquq peşəkarlarına tövsiyə edərdim.

Fikrət müəllimin ürəyi qurub-yaratmaq eşqiylə çırpınırdı. Təmizlik, səliqə-sahman, abadlıq aşiqiydi. Dinclik tapmırdı. Hara getsə, harda olsa, bir sözlə ayağı dəyən, izi düşən yerdə özündən bir nişangah qoyurdu. Rayon DİŞ--nin Köhnə idarə binasını öz gücü, daxili imkanları hesabına müasir tələblərə cavab verən bir vəziyyətə gətirmişdi, yardımçı binalar tikdirməklə elə hala salmışdı ki, öz görünüşüylə göz oxşayırdı. Rayon fəalı, idarə rəhbəri kimi rayonun ən iri təsərrüfatlarından biri olan Maralyan kəndindəki Lenin" adına kolxoza təhkim olunanda da öz ad-



ətindən qalmadı. O dövrdə rayonun pambıqçılıqdan üzümçülük təsərrüfatına keçid edən bir dövri idi. Çox saylı tarla düşərgələri gözdən düşmüşdü. Baxımsızlıqdan çoxu sökülüb dağılır, əldən gedirdi. Onda Fikrət müəllim Maralyan ərazisindən keçən Horadiz-Akara magistiralının alt hissəsindəki düşərgəni öz təşəbbüsü, gücü ilə rekonstruksiya etdirərək gözəl, axarlı-baxarlı bir işlək iaşə müəssisəsinə çevirdi. "Araz" adlanan, müştərilərə yüksək xidmət mədəniyyəti göstərən bu pavilyon sonralar adla deyildi. K.Marks adına sovxoza təhkim olunanda da xeyirxahlığından qalmadı. Tulus Hacılı kəndinin ərazisindən keçən Mahmudlu-Cəbrayıl şossesinin solundakı böyürtkən kolu basmış sərin sulu qaynamanı abad bulaq halına gətirdi. Suyunu paslanmayan boruya yığdırıb qarşısında mozaikalı, sütunlu divarla hörülmüş, şırnavalı, novlu, dəhnəsi olan bulaq şəklinə saldı. Ətrafını hörmə, dəmir şəbəkəli daş hasara aldırdı. Çinar ağacları əkdirdi, çarhovuz tikdirdi, daş döşənmiş cığırlar saldırdı. Adını da özü qoydu – "Görüş" bulağı. Aranın istisindən təntiyən, Cəbrayıla yol alan yolçular şəhərin soyuq sulu "Çinar" kəhrizindən öncə özlərini qaranəfəs "Görüş" bulağına çatdırar, su içər, burada oturar, sərinlər, nəfəs dərər, bulaq tikdirənin atasına rəhmət oxuyardılar. Bizlər isə öz aramızda həmişə bu çeşməyə "Mahmudov" bulağı deyərdik. Bu cür çox xeyirxah işləri, əməlləri ilə özünə, böyük ziyalı nəslinin ünvanına həmişə rəhmətlər qazandırardı.

Əfsuslar olsun ki, həyatda özünə dinclik tapmayan Fikrət müəllimin səhhətindəki problemlər onu əldən salırdı. Böyrəkləri onu çox incidirdi. Ona rahatlıq vermirdi. Həmişə ortasına qurşaq vurar, böyrək ağrılarından şikayət edərdi. Tez-tez yatağa düşərdi. İldə ən azı iki dəfə mərkəzi hosbitallarda müalicə kurslarında olardı. Məxsusi sanatoriyalara gedərdi. Özünü, səhhətini bir balaca düzəltdi, hər şeyi unudardı, yenə də öz işindən, əməlindən qalmazdı. Oturmaq bilməzdi. İşini tərif edənlərə yek sözü

vardı: "Axı, mən elə bir böyük iş görməmişəm, ancaq öz vəzifəmi yerinə yetirməklə məşğul olmuşam və oluram " – deyərdi.

Fikrət müəllimlə son görüşümüz təsadüfən " Bakı-Mincivan" qatarında oldu. Sonuncu xidməti iş yerindən Zəngilana ezam olunmuşdu. Mahmudlu stansiyasına kimi yol getdik. Kupe yoldaşı olduq. Sözlə ülfət bağladıq. Sözə sevginin, məhəbbətin şirinliyindən könlümüzü doldurduq, duyğulandıq. Ötən günlərə qayıtdıq. Xatirələrin həddi-hüdudu, xəyalların qanad yığmaqla bir işi yox idi. Danışmağa hələ sözümüz, söhbətimiz vardı. Bakıda görüşmək arzusuyla ünvan verdi mənə. Vədələşdik və könül xoşluğu ilə ayrıldıq. Təəssüf ki, yenidən görüşmək arzusu qismətimizə düşmədi. Çox keçmədi ki, cənnətməkanlıq dostumun haqq dünyasına köçmə xəbərini eşitdim.

Bu gün Fikrət müəllim kimi şəxsiyyətlərin xatirəsini yad etmək, ömür yollarının xarakterik cizgilərini sözə çəkmək, yaşatmaq, gənc nəslə ərmağan etmək məncə maraqlı olduğu qədər də vacibdir, dəyərlidir, ibrətamizdir. Mənəvi yaddaşımızın zənginləşməsində bu səpgidə olan yazıların müstəsna əhəmiyyəti, rolu vardı.

## XOŞ TƏƏSSÜRATIN SON İZTİRABI

**İsmayılov Novruz Cəmil oğlu** 1947-ci il mart ayının 23-də Qazax rayonunun Çaylı kəndində anadan olub. 1965-ci ildə Çaylı kənd orta məktəbini bitirərək ümumi orta təhsil alıb. Elə həmin il ordu sıralarına səfərbər olunub. Tacikistan SSR-də hərbi xidmətini başa vuraraq, Düşənbə şəhər DİI-də Polis sıralarına daxil olub. Təhsilini davam etdirərək 1976-cı ildə Düşənbə Dövlət Universitetinin Hüquq fakultəsini bitirib. SSRİ DİN-nin sərəncamı ilə Azərbaycan SSR DİN-nə göndəriş alıb. 1976-1984-cü illərdə Şuşa şəhər DİŞ-də əməliyyat müvəkkili, cinayət axtarışı şöbəsinin rəisi, daxili işlər şöbəsinin rəis müavini





İsmayılov Novruz

vəzifəsində işləyib. 1985-ci ilin fevral ayında Cəbrayıl rayon DİŞ-nin rəisi vəzifəsinə təyinat alıb.

İsmayılov Novruz Cəmil oğlu gəldiyi gündən xoş rəftarı, ağır təbiəti ilə tez bir zamanda Cəbrayıl camaatının rəğbətini qazandı. Həlim xasiyyəti, ictimaiyyətlə dil tapması gənc rəis üçün düşərli oldu. Onun barəsində əhali arasında "Nə xoş təsadüf! Fikrət müəllimin yerinə heç də ondan pis olmayan təzə rəis təyin olundu " kimi ifadələri gəzib dolaşdı. Əfsuslar olsun ki, öz əxlaqı, davranışı, oturuşu-duruşuyla özü haqqında xoş təəssürat yaradan Novruz müəllimin ömür yolu çox qısa oldu. Tale ulduzu tez parladığı kimi tez də söndü. Bu itki xoş təəsüratın son iztirabına dönüb Novruz müəllimi tanıyan həı bir cəbrayıllının kədərinə çevrildi. İsmayılov Novruz Cəmil oğlu qəflətən 1988-ci il iyul ayının 19-da böyrək çatışmamazlığından 41 yaşında Moskva şəhərində dünyasını dəyişdi. Cənazəsi Qazax rayonuna gətirildi. Çaylı kəndinin qəbiristanlığında torpağa tapşırıldı. Mərhumun dəfn mərasimində bir qrup Cəbrayıllılarla yanaşı mən də iştirak etdim. Çaylı elinin kədərinə biz də şərik çıxdıq.

İsmayılov Novruz Cəmil oğlu üç övlad atasıdır. Kiçik oğlu Zamin atasının yolunu davam etdirir. DİN-nin Polis Akademiyasını bitirib. Hal-hazırda Qazax rayon DİŞ-nin əməkdaşıdı

## MƏMMƏDOV RƏŞİD CƏBRAYIL OĞLU

Məmmədov Rəşid Cəbrayıl oğlu 1944-cü ildə Göyçay rayonunun Kürdəmiş kəndində anadan olub. 1951-ci ildə Göyçay şəhər orta məktəbinə daxil olub, 1963-cü ildə hə-


Məmmədov Rəşid

min məktəbin 11-ci sinfini bitirib. 1963-cü ildə əsgəri xidmətə çağrılıb, ordudan 1966-cı ildə tərxis edilib. 1966-cı ildə də Moskva Dəmir Yolu Daxili İşlər İdarəsinin Moskva-Riqa Dəmir yolu şöbəsində milis nəfəri kimi xidməti işə qəbul olunub. 1967-1969-cu illərdə Belorusiya SSR Mogilevski şəhər Xüsusi Orta Milis məktəbinin məzunu olub. Milis leytenantı rütbəsi alıb. İş yerinə qayıdıb. Dəmir yolu nəqliyyat milisində xarici xidmət müvəkkili vəzifəsinə təyin edilib. 1969-cu ilin sentyabr ayında iş yerini Bakı şəhər DİI-nə dəyişib. Burada cinayət axtarışı şöbəsində əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. Qiyabi yolla təhsilini davam etdirib.1971-1976-cı illərdə SSRİ DİN-nin Milis Akademiyasının Rostov filialında ali hüquq təhsili alıb.

Məmmədov Rəşid Cəbrayıl oğlu 01.01.1974-cü ildə Azərbaycan SSR DİN-nin Cinayət Axtarış İdarəsində əməliyyat müvəkkili vəzifəsinə təyinat alıb. 1974-88-ci illərdə baş əməliyyat müvəkkili, mühüm işlər üzrə əməliyyat müvəkkili, dövlət əmlakının oğurlanmasına qarşı mübarizə bölməsinin rəisi vəzifələrində çalışıb. 1988-ci ildə Cəbrayıl rayon DİŞ-nin rəisi vəzifəsinə təyin edilib. 1992-ci ilin fevral ayınadək həmin vəzifədə işləyib. 1992-ci ildə Ağdam rayon Daxili İşlər Şöbəsinin, 1992-1993-cü illərdə Lənkəran rayon Polis Şöbəsinin, 1993-1995-ci illərdə Qəbələ rayon Polis Şöbəsinin rəisi vəzifəsində işləyib. 1995-ci ildə Abşeron rayon Polis Şöbəsinin Cinayət Axtarış bölməsində baş əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. Buradan isə yenidən DİN-nin Baş Cinayət Axtarışı İdarəsində əməliyyat müvəkkili vəzifəsinə təyinat alıb. Bölmə rəisi vəzifəsinə irəli çəkilib.

Məmmədov Rəşid Cəbrayıl oğlu DİO-da qüsursuz və yaxşı işlərinə görə bir sıra medallar və döş nişanları ilə təltif edilib.



Polis polkovniki rütbəsi alıb. Lakin Məmmədov Rəşid Cəbrayıl oğlu ən böyük qiymətini, əməyinin, fəaliyyətinin qazancını Cəbrayıl rayon Daxili İşlər Şöbəsinin rəisi vəzifəsində işlədiyi dövrdə alıb. Hər bir Cəbrayıllının yaddaşında silinməz izlər qoyub, öz qorxmazlığı, cəsarəti ilə ürəyində heykəlləşib. Bu hörməti, bu böyüklüyü isə Cəbrayıl torpağının müdafiəsi yolunda erməni-daşnak faşistlərinə qarşı apardığı savaşlarda, döyüşlərdə qazanıb. Həyatı dəfələrlə ölüm təhlükəsi altında olsa da ölümdən qorxmayıb. Döyüş əməliyyatlarında, kəşfiyyatlarda bilavasitə özü iştirak edib. Nəinki rəhbərlik etdiyi kollektivin, bütün rayon əhalisinin etimad və inamını qazanıb, ümid yerinə çevrilibdi. Sözsüz ki, Rəşid Məmmədovun fədakarlıqları haqqında kitabın ayrı-ayrı bölmə və səhifələrində yeri gəldikcə danışılacaq və yazılacaq da. Lakin bu gün mən Rəşid müəllimlə son görüşümü çox təəssüf hissi ilə xatırlayıram. Onda mən məcburi köçkün kimi Gəncə şəhrində məskunlaşmışdım. Gəncə Kənd Təsərrüfatı Akademiyasında işləyirdim. 1996-cı ilin bir yaz günündə xidməti işimlə bağlı Abşeron rayonuna ezam edilmişdim. Həmyerlim polis əməkdaşı Müzəffər Əliyevlə Xırdalan qəsəbəsinin mərkəzi küçəsində təsadüfən rastlaşdım. Məcburi köçkün kimi Xırdalan qəsəbəsində məskunlşdığını, həm də Abşeron rayon Polis Şöbəsində işlədiyini bildirdi və "Xəbərin varmı, Rəşid Məmmədov da burada işləyir. Görüşmək istəyirsənsə, burdadı, elə yerindədir". Mən tələsik işim olsa da Rəşid müəllimlə görüşmək qərarına gəldim. Abşeron RPŞ-nə ayaq aldım. Hal-əhval tutduq. Məndən nə ilə məşğul olduğumu soruşdu. Gəncədə məskunlaşdığımı, həm də yazı-pozuyla məşğul olduğumu söylədim. Gülümsədi, əgər müharibə ilə bağlı bir şey yazmaq istədim. Gülümsədi, əgər müharibə ilə bağlı bir şey yazmaq istəsən gəl, danışaq. Sənə çox mövzular, hadisələr barədə məlumatlar verəcəm. Sonra da mənə qonaq ol, dedi. Tələsik işim olduğundan tez-tələsik xudahafizləşdik, lakin görüşmək ümidi ilə ayrıldıq. Ancaq iş elə gətirdi ki, bir xeyli müddət ərzində rastlaşa, görüşə bilmədik. Mən yaşayış yerimi artıq Sumqayıt şəhərinə dəyişmişdim. Rəşid müəllimlə görüşmək,

Cəbrayılın işğalı ilə bağlı yazım barədə onunla mükalimə aparmaq arzusu bir an məni rahat buraxmırdı. Bir gün imkan tapıb Xırdalan qəsəbəsinə yollandım. Abşeron rayon DİŞ-nə getdim. Rəşid müəllimlə maraqlandım, dedilər artıq o, burada işləmir. DİN-nə dəyişilib. Kor-peşman geri döndüm. Rəşid müəllimin yeni iş yerini, ünvanını soraqlamağa başladım. Onunla görüşə can atırdım. Lakin çox təəssüflər olsun ki, istəyimə çatmadım. Gözləmədiyim bir xəbərdən isə sarsıldım. Yol qəzası hadisəsi nəticəsində Rəşid müəllimin faciəli şəkildə dünyasını dəyişdiyini dedilər. Görünür qismət beləymiş. Bizim görüşmək, Cəbrayılın, bu müqəddəs torpağın işğalı ilə bağlı fikir mübadiləsi aparmaq barəsində vədimiz, əhdimiz baş tutmadı. Arzu olaraq qaldı.

## CƏBRAYIL POLİSİ DÖYÜŞDƏ

1988-ci ildə Qarabağ münaqişəsi başlayanda Azərbaycan polisinin ayrılmaz tərkib hissəsi olan Cəbrayıl polisinin də üzərinə ikinci, həm də ağır bir yük düşdü. Qondarma DQMV-nin Hadrut (indiki Xocavənd) rayonu ilə həmsərhəd olan 80 kilometrlik xətt boyunca torpaqlarımızın müdafiəsini təşkil etmək və sərhəd kəndlərində yaşayan əhalinin təhlükəsizliyini təmin etmək vəzifəsi durdu. Artıq ədavət toxumu səpilmişdi. 13 fevral 1988-ci ildə yaz-tarla işlərinə hazırlığın vəziyyəti, qarşıda duran vəzifələrlə bağlı rayonda müşavirə keçirməyə ezam olunmuş Azərbaycan KP MK-nin katibi T.Orucovun qəflətən geri çağırılaraq Xankəndinə göndərilməsi ilk həyəcan siqnalı kimi Qarabağ məsələsini Cəbrayıl əhalisinin açıq danışıq mövzusuna çevirdi. Bundan bir neçə gün sonra əslən Cəbrayıldan olub, Ermənistan SSR Kafan rayonunun Qacaran qəsəbəsinin mədənlərində işləyən və orada yaşayan ailələrin rayon ərazisinə daşınması, onlara qarşı ermənilərin zor tətbiq etmələri ciddi narazılıqlar doğurmaya bilməzdi. İkinci bir tərəfdən isə 21-22 fevral 1987-ci il tarixdə



keçirilən Əsgəran yürüşündə iştirak edən 10 nəfərə yaxın Cəbrayıl şəhər sakininin özlərinin gözaltına alınması və minik maşınlarının cərimə meydanlarına salınması o dövrdəki oyuncaq Azərbaycan hökumətinə qarşı da camaat arasında xoşagəlməz fikirlər yaratdı. O zaman haqlı olaraq rayon hüquq mühavizə orqanlarının sırasında Cəbrayıl polisini də qınağa çəkdilər. Lakin DQMV ilə sərhəd rayonların bir çox polis şöbələrindən fərqli olaraq qısa dönəmdə Cəbrayıl polisi və şöbənin rəisi R.Məmmədovun Cəbrayıla ilk ədavət qığılcımı səpən erməni daşnak ünsürlərinə qarşı sərt mövqe nümayiş etdirməsi və polislə xalqın ilk gündən birgə çıxış etməsi bu qınağı tez bir zamanda aradan qaldırdı. Hərəkül kənd sakini, qatı daşnak elementi Yervand Qəhrəmanyanın təşəbbüsü ilə qəflətən Cəbrayılın şimal girəcəyində, şəhərin 50 metirliyində ala-qapı qoyulması xəbəri Cəbrayıl camaatını ayağa qaldırdı. Yuxarıdan verilən tapşırığa, sakitliyi gözləyin tələb və göstərişlərə baxmayaraq Cəbrayıl polisi darvazanı söküləb atılmasında fəallıq göstərdi və həmin gündən etibarən sərhəd kəndlərində sahə müvəkkillərinin gücləndirilmiş iş rejiminə keçilməsini təmin etdi. Sərhəd kəndlərinin hər birində polis nəzarətini artırıldı. Daxili sabitliyi, ictimai təhlükəsizliyi qorumaqla, cinayətkarlığa qarşı mübarizəni aparmaqla yanaşı şöbənin bütün şəxsi heyəti istər-istəməz fəal surətdə Qarabağ münaqişəsinə cəlb olundular. Əhalidən ov tüfəngləri demə elə bu səbəbdən yığılmışdı. Əliyalın, dinc əhalini Ermənistandan, Rusiyanın Krasnadar, Stavropol bölgələrindən, habelə bir çox xarici ölkələrdən DQ ərazisinə gələn, xüsusi təlim görmüş, günü-gündən sayı artan daşnak terror qruplarının həmlələrindən qorunma işi bütünlüklə polisin üzərinə düşən vəzifə oldu. 1989-1990-cı illərdə vəziyyət xüsusilə kəskinləşdi. Az saylı polis əməkdaşlarının gücü ilə daşnak terror qruplarının basqınlarının, təxribatlarının qarşısını almaq olduqca çətinləşdi. Erməni kəndlərinin əhatəsində olan Yuxarı Məzrə, Qışlaq, Doşulu, Süleymanlı, Sirik, Nüsüs kəndləri tez-tez iri çaplı silahlardan atəşə məruz qaldı. Dinc əhali girov

götürülür, mal-qarası terrorçular tərəfindən qovulub aparılırdı. 03.XII.1990-cı ildə Yuxarı Məzrə kəndində iki dinc sakinin qətlə yetirilməsi əhalinin demək olar ki, səbr kasasını doldurdu. 26 mart 1990-cı ildə DİN-nin nəzdnində XTMD yaradılması təcrübəsi Ermənistan SSR və DQMV ilə həmsərhəd rayonlarda tətbiq edilməsi bir zərurət oldu. Rayon rəhbərliyinin, rayon PŞ-nin rəisi R. Məmmədovun xahiş və israrlarından, təkidindən sonra Cəbrayıl RPŞ-də 75 nəfərdən ibarət PPX rotasının yaradılmasına göstəriş verildi. AR DİN 3 yanvar 1991-ci il tarixli 1 saylı əmri ilə Cəbrayıl RDİŞ-də PPX rotasının komplektləşdirilməsi işinə başlanıldı. PPX rotasının komplektləşdirilməsi ilə əlaqədar rotanın komandiri vəzifəsinə şöbənin sahə müvəkkili, milis leytenantı H.Quliyev təyin edildi. Vzvod, bölmə komandirləri, sıravi üzvlər sırasına seçim başladı. Namizədlər sırasına əsasən Əfqanıstan müharibəsində iştirak edənlər, hərbi xidmətini motoatıcı hissələrdə artilleriya, aviasiya, piyada qoşun bölmələrində keçirmiş bacarıqlı milis nəfərləri və ordudan tərxis olunmuş gənclərin qəbulu keçirildi. Habelə onların siyasi, əxlaqi keyfiyyətləri öyrənilir, işlədikləri əmək kollektivlərinin, ictimai təşkilatların rəyi nəzərə alınır, namizədlərin və onların yaxın qohumlarının tam xüsusu yoxlaması keçirildi. Bununla belə namizədlərin öyrənilməsi işin gedişində konkret tapşırıqlarla yoxlanılır, şöbənin milis nəfərləri ilə birgə mövcud PP xidmətinə, gecə gəzintilərinə göndərilir, onların fiziki hazırlığının vəziyyətinə baxılır, PPX Nizamnaməsi onlara ətraflı şəkildə izah edildi. Ancaq bundan sonra həmin namizədlər PPX-nin milis nəfəri vəzifəsinə qədul olunurdu.Torpaqlarımızın müdafiə olunmasında döyüşlərin ön sırasında gedən, Cəbrayıl polisinin döyüş tarixinə şanlı səhifələr yazmış həmin cəngavər oğullarımızın siyahısını aşağıda dərc etməyi lazım bilirik. Axı, bu qəhrəmanların həyatı, döyüş yolu, xidməti fəaliyyətləri ibrətamizdir, gənc nəslə örnək kimi göstərilə biləndi:



## CƏBRAYIL RAYON DİŞ PPX BÖLÜYÜ ŞƏXSİ HEYƏTİNİN SİYAHISI

| s/s | Adı, soyadı, atasının adı | Təvəllüdü, doğulduğu yer | DİO-a daxil olduğu Tarix | Rütbəsi, vəzifəsi | Hazırki rütbəsi, vəzifəsi |
|---|---|---|---|---|---|
| 1 | Quliyev Hikmət Məhəmməd oğlu. | 1963, Ağdam r-nu, Papravənd kəndi | 1984 | baş leytenant, bölük komandiri | Polis polkovniki. Naftalan şəhər Pİ-nin rəisi |
| 2 | Əliyev Səmənd Əli oğlu | 1955, Fizuli r-nu, Qaraməmmədli kəndi | 21 fevral 1977-ci il | Kapitan, tağım komandir | mayor İTB-nin rəisi |
| 3 | Abbasov Rəfael Əsəd oğlu | 1957, Soltanlı kəndi | 25.12. 1979 | Baş serjant tağım komandirinin müavini | mayor bölük komandiri |
| 4 | Məmmədov Adil Qaçay oğlu | 1956, Çapand kəndi | 1979 | Leytenant tağ. komandiri. | mayor məsul növbətçi |
| 5 | Xankişiyev Əli Kamil oğlu | 1954, Mirbaşılı kəndi | 1979 | Baş serjant tağım komandir müavini | baş leytenant tağım komandiri |
| 6 | İbrahimov Vaqif Bəyqulu oğlu | 1962, B.Mərcanlı kəndi | 01.03. 1991-ci il | baş serjant bölmə komandiri | baş serjant MST-nın rəisi |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7 | Yaqubov Nurəddin Maşallah oğlu | 1963, Daşkəsən Kəndi | 29.02. 1991-ci il | baş serjant bölmə komandiri. | təqaüdə çıxıb |
| 8 | Allahverdiyev Yaşar Mustafa oğlu | 1967, Qazanzəmi Kəndi | 18.08. 1991-ci il | Serjant, Polis nəfəri | təqaüdə çıxıb. |
| 9 | Allahverdiyev Malik Qara oğlu | 1968, Cəbrayıl şəhəri | 20.07. 1991-ci il | Serjant, Polis nəfəri | təqaüdə çıxıb |
| 10 | Aslanov Şikar Davud oğlu | 1970, Sülemanlı kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | Milli Qəhrəman 01.07.1992-ci ildə həlak olub |
| 11 | Balayev Yaşar Bəhlul oğlu | 1968, Nüzgar kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad edilib |
| 12 | Baxşəliyev Tufan Zülfüqar oğlu | 1969, Qovşudlu kəndi | 20.03. 1991-ci il | Serjant, polis nəfəri | xidmət vaxtı vəfat edib. |
| 13 | Bəhrəmov Tahir Qabil oğlu | 1970, Cəbrayıl şəhəri | 20.07. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 14 | Quliyev Sahib İslam oğlu | 1968, Qaracallı kəndi | 20.03. 1991-ci il | Serjant, polis nəfəri | 15.08.1992-ci ildə həlak olub |
| 15 | Quliyev Təhməz Təbriz oğlu | 1969, Karxulu kəndi | 13.04. 1991-ci il | Kiçik serjant, polis nəfəri | DİO-dan öz xahiş ilə azad edilib |
| 16 | Quliyev Mirzəli Balakişi oğlu | 1970, Maşanlı kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | Bakı şəhərinə ezam olunub |



| | | | | | |
|---|---|---|---|---|---|
| 17 | Quliyev İsbəndiyar Əkbər oğlu | 1966, Cəbrayıl şəhəri | 01.07. 1991-ci il | Serjant, polis nəfəri | Baş serjant, PPX-nin polis nəfəri |
| 18 | Quliyev Seyfəddin Davud oğlu | 1969, Mehdili kəndi | 01.03. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 19 | Quliyev Məhəmməd Sahib oğlu | 1968, Dəjəl kəndi | 01.07. 1991-ci il | Kiçik serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 20 | Qarayev Zəkara Seyidalı oğlu | 1970, Qışlaq kəndi | 25.02. 1991-ci il | Serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 21 | Quliyev Salman Nəsib oğlu | 1965, Nüsüs kəndəi | 15.10. 1991-ci il | Siravi, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 22 | Əkbərov Füzuli Əvəz oğlu | 1970, Qaracallı kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 23 | Əliyev Vüqar Məhəmmədəli | 1969, Göyərçin Veysəlli kəndi | 02.04. 1991-ci il | Kiçik serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 24 | Əliyev Rafiq Əli oğlu | 1962, Tinli kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | Baş serjant, sürücü,polis nəfəri |
| 25 | Əliyev Elxan Əjdər oğlu | 1963, Safarşah kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 26 | Əliyev Afəs Tofiq oğlu | 1970, Minbaşılı kəndi | 20.03. 1991-ci il | Serjant, polis nəfəri | Baş serjant, PPX -nin polis nəfəri |

| | | | | | |
|---|---|---|---|---|---|
| 27 | Əliyev Vüqar Zülfüqar oğlu | 1969, Sarıcallı kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | 08.05.1992-ci ildə həlak olub |
| 28 | Əhmədov Nazim Şirin oğlu | 1969, Göyərçin Veysəlli kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | Digər DİO-da zabit kimi xidmətini davam etdi-rir. |
| 29 | Əhmədov Yaşar Qabil oğlu | 1964, Kavadar kəndi | 02.04. 1991-ci il | Kikçik ser-jant, polis nəfəri | Baş serjant PPX-nin Po-lis nəfəri |
| 30 | Əhmədov Ceyhun Baba oğlu | 1968, Nüzgar kəndi | 02.04. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 31 | Əhmədov Tofiq Əhmədxa n oğlu | 1970, Mehdili kəndi | 01.03 1991-ci il | Serjant, polis nəfəri | Baş serjant, bölmə komandiri |
| 32 | Əhmədov Nəriman Fərman oğlu | 1965, Mahmudlu kəndi | 10.09. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |
| 33 | Məmmə-dov Vəliyəd-din Seyfəddin oğlu | 1963, Mahmudlu kəndi | 18.02. 1991-ci il | Kiçik serjant, polis nəfəri | mayor CAB-nin rəisi |
| 34 | Məmməd-ov Əli İbrahim oğlu | 1966, Cəbrayıl şəhəri | 01.07. 1991-ci il | Baş serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 35 | Məmməd-ov Əmir İbrahim oğlu | 1969, Sarıcallı kəndi | 02.04. 1991-ci il | Kiçik serjant, polis nəfəri | təqaüdə çıxıb |



| | | | | | |
|---|---|---|---|---|---|
| 36 | Məmməd-ov Pəhli-van Həm-zə oğlu | 1968, Cəbrayıl şəhəri | 01.03 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 37 | Məmməd-ov Nəsimi Şirxan oğlu | 1966, Süleyman-lı kəndi | 18.02. 1991-ci il | Sıravi, polis nəfəri | MN-nin N-saylı HH-də xidətini davam etdirir |
| 38 | Məmməd-ov Xəqani Amin oğlu | 1970, Cəbrayıl şəhəri | 25.08. 1991-ci il | Polis nəfəri | Baş serjant, ƏRQ-nun ki-çik inspekto-ru. |
| 39 | Məmməd-ov Əlövsət Əli oğlu | 1966, Balyand kəndi | 06.08. 1991-ci il | Kiçik serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 40 | Mahmud-ov İnqilab Həsən oğlu | 1965, Dağtumas kəndi | 25.04. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 41 | Mustafay-ev Nadir Babalar oğlu | 1968, Qovşudlu kəndi | 20.03. 1991-ci il | Kiçik serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 42 | Məstəliyev Mayıl Qəşəm oğlu | 1970, Kavdar kəndi | 13.04. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 43 | Məhər-rəmov Rəhman Əşrəf oğlu | 1970, Horovlu kəndi | 25.08. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 44 | Məhər-rəmov Rahib Böyükkişi oğlu | 1970, Horovlu kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | 25.12.1993-cü ildə həlak olub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 45 | Hüseynov Sirac Əli oğlu | 1968, Soltanlı kəndi | 18.02. 1991-ci il | Kiçik serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 46 | Hüseynov Fərrux Telman oğlu | 1970, Soltanlı kəndi | 01.07. 1991-ci il | Kiçik serjant, polis nəfəri | Başqa DİO-da xidməti işini davam etdirir. |
| 47 | Həsənov İlqar Seçki oğlu | 1968, Soltanlı kəndi | 18.02. 1991-ci il | Kiçik serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 48 | Həsənov Fərhad Səfyar oğlu | 1968, Cəbrayıl şəhəri | 25.02. 1991-ci il | Kiçik serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 49 | Həsən-ov Əjdər Asif oğlu | 1969, Papı kəndi | 01.07. 1991-ci il | Kiçik serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 50 | Hüseynov Ramiz Baba oğlu | 1958, Balyand kəndi | 20.08. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 51 | Cəbrayılov Rəfael Musa oğlu | 1970, Soltanlı kəndi | 01.07. 1991-ci il | Kiçik serjant, polis nəfəri | Başqa DİO-da xidmətini davam etdirir. |
| 52 | İmanov Həbib Yusif oğlu | 1968, Mehdili kəndi | 01.03. 1991-ci il | Serjant, polis nəfəri | 23.03. 1999-cü ildə həlak olub |
| 53 | Verdiyev Bəxtiyar Qabil oğlu | 1970, Soltanlı kəndi | 20.03. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 54 | Piriyev Rauf Vəli Oğlu | 1968, Mərcanlı kəndi | 25.02. 1991-ci il | Kiçik serjant, polis nəfəri | Başqa DİO-da xidmətini davam etdirir |
| 55 | Şirinov Nazim Şirin oğlu | 1968, Doşulu kəndi | 02.04. 1991-ci il | Kiçik serjant, polis nəfəri | 23 oktyabr 1993-cü ildə naməlum şəraitdə itkin düşüb |



| | | | | | |
|---|---|---|---|---|---|
| 56 | İbrahimov Etiraf Həsən oğul | 1963, Cəbrayıl şəhəri | 01.03. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 57 | Zalov Zakir Hidayət oğlu | 1962, Göyərçin Veysəlli kəndi | 1991-ci il | Serjant, polis nəfəri | 23 dekabr 1991-ci ildə həlak olub. |
| 58 | İsmayılov Pənah Əhməd oğlu | 1965, Horovlu kəndi | 01.07. 1991-ci il | Kiçik serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 59 | Həziyev Əliyar Bahəddin oğlu | 1970, Xələfli kəndi | 25.02. 1991-ci il | Serjant, polis nəfəri | Kapitan, Dəvəçi RPŞ-də əməliyyat müvəkkili |
| 60 | Həziyev Mehman Bahəddin oğlu | 1966, Xələfli kəndi | 25.09 1992-ci il | Sıravi, polis nəfəri | Başqa DİO-da xidmətini davam etdirir |
| 61 | Şükürov Səyyad Maşallah oğlu | 1970, Şəybəy kəndi | 25.02 1992-ci il | Serjant, polis nəfəri | Başqa DİO-da xidmətini davam etdirir |
| 62 | Şirinov Nizami Kərim oğlu | 1969, Maralyan kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 63 | Kərimov Ədalət Səlim oğlu | 1969, Daşvey-səlli kəndi | 01.07. 1991-ci il | Kiçik serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 64 | Cabbarov Nəsib Ziyadxan oğlu | 1969, Hovuslu kəndi | 25.01. 1991-ci il | Sıravi, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 65 | Sevdimalı-yev Nübarək Babamir oğlu | 1968, Hovuslu kəndi | 25.02. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |

| | | | | | |
|---|---|---|---|---|---|
| 66 | Göyüşov Rəhman Novruz oğlu | 1970, Böyük Mərcanlı kəndi | 02.04 1991-ci il | Kiçik serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad olunub |
| 67 | Salmanov Fazil Oruc oğlu | 1970, Soltanlı kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | təqaüdə çıxıb |
| 68 | İbrahimov Rza Ziyad oğlu | 1967 Qaracallı kəndi | 25.02. 1991-ci il | Sıravi, polis nəfəri | Başqa DİO-da xidmətini davam etdirir |
| 69 | İsmayılov Qulu Lətif oğlu | 1967, Horovlu kəndi | 20.07. 1991-ci il | Serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad edilib |
| 70 | Cəfərov Qiyas Qurban oğlu | 1963, Qışlaq kəndi | 18.02. 1991-ci il | Serjant, polis nəfəri | Başqa DİO-da xidmətini davam etdirir |
| 71 | Cəfərquliy-ev Natiq Cəfərqulu oğlu | 1966, Sirik kəndi | 24.04. 1991-ci il | Serjant, polis nəfəri | DİO-dan öz xahişi ilə azad edilib |
| 72 | Nəsirov Qəşəm Mustafa oğlu | 1968, Hacılı kəndi | 24.02. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |
| 73 | Hüseyn-ov Qabil Qulam oğlu | 1969, Hacılı kəndi | 13.02. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |
| 74 | Həsənov Rəhman Taqət oğlu | 1971, Süleyman-lı kəndi | 20.02. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |
| 75 | Quliyev Surxay Cavanşir oğlu | 1971, Cəbrayıl şəhəri | 26.02. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |



| | | | | | |
|---|---|---|---|---|---|
| 76 | İsmayılov Mübariz Ələsgər oğlu | 1959, Balyand kəndi | 02.03. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |
| 77 | Həsənov Yaqub Əli oğlu | 1967, Tatar kəndi | 05.03. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |
| 78 | Məmməd-ov İsfəndiyar Qulam oğlu | 1965, Soltanlı kəndi | 05.03. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |
| 79 | Şahverdiy ev Araz Vəli oğlu | 1971, Böyük Mərcanlı kəndi | 07.04. 1991-ci il | Sıravi, polis nəfəri | Polis kapita-nı, Füzuli RPŞ CAB-nin rəisi |
| 80 | Mehdiyev Faiq Nazim oğlu | 1971, Cəbrayıl şəhəri | 07.04. 1991-ci il | Sıravi, polis nəfər | 15.08.1992-ci ildə həlak olub |
| 81 | Hüseynov Tahir Novruz oğlu | 1970, Qaracallı kəndi | 04.01. 1991-ci il | Sıravi, polis nəfər | DİO-dan öz xahişi ilə azad edilib |
| 82 | Hüseynov Şahmurad Hüseyn oğlu | 1965, Cəbrayıl şəhəri | 20.04. 1991-ci il | Sıravi, polis nəfəri | təqaüdə çıxıb |

# VƏTƏN SAVAŞINA İMZA ATANLAR


Vəlixanov Tofiq
Qaroğlan oğlu


Əliyev Kamil
Zeyniş oğlu


Həsənov Fərhad
Səfiyar oğlu


Məmmədov Əli
İbrahim oğlu


Qurbanov Qurban
Kərim oğlu


Bayramov Firuz
Tofiq oğlu


Qasımov Elçin
Yaqub oğlu


İsmayılov Pənah
Əhməd oğlu


Yaqubov Nurəddin
Maşallah oğlu




Allahverdiyev Səxavət
Kamil oğlu


Ağayev İlqar
Heydər oğlu


Həsənov Əlimərdan
Hüseyn oğlu


Əhmədov Nəriman
Fərman oğlu


Məmmədov Xəqani
Amin oğlu


Əhmədov Yaşar
Qabil oğlu


Əliyev Afəs
Tofiq oğlu


Quliyev Surxay
Cavanşir oğlu


Mikayılov Natiq
Fərman oğlu



Qasımov Akif
Miriş oğlu



Nəsirov Qəşəm
Mustafa oğlu



Əhmədov Ceyhun
Baba oğlu



Həsənov Zülfüqar
Qabil oğlu



İbrahimov Vaqif
Bəyqulu oğlu



Həsənov Yaqub
Əli oğlu



Həsənov Mahir
Qulam oğlu



Kazımov Kazım
Abbas oğlu



Mustafayev Nadir
Babalar oğlu





Bəhrəmov Tahir
Qabil oğlu



Səfquluyev Nizami
Babakişi oğlu



Vəliyev Mahir
Cavad oğlu



Allahverdiyev Bayram
Abdin oğlu



Allahverdiyev Malik
Qara oğlu



Məhərrəmov Fizuli
Üzeyir oğlu



Salmanov Fazil
Oruc oğlu



Alışov İqbal
Məmiş oğlu



Hüseynov Şahmurad
Hüseyn oğlu



Əliyev Elxan
Əjdər oğlu



Quliyev İsbəndiyar
Əkbər oğlu



Şükürov Elman
Camal oğlu



Şirinov Nizami
Kərim oğlu



Quluyev Hafis
İslam oğlu



Rüstəmov Hüseyn
Ağakişi oğlu



Quliyev Seyfəddin
Davud oğlu



Verdiyev Bəxtiyar
Qabil oğlu



Allahverdiyev Yaşar
Mustafa oğlu





Hüseynov Vidadi
Davud oğlu



Əliyev Vüqar
Məhəmmədəli oğlu



İsmayılov Kazım
Məhəmməd oğlu



Hüseynov Qabil
Qulam oğlu



Əliyev Rafiq
Əli oğlu



Hüseynov Fərrux
Telman oğlu

1991-ci ilin fevral ayının axırı, mart ayının əvvəllərində demək olar ki, PPX rotasının təşkili başa çatdı. Xidmətə qəbul edilmişlərin hazırlıq mərhələsinə başlanıldı, əməkdaşlar öz fiziki hazırlıqlarını yüksəldir, silahla davranış qaydalarını böyük həvəslə öyrənirdilər. Hər gün isə sərhəd kəndlərindən qorxulu, həyəcanlı xəbərlər gəlirdi. Ona görə də təsdiq olunmuş dərs cədvəlinə əsasən hər gün axşam saat $18^{00}$-dək yeni qəbul olunmuş əməkdaşlarla peşə, fiziki, hərbi hazırlıq məşğələləri, təlim-məşqləri, atəş hazırlığı ilə əlaqədar təlimlər keçirilir, axşamlar isə şöbənin təcrübəli əməkdaşları ilə birgə onlar da sərhəd kəndlərinə göndərilirdilər. Polis nəfərləri ilə yanaşı səhər

saat 07[00]-dək postlarda keşik çəkirdilər. Yeni qəbul olunmuş əməkdaşların hamısı hərbidə olmuş nizam-intizamlı gənclər idi. Daim döyüşə can atırdılar. Onlar azğınlaşmış daşnak terrorçuların öz yerlərində oturtmaq istəyirdilər. Hadrut rayonunun Cəbrayıl ilə həmsərhəd kəndlərini daşnak terror qrupları özlərinin dayaq məntəqələrinə çevirmişdilər. Binnətli, Arpagədik, Cilan, Daşbaşı kəndlərində məskən salmış terrorçulardan ələ keçənlər vardı. Onlardan bir neçəsi polis işçiləri Əli Xankişiyev, Hüseyn



İlk polis dəstəsi döyüşdən öncə

Hüseynov, Mədət Hümbətalıyev tərəfindən tutulub aidiyyəti üzrə təhvil verilmişdilər. Cəbrayıl polisi ilk geniş miqyaslı hərəkətə isə 1991-ci ilin may ayının ortalarında keçdi.

**12-20 may 1991-ci il:** Hərbiçilərin müşaiyəti altında Cəbrayıl polisi bütövlükdə DİN-nin XTMD əməkdaşları ilə birlikdə Cəbrayılla həmsərhəd olan 11 erməni kəndində pasport rejiminə riayət olunmasının vəziyyətini yoxlama üçün əməliyyat keçirdi. Məlum olur ki, çox saylı daşnak -



terror qrupları həmin kəndlərə sığınmışlar. Demək olar ki, may ayı ərzində 11 kənddən 10-nunda tam təmizləmə işi apardı. Kəndlərin hər birində Cəbrayılın polis əməkdaşlarından ibarət postlar quruldu. Terrorçuların son dayaq məntəqəsi olan Sur kəndi uğrunda mübarizə isə davam etdirildi. Terrorçulardan azad edilmiş kəndlərdən beşinə 1988-ci ilin sonunda Qərbi Azərbaycandan erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin qurbanlarına çevirilmiş soydaşlarımız köçürüldülər. Ağcakənd, Daşbaşı, Şayaq kəndlərin isə əsl savaş meydanına çevrilir. Hadruta və ətraf meşələrə çəkilmiş terror qrupları kəndlərə həmlələr edir, kəşfiyyat işləri aparır, yol keçidlərinə mina-lar basdırır, polis postlarını müntəzəm surətdə atəşə tuturdular. Postlardan əlavə hər an müxtəlif istiqamətlərdən daşnak terror qruplarının hücumları gözlənilən idi. Postların işini pozmadan bu gözlənilməz həmlələri dəf etmək lazım gəlirdi. Öz cəsarəti və cəsurluğu ilə seçilən Cəbrayıl RPŞ-nin rəisi Rəşid Məmmədov bunun da yolunu tapdı. O, "kəşfiyyat qrupu" adı altında əlahiddə vəzifələri yerinə yetirən çevik dəstə yaratdı. Ən çətin anlarda, ən təhlükəli yerlərdə, qaynar nöqtələrdə döyüşə atılan bu qrupun təşkilinə say-seçmə, ilkin döyüşlərdə öz cəsarətləri, peşəkarlıqları, qorxmazlıqları, döyüş və atəş hazırlıqları ılı seçilən, ölümün üstünə dik gedən polis nəfərləri daxil edildilər. Adları hər bir Cəbrayıllıya bəlli, adlarıyla öyündüyümüz həmin cəngavər oğullarımızın, 15 bahadırımızın adı ilə bu gün də öyünməyə dəyər: Xankişiyev Əli, Yaqubov Nurəddin, Həsənov Zülfüqar, Aslanov Şikar, Əhmədov Tofiq, Mustafayev Nadir, Şirinov Nizami, Məhərrəmov Rahib, Nağıyev Ramil, Quliyev Sahib (Mirələm), Mehdiyev Faiq, Hüseynov Sirac, Məmmədov Pəhlivan, Məmmədov Vəliyəddin, Göyüşov Rəhman; Bu əməkdaşlar şöbənin yataqxanasında kazarma şəraitində yaşayırdılar. Hər an döyüşə hazır vəziyyətdə saxlanırdılar. Bu gənclər düşmənə

ölüm saçan atəşləri ilə əks zərbələr vurur, ölümə meydan oxuyurdular.

**11 avqust 1991-ci il:** həmin tarixdə Ağcakənddə şöbənin islah işləri və əməyə cəlb etmə inspektoru, milis baş leytenantı Ş.Ş.Əhmədovun rəhbərlik etdiyi posta terror qrupu axşam saat 2030 radələrində bir neçə istiqamətdən hücuma keçir. Atışma bir neçə saat davam edir. PPX rotasının milis nəfəri, milis kiçik serjantı Məmmədov Əmir İbrahim oğlu sol ayağının bud nahiyəsindən güllə yarası alaraq huşunu itirir. Əlahiddə dəstə köməyə gəldikdən sonra terrorçuların həmləsi dəf edilir. Ə.İ.Məmmədov döyüş meydanından yaralı vəziyyətdə tapılır və müalicəyə göndərilir.

**11 avqust 1991-ci il:** Həmin gün postakıları Şayaq yüksəkliyinə aparan rayon sanitar-epidemioloji stansiyasına məxsus UAZ-469 markalı maşın Zamzur kəndi ərazisində erməni terrorçularının basdırdıqları minaya düşür. Partlayış nəticəsində sürücü, habelə polis baş leytnantı Hüsenov Elman, polis nəfərlərindən Verdiyev Nadir, Həsənov Fərhad, Mustafayev Nadir kantuziya alırlar.

**13 avqust 1991-ci il:** Daşnak terror qrupu Dolanlar kəndinə həmlə edirlər. Atışma zamanı Cəbrayıl RPŞ-nin Dolanlar bölməsinin rəisi Əbdürrəhim Heydərov yaralanır. Qərbi Azərbaycan soydaşlarımızdan İki mülki şəxs həlak olur. Əlahiddə dəstə köməyə gəlir. Terrorçuların həmləsi dəf edilir.

**21 avqust 1991-ci il:** Həmin gün saat 10-$^{00}$ radələrində islah işləri və əməyə cəlb etmə inspektoru, milis baş leytenantı Əhmədov Şamil Şərif oğlunun rəhbərlik etdiyi 12 nəfərlik qrup Şayaq postuna gedərkən avtobus yolda terrorçuların basdırdığı minaya düşür. Avtobusun sürücüsü həlak olur. Qrupun rəhbəri Əhmədov Şamil Şərif oğlu, milis nəfəri, milis serjantı Məmmədov Camal Xanlar oğlu, Ağdam RDİŞ-in PPX batalyonunun milis nəfəri, milis serjantı Xəlilov Rövşən Xəlil oğlu ağır yaralanırlar.



**14 sentyabr 1991-ci il:** Zamzur kəndinə gedən Cəbrayıl RPŞ-nin nəzdnində fəaliyyət göstərən Zamzur polis bölməsinin rəisi, milis baş leytenantı Z.F.Əhmədov və sürücüsü, milis nəfəri Ə.T.Veysəlov xidməti UAZ-469 markalı maşında terrorçuların yolun dar hissəsində basdırdıqları minaya düşürlər. Milis nəfəri Əsgər Tahir oğlu Veysəlov yerindəcə həlak olur. Milis baş leytenantı Əhmədov Zahid Fərrux oğlunun xəstəxanaya çatdırılmasına baxmayaraq həyatını xilas etmək mümkün olmur. O, 1991-ci il sentyabr ayının 17-də şəhidlik zirvəsinə yüksəlir.

**15 sentyabr 1991-ci il:** Həmin gün saat 20$^{00}$ radələrində terror qrupu Zamzur kəndinə basqın edir. Səhər saat 5-ə kimi postdakı polis əməkdaşları ilə atışma gedir. Cəbrayıl RPŞ-nin rəis müavini Vaqif Məhərrəmovun rəhbərlik etdiyi 12 nəfərlik əlahiddə qrup köməyə çatır. Ermənilərin həmləsi dəf edilir. Düşmən tərəf canlı qüvvə və xeyli silah-sursatı döyüş zonasında qoyub qaçırlar. Atışma zamanı milis serjantı Məmmədov Pəhlivan Həmzə oğlu sol ayağından yaralanır və xəstəxanaya göndərilir;

**30 sentyabr 1991-ci il:** Həmin gün 7$^{00}$ radələrində terrorçular Ağcakənddəki milis postuna avtomatlardan və pulemyotlardan istifadə etməklə güclü basqın edirlər. Köməyə göndərilən əlahiddə qrupun köməyi ilə terrorçuların hücumu dəf edilir. Atışma zamanı şöbənin milis sahə inspektoru, milis leytenantı Ağayev Yəhya Süleyman oğlu, PPX rotasının milis nəfərləri Məmmədov Əlövsət Əli oğlu və İsmayılov Pənah Əhməd oğlu ağır güllə yarası alırlar:

**15 noyabr 1991-ci il:** Həmin gün 00-00 radələrində daşnak terror qruplaşması Zamzur postuna basqın edir. Polis əməkdaşları Məmmədov Kazım, Abdullayev Şükür, Aslanov Elçin təslim olmadan terrorçularla son damla qanlarınadək vuruşurlar və qəhrəmanlıqla həlak olurlar. Cəbrayıl RPŞ-nin rəis müavini V.Məhərrəmovun rəhbərlik etdiyi qrupun döyüşçüləri Zamzur kəndini terrorçulardan azad etsələr də Şayaq postunu mühasirəyə almış terror-

çuların müqavimətini qıra bilmirdilər. Rus ordusunun köməyi ilə terrorçular Şayaq postunu götürürlər. Qeyri-bərabər döyüşdə İmişli RDİŞ-nin əməkdaşları İmamverdi Əliyev,Əhməd Məmmədov, milis nəfərləri Əli Xankişiyev, Sabirabad RDİŞ-nin əməkdaşı, milis baş leytenantı Əhmədağa Səmədov həlak olurlar, Cəbrayıl RDİŞ-nin milis nəfəri Nübarək Sevdimalıyev, Sabirabad RDİŞ-nin əməkdaşları, milis nəfərləri Habil Alışov, Sədaqət Əliyev, İmişli RDİŞ-nin əməkdaşı, milis nəfəri Almaz Alışov yaralanırlar;

**23 dekabr 1991-ci il:** Erməni-daşnak faşistlərinin terror qrupu böyük canlı qüvvə və hərbi texnika ilə Daşbaşı kəndinə basqın edirlər. Ağır döyüş gedir. Əlahiddə qrup köməyə gedir. Döyüşdə Cəbrayıl RDİŞ-nin PPX rotasının polis nəfəri, polis serjantı Zakir Zalov həlak olur. Polis kapitanı Əbdürrəhim Heydərov, Əli Xankişiyev, Ramil Nağıyev böyük fədəkarlıq göstərərək terrorçuları tərksilah edirlər. Düşmənin həmləsi dəf edilir. Kənd terrorçulardan təmizlənir.

**26 yanvar 1992-ci il:** Cəbrayıl RPŞ-nin əməkdaşı İbrahimxəlil Hüseynovun komandiri olduğu BTR Qışlaq, Sur kəndində gedən döyüşlərdə minaya düşür İ. Hüseynov baş nahiyəsindən ağır yara alır;

**08 may 1992-ci il:** Cəbrayıl RPŞ-nin PPX rotasının polis nəfəri, polis kiçik serjantı Əliyev Vüqar Zülfiqar oğlu Hadrut rayonunun Sur kəndinin erməni silahlı birləşmələrindən təmizlənməsi uğrunda gedən növbəti döyüşlərdə qəhrəmancasına həlak olur.

**15 may 1992:** Cəbrayıl RPŞ-nin nəzdndində fəaliyyət göstərən Dolanlar polis bölməsinin rəisi Əbdürrəhim Heydərov xidməti maşınında terrorçuların basdırdıqları minaya düşür. Xəstəxanaya yetirilsə də həyatını xilas etmək mümkün olmur. 18 avqust 1992-ci il tarixdə əbədiyyətə qovuşur;



**27-28 iyun 1992-ci il:** Daşnak terrorçularının şayaq məntəqəsini neytrallaşdırmaq üçün milli ordu hissələri Sur-Şişqaya əməliyyatı keçirir. Həmin əməliyyatda polis əməkdaşlarından Quliyev Sahib, Xankişiyev Əli, Mehdiyev Faiq, Əliyev Vüqar və başqaları mətanətlə döyüşürlər. Şəxsi fədəkarlıq nümunələri göstərirlər. Sur kəndi alınır. Çox təəssüf ki, bu döyüşdə milli ordunun baş leytenantı bölük komandir Qasımov Mübarizin həlak olması öz mənfi nəticələrini göstərir. Quşçular istiqamətində aparılan uğursuz əməliyyatla sonuc tapır. Milli ordu ağır itki verərək Sur kəndində müdafiəyə çəkilir;

**01 iyul 1992-ci il:** Polis, könüllülər və Cəbrayıl alayının əsgərlərindən ibarət birləşmiş qüvvələr Şayaq yüksəkliyi ilə bir səviyyədə olan İbrahim yüksəkliyi (həmin yerdə ilk dəfə İbrahim Hüseynov postda durduğundan post onun adı ilə çağrılırdı) uğrunda əməliyyat keçirir. Rabitə əlaqəsinin olmaması, ayrı-ayrı dəstələrin tapşırıqları vaxtında icra etməmələri öz mənfi nəticəsini bir daha verir. Lakin polis əməkdaşları ağır döyüşlərə atılır. Həmin döyüşlərdə polis əməkdaşlarından Aslanov Şikar qəhrəmanlıqla həlak olur. İbrahim Hüseynov yaralanır və kontuziya alır;

**15 avqust 1992-ci il:** Cəbrayıl alayının əsgərləri Şişqaya istiqamətində hücum əməliyyatı keçirir. Polis qüvvələri də döyüşlərdə iştirak edir. Uğurla davam edən hücum əməliyyatı Füzuli alayının vədinə xilaf çıxması ucbatından Cəbrayıl alayının son hücum əməliyyatı yenədə əvvəlkilər kimi tam iflasa uğrayır. Polis əməkdaşlarından Quliyev Sahib (Mirələm), Mehdiyev Faiq bu döyüşlərdə qəhrəmancasına həlak olurlar. Milli ordu daha ağır itkilərlə üzləşir.

**15 avqust 1993-cü il:** Daşnak quldur dəstəsi rus ordusunun köməyinə arxalanaraq Zamzur kəndinə alt tərəfdən enərək Hərəküllə Daşbaşı arasından Daşbaşı postunun arxasına keçir və burada milli ordunun bir vzvodunu

məhv edərək Daşbaşı kəndini işğal altına alırlar. Hadisə yerinə tələsən Cəbrayıl RPŞ-nin rəisi, Vaqif Məhərrəmov, sürücüsü, polis nəfəri Rafiq Əliyev, milli ordunun zabitləri Kamil Vəliyev, Ramiz Mirkişiyev və bir neçə nəfər əsgərlə birlikdə mühasirədə qalır. Cəbrayıl RPŞ-nin şəxsi heyəti iki qrupa bölünərək Daşbaşı üzərinə yürüş edir. Qubadlıdan köməyə gəlmiş tankçı Əlövsətin köməyi ilə Daşbaşı kəndi azad edilir. Artıq Milli ordu Cəbrayıl torpaqlarını müdafiə etmək iqtidarını itirir. Cəbrayıl polisinin isə postlardan çıxarılma əməliyyatının 1993-cü ilin may ayının 1-də başa çatdırılması öz mənfi nəticəsini verir.

Milli ordu yaradılandan sonra postlarda milli ordu hissələrinin əsgərləri keşik çəkirdi. Demək olar ki, heç bir müdafiə istehkamları qurulmamışdı. Nizami ordu yaradılmamışdı. Respublikanın başqa döyüş bölgələrində olduğu kimi Cəbrayıl alayının rəhbərliyi də tez-tez dəyişdirilir, komandirlik səriştəsi olmayan şəxslər bir-birini əvəz edirdilər. Milli orduda vahid rəhbərliyin olmaması, yaranmamışdan ordunun qanına yerimiş özbaşınalıq, hərc-mərclik, başı pozuqluq, yuxarıdan-aşağı, aşağıdan yuxarı baş alıb gedən xəyanət, qərəzçilk, hərbi qanunların işləməməsi, rus ordusunun daşnak terrorçuları ilə işbirliyinə Dağlıq Qarabağın və ona bitişik rayonların soldan-sağa arxadan zərbə alaraq bir-birinin ardınca və asanlıqla işğal edilmələrinə münbit şərait yaratdı. 21 avqust 1993-cü ildə Füzulinin işğalı Cəbrayıl rayonuna da arxadan zərbə almasına, milli ordu hissələrinin bir tərəfini qaçaraqda qoymasına və əsgər və zabitlərin fərarilik etmələrinə səbəb oldu. Müdafiə batalyonları postları başlı-başına buraxıb əhalini zərbə altında qoydular. Nəticədə 1993-cü ilin avqust ayının 23--də Cəbrayıl şəhəri işğal olundu. Arazboyu kəndlər isə iki aya yaxın işğaldan kənarda qaldı. Bir növ iki ay müdafiəsiz yaşadı. Rus ordusu ilə Daşnak terror qruplarının birləşmiş qüvvələri 1993-cü ilin oktyabr ayının 23-24-də Qaradiz istiqamətində həmləyə keçməsi Arazboyu kəndlərin-



də işğal edilməsi ilə sonuc tapdı. Həmin böhranlı günlərdə yenə də başını itirib, səfi pozulan milli ordu hissələrindən fərqli olaraq Cəbrayıl polisi son ana kimi vəzifə borcunu yerinə yetirməklə məşğul oldu. Bir daha özünün səbatlı və dəyanətli olmasını təsbit və təsdiq etdi.

**23 oktyabr 1993-cü il:** Azərbaycan kəndləri atəş altında qalır. Dinc, köməksiz, əliyalın əhalinin Araz çayından təhlükəsiz zonaya- İrana adlamalarının təşkili ilə məşğul olan Cəbrayıl RPŞ-nin polis nəfəri Şirinov Nazim Şirin oğlu naməlum şəraitdə itkin düşdü; Cəbrayıl polisi isə rayon ərazisini noyabr ayının 1-nə kimi tərk etmir.

**Söz ardı:** 23 oktyabr 1993-cü ildən 12 gün sonra Cəbrayıl polisi DİN-nin Daxili Qoşunlarının tərkibinə verilir. Daha doğrusu 12 iyun 1992-ci ildə DİN DQBİ tərəfindən yaradılan 3650-saylı alayın (Ağdam alayı) tərkibində Füzuli döyüş bölgəsinə göndərilir. Qərərgah Füzuli rayonunu Bala Bəhmənli kəndində yerləşir. Şöbə kazarma rejimi şəraitinə keçirilir. Hər gün fiziki və hərbi hazırlıqla bağlı təlim-məşqlər keçirilir. Çox keçmir ki, Böyük Bəhmənli kəndi ilə Mahmudlu arasında döyüş xəttində Cəbrayıl polisinə müdafiə zolağı ayrılır. Əməkdaşlar səngər qazıb, postlarda yerləşir;

**22 dekabr 1993-cü il:** Həmin tarixdə saat 1500 radələrində Milli ordu tərəfindən hücum etmə əməliyyatı həyata keçirilir. Cəbrayıl polisi də bu əməliyyata qatılır. Şöbənin rəis müavini V.Hüseynovun rəhbərliyi altında Əliyev Səmənd, Məmmədov Vəliyəddin, Əliaslanov Tahir, İsmayılov Mübariz, Kazımov Şükran, Quliyev Seyfəddin, Məmmədov Əjdər, Mehdixanov Həbib və başqalarının daxil olduğu qrup ermənilərin piyada əleyhinə basdırdıqları minalanmış sahəni təhlükəsizlik qaydalarına riayət edərək irəliləyir və 150-200 m öndəki səngərləri ələ keçirirlər. İrəliləmə əmri gəlir. Qrup 5-6 km cəbhənin içərilərinə doğru gedir. Böyük Bəhmənli kəndinin qəbiristanlığı ətrafında güclü atəşlə qarşılanan dəstə müdafiə mövqeyi tutur. Mə-

rmi partlamalarından polis əməkdaşları Mehdixanov Habil, Quliyev Seyfəddin, Məmmədov Əjdər yaralanır və kontuziya alırlar.

**25 dekabr 1993 - 6 yanvar 1994-cü il:** Həmin günlər güclü döyüşlər gedir. Daşnak terror qruplarının ağır texnikadan istifadə etməklə güclü hücumlarının qarşısı alınır. Polis əməkdaşlarından Cabbarov Cabbar, Məhərrəmov Rahib qəhrəmanlıqla həlak olur. Şöbənin 14 əməkdaşı yaralanır. Cəbrayıl polisi DQ-ın tərkibində Arazboyu kəndlərin işğaldan azad olunması əməliyyatlarına qoşulur. Cəbrayılın sərhəddinədək işğal altında olan kəndlər yağı tapdağından azad edilir;

**23 mart 1994-cü il:** Cəbrayıl polisinin Füzuli su kəmərləri istiqamətində mövqe tutduğu müdafiə xəttinə daşnak terror qruplaşmaları həmləyə keçir. Düşmənlərin hücumu dəf edilir. Lakin döyüşlər itkisiz ötüşmür. Polis əməkdaşı İmanov Həbib həlak olur;

**2 mart 1995-ci il:** Atəşkəs elan olunduqdan sonra Cəbrayıl polisi ön xətdəki postlarda keşik çəkir. Atəşkəsi tez-tez pozan daşnak terrorçuları öz çirkin niyyətlərindən əl çəkmirlər. Həmin gün Cocuq Mərcanlı postunda keşik çəkən polis əməkdaşı İsmayılov Taleh erməni gülləsinə tuş gəlir. Xidməti işinin icrası zamanı həlak olur;

Cəbrayıl polisi 1998-ci ilin sonuna kimi DQ-ın tərkibində döyüş bölgəsində ön xətdəki postlarda torpaqlarımızın müdafiəsinin keşiyində durdu. 1998-ci ilin oktyabr ayından etibarən ikinci eşalona çəkildi. Həm də 2001-ci ilin okyabrından çadır şəhərciklərində polis xidməti vəzifəsini yerinə yetirmək tapşırığı aldı;

Ümumiyyətlə, Cəbrayıl polisi I Qarabağ müharibəsində Ermənistanın təcavüzkar niyyətini dəf edərək qanlı savaşlara girmiş, həmişə öz mütəşəkkilliyi, intizamı, həm də öz döyüş qabiliyyəti ilə fərqlənmişlər. Deyərdim ki, Cəbrayıl polisinin əməkdaşları Vətən qarşısında üz ağartdılar. Təsadüfi deyildir ki, Cəbrayıl polisinin 2 əməkdaşı, Aslanov Şikar Davud oğlu və Məmmədov Kazım Ərşad oğlu Respublikamızın ən yüksək fəxri adına "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldülər Ölümlərindən sonra Cabbarov Cabbar Səməd oğlu, Zalov Zakir Hidayət oğlu, I qrup əlil Sevdimalıyev Nübarək Babamir oğlu "Vətən uğrunda" medalı ilə təltif edildilər. Cəbrayıl polisi müqəddəs torpaqlarımızın müdafiəsi, suverenliyimizin, vətənin ərazi bütövlüyünün qorunması yolunda 16 şəhid verib. Bu döyüşlərdə 63 polis əməkdaşı güllə, qəlpə yarası alıb. Yaralılardan 6 nəfəri əmək qabiliyyətini itirmiş, I Qarabağ müharibəsi əlilidilər.



Cəbrayıl polisi 1992-ci ilin yanvar ayında



## III BÖLMƏ

# CƏBRAYILIN ŞEYİD DAŞLARI ŞƏHİD POLİSLƏR



Şəhid polislərin xatirə kompleksi



# VƏTƏN UĞRUNDA ÖLMƏYİ BACARANLAR VƏTƏNİN ŞEYİD DAŞIDI

Vətən daşı olmaq, hələ vətəndaş olmaq demək deyildi. Vətənə vətəndaş olmaq üçün vətənin şeyid daşı olmağı bacarmaq gərəkdir. Dağtumas kövşənində "Şeyidlər" adlanan ziyarətgah qəbirlər toplusudu. Dədə-babadan bizdə şəhid düşənlərə şeyid deyiblər. Sirikdə " Şeyid daşı", Marahan düzündən Hovuslu kəndinə enən yolun üstə "Şeyidlər" qəbiri var. Nə qədər şeyidlər, şeyid daşları var hamısı müqəddəs sayılır. Ziyarətgaha çevrilir, toxunulmaz hesab olunur. Daş altda yatanlara Vətən, torpaq, din uğrunda həlak olanlar deyirlər. Yaşı bilinməyən bu qəbirlər müqəddəs sayılaraq nəsillərin yaddaşlarında yaşayır. Nəsildən-nəslə ötürülür. Yaşadılır. Müqəddəslikləri qorunub saxlanılır. Qəribə bir adət də var. Yağış kəsməyəndə adətən şeyidlərdən daş gətirib ocağa atardılar. Yağış xətasız-filansız ötüşsün, kəssin deyə. Bir də namus, ismət üstündə böhtana düşən, qətlə yetirilən qızların qəbirləri də var bizim torpaqda. Onlar da müqəddəs sayılır, onlara da şeyid düşüb deyirlər. Bu sayaq qız qəbirləri ismət və təmizlik rəmzi kimi ziyarətgahlara çevrilir. Şahvəlli, Göyərçin Veysəlli kəndlərinin ətrafında da şeyid qəbirləri, şeyid nişangahları var. Hətta qəbirlərinin olmadığı, lakin şəhidlərin qətlə yetirildikləri yerlərin özündə də nişangahlar qoyulur. Həmin yerlərdə xalqın, camaatın ziyarətgahına çevrilib. Haqqın, ədalətin simvoluna-şeyid daşına dönür şəhidlər. Bu gün Vətən uğrunda, torpaqlarımızın bütövlüyü, toxunulmazlığı uğrunda canından keçən polislərin hər birinin qəbir daşı müqəddəsdir, bu günün, sabahın ziyarətgahıdı. Şeyid daşlarıdı. Təki Cəlayi-Vətən olmuş ruhları rahatlıq tapsın. Uğrunda qan tökdükləri, can verdikləri o torpaqlar, o daşlar düşmən tapdağından azad edilsin. Onların baş daşlarındakı şəkilləri üstünə sığal çəkə bilək.

Qəbirlərin ətrafını gülüstana çevirək, şeyid daşları önündə diz çökək, müqəddəs ocaq kimi onlardan şəfa diləyək. Özlərinə rəhmətlik, qəbirləri nurla dolsun, yerləri behiştlik olsun, uyuduqları torpaq yumşaq və sərin olsun deyək.

## CƏBRAYILIN ŞƏHİD POLİSLƏRİ

1. **Veysəlov Əsgər Tahir oğlu** – 1971-ci ildə Cəbrayıl şəhərində anadan olub. 14 sentyabr 1991-ci ildə Tanrı dərgahına qovuşub.Sirik kənd orta məktəbinə adı verlib;

2. **Əhmədov Zahid Fərrux oğlu** – 10 yanvar 1960-cı ildə Qalacıq kəndində anadan olub. 17 sentyabr 1991-ci ildə Tanrl dərgahına qovuşub. Beyləqan rayonundakı Günəşli qəsəbə orta məktəbinə adı verilib;

3. **Məmmədov Kazım Ərşad oğlu** – 01 oktyabr 1969-cu ildə Böyük Mərcanlı kəndində anadan olub. 15 noyabr 1991-ci ildə qəhrəmancasına həlak olub. AR Prezidentinin 08.10.1992-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adına layiq görülüb;

4. **Abdullayev Şükür Həsən oğlu** – 1970-ci ildə Qərbi Azərbaycanda anadan olub. 15 noyabr 1991-ci ildə Tanrı dərgahına qovuşub.

5. **Aslanov Elçin Gəray oğlu** – 1967-ci ildə Hadrut rayonunun Haxullu kəndində anadan olub. 15 noyabr 1991-ci ildə Tanrı dərgahına qovuşub. Xocavənd rayonunun Haxullu kənd qəbiristanlığında uyuyur.

6. **Zalov Zakir Hidayət oğlu** – 15 noyabr 1962-ci ildə Göyərçin Veysəlli kəndində anadan olub. 23 dekabr 1991-ci ildə Tanrı dərgahına qovuşub. Göyərşin Veysəlli kənd orta məktəbinə adı verilib. AR Prezidentinin 30 iyun 2006-cı il tarixli sərəncamı ilə "Vətə uğrunda" medalı ilə təltif olunub;

7. **Əliyev Vüqar Zülfüqar oğlu** – 26 sentyabr 1969-cu ildə Sarıcallı kəndində anadan olub. 08 may 1992-ci ildə Tanrı dərgahına qovuşub. Sarıcallı kənd orta məktəbinə adı verilib;



8. **Heydərov Əbdürrəhim Muxran oğlu** – 1957-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində anadan olub. 18 may 1992-ci ildə Tanrı dərgahına qovuşub. Yuxarı Seyidəhmədli kənd orta məktəbinə adı verilib.

9. **Aslanov Şikar Davud oğlu** – 10 iyun 1970-ci ildə Süleymanlı kəndində anadan olub. 02 iyul 1992-ci ildə qəhrəmancasına həlak olub. AR Prezidentinin 08.10.1992-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb;

10. **Quliyev Sahib İslam oğlu** – 26 dekabr 1968-ci ildə Qaracallı kəndində anadan olub. 15 avqust 1992-ci ildə Tanrı dərgahına qovuşub. Qaracallı kənd qəbiristanlığında dəfn olunub;

11. **Mehdiyev Faiq Nazim oğlu** – 20 yanvar 1971-ci ildə Cəbrayıl şəhərində anadan olub. 15 avqust 1992-ci ildə tanrı dərgahına qovuşub. Cəbrayıl şəhər qəbiristanlığında dəfn olunub;

12. **Şirinov Nazim Şirin oğlu** – 1962-ci ildə Doşulu kəndində anadan olub. 23 oktyabr 1993-cü ildə qeyri-aşkar şəraitdə itkin düşüb;

13. **Cabbarov Cabbar Səməd oğlu** – 26 avqust 1969-cu ildə Nüzgar kəndində anadan olub. 25 dekabr 1993-cü ildə Tanrı dərgahına qovuşub. Bakı şəhəri, Şəhidlər xiyabanında dəfn olunub. AR Prezidentinin 30 iyun tarixli sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib;

14. **Məhərrəmov Rahib Böyükkişi oğlu** –26 iyun 1970-ci ildə Horovlu kəndində anadan olub. 25 dekabr 1993-cü ildə Tanrı dərgahına qovuşub. Beyləqan rayonunda, 3-saylı sovxozun kənd qəbiristanlığında dəfn olunub. Qəbir üstü abidəsi Cəbrayıl polisinin vəsaiti hesabına götürülüb;

15. **İmanov Həbib Yusif oğlu** –03 dekabr 1968-ci ildə Mehdili kəndində anadan olub. 23 mart 1994-cü ildə Tanrı dərgahına qovuşub;

16. **İsmayılov Taleh İldırım oğlu** – 02 fevral 1967-ci ildə Cəbrayıl şəhərində anadan olub. 02 mart 1995-ci ildə Tanrı dərgahına qovuşub. Sabirabad şəhərinin Şəhidlər xiyabanında dəfn edilib;

## BİR EVİN ÇIRAĞIYDI, SÖNDÜ, AMMA MİN EVİN ÇIRAĞI OLUB YANDI



Veysəlov Əsgər

**Veysəlov Əsgər Tahir oğlu** 1971-ci ildə Cəbrayıl şəhərində anadan olub. 1978-ci ildə akademik M.Mehdizadə adına Cəbrayıl şəhər 1-saylı orta məktəbinin birinci sinfinə daxil olub, həmin məktəbi 1988-ci ildə bitirib. Rayon hərbi komissarlığının göndərişi ilə Füzüli şəhərində sürücülük peşəsinə yiyələnib. 1989-1991-ci illərdə hərbi xidmətini Macarıstan Respublikasında Hərbi xidmətini başa vurub ata ocağına qayıdıb. Geri qayıdanda Cənnət Qarabağı od içində yanan görür. 1991-ci ilin avqust ayında Cəbrayıl rayon Polis Şöbəsinin nəzdnində təşkil edilən Zamzur bölməsində polis nəfəri kimi xidməti işə qəbul olunur. Zamzur Polis bölməsinin rəisi Zahid Əhmədovun xidməti maşınını idarə edir. Özü də od-alovun içinə atılır. Gecə--gündüz sevimli komandiri ilə birlikdə gəzib dolanır, iş başında olur. Hiyləgər erməni daşnak quldurlarını izləyir. Xüsusilə, Banazur, Zamzur kəndlərində boş qalmış evlərə köçürülən, Qərbi Azərbaycanda daşnak faşistlərinin etnik təmizləmə siyasətinin qurbanı olmuş soydaşlarımızın təhlükəsizliyini təmin etmək üçün dinclik nə olduğunu bilmir. Arada ölüm-itim olmasına baxmayaraq erməni fitnəsindən qorxub çəkinmir. İgid komandiri ilə gündə bir neçə dəfə el-obalarından, od-ocaqlarından didərgin düşənlərə baş çəkir, onların qorxusuz yaşamaları üçün əlindən gələni əsirgəmir. Yurddaşlarımıza təzə həyat bəxş etmək arzusu ilə zabit və əsgəri gecə-gündüz alışıb yanırdılar, özləri də qorxu nə olduğunu bilmirdilər. 21 avqust 1991-ci ildə 12 nəfər polis əməkdaşını posta növbəyə aparan avtobus yolda erməni quldurları tərəfindən basdırılmış minaya toxunmuş və partlayış baş vermişdi. Partlayış nəticəsində Şamil adlı sürücü yerindəcə həlak olmuş, polis əməkdaşlarından üç nəfər ağır yaralanmışdılar. Qohumları tez-tez ona –"sürücülükdən əl çək, Şamilin aqibəti səni də gözləyir"-deyirlər. O, isə qohumlarından incik düşər, cavablarında – "Məni Zahid qağamdan ancaq ölüm ayıra bilər" – deyirdi. Onu rəisindən ayıran da, birləşdirən də elə onun iradəsi, bir də ölüm oldu. Cismən ayrıldılar, ruhən əbədi qovuşdular. İdarə etdiyi «UAZ-469» markalı avtomaşında 14 sentyabr 1991-ci ildə xidməti vəzifələrini yerinə yetirmək üçün Zamzur kəndinə gedərkən bölmə rəisi, polis baş leytenantı Zahid Əhmədovla birlikdə minaya düşdülər. Veysəlov Əsgər Tahir oğlu sürücü kimi yerindəcə həlak oldu, ağır vəziyyətdə mərkəzi xəstəxanaya çatdırılmış Z.Əhmədov isə üç gün sonra 17 sentyabr 1991-ci ildə haqq dünyasına köçdü. Əsgər Veysəlovun cənazəsi Sirik kəndinin qəbiristanlığında dəfn edilib. Qəbir üstü götürülüb. Sirik kənd orta məktəbinə adı verilib. Allah rəhmət eləsin! O, bir evin çırağı kimi söndü, amma min evin çırağına dönüb yandı.

## ƏHMƏDOV ZAHİD FƏRRUX OĞLU

QISA ARAYIŞ: **Əhmədov Zahid Fərrux oğlu** 1960--cı il yanvar ayının 10-da Cəbrayıl rayonunun Qalacıq kəndində andan olub. 1962-ci ildə Əhmədovlar ailəsi



Əhmədov Zahid

Beyləqan rayonuna köçüb.Müxtəlif yerdəyişmələrdən sonra Günəşli qəsəbəsində məskunlaşıblar. Burada böyüyüb boya--başa çatan Zahid 1977-ci ildə Örənqala kənd orta məktəbini bitirib. 1978-1980-ci illərdə hərbi xidmətdə olub. 1981-ci ildə BDU-nin hazırlıq kursuna, 1982-ci ildə isə BDU-nin hüquq fakultəsinə daxil olub. Zahid Əhmədov oxuduğu dövrdə o vaxt dəbdə olan tələbə inşaat dəstələrində fəal iştirak edib, öz əməksevərliyi ilə tələbə yoldaşlarından seçilib. Onun əməyinə yüksək qiymət verilib.O, SSRİ Ali Soveti Rəyasət Heyətinin 31 iyul 1986-cı il tarixli fərmanı ilə "Şərəf nişanı" ordeni ilə təltif edilib.

1987-ci ildə BDU-nin hüquq fakultəsini bitirərək təyinatla daxili işlər orqanlarına işə göndərilib. Oktyabr 1987-ci ildə Cəbrayıl rayon polis şöbəsində sahə müvəkkili kimi fəaliyyətə başlayıb. Sonra isə Cinayət Axtarışı üzrə baş əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. 1991-ci ildə polis baş leytenantı kimi Cəbrayıl rayon Polis Şöbəsinin nəzdnində yaradılan Zamzur polis bölməsinin rəisi vəzifəsinə irəli çəkilib. O, 1991-ci ilin may ayında Xocavənd rayonunun ərazisində pasport rejiminin yoxlanılması və qanunsuz silahların yığılması əməliyyatlarında fəal iştirak edir. Eləcə də həmin rayonun (keçmiş Hadrut rayonu) 11 yaşayış məntəqəsinin erməni quldurlarından təmizlənməsində öz fəallığı ilə fərqlənir. Sərhəd kəndlərində yerləşən polis postlarında bilavasitə özü də keşik çəkir. Postların işinə nəzarət edir. Gecəsi-gündüzü olmur. Tez-tez silahlı daşnak quldur dəstələri ilə üz-üzə gəlir. Döyüşlərdə dəfələrlə şəxsi igidlik nümunəsi göstərir. Onun bu fəaliyyəti yuxarı orqanların diqqətini çəkir. Zahid Əhmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 06 iyun 1991-ci il tarixli, 1336 saylı əmri ilə "Daxili İşlər Orqanlarında əla xidmətlərinə görə" döş nişanına layiq görülür.



Əhmədov Zahid Fərrux oğlu 14 sentyabr 1991-ci il tarixdə silahdaşı, polis nəfəri Veysəlov Əsgər Tahir oğlu ilə birlikdə xidməti vəzifələrini yerinə yetirməyə gedərkən oturduqları maşında Zamzur kəndinin üst tərəfində terrorçuların yola basırdıqları minaya düşürlər. Əsgər Tahir oğlu yerindəcə həlak olur. Ağır yanıq və bədən xəsarəti alan Zahid Əhmədov mərkəzi xəstəxanaya çatdırılsa da onun həyatını xilas etmək mümkün olmur. O, 17 sentyabr 1991-ci il tarixdə şəhidlik zirvəsinə yüksəlir. Cənazəsi Cəbrayıl rayonundakı məşhur Hacı Qaraman məzarlığında torpağa tapşırılır. Şəhid adını əbədiləşdirmək üçün oxuduğu məktəbə – Beyləqan rayonundakı Günəşli qəsəbə orta məktəbinə adı verilir.

Bir övladı var. Oğlu Rüfət hal-hazırda orta məktəb şagirdidir.

## «MƏN XALQIMIN HÜQUQLARININ KEŞİYİNDƏ DAYANACAĞAM»

*Zahid Əhmədov*

Bu deyimin Zahid Əhmədova məxsus olduğunu mən hələ onun öz sağlığında, haqqında gedən söz-söhbətlər zamanı eşitmişdim. O, hələ yeniyetməykən, orta məktəbin son sinfində oxuyarkən demokratik bir cəmiyyətin qurucusu olmağı, onun ali qanunlarının keşiyində durmağı arzulayıbdı. Mən bu arzunun işığında Zahid Əhmədov haqqında qeydlər aparmaq qərarına gəldim. 2005-ci ilin avqust ayında Cəbrayıl rayonunun işğalı ilə bağlı növbəti ildönümünə hazırlaşan çəkiliş qrupunun tərkibində yolumu Beyləqan rayonunun Günəşli qəsəbəsindən saldım. Zahid Əhmədovun xatirə guşəsini lentə aldıq. Vali-

deyinləri ilə görüşdük. Mən isə öz istəyimi gerçəkləşdirmək istədim. Atası Fərrux kişiyə müraciət etdim. O, mənim fikrimi tamam başqa səmtə yönəltdi. Karıma gələn qardaşı Baqı oldu. "Ay Əlisahib müəllim, özünü niyə çətinə salırsan. Nə atası, nə də mən qardaşım Zahidi xalaoğlun, Vaqif müəllim qədər tanıya bilmərik. Uşaqlıqdan dost olublar, qonşu olmuşuq. Bir oturub-durublar. 10 il bir skamya arxasında oturublar. Bir sinfin şagirdi, bir ilin buraxılışı, məzunu olublar. Təhsillərini ayrı-ayrı sahələrdə davam etdirsələr də dostluqlarını yaşadıblar. Həmişə görüşüblər, bir-birlərindən hal-əhval tutublar. Dədə-babadan kirvəliyimiz də olub. Xahişimizi yerə salmayıb. Zahidin ruhu şad olsun deyə oğlu Rüfətin kirvəsi də elə Vaqif müəllimin özü olub. Hər bir sualına Vaqif müəllimdən dolğun, səni qane edən cavablar ala bilərsən" – dedi. Bu amacla də girəvə düşən kimi Gəncəyə yol aldım. Gəncə Kənd Təsərrüfatı Akademiysının dosenti, xalaoğlum Vaqif Mirzəliyevin qonağı oldum. Arzum, istəyim yetərli, səfərim ürəyimcə oldu. O dedi, mən yazdım. Aramızdakı mükamilə elə bu başlıqla da ərsəyə gəldi. Vaqif müəllimin dediklərini eləcə öz danışdığı, dediyi ardıcıllıqla da qələmə aldım:

– Söhbət şəhidlərdən düşəndə həmişə tarix səhifələrində, yaddaş kitablarında yaşayan, adları hörmətlə yad edilən, əsrlər boyu şücaətləri, qəhrəmanlıqları insanlara örnək kimi misal çəkilən, nümunə göstərilən Vətən övladları yadıma düşür. Bu insanlar arasından mənə tərəf boylanan ilk sırada duran isə gülşən sifətli, siması gözlərim qarşısında canlanan Zahid Əhmədov olur. O, Birinci Qarabağ savaşında ilk Azərbaycan şəhidlərindən birincisi deyil biri olsa da bizim el-obamızdan şəhid düşənlərin birincisidir. Zahid Əhmədov şübhəsiz ki, onu sevənlərin qəlbində Cəbrayıl Rayon Polis Şöbəsinin baş leytenantı kimi, şəhidlik zirvəsinə yüksələn nakam ömürlü bir gənc kimi qalır. Təbii ki, onu sevənlərdən biri kimi mənim də



qəlbimdə beləcə qalır və ruhən yaşayır. Lakin bununla belə onu lap uşaqlıqdan tanıdığıma, bir oturub- bir durduğuma və müxtəlif yaş dövrlərində və zaman kəsiklərində sıx-sıx əlaqələrimiz, təmaslarımız olduğuna görə o mənim xatirimdə daha geniş diapazonda bir dost, bir kamil insan obrazı kimi qalmaqdadır. Zahidi şəhidlik zirvəsinə aparan yol çox uzaqlardan, ömrünün kövrək illərindən, erkən çağlarından başlayıb gəlirdi desəm məni qınamayın. Bu baxımdan onun haqqında danışarkən, yazarkən bu qısa ömrün keçdiyi yolun keşməkeşli anlarını mütləq xatırlamalıdır. Fərdi xüsusiyyətləri nəzərə alınmaqla tam öyrənilməlidir.

Məhz bu cəhətləri nəzərə almaqla istərdim ki, mənə yaradılan bu imkandan lazımınca istifadə edim. Dediklərimin, danışdıqlarımın bir səmərəsi olsun. Bütövlükdə millətimiz, dövlətimiz üçün gərəkli olan yurdsevərliyin hər bir vətəndaşın qəlbində özünə yer edcək Vətənə, torpağa sevginin qədərini, dərəcəsini Zahidin timsalında göstərməyə müvəffəq oldum. Onun vəzifə borcuna sədaqətli olmasını, fəal vətəndaşlıq mövqeyini əks etdirə bilim. Ona görə də çalışacağam ki, ilk növbədə Zahidin uşaqlıq çağlarından başlamış məktəbli olduğu, kamal attestatı aldığı yeniyetməlik dövründən üzü bəri, habelə sonrakı illərdə keçdiyi həyat yolunu özüm dərk etdiyim qədər xarakterizə edim. Çünki həmin dövrlərdə bir-birimizə bağlı olduğumuz səmimiyyətimizdən doğan şirin anlarımız, davranışlarımız diqqət çəkən olub. Hər bir cəhətdən Zahidin həyat yolu, taleyin, qismətin ona verdikləri təqdir olunmağa layiqdir. Həmişə Zahiddən söz düşəndə geniş erudisiyalı, rakuslu təfəkkürə malik, dərrakəli, mühakimə qabiliyyətli, qəti qərar qəbul edə bilən israrlı, iradəli bir insan surəti gözlərimin önündə canlanır.

Bizim ailələrimiz arasında olan isti münasibət bizim bir-birimizə yaxınlaşmağımıza eləcə uşaqlıqdan səbəb olmuşdu. Müsəlman adət-ənənələri xüsusunda yaranan bu

yaxınlıqlar uşaqlıq illərimizin şirin xəyallarında xatırlanması həmişəyaşardı, yadda qalandı. O şirin xəyalların yadigarlarından birini heç cürə yaddan çıxara bilmirəm.

Biz uşaqlar yayın, payızın isti vaxtları deyilən zamanlarda tez-tez bir yerdə olardıq. İsti vaxt məhfumu aran yerlərində çox işlənən bir ifadədir. Yüksək temperaturda işləməyin mümkün olmadığı bu vaxtlarda kənd əməkçiləri evlərə dağılır, sərin düşənədək yatırdılar. Biz uşaqlar belə vaxtlarda böyüklərin və özgə uşaqların nəzərlərindən oğurlanıb gözdən yayınardıq. Qalın kölgəliyi olan Əli Əhməd oğlunun üzüm bağında topqarlanardıq. Ora Zahidgilin həyətindən keçərdik. Biz Zahidlə qoşa gedərdik. Kölgənin sıx yerində özümüzə yer rahatlayınca Zahid həmişə sağ böyründə üçüncü dostumuza Şakirə də yer saxlayardı. Əldəqayırma tarını da sinəsinə basaraq Şakirə tərəf dönərdi. Həmişə də müraciəti belə olardı: " Şakir! Şakir! Sən Allah, o "Azərbaycana gəlsin" var e, onu oxu" – deyərdi. Şakir də dost qəlbini sındırmazdı. Daha da ruhlanardı, şövqə gələrdi:

Vətənimin seyrinə çağırıram elləri,
Hörmət görmək istəyən Azərbaycana gəlsin!
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin!

Bu məlahətli səs şerin ahənginə xüsusi bir məna, gözəllik verər, Zahid də bu təbdə tarı sinəsinə sıxıb simləri aşağı-yuxarı pərdələrdə səsləndirərdi. Özlüyümdə fikirləşərdim ki, bu qədər eşqlə tarı necə dilləndirir, bu işi necə edir, axı o, tarı yaxşı çala bilmirdi. Mən çox sonralar bu böyük məqamı başa düşdüm. O, Vətənə olan sonsuz məhəbbətdən, duyğulardan vəcdə gəlirdi. Bu sevginin onu çox uzaqlara aparacağından özü xəbərdar idi. Təqribən 1972-1973-cü illərdən biri idi. Bir gün Zahid məni yanlayıb maraqlı hadisələrlə dolu bir filmin olacağından xəbər verdi. Mənə "axşam bizə gəl, birlikdə tamaşa edək" – dedi. Axşam biz bir yerə yığıldıq. Kino nəzərdə tutulduğundan xeyli gec başladı. Ona görə ətrafımızdakılar bir-bir, iki-bir yatmağa dağılışdılar. Nəhayət, $23^{00}$-da kino başladı. Kinoya tamaşa etdikcə maraq məni götürdü. Ən kiçik incəliklərinə, detallarına qədər, hər bir epizodu xırdalıqlarınadək Zahid kinonu əzbərləmişdi. Günortadan mənə danışdığı hadisələrin heyrətlə kino səhnələrinə baxırdım. Zahidsə birinci dəfəymiş kimi diqqətlə filmə tamaşa edirdi. Bu indi də sevə-sevə baxılan "Qanun naminə" filmi idi. Bu ötəri və ya deyimi xoş olan xatirə deyildi. Bu çox sonralar, daha doğrusu 1977-ci ildə orta məktəbin son sinfində, məzunun, yeniyetmə bir gəncin həyat idealının başlanğıcı və ömür yoluna körpü qoyan bir olay idi. İstərdim ki, birlikdə o illərə qayıdaq. Sovet təhsil sisteminin doğurdan da danılmayan üstünlüklər vardı. Onlardan biri də şagirdlərin real həyatla əlaqəsinin izlənilməsi, ona yönüm verilməsi idi. Məhz bu reallıqlar xüsusunda gəncliyin mənəviyyat strategiyasının konturları cızılırdı , o həyata hazırlanırdı. Çox vaxt da buna nail olunurdu. Səhv etmirəmsə 1977-ci ilin mart-aprel aylarından biri idi. Orta məktəblərə 17 sorğudan ibarət anket göndərilmişdi. Bu sorğuların cavabları gənc nəslin ideologiyasının istiqamətlərini müəyyənləşdirən bir proqram sənədi idi. Anket məktəbdə seçmə şagirdlərə paylandı. O cümlədən mənə və Zahidə də verildi. Mən öz adımı da bu sırada qeyd etməkdə qeyri-səmimilikdən uzağam. Bu müəllimlərin seçimi idi. Sorğuları cavablandırmaq üçün bizə nə az, nə çox, düz bir həftə vaxt verdilər. Bir həftədən sonra məktəbə gedəndə yol boyu bir-birimizə maraq kəsildik. Xeyli müzakirə getdi. Qeyd edim ki, mərkəzi malikanədə yerləşən Örənqala kənd orta məktəbi bizim qəsəbədən 4 km aralıdaydı. Biz hər gün bu məsafəni 45 dəqiqəyə həvəslə qət edirdik. Mən söhbət əsnasında qeyri-ixtiyari anketimi Zahidə uzatdım və "al, oxu" dedim. Maraqlandım ki, görüm mənim cavablarım

onu qane edəcəkmi. O, bir jest etdi. Anketi məndən almamış tələsik papkadan öz qeydlərini çıxardı, mənə uzatdı və "sən də mənim yazımı oxu" dedi. Yazını aldım. Gözəl xətti vardı. Hüsnüxət yazısında hərflər bir mirvari düzümünü xatırladırdı. Bu səliqəli yazını diqqətlə, heç bir təhrifə yol vermədən anlaqlı şəkildə oxumağa başladım. Sanki onun daxili aləminin gizli bir xəritəsi əlimə düşmüşdü. Ömrünün yeniyetmə çağında olan bir yeniyetmə nələr düşünürmüş, bu aləmin sehrində donub qalmışdım. Bu ara o, "yaxşı yazmısan" deyə yazımı mənə uzatdı. Fikirdən ayrılıb ancaq "sağ ol" deyə bildim. Ani çaşqınlıqdan sonra "sən isə aləm yazmısan" deyə anketi geri qaytardım. "Niyə elə baxırsan?"-sordu. Ona cavab verə bilmədim. Fikrim isə hələ də onun son cümləsinin təsiri altındaydı. O, sanki bu cümlə ilə taleyinin, qismətinin ardınca düşmüş, bu cümləni alın yazısına çevirirdi. Kim olmaq istəyirsən sualını "Mən xalqımın hüquqlarının keşiyində dayanacağam" cümləsi ilə cavablandırmışdı.

İllər ötdü. Zahid hərdi xidmətə yollandı. Bu yol onu çox uzaqlara, qərib bir diyara "Polevaya poçta" ünvanında gizlənən Avropa ölkələrindən birinə apardı. Dəmir, kürədə qızardılıb zindanda döyülərək kəsərli bir alətə çevrildiyi kimi sovet dönəmində camaatın dediyi sayaq bərkə-boşa düşməmiş gənclər hərbi xidmətdə kişilik sınaqlarından çıxır, evə ərən kimi dönürdülər. Zahid də beləcə bərkə-boşa düşdü. Mətinləşdi. İradəsini bir az da möhkəmlətdi, inadını artırdı. Hərbi xidmərdə Sov. İKP üzvülüyünə namizəd oldu. Hərbi hissədən bir başa BDU-nin hazırlıq şöbəsinə təqdimat aldı. Zahidin hazırlıq kursunda necə oxumasının şahidi çox adam ola bilərdi. Lakin atası Fərrux dayı da bu əzab dolu yaşantını, çətinliyini Zahidlə birlikdə çəkdi. Bütün varlığı ilə ona kömək oldu. Hərdən isə ona "A, bala özünə zülm eləmə, görmürsən ətrafında nələr baş verir? Bu daşı bəlkə ətəyindən tökəsən" – deyəndə balasından "Elə ona görə də mübarizə aparacağam. Öldü



var, döndü yoxdur" – cavabını aldı. Fərrux dayı naəlac qaldı. "Onda qorxma"- dedi. Nəhayət, 1982-ci ilin üzüntülü yay günləri geridə qaldı. Zahid 1982-ci ilin 1 sentyabrında istəyinə çatdı. O, BDU-nin hüquq fakultəsinə daxil oldu. Artıq ikinci kurs tələbəsi olanda təhsildəki müvəffəqiyyətləri və ictimai işlərdəki fəallığı onu tanıtdı. Mən o zaman Respublika gənclərinin iştirakı ilə keçirilən müxtəlif toplantılarda, seminarlarda tez-tez iştirak edirdim. Bakıya ezam olunurdum. Tərəfdaşlarımdan Zahidi soruşurdum. Ancaq bir cavab alırdım – " Əşi, qiyamət oğlandır. Sən onu hardan tanıyırsan?" – deyirdilər. Əvvəllər elə bilirdim üzgörənlik edirlər. Lakin sonralar təkrar-təkrar söylənən bu təriflər söz olaraq qalmadı. Qəzet səhifələrində yazılara çevrildi. Onunla bir dost, həmkəndli, həmyerli kimi fəxr etməyə başladım. Haqqa çatmaq üçün cəhalətlə güləşən ucqar bir kəndin sakini, arxasız-dayaqsız bir oğlanın tərifi möhtəşəm bir təhsil ocağının divarlarına sığmırdı. Onun haqqında respublikanın müxtəlif mətbu orqanlarında bir-birinin ardınca yazılar dərc olundu. Zahidin tələbəlik illərinin yadda qalan, ən parlaq və qabarıq göstəricisi onun "Şərəf nişanı" ordeni ilə təltif edilməsidi. Respublika səviyyəsində deyərdim ki, nadir hadisələrdən biridir ki, BDU-nun tələbəsi belə bir yüksək dövlət ordeninə layiq görülmüş olsun. Bu isə hər şey demək idi. Elə bu minvalla da təhsilini başa vuran Zahid dədə-baba yurdu olan Cəbrayıla təyinat aldı. Cəbrayıl rayon DİŞ-də işə başladı.

Vətənimizin üstünü qara buludlar alanda vətənə sipər olmaq üçün ayağa ilk qalxanların sırasında Zahid də vardı. Zahid haqqında istər danışanda, istərsə də yazanda istər-istəməz yadıma o dövrdə Cəbrayıl rayon DİŞ-nin rəisi işləyən, qırğı baxışlı, iti yerişli, ötkəm danışıqlı, haqq dünyasının ən alnı açıq sakinlərindən olan Rəşid Məmmədov düşür. Cəbrayıl rayonu işğal altında olsa da Cəbrayılın hər kəndində, hər elatında onun narahat döyüntülü

ürəyinin, nagahan ruhunun həsrəti gizlənir. Allah ona rəhmət eləsin. Bəlkə də taleyin qismətinə düşən bir səbəb də o idi ki, Zahid məhz Rəşid müəllimlə çalışdı, işlədi. Həmişə deyərdi ki, Rəşid müəllim gedən aşırımı birinci mən aşmalıyam. Bu duyğu, bu amalla da o ən təhlükəli zonaya – daşnak quldurlarının əhaliyə dinclik verməddiyi Banazur-Zamzur ərazisində fəaliyyət göstərəcək polis bölməsinin rəisi vəzifəsinə getdi. Taleyin, sanlı günün bir addımlığına məhz həmin gün ilk addım atıldı.

Bu nahaq dünyanın çox haqsızlıqları ilə üzləşən Zahidin ömür yolu daim mübarizələrdən keçdi. O, Cəbrayıl rayon DİŞ-də işlədiyi müddətdə də bir qayda olaraq haqqa söykəndi. Haqq isə ancaq mübarizənin nəticəsi kimi özünü büruzə verirdi. Zirvəyə doğru gedən bu yolu qət etmək isə min bir əziyyətə qatlaşandan sonra mümkün olandı. Bu zirvədə isə insanlığın, hər bir vətəndaşın müdafiəsini təmin edən qeyrət qalası var. Zahid öz qeyrətinə sığınaraq bu qalaya aparan qismət yolunu özü yazanlardan, özü qazananlardan oldu.

1991-ci il sentyabr ayının 14-cü günü öz rəngi ilə həyat yoldaşı və onun dünyaya yenicə göz açmış oğlunun qan yaddaşına əbədi həkk olunan bir gün oldu. Həyat yoldaşı yana-yana ağlayırdı ki, həmişə evdən çıxanda bizimlə xudahfizləşərdin, bu dəfə gedəndə isə " tez qayıdacağam" – dedin – Tanrım nə deyim sənə!

Həqiqətən də Zahid həmin gün tez qayıtdı, lakin üzünü doyunca görmədiyi övladının, dünyalar qədər sevdiyi ailəsinin yanına deyil, Cəbrayıl rayon Mərkəzi Xəstəxanasına...

Biz Gəncədə bu qara xəbəri eşidəndə ani olaraq Zahidin həyat yolu gözlərim önündən işıq surəti ilə ötdü. Hardansa qəlbimin dərinliyində gizlənən bir deyim – "Dərdi dərd çəkənə yükləyər Allah!"- deyimi yadıma düşdü. Bu ağır xəbərin sorağında Cəbrayıl rayon mərkəzi xəstəxanasına yollandıq. Yol boyu bu acı xəbərə tab gətirməyən,



heç nəylə barışmayan qəlbim göz yaşlarımla silələnən xəyalıma qoşulub ötən günlərə - Zahidin Gəncəyə gəldiyi vaxtlara yön aldı.

1986-cı il fevral ayının axırları idi. Təbiət bu il erkən oyanmışdı. Gəncədə güllü-çiçəkli bir yazın nəfəsi duyulurdu. O, vaxt mən Gəncə Kənd Təsərrüfatı Akademiyasının IV kursunda oxuyurdum. Həm də Tələbə həmkarlar təşkilatına rəhbərlik edirdim. Növbəti iş günlərinin birində qapı döyüldü. Buyurun, deyib ayağa qalxdım. Qapı açılanda gözlərimə inanmadım. Bu Zahid idi. Qeyri-ixtiyarı irəli yeriyib onu qucaqladım. Öpüşüb görüşdük. Yanımdakılara alatələsik göstəriş verib işləri yarımçıq da olsa qurtarmaq istədim. Bunu duyan Zahid üzünü mənə tutub: "Vaqif müəllim, siz işlərininzi yekunlaşdırın. Onadək mən də korpusla tanış olaram"- deyib cəld geri döndü. Mən "Ə, dayan görüm. Nə iş"- deyəndə qınaq dolu baxışla təkrar mənə tərəf çevrilib "Xahiş edirəm" deyib otaqdan çıxdı. Ərklə "nə müəllim, müəllim salmısan ə.."- deyə onu məzəmməd etmək istədim. O, isə cavabında" mən istərdim ki, yanındakı müəllim və tələbələr görsünlər ki, sənin nüfuzun var. Hamı sənə müəllim deyə müraciət edir. Hörmət sahibisən"- dedi. Zahid böyük-kiçik yeri bilən, yüksək davranış etikasına malik, intellekt səviyyəsi olan bir adam idi. Ondakı ədəb-ərkan, ciddilik onun elminin, dünya görüşünün, həyata baxışının mayasını təşkil edirdi. Mən onu çox gənc yaşlarından qaynar, mübariz, həyata hazır bir insan kimi qəbul edirdim. Bir keyfiyyət halı da bizə örnək idi. Onun üçün ən ağır hal vaxt itkisiydi. Vaxta həmişə heyifi gəlirdi. Getdiyi yerdə işini qurtaran kimi darıxmağa başlayırdı. Gəncədə də belə davrandı. "Qal" –dedim. İsrar edəndə də cavabı çox qısa oldu: "Vaxtınızı alıram"- dedi. Bununla da fikrini bizə çatdırdı. O, həmişə belə tələblə yaşardı. Özü də qısa ömür sürdü. Lakin özünə əbədiyyət qazandı. HƏMİŞƏ YAŞAR – ŞƏHİD ÖMRÜ!..

Vaqif müəllim sözünün ardını gətirə bilmədi. Kövrəldi. Gözlərində yaş gilələndi. Səsi titrədi. Doluxsunmuşdu. Mü-

sibət haqqında mərasimin üzüntülü anlarını yaşamış bir insandan nəyisə sormağın özü də bu an ağır idi. Vaqif müəllimin o zamanlar dost itirmiş bir adam kimi ağır anlar yaşadığını eşitmişdim. Həyat yoldaşı İlhamə xanım Vaqifin Zahidlə bağlı hisslərini şerə köçürdüyünü mənə demişdi. Həmin yazını istəməsə də Vaqif müəllimdən aldım. Həmin şer parçasını xırda əlgəzdirmə ilə yazıma əlavə etdim:

Ölüm xəbərindən sarsıldım qardaş,
Qövr edən dərdlərim inlətdi məni.
Damdı sinəm üstə qətrə-qətrə yaş,
Qanlı göz yaşlarım göynətdi məni.

Sanki dağlar uçdu, uçdu başıma
Bumbuz, lal qayalar üşütdü məni.
Fələk necə qıydı cavan yaşına,
Bir bacı fəryadı kövrəltdi məni.

İldırımlar çaxdı, göylər ağladı,
Ağ saçlı bir ana saçını yoldu.
Bir ata vüqarı dözdü, sınmadı,
Bir dost harayına səslədi məni.

Gəzdim el-obanı mən qarış-qarış
Səndən xəbər verdi neçə dost, tanış,
Torpağı tapdanmış, yurdu talanmış,
Vətən sorağına ün etdi məni.

Səni bir övladtək yetirən Vətən,
Övladı önündə itirən Vətən,
Ata yolu üstə həsrət bitirən
Övladın göz yaşı qəhr etdi məni.

Vətənə qaladı Şəhid qəbirin,
Şahid ömürüdü şəhid ömürün
And yeri olmusan indi vətənin,
Xəyalın göylərə qeyb etdi məni.



## MƏMMƏDOV KAZIM ƏRŞAD OĞLU



Məmmədov Kazım

TANITMA: **Məmmədov Kazım Ərşad oğlu** 1969-cu il oktyabr ayının 1-də Böyük Mərcanlı kəndində anadan olub. 1986-ci ildə Böyük Mərcanlı kənd orta məktəbini bitirib. Həmin ildə Gəncə şəhərindəki İnşaat texnikumuna daxil olub. 1988-1990-cı illərdə hərbi xidmətə çağrılıb. Ordudan tərxis olunandan sonra təhsilini qiyabi şöbədə davam etdirib. Vətənin müdafiəsinə qalxıb. 25 fevral 1991-ci ildə Cəbrayıl RPŞ-nin PPX rotasında polis nəfəri kimi xidməti işə qəbul olunub. 1991-ci ilin may ayında Cəbrayılla həmsərhəd olan 11 erməni kəndində pasport rejiminin yoxlanılması və qanunsuz silahların yığılması işində fəal iştirak edib. Həmin kəndlərdə təşkil edilən polis postlarında mütəmadi keşik çəkib. Daşnak terror qrupları ilə döyüşdə dəfələrlə şəxsi igidliklər göstərib. 15 noyabr 1991-ci ildə Zamzur postunda terrorçu qrupların mühasirəsinə düşüb. Qeyri bərabər döyüşdə 12-yədək terrorçu məhv edib. Özü isə qəhrəmancasına həlak olub. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında göstərdiyi igidlik və şəxsi şücaətə görə ölümündən sonra o, AR Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə " Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adı ilə təltif edilib. Böyük Mərcanlı kənd orta məktəbinə adı verilib.

## SİMURQ QUŞU NƏĞMƏSİNİ YANANDA OXUYUR

*Azərbacanın Milli Qəhrəmanı Məmmədov Kazım Ərşad oğlunun əziz xatirəsinə*

İri çaplı pulemyotların işıqsaçan güllələri dan qaranlığının bağrını dələndə Kazım qeyri-iradi şəhadət barmağını dişlədi: «Dünən rus zabitinin kənddə reyd keçirməsi əbəs yerə deyilmiş, növbəti hiyləsiymiş. Pul söz tutar. Demək ermənilərə satılıb əclaf» dedi. Onsuz da sarıqulaqdan elə dünəndən gözü su içmədi. Çağrılmamış qonağın vaxtsız gəlişi barədə qərərgaha məlumat da verdi. Sərvaxt olun – dedilər. Kazımın sərəncamında iki polis əməkdaşı – Elçinlə, Şükür vardı. Hər üç postaçı avtomat silahla təchiz edilmişdilər. Arada iki mülki şəxs – didərginlərdən – Fazilə və Müşgünazın həyat yoldaşları – Akiflə Yolçu beşaçılanla silahlanmışdılar. Onların da patron ehtiyatı çox az idi. Həmişə olduğu kimi dünən də döyüşçülər şam yeməyini Fazilə müəllimәgildə yedilər. Özünə bu gen dünyada yer tapa bilməyən Kazım gərgin əsəblərini sakitləşdirmək istədi, təkidlə maqnitofonu işə saldırdı. Şənləndilər də bir az. Gecə keçəndə məclis öz namına dağıldı. Kazımsa yoxlayışa çıxdı. Şükür kilsə tərəfdə, Elçinsə kəndin gündoğanında keşik çəkirdi. Akiflə Yolçu qərargahda otururdular. Qərargah elə Akifin evində yerləşirdi. Kazım gecə gəzintisindən qayıdıb gələndə Fazilə müəlliməni xısın-xısın ağlayan gördü. Kazım səbəbini soranda, "bəlkə Akif xətrinə dəyib" deyəndə tay da qəhərləndi. Gözlərindən dərdqəm dolu yaş gilələri süzülə-süzülə dindi: "Yox, yox, bu gecə bir balaca dedik - güldük. Ardınca da dəli bir sükut çökdü. Axı, bu vaxtlar hər axşam daşnaqlar kəndi atəşə tuturdular. Səs-küyə alışmışdıq. Nə isə bu gecənin sükutu qorxutdu məni. Bu sükutun vahiməsindən diskindim. Deyirlər ölü sükut öz ardınca bədbəxtlik, bəla gətirir». Kazım Fazilə müəlliməyə toxtaqlıq verdi. Akif də həyat



yoldaşını sakitləşdirməyə çalışdı. Kazım Fazilə müəllimənin gözlərində duruluqla, saflıqla yanaşı təsəvvürə gəlməz dərindən-dərində boz-bulanıq kədər qatları sezdi. Müdrikcəsinə dindi: "Fazilə müəllimə, indi ölüm bizə həmişəkindən daha yaxındır. Amma onu da bil ki, bir hadisə-filan baş versə, qanımız bahasına olsa da biz sizi ölümün pəncəsindən xilas edəcəyik. Allaha şükür Akif kimi bir ər igidin də böyründədir. Sən niyə ağlayırsan?!» Fazilə müəllimə kədərli-kədərli astadan: «Sizsiz mənim nə günüm, ay Kazım. Arada ölüm olarsa, qoy elə mən də sizinlə birlikdə ölüm!..» dedi. Sözünün ardını gətirə bilmədi. Həmən andaca kəndə güllələr yağış kimi səpdi...

Kazım barmağını dişləri arasından çəkməklə avtomatı döşünə sıxıb sapanddan atılan daş kimi ikinci mərtəbədən həyətin qaranlıq girdabına şığıdı. Məşhur daşnak terrorçusu Arkadinin postdakıları yuxuda tutub məhv etmək hiyləsi hər halda baş tutmamışdı. Şükür də, Elçin də sərvaxt tərpəndilər. Gecəni çimir belə almadan keşik çəkirdilər. Qaraltını sezməsələr də ölü sükuta uymadılar. Tərpənti səslərini, yarpaq, ot xışıltısını qulaq seyvanları maqnit kimi çəkdi. Göz-gözü görmürdü. Atışma səs havasına gedirdi. Terrorçular kəndin hər ağacına, daşına, bəndbərəsinə, çal-çəpərinə bələd idilər. Dörd qrupa bölünüb dörd tərəfdən ayrı-ayrılıqda postların üstünə yeriyirdilər. Akiflə Yolçu da beşaçılanlarını doldurub kəndin müdafiəsinə qalxdılar. Fazilə ilə Müşgünaz vaysına-vaysına patron dalınca qaçır, ərlərinə köməkdarlıq edirdilər. Atışmadan heç quş saatı keçməmiş dan üzünün qara damarı qaçdı. Dan sökülməyə başladı. Qaraltılar seçiləndə postdakılar qeyri-bərabər döyüşdə duruş gətirə bilməyib geri çəkilməli oldular. Özlərini qoruya-qoruya hasardan hasara aşdılar. Kürək-kürəyə verib son anda qərərgaha toplandılar. Çoxsaylı daşnaq terrorçularının həmləsi, gözlənilməz və qarşısı alınmaz idi. Kazım üç əməkdaşla kəndi müdafiə etməyin qeyri-mümkünlüyü barədə rayon polis

şöbəsinin növbətçi otağına məlumat verdi. Kömək istədi. Terrorçular üç-bir, beş-bir qruplara bölünüb dörd tərəfdən atəş aça-aça qərargaha, ratsiya yerləşdirilmiş iki mərtəbəli binaya tərəf irəliləməkdə idilər. Mühasirə halqası daralanda Kazım ikinci mərtəbəyə qalxdı. İrəliyə can atan terrorçuları birər-birər nişana çəkdi. Akiflə Yolçunun patronları tükənmişdi. Onlar Kazımın atəş altında saxladığı qapı ağzında qalmışdılar. Kazım Elçinlə Şükürə qəti tapşırıq verdi ki, terrorçuların arxa və yanlardan qərərgahın həyətinə daxil olmalarına imkan verməsinlər. Müdafiədə vaxt qazanmaq, kömək gələnə kimi ermənilərə müqavimət göstərmək lazımdı-dedi. Təslim söhbəti əsla ola bilməzdi. Terrorçular isə vaxt itirmək istəmirdilər. Kömək gələcəyindən xəbərdar idilər. Postaçıları tezliklə məhv edib kənddə öz müdafiə postlarını qurmaq, güclənmək fikrinədəydilər. Kazımın ikinci mərtəbədə sipər divarlar arxasına adlayıb tildən-tilə sinərək pəncərə gözlərindən həyətə atılmaq istəyən hər kəsi yerə sərməsi iştahı tük çəkən Arkadini onun qan-qan deyən dəstəsini sınıq saldı. Terrorçular ancaq pəncərə gözlərini imkan tapıb çoxsaylı atəşlər altında saxlayandan-saxlayana o tərəf-bu tərəfə baş vururdular. Təkbaşına addım ata bilmirdilər. Əsas diqqəti evin pəncərə gözü olmayan arxa və yan üzləri tərəfdən həyətə atılmaq istəyi üstə cəmlədilər. Hərdən divar dibinə yaxınlaşan olsa da hasar üstə baş qaldıran yox idi. Elçinlə Şükürün hədəfinə çevriləcəklərindən qorxurdular. Lakin Akiflə Yolçunun atəşləri dayandırmaları darvaza qapısından içəri girməyə can atanların fəallığını artırdı. Yolçunun patronu qurtaranda beşaçılanı yararsız bir əşya kimi kənara tulladı. Baltaya əl atmaq istədi. Baltanı Akif götürmüşdü. Naəlac qalıb boş əllə darvaza ağzını kəsdirdi. Dəmir qapının rəzə yeri deşik-deşik olmuşdu. Qəfil qapını aralayıb özünü həyətə təpmək istəyən erməni dığası nə içəri keçə bildi, nə də geri çəkilməyə imkan tapdı. Yolçu var gücü ilə qapını necə basdısa dığanın ətli boğazı iki



qapının arasına keçdi və gözləri bərələ qaldı. Yolçu ilə ermənilərin qapı üstə dartışmasından cəhənnəmə vasil olmuş dığanın başı qapı həngaməsinə keçib xıncım-xıncım oldu. Dəmir qapını dəlib-deşən güllələr qarın boşluğuna dolub Yolçunu heydən salanda Müşgünaz özünü saxlaya bilmədi. Ərinin hayına-harayına qaçdı. Arxada və yanlarda müdafiə mövqeyində can qoyanlar darvaza ağzındakı çarpışmadan aralı düşmüşdülər. İkinci mərtəbənin pillə üstü artırmasından imkan tapıb sərrast atəşləri ilə terrorçuları dənləyən Kazım da çiyinlərini aramsız yalayıb keçən güllə yağışından qorunmaq üçün arxa divarın daldasına çəkilmişdi. Ermənilər ömrü sona yetməkdə olan lakin hələ son nəfəsi ağzından çıxmamış Yolçunun başını, burun-qulağını kəsdilər. Müşgünaz əlləriylə, dırnaqlarıyla sinəsini, ürəyinin üstünü didib tökürdü. Ermənilər alçaqcasına Müşgünazın əl-qolundan yapışıb onu darvazadan çölə çəkmək istərkən Akifin baltası onlardan ancaq birinin peysərini iki yerə böldü: "Namusu üstə həyatından keçən kişinin qadınına toxunmazlar!" deyən Akifin son hayqırtısı Kazımı yerindən oynatdı. İkinci mərtəbənin dəlmə-deşik olmuş qapılarını ayağının ucu ilə itələyib taybatay açdı. Açıq qapını gülləbaran etsələr də təhlükəsiz küncə çəkilmiş Kazım həyətə əyiləndə Fazilə müəlliməni də əldə gördü. Əlləri-qolları doğranmış meyit üstə ayaq qoyub Akifə loğoz edən, Fazilə müəlliməni boğazlamış dığanın "Kişini sındırmaq üçün qadınını girov da götürərlər, ələ də salarlar, türk köpəyi!" – deməsini də eşitdi. Kazım fürsəti fotə vermədi. Bir anda dişlərini ağardan dığanın ağız boşluğunu güllənin qabağına verdi və ucadan qışqırdı: "Ərən həyatdan köçübsə qadınını əsir götürməzlər, alçaq düşmən!" Bir göz qırpımında yerini dəyişdi. Hava işıqlaşırdı, vaxt daralırdı. Hər an kəndə girənlər özlərini köməyə çatdıra bilərdilər. Arkadi terrorçuları tələsidirdi. Bir anın içində həyətə doluşanlar arxadan öz işlərini gördülər. Elçini, Şükürü susdurdular. Fazilənin gözləri qabağında Aki-

fin başını bədənindən ayırdılar. Daşnaklar bütün diqqətlərini Kazımın təslim edilməsi üstə yönəltdilər. Arkadi təslim olmazsa, evə od vurub yandırın tapşırığını verdi. Qollarını kürəyində burmaladıqları Fazilə müəlliməni də irəli verdilər. Fazilə müəllimənin yalvarışlarını, ürək dağlayan harayını Kazım eşitmədi. Eşitdiyi ancaq Arkadinin təslim olmaq müqabilində sağ qalacağına dair verdiyi vədi oldu. Kazımsa: "Mən türk oğluyam, dığaya təslim olmaram!" – dedi. Fazilə müəllimənin qollarından yapışan erməni dığası türkün həssas damarından yapışmaq istədi. Kazıma üz tutdu: "Ara tork, indi sənin bu xanımını ələ salaram, zorlaram onda təslim olarsan" – deməsiylə yerindəcə peysərinə sancılan gülلədən arxası üstə düşməyi bir oldu. Kazımın açdığı atəşin ardınca "Dığa əlində girov qalmaqdan ölüm yaxşıdı" – bağırtısı qolları tutqudan çıxmış Fazilə müəllimənin ürəyini dağa döndərdi. Amma kədərindən ağladı. Kazım təslim olan deyildi. Arkadi dörd tərəfdən binaya od vurdurdu. Daşnaklar Kazımı bu sayaq qorxuzub ələ keçirmək istəyirdilər. Kazımsa qorxunun nə olduğunu bilən deyildi. Təndir tonqalı kimi alışıb yanan evin içində qığılcım zərrəsi kimi oynayır, dörd tərəfə sıçrayırdı. Havadan-havaya atılır, alov dilimləri arasından gözü alan erməni güllə qabağına verirdi. Avtomatın sandıqcası boşalanda son patronu lülə ağzına ötürdü, tətiyi ayağa çəkdi. Son patronu özünün qismət payı kimi saxlayırdı. Ev çartıltıyla yanırdı. Üst mərtəbənin taxta döşəməsini dəlib keçən alov dilimləri tavana boy tutmaqdaydı. Kazım hiss edirdi ki, ömürü sona yetməkdədir. Alovun parıltısı gözlərini qamaşdırırdı. Kirpikləri qarsırdı. Qaşları ütülürdü. İstidən vücudu tük salırdı. Kazım pörtəklənirdi. Fazilə müəllimənin həyətdə ürək dağlayan naləsini belə eşitmək iqtidarında deyildi. Tırtıl səsi eşidən ermənilər isə bir tərəflərini qaçaraqda qoymuşdular. Döşəmə tavana, tavan döşəməyə qovuşanda Kazım göz tikib gah alova, gah da patrona baxdı. Qeybindən olan kimi Kazım mövlana səslə qıyya çəkdi: «Mən canımdan keçərəm, əsir düşmərəm. Cansız cəsədimin belə düşmən əlinə keşməsinə imkan vermərəm»-hayqırdı. Girəvələyib son patronunu da alovlar arasından qaraltısı gözünə dəyən, gözləri qan çanağına dönmüş ağköynək daşnağın peysərinə sıxdı: «Allahu-Əkbər»! – deyib özünü qıpqırmızı alov dilimlərinin ağuşuna atdı.



Arkadinin xeyli canlı qüvvə itirmiş terror qrupu köməyə gələnlərə nə müqavimət göstərə bildilər, nə də terrorçuların ayaq altda qalmış meyitlərini özləri ilə aparamağa imkan tapa bildilər. Ancaq öz alçaq niyyətlərindən də əl çəkmədilər. Girov götürdükləri iki qadını-Fazilə müəllimə ilə Müşgünazı da özləri ilə apardılar.

Ocaq sönəndə Kazımın cəsədi yerində məcməiyə sığan bir ovuc külü qaldı. Silahdaşları hələ közü soyumamış külə əl vuranda heyrətdən donub qaldılar. Gözləri önündə ovucları arasından sıyrılıb göyə millənən mavi alov dilimini bir göz qırpımında açılıb-yığılan, ənginliyə sancılan, al Günəşə doğru qanad çalan gördülər. O, Simurqa dönmüş alov nuru nakam Kazımın ruhuydu. Tanrı dərgahına qalxırdı.

## VƏTƏNİ SEVƏNLƏR ÖLMÜR

**Abdullayev Şükür Həsən oğlu** 1970-ci ildə Qərbi Azərbaycanda doğulub. Orta təhsil alıb. Hərbi xidmətini Rusiyada keçirib. Min bir tellə bağlandığı ana torpağa qayıdıb. Dinc həyat şəraitində ömür sürsün, halal yaşasın, əlinin zəhməti ilə dolansın, deyə. Əfsuslar olsun ki, azğınlaşmış daşnak terror qruplaşmalarının törətdikləri təxribatlar arzusunu gözündə qoydu. 1988-ci ilin noyabr hadisələri zamanı Şükürgilin ailəsi də erməni-daşnak faşistlərinin qana batmış caynağından güc-bəla ilə can qurtara bildi. Onlar da daşnak faşizminin etnik təmizləmə siyasətinin qurbanlarına çevrildilər. Əzizlərinin uyuduqları, can-



Abdullayev Şükür

larından çox sevdikləri tutiya yurdlarından, təbərrük torpaqlarından ayrı düşdülər. Azərbaycana pənah gətirdilər. Cəbrayıl camaatı onları öz doğma adamları, əzizləri kimi qəbul etdi. Xocavənd rayonunun Hərəkül kəndində məskunlaşdılar. Şükür dinclik tapa bilmirdi. Buz kimi diş göynədən bulaqları, başı göylərə ucalan dağları, güllü-çiçəkli, alp çəmənli həyat bağlarını-Vətənini Qərbi Azərbaycanı unuda bilmirdi. O yerlər yadına düşdükcə ürəyi sızıldayırdı. Onları dədə-babalarının min illər boyu uyuduqları torpaqlardan didərgin salanlara günbəgün nifrəti aşıb-daşırdı. Təzə yurdda da bu ailənin rahatlığı uzun çəkmədi. Yuxarı Qarabağda yuva qyrmuş daşnakların terror qrupları burada da təxribatlar törətməyə başladılar. Ailələrinin məskun olduğu Hərəkül kəndinə də tez-tez həmlələr edirdilər. İriçaplı silahlardan sərhəd kəndlərimizi atəşə tuturdular. Qaçqın soydaşlarımızın həyatlarını yenidən təhlükə altına aldılar. Qəlbi sonsuz nifrət, intiqam hissiylə döyünən Şükür də Cəbrayıl rayon Polis Şöbəsinə gəldi. O, da erməni hücumlarının qarşısını almaq üçün yaradılan post patrul xidməti rotasına daxil olmaq istəyini bildirdi. Onun bu istəyi nəzərə alınaraq polis kiçik serjantı kimi Cəbrayıl RPŞ-nin nəzdnində təşkil edilmiş Zamzur bölməsində polis nəfəri vəzifəsinə təyin edildi. Həmin gündən başlayaraq Ş.Abdullayev strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Zamzur kəndinin erməni quldurlarından qorunmasında, yaşayış məntəqələrinə terrorçu basqınlarının qarşısını almaqda fəal iştirak etdi. Son tapşırıqları isə Hadrut yaxınlığında yerləşən Zamzur kəndini erməni quldurlarının həmlələrindən qorumaq oldu. Terrorçular bu yaşayış məntəqəsinə tez-tez basqınlar edir, əvvəlki mövqelərinin bərpa olunmasına çalışırdılar. Bölmənin əməkdaşları ermənilərin məqsədlərini yaxşı başa düşürdülər. Ona görə də düşmən həmləsinin qarşısını almaq üçün kəndin bütün giriş-çıxış nöqtələrini nəzarətdə saxlayırdılar. Nəhayət, fürsəti fövtə verməyən düşmən 15 noyabr 1991-ci il tarixdə polislərin gözləmədikləri bir neçə istiqamətdən böyük qüvvə ilə qəfil kəndə hücuma keçdilər. Kəndi mühasirəyə aldılar. Vəziyyətin ağır olduğunu hiss edən Şükür və onun silahdaşları sözü bir yerə qoydular. Bir addım da olsun geri çəkilməyəcəklərinə, son damla qanları tökülənədək vuruşacaqlarına, təslim olmayacaqlarına and içdilər. Düşmənə canlı qüvvə sarıdan xeyli tələfat verdilər. Andlarına sadiq qaldılar. Qanlı döyüş xeyli çəkdi. Qüvvələr bərabər deyildi. Bizimkilər özlərini köməyə çatdıranda artıq iş-işdən keşmişdi. Şükür Həsən oğlu Abdullayev və onun iki silahdaşı təslim olmayıb son damla qanlarınadək vuruşub həlak olmuşdular. 21 yaşlı gənc döyüşçü Abdullayev Şükür Həsən oğlu neçə-neçə daşnak cəsədini yerə sərsə də, qisas alsa da son istəyinə çatmadı. Vətən sevgisi ürəyində, torpaq həsrəti qəlbində haqq dünyasına köç etdi. Şəhidlik zirvəsinə yüksəldi. Cismən cəsədi yanıb bir ovuc kül olsa da, ruhən əbədi yaşar qəhrəman oldu. Vətənini sevənlər ölməz – deyiblər.

## ÖZÜ KÜLƏ DÖNDÜ, RUHU GÜLƏ

**Aslanov Elçin Gəray oğlu** 1967-ci ildə Xocavənd rayonunun Haxullu kəndində anadan olub. Kənd məktəbini bitirdikdən sonra. SSRİ Silahlı Qüvvələrinin sıralarında olub. Artıq o, ordudan tərxis olunub geri dönəndə ətraf kəndlərdəki ermənilərin Haxullulara qarşı əvvəlki münasibətlərindən əsər-əlamət yox idi. Arada həddindən artıq soyuqluq hiss olunduğunu gördü. Elə bil heç illərlə Haxullular qapısında sülənən bu harsın dığaları deyilmişlər. Bizimsə unutqanlığımızdan heç olmazmış. Axı biz heç



Aslanov Elçin

zaman unutmamalıydıq ki, nankor qonşularımızın ayaqları Qarabağa dəyəndən bu günə kimi arapozmaq, dava-qırğın salmaq,məgər aramızda azmı olub?! Həmişə fürsət düşən kimi zəhərli xəncərlərini arxadan kürəyimizə sancmaları azmı olub? İndi də digər bölgələrimizdə olduğu kimi Haxullunun ətrafındakı erməni kəndlərində yuva qurmuş fitnə-fəsad ustaları dinc durmur, altdan-altdan işləyirdilər. Məkr, hiylə toru hörürdülər. Fürsətçilər öz murdar niyyətlərini həyata keçirmək üçün girəvə gözləyirdilər. Biz isə ermənilərin öz dillərindən çıxan zərbi məsəli – " Harda hay var, orda vay var"-demələrini tezcənə unutmuşduq. Elçin hərdən keçmiş rayon mərkəzi olan Hadruta yolu düşəndə bu soyuqluğu daha yaxından hiss edirdi. İstər dövlət idarələrində, istərsə də küçədə hamı ona qanlı-qanlı baxır, bəzən də hədə-qorxu gəlirdilər. Eşitdiklıəri, şahidi olduqları hadisələr ona yuxu kimi görünsə də məsələnin ciddiliyini dərk edir, öz--özünə fikirləşirdi ki, deyəsən bu xına o xınadan deyil. Bu xəmir çox su aparacaq. Həm də öz-özünə deyinirdi ki, bizim itin axmaqlığıdır ki, dovşan tövləmizdə balalayır. Bu işlərin axırı yaxşı olmayacaq. Allahdan xeyirlisi, görək nolur...

Elçin zəndində yanılmamışdı. Daşnak yuvası olan Hadrutda əvvəllər cavanlar seyrək gözə dəyirdi. İndi bura İrəvandan, Krosnadardan, Stavropoldan və bir çox xarici ölkələrdən gəlmə çoxlu saqqallı daşnak terrorçuları toplanmışdı. Hadrut hamının gözünün qabağında qan çanağına çevrilirdi. Artıq havadarlarına arxa çevirən quldur dəstələri Azərbaycanlıların kəndlərinə basqınlar edir, şuluqluq salırdılar. Erməni quldurlarının bu həmlələrini dəf



etmək, zərərsizləşdirmək üçün ancaq polisdən bir qüvvə kimi istifadə etmək zərurəti vardı. Ona görə də təpərli soydaşlarımız kimi Elçin də torpaqlarımızın müdafiə olunmasında iştirak etmək üçün polis orqanlarına daxil olmaq istəyini ortaya qoydu. Cəbrayıl rayon Polis Şöbəsinə müraciət etdi. Aslanov Elçin Gəray oğlu 1991-ci ilin yazında Cəbrayıl RPŞ-nin nəzdnində təşkil edilən Zamzur polis bölməsində polis kiçik serjantı kimi xidməti işə qəbul edildi. O, 1991-ci ilin yazından elə Xocavənd rayonunun (köhnə Hadrut) Zamzur kəndində təşkil olunmuş polis postunda keşik çəkməyə başladı. Burada məskunlaşmış didərginlərin mühafizəsi və asayişlərinin qorunması sahəsində əlindən gələni əsirgəmədi. Kəndə əsasən Qərbi Azərbaycandan zorla qovulmuş soydaşlarımız yerləşdirilmişdilər. Daşnak quldurları bununla heç cürə barışmaq istəmirdilər. Gecələr kənd ətrafındakı yollarda mina basdırırdılar. Kəndə silahlı basqınlar təşkil edirdilər. Camaatı qorxu, vahimə altında saxlayırdılar. Hər an təhlükə gözlənilirdi. Belə bir gündə, 15 noyabr 1991-ci ildə düşmən tərəfindən törədilən fitnəkarlığın qarşısını almaq mümkün olmadı. Qeyri-bərabər döyüş başladı. 150-200 nəfərdən ibarət terror qrupu üç nəfər polis əməkdaşının müdafiə etdiyi kəndi dörd bir tərəfdən güllləbaran etdilər. Elçingil möhkəm dayanmışdılar. Erməni faşistlərini yaxına buraxmırdılar. Cəsur polis əməkdaşları Kazım Məmmədov (post rəhbəri), Şükür Abdullayev və Elçin Aslanov içdikləri son anda sadiq qaldılar. Özlərinə səngər seçdikləri binanın od tutub yanmasına baxmayaraq binanı tərk etmədilər. Alov dilimlərinin arasından belə atəş aça-aça son nəfəslərinədək döyüşdülər. Düşmənə sarsıdıcı zərbə vurdular. Ağır itkiyə məruz qoydular. Güllələri tükənəndə belə düşmənə təslim olmadılar. Elçinin də cismi silahdaşları kimi yanıb kül oldu. Amma külü qalan ocaqda ruhunun qönçələri çiçək açan gül oldu. Şərəfli bir ölümlə həyata vida dedi. Elçin Gəray oğlu Aslanovun nəşini doğma kən-

dində - Haxullu kəndinin qəbiristanlığında torpağa tapşırdılar. Cismi yanıb kül olsa da gül ruhu Tanrı dərgahına pərvaz etdi.

## ŞƏHİDƏ ÖLDÜ DEMƏYİN



Zalov Zakir

**Zalov Zakir Hidayət oğlu** 15 noyabr 1962-ci ildə Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndində anadan olub. Onun da keçdiyi ömür yolu başqa şəhidlərimizin ömür yolundan bir o qədər də fərqlənmir. Orta məktəbi qurtardıqdan sonra ordu sıralarına səfərbər edilib. İki il o vaxtlar sovet ordu hissələrinin yerləşdiyi Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olub. Vətənə qayıtdıqdan sonra təhsilini Sumqayıt şəhərindəki Kimya Texnologiya texnikumunda davam etdirib. Texnikumu bitirdikdən sonrakı həyatını demək olar ki, milli-azadlıq hərəkatında fəaliyyət göstərmək işinə həsr edib. Azadlıq, demokratiya, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə qoşulub. Rus ordusunun Bakıda törətdiyi vəhşiliyi görəndə isə SSRİ adlı imperiyaya olan son ümidi nifrətə çevrilib. Cənnət Qarabağımız uğrunda gedən mübarizəyə laqeyd münasibət bəsləməyib. O da torpaq oğlu kimi kənarda qalmağı mənliyinə, qüruruna sığışdırmayıb. Vətənin harayına səs verib. O da erməni daşnak terrorçularına qarşı mübarizə aparmaq məqsədilə yenicə yaradılan PPX bölüyünə daxil olmaq xahişi ilə Cəbrayıl RPŞ-nin rəhbərliyinə müraciət edib. Arzusu nəzərə alınaraq Zalov Zakir Hidayət oğlu 01 mart 1991-ci ildə polis serjantı rütbəsi ilə Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri kimi xidmətə qəbul olunub. 1991-ci ilin may ayında Xocavənd rayonunun (keçmiş



Hadrut rayonunun) ərazisində pasport rejiminin yoxlanılması və qanunsuz silahların yığılması sahəsində həyata keçirilən tədbirlərdə - 11 yaşayış məntəqəsinin daşnak terrorçularından təmizlənməsində də fəallıq göstərib. Zakir həmişə ölümün üstünə cəsarətlə, kipriyini qırpmadan yeridi. Gülləni gözünə sıxsalar da qorxu nə olduğunu əsla bilmədi. Zakiri yaxından tanıyan silahdaşları onun cəsarətindən iftixarla söz açırlar. Zakir bu günümüz üçün çox lazım idi. Heyif ki, əcəl onu tez yaxaladı. Son döyüş yolu Daşbaşı kəndində yuva salmış erməni daşnak quldurlarının kənddən çıxarılması uğrunda gedən mübarizədən keçdi. 1991-ci ilin dekabr ayının 23-də Daşbaşı kəndinə soxulmuş erməni quldurlarının mühasirəyə alınıb tərksilah edilməsi məqsədilə keçirilən əməliyyatda o da iştirak edirdi. Bu döyüş əməliyyatında Zakir Zalov qəhrəmanlıq nümunəsi göstərdi. Bir neçə erməni quldurunu məhv edib, onların son istinad nöqtəsini susdurmaq tapşırığını da öz üzərinə götürdü. Onun qorxmazlığı və cəsarəti atəş nöqtəsini məhv etməkdə həlledici rol oynadı. Həyatını təhlükə altına qoyan Zakir " Allahu-Əkbər!" – deyib təslim olmaq istəməyən terrorçuların güllə yağışları altından cəld və çevik sıçrayışla özünü onların gizləndikləri binanın hasarından içəri atdı. Birinci atəşlə qarşısına çıxan ilk terrorçunu yerə sərdi. Lakin ikinci atəşi açmağa macal tapmadı. 2-ci terrorçunun gizləndiyi yeri müəyyənləşdirmək istərkən özü düşmən gülləsinə tuş gəldi. Zakir qəhrəmancasına həlak oldu. Arxadan gələn silahdaşları pərən-pərən düşmüş terrorçuları yerlərindəcə məhv etdilər. Daşbaşı kəndi yaraqlılardan təmizləndi. Zakirin Tanrı Dərgahına yüksələn ruhu onun qəhrəman adını da asimanlara yüksəltdi. Adı Cəbrayıl camaatının dilinin əzbərinə çevrildi. Gəyən düzündən Lələ düzünə, Ziyarət dağından Diri dağına qədər el-obanın qeyrət simvoluna, and yerinə çevrildi. Oğlunun dəfn mərasimində atası Hidayət müəllim: "Zakirim ölməyib. Şəhidə öldü deməzlər. Onlar Allah dər-

gahında diridilər. Quran kəlamıdı dediklərim. Oğlum da Vətən yolunda şəhid olub. Lazım gəlsə torpağımızın bütövlüyü naminə bu yaşımda mən də canımdan keçməyə hazıram – təki Vətən sağ olsun!" –dedi.

Zakirin nəşi Göyərçin Veysəllinin kənd qəbiristanlığında dəfn edildi. Oxuduğu Göyərçin Veysəlli kənd orta məktəbinə adı verildi. Ölümündən sonra AR Prezidentinin 30 iyun 2006-cı il tarixli Sərəncamı ilə " Vətən uğrunda" medalı ilə təltuf edilib.

## VƏTƏNİ VƏTƏN EDƏN TORPAQDI, TORPAĞI VƏTƏN EDƏN QEYRƏT



Əliyev Vüqar

**Əliyev Vüqar Zülfüqar oğlu** 26 sentyabr 1969-cu ildə Cəbrayıl rayonunun Sarıcallı kəndində anadan olub. Ailədə həmişə qayğı ilə əhatə olunduğundan qəlbi, gözü tox böyüyüb. Orta məktəbi qurtarıb kəndlərindəki texniki peşə məktəbində oxuyub. Traktorçu-maşinist peşəsinə yiyələnib. Rusiyada hərbi xidmətdə olub. Daxili qoşunların sırasında qulluq edib. Qulluq etdiyi dövrdə çox şey öyrənib. Müxtəlif silahlardan istifadə etməyi, çevik tərpənməyi, həmişə döyüşə hazır olmağı əxz edib. Əsgəri xidmətini başa vurub, kəndə qayıdıb. Kəndlərindəki kolxozda işləyə-işləyə ailəyə kömək əlini uzadıb. Hər əziyyətə qatlaşıb. Qeyrəti ilə ad qazanıb. Vətənin qeyrətli övladları kimi o da erməni - daşnak quldurlarına qarşı döyüşmək üçün çağrışa qoşulur. 18 fevral 1991 –ci ildə Cəbrayıl RPŞ-nin təşkil etdiyi PPX rotasında polis nəfəri vəzifəsinə qəbul edilir. Hadrut rayonunun 11 erməni kəndinin daşnak quldurlarından təmizlənməsində bilavasitə iştirak edir. Xüsusilə



Zamzur, Banazur, Ağcakənd, Dolanlar kəndləri istiqamətində gedən döyüşlərdə fərqlənir. Torpaqlarımızın keşiyini çəkir. Şayaq yüksəkliyində və Zamzur, Nüsüs, Dolanlar, Banazur kəndlərindəki postlarda dayanır. Dinc əhalinin əmin-amanlığını qoruyur. Öz nikbinliyi, qorxmazlığı ilə silahdaşları arasında ad-san çıxarır. Bir gün əməliyyat zamanı yoldaşları ona deyirlər ki, Vüqar, əyil, yoxsa səni vurarlar. Bu sözlər Vüqara toxunur. Ona ehtiyatlı ol, deyənlərə üzünü tutub deyir: " Mən öz torpağımda düşmən qarşısında əyilə-əyilə gəzə bilmərəm. Əyilmək mənim təbiətimə yaddır. Qoy düşmən mənim qarşımda əyilsin ki, əvvəl-axır ölümə məhkumdur". Ölümü özünə əsla yovutmurdu, Vüqar. Lakin qəsdinə durmuş, fürsət gəzən düşmənin gülləsi Şayaq uğrunda gedən döyüşlərdə ondan yan keçmədi. 8 may 1992-ci ildə alnına sancılan güllə Vüqarı əbədiyyətə qovuşdurdu. Daha doğrusu, əbədiyyət adlı bir dünyanın şəhidlik zirvəsinə yüksəldi.

Vüqarın adı Cəbrayıllı şəhid polislərinin cərgəsində həmişə sonsuz iftixarla, qeyrət mücəssəməsi kimi çəkilir. Sarıcallı kənd orta məktəbinə adı verilib. Bu ad qeyrət simvolu kimi hər bir Cəbrayıllının ürəyində heykəlləşibdi.

## VƏTƏN SƏNƏ OĞUL DEYƏR, VƏTƏN ÜÇÜN ÖLSƏN ƏGƏR

**Heydərov Əbdürrəhim Muxran oğlu** 1957-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində anadan olub. Həmin kənddəki orta məktəbi bitirib. Əmək fəaliyyətinə sovxozda fəhlə kimi başlayıb. Ordu sıralarına səfərbər olunub. İki il SSRİ Silahlı Qüvvələrində əsgəri xidmət edib. Yenidən doğma torpağa qayıdıb. Cəmiyyətdə öz yerini tapmaq axtarışında olub. 1978-ci ildə komsomol göndərişi ilə Norilski şəhərində tikintidə işləməyə gedib. Öz nizam-intizamı ilə işlədiyi kollektivin rəğbətini qazanıb. Əbdürrəhim rəhbərliyin tövsiyyəsi ilə 1984-cü ildə Norilski



Heydərov Əbürrəhim

şəhər DİI-də milis nəfəri kimi xidməti işə qəbul edilib. Əbdürrəhim işləyə-işləyə təhsilini davam etdirməyi də unutmayıb. O, həmin il Krasnoyarsk şəhərindəki Xüsusi Orta Milis məktəbinə daxil olub. Məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra o Dikson şəhər Daxili İşlər idarəsində sahə müvəkkili vəzifəsinə təyin edilib. Gənc zabit asayişin qorunması və cinayətkarlığa qarşı mübarizə sahəsindəki səmərəli fəaliyyətinə görə dəfələrlə qiymətli hədiyyələrlə mükafatlandırılıb. "DİO-da əla xidmətə görə" medalı ilə təltif edilib. Məlum Qarabağ hadisələri barədə haqsızlıqları, Qara yanvar günü haqqında olmuşları burada eşidib. Erməni-daşnak faşistlərinin özbaşınalığı, südəmər körpələrə, uşaqlara, əlsiz-ayaqsız insanlara divan tutmaları onu qəzəbləndirib. Vətənin dar günündə onun harayına tələsir. Ə.Heydərov doğma Vətənə qayıdır. İş yerini Azərbaycana dəyişir. O, Azərbaycan Respublikası DİN tərəfindən Xocavənd rayonunun (keçmiş Hadrut rayonu) Tuğ polis bölməsinə rəis təyin edilir. Bu minvalla ətraf ərazilərin erməni-daşnak terrorçularından təmizlənməsində Cəbrayıl RPŞ-nin rəhbərliyi altında keçirilən tədbirlərdə yaxından iştirak edir. Sonra isə komandirlik qabiliyyəti, yüksək təşkilatçılıq bacarığı nəzərə alınaraq Cəbrayıl RPŞ-nin nəzdnində fəaliyyət göstərən Dolanlar kəndində yaradılmış polis bölməsinə təyinat alır. Sinəsini Vətən yolunda Sipər edərək düşmənə baş qaldırmağa aman vermir. Kişi qorxaq olmaz deyir. Ölümündən qorxmur. Gənclər üçün örnək olacaq bir həyat yolunun daşıyıcısına çevrilir.

1991-ci ilin avqust ayının 8-də itirilmiş mövqeləri əldən vermək istəməyən erməni yaraqlıları həmin ərazilərdə məskunlaşmış Qərbi Azərbaycandan olan qaçqınların yaşadığı Dolanlar kəndinə güclü hücum təşkil edirlər. Polis kapitanı Ə.M.Heydərovun rəhbərlik etdiyi bölmənin əməkdaşları ermənilərin hücumlarının qarşısını mərdliklə alır. Şəxsən onun özü düşmən mövqeyinin arxasına keçmiş, atəş nöqtələrini susdurmuş, yaraqlıları pərakəndə salaraq qaçqınları itkisiz kənddən çıxarmağa müvəffəq olmuşdur. Həmin döyüşlər zamanı hücumun qarşısı müvəffəqiyyətlə dəf edilir. Lakin yeni postlar təşkil edərkən kəndin çıxacağında ermənilərin basdırdıqları minaya düşürlər. Həmin minanın partlaması nəticəsində iki nəfər mülki şəxs həlak olur, Ə.M.Heydərov isə ağır yaralanır. Ciddi xəsarət almasına baxmayaraq qısa müddətli müalicədən sonra o, yenidən döyüş mövqeyinə qayıdır.

04 dekabr 1991-ci ildə erməni quldurları böyük qüvvə və zirehli texnikanın köməyi ilə Füzuli rayonunun Govşadlı kəndinə güclü hücuma keçmişdi. Bu zaman köməyə gələn Ə.M. Heydərov yüksək təşkilatçılıq qabiliyyəti göstərir yaranmış vəziyyəti düzgün qiymətləndirərək az qüvvə ilə güclü hücumun dəf olunmasına nail olur. Həmin döyüşdə polis kapitanı Ə.M.Hydərov ermənilərin bir ədəd BTR-ni darmadağın edərək onları çaş-baş salır döyüş yoldaşları ilə birlikdə quldurları geri çəkilməyə məcbur edirlər.

23 dekabr 1991-ci ildə polis kapitanı Əbdürrəhim Heydərov keçmiş Hadrut rayonunun Daşbaşı kəndinin erməni silahlı quldurlarından təmizlənməsi uğrundakı döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərmiş, həyatını təhlükə qarşısına qoyaraq düşmənin əlverişli mövqedə yerləşən atəş nöqtəsinin məhv edilməsində fəal iştirak etmişdir. Həmin əməliyyatda o, iriçaplı pulemyotla silahlanmış daşnak quldunu Samvel Ohanesyanı döyüşçü yoldaşları ilə birlikdə tərksilah edərək girov götürmüşdü. Quldunu aidiyyəti üzrə Cəbrayıl RPŞ-nə təhvil vermişdir. Nümunəvi xidmətlərini nəzərə alaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi onu 1992-ci ilin aprel ayında vaxtından əvvəl "Polis

kapitanı" xüsusi rütbəsi və 300 manat pulla mükafatlandırmışdı.

15 may 1992-ci ildə Hadrut rayonunun Dolanlar kəndində xidməti vəzifəsini icra edərkən polis kapitanı Əbdürrəhim Heydərovun idarə etdiyi xidməti avtomaşın erməni quldurlarının basdırdıqları minaya toxunmuş və partlamışdır. Aldığı ağır xəsarətdən 18 may 1992-ci ildə polis kapitanı Ə.M.Heydərov həlak olmuşdu. Yuxarı Seyidəhmədli kənd orta məktəbinə şəhidin adı verilmişdi və məktəbin həyətində tuncdan büstü ucaldılmışdı.

## ASLANOV ŞİKAR DAVUD OĞLU


Aslanov Şikar

TANITMA: **Aslanov Şikar Davud oğlu** 1970-ci ilin iyun ayının 10-da Süleymanlı kəndində anadan olub. 1977-1987-ci illərdə Süleymanlı kənd orta məktəbində ümumi orta təhsil alıb. 1988-1990-cı illərdə hərbi xidmətdə olub. Əsgəri xidmətini başa vurduqdan sonra Süleymanlı kəndindəki Xətai" adına kolxozda əmək fəaliyyətinə başlayıb. 1991-ci il fevral ayının 18-də Xətai" adına kolxozun zəmanəti ilə Cəbrayıl RPŞ-nin PPX rotasında polis nəfəri vəzifəsinə qəbul edilib.

1992-ci ilin iyul ayının 2-də Şayaq yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Polis serjantı Aslanov Şikar Davud oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb. Xatirəsini əbədiləşdirmək üçün Süleymanlı kənd orta məktəbinə adı verilib. Məktəbin həyətində tuncdan büstü qoyulub.



## VƏTƏN SƏNƏ OĞUL DEMƏZ, VƏTƏN ÜÇÜN YAŞAMASAN

Şikarın dilə gətirmədiyi bu sözlər içindən boy atırdı. Vətən üçün yaşamaq eşqi qan yaddaşından qaynaqlanırdı. Ana bətnində qanına hopan urək çırpıntısı ilə bir döyünən, bir vuran hisslərdə, duyğularda, şüurun təfəkkürə diqtəsində özünü büruzə verirdi, bu sözlər. Əməllərində özünü qabardırdı. 1989-cu il noyabr ayının 23-də Şikarı xidmət etdiyi Tula desantçılarının tərkibində Bakıya gətirirlər. O, hərbi hissə komandirinin sevilən, fərqlənən əsgərlərindən biri idi. Bəlkə də birincisi idi. Az müddətdə 53 dəfə paraşütdən tullanmışdı. Atılan zaman yerdəki şərti hədəfə sərrast atəş açmaqla təlimdən-təlimə ustalığını artıraraq püxtələşirdi. Bişmə, kamilləşmə qavrayışında özünə yer edirdi. Əla xidmətlərinə görə valideynlərinə il ərzində iki dəfə hərbi komandanlığın təşəkkür məktubu göndərilmişdi. Hərbi hissə komandiri Bakı aeroportunda Şikardan fəndgirliklə soruşur: "Aslanov, birdən camaata atəş açmaq əmri versəm nə edərsən?". O, fikirləşmədən cavab verir: "Birinci səni güllələrəm". Həmin cavab komandirin yadından çıxmır. 20 yanvar hadisələri başlamazdan öncə yüngül bir bəhanə ilə Şikarı iki günlük həbs cəzasına məhkum edib, qaupvaxda saldırır.

Şikar Vətən üçün yaşayırdı. Bu arzu, bu istək əməlində maddiləşən, müqəddəsləşən bir dilək idi.Vuran ürəyi də Vətən üçün döyünürdü. O da 1991-ci ilin may ayında daşnak terror qrupları özlərinin dayaq məntəqələrinə çevirdikləri erməni kəndlərində meydan sulayanda, həmin kəndlərdə pasport rejiminin yoxlanılması, qanunsuz silahların yığılmasl məqsədilə keçirilən əməliyyatlarda cani-dildən iştirak edirdi. Zamzur, Ağcakənd, Dolanlar, Sur və Şayaq kəndlərinin quldurlardan təmizlənməsində xüsusilə fərqlənir. İpə-sapa yatmayam terrorçuların məhv edilməsində əsl qəhrəmanlıq, şəxsi igidliklər göstərir. Yüksək peşə ha-

zırlığı nümayiş etdirir. Ölüm-dirim savaşlarına ilk atılanlardan olur. Şikar həmişə deyərdi ki, ermənilər tülkü qədər qorxaq və qorxaq olduqları qədər bic və hiyləgərdilər. Biz onların açıq döyüşlərindən yox, hiylə və bicliklərindən ehtiyatlanmalı, özümüzü erməni məkrindən gözləməliyik. Ermənilər isə öz xislətlərindən əl çəkən deyildilər. Şimal ayısının pəncəsinə kürək söykəmişdilər. Yenə də fürsət gözləyirdilər. Məqamı gəldi fürsəti fövtə vermədilər. Şayaq yüksəkliyini rus əsgərlərinin köməyi ilə ələ keçirdilər. Cəbrayılı qrad yağışına tutdular. Cəbrayılın qara günləri başladı. Cəbrayıla faciəli günlər yaşatdılar. Hələ görəcəyimiz günlər qabaqdaydı. Şikar kimi oğullar öz ölümlərinə qıyar, lakin Cəbrayılın faciəli günlər yaşamasına razı ola bilməzdilər. 1992-ci il iyul ayının ilk günlərindən başlayaraq Şayaq istiqamətində qanlı döyüşlər gedirdi. Düşmənin əlverişli mövqelərdə yerləşən atəş nöqtələri döyüşçülərimizin irəliləməsinə heç cür imkan vermirdi. Milli ordunun köməyinə qoşulan polis dəstəsində Şikar da vardı. Düşmənin müqavimətini qırmaq mümükün deyildi. Belə bir məqamda 1-i iyul günü Şikar canından keçməyə hazır bir vəziyyətdə irəli atıldı. Düşmənin atəş nöqtələrindən ilk nişana çəkdiyini məhv etdi. Lakin ikinci həmləsinə imkan vermədilər. Şikar namərd gülləsinə tuş gəldi. Polis serjantı Aslanov Şikar Davud oğlu bu döyüşdə aldığı ağır yaradan iyul ayının 2-də şəhidlik zirvəsinə yüksəldi. O, Vətən üçün yaşadı, ölmədi. Öz ölümü ilə özünə əbədi həyat qazandı.



**Döyüş dostları Şikar haqqında**

**Vaqif Məhərrəmov (Cəbrayıl RPŞ-nin rəisi):** «Şikar Cəbrayıl polisinin ruhu, canı idi. O, çox mərd, ürəkli, Vətən sevər, torpaq təəssübü çəkən, qeyrətli, igid bir türk oğlu idi"».

**Firad Məmmədov (Cəbrayil RPŞ-nin mərhum rəis müavini):** «Şikarın qəlbi yalnız Vətən üçün döyünürdü. Elə buna görə də tərəddüd etmədən onun yolunda şəhid olmağı şərəf bildi özünə».

**Vaqif Hüseynov (Cəbrarүıl RPŞ-nin rəis müavini):** «Şikar çox şən, həyatsevər bir gənc idi. O, yaxşı döyüşdüyü kimi, dostları ilə yaxşı şənlənməyi də bacarırdı».

**Səmənd Əliyev (polis mayoru):** «Şikar bütün döyüşlərə bircə arzu ilə gedirdi. Düşməni əzmək, onu Vətən torpağından qovub çıxarmaq».

**Adil Məmmədov (polis mayoru):** «Şikar çox mədəni, yüksək mənəviyyatlı bir dost, yoldaş idi. Dost qədri bilən, hörmətini gətirən, yolunda ölümə gedən bir igid idi».

**İbrahimxəlil Hğseynov (polis mayoru):** «Mən Şikarla çox döyüşlərdə olmuşam. Onun igidliyinin, mərdliyinin canlı şahidiyəm. Elə cəsarətlə, qorxmadan vuruşurdu ki, dostlalrı da ona baxıb ürəklənirdilər».

**Vəliyəddin Məmmədov (polis mayoru):** «Mən hər dəfə Şikarı xatırlayanda gözlərim önündən onun məğrur görkəmi, qartal baxışları gəlib keçir».

**Vaqif İbrahimov (polis baş serjantı):** «Şikar bütün döyüşlərdə ürəklə vuruşmuş, hamıya nümunə olmuşdu».

## BİR DAMLA QANDAN YARANAN İNSAN
## BİR DAMLA QANIYLA VƏTƏN YAŞADIR

**Quliyev Sahib İslam oğlu** 26 dekabr 1968-ci ildə Cəbrayıl rayonunun Qaracallı kəndində anadan olub. Ümumi orta təhsilini N.Nərimanov adına Balyand kənd



Quliyev Sahib

orta məktəbində alıb. Əmək fəaliyyətinə sovxozda fəhlə kimi başlayıb. İki il SSRİ Silahlı Qüvvələri sırasında hərbi xidmətdə olub. Sonra dinc əməklə məşğul olub. Dincliyin pozan isə məlum Qarabağ hadisələri olub. 1990-cı ilin qara yanvarında qırmızı imperiyanın mənfur sifətini görəndə bu gen dünyada özünə yer tapmayıb. Böyük ermənistan xülyasından əl çəkməyən erməni daşnak faşistlərinin iç üzünü görəndə isə qınından çıxan qılınca dönüb. Eşidəndə ki, Cəbrayıl RPŞ-də dinc əhalini daşnakların təcavüzündən qorumaq üçün PPX rotası yaradılır, o, da lazımi orqanlara müraciət edib. Kolxoz idarə heyətinin tövsiyyəsi ilə onu da 20 mart 1991-ci ildə PPX rotasında polis nəfəri vəzifəsinə qədul ediblər. Bütün rəsmi sənədlərdə adının Sahib olmasına baxmayaraq o həmişə ikinci adıyla çağrılıb, Mirələm kimi tanınıb, adı dillər əzbəri olub. Rotada polis əməkdaşlarının və Cəbrayıldakı N saylı hərbi hissə əsgərlərinin sevimlisi olub. Onu dostlarına sevdirən birinci əlaməti son dərəcə qorxmaz və cəsur olması, ikincisi şən əhval-ruhiyyəli bir gənc olması idi. Pulemyotun arxasına keçəndə düşmənə göz açmağa aman verməzdi. Sərrast atəşləri hədəfdən yayınmazdı. Döyüşlər səngiyəndə isə deyib-gülməyindən qalmazdı. Elə ölümün üstünə də oxuya-oxuya gedərdi. Ən çox xoşladığı da “Duman gəl, get bu dağlardan” olub. Həzin, yanıqlı səsi, xoş avazı sanki elə bil bu mahnı üçün qeybindən yaranıbmış, deyirlər. Həm oxumaqda, həm də oynamaqda toyların yaraşığı olub Mirələm. Qol götürüb oynayanda camaat tamaşasına yığılarmış. Ən çox xoşladığı rəqs havası da «Baş sarıtel»i oynamaq olub. Bu saz havası çalınanda sümüyü oynağa gedər, dilindən olduğu kimi barmaqlarının ucundan



da nəğmə süzülərdi. Dilinə görə dilçəyi olub. Cəbrayıl polisində xüsusi hücum qrupunun ən fəal üzvü olub. Kəşfiyatçı kimi ad çıxarıb.

1991-ci ilin may ayında keçmiş DQMV-nin Hadrut rayonunun 11 yaşayış məntəqəsinin erməni quldur dəstələrindən tamamilə təmizlənməsi məqsədilə keçirilmiş hərbi əməliyyatlarda xüsusilə fərqlənib Zamzur, Ağcakənd, Dolanlar və Şayaq kəndləri uğrundakı döyüşlərdə şəxsi igidlik nümunəsi və qəhrəmanlıq hərəkətləri göstərmiş, açdığı sərrast atəşləriylə onlarla erməni yaraqlısını məhv etmişdir.

O, ana yurdumuzun Laçın, Qubadlı, Füzuli bölgələrində də gedən döyüşlərdə iştirak edib. Köməkçi qrupların tərkibində həmin rayonlara köməyə gedib. Hər dəfə də düşmənin canına vəlvələ salıb. Kəşfiyyat qruplarının tərkibində ən çətin tapşırıqları yerinə yetirib. Etimadı doğuran olub. 15 avqust 1992-ci ildə keçmiş DQMV-nin Hadrut rayonunun ərazisində yerləşən və strateji əhəmiyyəti olan “Şişqaya” yüksəkliyinin alınması uğrunda gedən mücadildə misilsiz şücaət göstərmiş, son damla qanınadək döyüşərək qəhrəmancasına həlak olmuşdur. Cənazəsi Cəbrayıl rayonunun Qaracallı kənd qəbiristanlığında dəfn edilmişdir.

## O, VƏTƏN ÜÇÜN YAŞADI

**Mehdiyev Faiq Nazim oğlu** 20 yanvar 1971-ci ildə Cəbrayıl şəhərində anadan olub. Ümumi orta təhsil alıb. 1988-ci ildə Cəbrayıl rayonunun Cəmil Əhmədov adına şəhər orta məktəbini bitirib. 1989-cu ilin may ayında hərbi xidmətə çağrılıb. Minsk şəhərində tank qoşunları alayında əsgəri qulluqda olub. O vaxtlar Faiqin yatsa da yuxusuna girməzdi ki, sırasında olduğu sovet ordusu görünməmiş amansızlıqla Bakıda 20 yanvar qırğını törədə bilər. Amma törətməyi yuxu deyildi, hər şey göz qabağındaydı. Faiq



Mehdiyev Faiq

belə bir ordu sıralarında xidmət etməyin yolverilməzliyini başa düşür. Elə həmin gün xidmət etdiyi tank alayından baş alıb gedir. Hərbi hissəni tərk edir. Hələ nəfəsi üstündə olan imperiyanın dəmir caynaqlı qanunlarından gizlənə-gizlənə Bakıya gəlib çıxır. Respublika Hərbi komissarlığına müraciət edir. Əsgəri xidmətinin qalan hissəsini Sumqayıt şəhərində davam etdirir. Əsgəri xidmətini başa vurub Bakı Dəmiryol idarəsində fəhlə kimi əmək fəaliyyətinə başlayır. İşə başladığı elə ilk gündə bu gen dünya başına dar gəldi. Doğma Cəbrayılı od tutub yandırdı. Azğınlaşmış erməni--daşnak faşistləri qanlı cinayət törətməklərindən qalmırdılar. Faiq Vətənin qara gününə laqeyd qala bilmədi. O da rayona qayıtdı. Cəbrayıl RPŞ-nin nəzdində fəaliyyət göstərən PPX bölüyünə daxil edilməsi üçün aidiyyəti orqanlara müraciət etdi. Nəhayət o, 07 aprel 1992-ci ildə polis kiçik serjantı rütbəsi alaraq Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri kimi xidməti fəaliyyətə başlayır. O, torpaqlarımızın müdafiəsi uğrunda gedən mübarizəyə qoşulur. Döyüş əməliyyatlarında fəal iştirak edir. Xidmət müddətində erməni yaraqlılarının məhv edilməsi məqsədilə şöbənin həyata keçirdiyi bütün əməliyyatlarda ön sırada durur. Bəli, Faiq Mehdiyev qorxmazlığı və cəsurluğu ilə fərqləndi. Düşmənə qarşı həmişə amansız oldu. Döyüşlərdə soyuqqanlı və çox çevik hərəkətləri ilə hamının diqqətini özünə cəlb etdi. Ürək dostu, döyüş yoldaşları Şikar, Sahib oldu. Onlarla bir gəzib dolanıb. Döyüşə də birgə gediblər. Minskdəki hərbi alayda öyrəndikləri döyüşlərdə karına gəlib. Mina axtarıb tapmağı, onu zərərsizləşdirməyi mükəmməl bildiyindən bu sahədə də öz qabiliyyətini həmişə göstəribdi. Neçə-neçə silahdaşının qisasını yerdə qoymayan



Faiq son döyüşdə 15 avqust 1992-ci ildə "Şişqaya" yüksəkliyi uğrunda gedən döyüşlərdə geri çəkiməyi ağlına əsla gətirmədi. Bu döyüşdə silahdaşı Mirələmlə yanaşı özü də şəhid düşdü. Qısa ömrünü Vətəni üçün yaşadı. Əbədiyyətə qovuşdu. Cənazəsi Cəbrayıl şəhər qəbiristanlığında dəfn olunub.

## İGİD ÖLƏR ADI QALAR, MÜXƏNNƏSİN NƏYİ QALAR



Şirinov Nazim

**Şirinov Nazim Şirin oğlu** 01 yanvar 1962-ci ildə Cəbrayıl rayonunun Doşulu kəndində anadan olub. Ümumorta təhsilini Cəbrayılda alıb. O, 1980-ci ildə Cəbrayıl şəhər orta məktəbini bitirib. Hərbi xidmətdə olub. C.Cabbarlı adına kolxozda fəhlə işləyib. Sonra isə işləmək üçün Rusiyaya gedib. Qarabağ hadisələri başlayanda geri qayıdıb. Azərbaycana dönüb. Təsərrüfatda işini davam etdirib. Könüllü olaraq kəndin müdafiəsinə qoşulub. Sonra isə əmək kollektivinin tövsiyyəsi ilə Şirinov Nazim Şirin oğlu 02 aprel 1991-ci ildə polis serjantı kimi Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri vəzifəsinə qəbul edilib.

1991-ci ilin may ayında keçmiş Hadrut rayonunun 11 yaşayış məntəqəsinin erməni quldurlarından təmizlənməsi məqsədilə keçirilmiş hərbi əməliyyatlarda fəal iştirak etmiş, döyüşlərdə düşmənə qarşı amansız olmuşdur.

23 oktyabr 1993-cü ildə Cəbrayıl rayonunun Arazboyu yaşayış məntəqələri erməni silahlı birləşmələri tərəfindən işğal olunan zaman döyüşlərdə iştirak etmiş, qeyri-aşkar şəraitdə itkin düşmüşdü.

## VƏTƏNİ CANINDAN ƏZİZ TUTANLAR ŞƏHİD OLAR



Cabbarov Cabbar

**Cabbarov Cabbar Səməd oğlu** 26 avqust 1969-cu ildə Cəbrayıl rayonunun Nüzgar kəndində anadan olub. 1986-cı ildə Nüzgar kənd orta məktəbini bitirib. Moskva şəhərində hərbi xidmətdə olub. Əmək fəaliyyətinə kəndlərindəki kolxozun mülki müdafiə işlərinə rəhbərlikdən başlayıb. Vətənin dar günündə bir çoxları kimi yurd yerindən yayınmaq barədə əsla düşünməyib. Əksinə, bilavasitə döyüşlərdə iştirak etmək üçün Cəbrayıl RPŞ-nin qapısını döyür. İşlədiyi kollektivin tövsiyyəsi ilə 19 dekabr 1992-ci ildə polis serjantı rütbəsi verilməklə Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri vəzifəsinə qəbul olunur.

1993-cü ilin dekabr ayına kimi ən qaynar nöqtələrdə yerləşən polis postlarında mütəmadi olaraq keşik çəkmiş, erməni quldurları ilə döyüşlərdə dəfələrlə şəxsi igidlik nümunələri göstərmişdi. Balyand kəndinin işğalı zamanı iki polis yoldaşı ilə mühasirəyə düşəndə dəyanət və dözümlülükləri ilə yadda qalan hərəkət etmişlər. O vaxtlar hamı əlini onlardan üzmüşdü. 3 gündən sonra onların üst-başları sökülmüş, özləri də taqətdən düşmüş halda şöbəyə gəlib çıxanda çoxları gözlərinə inanmamışdı. Həm də hərəsi avtomat silahlarında bir patronla gəlmişdilər. Qət etmişdilər ki, düşmən əlinə əsir düşməmək üçün son anda özlərini həlak etsinlər. Üç günlük mühasirəni yarıb aradan çıxan Cabbarın sonrakı taleyi yenə də sonucunu ölümdə tapdı.

1993-cü il dekabr ayının 25-də işğal olunmuş Böyük Bəhmənli kəndinin üst tərəfindəki yüksəkliyin erməni quldurlarından təmizlənməsi məqsədilə keçirilən döyüş əməliyyatlarında polis serjantı C.S.Cabbarov əsil qəhrəmanlıq göstərdi. Polis postuna altı tank və 150-yə qədər canlı qüvvə ilə hücuma keçmiş ermənilər artıq polislərlə üz-üzə dayanmışdılar. Polis postunun mühasirəyə düşmək təhlükəsi yaranmışdı. Bu zaman polis serjantı C.S.Cabbarov öz döyüş yoldaşları ilə geri çəkilmədilər. Fədakarlıq göstərdilər, düşmənin xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edərək onları geri çəkilməyə məcbur etdilər. Lakin bu Cabbarın son döyüşü oldu. Düşmən tankının sərrast atəşi Cabbarın gözlərini əbədi yumdu. Bu döyüş Cabbarın Vətəni canından əziz tutmasının son göstəricisi olsa da ona əbədiyyət qazandırdı. Ona əbədi yaşar bir şəhid ömrü bəxş etdi. Ölümüylə özünə ölümsüzlük gətirdi.

Müqəddəs məzarı Bakı şəhərinin Dağüstü parkındakı Şəhidlər Xiyabanında yerləşir. O, ölümündən sonra AR Prezidentinin 30 iyun 2006-cı il tarixli sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.



## İGİD ODUR ATDAN DÜŞƏ ATLANA, İGİD ODUR HƏR ƏZABA QATLANA

**Məhərrəmov Rahib Böyükkişi oğlu** 26 iyul 1970-ildə Cəbrayıl rayonunun Horovlu kəndində anadan olub. Natamam orta təhsilini Horovlu kənd orta məktəbində alıb. Təhsilini peşəyönümlü təhsil müəssisəsində davam etdirib. 1988-ci ildə ümumi orta təhsil verən 147 saylı Abşeron texniki peşə məktəbini bitirib. Hərbi xidmətdə olub. Lakin Vətən harayından kənarda qalmaq istəyini əsla ağlına gətirməyib. Vətənə övladlıq borcunu verməyi hər şeydən üstün tutub. Doğma Cəbrayıla qayıdıb. O da öz arzusu ilə döyüş yolu seçib.

Məhərrəmov Rahib Böyükkişi oğlu 18 fevral 1991-ci ildə polis baş serjantı rütbəsində Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri vəzifəsinə təyin edilir. Silahdaşları


Məhərrəmov Rahib

arasında gücü, cəsarəti, ədaləti ilə seçildi. Sərrast atəş açmaq məharəti ilə fərqləndi. Banazur, Daşbaşı, Hərəkül, Sur əməliyyatlarında adsan çıxardı. Ən çətin döyüşlərdə belə öndə getdi. Ümumiyyətlə, 1991-ci ilin may ayında keçmiş Hadrut rayonunun ərazisində pasport rejiminin yoxlanılması və qanunsuz silahların yığılması sahəsində həyata keçirilən tədbirlərdə, eləcə də həmin rayonun 11 yaşayış məntəqəsinin erməni quldurlarından təmizlənməsində səylərini əsla əsirgəmədi. Polis baş serjantı R.B.Məhərrəmov əsil qorxmazlıq, qəhrəmanlıq hərəkətləri nümayiş etdirdi. Sonu fikirləşmədi, döyüş yoldaşlarına nümunə oldu. Rayonumuzun sərhəd kəndlərində ən təhlükəli qaynar nöqtələrdə yerləşən polis postlarında mütəmadi olaraq keşik çəkdi. Döyüşlərdə dəfələrlə şəxsi igidlik nümunələri göstərdi. Cəbrayıl polisinin əməkdaşı kimi o da AR DİN-in Daxili Qoşunlarının tərkibində Füzuli bölgəsində döyüş zonasında torpaqlarımızın müdafiə olunması və işğal olunmuş ərazilərimizin erməni quldurlarından təmizlənməsi uğrunda gedən döyüşlərdə mərdliklə mübarizə apardı. Döyüşlərin önündə getdi. Hər əzaba qatlanan oldu.

1993-cü ilin dekabr ayının 25-i günü son döyüşünü keçirdi. Həmin gün erməni silahlı birləşmələri böyük qüvvə ilə Böyük Bəhmənli kəndin Şimal-Şərqində yerləşən mövqelərimizə hücuma keçdilər. Ön mövqedə olan polis postunun mühasirəyə düşmək təhlükəsi yaranmışdı. Bu zaman polis baş serjantı Rahib Məhərrəmov əsil qəhrəmanlıq göstərdi. Düşmən tanklarının lap yaxınlıqda olmasına baxmayaraq o, geri çəkilmədi, əksinə irəli atılaraq bir neçə erməni quldurunu məhv etdi. Lakin tank mərmisinin yaxınlıqda partlaması nəticəsində Rahib həlak oldu. Cə-



nazəsi Beyləqan rayonundakı 3-saylı sovxozun qəbiristanlığında dəfn olunub. Qəbir üstü abidəsi götürülüb.

## VƏTƏNƏ QALADI ŞƏHİD QƏBRİ


İmanov Həbib

**İmanov Həbib Yusif oğlu** 03 dekabr 1968-ci ildə Cəbrayıl rayonunun Mehdili kəndində anadan olub. Mehdili kənd orta məktəbini bitirib. Hərbi xidmətə səfərbər edilib. 1986-1988-ci illərdə SSRİ Silahlı Qüvvələrinin sırasında olub. Artıq ordudan tərxis olunub geri qayıdanda Qarabağı qan içində görüb. Hadisələrin burulğanlı dövrünə qədəm qoyduğunun şahidi oldu. Ürəyi təpərli, qeyrətli bir oğul kimi Vətən torpaqlarının harayına o da səs verdi. Əlinə silah alaraq azğın düşmənlə döyüşmək arzusunu gerçəkləşdirdi. Sərhədlərimizi qorumaq üçün təşkil edilən PPX bölüyünün tərkibinə daxil olmaq arzusunu Cəbrayıl RPŞ-nin rəhbərliyinə bildirdi. Onun istəyini nəzərə aldılar.

İmanov Həbib Yusif oğlu 01 mart 1991-ci ildə polis baş serjantı rütbəsində Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri vəzifəsinə təyin edildi. Sərhəd kəndlərimizin düşməndən qorunması naminə özünü oda-közə vurdu. Xüsusilə 1991-ci ilin may ayında keçmiş DQMV-nin Hadrut rayonu ərazisində pasport rejiminin yoxlanılması məqsədilə həyata keçirilən tədbirlərdə, eləcə də həmin rayonun 11 yaşayış məntəqəsində gizlənmiş erməni quldurlarının tərksilah edilməsində polis baş serjantı Həbib İmanov fəal iştirak etdi. Rayonumuzun sərhəd kəndlərində yerləşən polis postlarında keşik çəkdi. Erməni quldurları ilə döyüşlərdə dəfələrlə igidlik nümunələri göstərdi.

Cəbrayılın igid oğulları ilə birgə Sur, Şişqaya, Şayaq, Daşbaşı, əməliyyatlarında mətanətlə vuruşdu. Qeyrəti, cəsur hərəkətləri ilə seçildi. Döyüşdən – döyüşə mətinləşdi, qorxmazlığı ilə ad-san çıxardı.

1993-cü ilin noyabr ayının ilk günlərindən isə Azərbaycan Respublikası DİN-nin Daxili Qoşunlarının tərkibində Füzuli bölgəsində torpaqlarımızın qorunması və Horadiz yaşayış məntəqəsinin işğaldan azad edilməsində mərdliklə döyüşdü.

1994-cü il mart ayının 23-ü idi. Həmin günlər erməni silahlı birləşmələri yenicə azad olunmuş Horadiz yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimizə arasıkəsilmədən güclü hücumlar edirdilər. Kənd Horadiz yüksəkliyində yerləşən polis postu düşmənlə ən yaxın məsafədə qurulmuşdu. Qızğın döyüşlər gedirdi. Düşmən tankları səngərlərdən baş qaldırmağa imkan vermirdi. Həmin döyüşdə polis baş serjantı Həbib İmanov bir-neçə erməni quldurunu məhv edərək, düşməni geri çəkilməyə məcbur etdi. Lakin tank mərmisinin yaxınlıqda partlaması nəticəsində H.Y.İmanov əbədi olaraq həyatla vidalaşdı. Cənazəsi İmişli rayonunun Göbəktala kənd qəbiristanlığında dəfn edildi. Bu gün onun qəbirdaşı seyid daşına dönüb Vətənin sipər daşı kimi dikəlir.

## ŞAHİD ÖMRÜDÜ ŞƏHİD ÖMRÜ

**İsmayılov Taleh İldırım oğlu** 02 fevral 1967-ci ildə Cəbrayıl şəhərində anadan olub. Ümumi orta təhsil alıb. 1984-cü ildə Cəbrayıl şəhər orta internat məktəbini bitirib. Polşada əsgəri xidmətdə olub. Komandirləri dəfələrlə Talehə görə valideyinlərinə təşəkkür məktubları göndərib. Əsgərlikdən qayıdanda Polşa torpağında uyuyan Sovet İttifaqı Qəhrəmanı, həmyerlisi Cəmil Əhmədovun məzarını da ziyarət etməyi unutmayıb. Onun məzarı üstündən bir ovuc torpaq da özüylə gətirib. Vətən torpağına qatıb.




İsmayılov Taleh

Vətənə, torpağa, övlad məhəbbətini, sevgisini bu sayaq bildirib. Əsgəri xidmətini başa vurduqdan sonra təhsilini davam etdirmək üçün Donetski şəhərindəki Sənaye-texnologiya texnikumuna daxil olub. Təhsilini başa vuraraq 1992-ci ildə Cəbrayıla qayıdıb. Atasının da qurucularından biri olduğu və Cəbrayılın müdafiəsi məqsədilə təşkil olunan "Ziyalılar" batalyonuna daxil olub. Könüllü olaraq torpaqlarımızın müdafiəsi uğrunda gedən mübarizədə iştirak edib. O gündən ata-bala döyüş postlarına birlikdə gedib-gəldilər. Cəbrayılın ağrı-acısını birgə yaşadılar, birgə çəkdilər. Vətəndən didərgin düşdülər. Qaçqınçılıq həyatı sürdülər. Lakin Talehin döyüşmək, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəni davam etdirmək arzusu, istəyi onu rahat buraxmadı. Hələ də döyüş bölgəsində , ön xəttə vətənimizin keşiyini çəkən, hər an döyüşə hazır olan, hücum haqda Ali Baş Komandanın əmrini gözləyən Cəbrayıl polisinin tərkibində olmaq istəyini atasına bildirdi. Dar ayaqda nə yurd sevgisini, nə də dözümünü itirməyən İldırım kişi yurd ağrıları ilə yaşadığı bu gündə oğluna xeyir-dua verdi.

İsmayılov Taleh İldırım oğlu 08 avqust 1994-cü ildə polis serjantı rütbəsi ilə Cəbrayıl DİŞ-nin PPX bölüyündə polis nəfəri vəzifəsinə təyin edildi. Elə həmin gündən də xidməti işinə başladı. Daxili Qoşunların tərkibində fəaliyyət göstərən rotanın polis nəfəri kimi ön xətdə döyüş postlarında torpaqlarımızın keşiyini çəkdi. Atəşkəs olsa da erməni-daşnak faşistləri öz hiylə, məkr dolu niyyətlərdən əl çəkmədilər. Mütəmadi olaraq atəşkəsi pozdular. Ömrü boyu xəyanət girdabında baş girləyən nankor qon-

şularımız atəşkəsin hökm sürdüyü bir vaxtda Talehin də valideynlərini gözü yaşlı qoydular.

02 mart 1995-ci ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yerləşən döyüş postunda xidməti vəzifəsini yerinə yetirən zaman Tale erməni snayperinin açdığı atəş nəticəsində başından ağır güllə yarası aldı və həmən ordaca həlak oldu. Cənazəsi Sabirabad rayonuna gətrildi. Şəhidlər xiyabanında dəfn olundu. Qəbir üstü abidəsi götürülüb. Şəhid nişangahından boylanan ruhu qəbir önündən keçən şahidləri Vətənin bütövlüyü, torpaqlarımızın toxunulmazlığı uğrunda mübarizəyə çağırır.



Şəhid valideynləri ilə görüş






# IV BÖLMƏ

# ONLAR CƏBRAYIL POLİSİNİN FƏDƏKAR ƏMƏKDAŞLARI OLMUŞLAR



KİV nümayəndələri ilə görüş



## "PİSLƏRƏ O QƏDƏR YAXŞILIQ ETMƏK LAZIMDIR Kİ, ÖZLƏRİ UTANSINLAR"

*S. Süleymanov*



Süleymanov Süleyman

**Süleymanov Süleyman Oruc oğluna** məxsus bu ibrətamiz kəlam gəlişi gözəl sözlər deyil, dünyaduyumunun ona diqtə etdiyi, təbiətindən doğan, əməlində öz inikasını tapan sözlərdi. Özünü özündə görən, mülayim təbiətli, məlhəm xasiyyətli, həm də xidməti polis işində ciddi bir insan kimi tanıdığımız Süleyman Oruc oğlu Süleymanov həyatının mənasını adamlara əl tutmaqda, köməkdarlıq etməkdə, dayaq durmaqda görürdü. O, 1927-ci il may ayının 9-da ılıq yaz günündə Cəbrayıl rayonunun Quycaq kəndində işıqlı dünyaya göz açıb. Quycaq kənd yeddiillik məktəbini bitirib arxa cəbhədə, təsərrüfatda çalışıb. 1943-cü ilin avqust ayında SSRİ Silahlı Qüvvələrinin tərkibində əsgəri xidmətdə olub. 1943-1950-ci illərdə Lənkəran rayonu və Naxçıvan MSSR ərazilərindəki Sərhəd Qoşunlarında əsgəri xidmət keçib. 1950-ci ilin may ayında ordudan tərxis olunub və elə həmin ildə DTK-nın rayon şöbəsində katib işləyib. Sonra isə Cəbrayıl rayon milis şöbəsində Pasport-masa bölməsində pasport yazan vəzifəsinə keçib. Təhsilini davam etdirməyi də unutmayıb. Sənədlərini Bakı Xüsusi Orta Milis məktəbinin qiyabi şöbəsinə verib və qəbul olunub. Milis məktəbini bitirdikdən sonra milis leytenantı rütbəsində Cəbrayıl rayon milis şöbəsində pasport-masa rəisi vəzifəsinə təyin edilib. 1964--cü ilədək həmin vəzifədə işləyib. Sonra isə Cəbrayıl rayon Dİ şöbəsində baş əməliyyat müvəkkili vəzifəsinə irəli

çəkilib. 1975-ci ilədək həmin vəzifədə işləyib. İşlədiyi bu illər ərzində baş verən cinayət xarakterli əməllərin kimlər tərəfindən törədilməsi, cinayətkarların aşkar edilib məsuliyyətə cəlb olunması sahəsində işi həmişə qənaətbəxş olmuşdur. Bütün bunlar vaxtaşırı Respublika DİN-nə göndərilən hesabatlarda da öz əksini tapmışdı. Artıq o, kapitan rütbəsi almışdı. İşlədiyi müddətdə nazirlik tərəfindən dəfələrlə mükafatlandırılmış, işi yüksək qiymətləndirilmişdi. O, baş əməliyyat müvəkkili işləyə-işləyə SSRİ DİN-nin Rostov şəhərindəki Ali Milis Məktəbində müdavim olmuş və oranı müvəffəqiyyətlə bitirmişdi. 1975-ci ildə Süleymanov Süleyman Oruc oğlu Beyləqan rayon DİŞ-də əməliyyat axtarış işi üzrə rəis müavini vəzifəsinə təyin edilib. Burada da Beyləqan rayon ictimaiyyəti onun təmizliyinin, hər işi qanuni yolla həll etməsinin şahidi olublar. O, 1977-ci il avqust ayının 25-də DİO-dan təqaüdə çıxıb. Ümumiyyətlə,Süleymanov Süleyman Oruc oğlu yüksək səviyyəli qanun keşikçisi kimi ad çıxarmışdı. Haqqı, ədaləti qorumağı hər an özü üçün şərəf sanırdı. Öz dəsti-xətti, savadı, bacarığı, qabiliyyəti ilə fərqlənirdi. O, həmişə nazirliyin, habelə rayon təşkilatlarının, partiya, sovet orqanlarının diqqət mərkəzində olub. İşlədiyi sərhəd rayonlarında keçmiş həmkarlarının – sərhədçilərin də yaxın dostuna, sevimlisinə çevrilib. Onların da xeyli mükafatlarına layiq görülmüşdü. Bundan başqa xidmət etdiyi müddətdə "Milis əlaçısı", "Sərhəd qoşunları əlaçısı" döş nişanları ilə təltif edilib. "Ən yaxşı CA əməkdaşı", "DİN-nin I dərəcəli mütəxəssisi" adlarına layiq görülmüşdü.

Süleymanov Süleyman Oruc oğlu DİO-dan təqaüdə çıxdıqdan sonra ömrünün sonuna kimi əvvəl kənd təsərrüfatı idarəsində, sonralar isə rayon yol-tikinti idarəsində hüquqşünas kimi əmək fəaliyyətini davam etdirmişdi. O da həmvətənləri kimi məcburi köçkün həyatı sürməyə məhkum olmuşdu. Lakin torpaq həsrəti çəkməyə ürəyi tab gətirmədi. Polis mayoru Süleymanov Süleyman Oruc



oğlu 1993-cü il dekabr ayının 21-də Bakı şəhərində haqq dünyasına köçüb.

Süleymanov Süleyman Oruc oğlu 3 övlad atası olub. Böyük oğlu Namiq ali pedaqoji təhsil alıb. Digər oğlu Nazim ali təhsilli iqtisadçıdır. Nazimin atasının adını yaşadan Süleyman adlı oğlu var. Üçüncü övladı Solmaz xanım isə ali təhsilli müəllimədir. Dil və ədəbiyyat fənnindən dərs deyir.

## ABBASOV MÜSLÜM GÜRŞAD OĞLU


Abbasov Müslüm

**Abbasov Müslüm Gürşad oğlu** 1950-ci il fevral ayının 3-də keçmiş Jdanov (indiki Beyləqan) şəhərində anadan olub. 1969-cu ildə Beyləqan şəhər orta məktəbini bitirib. 1969-cu ildə hərbi xidmətə çağırılıb. Əsgəri xidmətini SSRİ-nin Almaniyadakı (ADR) silahlı qüvvələrinin sırasında keçirib. Hərbi xidmətini 1971-ci ildə başa çatdırıb. Həmin ildə Azərbaycan Respublikası DİN-nin əmri ilə Beyləqan rayon DİŞ-də milis nəfəri vəzifəsinə təyin edilib.

1972-ci ildə Bakı şəhərindəki Xüsusi orta milis məktəbinə daxil olub. 1974-cü ildə həmin məktəbi əla qiymətlərlə bitirərək Cəbrayıl rayon Daxili İşlər Şöbəsində pasport masa rəisi vəzifəsinə təyin edilib. 1983-cü il sentyabr ayının 30-da həmin şöbədə baş əməliyyat müvəkkili vəzifəsinə irəli çəkilib. 1989-cu ildə İmişli rayon daxili işlər şöbəsində əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə təyinat alıb. 1992-ci ildə İsmayıllı rayon DİŞ-nin rəisi vəzifəsinə təyin edilib. 1996-cı ildə Sumqayıt şəhər DİI-də baş əməliyyat müvəkkili vəzifəsinə dəyişdirilib. 1997-ci ildə Yasamal rayon Polis İdarəsinin cinayət axtarış şöbəsinin rəis müavini vəzifəsinə təyin edilib. 1999-cu ildə Nizami rayon Polis idarəsinin 23-cü polis böl-

məsinə baş əməliyyat müvəkkili vəzifəsinə təyinat alıb. 2003-cü il noyabr ayının 1-də Nizami rayon Polis İdarəsinin təhqiqat şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Həmin vəzifədə işlədiyi dövrdə səhhətində xəstəliklə bağlı ciddi problemlər yaranıb.

Uzun sürən xəstəlik nəticəsində 2004-cü il fevral ayının 20-də vəfat edib. Üç övladı- iki oğlu, bir qızı var.

M.G.Abbasov 1974-cü ildən 1989-cu ilədək Cəbrayıl rayon Daxili İşlər Şöbəsində müxtəlif vəzifələrdə işləyib. 15 illik xidməti fəaliyyəti dövründə öhdəsinə düşən vəzifələri vaxtında və layiqincə yerinə yetirib. Asayişin qorunmasında və cinayətkarlığa qarşı mübarizədə profilaktiki tədbirlərin həyata keçirilməsində müsbət iş təcrübəsi yadda qalan olub. Cinayətlərin açılmasında, cinayətkarların tutulmasında fəallığı ilə fərqlənib. Özünün sonralar etiraf etdiyi kimi Cəbrayıl rayon Daxili İşlər Şöbəsi onun üçün bir həyat məktəbi rolunu oynayıb. Burada qazandığı təcrübə həmişə onun karına gəlib.

## HAMININ SEVİMLİSİ SABİR NOVRUZOV



Novruzov Sabir

**Novruzov Sabir Musa oğlu** 1936-cı ildə Quba rayonunun Uzunmeşə kəndində andan olub. 1944-cü ildə Uzunmeşə kənd ibtidai məktəbinə gedib. 4-cü sinfi 1948-ci ildə bitirib. Təhsilini Alpan kənd orta məktəbində davam etdirib. 1954-cü ildə isə həmin məktəbi bitirib. Həmin il kolxozçu kimi əmək fəaliyyətinə başlayıb. 1955-1958-ci illərdə ordu sıralarında olub. Hərbi xidmətdən tərxis olunandan sonra yenə də kəndə qayıdıb. 1958-1959-cu illərdə kolxozçu kimi əmək fəaliyyətini davam etdirib. 1959-cu



il sentyabr ayının 15-də Sumqayıt şəhər DİŞ-də milis nəfəri kimi xidməti işə qəbul edilib. 1960-1964-cü illərdə bölmə komandiri, 1964-1970-ci illərdə sahə müvəkkili vəzifəsində işləyib. 1970-ci ildə Cinayət Axtarış Şöbəsində əməliyyat müvəkkili vəzifəsinə təyin olunub. Həmin illərdə ali təhsil almağı da unutmayıb. BDU-nin hüquq fakultəsinin qiyabi şöbəsində təhsilini davam etdirib. 1977-ci ildə bitirib. Hüquqşünas ixtisasına yiyələnib. 1971-ci ilə kimi Sumqayıt şəhər Dİl-nin Cinayət Axtarış Şöbəsində əməliyyat müvəkkili vəzifəsində çalışıb. Uğurlu əməliyyat işlərinə imza atıb. Fərqləndiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Qırmızı ulduz" ordeni və DİN--nin Fəxri fərmanları ilə təltif olunub. 1971-1975-ci illərdə Xaçmaz rayon DİŞ-nin Xudat milis bölməsinin Cinayət Axtarış qrupunun baş əməliyyat müvəkkili vəzifəsində çalışıb. 1975-ci ilin fevral ayında Qusar rayon DİŞ-də əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə təyin edilib. 1987-ci ilin sonuna kimi həmin vəzifədə çalışıb. 1982-ci ilin yanvar ayında Cəbrayıl rayon DİŞ-nin rəis müavini vəzifəsinə təyinat alıb. DİO-dan təqaüdə buraxılanadək, yəni 1989-cu ilədək həmin vəzifədə işləyib.

S.M.Novruzov Cəbrayıl rayonunda işlədiyi müddətdə hamı üçün sevimli olan, sevilən bir polis işçisi kimi ad çıxarıb. Hər polis əməkdaşına müyəssər olmayan bu sevgini, xətir-hörməti öz insani keyfiyyətləri sayəsində qazanıb. Mənim də yaxından tanıdığım bir alicənab insan olub. Bəri başdan deyim ki, S.Novruzov yeyib-içən, deyib-gülən, hamıyla dil tapan, müsahibini öz dilində danışdıran, aza qane, xalqa yaxın, nikbin əhval-ruhiyyəli, mərdanə bir adam idi. İşinə çox məsuliyyətlə yanaşardı. Daha doğrusu işində fədakar, sözündə bütöv idi. Gecə-gündüz hərəkətdə olardı. Həmişə deyərdi ki, qurd dumanlıq sevdiyi kimi, cinayətkarlar da, xüsusilə də oğrular öz işini adətən gecələr görürlər. Milis işçisi ki, gecələr yatağan oldu, cinayətkarların bayramıdı demək.

Onun bu müsbət keyfiyyətləri, işgüzarlığı, adətən müavinlərə yuxarıdan aşağı baxan rəislərin belə sevimlisinə çevirmişdi. DİN tərəfindən S.Novruzovun təqaüdə buraxılması məsələsi hər dəfə ortaya gələndə istər həmin dövrlərdə Cəbrayıl rayon DİŞ-nin rəisi işləyən N.İsmayılov, istərsə də R.Məmmədov buna öz etirazlarını bildirmişlər. Rəhbər orqanlara təveqqə edici məktublar yazmışlar. Xahişlərində göstərirlər ki, S.Novruzov işlədiyi dövrdə 2 qəsdən adam öldürmə, 11 mənzil oğurluğu, 10 dələduzluq faktı açıb. Ümumittifaq axtarışında olan 1, yerli axtarışda olan 5 cinayətkarı tutub istintaq orqanlarına təhvil verib. Keçmiş illərdən qalma 3 cinayət işinin açılmasına müvəffəq olub. Axtarış-əməliyyat işini yaxşı bilir. Əməliyyat təsərrüfatı ilə səmərəli işləməyi bacarır.Əməliyyat texnikalarından bacarıqla istifadə edir. Orta rəis heyəti ilə xidməti hazırlıq məşğələlərini yüksək səviyyədə aparır. "Qüsursuz xidmətə görə" hər üç dərəcədən məharət döş nişanları var. Hələ ki, onun təqaüdə çıxarılmasına lüzum görmürük. Hərəsi bir vasitə ilə S.Novruzovun təqaüdə çıxarılmasına mane olmağa çalışıblar.

**Cəbrayıl RPŞ-nin rəisi V.Məhərrəmovun xatırlaması:** "Sabir Novruzov çox güclü əməliyyatçıydı. Mənim bu sahədə nə kimi müsbət keyfiyyətlərim varsa Sabir Novruzova borcluyam. Ondan çox şey öyrənmişəm".

**Cəbrayıl RPŞ-nin rəis müavini V.Hüseynovun xatırlaması:** "Mən təyinat alıb siyasi işlər üzrə rəis müavini vəzifəsinə gələndə S.Novruzov əməliyyat işləri üzrə rəis müavini işləyirdi. Çox səmimi bir insan idi. İlk gündən mənə dedi ki, Vaqif müəllim, hər ikimiz müavinik. Hərəmiz rəis çəkən yükün bir tayını götürmüşük. Gərək elə hərəkət edək ki, rəis yükü əziyyətsiz çəksin. Nə də yük əyilməsin. O zaman onun da işi yaxşı gedər, bizim də üstümüzə ağırlıq düşməz. Sabir Novruzov dostsuz, yoldaşsız bir loxma kəsməzdi. Yoldaş qayğısı çəkən idi".



S.Novruzovun gözəl səsi, avazı vardı. Xoş ovqatı olanda piano çalar, gözəl "Segah" deyərdi, həzin-həzin zümzümə edərdi. Hərdən də aramla "Rast" oxuyardı. Xalq mahnıları ifa edərdi. Görünür ondakı bu keyfiyyət halı irsən qızına – Sevinc xanıma da keçib. Hazırda Sevinc xanım müğənnilik fəaliyyəti ilə məşğuldur. Həm də o, Azərbaycan Dövlət İncəsənət Universitetinin məzunu olub.

S.Novruzov 3 övlad atasıdır. İki qızı, bir oğlu var.

## DÖYÜŞ BÖLGƏLƏRİNDƏ XİDMƏT ETMƏK GÖRÜNÜR ALIN YAZIMDI

Naftalan şəhərində polis polkovniki Hikmət müəllimlə təsadüfi görüşüm gözlənilməz oldu. "Çinar" sanatoriyasında müalicə alırdım. Deməzsən o da görüşümüzdən bir neçə ay əvvəl Naftalan şəhər Polis Şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Xidməti işiylə bağlı reyd gəzintisi zamanı sanatoriyanın axarlı-baxarlı həyatində rastlaşdıq. Ötən illərin xatırlamaları yaddaşımızdan birər-birər dikəlir, canlanır, daha doğrusu bir kino lenti kimi gözlərimiz önündən gəlib keçirdi...


Quliyev Hikmət

TANITMA: **Quliyev Hikmət Məhəmməd oğlu** 1963-cü ildə Ağdam rayonunun Papravənd kəndində anadan olub. 1982-ci ildə Papravənd kənd orta məktəbini bitirib. Əmək fəaliyyətinə Bakı Kommunal Kombinatında başlayıb. 1982-1984-cü illərdə Həştərxan vilayətində hərbi xidmətdə olub. Ordudan tərxis olunanda iş yerinə qayıtmayıb, Taqanroq şəhərindəki dəri emalı zavodunda çalışıb. 1985-ci ilin aprel ayında zavod rəhbərliyinin göndərişi ilə Taqanroq şəhər DİI-nin PPX rotasında milis nəfəri kimi

xidmətə qəbul edilib. 1987-ci ilin avqust ayında isə SSRİ DİN-nin Həştərxan şəhərindəki Xüsusi Orta Milis məktəbinə göndərilib. 1988-ci ilin noyabr ayından öz şəxsi təşəbbüsü ilə təhsilini Bakı şəhərindəki Xüsusi Orta Milis məktəbində davam etdirib. Təhsilini başa vurduğu 1989-cu ildə artıq erməni daşnaklarının Dağlıq Qarabağa qarşı əsassız torpaq iddiaları silahlı terror qruplarının qanlı cinayətlər törətmələri ilə müşayiət olunurdu. Kəndlərə həmlələr edir, dinc əhali qətlə yetirilir, azərbaycanlılar isti ocaqlarından didərgin salınırdılar. Qarabağ torpağında boya-başa çatan Hikmət də həyəcanlı anlar yaşayırdı, özünə rahatlıq tapa bilmirdi. O, da digər həmvətənliləri kimi raport yazdı. AR DİN-nin rəhbərliyinə müraciət edərək xidmətini münaqişə bölgələrindən birində davam etdirməyə razılıq vermələrini xahiş etdi. Xahişi nəzərə alındı. O, 1989-cu ilin oktyabr ayında Cəbrayıl rayon DİŞ-də sahə inspektoru vəzifəsinə təyinat aldı.

Hikmət müəllimlə tanışlığımız Cəbrayıl rayonunda xidməti işə götürüldüyü gündən başladı. Verilmiş tapşırıqları vaxtında, nümunəvi, layiqincə yerinə yetirməsi, vəzifəsinə məsuliyyətlə yanaşması diqqət çəkən oldu. Fədakarlığı isə tez bir zamanda özünü büruzə verdi. 1991-ci ilin fevral ayında torpaqlarımızın və rayon əhalisinin erməni daşnak terrorçularının artan hücumlarından müdafiə edilməsi məqsədi ilə yaradılan PPX rotasının komandiri kimi məsul bir işin ona həvalə edilməsinə səbəb oldu. O, ilk növbədə PPX rotası şəxsi heyətinin hər bir əməkdaşının gənc polis əməkdaşı kimi yetişməsində, formalaşmasında, o dövr üçün xüsusilə vacib olan fiziki və döyüş hazırlığının artırılmasında qarşıya qoyulan vəzifələrin qısa bir zaman kəsiyində yerinə yetirilməsində və mənimsənilməsində səylərini əsirgəmədi. Bu fədakarlıq və işgüzarlıq öz səmərəli nəticəsini verdi. Cəbrayıl rayonu ilə həmsərhəd olan Hadrut rayonunun 11 kəndi daşnak terror qruplarından təmizləndi. Həmin kəndlərdə polis postları təşkil edildi. Əlbəttə



bu müvəffəqiyyətlər itkisiz ötüşmədi. Şəhid düşənlər, güllə, qəlpə yarası alanlar oldu. Hikmət müəllimi isə 2 dəfə ölümün pəncəsindən qurtaran əyninə geydiyi güllə keçirməyən jileti oldu. Ağcakənd və Şayaq kəndlərinin daşnak terrorçularından təmizlənməsi ağır döyüşlərdən sonra mümkün oldu. Birinci halda düşdükləri mühasirədən çıxarkən, ikinci halda isə qəflətən yaxın məsafədə güllə savaşına tuş gəldiyi bir zamanda baş verdi. Hər iki halda döyüş təlimlərində qazandığı fəndlər, təcrübə və ustalığı karına gəldi. Hikmət Quliyev 1992-ci ilin aprel ayında Cinayət axtarış bölməsinin baş əməliyyat müvəkkili, 1993--cü ilin iyun ayında isə həmin bölmənin rəisi vəzifəsinə irəli çəkildi. Burada da tabeçiliyində olan əməkdaşları ilə birgə cinayətkarlığa qarşı mübarizə istiqamətində üzərlərinə düşən vəzifələri yerinə yetirməklə yanaşı torpaqların müdafiə olunması uğrunda gedən döyüşlərdə yenə də yaxından iştirak edirdi. O, Cəbrayıl RPŞ-də işlədiyi dövrdə ali təhsil almaq qayğısını da unutmadı. Respublika DİN-nin göndərişi ilə Stavropol Ali Milis məktəbinin qiyabi şöbəsinə daxil oldu. Bir ildən sonra isə təhsilini Bakı Polis Akademiyasında davam etdirdi. Akademiyanı 1996-cı ildə bitirdi. 1997-ci ilin yanvar ayında isə iş təcrübəsi və əməliyyat sahəsində səmərəli fəaliyyəti nəzərə alınaraq o, Bərdə RPŞ-də CAB-nin rəisi vəzifəsinə təyin edilir. 2001-ci ilin yanvar ayında isə Bərdə rayon polis şöbəsində əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə irəli çəkilir. 2005-ci ilin yanvar ayına kimi həmin vəzifədə işləyir. Bərdə RPŞ-də əməliyyat bölməsinə rəhbərlik etdiyi dövrlərdə cinayətkarlığa qarşı mübarizə istiqamətində bir sıra uğurlu əməliyyatların həyata keçirilməsinin bilavasitə təşkilatçısı və iştirakçısı olur. Xüsusilə respublikada səs salmış mənzil və mal-qara oğurluqları, habelə quldurluq, soyğunçuluq, eləcə də ölüm cinayətləri törətmiş silahlı mütəşəkkil cinayətkar dəstələrin aşkar edilib zərərsizləşdirilməsi və məsuliyyətə cəlb edilməsi məhz Hikmət müəllimin rəhbər-

lik etdiyi bölmə əməkdaşlarının böyük əmək və səyləri nəticəsində mümkün olmuşdu. Qəssab Həbbə adıyla tanınan Əsədova Həbbə Rəsul qızının rəhbərlik etdiyi, Bərdə və ətraf rayonlarda mal-qara oğurluğu ilə məşğul olan 7-8 nəfərlik silahlı qrup üzvlərinin tərksilah edilməsi Hikmət müəllimin rəhbərlik etdiyi əməliyyat qrupu tərəfindən həyata keçirilmişdi. Bundan başqa Bərdə şəhər sakini Fərhadov Eldar Qubad oğlunun quldurbaşı olduğu və Bərdə, Mingəçevir, Ağcabədi, Ağdam, Tərtər, Yevlax, Bakı şəhərləri ərazisində qızıl alverçilərini qarər edən, ev basqınları və soyğunçuluqla məşğul olan 6 nəfərlik qatı cinayətkar dəstənin quldurbaşı başda olmaqla 3 üzvünün zərərsizləşdirilməsi Hikmət Quliyevin rəhbərlik etdiyi əməliyyat qrupu tərəfindən həyata keçirilmişdi. Kür qırağı meşəlikdə mühasirəyə alınmış cinayətkarlar odlu silahlardan atəş açmaqla mühasirəni yarıb aradan çıxmağa çalışmışlar. Odlu silahlardan açılan 45 atəşli mübarizə Hikmət Quliyevin döyüş təcrübəsi və fədakarlığı sayəsində polis əməkdaşlarının uğurlu qələbəsi ilə sonuc tapdı. Bir nəfər də itki və yaralı vermədən quldurları təslim olmağa məcbur etdilər. Bu cür əməliyyatların boy sırasını artırmaq da olar. Bütün bunlar Hikmət Quliyevin özünü DİO-na yararlı və peşəkar bir əməkdaş kimi göstərməsi, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsi, cinayətkarlığa qarşı mübarizədə, baş vermiş cinayətlərin açılması istiqamətində apardığı uğurlu əməliyyatlar Respublika Daxili İşlər Nazirliyi rəhbərlərinin də nəzər diqqətindən kənarda qalmamışdı. Xidmətdə əldə etdiyi naliyyətlərə görə o, 1991--ci ildə Respublika DİN tərəfindən "İctimai təhlükəsizliyin qorunmasında əla xidmətinə görə" , 2001-ci ildə isə " DİO-da əla xidmətlərinə görə" döş nişanları ilə təltif edilmişdi. Mütəmadi olaraq bir sıra qiymətli hədiyyələrlə mükafatlandırılmışdı. Habelə onun rəis müavinliyindən müstəqil idarə rəisliyi vəzifəsinə irəli çəkilməsinə zəmin yaradan keyfiyyətləri özünü göstərdi. Quliyev Hikmət Məhəmməd



oğlu 2005-ci ilin yanvar ayında Naftalan şəhər Polis Şöbəsinin rəisi vəzifəsinə təyin edildi. Bəri başdan deyim ki, şəhərdə ictimai asayişə nəzarətin yüksək səviyyədə təşkil edilməsi, ictimai təhlükəsizliyin qorunması addımbaşına hiss olunmaqdadır. Lakin mən Naftalan şəhərində Hikmət müəllimin daha bir keyfiyyət halı ilə yaxından tanış oldum və bundan çox məmnun qaldım. Hikmət müəllim qurucu bir insan kimi nəzər-diqqətimi cəlb etdi. Naftalan şəhərində işlədiyi az müddət ərzində inzibati idarə binasını yüksək səviyyədə təmir etdirib. Bir sıra yardımçı binalar tikdirib. Abadlıq işləri gördürüb. Həyətdə iki divar-stent tikdirib istifadəyə verib. İnzibati binanın foyesində ulu öndərimiz Heydər Əliyevin adına öz zövqünə uyğun hazırlatdığı guşə göz oxşayandı. Şöbənin daxili imkanları hesabına Naftalan şəhərinin girəcəyində Heydər Əliyevin və İlham Əliyevin şərəfinə böyük ölçüdə xatirə abidəsi ucaltması baxanlara ancaq könül xoşluğu bəxş edir. Bu əhval-ruhiyyə ilə də Hikmət müəllimlə əl tutub ayrılıram. Bir ağızdan hələlik deyirik. Söz ardını Hikmət müəllimin özü gətirir: "Döyüş bölgələrində xidmət etmək görünür alın yazımdı, Əlisahib müəllim. Yenə də buralarda görüşəcəyimizə ümid edirəm"- deyir.

## FİRAD MƏMMƏDOVUN ÖMÜR YOLU

Atalar deyib-deməyib deyə bilmərəm, amma yerində deyilib ki, insan öz ömrünü yaşayanda həyatı da, ömrü də mənalı olur. Ardınca isə o, bu dünyada iz qoyub getdi, deyirlər. Firad Zülfəli oğlu da qısa, lakin mənalı ömür sürən bu qəbil insanlardan biri olub.

**Məmmədov Firad Zülfəli oğlu** 1951-ci ildə Cəbrayıl rayonunun Süleymanlı kəndində anadan olub. 4-cü sinfə kimi Süleymanlı kənd orta məktəbində oxuyub. Təhsilini qonşu Balyand kəndində və Cəbrayıl şəhərinin orta məktəblərində davam etdirib. Orta təhsil aldıqdan sonra Sum-

qayıt şəhərindəki 41-saylı texniki--peşə məktəbində aparatçı-çilingər peşəsinə yiyələnib. 1969-cu ildə Sumqayıt zavodlarında çalışıb. Eləcə uşaqlıq illərindən onun idmanın güləş növünə böyük marağı olub. Balyand kənd orta məktəbinin idman müəllimi Nüsrət Allahverdiyev marağını nəzərə alaraq onu bu sahəyə həvəsləndirir. Orta məktəbin yuxarı siniflərində oxuyarkən məktəblilər arasında rayon çempionu olub. Bir neçə il dalbadal məktəbin idman şərəfini qoruyub. Sumqayıtda da istər peşə məktəbində oxuyarkən, istərsə də yeni iş sahəsində çalışanda da sevimli istəyindən ayrılmayıb. Əzmkarlıqla güləşin sərbəst növü ilə xüsusi məşğul olub. 1971-ci ildə Sumqayıt şəhər çempionu adını qazanıb. Respublika spartakiadasında ikinci yerlə kifayətlənib. Şəhərin və zavodun idman şərəfini ləyaqətlə qoruduğuna görə zavod rəhbərliyi tərəfindən o, xüsusi tövsiyə ilə Azərbaycan Dövlət Bədən Tərbiyə İnstitutunun hazırlıq kursuna göndərilib. Hazırlıq kursunu başa vuraraq müvəffəqiyyətlə qəbul imtahanları verib. İnstitutun idman fakultəsinə daxil olub. Təhsil illərində ali məktəb tələbələrinin Respublika üzrə keçirilən yarışlarında sərbəst güləş üzrə Respublika çempionu olub. 1976-cı ildə institutu bitirib ordu sıralarına səfərbər edilib. Xidmət müddətində idmanın sambo növü ilə də məşğul olub. Xidmətini başa vuraraq, yenidən Sumqayıta qayıdıb. Xovlu-ipək fabrikində idman təlimatçısı kimi yeni iş sahəsində əmək fəaliyyətinə başlayıb. Sonra isə 45-saylı texniki-peşə məktəbində bədən tərbiyəsi müəllimi işləyir. Elə həmin məktəbin əmək kollektivinin zəmanəti ilə Daxili İşlər orqanlarında xidməti işə qəbul olunur. Məmmədov Firad Zülfəli oğlu 1980-ci ilin sentyabr ayında DİN-nin Mərdək-



Məmmədov Firad



andakı Tədris Mərkəzinə fiziki hazırlıq və özünümüdafiə fənni üzrə müəllim təyin edilir və ona milis leytenantı xüsusi rütbəsi verilir. Az keçmir ki, baş müəllim ştatına keçirilir. O, burada müəllim işləyə-işləyə həm də Mərdəkandakı xüsusi orta milis məktəbində oxuyur. 1988-ci ildə həmin məktəbi də bitirir. Elə həmin ildən də başlayaraq mənfur qonşularımızın Qarabağ iddiası açıq-aşkar təcavüzkar bir şəkil alır. Elə bu günlərdə Firad Məmmədov nazirlik tərəfindən başının üstünü qara buludlar almış Şuşaya ezam olunur. O, burada polis işçilərinə fiziki və döyüş hazırlığını artırmaq üçün dərslər keçir. 1990-cı ildə isə erməni qəsbkarlarının Vətənimizə qarşı apardığı hərbi müdaxilələr səngimək bilmir. Firad müəllim də Vətən qarşısında öz borcunu yerinə yetirmək üçün yazılı raport ilə nazirliyə müraciət edir. Doğma rayonuna – Cəbrayıla qayıdır. O, burada polis əməkdaşlarının döyüş hazırlığını artırmaları üçün dərslər keçməklə yanaşı daim sərhəd kəndlərimizdə olur, yerli sakinlərin köməyinə çatır, gecələr isə doğma kəndi olan Süleymanlıda mülki şəxslərlə birgə postlarda dayanır. Döyüş əməliyyatlarında iştirak edir. Öz köməyini kimsədən əsirgəmir. Elə həmin günlərdə də rayon əhalisinin xahişi və israrlı tələbi ilə polis mayoru Firad Məmmədov 1992-ci il mart ayının 16-da DİN tərəfindən Cəbrayıl rayon DİŞ-nə əməliyyat üzrə rəis müavini vəzifəsinə təyin olunur. Çox keçmir ki, peşəkar, təcrübəli, cəld və çevik polis işçisi kimi kollektiv arasında da böyük hörmət və nüfuz qazanır. Torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə fəallıq göstərir, bu yolda nəyi bacarıbsa onu da edir. Bütün qaynar nöqtələrdə düşmənə qarşı mərdliklə vuruşur. Ümumiyyətlə, polis orqanlarında xidmətdə olduğu bütün dövrlərdə ona etibar olunmuş vəzifələrin öhdəsindən layiqincə gəlib, tapşırılmış işi yüksək məsuliyyət və intizam nümayiş etdirməklə yerinə yetirib. Özünü nizam-intizamlı, səliqəli, Vətənə, polis andına sədaqətli, xidməti vəzifəsinə vicdanla yanaşan, dövlət və xi-

dməti sirri saxlamaq bacarığı olan bir polis zabiti kimi göstərib. Xidmət zamanı rast gəldiyi çətinlikləri, maneələri mətinliklə dəf edib, baş verən hadisələr zamanı və ekstremal vəziyyətdə şəxsi heyəti səfərbər etməyi, düzgün istiqamətləndirməyi xüsusi peşəkarlıqla bacarıb. O, erməni işğalçılarına qarşı mərdliklə mübarizə aparıb. Erməni quldurlarının dəfələrlə hücum etdikləri Sur, Daşbaşı, Qışlaq, Süleymanlı kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Cəsur vətən oğlu kimi igidlik nümunələri göstərib. Düşmənlərə layiqli cavab verib. 1994--cü ildə Füzuli rayonunun Araz boyu kəndlərinin, xüsusilə Qaradiz qəsəbəsinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə öz fədəkarlığı ilə fərqlənib. Hətta cəsurluğuna, hadisələrdən düzgün nəticələr çıxardığına görə onu alay komandiri təyin etmək haqqında hərbi komandanlıq qarşısında məsələ qaldırılıb. Baxmayaraq ki, bu işin öhdəsindən layiqincə gələrdi, lakin hərbi təhsilinin olmamasını bəhanə gətirərək bu işdən imtina etdi. Bu vəzifəyə daha səriştəli, daha bacarıqlı və peşəkar hərbiçinin təyin olunmasını istədi. Onun xidmətinin son illəri çadır şəhərcikləri ilə bağlı olmuşdu. 2001-ci ilin oktyabr ayında Biləsuvar rayonu ərazisində yerləşən 1, 2, 3, 4, 5 saylı çadır çəhərciklərində xidmətə göndərilən F.Məmmədov qısa müddət ərzində çadır şəhərciklərində cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında müstəsna xidmətlər göstərir. Çadır şəhərciklərində daha əvvəlki kimi neqativ hallar təkrar olunmur. Burada saf iqlim, sağlam mühit yaradır. Həmçinin sakinlərin sosial problemlərinin həll edilməsinə qayğıyla yanaşır. Hər bir məsələnin həllinə çalışır. Aidiyyatı təşkilatlar qarşısında tələblər qaldırır. Problemlərin həll edilməsində prinsipiallıq göstərir. 2002--ci il may ayının 25-də leysan yağışı nəticəsində çadır şəhərciklərini su basarkən, habelə həmin ilin iyun ayında əhalinin min bir əziyyətə qatlaşaraq əkib-becərdiyi taxılın



biçilməsində çəkdiyi əziyyət, göstərdiyi təşkilatşılığı bu gün də xoş xatirələrlə anılır.

Məmmədov Firad Zülfəli oğlu nümunəvi xidmətlərinə görə dəfələrlə təşəkkürlərə, fəxri fərmanlara layiq görülüb. Qiymətli hədiyyələrlə mükafatlandırılıb. Daxili İşlər orqanlarında "Əla xidmətə görə", "Milis əlaçısı", "Usta məharət dərəcəsi" kimi döş nişanları ilə təltif edilib.

Məmmədov Firad Zülfəli oğlu 2002-ci il iyul ayının 21--də həyatını qəflətən qeyb etmişdir. Üç övladı var. Bir oğul, iki qız atası olub. Oğlu Rəhman atasının yolunu davam etdirir. O, 2005-ci ildə DİN-nin Polis Akademiyasını bitirib və hazırda Əzizbəyov rayon Polis İdarəsində polis sahə inspektoru vəzifəsində işləyir.

## "ÖLÜMƏ ÖLÜM, QANA QAN!" – DEDİ QƏHRƏMAN.



Həmidov Qəhrəman

**Həmidov Qəhrəman Süleyman oğlu** 1951-ci ildə Süleymanlı kəndində anadan olub. Ilk təhsilini Şuşa şəhərindəki internat məktəbində alıb. Həmin illərdə atası Süleyman müəllim Şuşa rayonunun Şırlan kənd orta məktəbində müəllim işləyibdi. Atası iş yerini Cəbrayıl rayonuna dəyişdikldən sonra o da təhsilini Cəbrayıl şəhərindəki M.Qorki adına (indiki akademik M.Mehdizadə adına) orta məktəbdə davam etdirib. 1968-ci ildə orta təhsilini başa vuraraq sənədlərini Azərbaycan Dövlət Pedaqoji Universitetinə verib. İmtahanları müvəffəqiyyətlə verərək, filologiya fakultəsinə daxil olub. Ali təhsilini başa vurduqdan sonra təyinatla Sabirabad rayonuna göndərilib. Müəllimlik fəaliyyətinə başlayıb. Orduya səfərbər edilib. Baltik donanma-

sında matros kimi həqiqi hərbi xidmətdə olub. Nümunəvi xidmətinə görə komandanlıq tərəfindən Fəxri fərmanla təltif edilib.

Qəhrəman müəllim hərbi qulluqdan tərxis olunduqdan sonra Cəbrayıla qayıdıb. Müəllimlik fəaliyyətini doğma rayonunda davam etdirib.

Həmidov Qəhrəman Süleyman oğlu 1980-cı ilin may ayında DİO-da xidməti işə qəbul olunub. Cəbrayıl rayon DİŞ-də Yetginlik Yaşına Çatmayanların İşləri üzrə müfəttişliyin rəisi vəzifəsinə təyin edilib. Milis leytenantı rütbəsi alıb. Onun rəhbərliyi altında müfəttişliyin həyata keçirdiyi profilaktiki tədbirlər öz müsbət nəticəsini verib. Həmin illərdə azyaşlılar arasında baş verən cinayətkarlığın səviyyəsi xeyli aşağı düşüb. O, xidmət sahəsində sakit və həlim xasiyyəti, işgüzarlığı ilə fərqlənib. Davranışı və şəxsi keyfiyyətləri, insanlara xoş münasibəti sayəsində şöbənin əməkdaşları, habelə rayon əhalisi arasında özünə, adına layiq hörmət və məhəbbət qazanıb. Sahə müvəkkili vəzifəsinə irəli çəkilib. Polis mayoru rütbəsinə yüksəlib. Lakin həyatının müdriklik çağında – 23 may 2005-ci ildə haqq dünyasına köçüb.

Q.S.Həmidov ictimai asayişin mühafizəsi və cinayətkarlığa qarşı mübarizə işinin təşkilində fəal iştirak etsə də ona ad-san gətirən, adını yaşadan və yaşadacaq, qan yaddaşımızda əbədi yaşamaq haqqı qazandıran yurd savaşında göstərdiyi hünərpərvərlikləri oldu. Rayon əhalisinin təhlükəsizliyinin qorunması, erməni-daşnak faşistlərinin, ayrı-ayrı terror qruplaşmalarının torpaqlarımızın bütövlüyünə qarşı yönəlmiş həmlələrinin, qəsdlərinin qarşısını almaq məqsədilə şöbənin həyata keçirdiyi tədbirlərdə bütün varlığıyla iştirak etdi. Xüsusilə, 15 noyabr 1991-ci il tarixdə keçmiş Hadrut rayonunun Şayaq yüksəkliyində yerləşən polis postu mühasirəyə düşərkən postun rəhbəri kimi Qəhrəman müəllimin bu zaman qorxmaz əsgəri rəşadəti, əsil qəhrəmanlıq sücaəti özünü göstərmiş oldu.



Şayaq yüksəkliyinin strateji əhəmiyyətindən bu gün söz açmağına dəyməz. Bu yüksəklik Cəbrayılın həyat qapısı, olum ya ölüm məsələsiydi. Cəbrayıldan qrad, top mərmilərinin uçuş məsafəsində yerləşən, Cəbrayılın başı üstə asılmış domokl qılıncıydı Şayaq yüksəkliyi. Cəbrayılın, Hadrutun taleyi bu yüksəkliyə nəzarətin kimin əlində olmasından asılıydı.

Düşmənlərin sayı Şayağı müdafiə edən polis əməkdaşlarının sayından qat-qat çox idi. Qəhrəman müəllimin dəstəsi səhər saat 6-dan mühasirəyə alınmışdı. Post müdafiə olunurdu. Cəbrayıl RPŞ rəhbərliyinin məsələdən xəbəri vardı. Silahlı dəstələr köməyə tələsirdilər. Döyüş xəttinə çatanlar isə yüksəklikdə mövqe tutmuş düşmən pulemyotlarının atəşi altından çıxıb mühasirəni yara bilmirdilər. Rus hərbiçiləri isə 150 metrlik məsafədə tük belə tərpətmirdilər. Guya neytral vəziyyətdə dayanmışdılar. Əslində isə yüksəkliyin ermənilər tərəfindən alınmasının ssenarisini onların özləri yazmış, özləri də oyunu qurmuşdular. Cəbrayıl RDİŞ rəhbərliyinin Respublika DİN-ə, Ali Sovetin sessiyasına, Xankəndi fövqəladə vəziyyət rayonuna verdiyi məlumatların heç bir səmərəsi yox idi. Ruslar növbəti hiylə işlədirdilər.

Cəbrayıl polisinin 7, Sabirabad və İmişli polislərinin hər birindən köməyə gəlmiş 5 nəfər əməkdaşdan ibarət 17 nəfərlik postaçılar düşmən hücumlarını mərdliklə dəf edirdilər. Qəhrəman müəllimin ucadan söylədiklərini, təkrar-təkrar dediklərini düşmənlər belə eşidirdilər:

- Möhkəm dayanın qardaşlar! Düşmən bizə qalib gələ bilməyəcək. Cəbrayılın mərd oğulları bizə köməyə gəlirlər. Ölümə-ölüm, qana-qan! – deyirdi.

Postun müdafiə olunması gündüz saat $13\text{-}^{00}$-dək açıq hava şəraitində aparılırdı. Post xaricdən müdafiə olunurdu. Düşmənlər isə rusların köməyindən istifadə edərək təzyiqi dörd bir tərəfdən saatbasaat artırırdılar. 2 nəfər postaçının həlak olması, bir nəfərin də gözə dəyməməsi

vəziyyəti gərginləşdirmişdi. Qəhrəman müəllim döyüş sursatını ehtiyatla işlətməyi və atəşdən qoruna-qoruna teleqüllənin yardımçı binalarına çəkilmək barədə göstərişini verdi. Bu zaman ən fəal döyüşçü, İmişli polisindən olan İmamverdi Əliyevin vurulması hamını məyus etdi. O, ətarfdakı silahdaşlarının həyatlarını xilas etmək, qorumaq üçün qəhrəmancasına bu yoldla öz həyatını qurban verdi. Yardımçı binada müdafiə olunan postaçılar təslim olmaq barədə əsla düşünmürdülər. Cəsarət edib özlərini qabağa verən düşmən silahlısını yerindəcə məhv edirdilər. Terrorçuların təslim olma çağırışlarına atəşlə cavab verirdilər. Döyüş sursatı isə qurtarmaq üzrəydi. Hədəfə dəyməyən güllə buraxmamalıydılar. Q.Həmidovun hər bir göstərişinə əməl edən postaçılar mərdliklə müdafiə olunurdular. Son damla qanlarınadək vuruşacaqlarına and içmişdilər. Postdakıların artıq 4 nəfəri həlak olmuş, 4 nəfəri isə ağır güllə yarası almışdı. Yaralıların tərpənməyə taqətləri yox idi. Düşmən əlinə keçməmək üçün özlərini güllələtmək istəyindən əl çəkmirdilər. Bir gözləri isə onlara toxtaqlıq gətirən, Qəhrəman müəllimin otağın kəllə divarına kömürlə qalın qara xətlə yazdığı – "Döyüşdük, təslim olmadıq!" sözlərinə dikili qalmışdı. Yaralıları təhlükəsiz yerə yığmışdılar. Yaman gün üçün isə hərə ovcunda özünə bir patron sıxıb saxlayırdı. Hava çoxdan qaralmışdı. Postun müdafiəçiləri isə təslim olmaq fikrini eyinlərinə belə gətirmirdilər. Erməni tərəfindən də itkilər artırdı. Postaç ılırın qorxaqlıq göstərib tezliklə təslim olacaqları barədə düşmən fərziyyəsi baş tutan sevda deyildi. Ancaq Cəbrayılın müvafiq aidiyyatı orqanlarının rəhbərlərindən tərksilah olunmaq şərti ilə razılıq əldə edəndən sonra Hadrutun hərbi komendantı postdakı polis əməkdaşlarının mühasirədən çıxarılması əməliyyatına başladı. Axşam saat $9^{00}$–$10^{00}$ arasında Qəhrəman Həmidov və sağ qalan döyüş yoldaşları azad olundular. Qəhrəman Həmidov 1991-ci



ilin yekunlarında xidmətdə fərqləndiyinə görə - "DİO-da əla xidmətə görə" döş nişanı ilə təltif edildi.

Q.S.Həmidov və döyüş dostları Vətən üçün əllərindən gələni etsələr də Cəbrayıl faciəsi ilə üz-üzə qaldılar. Canlarından əziz tutduqları bu müqəddəs torpaq düşmən tapdağında qaldı. Mənən aldığı zərbəyə daxilən aldığı zədə də əlavə olundu. Qəhrəman müəllim iki dəfə bıçaq altına düşdü. Son dəfə isə vəzifə başında qəflətən ağır xəstəlikdən huşunu itirən Qəhrəman müəllim ölümün pəncəsindən can qurtara bilmədi. Əbədiyyətə qovuşdu.

## MÜHARİBƏLƏRİ CANLI QÜVVƏNİN, SİLAH-SURSATIN ÇOXLUĞU YOX, AĞIL, TƏMKİN VƏ PEŞƏKARLIĞIN SƏVİYYƏSİ UDUR


Səfərov Şahlar

**Səfərov Şahlar İsmayıl oğlu**
18 dekabr 1965-ci ildə Cəbrayıl rayonunun Quycaq kəndində anadan olub. 1983-cü ildə Quycaq kənd orta məktəbini bitirib. 1984-1986-cı illərdə keçmiş SSRİ-də Rusiya Federasiyasının Stavropol diyarının Çerkessk şəhərində hərbi xidmətdə olub. 1986- 1989-cu illərdə təsərrüfatda çalışıb. 1989-cu ilin oktyabr ayının 16-da Cəbrayıl RPŞ-nin nəzdnində Mühafizə bölməsinə milis sıravisi kimi işə qəbul edilib. 1990-cı ilin yanvar ayından iyul ayınadək Bakı şəhərində DİN-nin A.Heydərov adına sıravi və kiçik rəis heyəti hazırlayan Tədris Mərkəzində müdavim olub. 1992-ci ildə isə DİN-nin Polis Akademiyasının qiyabi şöbəsinə daxil olub, 1997-ci ildə bitirib.

1989-cu ildən 1994-cü ilə kimi Cəbrayıl RPŞ-nin tərkibində Mühafizə bölməsində polis nəfəri kimi xidməti fə-

aliyyət göstərib. 1994-cü ilin iyul ayında Polis Akademiyasının 2-ci kursunu başa vurduğu dövrdə Cəbrayıl RPŞ--nin rəhbərliyinin göstərdiyi xüsusi etimada əsasən AR DİN-nin əmri ilə polis kiçik leytenantı xüsusi rütbəsi alıb. 1994-cü ildən1996-cı ilin avqust ayının 6-na kimi Mühafizə bölməsində tağım komandiri vəzifəsində olmaqla cəbhə bölgəsində xidmət göstərib.

1996-cı il avqust ayının 6-da Respublika DİN-nin 368 nömrəli əmri ilə Füzuli cəbhə bölgəsindən geri çağrılaraq DİN-nin Mühafizə İdarəsinin sərəncamına göndərilib. 1996-cı ilin oktyabr ayının 2-də DİN-nin Mühafizə İdarəsinin Əzizbəyov rayon Mühafizə Şöbəsində tağım komandiri vəzifəsinə təyin edilib. Hal-hazırda həmin xidməti vəzifədə çalışır. Polis kapitanıdır.

**Ş.İ.Səfərovun xatırlaması:** "1991-ci ilin yaz axşamlarından birində Cəbrayıl rayonunun Mahmudlu qəsəbəsində yerləşən mühafizə postunda xidmət aparırdım. Bu zaman Mühafizə bölməsinin rəisi polis mayoru Qəzənfər Mehdizadənin xidməti maşınının mənim postuma yaxınlaşdığının şahidi oldum. O, maşından düşdükdən sonra biz hərbi qaydada salamlaşdıq və bir az ordan-burdan söhbət etdik. Aradan xeyli müddət keçdikdən sonra rəis mənə dedi ki, yəqin xəbərin var, bu gün axşamçağı Respublika Daxili İşlər naziri M.Əsədov RPŞ-də olmuş, şöbənin rəhbərliyi ilə görüşmüşdü. Göstərişinin əsas məqsədi ondan ibarət olub ki, sabah səhər saat $5^{00}$-da DQMV-nə tabe olan qonşu Hadrut rayonunun 11 kəndində gizlənən terrorçuların aşkar olunması üçün pasport rejiminin yoxlanılması əməliyyatı keçiriləcək. Aydın məsələdir ki, həmin kəndlərdə terror təxribatları törətmək niyyəti ilə oraya gətirilmiş çoxlu sayda terrorçular vardı.Rəis dedi ki, Şahlar, əgər bu əməliyyatda iştirak etmək istəyirsənsə mən səni postdan çıxaracam, get hazırlaş! Bu xəbər mənim lap ürəyimcə oldu və mən səhər deyilən vaxtda Cəbrayıl RPŞ-də oldum. Sonralar mən demək olar ki, Mühafizə



Bölməsinin xidməti postlarına çıxmadım və rayon polis şöbəsinə ezam olunmuş əməkdaş kimi əvvəlcə erməni kəndlərində pasport qeydiyyatında olmayan mənfur niyyətli ermənilərin kəndlərdən çıxarılması əməliyyatlarında iştirak etdim. Sonra isə Cəbrayıl polisi tərəfindən azad olunmuş həmin erməni kəndlərində qoyulmuş postlarda mütəmadi qaydada keşikdə dayandım.

Rayonun işğal gününə qədər döyüş mövqelərində çox yadda qalan hadisələr baş vermişdi. Mənim üçün ən yadda qalan hadisələrdən onu daim xatırlayıram ki, erməni kəndləri heç bir ordu gücü olmadan tərəfimizdən başda şöbənin rəisi, polis polkovniki mərhum R.Məmmədov, şöbənin o vaxtkı əməliyyat üzrə rəis müavini, polis polkovniki Vaqif Məhərrəmov və şəxsi heyət üzrə rəis müavini, polis polkovnik-leytenantı Vaqif Hüseynovun gözəl hərbi planları üzrə erməni işğalçılarından surətlə və itkisiz şəkildə azad olundu. Əldə olunan uğurlara əsas səbəb kollektivdə bu günə qədər də davam edən birliyin olmasını xüsusilə, qeyd etmək istərdim. Ən yadda qalan döyüş səhnələrindən biri Hadrut rayonunun başı üzərində yerləşən rayon mərkəzinə ən yaxın bir məsafədə olan Şayaq yüksəkliyinin ələ keçirilməsi idi. Həmin əməliyyatda mən də şəxsən iştirak etmişəm və bu gün də bundan fərəh hissi duyuram.

Əməliyyatlardan bir gün qabaq mən Zamzur postunda xidmətdə olmuşdum və səhər əməliyyat başlayanda şöbənin rəisi R.Məmmədov bizə dedi ki, axşam postda olanlar əməliyyatda iştirak etməyə bilərlər. Lakin mən təkidlə buna etiraz etdim və sonda istədiyimə nail oldum.

Əvvəllər Cəbrayıl polisi üçün ən ağrılı-acılı günlər çiyin-çiyinə döyüşdüyümüz paqon yoldaşlarımızdan şəhid düşməsi idisə, sonradan müəyyən səbəblərdən rayonun bütövlükdə işğal olunması bizim üçün böyük faciəyə çevrildi. Cəbrayılın işğalından sonra bizi DQ-ın tərkibinə verdilər. Füzuli cəbhə bölgəsində xidmət apardığımız dövrdə

şöbəmiz həmin rayonunun Bala Bəhmənli kəndində yerləşirdi. Burada biz düşmənlə qarşı-qarşıya olan postda xidmət aparırdıq. Düzünü desək rayonun işğalı Cəbrayıl polisinin şəxsi heyətini elə təsirləndirmişdi ki, bu postlarda uzun müddət müdafiə mövqeyində dayanmaq heç də ürəyimizcə deyildi. Çünki biz ermənilərin işğal etdikləri Arazboyu kəndlərimizdə çıxardıqları hoqqaları öz gözlərimizlə görür və bunu özümüzə bir qıcıqlandırıcı təsir vasitəsi kimi qəbul edirdik. Ona görə də hamımızın arzusu tezliklə çoxdan yadırğadığımız hücuma keçmək idi. Döyüşlərin bərpa edilməsinə olan maraq bizə rahatlıq vermirdi. Lakin bu dəfə də mənfur qonşular bizi qabaqladılar. Dekabr ayının 22-si mən də polis nəfəri kimi " şərti 5-saylı" adlanan postda xidmətdə idim. Səhərə kimi üzbəüz mövqedə dayanan düşmən tərəfdən döyüş maşınlarının səsi ara vermirdi. Mən öz təcrübəmdə müəyyən etdim ki, ermənilər nə isə güclü hazırlıq işləri görürlər. Bizim mövqelərimizin möhkəmlənməsi onlara sərf etmir demək. Onlar yaxın müddət ərzində bizim postlara mütləq sarsıdıcı zərbələr endirəcəklər. Biz bu barədə öz aramızda məsləhətləşdikdən sonra şöbənin rəhbərliyinə də məlumat ötürdük. Səhər açılar-açılmaz şöbənin rəhbərliyi artıq şəxsi heyətin yanındaydı. Bu həm də o demək idi ki, artıq bu gün heç bir post dəyişməsindən söhbət getməyəcək. Bu müddət özünü çox da gözlətmədi.

1993-cü il dekabr ayının 25-də günortadan sonra düşmən Cəbrayıl polisinin dayandığı istiqamətdə əvvəlcə artilleriyadan, sonra isə zirehli texnikanın köməkliyi ilə piyada qüvvələrinin müşayiəti altında güclü hücuma keçdilər. Artıq mən oz postumuzdan onların tankının düz bizim səngər istiqamətində dayandığını gördüm. Aramızda olan məsafə isə təxminən 150 metrə qədər idi. Onun açdığı ilk atəş bizim səngərin 1 metrliyinə düşdü. Bu zaman toz-torpaq dumanı bir-birinə qarışdı. Bir an içində özümüzə gəldik. Əgər biz vaxtında başımızı səngərə əyməsəydik o



zaman həmin atəş çoxumuzu məhv edəcəkdi. Tankın 2-ci atəşi bizim sağ tərəfimizdə olan paqon yoldaşlarımızın səngərinin ağzına düşdü. Döyüş qurtardıqdan sonra elə həmin səngərdə 2 polis nəfərimiz şəhid oldu.

Ən maraqlı döyüş səhnəsi ondan ibarət idi ki, mövqedə olan PDM kəskin müqavimət göstərməyimizi görüb bir az da geri çəkildi və dayandlğımız postun aşağı istiqamətinə enərək bizim və Hacıqabul alayının əsgərləri dayanan səngərlərin arxasına keçib oradan zərbə endirməyə başladı. Piyadaların döyüş maşını irəlilədiyi istiqamətdə tərəfimizdən minaların qoyulduğunu mən dəqiq bilirdim. Amma həmin zirehli texnikanın minaya toxunub, məhv olub-olmaması tale məsələsi idi. Burda isə tale bizim üzümüzə güldü. Döyüş mövqeyində dayanan bütün şəxsi heyətin diqqəti bir anlığa həmin istiqamətə yönəldi. Hamımız həmin texnikanın minaya düşüb necə parçalandığının şahidi olduq. Əks təqdirdə isə doğrudan da bu döyüşdə biz döyüş mövqeyini əldən verməsək də həm əsgərlərdən, həm də polisin şəxsi heyətindən çoxlu sayda itkilər olacaqdı. Biz bu döyüşü qalibiyyətlə başa vurduq. Ancaq həmin gündən mənim beynimdə belə bir fikir həkk olundu ki, doğrudan da hərb özü də ayrılıqda götürüldükdə bir elmdir. Əgər bu belə olmasaydı vaxtında ehtiyat tədbiri kimi lazımi mövqeydə qoyulmuş adi bir qurğu bu döyüşdə bizə qələbə bəxş ertməzdi. Ona görə də peşəkar hərbiçilər həmişə qeyd edirlər ki, müharibələri canlı qüvvənin, silah-sursatın çoxluğu yox, ağıl, təmkin və peşəkarlığın səviyyəsi udur.

1994-cü ilin iyul ayında Cəbrayıl rayon polis şöbəsinin rəhbərliyinin xeyir-duası ilə zabit rütbəsi aldıqdan sonra məndə məsuliyyət hissi bir az da artdı. Mən Cəbrayıl RPŞ-nin, onun rəhbərliyinin həmişə mənə qarşı qayğıkeşliyini və inamını hiss etmişəm. Bu isə döyüş bölgəsində yenicə fəaliyyətə başlayan gənc zabit üçün çox şey demək idi. Mən öz xidmətimlə onların ümidlərini doğrult-

mağa çalı.mışam və təvazökarlıqdan uzaq olsa da deyə bilərəm ki, həmişə buna nail olmuşam. Sonralar ordu hissələri ilə birlikdə keçirilən döyüş əməliyyatlarında, Arazboyu kəndlərin və Horadiz qəsəbəsinin azad olunması ilə başa çatan döyüşlərdə fəal iştirak etmişəm. Mən bu gün də özümü xoşbəxt hiss edirəm ki, Cəbrayıl polisi kimi bir kollektivdə çalışmışam, döyüş əməliyyatlarında öz sözümü demişəm. Biz keçmiş döyüşçülər hər an Vətənin işğalda qalan torpaqlarının azad olunmasında iştirak etməyə hazır olan əsgərlərik. Mən inanıram ki, çox uzun bir zaman keçməyəcək, yaxın gələcəkdə biz Vətənimizin ərazi bütövlüyünü təmin etməyə nail olacağıq.

## O, CƏBRAYILDA CAMAAT ADAMI KİMİ TANINIRDI



Rzayev Vaqif

**Rzayev Vaqif Osman oğlu** 1952-ci il fevral ayının 5-də Ağdam rayonunun Gülablı kəndində anadan olub. 1959-cu ildə Gülablı kənd orta məktəbinin birinci sinfinə daxil olub. 1969-cu ildə həmin məktəbi bitirib. 1970-1972-ci illərdə hərbi xidmətdə olub. Orddudan tərxis olunduqdan sonra 1973-cü ildə Volqoqrad şəhər DİI-də milis nəfəri kimi xidməti işə qəbul olunub. Milisioner-sürücü kimi xidməti fəaliyyətdə olub. 1976-cı ilə kimi sürücü işləyib. 1976-1978-ci illərdə Saratov şəhərindəki Xüsusi Orta Milis məktəbinin dövlət avtomobil müfəttişi fakultəsində təhsil alıb. Məktəbi bitirdikdən sonra 1978-1980-ci illərdə Volqoqrad şəhər DİI-də baş yol müfəttişi vəzifəsində işləyib. 1980-ci ildə raportu əsasında iş yerini Azərbaycana dəyişib. 1980-1981-ci illərdə Bakı şəhər dövlət Yol milisi idarəsində çalışıb. 1981-ci ildə Cəbrayıl rayon DİŞ-nin dövlət avtomobil müfəttişi vəzifəsinə təyin edilib. 1987-ci ilə kimi həmin vəzifədə çalışıb. V.O.Rzayev Cəbrayıl rayonunda dövlət avtomobil müfəttişi işlədiyi dövrlərdə avtomobillərin texniki baxışdan keçirilməsi, yol-qəza hadisələrinin baş verməməsi üçün profilaktiki tədbirlərin həyata keçirilməsi sahəsində gördüyü qabaqlayıcı tədbirlər həmişə öz müsbət nəticəsini vermişdi. V.O.Rzayevin səmərəli əmək fəaliyyəti istər Cəbrayıl rayon DİŞ-nin rəhbərliyinin, istərsə də Cəbrayıl ictimaiyyətinin həmişə nəzər-diqqətini cəlb etmişdi. Müsbət iş keyfiyyəti ilə yanaşı yüksək əxlaqı davranışlarındakı xüsusiyyətləri camaat tərəfindən layiqincə qiymətləndirilmişdi. O, Cəbrayıl ictimaiyyəti arasında camaat adamı kimi ad çıxarmışdı.Elə tanınırdı. Mülki əhali arasında böyük hörmət sahibi idi.

V.O.Rzayev 1987-1989-cu illərdə Mirbəşir (indiki tərtər) rayon DİŞ-nin Dövlət Avtomobil Müfəttişliyində bölmə rəisi vəzifəsində işləmişdi. 1990-cı ildə Ağdam rayon DİŞ-nin Dövlət Avtomobil Müfəttişliyində bölmə rəisi, sonralar isə həmin müfəttişliyin şöbə rəisi vəzifələrində çalışmışdı.

V.O.Rzayev 1988-ci ildən başlayan Qarabağ hadisələrinin bilavasitə içində olmuş, Qarabağ müharibəsinin fəal iştirakçısına çevrilmişdi. 1990-cı ildə Ağdamda elan olunan fövqəladə vəziyyət rayonunda komendantın müavini olmuşdu. Rusiya hərbi hissələri rayon ərazisinə daxil olduqdan sonra bu vəzifədən imtina etmiş, Gülablı kənd özünü müdafiə dəstəsinin komandiri kimi torpaqların müdafiəsinə qalxmışdı. Həmişə qaynar nöqtələrdə gedən döyüşlərdə iştirak etmişdi. 1992-ci il iyul ayının 17-də Vaqif Rzayev və özünün bir çox dəstə üzvləri ilə birgə xidməti maşınında kəndin cəbhə xəttində yerləşən bir postdan digər posta keçərkən düşmən tərəfin piyadaların döyüş maşınının (PDM) hədəfinə tuş gəlmişdi. Güllə mərmisi V.Rzayevin sağ ayağını, sağ əlinin ikinci barmağını aparmış, sol ayağını yaralayıb keçmişdi. Hadisə zamanı

vurulan maşında olan Şuşa şəhər polis şöbəsinin Müşfiq adlı polis nəfəri yerindəcə həlak olmuşdu. Allahverdi adlı polis nəfəri baş nahiyəsindən ağır qəlpə yarası almışdı. İçərisində döyüş sursatı olan və Şuşa şəhər polis şöbəsinə məxsus UAZ-469 markalı maşın partlayış nəticəsində tamamilə alovlanıb yanmışdı. Həmin hadisə zamanı Saatlı rayon Polis şöbəsinin əməkdaşı, polis serjantı Şahin Mürsəlov ağır vəziyyətdə olan V.O.Rzayevi Ağdam rayonunun Mahruzlu kəndindəki xəstəxanaya çatdıra bilmişdi. Həkimlər V.O.Rzayevin sağ ayağını amputasiya edərək Bakıya-hərbi hospitala göndəmişlər. Burada 3 aylıq həkim nəzarətində saxlanıldıqdan sonra o, Almaniya xəstəxanlarından birinə müalicəyə göndərilir. Lazımi müalicə aldıqdan sonra vətənə qayıdır.

Əvvəl Sumqayıt şəhərində, sonra isə Bakı şəhəri,Yasamal rayon Polis şöbəsində işlə təmin olunur. 2000-ci ildə polis mayoru rütbəsində 1-ci qrup Qarabağ müharibəsinin əlili kimi DİO-dan təqaüdə buraxılır. Hal-hazırda böyrəkləri öz fəaliyyətlərini dayandırdığından, daha doğrusu funksiyasını lazımınca yerinə yetirmədiyindən həkim nəzarəti altında yaşayır. Mütəmadi qaydada müalicə alır.

Ailəlidir. 3 övladı – 2 oğlu, 1 qızı var.

## RƏİSLƏRİN SEVİMLİSİ

**Həziyev Əliyar Bahəddin oğlu** 1970-ci il dekabr ayının 31-də Xələfli kəndində anadan olub. 1988-ci ildə Xələfli kənd orta məktəbini bitirdikdən sonra hərbi xidmətə çağrılıb. 1988-1990-cı illərdə həqiqi hərbi xidmətini Rusiyanın Primorsk vilayətinin sərhəd rayonlarında keçirib. Piyada qoşun növü üzrə hərbi hissədə " snayperçi" əsgər olmuş və kiçik hərbi rütbə - starşina rütbəsi almışdı. Ordudan tərxis olunduqdan sonra 1990-1992-ci illərdə Cəbrayıl rayon Polis şöbəsinin PPX rotasında polis nəfəri vəzifəsində xidmət edib. 1992-1996-cı illərdə respublika




Həziyev Əliyar

DİN-nin Polis Akademiyasında müdavim olub. Akademiyanı bitirən kimi polis leytenantı xüsusi rütbəsində Yevlax RPŞ – nə sahə müvəkkili vəzifəsinə təyinat alıb. 1999-cu ilədək həmin vəzifədə çalışıb. 1999-2003-cü illərdə Quba rayon PŞ-də xidmət üzrə baş inspektor vəzifəsində işləyib. 2003-cü ildə Dəvəçi RPŞ-də narkotiklərlə mübarizə qrupunun əməliyyat müvəkkili vəzifəsinə təyinat alıb. Hal-hazırda həmin vəzifədə işləyir. Polis kapitanıdır. Ailəlidir.

**Həziyev Əliyar Bahəddin oğlunun I xatırlaması:**

– Hərbi xidməti başa vurub geri qayıtmağım barədə məlumat vermək üçün Cəbrayıl rayon Hərbi komissarlığına gəldim. Komissar mənim hərbi biletimə baxan kimi Cəbrayıl RPŞ-nin rəisi Rəşid Məmmədova telefon açdı. Mənim barəmdə ona məlumat verdi. Dəstəyi yerə qoyub mənə tərəf döndü. Köməkçisi də içərideydi. Dedi ki, tez gedin, rəis sizi gözləyir. Biz komissarın köməkçisi ilə birgə Cəbrayıl rayon polis şöbəsinə gəldik. Rəis məni tez qəbul etdi. Biletimi vərəqlədi və soruşdu: "Biletdə göstərilən silahlardan istifadə etmisənmi?". Mən bildirdim ki, hərbi hissə komandirinin ən çox tərif etdiyi snayperçi mən olmuşam. R.Məmmədov, rəhmətlik mənə erməni quldurlarından danışdı. Sonra da əlavə etdi ki, sən get, sənədlərin qalsın. Hazırlaş, səndən yaxşı polis işçisi olar. Mən əlavə tələb olunan sənədləri düzəldib şöbəyə təqdim etdim. 1991-ci ilin fevral ayında Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri kimi xidməti fəaliyyətə başladım.

**Həziyev Əliyar Bahəddin oğlunun II xatırlaması:**

– Döyüş ruhumuzun belə yüksək olmasında mərhum, o vaxtlar rayon polis şöbəsinin rəisi işləyən Rəşid Məm-

mədovun, əvvəllər rəis müavini, sonralar isə rəis vəzifəsində işləyən və bu gündə fəaliyyətini davam etdirən V.Məhərrəmovun böyük və fədəkar əməkləri olmuşdu. Mən xüsusilə Rəşid müəllimin mənə göstərdiyi atalıq qayğısından iki epizodu istərdim dilə gətirəm. Onun adı, əziz xatirəsi heç vaxt mənim tərəfimdən unudulan deyil. Bir dəfə Şişqaya istiqamətində əməliyyat keçirirdik. Cavan olduğumdan tez-tez Rəşid müəllimdən qabağa keçir, dağa sarı daha çevik dırmanırdım. Cənnətməkan olmuş Rəşid müəllim məni yarı yolda dayandırıb dedi: " Əliyar, məndən çox cavansan, sənə xətər gələr. Mənsə yaşlanmışam, qoy qabaqda mən gedim. Qoy nə olsa birinci mənə olsun. Axı sən evli də deyilsən. Yeri gəlmişkən soruşum. Gözaltın, filanın varmı?". Mən çox kasıb bir ailədən çıxmışam, Əlisahib müəllim, bəlkə də ailəmizi tanıyardın. Rəşid müəllimə dedim ki, gözaltım var. Amma kasıbçılığın üzü qara olsun.Hələ toy eləməyə gücüm çatmır. Allah qoysa, müharibə qurtarsın nəysə bir şey fikirləşərəm. Osa sözümü yarımçıq kəsdi. Dedi: " Ayə, bunu niyə indiyə qədər mənə deməmisən. Toyun bütün xərci mənim boynuma. Müharibəni də bəhanə gətirmə. Qarabağ müharibəsi bir oyundur, qurtaran deyil. Müharibədə toyun ayrı ləzzəti var. Arada şənlənmək də lazımdır. Uşaqların ovqatını qaldırmaq pis olmaz". Allah rəhmət eləsin Rəşid müəllimə, mənə bir toy elətdirdi ki, gəl görəsən. O vaxtlar biz tərəfdə video yox idi. Bəlkə də indiyə kimi Dağ Xələflidə mənim toyum qədər çal-çağırlı, qələbəlikli bir toy olmamışdı. Rəşid müəllim bu gün də dilimin əzbəridi. Onun bu sevgisi elə bil taleyimə bir yazı olubdu. İş yerim bu qısa müddətdə Cəbrayıl da daxil olmaqla Yevlaxda, Qubada, Dəvəçidə - 4 rayonda keçib. Hamısında rəislərin sevimlisi olmuşam. Istər Yevlaxda polis rəisi Faiq Şabanovun, istər sə də Qubada polis rəisi Nizami Sadıxovun mənə göstərdikləri münasibət Rəşid müəllimin göstərdiyi sevginin sanki davamıdır, deməzsən



elə təkrarı oldu. Nizami Sadıxovun iş yeri Dəvəçiyə dəyişdiriləndə öz təşəbbüsü ilə məni də özüylə Dəvəçi rayonunda yeni vəzifəyə təyin olunmağıma səbəbkarlıq etdi..

## NAĞIYEV RAMİL ƏBİL OĞLUNUN CƏBHƏ XATIRLAMALARI


Nağıyev Ramil

**Nağıyev Ramil Əbil oğlu** 1961-ci il noyabr ayının 3-də Füzuli rayonunun Aşağı Aybasanlı kəndində fəhlə ailəsində anadan olub. 1970-ci ildə Füzuli rayonunun Qorqan kənd orta məktəbinin 1-ci sinfinə daxil olub, 4-cü sinfədək oxuyub. Orta təhsilini 1974-cü ildən Yuxarı Seyidəhmədli kənd orta məktəbində davam etdirib. 1979-cu ildə orta məktəbi bitirərək, sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna verib. 2 illik uğursuz cəhddən sonra 1980-ci ildə həqiqi hərbi mükəlləfiyyətindən keçmək üçün Sovet ordusu sıralarına çağrılıb. 1982-ci ildə hərbi xidmətini başa vuraraq geri qayıdıb. Əmək fəaliyyətinə Füzuli rayonundakı " Mübariz" üzümçülük sovxozunda fəhlə kimi başlayıb.

1983-cü ildə Bakı Politexnik Texnikumunun "Avtonəqliyyatın istismarı" fakultəsinə daxil olub. 1986-cı ildə həmin fakultəni fərqlənmə diplomu ilə bitirib, DİN-yi tərəfindən YPX-nə təyinat almaq üçün texnikuma verilmiş 5 yerdən birinə müsabiqə yolu ilə qəbul edilib. 1986-cı ildə Cəbrayıl RPŞ-nin YPX inspektoru vəzifəsinə göndərilib. 1994-cü ilə qədər həmin vəzifədə işləyib. Həmin ilin oktyabr ayında yol polisi baş inspektoru vəzifəsinə təyin olunaraq, polis kiçik leytenantı xüsusi rütbəsi alıb.

1998-ci ildə Cəbrayıl RPŞ DYPB-nin inzibati təcrübə üzrə inspektoru təyin edilib. 2002-ci ilin sentyabr ayında DİN-nin əmri ilə Füzuli RPŞ-nin DYPB -ə eyni adlı vəzifəyə göndərilir. Hazırda həmin vəzifədə işləyir. "Milis əlaçısı" döş nişanı ilə təltif olunub, usta məharət dərəcəsi var. Ailəlidir. 2 qızı, bir oğlu var.

R.Ə.Nağıyev Cəbrayıl rayonunda işlədiyi 1988-1993-cü illər ərzində erməni quldurlarına qarşı keçirilən əməliyyatların bir çoxunda - Daşbaşı, Zamzur, Sayaq, Ağcakənd, Mülkədərə, Sur, Banazur, Dolanlar kəndlərinin terrorçulardan təmizlənməsində yaxından iştirak edib.

**Nağıyev Ramil Əbil oğlunun xatırlaması:**

- 23 dekabr 1991-ci il tarixdə şöbəyə məlumat çatdırıldı ki, Daşbaşı kəndində çoxlu sayda yaraqlılar yerləşdirilib. Səhər bölgüsündə şöbənin rəisi Rəşid Məmmədov bir qrup əməkdaşı, yəni Xankişiyev Əli, Yaqubov Nurəddin, Əhmədov Tofiq, Həziyev Əliyar, Mustafayev Nadir, Həsənov Fərhad (Zamzur PB-nin rəisi) və məni Daşbaşı kəndinə göndərdi. Əlavə göstəriş verdi ki, şöbədə qalan əməkdaşlar əməliyyata hazır olsunlar. Mən və Xankişiyev Əli rəislə birlikdə onun maşınında, qalan əməkdaşlar isə Həsənov Fərhadın UAZ-469 markalı maşınında Daşbaşı kəndinə getdik. Kəndə çatanda Rəşid müəllim göstəriş verdi ki, 2 nəfər kəndə arxa tərəfdən kəşfiyyata getsin, Həsənov Fərhad maşınla sağ tərəfdən, biz isə maşınla sol tərəfdən eyni vaxtda kəndə girək. Kəşfiyyata gedənlər Əhmədov Tofiq, Mustafayev Nadir -1-ci qrupda, Həsənov Fərhad, Yaqubov Nurəddin, Həziyev Əliyar-2-ci qrupda, biz isə rəislə birlikdə idik. Birdən maşında olan radiostansiyadan erməni dilində danışıq səsləri eşidildi, rəisə dedim ki, ermənilər kənddədilər, çünki ermənilər yaxınlıqda olanda səsləri radiostansiyaya düşürdü. Rəis göstəriş verdi ki, ehtiyatla tərpənin, eyni vaxtda kəndə girməliyik. Biz kəndə girdik. Kənddəki su hovuzunun yanına çatanda ermənilərdən bir nəfər Həsənov Fərhadın maşınını tanıdığından evdən çıxıb bizə tərəf gəldiyini gördük. Mən və Xankişiyev Əli tez maşından düşüb həmin ermənini tərksilah etdik. Rəis göstəriş verdi ki, gətirin onu maşına. Rəis ondan soruşdu: Qalan silahlılar haradadır? Sual yarımçıq qaldı. Bu vaxt bizi evlərdən güclü atəşə tutdular. Biz özümüzə mövqe seçib, atəşin haradan gəlməsini izlədik. Rəis şöbədən əlavə qüvvə gəlməsinə, bizə köməklik göstərməsi üçün ratsiya ilə göstəriş verdilər. Evlərdən açılan güclü atəşlər kəsmək bilmirdi. Birdən mən gördüm ki, su hovuzundan bir az aralı pulemyot bizə tərəf tuşlanıb, amma arxasında heç kəs yoxdur. Tez özümü atdım həmin pulemyotun arxasına və üzünü çevirdim Zamzura tərəf qaçan erməni qulduruna tərəf. Həmin vaxt Xankişiyev Əli də mənim yanıma gəldi və o da qaçan erməniləri göstərərək tez atəş açmağımı dedi. Mən bir-iki dəfə tətiyi çəkdim, atəş açılmadı, onda patronnikdə patronun açılmadığını hiss edərək, həmin patronu çıxardıb kənara atdım, sonra başladım pulemyotdan ermənilərə tərəf atəş açmağa. Qaçan ermənilər gözdən itdilər. Bizə şöbədən əlavə kömək gəldi. Rəisin göstərişi ilə evləri yaraqlılardan təmizləməyə başladıq. Evin birinə yaxınlaşanda içəridən terrorçular polis əməkdaşı Zakir Zalovu və onunla birlikdə irəli gedən Çingiz adında hərbi formada olan oğlanı qəflətən atəşə tutdular. Bu vaxt Zakir Zalov həmin terrorçulardan birini vurdu. Sonra ermənilər Zakiri vurdular. Evə girmək mümkün deyildi. Çünki evin içərisində mövqe tutmuş terrorçular pəncərələrdən, qapılardan bizi atəş altda nəzarətdə saxlayırdılar. Bu vaxt qərara alındı ki, evi yandırmaq lazımdır. Mən gördüm ki, evin çardağında ot, saman kipləri görünür. Fikirləşdim ki, pulemyotda olan alışdırıcı patronla evi yandırmaq olar, bu məqsədlə binanın çardağına atəş açdım, ev yanmağa başladı. Terrorçular xəbərdar edildilər ki, bina yanır, çıxın, ancaq bayıra çıxan olmadı. Bina yanandan sonra orada tapılan avtomat silahların bizim şöbəyə məxsus olduğunu müəyyən etdik.

15.XI.1991-ci il tarixdə "Şayaq" postunda aparılan döyüşlər vaxtı Ruslar tərəfindən bizim şöbənin əməkdaşlarından götürülənlər idi. Həmin silahlar erməni terrorçularına verilmişdi. Rəis kənddə tutulan ermənini şöbəyə göndərdi. Bir sözlə, Cəbrayılda keçirilən Şayaq, Sur, Zamzur, Daşbaşı və başqa əməliyyatlarda fəal iştirak etmişəm. Rayon işğal olunduqdan sonra Cəbrayıl RPŞ Füzuli rayonunun Bala Bəhmənli kəndində yerləşdirildi. Şöbəmiz Daxili Qoşunların Ağdam alayının tərkibində fəaliyyət göstərirdi. Həmin vaxtlar biz 1-ci eşalonda ön xətdə keşik çəkirdik. Həmin dövrdə mən də kazarma şəraitində olmuşam, səngərlərdə xidmət aparmışam. Keçirilən döyüş əməliyyatlarında iştirak etmişəm. Arazboyu kəndlərimizin, Horadiz qəsəbəsinin geri alınması ilə əlaqədar 5-6 yanvar 1994-cü il tarixdə keçirilən döyüş əməliyyatlarında da bilavasitə iştirak etmişəm...

## MƏMMƏDOV MƏHƏMMƏDƏLİ MƏHƏMMƏD OĞLU



Məmmədov Məhəmmədəli

**Məmmədov Məhəmmədəli Məhəmməd oğlu** 1958-ci ildə aprel ayının 1-də Cəbrayıl rayonunun Şahvəlli kəndində ziyalı ailəsində anadan olub.

Məmmədov Məhəmmədəli Məhəmməd oğlu 1973-cü ildə Şahvəlli kənd səkkizillik məktəbini, 1975-ci ildə isə Cəbrayıl şəhərindəki akademik Mehdi Mehdizadə adına orta məktəbi bitirib. 1976-1978-ci illərdə hərbi xidmətdə olub. Əsgəri xidmətdən tərxis olunan M.M.Məmmədov hərbi komissarlığın tövsiyyəsi ilə Cəbrayıl rayon



DİŞ yanında Mühafizə bölməsində sıravi polis nəfəri kimi xidməti işə qəbul edilib. 1979-1981-ci illərdə sıravi polis nəfəri, 1981-1983-cü illərdə bölmənin kadrlar şöbəsinin rəisi kimi fəaliyyətini davam etdirib.

Məmmədov Məhəmmədəli Məhəmməd oğlu 1979-cu ildə işdən ayrılmadan qiyabi yolla Gəncə Politexniki texnikumunun Avtomobilin istismarı fakultəsində təhsilini davam etdirib 1983-cü ildə həmin texnikumu bitirib. Avtomobil istismarçısı kimi mexanik ixtisasına yiyələnibdi.

M.M. Məmmədov 1983-cü ildə Azərbaycan SSR DİN-nin DYP idarəsində işə keçir. O, Şəmkir-Qazax dövlət yol xidməti bölməsində yol nəzarətçisi kimi xidməti işə başlayır.

1983-1991-ci illərdə Respublikanın müxtəlif regionlarında – Gədəbəydə, Tovuzda, Qazaxda, Şəmkirdə, Yevlaxda yol nəzarətçisi kimi fəaliyyət göstərmişdi. 1991-ci ildə isə Gəncə şəhər Dövlət Yol Polisi İdarəsində yol nəzarətçisi vəzifəsinə keçmişdi. 2004-cü ilin noyabr ayında DİO-dan təqaüdə çıxmışdır

2004-cü il dekabr ayının 11-də 46 yaşında qəflətən həyatını qeyb etmişdi.

Məmmədov Məhəmmədəli Məhəmməd oğlu həmişə işlədiyi yerdə özünün mübarizliyi ilə fərqlənmiş, özünü düzgünlük tərəfdarı kimi göstərmişdi. Qanunsuz göstərişləri yerinə yetirməkdən boyun qaçırmışdı. Ayrı-ayrı iş sahələrində müxtəlif təzyiqlərə, təpkilərə məruz qalmış, tez-tez iş yerini dəyişmək məcburiyyətində qalmışdı. Bir qayda olaraq haqsızlığa qarşı mübarizə aparmışdı. Hüquqlarının tapdanmasına, pozulmasına imkan verməmişdi. Bu mübarizə nəticəsində dəfələrlə işdən azad edilsə də yenidən öz işinə bərpa edilmişdi.

Məmmədov Məhəmmədəli Məhəmməd oğlunun iki oğlu, bir qız övladı var. Oğlu Samir Gəncə Texnologiya Universtitetində, qızı Aylara isə Gəncə Dövlət Universitetində oxuyur. Kiçik oğlu məktəblidir.



Polis əməkdaşları
Şayaq postunda






V BÖLMƏ

# CƏBRAYIL POLİSİNİN VETERAN POLİSLƏRİ VƏ I QARABAĞ MÜHARİBƏSİNİN VETERANLARI




Veteranlar Şəhidlər Xiyabanında



# CƏBRAYILIN VETERAN POLİSLƏRİ CANLI ARXİVDİ

## BAXŞALIYEV MUSA HÜSEYNQULU OĞLU



Baxşalıyev Musa

Baxşalıyev Musa Hüseynqulu oğlu 1917-ci ildə Cəbrayıl rayonunun Balyand kəndində dünyaya göz açıb. Lakin sənədlərdə bu rəqəm sonradan yazıya alındığından doğum tarixi 1920-ci il kimi qeyd olunub. 1937-1938-ci illərdə Ukrayna SSR-də hərbi xidmətdə olub. Gəncə şəhərində böyük serjantlıq kursunu bitirib. İlk əmək fəaliyyətinə vzvod komandiri kimi başlayıb. Ordudan tərxis olunaraq 1939-cu ildə Ağcabədi rayon DİŞ-nin katibi olaraq daxili işlər orqanlarında xidməti işə keçib. Az keçməmiş sahə müvəkkili kimi işini davam etdirib. 6 aylıq milis kursu bitirib. Bundan sonra Bakıya ezam olunub. 1940-1942-ci illərdə Mərdəkan qəsəbəsindəki Xüsusi milis məktəbində təhsilini davam etdirib. Təyinatla Cəbrayıl rayon DİŞ-nə sahə müvəkkili vəzifəsinə göndərilib. 1943-cü ildən 1950-ci ilədək rayonun müxtəlif ərazilərində sahə müvəkkili kimi fəaliyyət göstərib. 1950-1951-ci illərdə pasport masa rəisi vəzifəsində çalışıb. 1952-ci ildən 1954-cü ilədək əməliyyat müvəkkili işləyib. 1954-cü ildən 1969-cu ilədək təkrar sahə müvəkkili kimi işini davam etdirib. 1969-cu ildə 30 illik iş stajı ilə daxili işlər orqanlarından təqaüdə çıxarılıb. 1970-1973-cü illərdə Minbaşılı kənd sovetinin sədri vəzifəsində işləyib.

Baxşalıyev Musa Hüseynqulu oğlu ümumiyyətlə 1943-cü ildən 1969-cu ilədək Cəbrayıl rayon DİŞ-nin əməkdaşı

olub. 1956-cı ildən 1962-ilədək həm də milis, prokuror, məhkəmə və dövlət təhlükəsizlik komitəsi ilk partiya təşkilatına rəhbərlik edib. 1952-ci ildə Şükürbəyli, 1967-ci ildə Dağtumas, 1970-73-cü illərdə Minbaşılı kənd sovetlərinə deputat seçilib.

Baxşalıyev Musa Hüseynqulu oğlu işlədiyi müddətdə öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib. Böyük Vətən Müharibəsi illərində onun asayişin qorunması, cinayətkarlığa qarşı mübarizə aparması profilaktiki tədbirlər görmək bacarığı arxa cəbhədə insanların təhlükəsizliyinin təmin edilməsi sahəsində işi yüksək qiymətləndirilmişdi. O, 22 avqust 1945-ci ildə "Qafqazın müdafiəsi", 1946-cı ildə isə "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdi. Böyük Vətən Müharibəsində qələbənin 30, 40, 50 illiyi və SSRİ Silahlı Qüvvələrinin 60 illiyi münasibəti ilə yubiley medallarına layiq görülmüşdü. Habelə "1941-1945-ci illər müharibəsinin veteranı" döş nişanı ilə təltif edilmişdi.

Baxşalıyev Musa Hüseynqulu oğlu polis əməkdaşları sırasında həmişə fərqlənmiş, vəzifəsini nümunəvi yerinə yetirənlərdən biri olmuşdu. Sahə müvəkkili kimi xidmət etdiyi ərazi nümunəvi sahələr sırasında qeydə alınıbdı. Açılmayan xüsusi cinayətlərin açılmasındakı fəaliyyəti, ictimaiyyətlə sıx əlaqəsi, müsbət iş təcrübəsi lazımınca qiymətləndirilmişdi. Yaxşı işinə görə 12 dəfə dövlət mükafatlarına layiq görülməsi diqqət çəkəndi. Bu mükafatlar həm respublika, həm də ittifaq səviyyəli daxili işlər orqanları tərəfindən verilmişdi. Baxşalıyev Musa Hüseynqulu oğlu SSRİ Daxili İşlər Nazirinin əmri ilə 2 dəfə " Qüsursuz xidmətinə görə" medalının 1-ci və 2-ci dərəcələri ilə mükafatlandırılmışdı. Respublika Daxili İşlər Nazirliyi tərəfindən isə nümunəvi işinə görə 5 dəfə təşəkkür almışdı. " Sovet milisinin 50 illiyi" yubiley medalı ilə təltif edilmişdi. Cəbrayıl rayon İcraiyyə Komitəsinin təqdimatı əsasında respublika Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Əmək veteranı" medalına da layiq görülmüşdü.



Baxşalıyev Musa Hüseyinqulu oğlu Balyand kəndinin xeyir-şər işlərində yaxından iştirak edir, həmkəndliləri bir kənd ağsaqqalı kimi ona böyük hörmət və ehtiram göstərirlər. Məclislərdə, mərasimlərdə, müxtəlif toplantılarda, icma yığıncaqlarında onu mötəbər yerdə otuzdurur, ağsaqqal sözünə, məsləhətlərinə ehtiyac duyurlar. O, bir qayda olaraq kənddə aparılan abadlıq işlərinin ilk təşəbbüskarlarından biri kimi çıxış edir. Xeyirxah işlərin görülməsində öz köməyini və yardımını əsirgəmir. Kəndin inac və inam ocaqlarından biri olan məşhur " Düldül " ziyarətgahını öz vəsaiti hesabına hasara aldırmış, ətrafında abadlıq işləri gördürmüşdü.

Baxşalıyev Musa Hüseyinqulu oğlu da həmkəndliləri kimi erməni-daşnak vandalizminin zərər çəkənlərindən biridir. O da Cəbrayıl rayonunun işğalı ilə bağlı 23 avqust 1993-cü il tarixdən ev-eşiyindən didərgin düşmüşdür. Halhazırda məcburu köçkünlük həyatı yaşayır. Bakı şəhərində müvəqqəti məskunlaşıb.

## HACIYEV NƏSİB RZA OĞLU

**Hacıyev Nəsib Rza oğlu** 1934 - cü ildə Cəbrayıl şəhərində anadan olub. Ümumorta təhsilini Cəbrayıl şəhərindəki M. Qorki adına orta məktəbdə alıb. Könüllü olaraq 1951-ci ildə hərbi xidmətə yollanıb. Ordudan tərxis olunduqdan sonra Cəbrayıla - doğma el - obasına qayıdıb.

**Hacıyev Nəsib Rza oğlunun xatırlaması:** "1952-ci il idi. Mən hərbi xidmətdən qayıtdıqdan sonra Cəbrayıl rayon Dövlət bankında kiçik mühasib vəzifəsində işləyirdim. Həmin dövrdə rayon DİŞ-də pasport-masa rəisi işləyən Süleymanov Süleyman tez-tez banka gəlir, pasportdan yığılan rüsumları müntəzəm olaraq vaxtında bankdakı hesablarına köçürürdü. Mən isə onu sənədləşdirirdim. Sü-


Hacıyev Nəsib

leymanın dediyinə görə mənim xəttim onun xoşuna gəlmişdi. Sonradan öyrəndim ki, Süleymanın da zövqü oxşayan hüsnxətti var. O, rayonda yaxşı xətti olanların bəlkə də birincisi idi. Bir gün o, mənə milis şöbəsində pasport yazan işləməyi təklif etdi. Mən onun təklif etdiyi işin mahiyyətini təsəvvürümə gətirə bilmirdim. Ancaq razılıq verdim. 1953-cü ildə mən milis şöbəsinin əməkdaşı "kimi fəaliyyətə başladım. Süleyman Süleymanovun rəis olduğu pasport--masa bölməsində pasport yazan oldum". N. R. Hacıyev həmin gündən həyatını daxili işlər orqanında xidməti işə həsr edib. 1956-cı ildə Bakı şəhərinin Mərdəkan qəsəbəsindəki Xüsusi Orta Milis məktəbinə qəbul olunub. 1958-ci ildə həmin məktəbi bitirərək yenidən Cəbrayıl rayon milis şöbəsinə təyinat alıb. 1964-ci ilədək Cəbrayıl rayon DİŞ-nin pasaort-masa bölməsində rəis müavini işləyib. 1959-62-ci illərdə Bakı Dövlət Universtitinin qiyabi şöbəsində məzun olub. Ailə vəziyyəti ilə əlaqədar olaraq təhsilini tamamlaya bilməmişdi.

N. R. Hacıyev 1964 - cü ildə Cəbrayıl rayon DİŞ-də pasport-masa bölməsinin rəisi vəzifəsinə təyin edilib. 1974-cü ilədək həmin vəzifədə çalışıb. 1974 - 1980-ci illərdə Cəbrayıl rayon DİŞ-də rəis müavini, əməliyyat müfəkkili və s. kimi müxtəlif vəzifələrdə çalışıb. 1986-cı ildə DİO-dan təqaüdə buraxılsada, yenidən DİŞ-də işini mülki şəxs kimi davam etdirib. 1986 - 2001-ci illərdə şöbənin mühasibi vəzifəsində çalışmışdır.

N.R. Hacıyev bu illər ərzində vicdanlı, təmiz işləməsi, verilən tapşırıqlara məsuliyyətlə yanaşması ilə fərqlənib. Öz işində diqqətli olub. Bütün bunların nəticəsidir ki, uzun illər qüsursuz işlədiyinə gör o dəfələrə həm şöbə, həm də



respublika DİN-nin təşəkkürlərini, pul mükafatlarını alıb. Müxtəlif medallarla, döş nişanları ilə təltif edilib.

N. R. Hacıyev gənclik illərində rayonun idman şərəfinin qorunmasında da öz töhvəsini verib. Rayonun yığma futbol komandasının ən güclü hücumcularından biri olub. Həmin dövrdə Cəbrayılın futbol komandası respublika çempionatında mühüm yerlərdən birini tutub.

Məcburi köçkün həyatı keçirən polis mayoru Hacıyev Nəsib Rza oğlu 2004-cü il mart ayının 14-də müvəqqəti məskunlaşdığı Sabirabad rayonunun Surra kəndində vəfat edib. Cənazəsi Surra kənd qəbirsanlığında torpağa tapşırılıb.

## ŞÜKÜROV FƏRMAN MƏHƏRRƏM OĞLU


Şükürov Fərman

**Şükürov Fərman Məhərrəm oğlu** 1924-cü ildə Füzuli rayonunun Mollavəli kəndində anadan olub. 1943-cü ildə Qoçəhmədli kənd orta məktəbini bitirib. Elə həmin il Füzuli rayon DİŞ-nin peşikar yanğın söndürmə dəstəsində hazırlıq qrupuna cəlb olunur. Sınaq - yoxlamalardan layiqincə çıxan gənc 1943-cü ilin sentyabr ayında Azərbaycan SSR DİN-nin Yanğından Mühafizə İdarəsinin nəzdnindəki iki illik məktəbə ezam edilir. 1945-ci ildə həmin məktəbdə təhsilini başa vuran Şükürov Fərman Məhərrəm oğlu təyinatla Sabirabad rayon DİŞ-nin peşəkar yanğın söndürən dəstələrində növbə rəisi vəzifəsinə göndərilib. Orada iş fəaliyyəti qısa müddətli olub. Nazirliyin əmri ilə Saatlı rayonunda həmin vəzifəyə keçirilib. 3 aylıq əmək fəaliyyətindən sonra ailə vəziyyəti ilə əlaqədar olaraq 1945-ci ildə Füzuli rayon

DİŞ-nin peşəkar yanğın söndürmə dəstəsində yanğınsöndürən vəzifəsinə göndərilib. 1946-cı ilin may ayında isə starşina rütbəsində Cəbrayıl rayon DİŞ-nin Dövlət Yanğından Mühafizə müfəttişi vəzifəsinə təyin edilib. Elə həmin gündən istər şəxsi həyatını, istərsə də iş fəaliyyətini Cəbrayıl rayonuyla bağlayır. 1946-cı ildən 1984-cü ilədək həmin quruma rəhbərlik edib. 1984-cü ilin oktyabr ayında təqaüdə buraxılsa da yenə də aparıcı mütəxəssis kimi işini həmin müəssisədə davam etdirib.

Şükürov Fərman Məhərrəm oğlu işlədiyi müddətdə ancaq özünü müsbət cəhətləri ilə qabardıb, işgüzar göstərib. Əxlaqi keyfiyyətləri yüksək və nümunəvi əmək intizamına riayət etməsi ilə özünü tanıdıb. Xüsusilə, mövsümlərdə məhsul tədarükü dövrlərində taxıl biçini və yığımı kimi məsul dövrlərdə gücləndirilmiş iş rejimində çalışmış, şöbənin işini nümunəvi təşkil etmişdi. Pambıq tayalarının, anbarlarda taxılın, kolxoz-sovxoz təsərrüfatlarında yanacağın, ferma həyətlərində qaba yemin yanğından mühafizəsini daim diqqət mərkəzində saxlamış, qabaqlayıcı, profilaktiki tədbirlərin həyata keçirilməsi işlərini vaxtaşırı yerinə yetirilməsinə tələbkarlıq göstərmişdi. Yanğından mühafizə işinə dair təlimatlara idarə, müəssisə və təşkilatlarda riayət edilməsini həmişə nəzarətdə saxlamışdı.

Mühafizəedici avadanlıqların alınmasına, müvafiq guşələrin təşkil edilməsinə yardımçı olmuş, müntəzəm surətdə və ardıcıl şəkildə təbliğat işi aparmışdı. İş keyfiyyəti, şəxsi heyətə olan tələbkarlığı, bölmədə bərqərar etdiyi nizam-intizam, səmərəli əmək fəaliyyəti yuxarı orqanlar tərəfindən lazımınca qiymətləndirilmişdi. Şükürov Fərman Məhərrəm oğluna 1950-ci ildə kiçik leytenant, 1952-ci ildə leytenant, 1960-cı ildə baş leytenant, 1980-ci ildə kapitan rütbəsi verilmişdi. 1955, 1965, 1975-ci illərdə əmək fəaliyyətinə başlamasının tarixi günlərində respublika DİN tərəfindən bir çox medallarla təltif edilmiş, pul, qiymətli



hədiyyələrlə mükafatlandırılmışdı. 1976-cı ildə qüsursuz işləməsinə və uzun müddətli əmək fəaliyyətinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdi. Şükürov Fərman Məhərrəm oğlunun 3 qız, 2 oğul övladı, 15 nəvəsi, 2 nəticəsi var.

Həyat yoldaşı Şəmsumə xanım rayonun fəal qadınlarından olmuşdu. 35 il rayon partiya, sovet orqanlarında rəhbər işlərdə çalışmışdı. Övladlarından Elbrus və Elxan ali təhsilli mühəndisdilər. Qızları Xuraman Tibb Universitetini, Nəsibə Pedaqoji Universiteti, Yaqut isə Slavyan Universitetini bitirmişdi. Şükürovlar ailəsi də Cəbrayıl rayonunun işğalından sonra yurd-yuvalarından didərgin düşmüşdü. Bakı şəhərində məskunlaşıblar. Məcburi köçkün həyatı keçirirlər.

Şükürov Fərman Məhərrəm oğlu 2005-ci ildə haqq dünyasına köçmüşdü.

## QARABAĞ MÜHARİBƏSİNİN ƏLİLLƏRİ VƏ VETERANLARI

### NÜBARƏYİN HƏYAT EŞQİ


Sevdimalıyev Nübarək

Tanıtma: **Sevdimalıyev Nübarək Babamir oğlu** 19 may 1968-ci ildə Hovuslu kəndində anadan olub. 1975-1985-ci illərdə Hovuslu kənd orta məktəbində oxuyub, ümumorta təhsil alıb. 1985-ci ildə Rayon komissarlığının xətti ilə sürücülük peşəsinə yiyələnib. 1986-cı ildə hərbi xidmətə səfərbər edilib. Həqiqi-hərbi xidmətini Sankt-Peterburqda keçirib. 1988-ci ildə hərbidən tərxis olunub. Əmək fəaliyyətinə Hovuslu kəndindəki Kirov adına kolxozun inşaat briqadasında sıravi kolxozçu kimi

başlayıb. 25 fevral 1991-ci ildə Cəbrayıl RPŞ-nin PPX rotasında polis serjantı rütbəsində polis nəfəri kimi xidmətə qəbul olunub. Erməni daşnak terror qruplarının Cəbrayıl rayonunun qondarma DQMV ilə həmsərhəd erməni kəndlərindən çıxarılması uğrunda gedən mübarizədə yaxından iştirak edib. 15 noyabr 1991-ci ildə Şayaq postunun müdafiəsi zamanı onurğasının bel nahiyəsindən güllə yarası alıb. Neyrocərrahiyyə xəstəxanasında əməliyyat edilib. Yerimək qabiliyyətini itirib. Əlil arabasında oturur. Xidmətində bacısı Qızılgül xanım durur. Sevdimalıyev Nübarək Babamir oğlu Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2006-cı il tarixli sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib;

İnsan yaşayır yaşatmaq üçün, yaşadır yaşamaq üçün. Hər bir canlının yaşamaq instinkti, yaşamaq eşqi var. İnsanı yaşadan onun həyat eşqidir. Hətta qeyri-instinkt olaraq şüurlu şəkildə yaşatmasa da hər bir canlı orqanizmin yaşamaq, yaratmaq həvəsini daxilən alovlandıran, onu yaşadan hisslərin heç zaman sönmək bilməyən həyat eşqinə söykəyi var. Həyat eşqi tükənməzdir, ölümsüzdür. Şüurlu aləmdə bu eşqə ölümsüzlük gətirən, ona güc-qüdrət, qüvvər verən özünüdərkdir. Əlil arabasında oturmuş Nübarəklə ilk görüşümdə məni təsir dairəsinə alan, ilk cəlb və cəzb edən ondakı bu əhval-ruhiyyəni görmək və təsdiqləmək oldu. Onun psixoloji keyfiyyətlərinə və durumuna diqqət yetirərkən bu qənaətə gəlməm özünü təsdiqlədi.

O, DİO-na qəbul edilən kimi fiziki və atəş hazırlığı üzrə tədris mərkəzində kurs keçdi. Atəş və fiziki hazırlıq normativlərini qısa bir zaman kəsiyində mənimsədi. Əlinə ilk dəfə silah alıb dayandığı yer Dolanlar–İsaxlı kəndləri arasındakı milis postu oldu. Post Ermənistandan bu ətrafa vertalyot uçuşları olub-olmamasını öyrənmək, aşkar etmək, daha doğrusu gəlib-getməsini müşahidə etmək qanunsuz uçuşların və hərəkətlərin qarşısını almaq üçün



qoyulmuşdu. Birinci döyüşü isə Ağcakənddəki pasport rejiminin yoxlanmasını həyata keçirərkən sondan-sona terrorçuların atəşlərinə qarşı cavab atəşləri açması oldu. Sonra isə Dolanlar, Daşbaşı, Banazur erməni kəndlərində yaradılmış postlarda keşik çəkdi. Atışmalar zamanı isə çevik dəstənin tərkibində aparılan bir çox döyüşlərdə iştirak etdi.

İkinci döyüş səhnəsi ilə Zamzur erməni kəndinin daşnak terror qruplarından təmizlənməsi zamanı rastlaşdı. Dan üzünün qaranlığınadək atışdılar. Terrorçular təzyiqlərə davam gətirməyib bir nəfər kimi kəndi tərk etdilər. Məktəbdə qərargah yaratdılar. İlk gecəni Nübarəyin özü də keşikdə durdu. İki ay çevik dəstənin tərkibində fəaliyyətini davam etdirdi. Sərasər döyüşlərdə iştirak etdi. Son döyüş yolu isə 15 noyabr 1991-ci il tarixdə Şayaq postundan keçdi. Qəhrəman Həmidovun rəhbərlik etdiyi qrupda Elşən Əsgərov, Vüqar Əliyev, Nadir Mustafayev, Qəşəm Nəsirov və Məhəmməd Quliyevlə yanaşı o da vardı. İmişli və Sabirabad RPŞ-lərinin hər birindən 5 nəfər əməkdaş olmaqla postaçılar 17 nəfər idilər. İki saatdan bir dəyişilən 4 post – yuxarı, aşağı və arxa tərəfki postlar oturaq – tərpənməz post, öndəki dördüncü post isə gəzəri olmaqla – 4 post fəaliyyət göstərirdi. Postdakılar adətkar olduqları ilk atəş səslərini saat $4^{00}$ radələrində eşitsələr də, post qanlı döyüş meydanına səhər saat $6^{00}$-da çevrildi. Saatbasaat təzyiq artırılırdı. Saat $13^{00}$ dək atışma qərargahdan kənarda davam edirirdi. Postun hər bir üzvü fədakarlıqla döyüşdü. Kömək gələcəyinə ümid edirdilər. Vaxtı uzadırdılar. Köməyə gələn polislərin qarşısını Zamzur kəndində düşmən kəsmişdi. Qanlı döyüşlər orada da getdiyindən Nübarəkgilə köməyə gəlmək qeyri-mümükün idi. Saat $13^{00}$-də geri çəkilməli, qərargaha yığılmalı oldular. Həm döyüş sursatına qənaət etmək üçün, həm də məcburiyyət qarşısında bu addımı atdılar. Atışmada vurulanları, qəhrəmancasına həlak olan Əli Xankişiyev (İmişli) və Əh-

mədağa Səmədovun (Sabirabad) cəsədlərinin düşmən əlində qalmasına imkan vermədilər. Lakin silahdaşlarından Əhməd Məmmədovun (İmişli) öldü-qaldısından xəbər tuta bilmədilər. (40 gün sonra onun da meyidini ermənitərəfdən aldılar). Habil Abışovla Sədaqət Əliyevi (hər ikisi Sabirabaddan) yaralı halda teleqülllənin yardımçı otaqlarından birinin içərisinə çəkib təhlükəsiz yerdə uzatdılar. İç-içə otaqların pəncərə tillərinə sinib atışan, müdafiə olunan polis əməkdaşları tez-tez yerdəyişməyə məcbur olurdular. Döyüşdə cəldlik, çeviklik göstərən İmamverdi Əliyev (İmişli) yerdəyişmələrin birinidə snayper gülləsinə hədəf oldu. Onu müdafiə etməyə çalışan Almaz Abışov da (İmişli) ağır güllə yarası aldı. Vəziyyət getdikcə gərginləşirdi.

Artıq kömək gözləməyin cəfəngiyat söhbət olduğunu dərk edən postdaçılar son damla qanlarınadək vuruşmaq vədiylə bir-birlərinə and içdilər. Adam başına bir patron sayıb paylayan Qəhrəman Həmidov kəllə divara son sözünü də yazdı: "Döyüşdük, təslim olmadıq!". Saat $16^{00}$ radələrində növbəti yerdəyişmə zamanı yaralanan isə Nübarək Sevdimalıyev oldu. O, onurğasının bel nahiyəsindən güllə yarası aldı. Yerə çökməklə sürünmək istədi, lakin ayaqları sözünə baxmadı. Can üzən kəskin ağrıdan və bir də hərəkət qabiliyyətini itirmiş ayaq nahiyəsinə baxanda huşdan getdi. Ona tərəf sürünən döyüşçü dostları köməkləşib onu da bir təhər təhlükəsiz yerə, yaralıların yanına çəkdilər.

Handan-hana özünə gələn Nübarək Sevdimalıyev aldığı sarsıntılardan çıxmadığı durumda ona söykək olan yaralı Almaza xahişlə müraciət etdi: " Al, bu patronu öldür məni, əsir düşməyim" – dedi. Öldürülməsini təkrar-təkrar ətrafdakılardan təvəqqəylə xahiş etdi. Psixoloji vəziyyətdən çıxınca istəyindən əl çəkmədi. Ancaq özünü toxtadanda sakitləşdi. Bu zaman isə həmişə tay-tuş sataşmasından qalmayan silahdaşı Qovşudlu Nadir bu dəfədə za-



rafatından qalmadı: " Ayə, Nübarək, ay altı bacının madar qardaşı, hələ ölməmisən, deyəsən sağsan, axı?!" – dedi. Dözülməz ağrı-acılarını içinə, canını dişinə sıxan Nübarək də özünü toparladı: "Ay, Nadir, ağzı göyçəklik eləmə, məndə həyat eşqi var. Tükənməzdi. Sənin acığına ölmərəm, İnşallah!"-dedi. Qanlı döyüş isə axşam saat $21^{00}$-dək davam etdi. Hər tərəf zil qaranlığa bürünəndə araya sükut çökdü. Danışıqlar başladı. Saat $21^{00}$-$22^{00}$ arasında Hadrut komendantı xidməti maşınında - UAZ-469-da postun qarşısına gəldi: "Sizi aparmağa gəlmişəm"- dedi.

Daşnak terrorçuları rus ordusunun köməyi ilə növbəti hiylələrini həyata keçirdilər. Şayaq postunu ələ keçirdilər.

N.B.Sevdimalıyev I qrup Qarabağ müharibəsi əlilidi. Cəbrayıl RPŞ-nin rəis müavini V.Hüseynovla danışıb Nübarəyin evinə getməyi qərara alırıq. İlk dəfə Nübarəklə onun Suraxanı qəsəbəsindəki həyət evində görüşürəm. Yuxarıda qeyd etdiyim qənaətə də elə görüşümüzdən aldığım təəssüratdan sonra gəlirəm. Bu evdə, bu həyətdə bir həyat çeşməsi var. Onu bu həyata bəxş edən Nübarəyin qəlbindən qaynayıb gələn həyat eşqidir. Mən həyətdən çıxarkən " Allahım, Nübarəyə bir sevgi də bəxş etsən nolar!" – deyirəm. Sevgi həyat eşqini yandırır, alovlandırır, ona dözüm, dəyanət verir. Peşmançılıq hisslərini insandan uzaqlaşdırır. Axı, sevgi olmayan yerdə həyat eşqi də sönə bilər...

## O DA VƏTƏNİN MÜDAFİƏSİNƏ QALXDI

Tanıtma: **Məmmədov İsgəndər Qulam oğlu** 14 dekabr 1954-cü ildə Qazaxıstan SSR-nin Georgiyev rayonunda anadan olub. Stalin irticasına məruz qalan valideyinləri bəraət aldıqdan sonra Vətənə qayıdıblar. Məktəbli yaşına çatmış İ.Q. Məmmədov 1962-ci ildə Soltanlı kənd orta məktəbinə daxil olub, 1972-ci ildə həmin məktəbi bitirir. 1972-ci ildə Politexnik İnstitutuna daxil olub. 1977-


Məmmədov İsgəndər

ci ildə həmin institutu qurtardıqda, təyinatla Türkmənistan SSR-nin paytaxtı Aşqabad şəhərinə göndərilib. O vaxtkı qanunların tələbləri əsasında 1977-1980-ci illərdə təyinat yerində işləyib. 1980-cı ildə ordu sıralarına çağırılıb. Kamçatka vilayətində hərbi xidmət keçib. Burada rota komandirinin siyasi işlər üzrə müavini vəzifəsində çalışıb. Ordu sıralarından tərxis olunduqdan sonra 1982-ci ildə Kamçatka Vilayəti DİI-də xidməti işə qəbul olunub. Məlum Qarabağ hadisələri başlayanda o da Vətənin müdafiəsinə qalxıb. Şəxsi raportu ilə iş yerini Azərbaycana dəyişib.1991-ci ilin noyabr ayında Azərbaycan Respublikası DİN-nin müvafiq əmri ilə Qubadlı RPŞ-də vzvod komandiri vəzifəsinə təyin edilib. Sərhədyanı kəndlərdə gedən döyüşlərdə iştirak edib. 1992-ci ilin may ayında iş yeri Cəbrayıla dəyişdirilib. Cəbrayıl RPŞ-nə vzvod komandiri vəzifəsinə göndərilib. 1992-ci ilin noyabr ayında həmin rayonda sahə müvəkkili vəzifəsinə, 1994-cü ilin iyul ayında isə Dolanlar Polis Bölməsinin rəisi vəzifəsinə təyin edilib. 1992-ci il avqust ayının 15-də Şişqaya yüksəkliyi uğrunda gedən döyüşlərdə yaralanıb. 2001-ci ilin noyabr ayında DİO-dan təqaüdə buraxılıb. Polis mayorudur. Ailəlidir.

**Məmmədov İsgəndər Qulam oğlunun I xatırlaması:**

-Birləşmiş qüvvələrin ( polis, könüllü qüvvələr və Cəbrayıl alayının əsgərləri) komandiri kimi, Şayaq yüksəkliyi uğrunda gedən döyüşlərdə olmuşam. Taktiki plana əsasən mənim başçılıq etdiyim 200 nəfərlik qrup Hərəkül-Zamzur istiqamətindən ermənilərin yerləşdiyi İbrahim təpəsi deyilən yerə hücum etməliydi. Digər qrup Daşbaşı tərəfdən Dəvədaşı deyilən ikinci istiqamətdən Şayağa hücum etməliydi. Qüvvələr arasındakı əlaqənin olmaması



ucbatından əfsuslar olsun ki, qarşıya qoyulan məqsədə nail ola bilmədik. Biz artıq saat $14^{00}$ radələrində döyüşə başlamışdıq. Polis nəfərlərindən Əliyar, Sirac, Sahib, Faiq, zabitlərdən Adil Məmmədov Samir Şükürov əsil qəhrəmanlıq nümunələri göstərirdilər. Lakin ikinci qrupdan xəbər-ətər yox idi. Ermənilər bundan istifadə edərək əsas qüvvələrini bizim üstümüzə yönəltdilər. İtki verməmək üçün geri çəkilməyə məcbur olduq. Bu döyüşdə bir neçə nəfər yaralansa da ağır itki vermədik.

**Məmmədov İsgəndər Qulam oğlunun II xatırlaması:**

-1992-ci ilin yayında yəni iyul-avqust aylarında Respublikanın Cəbrayıl-Füzuli bölgələrində vəziyyət kəskinləşdi. Ermənilər Hadrut rayonu ərazisindən bizim mövqelərimizi mütəmadi atəşə tutur, hər vasitə ilə terrorçu qruplardan təmizlənmiş, erməni kəndlərini geri almağa çalışırdılar. Bunun qarşısını almaq məqsədilə avqust ayının 15-də Cəbrayıl rayonu ərazisində yerləşən hərbi qüvvələrin 896-saylı Cəbrayıl alayı, Gəncədən gəlmiş polkovnik-leytenant Teymurovun batalyonu, könüllülərdən ibarət "Ziyalılar" batalyonu və Cəbrayıl polisinin iştirakı ilə əməliyyat planı hazırlandı. Bu əməliyyat planına əsasən ermənilər yerləşdikləri strateji Şişqaya yüksəkliyindən qovulmalı, bizim qüvvələrin Hadruta yolu açılmalı idi. Döyüş səhər saatlarından başlayaraq çox intensiv gedirdi. Mən 20 nəfər polis əməkdaşıyla birgə bu döyüşdə iştirak edirdim. Biz düşmənin bir neçə mövqeyinin ələ keçirilməsində fəal iştirak edərək ermənilərin şiddətli müqavimət göstərdikləri " Ağ yol " deyilən mövqelərinə yaxınlaşdıq. Qeyd edim ki, Gəncə batalyonundan və Cəbrayıl alayından itkilər var idi. Burada da rabitənin yüksək səviyyədə olmaması özünü büruzə verdi. Çünki biz artıq elə bir mövqeyə çatmışdıq ki, " Ağ yol" deyilən yerin sağında və solunda bizim qüvvələr ortada isə ermənilər idilər. Ermənilər geri çəkilərək bizi qarşı-qarşıya qoymuşdular. Özləri isə bizim əsas qüvv-

ələrimizin arxasına keçmişdilər. Bunun nəticəsi olaraq mühasirəyə düşməmək üçün biz geri çəkilməli olduq. Düşmənlə ölüm-dirim döyüşündə milli ordunun əsgərləri ilə yanaşı polis işçiləri Əli Xankişiyev, Əli Məmmədov, Sahib Quliyev, Faiq Mehdiyev, İlqar Əhmədov, Sirac Hüseynov, İlham Bəşirov əsil fədakarlıq göstərdilər. Bu döyüşdə Sahib Quliyev və Faiq Mehdiyev qəhrəmancasına həlak oldular. Mən, Sirac Hüseynov və İlqar Əhmədov isə yaralandıq.

**Məmmədov İsgəndər Qulam oğlunun III xatırlaması:**

1993-cü ilin avqus ayının 15-də səhər saatlarında Cəbrayıla Daşbaşı postunun alınması xəbəri ildırım surəti ilə yayıldı. Səhər saat $5^{00}$-$6^{00}$ radələrində bu xəbərə inanmayan RPŞ-nin rəisi Vaqif Məhərrəmov öz xidməti " Niva"-sı ilə ora getmiş, lakin ondan da bir xəbər-ətər çıxmamışdı. Sonradan bildik ki, rəis Daşbaşına yaxınlaşanda düşmən tərəfindən güllləbaran edilmiş və sonra qədər, yəni biz Daşbaşını azad edənə qədər mühasirə şəraitində qalmışdı. Biz həyəcan siqnalı ilə iki qrupa bölünərək Daşbaşı istiqamətində hərəkət etdik. Qeyd edim ki, Daşbaşı kəndi ermənilərdən təmizlənmiş 11 kənddən biriydi və Şayaq, Zamzur kəndləri ilə üzbəüz yüksəklikdə yerləşirdi. Müəmmalı məsələlərdən biri də Daşbaşıda postda duran milli ordunun vzvodundan da heç bir məlumatın olmaması idi. Həmin kənd yüksəklikdə yerləşdiyindən düşmən bizi iri çaplı pulemyotlardan, avtomatlardan güclü atəşə tuturdu. Qubadlı rayonundan gəlmiş mahir tankçı Əlövsət öz tankı ilə bizə çox böyük köməklik göstərdi və ermənilərin əsas atəş nöqtələrini susdurdu. Bundan sonra biz hücuma keçərək erməniləri geri oturtduq. Daşbaşının alınmasından sonra məlum oldu ki, ermənilər gecə Zamzurun alt tərəfindən keçərək aşağı düşmüş, Hərəküllə Daşbaşının arasından milli ordu əsgərlərinin arxasına keçmişdilər. Amansız qətl hadisəsi törətmişdilər.



Daşbaşının geri alınmasında polis şöbəsinin əməkdaşları xüsusi fəallıq göstərdilər.

**Söz ardı:** İ.Q.Məmmədov 2001-ci ilədək döyüş bölgələrində daxili qoşunların tərkibində keşikçi-müşahidə postlarında kazarma şəraitində xidmətdə olub. 1998-ci ilədək ön xətdə, 1998-2001-ci illərdə isə ikinci eşalonda dayanıb. Təqaüdə buraxılsa da, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəni davam etdirməyə həmişə hazırdı.

## HƏMİŞƏ ÖZÜNÜ İŞİ İLƏ TANIDIB


Zeynalov Vaqif

**Zeynalov Vaqif Ədil oğlu** 1945-ci il sentyabrın 7-də Ağdam rayonunun Qaradağlı kəndində kolxozçu ailəsində anadan olub. 1952-ci ildə Qaradağlı kənd orta məktəbinin 1-ci sinfinə daxil olub, 1963-cü ildə isə oranı bitirib. Əmək fəaliyyətinə X.B.Natəvan adına üzümçülük sovxozunda fəhlə kimi başlayıb. 1964-cü ildə Bakı şəhərindəki "Plan-uçot" texnikumuna qəbul olub. 1966-cı ildə mühasib ixtisasına yiyələnərək Ağdam kənd təsərrüfatı birliyində mühasib vəzifəsinə təyinat alıb.

1966-1968-ci illərdə hərbi xidmətdə olub. 1969-cu ildə partiya çağırışı ilə Ağdam rayon DİŞ-nə polis nəfəri kimi xidmətə qəbul olunub.

1971-ci ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun qiyabi şöbəsinin mühasibat-uçot fakultəsinə qəbul olub. 1976-cı ildə ali təhsil alıb. 1977-ci ilin may ayının 15-də DİN-nin əmri ilə Cəbrayıl rayon DİŞ-də sahə inspektoru vəzifəsinə təyin edilib. İşlədiyi dövrdə həm öz işində, həm də rayon səviyyəli bütün tədbirlərdə fəallıq göstərib, 3 dəfə şəhər sovetinin deputatı seçilib. Uzun

illər şöbə ilk partiya təşkilatının katibi olub. DİO-da işləməsinin 10 və 15 illiyi münasibətilə qüsursuz xidmətə görə medalıyla təltif olunub. " Milis əlaçısı " döş nişanına layiq görülüb.

O, uzun illər ərzində Cəbrayıl RPŞ-də sahə müvəkkili, baş sahə müvəkkili, profilaktika üzrə baş inspektor vəzifəsində işləmişdi. 1987-ci il noyabr ayının 1-də bölmə rəisi vəzifələrdə təyin edilib. Nəhayət, 1988-ci ilin əvvəllərindən başlayaraq erməni daşnak faşistlərinin ölkəmizə qarşı başladığı işğalçılıq və etnik təmizləmə siyasətinə qarşı çıxanların cərgəsinə qoşulub. Elan olunmamış müharibədə əvvəldən axıra kimi iştirak edib. Dolanlar, Zamzur, Banazur, Sur, Hərəkül, Şayaq kəndlərini özlərinin dayaq məntəqələrinə çevirmiş daşnak terror qruplarından təmizlənməsində və onların tərksilah edilib zərəsizləşdirilməsi əməliyyatlarında yaxından iştirak edib. 1991-ci ildə Şayaq postunda qrup rəhbəri kimi polis əməkdaşları ilə birgə mühasirəyə düşüb. 12-14 saat düşmən mühasirəsində qalmasına baxmayaraq bacarıq və fədəkarlığı ilə itki vermədən döyüş qruppasını mühasirədən çıxara bilmişdi.

1994-cü ilin aprel ayına kimi bölmə rəisi vəzifəsində çalışıb. Səhhəti ilə bağlı 1994-cü ilin aprel ayında DİO--dan təqaüdə buraxılıb. Qarabağ müharibəsi veteranıdır. Polis mayorudur.

## DÖYÜŞMƏK ARZUSU HƏLƏ DƏ ONU TƏRK ETMƏMİŞDİ

**Əhmədov Şamil Şərif oğlu** 1943-cü ildə Cəbrayıl rayonunun Şahvəlli kəndində anadan olub. Natamam orta təhsilini Şahvəlli kənd yeddiillik məktəbində alıb. Orta təhsilini Soltanlı kənd orta məktəbində davam etdirib. 1961-ci ildə Soltanlı kənd orta məktəbini bitirib. 1961-1962-ci illərdə Şahvəlli kəndindəki «Bakı» kolxozunda çalışıb.1962-ci ilin noyabr ayında ordu sıralarına səfərbər




Əhmədov Şamil

edilib. 1965-ci ilin dekabr ayında hərbidən tərxis olunaraq Bakıya qayıdıb. 1966-cı ilin yanvar ayında Bakı şəhər Daxili İşlər İdarəsində sürücü polis nəfəri vəzifəsinə qəbul olunub. 1968-ci ilin noyabr ayında Bakı şəhərinin Mərdəkan qəsəbəsindəki Xüsusi Orta Milis məktəbinə daxil olub. 1970-ci ilin sentyabr ayında həmin məktəbi bitirib. Təyinatla İmişli stansiyası Milis şöbəsinin Şərur xətti üzrə post rəisi vəzifəsinə təyin edilib. 1975-1979-cu illərdə Sabunçu stansiyası nəqliyyat milisi şöbəsində növbətçi vəzifəsində işləyib. 1979-1981-ci illərdə İmişli stansiyası nəqliyyat milis şöbəsində sahə müvəkkili, 1981-ci ilin iyun ayında isə Cəbrayıl rayon Daxili işlər şöbəsində sahə müvəkkili vəzifəsinə təyin edilib. 1989-cu ildə isə islah işləri və əməyə cəlb etmə inspektoru vəzifəsinə təyinat alıb. 1992-ci il aprel ayının 20-də DİO-dan təqaüdə buraxılıb. II qrup Qarabağ müharibəsi əlilidir. Polis baş leytenantıdır. Dövlət tərəfindən "Oka" markalı minik maşını ilə təmin edilib. Ailəlidir. 3 övladı, 1 nəvəsi var. Cənnət Qarabağımızın azad edilməsi uğrunda döyüşmək arzusu hələ də onu tərk etməmişdi.

## ƏZMKAR DÖYÜŞÇÜ

**Məmmədov Pəhlivan Həmzə oğlu** 1968-ci il aprel ayının 3-də Cəbrayıl şəhərində anadan olub. 1985-ci ildə Cəbrayıl şəhər internat orta məktəbini bitirib. 1986-1988-ci illərdə Moskva ətrafı Podolski şəhərində SSRİ Silahlı Qüvvələrinin motatıcı diviziyasında əsgəri xidmət keçib. Ordudan tərxis olunduqdan sonra Cəbrayıl şəhərinə qayıdıb. 1988-ci ildə Cəbrayıl rabitə qovşağında teleqram



Məmmədov Pəhlivan

paylayıcısı vəzifəsinə təyin olunub. Rabitə qovşağı kollektivinin zəmanəti ilə 1991-ci ilin fevral ayında Cəbrayıl RPŞ-nin PPX rotasında polis nəfəri kimi xidmətə qəbul olunub.

**Məmmədov Pəhlivan Həmzə oğlunun 1-ci xatırlaması:** "1991-ci ilin ilk günləri idi. Cəbrayıl rabitə qovşağında işləyirdim. Həmin günlərdə erməni quldurları bizimlə həmsərhəd olan erməni kəndlərində fəallaşmışdılar. Demək olar ki, hər gün atəş səsləri eşidilirdi. Daşnak terrorçularının bu həyasız hərəkətləri mənə çox pis təsir edirdi. Mən əsgəri xidmətdə silah işlətmiş, təlim görmüş adam idim. Öz-özümə fikirləşirdim ki, onların cavabını nə üçün verməməliyik. Erməni dığaları nə vaxta kimi bizim torpaqlarda at oynadacaqlar, başımız üstündən güllə atacaqlar. O vaxt eşitdim ki, erməni faşistlərinin həmlələrini dəf etmək üçün rayon polis şöbəsində PPX rotası təşkil edirlər. Hərbi hissələrdə təlim görmüş əsgərləri yoxlamadan keçirirlər. Mən də tez Cəbrayıl RPŞ-nə gəldim. Qarşıma ilk çıxanlar rəis müavinləri Vaqif Məhərrəmovla, Vaqif Hüseynov oldu. Mən gəlişimin məqsədini onlara bildirdim. Həmin dövrdə ordu yox idi. Ancaq polisin gücündən istifadə olunurdu. Onlara bir daha dedim ki, erməni dığalarının xof yaratmaları mənim şəstimə dəyir. Onların cavabını verməyə mən həmişə hazıram. Xahiş etdim ki, rotaya qəbul olunmaqda mənə köməklik etsinlər. Sağ olsunlar, mənim xahişimə biganə qalmadılar. Onlar Cəbrayıl RPŞ-nin PPX rotasında polis nəfəri kimi xidmətə qəbul olunmağıma köməklik göstərdilər".

O gündən döyüş tapşırıqları alan P.H.Məmmədov silahlı erməni quldurlarının tərksilah edilib zərərsizləşdirilməsində öz cəsarəti ilə fərqləndi. Əzmkar döyüşçü adı



qazandı. Qabaqcıllardan təşkil edilən əlahiddə "Hücum" qrupuna qəbul olundu. 11 erməni kəndində özlərinə münbit şərait yaratmış, təxribatlar törədən, cinayətkarlıq fəaliyyəti ilə məşğul olan daşnak terror qruplarının ləğv edilməsi əməliyyatlarında fədakarcasına iştirak etdi. Pəhlivan Daşbaşı kəndinin ikinci dəfə erməni quldurlarından təmizlənməsi zamanı göstərdiyi igidliyi xüsusi adla vurğulanır. Vaqif Hüseynovun rəhbərliyi ilə keçirilən əməliyyatda dəmirçi butkasında müdafiə mövqeyində duran əli silahlı, ortasından qumbara asmış terrorçunu tərksilah edib, əsir götürməsi onun döyüş peşəkarlığının səviyyəsini göstərmişdi. Pəhlivan yüksək fəallıq, döyüşdə əzmkarlıq göstərdiyinə görə Polis şöbəsinin rəhbərliyi tərəfindən dəfələrlə təşəkkürlər almış və pul mükafatlarına layiq görülmüşdü.

**Məmmədov Pəhlivan Həmzə oğlunun II xatırlaması:** "1991-ci il sentyabr ayının 15-i idi. Təxminən gecə saat $23^{00}$ radələrində həyəcan siqnalı verildi. Növbətçi bildirdi ki, erməni quldurları Zamzur kəndinə hücum ediblər. Həmin kənddə Qərbi Azərbaycandan didərgin salınan 32 ailə məskunlaşmışdı. Rəis müavini Vaqif Məhərrəmovun rəhbərliyi altında hücum qrupu Zamzur kəndi istiqamətində hərəkətə keçdi. Kəndin 1 kilometrliyinə kimi avtobusla gəldik. Qruplara bölünüb kəndə müxtəlif istiqamətlərdən yürüş etdik. Kənddən iri çaplı pulemyotların səsi gəlirdi. Mən V.Məhərrəmovun qrupunda idim. Biz kəndin girəcəyindəki Pir ağaca yaxınlaşanda 7-8 metr qabaqda siqaret çəkən adamlar gördük. Saat $24^{00}$ olardı. Adamların yerini siqaret közərtilərinə görə təyin etdik. Mən və V.Məhərrəmov qabaqda gedirdik. İlk atəşi biz açdıq. Zülmət qaranlıqda qızğın atışma başladı. İlk itki verən ermənilər oldu, öz haylarında qaldılar. Həmin döyüşdə mən sol ayağımdan iriçaplı pulemyot gülləsindən ağır yara aldım. Buna məhəl qoymadan döyüşməkdə davam edirdim. Səhərə

qədər davam edən qızğın döyüşdə bir neçə terrorçu məhv edildi. Bizdən isə itki olmadı".

P.H.Məmmədov güllə yarasından xəstəxanaya düşür. DİN-nin hospitalında müalicə alır. Lakin sol ayağını kəsilməkdən xilas etmək mümkün olmur. Sosial Təminat Nazirliyinin Protez-Ortopediya mərkəzində iki dəfə amputasiyadan keçir. Ayağını dizdən itirir. 2003-cü ildə DİO-dan təqaüdə buraxılıb. II qrup Qarabağ müharibəsi əlilidir. Ailəlidir. 1 oğlu, 1 qızı var.

## ÜÇRƏNGLİ BAYRAQ ŞAYAQ YÜKSƏKLİYİNDƏ DALĞALANDI

**Əliaslanov Yusif Yaqub oğlu**



Əliaslanov Yusif

1958-ci il noyabr ayının 8-də Stansı Xələfli kəndində anadan olub. 1965-1972-ci illərdə st. Xələfli kənd səkkizillik məktəbində oxuyub. Təhsilini Bakı şəhəri, Nəsimi rayonundakı 10 saylı texniki peşə məktəbində davam etdirib. Ümumi orta təhsil almaqla yanaşı dülgər peşəsinə yiyələnib. 1974-1977-ci illərdə Bakı şəhər Baş tikinti İdarəsində çalışıb. 1977-ci ildə hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Monqolustan XR ərazisində keçirib. Aviasiya qoşun bölməsində xidmət edib. 1979-cu ildə ordudan tərxis olunduqdan sonra Cəbrayıla qayıdıb. Cəbrayıl şəhərindəki 32-saylı yol istismarı sahəsində əmək fəaliyyətini davam etdirib. Əmək kollektivinin zəmanəti ilə 1982-ci ildə Cəbrayıl rayon DİŞ-də milis nəfəri kimi xidmətə qəbul edilib. Bu dövrdə növbətçi köməkçisi, müvəqqəti saxlama təcridxanasında postaçı vəzifələrində çalışıb. Milis nəfəri – sürücü kimi fəaliyyət göstərib. Elan olunmamış Qarabağ müharibəsi başlayanda Y.Y. Əliaslanov sürücülük fəaliyyətini dayandırıb. Sükanı silahla əvəz edib. Erməni daşnak terror qruplarının həmlələrini dəf etmək üçün əməliyyatlarda yaxından iştirak edib.



1991-ci ilin yazında Dolanlarda yerləşən quldurlar qonşu Şıxlar kəndinin 13 baş mal-qarasını sürüb aparmışdılar. Şıxlar kəndinin cavanları bunun müqabilində Dolanlar kəndindən olan iki mülkü şəxsi girov götürməli olmuşdular. Girovların mal-qaraya dəyişdirilməsi əməliyyatı Cəbrayıl rayon DİŞ-nin rəis müavini Vaqif Məhərrəmovun rəhbərlik etdiyi qrup tərəfindən aparılmışdı. Həmin qrupun tərkibində Y.Y.Əliaslanov bilavasitə hərəkətdə olmuşdu. Bu çətin əməliyyat gecə saat $3^{00}$ radələrində yüksək peşəkarlıqla həyata keçirilmişdi.

Y.Y.Əliaslanov Ağcakəndin ilk dəfə daşnak terror qruplarından təmizlənməsi əməliyyatında xüsusi fəallığı ilə seçilmiş, qrupun rəhbəri Vaqif Məhərrəmovun və şöbə rəisi Rəşid Məmmədovun şəxsi təşəkkürünü almışdı.

Şayaq yüksəkliyinin daşnak quldurlarından təmizlənməsi əməliyyatı həyata keçirilərkən üçrəngli Azərbaycan bayrağını həmin yüksəklikdə yerləşən Hadrut televiziya ötürücüsünün 75 metr hündürlükdəki qülləsinə sancan məhz Yusif Əliaslanov olmuşdu. Uzun müddət qalibiyyət bayrağı Şayaq yüksəkliyində dalğalanmışdı. Yusifin ən böyük arzusu bir daha həmin ay-ulduz nişanlı üçrəngli müqəddəs bayrağımızın Şayaq yüksəkliyində dalğalanmasını görmək arzusudur.

Y.Y.Əliaslanov DQMV-nə məxsus 11 erməni kəndində təxribatçılıq fəaliyyəti ilə məşğul olan daşnak terror qruplarının tərksilah edilib zərərsizləşdirilməsində öz bacarıq və köməyini əsirgəməyib. Təkcə bir faktı göstərmək kifayətdir ki, Y.Y. Əliaslanov Hərəküldə 11 ay fasiləsiz olaraq keşikçi-mühafizə postunda dayanmışdı. Arazboyu kəndlərin işğalı zamanı isə gözündən qəlpə yarası almışdı. 1998-ci ilədək Daxili Qoşunların tərkibində ön xətdəki

postlarda keşik çəkmiş, bu illər ərzində demək olar ki, ayaqlarının sağlamlığını itirmişdi. 1998-ci ildə DİO-dan təqaüdə buraxılıb. II qrup Qarabağ müharibəsi əlilidir. Ailəlidir, 2 övladı var.

## POLİS FƏALİYYƏTİ BÜTÖVLÜKDƏ SAHƏ MÜVƏKKİLİ KİMİ ŞƏRƏFLİ BİR XİDMƏTDƏ KEÇDİ


Qurbanov İzzət

**Qurbanov İzzət Rza oğlu** 1951-ci il aprel ayının 19-da Cəbrayıl rayonunun Qaracallı kəndində anadan olub. 1958-1969-cu illərdə Balyand kənd orta məktəbində ümumi orta təhsil alıb. 1969-cu ildə hərbi xidmətə çağırılıb. Kalinlnqrad şəhərində minaatıcı hissədə əsgəri xidmət keçib. 1971-ci ildə hərbi hissədən tərxis olunaraq Bakı şəhərinə gəlib. 1971-ci ilin iyun ayında DİO-da sıravi milis kimi xidmətə qəbul olunub. Bakı şəhər su kəmərlərini mühafizə edən alayın 5-ci diviziyasında xidmət göstərib. 1973-cü ildə göndərişlə Bakı şəhərinin Mərdəkan qəsəbəsindəki Xüsusi Orta Milis məktəbinə daxil olub. 1975-ci ildə təhsilini başa vuraraq Cəbrayıl rayon DİŞ-də sahə müvəkkili vəzifəsinə təyinat alıb. Ardıcıl olaraq Cəbrayıl rayonunun ayrı-ayrı zonalarında – Dağtumas, Hovuslu, Sirik kənd sovetlərinin əhatə etdiyi ərazilərdə, Qumlaq, Soltanlı, Şükürbəyli kənd sovetlərinin əhatə etdiyi ərazilərdə, Horovlu, Quycaq, Mehdili kənd sovetlərinin əhatə etdiyi ərazilərdə sahə müvəkkili kimi xidmət göstərib.

Asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə öhdəsinə düşən vəzifəni şərəf, ləyaqət və vicdanla yerinə yetirib. Xüsusilə mal-qara oğrularının tutulub məsuliyyətə cəlb edilməsində fəallıq göstərib. Öz işgüzarlığı, həlim xasiyyəti, camaatla rəftarı, şikayəti yerindəcə həll etməsi ona əhali arasında hörmət və nüfuz qazandırıb. Əlbəttə işində çətinliklər də olub. Haqsızlıqlarla da üzləşib. Aravuranların, haqqında şər-böhtan deyənlərin qarşısını almağa çalışıb. Təmkinli davranışı həmişə ona uğur gətirib.

Məlum Qarabağ hadisələri başlayan zaman İ.R. Qurbanov qaynar nöqtələrdə olub. Elə ilk günlərdə Daxili Qoşunların vzvodunda bələdçi kimi Yuxarı Məzrə kəndində rus əsgərləri ilə birgə postda dayanıb. Şəxsi təşəbbüsü sayəsində Daşbaşıda yuva qurmuş daşnak-terror qrupunun rəhbəri Qavruşun tərksilah olunması və dəstəyə məxsus 5 ədəd odlu silah, 6 ədəd qranat və çoxlu sayda döyüş sursatı müsadirə edilməsi əməliyyatını uğurla başa çatdırılmasına müvəffəq olub. Həmin uğurlu əməliyyata görə İ.R.Qurbanov "Milis əlaçısı" döş nişanı ilə təltif edilib.

**Qurbanov İzzət Rza oğlunun xatırlaması:** "Ağcakəndə hücum vaxtı terror qrupları bizə güclü müqavimət göstərdilər. Kəndi ala bilmədik. O vaxt yanımızda olan Dadaş Rzayev axşam düşdüyünü görüb Ağcakəndlə Mülkədərə arasındakı dağda post qoyulmasını təklif edir. Rəis Rəşid Məmmədovun göstərişi ilə qrup rəhbəri mən olmaqla ( Hikmət, Seymur, Kazım və başqaları) 11 nəfərdən ibarət post quruldu. Gecə saat 200 radələrində quldur dəstələri posta hücum etdilər. Biz onların Ağcakəndə köməyə gəlmələrinə imkan vermək istəmirdik. Ona görə də gücləri artırırdılar. Bu barədə qərargaha məlumat verdik. Rəis müavini Vaqif Məhərrəmovun rəhbərliyi altında hücum qrupu köməyimizə gəldi. Biz terror qruplarını ərazimizdən uzaqlaşdırdıq. Səhər tezdən isə Ağcakəndə daxil olduq. Kəndi erməni quldurlarından tamamilə təmizlədik.

İ.R.Qurbanov bölmə komandiri kimi Ağcakənd, Şayaq, Sur kəndləri uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Hətta 30 sentaybr 1991-ci ildə Ağcakəndə həmlə edən

terrorçulara qarşı döyüşlərdə iştirak edərkən ermənilərin Rəşid Məmmədovun başına qiymət qoyduqlarından xəbərdar olan və onun qorunmasını nəzarətdə saxlayan İ.R.Qurbanov həmin hücum zamanı R.Məmmədovu snayper gülləsindən xilas etmişdi.

İ.R.Qurbanov döyüşlərdə fədakarlıq göstərdiyinə və fəal işinə görə 2 dekabr 1991-ci ildə DİN-yi tərəfindən " Əla xidmətə görə" medalı ilə təltif edilmişdi.

1992-ci ilin may ayının 11-də mövqelərin geri qaytarılması uğrunda Şayaq istiqamətində gedən döyüşlərdə İ.R.Qurbanov Zamzur kəndi ətrafında terrorçular tərəfindən basdırılmış tank əleyhinə minaya düşmüş, ağır qəlpə yarası almış, Bakı şəhərində Travmatologiya İnstitutunda müalicəsini davam etdirmişdir. Sağlamlığı nisbətən bərpa edildikdən sonra yenidən döyüş yoldaşlarının yanına qayıtmış və xidmətini davam etdirmişdi. Sonradan sahə müvəkkili kimi Bakıda müvəqqəti məskunlaşmış məcburi köçkünlər yaşayan ərazidə xidməti işdə çalışmışdı.

İ.R.Qurbanov 2006-cı il may ayının 12-də DİO-dan təqaüdə buraxılmışdı. Polis mayorudur. III qrup Qarabağ müharibəsi əlilidir. 3 övlad atasıdır. 2 qızı, 1 oğlu var. Oğlu Cahid atasının yolunu davam etdirir. Cəbrayıl RPŞ-nin PPX bölüyündə polis nəfəri vəzifəsində xidmət göstərir.

## XİDMƏTİ FƏALİYYƏTDƏ HƏMİŞƏ XALQLA BİR OLUB

**Atakişiyev Aydın Niftalı oğlu** 1948-ci il sentyabr ayının 15-də Cəbrayıl rayonunun Yarəhmədli kəndində anadan olub. 1966-cı ildə M.Qorki adına Cəbrayıl şəhər orta məktəbini bitirib. 1966-1968-ci illərdə Cəbrayıl şəhərindəki çörək zavodunda çörək bişirən işləyib. 1968-ci ildə ordu sıralarına səfərbər edilib. 1970-ci ilə kimi Kaluqa vilayətində Raket Qoşunlarına aid hərbi hissədə əsgəri xidmətdə olub.




Atakişiyev Aydın

1970-ci il oktyabr ayının 1-də Cəbrayıl rayon DİŞ-də milis nəfəri kimi xidməti işə qəbul edilib. 1972-ci ildə bölmə komandiri vəzifəsinə təyin edilib. 1974-cü il sentyabr ayında göndərişlə SSRİ DİN-nin Bakı şəhərindəki Xüsusi Orta Milis məktəbinə daxil olub. 1976-cı ildə həmin məktəbi müvəffəqiyyətlə bitirərək Ağdam rayon DİŞ-də azyaşlıların işi üzrə sahə inspektoru vəzifəsinə təyinat alıb. 1979-cu ilədək həmin vəzifədə işləyib. Bu dövrdə məktəblilərlə apardığı işlər, azyaşlılar arasında cinayət hallarının azalması A.N.Atakişiyevin apardığı profilaktiki tədbirlərin sayəsində mümkün olmuşdu. Bütün bunlarla yanaşı A.N. Atakişiyev həmin dövrdə Respublikada rezonans yaratmış, milis əməkdaşlarına qənim kəsilən "Kürd" ləqəbli Hüseyn adlı qatı cinayətkarın axtarılmasında və tutulub zərərsizləşdirilməsi əməliyyatlarında yaxından iştirak etmişdi. İki quldur dəstəsinin (rəhbərləri Bəbir və elman olan) aşkar edilib tutulmasında bilavasitə iştirak etmişdi. Üzərinə düşən vəzifə borcunu yerinə yetirərkən fədakarlıq göstərdiyinə və fərqləndiyinə görə dəfələrlə şöbə rəhbərliyinin təşəkkürlərini almış, pul mükafatlarına layiq görülmüşdü.

A.N. Atakişiyev 1979-cu ilin avqust ayında Cəbrayıl rayon DİŞ-də sahə müvəkkili vəzifəsinə təyin edilib. Uzun müddət Dağtumas, Sirik, Şahvəlli, Hovuslu kənd sovetlərinin əhatə etdiyi ərazilərdə sahə müvəkkili kimi xidməti iş aparıb. Xüsusilə, Dağtumas kənd soveti ərazisində uzun illər davam edən mal-qara oğurluqlarının kökünün kəsilməsində, yerli orqanlara aid şikayətlərin yerlərdə həll etməsi sahəsindəki müsbət iş təcrübəsi, profilaktiki və qabaqlayıcı tədbirləri vaxtında görməsi öz bəhrəsini vermiş-

di. İkinci dəfə kənd camaatının tələbi ilə A.N. Atakişiyev yenidən həmin əraziyə sahə müvəkkili vəzifəsinə təyin edilmişdi. Çünki A.N.Atakişiyev sahə müvəkkili kimi başqa əraziyə dəyişdirildikdən sonra həmin ərazidə mal-qara oğurluqları təkrar baş vermiş, camaat arasındakı narazılıqlar rayon səviyyəsinə qalxmışdı. Belə ki, o, 1987-ci ildə Mehdili, Balyand, Quycaq, Süleymanlı kənd sovetlərinin əhatə etdiyi ərazidə sahə müvəkkili kimi xidməti işə dəyişdirilmişdi. 1988-ci ilin yanvar ayında isə Mühafizə bölməsində baş inspektor vəzifəsinə təyin edilmişdi. Bunun ardınca A.N.Atakişiyev təkrar sahə müvəkkilliyinə qaytarılmışdı. Artıq həmin dövrdə elan olunmamış Qarabağ müharibəsi açıq-aşkar döyüşlərlə əvəz olunan bir mərhələyə qədəm qoymuşdu. Sahə müvəkkili işlədiyi ərazilər isə Hadrut rayonunun erməni kəndləri ilə həmsərhəd idi. İlk təhlükəli hadisəDağtumas kənd sovetinin əhatə etdiyi ərazidə baş verdi. Söyüdlü kəndindən mülki şəxsi ermənilər girov götürdülər. Çullu kəndindən şəhid düşən oldu. A.N. Atakişiyev ərazilərdəki meşələrdən daşnak-terror qruplarını çıxarmaq, onlara qarşı mübarizə aparmaq, hücumlarını dəf etmək üçün könüllülərdən ibarət qruplar təşkil etməli oldu. Köməkçi milis dəstəsi düzəltdi. Milis nəfərləri – İnqilab, Sərdar, Kazım, Tofiq və Yaşar ilə birgə ətrafda təmizləmə əməliyyatları apardı. Xəqani Amil oğlunun sürücüsü olduğu BTR də onun sərəncamına verildi. Şıxlar, İsaxlı, Sirik kəndlərində tərkibi könüllülərdən ibarət olan keşikçi müşahidə məntəqələri təşkil etdi. Dinc, əliyalın əhalinin təhlükəsizliyini təmin etmək üçün bütün bacarığını və səylərini ortaya qoydu. Cəbrayılın Arazboyu kəndlərinin işğalı zamanı A.N.Atakişiyev köməksiz əhalinin Xudafərin körpüsündən keçirilməsi işinin təşkilində, son anadək öz dəyanəti və dözümü ilə camaatla bir hərəkət etməsində, polis əməkdaşları ilə birgə 12 gün mühasirədə qalmalarına baxmayaraq öz məsuliyyət hissini nümayiş etdirməsi hər şey demək idi. Sahə müvəkkili kimi



A.N.Atakişiyevin həmişə xalqla bir olması diqqət çəkən olub.

A.N.Atakişiyev Cəbrayılın işğalından sonra da sahə müvəkkili kimi məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Bakı şəhəri Səbail rayonu ərazisində öz fəaliyyətini davam etdirmişdi.

2003-cü il sentyabr ayının 15-də DİO-dan təqaüdə buraxılıb. Polis mayorudu. 3 oğul, 1 qız atasıdır.

## RƏİSLƏRİN ƏN ETİBARLI VƏ İSTƏKLİ BAŞ SERJANTI



Əliyev Müzəffər

**Əliyev Müzəffər Cəfər Oğlu** 1936-cı ildə Cəbrayıl rayonunun Yarəhmədli kəndində anadan olub. 1943-1951-ci illərdə M.qorki adına Cəbrayıl qəsəbə orta məktəbində natamam orta təhsil alıb. Kolxozçu kimi əmək fəaliyyətinə başlayıb. 1961-1962-ci illərdə ordu sıralarında olub. Moskva vilayətinin Rıjski rayonunda əsgəri xidmət keçib. 1962-1965-ci illərdə Cəbrayıl rayon rabitə şöbəsində mantyor işləyib. Eyni zamanda axşam fəhlə-kəndli məktəbində təhsilini davam etdirərək ümumi orta təhsilə yiyələnib.

1965-ci il may ayının 20-də Cəbrayıl rayon DİŞ-də milis nəfəri vəzifəsinə qəbul edilib. İşdə yaxşı göstəricilərinə görə həmişə rəislərin təşəkkürlərimi alıb. Xidməti hazırlığını artırmaq üçün mütəmadi qaydada öz üzərində işləməsi rəislərin həmişə diqqətini çəkib. Tabeliyində olan milis nəfərlərinin PPX Nizamnaməsinin tələblərinə ciddi surətdə əməl etmələrinə həmişə tələbkarlıq göstərib. 1968-ci ildə milis kiçik serjantı rütbəsi alıb. 20 sentyabr 1974-cü ildə bölmə komandiri vəzifəsinə təyin edilib və

milis serjantı rütbəsi alıb. 1971-ci ildə Sov. İKP sıralarına qəbul edilib. Bir qayda olaraq ictimai əsaslarla şöbənin təsərrüfat işləri üzrə rəis müavini vəzifəsində çalışıb. 1975-ci ildə III dərəcəli " Qüsursuz xidmətinə görə" medalı ilə təltif olunub. 1978-ci ildə milis baş serjantı rütbəsi alıb.

M.C.Əliyev dəfələrlə DİŞ yanında yoldaşlıq məhkəməsinin sədri, DİŞ ilk partiya təşkilat katibinin müavini, dəfələrlə ilk partiya təşkilatından Azərbaycan KP Cəbrayıl rayon komitəsinin konfranslarına nümayəndə seçilib. Ümumiyyətlə M.C.Əliyev xidməti vəzifəsinin öhdəsindən layiqincə gəldiyi, verilən tapşırıq və göstərişləri vaxtında və dürüst yerinə yetirdiyi üçün həmişə polis rəislərinin etibar etdiyi, istədiyi, hörmətini gətirdiyi polis nəfəri olub. Sıravi polis nəfəri olmasına baxmayaraq rayon səviyyəsində keçirilən tədbirlərdə yaxından iştirak edib, öz fəallığı ilə seçilib. Onun yüksək polis peşəkarlığı, polis andına sadiq olması aidiyyəti təşkilatlar və onların rəhbərləri tərəfindən lazımınca qiymətləndirilmişdi. O, 1981-ci ildə II, 1985-ci ildə I dərəcəli " Qüsursuz xidmətə görə" medalı, habelə " Milis əlaçısı", " Xüsusi xidmətə görə " döş nişanları ilə təltif edilmişdi. DİN-nin orqanı olan " Mübariz keşikdə" qəzetində haqqında dəfələrlə tərifedici məzmunda məqalələr dərc olunmuşdu. Dəfələrlə şöbənin rəhbərliyi tərəfindən qiymətli hədiyyələrlə, müxtəlif pul məbləğləri ilə mükafatlandırılmışdı. Dəfələrlə fərqlənmə diplomlarına layiq görülmüşdü. Rayon partiya, sovet təşkilatları tərəfindən fəxri fərmanlarla təltif edilmişdi.

M.C.Əliyev Cəbrayıl rayonu erməni-daşnak terrorçularının hücumlarına məruz qaldığı dövrlərdə imkanı daxilində postlarda keşik çəkmiş, döyüşlərdə iştirak etmişdi. Rayon işğal olunduqdan sonra Abşeron rayonunun, Xırdalan qəsəbəsində məcburi köçkün kimi məskunlaşmışdı. 1994-cü ilin noyabr ayında öz xahişi ilə DİO-dan təqaüdə buraxılıb. Polis baş serjantıdır. Qarabağ müharibəsi veteranıdır. 6 övlad - 3 qız, 3 oğul atasıdır. 12 nəvəsi, bir nəticəsi var. Oğlanlarından Tehran atasının yolunu davam etdirir. Cəbrayıl RPŞ PPX bölüyünün polis nəfəri vəzifəsindədir. Polis baş serjantıdı. Cəbhə xəttində xidmət aparır.



## İŞİNİN VURĞUNU


Mirzəyev Yəhya

**Mirzəyev Yəhya Məhərrəm oğlu** 1950-ci il dekabr ayının 21-də Cəbrayıl rayonunun Yarəhmədli kəndində anadan olub. 1958-1969-cu illərdə M.Qorki adına Cəbrayıl şəhər orta məktəbində ümumi orta təhsil alıb. 1970-1972-ci illərdə Moskva ətrafındakı Podolski şəhərində həqiqi əsgəri xidmətdə olub. Ordudan tərxis olunduqdan sonra Cəbrayıl şəhər Kommunal Təsərrüfatı İdarəsinin tikinti-təmir sahəsində əmək fəaliyyətinə başlayıb. 1972-ci il oktyab ayının 20-də tikinti- təmir sahəsi əmək kollektivinin tövsiyəsi ilə Cəbrayıl rayon DİŞ-nin Mühafizə Bölməsində milis nəfəri vəzifəsinə qəbul edilmişdir.

Elan olunmamış Qarabağ müharibəsinin iştirakçısı olub. BTR komandiri kimi fəaliyyət göstərib. Daşbaşı, Sur uğrunda gedən döyüşlərdə iştirak edib. Hərəkül, Dolanlar, Şayaq postlarında keşikdə durub. Arazboyu kəndlərin düşmən işğalından azad edilməsi uğrunda 1994-cü ildə aparılan uğurlu əməliyyatlarda iştirak edib. Füzuli döyüş bölgəsində su idarəsi adlanan postda müdafiə mövqeyində dayanıb. Düşmən həmləsini dəf edərkən kantuziya alıb. 2003-cü ildə DİO-dan təqaüdə çıxıb. Qarabağ müharibəsi veteranıdır. 3 övlad atasıdır, 1 qızı, 2 oğlu var. Oğlu Anar atasının yolunu davam etdirir. Polis serjantıdır.

Cəbrayıl rayon PŞ-də polis nəfəridi. Biləsuvar rayonundakı 4-saylı qəsəbədə xidmət göstərirr.

## MƏMMƏDOV CAMAL XANLAR OĞLU



Məmmədov Camal

**Məmmədov Camal Xanlar Oğlu** 1956-cı il oktyabr ayının 4-də Cəbrayıl rayonunun Yarəhmədli kəndində anadan olub. 1963-1974-cü illərdə M.Qorki adına Cəbrayıl şəhər orta məktəbində oxuyub. Kolxozçu kimi əmək fəaliyyətinə başlayıb. 1975-1977--ci illərdə həqiqi hərbi xidmətdə olub. Ordudan tərxis olunduqdan sonra yenə də Cəbrayıl kolxozunda əmək fəaliyyətini davam etdirib. Kolxoz əməkçilərinin zəmanəti ilə 1978-ci ilin sentyabr ayında Cəbrayıl rayon DİŞ-də polis nəfəri vəzifəsinə təyin edilib. Döyüş tapşırığını yerinə yetirərkən 1991-ci il avqust ayının 21-də minaya düşüb. 1992-ci il mart ayının 31-də DİO-dan təqaüdə buraxılıb. Qarabağ müharibəsi əlilidir.






# VI BÖLMƏ

# SƏHƏR BÖLGÜSÜ, CƏBRAYIL POLİSİ HƏMİŞƏ DÖYÜŞƏ HAZIRDI



Səhər bölgüsü



## SƏHƏR BÖLGÜSÜ

Cəbrayıl polisi I Qarabağ müharibəsində 16 şəhid verdi. 67 polis əməkdaşı bu və ya başqa dərəcədə güllə, qəlpə yarası aldı. Onlardan 7-si müxtəlif qrup dərəcələri olan Qarabağ müharibəsi əlilidi. Cəbrayıl polisi müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunması uğrunda gedən mübarizə illərində 1988-1993-cü illər arasında ən ağır günlərdə məsul bir orqan kimi özünü göstərdi. Elan olunmamış Qarabağ müharibəsi başlayanda nizami ordu olmadığından Vətəni müdafiəyə qalxdı. Özünəməxsus şərəfli bir döyüş yolu keçdi. İndi də Azərbaycan polisinin ayrılmaz tərkib hissəsi kimi dövlətçiliyimizin keçiyində dayanır. İnzibati binası Biləsuvar rayonu ərazisində salınmış 4-saylı qəsəbədə yerləşir. Geniş əraziyə malikdir. Bir tərəfdə əməkdaşların istirahət etmələri üçün guşələr və birgözlü yaşayış yataqxanaları, gündoğanda isə iaşə müəssisəsi yerləşir. İnzibati binanın vestibülünə, girişdə, geniş həyətdə, günbatanda üzü Günəşə Cəbrayıl RPŞ-nin şəhid düşmüş əməkdaşlarının şərəfinə ucaldılan xatirə kompleksi yerləşir. Qara mərmər üzlü pillələr qara mərmərdən üz çəkilmiş nəhəng divar hörgüsünə ətək verir. Abidə-divarda hər bir şəhidin mərmər daş üstə döyülmüş şəkilləri var. Başları üstündə "Vətəni canından əziz tutdu şəhidlər "kəlamı ziyarətçilərin hərəkətverici və mübarizəyə çağırış epiqrafına, bir həyat leymotivinə çevrilir. Hər birinin qısa, lakin mənalı ömürlərinə işıq tutur. Xatirə kompleksinin önündə dayanan hər bir soydaşından Vətən yolunda ölməyi özlərinə şərəf bilən bu qəhrəman oğullarımızın ruhunun pıçıltısı halallıq, mərhəmlik istəyirlər. Tərəddüdsüzdürlər. Yox, yox, umu-küsü etmirlər. Onlar bizlərdən nəyisə sorurlar. Açıq-aşkar soruşmurlar. Düşmən tapdağında qalan torpaqların geri qaytarılacağı günü gözləyirlər. Ondan sonra cəlayi-Vətən olmuş ruhları rahatlıq tapsın. Ruhları ancaq onda şad olar. Sorduqları bizim

üçün sınaqmıdır, imtahandırmı, yoxsa biz verəcəkləri bir təsəllidirmi?! Demək çətindir. Cəbrayıl RPŞ-nin əməkdaşları, rəhbərliyi öz imkanları və vəsaitləri hesabına bu xatirə kompleksini 2004-cü ildə tikib ucaldıblar. 17 mart 2004-cü ildə açılışını keçiriblər. O gündən-bu günə hər gün hər dəfə şəxsi heyət səhər bölgüsünü xatirə kompleksinin önündə keçirir. Sanki hər gün şəhidlərin, onların müqəddəsləşən xatirə daşlarının, şeyid daşlarının önündə toplaşır, Vətən uğrunda mübarizəyə hazır olduqlarını, polis andına sadiq qaldıqlarını təkrar-təkrar bəyan edirlər.

Bu gün 2006-cı il may ayının 10-du. Ucsuz-bucaqsız Muğan düzünün Gündoğana uzanan ənginliyində ancaq qızılı rəngli Günəşin al şəfəqləri görünür. Cənubda Bağro dağının şimaldan Muğana sallanan yaşıl yal-yamacının arasından qara-maviyə çalan silueti göz oxşayır. Qərbdə isə Germi yollarını öz ağuşunda gizlədən dərələr, təpələr, gədiklər ağ buludlara boy tutan taplara söykənir. Buludların arxasında isə Savalan dağının alp çəmənli yaylaq yerləri görünmür, göz işlədikcə uzanan mavilik içində it-bata düşür. Səhərin sərin mehi, təmiz havası istər-istəməz adamın sinəsini qabardır. Köks dolu hava udursan. Bir də Cəbrayıl polisinin səhər bölgüsünün seyrinə dalmaya bilmirsən.

60 nəfərlik şəxsi heyət səhər bölgüsünə sıralanıblar. Şöbənin rəisi Vaqif Məhərrəmovun inzibati binanın həyətində görsənməsi ilə bir anda farağat vəziyyəti alırlar. Şəxsi heyətin qarşısında öz yerində olan rəis müavini M.Hümbətalıyev sıraya "Düzlən!" komandası verir. Nizamlı addımlarla rəisə tərəf yeriyir. Sıranın səhər bölgüsü barədə raport verir. Rəis V.Məhərrəmov şəxsi heyəti salamlayır. Cəbrayıl polisi gündəlik fəaliyyətinə hər gün bu sayaq başlayır. Şöbə rəisi V.Məhərrəmov ayrı-ayrı bölmə və xidmət sahələrinin cavabdeh, məsul şəxsləri ilə dialoqa girir. Nəticə etibarı ilə şöbənin ötən gün ərzindəki



məqsədyönlü fəaliyyətinə yekun vuraraq yaxşı işləri vurğulayır, aidiyyəti şəxslərə öz təşəkkürünü bildirir, bu gün isə qarşıda duran vəzifələrdən danışır, müvafiq tapşırıqlarını verir...

Nəhayət, səhər bölgüsü hər kəsin öz fəaliyyət sahəsində xidmət göstərmək üçün iş başına keçmələri ilə sonuc tapır. İlk addım isə cəmiyyətin demokratikləşdirilməsi istiqamətində onun tərkib hissəsi olan polisin fəaliyyətinin demokratikləşdirilməsinin, insan hüquq və azadlıqlarının təmini sahəsində işin nizamlanmasında tədris məşğələlərinin keçirilməsinə önəm verilməsindən başlayır.

Döyüş hazırlığı qruplarında dərslər günün tələbləri səviyyəsində aparılır. Ümumiyyətlə dərslər dörd qrupda aparılır. Hətta hər qrup öz rəhbərlərinin adıyla çağrılır. (1) Mədəd Hümbətalıyevin qrupu, (2) Vaqif Hüseynovun qrupu,(3) Səmənd Əliyevin qrupu, (4) Rəfail Abbasovun qrupu.

Oktyabr ayında peşə hazırlığı dərslərinə yekun vurulur. Tədris ilinin sonunda fiziki hazırlıq dərslərindən yüksək göstəriciləri olan, xidməti dərslərdən yüksək qiymət alan əməkdaşlar II, I və usta məharət dərəcələrinə təqdim olunurlar. Zəif göstəricisi olan əməkdaşlara hami tərbiyəçilər təhkim olunurlar. Cəbrayıl polisinin Bakıda, Füzuli döyüş bölgəsində yardımçı qərargahları var. Bakı şəhəri və onun rayonlarında Cəbrayıl rayonundan olan məcburi köşkünlərin daha sıx yerləşdikləri ərazilərdə xidmət göstərmək üçün əməkdaşlar ezam olunurlar. Həmin əməkdaşlar yerli polis orqanları ilə birlikdə xidməti işlər aparırlar. Cari işlərin icrası ilə məşğul olurlar.

Mənsə Cəbrayıl rayonundan olan məcburi köçkünlər məskunlaşmış qəsəbələrdə xidmət göstərən Cəbrayıl polisinin əməkdaşları ilə söhbətlər aparıram. Hər biri haqqında geniş məlumat toplamağa çalışıram, gələcək yazılarım üçün qeydlər götürürəm.

# MƏNİ POLİSƏ GƏTİRƏN VƏTƏN SAVAŞI OLDU


Hümbətalıyev Mədəd

Tanıtma: **Hümbətalıyev Mədəd Hümbətalı oğlu** 1963-cü il oktyabr ayının 1-də Cəbrayıl rayonunun Dağ Xələfli kəndində anadan olub. 1971-ci ildə Xələfli kənd orta məktəbinin 1-ci sinfinə daxil olub, natamam orta təhsil alıb. Təhsilini 1981-ci ildə 34-saylı İmişli Dəmiryol orta məktəbində davam etdirib. 1982-1984-cü illərdə hərbi xidmətdə olub. 1985-ci ildə V.İ.Lenin adına APİ- nin hərbi-hazırlıq və fiziki tərbiyə fakultəsinə daxil olub, 1989-cu ildə isə həmin institutu bitirərək Xələfli kənd orta məktəbinə hərbi müəllim kimi təyinat alıb, əmək fəaliyyətinə başlayıb.

Dağlıq Qarabağ hadisələri baş qaldırdığı, cərəyan etdiyi bir vaxtda DİO-na daxil olmaq üçün Respublika DİN-nə ərizəylə müraciət edib. Ərizəsinə müsbət cavab alıb. DİN-nin müvafiq əmrinə əsasən 21.01.1991-ci il tarixdə Cəbrayıl rayon Polis Şöbəsinin mühafizə bölməsində vzvod komandiri vəzifəsinə təyin edilib. 1992-ci ilin avqust ayının 4-də isə şöbənin yetkinlik yaşına çatmayanların işləri üzrə müfəttişliyin rəisi vəzifəsinə təyinat alıb. İşdən ayrılmadan təhsilini davam etdirib. 1994-cü ildə DİN-nin Polis Akademiyasına daxil olub, 1998-ci ildə bitirib. 1997-ci ilin mart ayının 25-də Cəbrayıl RPŞ-nin Cinayət Axtarış Bölməsinin rəisi, 19.09.2002-ci ildə isə şöbənin Əməliyyat İşləri üzrə rəis müavini vəzifəsinə irəli çəkilib. Polis polkovnik-leytenantıdı. Ailəlidir. 2 övlad atasıdı.

Hümbətalıyev Mədəd Hümbətalı oğlu əməliyyat işi üzrə rəis müavini kimi bilavasitə cinayət axtarışı bölməsinin,



MST-də əməliyyat-axtarış fəaliyyətinə və uçot-qeydiyyat sahələrinə rəhbərliyi və nəzarəti həyata keçirir. Bu sahələr üzrə rəhbərlik qarşısında məsuliyyət daşıyır. Xüsusilə narkomaniya və oğurluqla məşğul olan cinayətkarlarla mübarizədə sərtlik nümayiş etdirməsi, barışmamazlıq mövqeyindən çıxış etməsi ona baş ucalığı gətirən keyfiyyət xüsusiyyətlərindəndir. Göstəricisi isə göz qabağındadır. Fəaliyyətə başladığı gündən 6 qəsəbənin əhalisi arasında oğurluq hadisəsi baş verməmişdi. Həmin ərazidə ictimai-siyasi durumun normal və sabit vəziyyətdə saxlanılmasına nail olmuşdu. Profilaktiki tədbirlər, gecə gəzintiləri müntəzəm təşkil edilir. İran İslam Cümhuriyyəti ilə həmsərhəd ərazidə yerləşən qəsəbələrdə polis əməkdaşlarının üzəirinə düşən məsuliyyət bəlkə də ikiqat artıqdır. Xidmət dövründə bir İran vətəndaşının qaçaqmalçılıqda ifşa edilməsi, 2 nəfər sərhəd pozucusunun yaxalanması, 11 Pakistan vətəndaşına bələdçilik edərək İrana adlatmaq istəyən 2 İran vətəndaşının göz altına alınması faktları Cəbrayıl polisinin əməkdaşları tərəfindən aşkar edilən cinayət hadisələridi. Bundan başqa ötən il qanunsuz saxlanılan 2 ədəd kalaşnikov markalı avtomat, bir ədəd tüfəng aşkar edilərək polis əməkdaşları tərəfindən götürülmüşdü.

Mən bu ara Mədəd müəllimdən döyüş yollarından danışmasını xahiş edirəm: “Axı Cəbrayıl polisi Qarabağ savaşında ad çıxaran, şərəfli bir yol keçmiş orqan kimi tanınır. Qarabağ savaşının bir iştirakçısı kimi özünüzü o sırada necə görürsünüz?” sualına Mədəd müəllim birdən-birə cavab vermir. Bir ağsaqqal ədasıyla düşünüb-daşınır. Olub-keçənləri xatirində, xəyalında canlandırır. Ondan sonra asta-asta danışır. Mən isə deyilənləri yazmaqla məşğul oluram. Söz Mədəd müəllimdən gəlir:

- Əlisahib müəllim, sözə ilk döyüş səhnəmdən başlayıram. Biz 1991-ci ilin may ayının 11-də Hadrut rayonunun ətraf kəndlərində pasport rejiminin yoxlanılması əməliyya-

tı keçirirdik. Həmin vaxt mən məlumat aldım ki, Hadrut rayonunun Cilan kənd sakini Serjik adlı şəxsdə avtomat silah və ratsiya var. Həmin ratsiya ilə Hadrut rayonu ərazisində qeyri-qanuni yaşayan terrorçu qruplar ilə əlaqə saxlayıb vəziyyəti onlara çatdırır. Mən raportla şöbənin rəhbərliyinə məruzə etdim. Rəhbərlik bir qrup polis əməkdaşları ilə birlikdə məni Cilan kəndinə göndərdi. Biz Serjikin bağından lobya çubuğunun altından 1 ədəd avtomat kalaşnikov, 4 ədəd maqazin, 1 ədəd ratsiya, 5 ədəd əl qumbarası, yarım kisə avtomat patronu aşkar etdik. Serjikin özünü də göz altına alıb, şöbəyə gətirdik. Həmin gündən etibarən ağrılı-acılı günlərimiz başladı. 12 may 1991-ci ildə şöbənin rəhbərliyinin göstərişi ilə məndən əlavə 6 nəfər hərbiçi, 4 nəfər Bakı polisi və 1 nəfər MTN-nin əməkdaşı birlikdə vertolyotla Ziyarət dağına göndərildik. Məlumat alınmışdı ki, Ziyarətdəki Alban məbədindən ermənilər silah-sursat bazası kimi istifadə edirlər. Vertolyot bizi Ziyarət dağının haçasında düşürtdü və bildirdi ki, saat $18^{00}$-da gəlib aparacaq. Biz çox çətinliklə Ziyarət pirinə gəlib çıxdıq. Əvvəlcə piri mühasirəyə aldıq, heç bir hərəkət olmadığını, müşahidə etdik, məbədə daxil olduq, heç nə yox idi. Biz yenidən vertolyotdan düşdüyümüz yerə qayıdarkən artıq dağı qara duman bürümüşdü. Elə bu səbəbdən də vertolyot gəlib çıxmadı. Biz məcbur olduq ki, rayona piyada qayıdaq. Piyada yolu da ermənilər yaşayan Ağcakənddən keçirdi. Mən bir bələdçi kimi qabaqda, nabələdlər isə mənim arxamca Ziyarət dağından düşməyə başladıq.

Biz artıq Ağcakəndə yaxınlaşanda hava qaralırdı. Ağcakənddən gözləmədiyimiz halda bizi atəşə tutdular. Biz cavab atəşi aça-aça kəndin başından keçib Sirik kəndinə enməyi qət etdik. Biz Sirik kəndinə çatanda təxminən saat $23^{00}$ olardı. Bir az keçməmişdi rəhmətlik Zahid Əhmədov 2 ədəd UAZ-469 markalı maşınla gəlib çıxdı. Sirik



kəndindən Cəbrayıla maşınla getdik. Üst-başımız pis gündə idi, islanmışdıq, palçığa batmışdıq.

Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı Namiq Baxşəliyev bildirdi ki, Hümbətalıyev bizi sağ-salamat gətirdiyin üçün rəislə danışıb sənə «Milis əlaçısı» döş nişanı verdirəcəyəm və elə də etdi.

Günlərin bir günü, 1991-ci ilin may ayında Dolanlar kəndində şöbənin rəhbərliyi bir neçə hərbiçi ilə bərabər, polis şöbəsinin əməkdaşlarından bir neçəsini qrup halında Hadrut rayonunun Arpagədik kəndinə pasport rejimini yoxlamaq üçün göndərdilər. Mən, Hüseynov Hüseyn, Hüseynov Sərdar, Əliaslanov Yusif və bir nəfər İsaxlı kənd sakini bizimlə bələdçi kimi gedirdi. Vertolyot bizi Arpagədik kəndində düşürüb rayona qayıtdı. Biz kəndə girib pasport rejiminə dair yoxlama keçirən zaman terrorçuların yaşadıqları bir evi aşkar etdik. Həmin evdə 6 ədəd yataq dəsti, konserv halında olan bir neçə karobka xarici dövlətlərin istehsalı olan yağ, pendir, ət qutuları var idi. Biz pasport rejimini yoxlayarkən bir nəfər erməni silahlısının bizdən qaçaraq bağın içərisində gizlənmək istədiyini gördük. Dərhal onu tutub saxladıq. Həmin hadisədən bir neçə saat keçmiş yaraqlılar dəstəsi bizi dağdan atəşə tutdular. Biz də cavab atəşi açdıq, bir müddət atışdıqdan sonra Laçın polisləri də gəlib hadisə yerinə çıxdı. Onların gəlişindən sonra ermənilər çoxluğu görüb, atəşi dayandırdılar və meşənin dərinliyinə çəkildilər. Axşamüstü təxminən saat $17^{00}$ radələrində vertolyot gəlib çıxdı. Daşnak terrorçusunu da vertolyota mindirib rayona gətirdik. Daha bir hadisə barədə: Təxminən 15 may 1991-ci ildə bir qrup polis əməkdaşları ilə bizi Dəvədaşının yanındakı posta göndərdilər. Həmin gecəni postda qaldıq. Postda qaldığımız zaman ermənilərlə 1 saat atışmamız oldu. Səhərisi gün biz postu təhvil verib, rayona qayıdarkən Daşbaşına gəldik. Şöbənin rəisi, polis polkovniki R.Məmmədov bizi sıraya düzüb soruşdu ki, yorulmamısınız ki? Biz hamımız

cavab verdik ki, xeyir. Rəis bizi Zamzur kəndinə köməyə göndərdi. Biz Zamzur kəndinin aşağısına çatanda şöbənin rəisi komanda verdi: "Polnı period !". Biz hucuma keçdik. Mən, İbrahim Hüseynov, Elşən Əsgərov Zamzur kəndinin sağ tərəfi ilə atışa-atışa kəndin içərisinə girdik. Ermənilər müqavimət göstərə bilməyib kəndi tərk etdilər. Biz kəndi götürüb həmin günü Zamzurda keşikçi-müşahidə məntəqəsi – post qurduq.

Əlisahib müəllim, DİO-na girdiyim ilk gündən mənim həyatım bax beləcə döyüşlərdə keçdi. Mən bu həyatdan, polis həyatından əsla narazılığım yoxdur. Axı məni polis sıralarına gətirən də Vətən savaşı oldu. Torpaqlarımızı erməni yaraqlılarından təmizləmək üçün DİO-na daxil olmaq istəyim də elə o gündən yarandı. Lakin son nəticədə Cəbrayılı tərk etməyimiz hamımız üçün ağır oldu. Bundan beləsini məncə danışmağına dəyməz. Biz bu gün yalnız Cəbrayıla necə və hansı yolla qayıtmağımız barədə düşünməliyik. Bu ağır vəziyyətdən çıxış yolları tapmalıyıq. Torpaqlarımızın bütövlüyünü nəyin bahasına olursa-olsun təmin etməliyik

## CƏBRAYIL POLİSİ CƏBRAYILLILARIN ÜMİD YERİ, GÜVƏNC YERİYDİ

Tanıtma: **Abdıyev Adil İlyas oğlu** 1961-ci il dekabr ayının 8-də Cəbrayıl şəhərində anadan olub. 1969-cu ildə Cəbrayıl şəhərində Cəmil Əhmədov adına 8-illik məktəbin 1-ci sinfinə daxil olub, təhsilini M.Qorki adına şəhər orta məktəbində davam etdirib. 1979-cu ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib. 1980-1982-ci illərdə keçmiş SSRİ-nin Komi vilayətində daxili qoşunların tərkibində həqiqi hərbi xidmətdə olub. 1983-cü ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix fakultəsinin qiyabi şöbəsinə daxil olub, 1988-ci ildə həmin təhsil müəssisəsini bitirib. 1982-1985-ci illərdə rayonun müxtəlif tikinti idarələrində





Abdıyev Adil

fəhlə işləyib. 1985-ci ildən 1990-cı ilədək "Məhsul" kənd könüllü İdman Cəmiyyətində idman zalının direktoru vəzifəsində çalışıb. 1990-cı ilin may ayından 1993-cü ilin fevral ayınadək Cəbrayıl rayon Polis Şöbəsində dəftərxana müdiri vəzifəsində işləyib. 1993-cü ilin fevral ayının 4-də Cəbrayıl rayon Polis Şöbəsinin PPX rotasında vzvod komandiri kimi daxili işlər orqanlarında xidmətə qəbul edilib. 1993-cü ilin may ayının 25-də şöbənin yetkinlik yaşına çatmayanlar və gənclər üzrə müfəttişliyin inspektoru, həmin ilin iyun ayının 26-da isə şöbənin kadr və peşə hazırlığı üzrə baş inspektoru vəzifəsinə təyin olunub. 1995-ci il iyun ayının 22-də Azərbaycan Respublakası DİN-in 1619 ş\h saylı əmri ilə Cəbrayıl rayon Polis Şöbəsinin Şəxsi Heyətlə İş Üzrə rəis müavini vəzifəsinə təyin edilib. Hal-hazırda həmin vəzifədə xidməti işini davam etdirir. Polis polkovnik-leytenantıdı. Ailəlidir, 1 oğlu var.

Abdıyev Adil İlyas oğlu öz sadəliyi, səmimiyyəti ilə kollektivin dərin hörmətini qazanmışdı. Öz təvazökarlığı ilə müsahibini ilk baxışdan cəlb edir. İntellektual səviyyəsi ilə seçilir. Hərtərəfli biliyə malik bir şəxs təsiri bağışlayır. Orta məktəbi əla və yaxşı qiymətlərlə başa vurduğunu deyir. Bu dövrdə həm də musiqi təhsili alıb. Cəbrayıl şəhər yeddiillik musiqi məktəbinin tar şöbəsində oxuyub. Gözəl tar çalmağı var. Uşaqlıqdan idmanın içində olub. 1-ci dərəcəli futbolçudur. Rayonun idman şərəfini ləyaqətlə qoruyub. Rayonun yığma futbol komandasının üzvü və kapitanı olub. Hər həftənin II və IV günləri şöbə əməkdaşlarının fiziki hazırlıqlarının yüksək səviyyədə saxlanmasına həsr edilən və 2 saat intervalında keçirilən dərslərin, dərslərə hazırlıq işlərinin yüksək səviyyədə icra olunmasına xüsusi

önəm verir. Özü də həmin dərslərin keçirilməsində bilavasitə iştirak edir. Öz vəzifə borcunu səlahiyyəti çərçivəsində icra edir. Hər vəchlə kollektivdə sağlam mühitin qorunub saxlanması üçün bacardığını edir. Üzərinə düşən vəzifə borcunu vicdanla yerinə yetirməyə səy göstərir. Qanunçuluğa riayət, şəxsi işlərin, normativ aktların, sənədlərin səliqə-səhmanda olmasına, şəxsi heyətdə kadrların məsuliyyətinin artırılmasına diqqət yetirir, peşə hazırlığına rəhbərlik işini, hər həftənin IV günləri xidməti və döyüş hazırlığı dərslərinin yüksək səviyyədə keçirilməsini nəzarətdə saxlayır. Bir sözlə şəxsi heyətin peşə hazırlığı dərslərinin təşkilinə və keçirilməsinə ciddi nəzarət edir.

Adil müəllimlə apardığım mükaliməni verdiyi izahatlar əsasında yekunlaşdırıram. Osa Cəbrayıl polisinin keçdiyi yolun bir çox xarakterik tərəflərindən danışır:

- Əfsuslar olsun ki, bu gün bir gözü yaşlı, bir gözü sevinc içindəyik. 1990-1993-cü illər Cəbrayılın həm şanlı qələbələr ili, həm coşqun qaynar vaxtı və həm də sonucda məğlubiyyət illəri oldu. Mən deyərdim ki, 1991-ci ilin noyabr ayının 15-də Şayaq yüksəkliyində yerləşən strateji post rus hərbiçilərinin köməyi ilə ermənilərin əlinə keçəndən sonra rayonun ağır, məşəqqətli günləri başladı. Həmin döyüşdə 4 polis əməkdaşı şəhid oldu. Demək olar ki, düşmən qapının ağzını kəsdirdi. Şayaqdan atılan qradlar Cəbrayılı qana çalxalayırdı. İnsanlar özlərini toxtaq göstərməyə çalışsalar da, üzlərindən təlaş, həyəcan notları əks olunurdu. Elə bil ki, hamı nəysə bir möcüzə baş verəcəyini gözləyirdi. Erməni dığalarının qeyrətlənib aşağı enəcəyinə çoxlarının inanmağı gəlmirdi. Rayonun belə ağır günlərində Cəbrayıl alayında bir sıra səriştəsiz, naşı komandirlər hər an itirdikləri qeyrətli oğulların halına yanmaqdan artıq var-dövlətlərinin, yaxın qohum-əqrəbalarının hayında idilər. Günü-gündən kəsərsizliyi açıq-aydın hiss olunan ordunun işbazları ölümdən qandan, faciədən qazanc götürmək üçün yollar axtarır, baş sındırır, üzdə



isə özlərini qəhrəman kimi göstərir, iç üzlərini camaatdan gizlədirdilər.

Cəbrayıl polisi camaatın ümid yeri, güvənc yeri idi desəm yanılmaram. 1991-ci ilin fevral-mart aylarında PPX rotasının yarandığı ilk günlərdə polis əməkdaşlarının səhərlər postlara göndərilməsi rayon camaatının müşayiəti ilə olurdu. Onlar BTR və digər zirehli maşınlara əyləşib postlara gedəndə hamının ürəyi dağa dönürdü, hamı rahat nəfəs alırdı, axşamlar rahat yatırdılar. Cəbrayılın süqut edəcəyi heç kimin ağlına belə gəlmirdi. SƏDM xətti üzrə əməliyyat müvəkkili İbrahimin tankist papağı başında BTR-ə komandirlik etməsi, desant paltarında Şikarın və Mirələmin qəhrəmanlıqları dillərdə əzbər olmuşdu. İbrahim iki dəfə ağır yaralandı, Şikar və Mirələm isə təəssüf ki, erkən şəhid oldular. Şikar Aslanovun şəxsi işi Polis Akademiyasına daxil olmaq üçün DİN-nin Baş Kadrlar İdarəsinə göndərilmişdi. Ölümsə ona aman vermədi. Cəbrayılın isə döyüş əzmini qırmışdılar. 1993-cü il avqust ayının səhv etmirəmsə 16-sı idi. O vaxt mən kadr və peşə hazırlığı üzrə baş inspektor vəzifəsində işləyirdim, polis leytenantı idim. Səhər bölgüsündə Balyand kəndindəki yüksəklikdə olan polis postunu dəyişmək üçün mən və əlavə 16 nəfər əməkdaş postaçı təyin olunduq. Biz postu təxminən saat $10^{00}$ radələrində dəyişdik. Axşamüstü təxminən saat $16^{00}$ radələrində gördük ki, Milli orduya məxsus tankı yaxınlıqdakı qayanın yanında yerləşən postdan yığışdırırlar. Mən bunun səbəbini əsgərlərdən soruşanda (heç bir zabit yox idi) dedilər ki, əmr verilib. Əmri kim verib, niyə verib bilinmədi. Axşamüstü isə ordunun əsgərləri postu tərk edib, aşağı kəndə düşdülər. Yiyəsiz qalmış əsgərlər kənddə avtomatla quş, toyuq-cücə vururdular. Nəhayət gecə ordunun hansısa batalyonunun siyasi hissə üzrə komandir müavinini, deyəsən adı Rafiq idi, yanımıza çağırıb postu tərk etmələrinin səbəbini soruşduq. Cavabında eşitdik ki, yuxarıdan əmr verilib. Mən ona dedim ki,

yaxşı əmr verilib-verilib, bəs biz ki, buradayıq, bizi tək qoyub niyə gedirsiniz? Cavab verə bilmədi. Gecə Füzuli rayonunun kəndlərinə ( Qarakollu, Rəfədinli və s.) ermənilərin zirehli texnikasının girməsi açıq-aydın hiss olunurdu. Güllə yağış kimi yağırdı. Baş qaldırmaq olmurdu. Səhərə kimi atışma səsləri kəsmədi. Səhər tezdən gördük ki, Hadrut tərəfdən çoxlu sayda tank və zirehli texnika Cəbrayıl istiqamətində bizə tərəf gəlir. Əvvəlcə biz elə bildik ki, Füzuli tərəfdən bizə kömək göndərirlər. Maşınlar Cəbrayıl sərhəddinə çatanda Qarakollu kəndinin yanında dayandılar. Sonra maşınlardan çoxlu sayda piyada qüvvələri düşüb, zəncirvari düzüldülər və kəndə girdilər. Dəhşətli atışma başladı. Başa düşdük ki, bunlar bizimkilər yox, ermənilərdi. Bizim silahımız avtomat idi. Başqa heç bir güclü silahımız yox idi. Təxminən səhər $11^{00}$ radələrində postu dəyişmək üçün əlavə qüvvə gəldi. Mən postu indi əməliyyat işi üzrə rəis müavini işləyən, polis polkovhik-leytenantı Mədəd Hümbətalıyevə təhvil verdim. Biz birlikdə binokl ilə ermənilərin kəndə necə divan tutmalarını seyr etdik, çünki başqa çarəmiz yox idi. Sonra biz sağollaşıb 16 nəfərlə şöbəyə qayıtdıq. Bizdən hardasa 10-15 dəqiqə sonra eşitdik ki, ermənilər bizim postu güclü artilleriya atəşinə tutublar. Hümbətalıyevin dəstəsi məcburiyyət qarşısında postdan geri çəkilməli olublar.

İndi Cəbrayıl polisinin hər bir əməkdaşı bu çəkilmənin qarşılığını gözləyir. Bu hal sadəcə gözləmə mövqeyi deyil, üzərlərinə düşən gələcək döyüş vəzifəsini yerinə yetirmək amacında olmalarının göstəricisidir. Cəbrayıl polisi hər zaman döyüşə hazır vəziyyətdədir.



## "TORPAQLARIMIZIN MÜDAFİƏSİ ÜÇÜN İMKANLARIMIZDAN ARTIQ XİDMƏT GÖSTƏRSƏK DƏ NƏ YAZIQLAR Kİ, SONUCDA TORPAQLARIMIZ İŞĞAL OLUNDU"

*İ. Hüseynov*

Tanıtma: **Hüseynov İbrahimxəlil Dəmir oğlu** 1955-ci il mart ayının 10-da Qasım İsmayılov (indiki Goranboy) rayonunun goranboy kəndində anadan olub. Orta təhsilini Qasım İsmayılov şəhər 1-saylı orta məktəbində alıb. 1971-ci ildə orta təhsilini başa vurub, sənədlərini BDU-nin hüquq fakultəsinə verib. Eləcə 1978-ci ilə kimi imtahanlardan yaxşı qiymətlər alsa da müsabiqədən keçməyib.


Hüseynov İbrahim

1974-1976-cı illərdə Leninqrad vilayətinin Kinqisepp rayonunda hərbi xidmətdə olub. Xidmətdən qayıdanda nümunəvi əsgər kimi adı hərbi hissənin şərəf kitabına yazılıb. Hərbi hissə komandanlığından aldığı göndərişlə ( forma 2) təkrar BDU-nin hüquq fakultəsinin hazırlıq şöbəsinə sənəd verib. Lakin yenə də qəbul ola bilməyib. Nəhayət, 1978-ci ildə o zamanlar Azərbaycan KP MK-nin birinci katibi işləyən Heydər Əliyevin təşəbbüsü ilə verilən məlum qərardan sonra – hüquq fakultəsinə yalnız fəhlə və kolxozçu balalarının sənədlərinin götürülməsi – göstərişindən sonra BDU-nun hüquq fakultəsinə daxil olub. İbrahim Hüseynov 1983-cü ildə ali təhsilini başa vurub, təyinatla Cəbrayıl rayon DİŞ-də SƏDM inspektoru vəzifəsinə göndərilib. Həmin vaxtdan bu günə kimi Cəbrayıl rayon polis şöbəsində müxtəlif vəzifələrdə işləyir. 1992-ci ilin noyabr ayında CA xətti üzrə əməliyyat müvəkkili, 1992-ci ilin iyun

ayında isə iqtisadi sahədə cinayətkarlıqla mübarizə qrupunun baş əməliyyat müvəkkili təyin olunub.

Hal-hazırda baş təhqiqatçı vəzifəsində çalışır. Polis mayorudu. Ailəlidi.

İ.D.Hüseynov Cəbrayıl RPŞ-də işlədiyi 23 il ərzində öz işgüzarlığı, alicənab bir insan olması ilə fərqlənmişdi.Özünü daxili işlər orqanlarına yararlı bir əməkdaş kimi xarakterizə etmiş, işlədiyi ayrı-ayrı sahələrdə xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlmişdi. Rəhbərliyin tapşırıq və gösrətişlərini vaxtında və keyfiyyətli şəkildə yerinə yetirmişdi. İstər SƏDM inspektoru, istərsə də əməliyyayçı kimi öz iş sahəsində işləyərkən müsbət keyfiyyətləri baxımından əhali arasında ad çıxarmışdı. Lakin Hüseynov İbrahimxəlil Dəmir oğluna daha çox ad-san gətirən cəhətlər onun torpaqlarımızın müdafiəsi zamanı erməni-daşnak faşistlərinə qarşı aparılan döyüş əməliyyatlarında yaxından iştirak etməsi, daim ön xətdə durması, döyüşlərdə şəxsi igidliklər göstərməsi olmuşdu. Keçdiyi döyüş yolu ibrətamizdi. İ.D.Hüseynovun xatırlamalarının hər biri gələcək mübarizələrdə gəncliyə örnək ola biləcək hekayələrdi.

**İbrahimxəlil Dəmir oğlu Hüseynovun I xatırlaması:**

- Tale elə gətirdi ki, milis işinin incəliklərinə yiyələndiyim bir vaxtda erməni millətçiləri Qarabağ müharibəsini alovlandırırdılar və mən də bu alovun içindən keçməli oldum. 1988-ci ildən 1994-cü ilə kimi demək olar ki, milis əməkdaşı kimi yox, bir hərbiçi kimi Vətənə xidmət edirdik. Torpalarımızın müdafiəsi üçün çox fəallıq göstərsək də, nə yazıqlar ki, bunun bəhrəsi olmadı. Son nəticədə torpaqlarımız işğal olundu və mən bunun səbəbini «yuxarıların» səriştəsizliyində görürəm, mən və mənim kimiləri Vətənin müdafiəsi üçün imkanlarından artıq xidmət göstərdilər. Dəfələrlə ölü m-dirim savaşına girdik. Lakin qara qüvvələr yenə də öz işlərini gördü. Hər halda döyüş səhnələrini xatırlamamaq olmur.



Bir dəfə Ağcakənddəki postumuza gecə ermənilər hücum edib, postu ələ keçirmişdilər. Səhər tezdən rəis Rəşid Məmmədov başda olmaqla ( Hadrut sərhəd dəstəsinin 2 BTR- ilə) Ağcakənd postunu aldıq. Erməni döyüşçüləri pərən-pərən düşdülər. Sirik kəndi tərəfdən dağın başında olan uşaqlar dedilər ki, Köhnə Tağ kəndinin gündoğanından 3 nəfər yaraqlı Ağcakənd istiqamətində hərəkət edir. Lakin kiminsə tələsik atəş açmasındanmı, ya başqa səbəbdənmi onlar kəndə çatanda duyuq düşüb aradan çıxmağa çalışdılar. Meşəyə tərəf qaçdılar. Mən rəis müavini Vaqif Məhərrəmova bu barədə məlumat verdim. V.Məhərrəmov və rus hərbiçiləri bir qədər BTR-lə irəli getdi. Ermənilər isə yolun altında harasa yox olmuşdular. Belə olduqda mən dedim ki, gedirəm onları axtarmağa. Bir az məndən arxada cavan, möhkəm bədənli milis nəfərlərindən – Vəliyəddin, Mirzəli, Ramil, Əli mənim arxamca gəldilər ki, tək getmə. Xeyli irəli getdikdən sonra bir " veşmeşok" tapdım, içində yemək-içmək var idi. Bir az da irəli getdim, sağa-sola baxa-baxa gedirdim. Birdən sol tərəfdə yolun altında kolların arxasında bir nəfərin silahı mənə tuşladığını gördüm. Ani olaraq bədənimdən nəysə bir gicilti keçdi, əlimi avtomatın qoruyucusuna apardım, açıq olduğunu bildikdə ürəkləndim və həmin şəxsə " əllər yuxarı " dedim. O, əvvəl əlini qaldırıb mənə sanki demək istəyirdi ki, səni vurardım, ancaq vurmadım, çünki o məni əvvəlcə görmüşdü. Mənim sözümdən sonra o əllərini qaldırıb, təslim olduğunu bildirdi. Bu günə kimi mənə aydın deyil ki, həmin terrorçu məni niyə vurmadı. Ya arxadan bizim uşaqların gəldiyinə görə, ya qabaqda BTR-in olmasına görəmi qorxdu, məni vurmadı, deyə bilmərəm. Təkcə Allahu-Əkbər! – dedim.

Həmin vaxt arxadan uşaqlar gəldi və ermənini tərksilah etdilər. O biri iki nəfərin axtarışı bir nəticə vermədi.

**İbrahimxəlil Dəmir oğlu Hüseynovun II xatırlaması:**

- Bir dəfə Şayaq kəndində postda idik. Zamzurda Ermənistandan, Qərbi Azərbaycandan gələn həmyerlilərimiz məskunlaşmışdılar. Ona görə də oraya da nəzarət edirdik. Haxullu polis bölməsinin əməkdaşı Filman Şayaq postuna gəlib dedi ki, Zamzur kəndinə gələn yolda güclü atışma, silah səsləri gəlir. Onu da əlavə etdi ki, kəndin sovet sədrinin müavini və kolxoz sədri rayona gedib qayıtmamışdılar. Ratsiya ilə rayona məlumat verdik. Mən zabit Müşfiq Qarayevi postda başçı saxlayıb, axşamdan xeyli keçməsinə baxmayaraq sürücümüz Ədaləti səslədim. Biz Tuğ polis bölməsinin əməkdaşı Natiq Hüseynovla Zamzura gəldik. Camaat aralığa yığılmışdı. Hadisə isə dediklərinə görə Zamzur yolunda armud ağacının yanında baş vermişdi. Sürücümüz Ədalətə dedim ki, rayondan köməyə gələn yoxdur. Özümüz gedək. Lakin o, qorxurdu ki, gecənin bu qaranlığında hara gedək. Sonra mən və polis nəfəri Natiq Hüseynov avtomaşının kuzovuna çıxdıq və sürücü Ədalətə əmr etdim ki, sür! Avtomatla sağa-sola nəzarət edə-edə Zamzur yolundakı dar yerdə bitmiş armud ağacına tərəf getdik. Həmin yerə yaxınlaşanda ət ürpədici inilti eşitdik. Gürdük ki, bir nəfər qan içində yerdə inildəyir. O, sürünə-sürünə xeyli kəndə tərəf gəlmişdi. O, biri isə yerindəcə həlak olmuşdu, onların minik avtomaşını isə deşik-deşik idi. Biz yaralını maşına qoyub kəndə gətirdik. Lakin bir az sonra o, da keçindi, yarası çox dərin idi. Onu da əlavə edim ki, mən bölmə rəisi Zahid Əhmədovla (Allah rəhmət eləsin!) onun xidməti UAZ-469 markalı minik maşınında bir neçə dəfə həmin hadisə yerindən Zamzura tərəf getmişdim. Birdən həmin avtomaşın vurulan yerdən bir az aralıda, yolun ensiz yerində təzə torpaq töküldüyü diqqətimi cəlb etdi. Ayağımla torpağı o yan-bu yana eşələyəndə tank əleyhinə mina basdırıldığını aşkar etdim. Sən demə, ermənilər mina basdırarkən oraya gələn həmin avtomaşını da güllləbaran ediblər. Zahid dedi ki, gör qismətə bax ki, neçə dəfə onun üstündən o yana bu yana keçmişik. Sonralar onun özü də erməni minasının qurbanı oldu. Minanı zərərsizləşdirdik.



**İbrahimxəlil Dəmir oğlu Hğseynovun III xatırlaması:**

- 1992-ci il yanvar ayında Sur kəndində yığılmış erməni yaraqlılarını məhv etmək üçün əməliyyat hazırlanırdı. Yanvarın 25-dən 26-na keçən gecə hamı şöbədə idi. Mən BTR-in komandiri idim. Rəşid Məmmədov mənə tapşırıq verdi ki, Qışlaq kəndində tək armud ağacının altında dayanıb ərazini BTR-in iri çaplı pulemyotu ilə nəzarət altında saxlamalıyıq. İşıqlaşmamış yola düşdük. Sürücü İ. Quliyev BTR –i çox usta idarə edirdi. Polis Şöbəsinin darvazasından onu arxasınca həyətə elə salırdı ki, gözlərimə inanmağım gəlmirdi. Bu dəfə maşını elə sürdü ki, maşının feredosu yandı. Artıq işıqlaşanda deyilən yerdə idik. Uşaqlar deyirdi ki, irəli gedək, mən isə deyirdim ki, bizim vəzifəmiz ərazini buradan nəzarətdə saxlamaqdır. Hətta bəzi ağzıgöyçəklər deyirdi ki, Hüseynov qorxur. Kimsə birdən dedi ki, rəis Rəşid Məmmədov deyir ki, BTR irəli keçsin. " İrəli!" komandası verdim. BTR-də mən, İ.Quliyev, Arif, Şikar, üstündə isə Ə.Xankişiyev və Y.Əliaslanov oturmuşdu. Birdən Əli və Yusif düşdülər. (Allahu Əkbər!) İlqar mənim yerimdə oturmuşdu. Dedi ki, komandir, gəl yerində otur, mən qayıdıb öz yerimdə oturdum. Arif maşını idarə edirdi. Ona dedim ki, qabaq lyuku (zirehi) bağla. Çünki Füzulidə həmin şüşədən tank vurmuşdular. Bir az irəli getmişdik ki, güclü partlayış oldu, elə bildim BTR-i qabaq şüşədən vurdular. Bir müddət huşumu itirdim və başımda uğultular başladı. Özümə gələndə gördüm ki, maşının içi tüstüdür və hamı yan lyukdan çıxıb və maşının üstünə elə bil dolu yağır. Sən demə, ermənilər biz keçən kiçik bir körpü üstündə mina basdırıblar. Bir az yuxarıda isə pulemyot quraşdırıblar ki, çıxanı vursunlar. Mən də hirsli-hirsli Şirvanın (İlqarın) ünvanına söyə-söyə BTR-

dən çıxdım. Bu vaxt R.Məmmədov özünü çatdırdı, soruşdu ki, uşaqlar salamatdırmı, dedim bəli. İradını bildirdi ki, hərə bir komandirlik edir. Rəşid müəllim təmkinlə dedi: " Yaxşı ki, şükür salamatlıqdır". Bu vaxt orada olan Əlisaab Orucov da gəldi və o da məni sakitləşdirdi ki, şükür salamatlıqdır. Başımda şlem olmadığı üçün zərbə məni yuxarı lyuka necə vurmuşdusa başımda bir-neçə yerdən deşik açılmışdı və kontuziya almışdım. Lakin mən BTR-i aradan çıxarmayınca oranı tərk etmədim. Axşam rayona gələndə növbətçi dedi ki, sizi telefona çağırırlar. Gördüm istintaq qrupunun müstəntiqi Yusif Ağayevdir. Dedi, qardaş ad gününü təbrik edirəm. Dedim ki, ad günüm mart ayındadır. Dedi ki, minaya düşən sənin BTR-in deyildi. Onda başa düşdüm ki, nəyə işarə vurur və ona minnətdarlıq etdim.

**İbrahimxəlil Dəmir oğlu Hüseynovun IV xatırlaması:**

- 1992-ci ilin yayında Şayaq yüksəkliyini geri almaq üçün əməliyyat hazırlanırdı. Qızmar günəş altında hər gün qalxırdıq Məzrənin üstünə. Lakin əməliyyat alınmırdı. Deyirdilər ki, Vahid Alışov gedib Surət Hüseynovla danışıb, təyyarə gələcək, teleqülləni bombalayacaq və biz yüksəkliyi alacağıq. Lakin təyyarə ( şərti adı elektrik idi) də gəlmək bilmirdi. Onu da qeyd edim ki, həmin təyyarə bir dəfə də gəlib Cəbrayıl şəhərinin özünü bombalamışdı. Nəhayət, iyulun ilk günü növbəti dəfə əməliyyat hazırlandı. Dəstənin birinin komandiri mən idim. Qalxdıq Şayaq yüksəkliyi ilə eyni sisilədə olan dağa. Burada ermənilərin müdafiə postu var idi, açıq döyüş gedirdi. Məndən sağda Slavik və Rəhman öz pulemyotları ilə erməniləri gözümçıxdıya salmışdılar. Rəhman hətta sağdan xeyli irəli getmişdi, ermənilər minaatanla az qala onu vurmuşdular. Mən hərdən qalxıb ermənilərin mövqeyini öyrənirdim. Solda İldırım mənə tez-tez ayağa qalxmamağı tövsiyə edirdi. Onun oğlu Taleh isə dəstəmizin minaatanı idi. Onu



çağırıb ermənilərin əsas odlu nöqtəsini göstərdim və oranı nişan almağını əmr etdim. O da çox ustalıqla həmin nöqtəyə 2 dəqiq atəş açdı. Buna baxmayaraq ermənilərin atəş nöqtələri imkan vermirdi ki, irəli gedək. Hətta onlara Sur tərəfdən dağın başı ilə kömək də gəlirdi.

Bu vaxt Vahidin təyyarəsi gəldi və Şayaq televiziya qülləsinə bomba atdı və qüllə yıxıldı. Bir az keçmiş çox güclü bir zərbə məni elə bil alnımdan vurub geri atdı vəyerə çırpdı. Huşumu itirdim, özümə gələndə gözümü açdım, hər yer qaranlıq idi, alnımdan da isti nəsə axırdı. Başımda isə elə bil tank motoru işləyirdi. Dedim yəqin ölürəm, İldırıma dedim ki, uşaqlar məni aparsınlar aşağı, ölürəm. O dedi ki, heç nə yoxdur. Kamil Əliyev və Rəfail Bəhrəmov məni qucaqlarına almaq istədilər, qoymadım. Dedim qoluma girib aparın. Kaş ki, elə deməyəydim, sonradan həkim dostum mənə dedi ki, əgər vurulandan sonra 1-2 saat tərpənməz qalsaydın, o qədər də ağırlaşmazdın. Məni rayona, mərkəzi xəstəxanaya gətirdilər, ilk yardım göstərəndən sonra qaranlıq otaqda uzanmağı məsləhət gördülər. Rövşən qoymadı evdə qalım, məni Papı kəndinə nənəsigilə apardı. Gecəni orada qaldım. Gecə ağrıdan yata bilmədim. Səhər açılan kimi, yenə tərslik edib maşınla rayona xəstəxanaya getdik. Hər dəfə maşın məni silkələyəndə mənə ziyan edirmiş. Yenidən məni Papıya gətirdilər. Həmin gün axşam üstü deyəsən vəziyyətim pisləşir. Sonradan nə baş verdiyindən xəbərim olmayıb. Məni Bakıya aparıblar və TTYX-na qoyublar. Sonradan dedilər ki, Şikar məndən sonra yaralanıb və rəhmətə gedib, həkim deyib ki, bu da öləcək, evlərinə xəbər verin. Ona görə Füzuli gecə Goranboya – qardaşıma xəbər verib ki, məni Bakıya aparıblar. Bir ay TTYX-da müalicə aldıqdan sonra məni DİN-nin hospitalına göndərdilər və orada müalicəmi davam etdirdim. Bu mənim aldığım ikinci ağır yara oldu.

Əlisahib müəllim, belə epizodlar, iştirakçısı olduğum döyüş səhnələri çox olub. Bu gün çox heyifsilənirən ki, niyə həmin günlərdə gündəlik yazmamışam. Çünki tarixi həmişə saxtalaşdırıblar. İndi də bu belədi...

Təlatümlü hisslərin təsiri altında olan müsahibimi çox yormaq istəmirəm. İbrahimxəlili Cəbrayıla doğmalaşdıran nədir? – sualına cavab almaq istəyirəm və elə bu istəklə də söhbətimizi yekunlaşdırıram. Son söz müsahibimdən gəlir:

- Doğulduğum Goranboyda öz tay-tuşlarımdan başqa məni tanıyan yoxdur, çünki ötən ömrümün 22 ildən çoxunu Cəbrayılda keçirmişəm. Buna peşiman da deyiləm. Həm də Qarabağ müharibəsini Vətənimizin dilbər guşələrindən biri olan Cəbrayılda yaşamaq mənə qismət olub. Vətənimin hər qarışı mənim üçün doğmadı, əzizdir. Ona görə Vətən üçün əlimdən gələni etdim. Rəisimiz Vaqif Məhərrəmovun, eləcə də əksər Cəbrayıllıların dili ilə desək, hətta Cəbrayıllılardan da çox elədim. Bəlkə də ona görədir ki, sadə Cəbrayıllı həmişə məni ən əziz bir adamı kimi qarşılayır və mən bundan çox böyük qürur hissi duyuram. Əlisahib müəllim, bəzən məni qınayanlar da olur, deyirlər ki, sən vəzifədə işləsən də özün üçün heç nə eləməmisən, elədiklərinin əvəzini almamısan. Onlara cavabımda deyirəm ki, Allahım məni dəfələrlə ölümdən qurtarıb. Cəbrayılın hörmətli adamlarının – Hacı Qaraman ocağı nümayəndələrinin mənə olan səmimi münasibətlərinə, rayonun başqa yerlərdə işləyən vəzifəli adamlarının mənə rəğbət göstərmələrinə bəs sözünüz nədir? Mən naşükür deyiləm. Bütün bunlar Allah-Təalanın mənə bəxş etdiyi mükafatlar deyilmi?!



## POLİS MAYORU ƏLİYEV SƏMƏND ƏLİ OĞLUNUN DÖYÜŞ XATİRƏLƏRİ



Əliyev Səmənd

Tanıtma: **Əliyev Səmənd Əli oğlu** 1955-ci ildə Füzuli rayonunun Qaraməmmədli kəndində anadan olub. 1961- 1971-ci illərdə Füzuli rayonunun Yağlıvənd kənd məktəbində orta təhsil alıb. 1971-ci ildə Bakı Politexnik Texnikumuna qəbul olub, 1974-cü ildə həmin texnikumu bitirib. 1974-1976-cı illərdə Rusiya Federasiyasının Arxangelsk şəhərində sovet ordusu sıralarında hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra 1977-ci ilin fevral ayında Arxangelsk vilayət Daxili İşlər İdarəsində milis nəfəri kimi xüsusi xidmətə qəbul olunub. 1987-1989-cu illərdə İsakoqorski rayon DİŞ-də ilk partiya təşkilatının katibi işləyib. 1991-ci ilin yanvar ayının axırına kimi həmin DİŞ--də müxtəlif vəzifələrə təyinat alıb və milis kapitanı rütbəsinə yüksəlib. 1980-ci ildə Leninqrad Ali Milis məktəbini, 1983-cü ildə Arxangelsk vilayət partiya komitəsi yanında Marksizm-Leninizm universitetini fərqlənmə diplomu ilə bitirib. 1983-1989-cu illərdə V.V.Kuybışev adına Arxangelsk Politexnik İnstitutunun "Avtomobillər və avtomobil təsərrüfatı" fakultəsində müdavim olub.

Məlum Qarabağ hadisələri başlayanda torpaqlarımızın müdafiəsi uğrunda mübarizə aparmaq məqsədilə keçmiş SSRİ DİN-nə raport yazaraq, Azərbaycan SSR DİN-nin sərəncamına göndərilməsini xahiş edib. 1991-ci ilin fevral ayının 01-dən SSRİ DİN-nin əmri ilə xidmətini davam etdirmək üçün o, Respublika DİN-nin sərəncamına göndərilib. Elə həmin vaxtdan 12.02.1991-ci ildən öz razılığı əsasında AR DİN-nin əmri ilə Cəbrayıl RPŞ-də yeni yara-

nan PPX rotasında tağım komandiri vəzifəsinə təyin edilib. Bir müddət işlədikdən sonra xidmətdəki müsbət göstəriciləri nəzərə alınıb. 1992-ci ilin aprel ayında şöbənin PPX bölüyünün komandiri vəzifəsinə təyin olunub. 1994-cü ilin iyun ayında isə Cəbrayıl RPŞ-nin İctimai Təhlükəsizlik Bölməsinin rəisi vəzifəsinə irəli çəkilib. Polis mayorudu. "Usta məharət dərəcəsi" – alıb. Ailəlidi, 2 övladı var.

**Əliyev Səmənd Əli oğlunun I xatırlaması:**

- 14 fevral 1991-ci il tarixdə mən Cəbrayıla rayon DİŞ--nə gəldim. Şöbənin rəisi, milis polkovniki rəhmətlik Rəşid Məmmədov idi. Mən onun qəbulunda oldum, məruzə edərək şöbənin PPX rotasına tağım komandiri vəzifəsinə təyin olunduğumu bildirdim və bu təyinatla bağlı DİN-nin əmrindən çıxarışı ona təqdim etdim. O, əmri oxuyub, çox gözəl, dedi: - artıq bu gündən xidmətdəsiniz, sabah səhər bölgüsündə bu barədə şəxsi heyətə elan veriləcək. Sonra əlavə olaraq qeyd etdi ki, Dağlıq Qarabağla 80 km-ə qədər sərhəd limiti var. Sərhəd kəndlərində yaşayan əhalimizin təhlükəsizliyini qorumaq üçün strateji baxımdan ən mühüm yerlərdə keşik postları qoymalıyıq, ancaq buna qüvvəmiz çatışmırdı, şəxsi heyətin sayı az idi. Buna görə də DİŞ-nə əlavə olraq 75 nəfərdən ibarət yeni bir post--patrul xidməti rotası yaratmağa icazə verilmişdi. Hazırda şöbədə təsərrüfatların hesabına bu rotanın təşkili davam etdirilir və tezliklə bu işi başa çatdıracağıq. Ertəsi gün şöbədə şəxsi heyətin səhər bölgüsündə mənim təyinatımla bağlı əmr oxundu və həmin gündən rəsmi olaraq xidmətə başladım.

**Əliyev Səmənd Əli oğlunun II xatırlaması:**

- Zamzur kəndi daşnak terrorçularından təmizləndiyi günün səhərisi mən həmin kəndə postun rəhbəri təyin olundum. Mənimlə birlikdə PPX rotasının əməkdaşları Məmmədov Xəqani, Əliyev Elxan, Əliyev Vüqar, Allahverdiyev yaşar, Balayev Yaşar, Baxşəliyev Tufan (ürəktutmasından sonralar rəhmətə getdi), Quliyev Seyfəddin,



İmanov Həbib (şəhid oldu) və Məmmədov Camal (sonralar minaya düşdü.II qrup əlildi) posta gəldik. Mən Quliyev Hikmətdən (indi Naftalan ŞPŞ-nin rəisidi) postu təhvil götürdüm, kəndin ətrafında strateji baxımdan ən mühüm yerlərdə qurulmuş postlara əməkdaşları bölüşdürdüm, təlimatlandırdım, qarşıda duran vəzifələri izah etdim, ayıq--sayıq olmağı tapşırdım, postda səngər qazıb özlərinə təhlükəsiz mövqe tutmağı əməkdaşlardan tələb etdim. Sonra ərzaq paylarını verib, postları qurdum. Bundan sonra özümlə polis nəfəri polis serjantı Məmmədov Xəqanini götürüb kənddə evləri, həyətləri yoxlamağa başladıq. Yoxlama zamanı 7 nəfəri girov götürdük. Onlar zirzəmidə gizlənmiş sakinlər idi, kəşfiyyat xarakterli məlumatlarla kəndi tərk etmək istəyirdilər. Mənim çağırışımla posta gələn DYP-nin əməkdaşı, polis leytenantı Hüseynov Tanrıverdi UAZ-469 markalı avtomaşınla həmin erməniləri şöbəyə apardı. Sonralar həmin ermənilər girovlarla dəyişdirildilər. Həmin gecə saat 3-4 arasında bizim mövqeyimizi " Şayaq" və " Dəvədaşı" istiqamətindən terrorçular avtomat və pulemyotlardan atəşə tutdular. Mən ehtiyat qüvvəmizlə öz postlarımızı möhkəmləndirdim və göstəriş verdim ki, cavab atəşi açsınlar. Biz cavab atəşiylə erməniləri susdurduq.

**Əliyev Səmənd Əli oğlunun III xatırlaması:**

1991-ci ilin noyabr ayının ilk günlərindən biriydi, səhər saat $10^{00}$ radələrində şöbəyə məlumat daxil oldu ki, bəs XTMD (xüsusi təyinatlı milis dəstəsi, onlar o vaxt Şayaq postunda dururdular) " Şayaq" postundan gedib, həmin postu təhvil götürmək lazımdır. O, vaxt şöbənin rəis əvəzi, milis podpolkovniki (indiki rəis, polis polkovniki) Vaqif Məhərrəmov göstəriş verdi ki, şöbədəki əməkdaşları toplayın, " Şayaq" postuna getmək lazımdır. Hava da çiskinli idi. Mən də daxil olmaqla PPX rotasının əməkdaşlarını (Xankişiyev Əli, Mustafayev Nadir. Əhmədov Tofiq, Əhmədov Ceyhun, Yaqubov Nurəddin, İbrahimov Vaqif,

Quliyev Mirzəli, Məhərrəmov Rahib, Verdiyev Bəxtiyar, İbrahimov Rza, Verdiyev Nadir, Həsənov Fərhad) sıraya düzüb, rəhbərliyə məruzə etdim. Rəis əvəzi Vaqif Məhərrəmov göstəriş verdi ki, hazırlaşın " Şayaq" postuna gedirik, omonçular postu qoyub gediblər. Məni posta rəhbər təyin etdi. Biz 11 nəfər əməkdaş avtomat silahla, Xankişiyev Əli, Məhərrəmov Rahib isə qumbaraatan avtomatla silahlandılar. Çox böyük çətinliklə yüksəkliyə qalxdıq. Postda heç kəs yox idi. Rəis əvəzi bizi sıraya düzüb, göstərişlərini verdi, mənim postun rəhbəri olmağım barədə şifahi əmrini verdi və onu da əlavə etdi ki, bu gün belə bir çətin şəraitdə bu posta gəlib çıxmaq, postu götürmək, xidmət aparmaq özü də bir qəhrəmanlıqdır, igidlikdir. Siz hər biriniz qəhrəmansınız, bunu mən sizə deyirəm, tarix heç vaxt belə günləri yaddan çıxarmayacaq. Ayıq-sayıq olun, özünüzü hər an gözləyin, Allah amanında deyib getdi. Mən əməkdaşları bölüşdürüb, təlimatlandırdım və ən mühüm yerlərdə postlar qurdum, əməkdaşlara xidmət aparmaları barədə əmr verdim. Uşaqlar böyük ruh yüksəkliyi ilə xidmətə başladılar, gecələr isə şəxsən özüm bu postlarda olur, onlarla söhbətlər aparır, xidmətlərini yoxlayır, verdikləri sualları cavablandırır, xidmətə nəzarət edirdim. Həmin gecə saat $03^{00}$ radələrində postumuzun qərargahı yerləşən televiziya qülləsinin yanına (Hadrutun üstü) postun şimal hissəsindən atılmış 3 oqnomyot mərmiləri çox güclü işıq saçaraq düşüb partladı. Həmin an postda keşik çəkən Əhmədov Ceyhun, Məhərrəmov Rahib, Həsənov Fərhad, Yaqubov Nurəddin gözlərimiz görmür, nə isə gözümüzü tutdu deyib qərargaha gəldilər. Partlayışda o qədər güclü silkələnmə, titrəmə vardı ki, elə bil 6-7 bal gücündə zəlzələ baş verdi. Mən tez ehtiyatda olan qüvvə ilə postdakıları dəyişdim və polis starşinası ( indi polis kapitanıdır) Xankişiyev Əliyə də göstəriş verdim ki, münasib mövqe seçib, ermənilərin atəş açdıqları nöqtəyə qranatatanla cavab atəşi açsın, əməkdaşlara isə



təhlükəsiz yerdə dayanıb, ermənilərin hücumunun qarşısını almağa, döyüşə hazır olmalarını bildirdim. Polis starşinası Xankişiyev Əli yerini dəyişə-dəyişə ermənilərin atəş nöqtələrinə 3-4 dəfə qumbaraatanla atəş açdı. Bundan sonra onların atəş nöqtələri susdu.

**Əliyev Səmənd Əli oğlunun IV xatırlaması:**

– Cəbrayıl rayonunun ərazisi işğal edildikdən sonra 1993-cü ilin noyabr ayının ortalarında Cəbrayıl RPŞ, DİN-nin əmri ilə Daxili Qoşunların Ağdam alayının tərkibinə verildi. Şöbəmiz Füzuli rayonunun Bala Bəhmənli kəndində yerləşdirildi. Həmin vaxtdan cəbhənin ön xəttində, Əhmədbəyli kəndi ilə Böyük Bəhmənli kəndi arasında, Şərab zavodundan yuxarı, Qarabağ su kanalından sağdakı yüksəklikdə keşikçi postlarında şöbəmizin əməkdaşları xidmət aparırdı.

22 dekabr 1993-cü ildə səhər tezdən göstəriş oldu ki, bu gün hücum əməliyyatı olacaq. Biz də ön cəbhədəki postlarımıza gəlib mövqe tutduq və əmr gözlədik. Şöbənin rəisi polis polkovniki Vaqif Məhərrəmov bizimlə bir yerdə idi. Hücum əməliyyatında irəli gedənlərin siyahısı hazırlanmışdı, postlarda qalıb xidmət aparanların siyahısı isə ayrı idi. Hücuma gedənlər: Hüseynov Vaqif, Əliyev Səmənd, Məmmədov Vəliyəddin, Əliaslanov Tahir, İsmayılov Mübariz, Kazımov Şükran, Quliyev Seyfəddin, Məmmədov Əjdər, Mehdixanov Habil və digər əməkdaşlar idi. Həmin gün saat $15^{00}$ radələrində " İrəli!" hücum komandası verildi. Bu komandaya əsasən rəisin göstərişi ilə bizim qrup Vaqif Hüseynovun rəhbərliyi altında irəliləməyə başladı. Postumuzla üzbəüz 150-200 metr məsafədə ermənilərin səngərləri yerləşirdi, onlar səngərlərin qarşısına piyada əleyhinə minalar basdırmışdılar. Biz təhlükəsizlik qaydalarına əməl edərək həmin ərazidən itkisiz keçib ermənilərin səngərlərinə girdik, ancaq bu səngərlərdə heç kəs yox idi, ermənilər səngəri qoyub qaçmışdılar. O zaman Vaqif Hüseynov rəisə məlumat verdi və rəis Vaqif

Məhərrəmov ratsiya ilə irəliləməyimizə göstəriş verdi. Bizimlə paralel olaraq həm sağdan, həm də soldan Daxili Qoşunların, Müdafiə Nazirliyinin əsgərləri, hamı eyni vaxtda irəliləyirdilər. Biz piyada 5-6 kilometr yol gedib. Qarabağ kanalının alt hissəsində, Böyük Bəhmənli kəndinin fermasının yaxınlığına çatanda erməni tankları həm irəlidən, Böyük Bəhmənlinin qəbiristanlığından, həm də şimal istiqamətindən Alxanlı tərəfdən bizləri güclü atəşə tutdular. Bu döyüşdə çoxlu itki oldu. Hətta, əsgərlər bizə deyirdilər ki, babam, irəli hara gedirsiniz, ordakılar hamısı ermənilərdi, mühasirədəyik, nə irəli, nə də geri getmək olmaz, hər tərəf düzənlikdir. Onda qrup rəhbəri Vaqif Hüseynov göstəriş verdi ki, hamınız təhlükəsiz mövqe seçib, ayıq-sayıq dayanın və mənim komandamı gözləyin. Həmin vaxt yanımıza düşən tank mərmilərinin partlayışı nəticəsində Mehdixanov Habil, Quliyev Seyfəddin, Məmmədov Əjdər yaralanıb kantuziya aldılar. Hava qaralırdı. Biz qaranlıq düşməsini gözləyib tək-tək həmin ərazini tərk edərək postumuza qayıtdıq. Rəis V.Məhərrəmov bizi sağ-salamat görəndə sevindi və dedi ki, sizdən əlimi üzmüşdüm, şükür Allaha ki, sağsınız!

## DÖYÜŞƏN ORDUYLA ÇİYİN-ÇİYİNƏYİK

Tanıtma: **Abbasov Rəfail Əsəd oğlu** 1957-ci ildə Soltanlı kəndində anadan olub. 1964-1974-cü illərdə Soltanlı kənd orta məktəbində ümumi orta təhsil alıb. 1974-cü ildə Bakı Politexnik texnikumunun qiyabi şöbəsinə daxil olub. Texnik-mexanik ixtisasına yiyələnib. Əmək fəaliyyətinə çilingər kimi başlayıb. 1975-1977-ci illərdə Daxili Qoşunlarda həqiqi hərbi xidmətdə olub. Qüsursuz xidmətə görə 1-ci və 2-ci dərəcəli döş nişanları ilə təltif olunub. Əmək kollektivinin tövsiyyəsi ilə 25 dekabr 1979-cu ildə Bakı şəhər DİI-də milis nəfəri vəzifəsinə qəbul olunub. Daxili İşlər Nazirliyinin nəzdində Cinayət Axtarışı




Abbasov Rəfail

xətti üzrə fəaliyyət göstərən bir illik kurs bitirib. 1981-ci ildə isə milis nəfəri kimi təhsilini artırmaq üçün Nalçik şəhərinə ezam olunub. İş təcrübəsini Moskva vilayətinin Orexovoe-Zuevo şəhərində keçirib. Fəal xidmətinə görə 8-ci şöbə tərəfindən qol saatı hədiyyəsi ilə mükafatlandırılıb. İş təcrübəsini artıraraq 1982-ci ildə Bakıya qayıdıb. 1984-cü ildə ailə vəziyyəti ilə əlaqədar olaraq iş yerinin Cəbrayıl rayonuna dəyişdirilməsi üçün Respublika DİN-nə raportla müraciət edib. 1984-cü ildən başlayaraq Cəbrayıl rayon DİŞ-də milis nəfəri kimi xidməti vəzifəsini davam etdirib. 1989-cu ildə isə növbətçi köməkçisi vəzifəsinə irəli çəkilib. 1991-ci ildə PPX rotasında əvvəlcə bölmə, sonra isə tağım komandiri, 1994-cü ilin iyun ayında isə PPX bölüyünün komandiri vəzifəsinə təyin edilib. Polis mayorudu. Ailəlidir. 2 oğlu, 1 qızı var. Oğlanları Asəf və Yasəf atalarının yolunu davam etdirirlər. Hər ikisi Bakı şəhəri, Sabunçu rayon Polis İdarəsinin Mühafizə şöbəsində polis nəfəri vəzifəsində xidmət göstərirlər.

Abbasov Rəfail Əsəd oğlu məlum Qarabağ hadisələri başlamazdan öncə qondarma DQMV-nin həmsərhəd rayonu kimi bir ərazidə - Cəbrayıl RPŞ-də polis starşinası rütbəsində növbətçi köməkçisi vəzifəsində işləyirdi. O da şöbənin başqa əməkdaşları kimi 1988-ci ilin ilk günlərindən Dağlıq Qarabağın Hadrut rayonu ilə həmsərhəd kəndlərdə əhalinin təhlükəsizliyini qorumaq üçün postlara səfərbər edildi. Lakin erməni-daşnak terror qruplarının artan təcavüz və təzyiqlərinin qarşısını almaq azsaylı polis əməkdaşlarının gücüylə mümkün deyildi. PPX bölüyü təşkil edilərkən R.Ə.Abbasovun peşə, fiziki və atəş hazırlığı normativlərini həmişə yüksək səviyyədə yerinə yetirməsi,

sapyorluğu kara gəldi. Öz təcrübəsini işə yenicə götürülən gənc polis nəfərlərinə yorulmaq bilmədən öyrətməyə başladı. Onun bu işgüzarlığı o vaxtlar rayonda ezamiyyədə olan AR DİN-nin Kadr işləri üzrə müavini, polis polkovniki Rəhim Quliyevin diqqətindən yayınmadı. R.Ə.Abbasovun DİN tərəfindən "Milis əlaçısı" döş nişanı ilə təltif edilməsinin təşəbbüsçüsü oldu. Həm də R.Ə.Abbasov yeni yaradılan PPX rotasında bölmə komandiri vəzifəsinə təyin edildi. Bacarığı və təşkilatçılığı nəzərə alınaraq R.Ə.Abbasov əvvəl tağım komandirinin müavini, 1993-cü ildə isə tağım komandiri vəzifəsinə təyin edildi və polis leytenantı rütbəsi aldı. Cəbrayıl rayonu işğal olunduqdan sonra Cəbrayıl rayon Polis şöbəsi DİN-nin əmri ilə Daxili Qoşunların "Ağdam" alayının tərkibinə verildi. R.Ə.Abbasovun komandiri olduğu tağım həmin alayın tərkibində Füzuli rayonunun Arazboyu kəndlərinin düşməndən azad edilməsi əməliyyatlarında bilavasitə iştirak etdi. 1994-cü il yanvar ayının 6-da Babı kəndinin azad edilməsi uğrunda gedən mübarizədə ermənilərin kənd məktəbində yerləşən qərargahı vzvod tərəfindən alınarkən ermənilər tərəfində vuruşan rus muzdlusu əsir götürüldü, xeyli silah-sursat ələ keçirildi. R.Ə.Abbasovun rəhbərlik etdiyi tağım bu döyüşlərdə xüsusilə fərqləndi.

Ümumiyyətlə, döyüş əməliyyatları atəşkəs elan olunanadək, 12 may 1994-cü ilədək davam etdi. R.Ə.Abbasov 1997-ci ildə polis baş leytenantı, 2000-ci ildə polis kapitanı, 2003-cü ildə isə polis mayoru xüsusi rütbəsi almışdı.



## 15 BAHADIRDAN BİRİ


Xankişiyev Əli

**Xankişiyev Əli Kamil Oğlu** 1954-cü il oktaybr ayının 10-da Minbaşılı kəndində anadan olub. 1961-1971-ci illərdə Minbaşılı kənd orta məktəbində ümumi orta təhsil alıb. 1978-1979-ci illərdə hərbi xidmətdə olub. Əmək fəaliyyətini təsərrüfatda davam etdirib. O, əmək kollektivinin tövsiyyəsi ilə 1979-cu ildə Cəbrayıl rayon DİŞ-də polis nəfəri vəzifəsinə təyin olunub. Hal-hazırda Cəbrayıl rayon PPX bölüyünün tağım komandiri vəzifəsində xidmət göstərir. Polis kapitanıdır.

Soydaşlarımızın Qərbi Azərbaycandan didərgin salınması hamı kimi Xankişiyev Əli Kamil oğlunun da heysiyyatına toxunurdu. Ermənilər isə pillə-pillə çirkin niyyətlərini həyata keçirməkdəydilər. Məqsədyönlü şəkildə Sumqayıt hadisəsini törətdilər. Vəhşi azərbaycanlı – türk obrazı yaratmaq üçün daşnak qaragüruhuna qoşulmayan erməniləri belə qətlə yetirməkdən çəkinmədilər. Qətlə yetirilənlər arasında Cəbrayılla DQMV-nin həmsərhəd kəndi olan Cilanın da sakinləri vardı. Təxribat və cinayətlər törədə-törədə erməni daşnak faşizminin təbliğatçıları bütün dünyaya car çəkirdilər ki, türklər bizi yaşamağa qoymur, bizi öz torpaqlarımızdan çıxarırlar, bizi məhv edirlər. Belə bir daşnak təbliğatçısı da Cəbrayıl şəhərinin qulağının dibində - Hərəkül kəndində yaşayan Yervant Qəhrəmanyan müəllim idi. Ömrü boyu tayqulaq Andranikin şəklini döş cibində gəzdirən bu məlun on illərlə Cəbrayıl şəhər orta məktəbində rus dili fənnini tədris etmiş və ilk dəfə Cəbrayıl müəllimləri arasında əməkdar müəllim adına layiq görülmüşdü. Həmin günlər o da öz təxribat

maşınını işə saldı. Cəbrayıl şəhərinin şimal çıxacağında bir gecədə Cəbrayılın dağ kəndlərinə qalxan asfalt yolun üstə, şəhərin 50 metrliyində alaqapı quraşdırdı. Artıq bu erməni həyasızlığının kulminasiya nöqtəsinə qədəm qoyması demək idi. Cəbrayıl camaatının etiraz dalğasını söndürməyin yeganə yolunu Cəbrayıl polisi göstərdi və bu vəzifəni öz üzərinə götürdü. Yəni alaqapının günü bu gün sökülməsini təşkil etdi. Bu iş elə bil Ə.K.Xankişiyevin öz qəzəbini söndürmək üçün bir vasitəymiş. Həmin günə kimi öz iri gövdəsi ilə insanda bəlkə də nataraz və fərsiz bir adam təsəvvürü, təəsüratı yaradan polis nəfərini o gün tanımaq çətin idi. Bütün gücü qollarındaydı. Dəmir karkasları beton qarışıq silkələyib yerindən oynadırdı. Dəmir darvaza sökülüb tullandı. Bir də Yervant Qəhrəmanyanın erməni dilində kağıza yazıb butulkaya atdığı əlyazma darvazanın fundamentindən çıxdı. Yervant müəllim erməni həyasızlığı ilə yazmışdı: "Bura qədim erməni torpağıdı". O gündən Cəbrayılın Hadrutla həmsərhəd kəndlərində polis postları təşkil olunmağa başlandı. Sərhəd ərazilərdə davamlı olaraq polis gəzintiləri həyata keçirildi. Elə ilk daşnak terrorçusunun tutulması da Ə.K.Xankişiyevin əlindən gəlib keçdi. Binnətli kəndi ilə Xubyarlı kəndi arasında reyd keçirən Əli Xankişiyev həmin kəndlər arasındakı qədim türk qəbiristanlığında üç təkərli motoskletdə 4 nəfər naməlum şəxslərin onları görən kimi Binnətli istiqamətinə götürülmələrindən şübhəyə düşdü. Bir anda onların qarşısını kəsmək üçün kəsə yolla irəli atıldı. 3 nəfər motoskletdən özünü yerə atıb aradan çıxdılar, onlardan bir nəfərini Əli Xankişiyev yaxaladı. Motosketə baxış keçirən zaman lülkada 60 qranat və iki döyüş üçün yararlı beşaçılan silah aşkar edildi. Tutulanın sonralar Krasnodardan gəlmə daşnak terrorçusu aşkar edildi. Artıq bu iki görüntüdən sonra Ə.K.Xankişiyevin hərəkətlərində çeviklik, zirəklik, xüsusilə də erməni-daşnak terrorçularına qarşı mübarizə aparan bir torpaq oğlu olması barədə camaat arasında



söz-söhbətlər gəzməyə başladı. Onun cəsarətini bir tərəfdən daha da artıran Cəbrayıl rayon DİŞ-nin rəisi, əsl döyüş komandiri kimi özünü tanıdan Rəşid Məmmədovun Ə.K.Xankişiyevə qol-qanad verməsi oldu. Respublika DİN-nin qərarı ilə Cəbrayıl rayon DİŞ-də PPX bölüyü yaradılanda Ə.K.Xankişiyev bölmə komandiri vəzifəsinə təyin olundu. O, öz bölməsi ilə 1991-ci ilin may ayının ortalarında Cəbrayıl rayonu ilə həmsərhəd erməni kəndlərində pasport rejiminin yoxlanılması əməliyyatlarında çox fəal iştirak etdi və öz fədakarlığı ilə fərqləndi. Daşnak terrorçuları Ə.K.Xankişiyevə nə fiziki güc göstərə bilir, nə də iri gövdəli bu türk balasını bir yerdə dayanan görüb onu snayper gülləsinə hədəf seçə bilirdilər. O, Ermənistanın Artaşest rayonundan olan daha iki daşnak terrorçusunu öz əlləri ilə tutub aidiyyəti üzrə hüquq mühafizə orqanlarına təhvil verdi. Döyüşdən-döyüşə püxtələşdi. 11 erməni kəndinin daşnak terrorçularından təmizlənməsi və müdafiə olunması əməliyyatlarında şəxsi igidlikləri, cəsur və qorxmaz hərəkətləri ilə fərqləndiyinə görə " Milis əlaçısı " döş nişanı ilə təltif edildi, Respublika ziyalılarının təsis etdiyi M.Əsədov adına diploma və 10 min manat pul mükafatına layiq görüldü.

Ə.K.Xankişiyev 15 polis nəfərindən ibarət yaradılan əlahiddə "Hücum" qrupunun komandiri kimi məsul bir işin öhtəsindən də layiqincə gəlirdi. Bu etimad əbəs yerə deyildi. Əli Xankişiyev Qarabağ çarpışmasının içində savaşdı, ən qaynar nöqtələrdə haya-haraya çatan ilk döyüşçü oldu. Elə bir döyüş səhnəsi olmadı ki, Ə.K.Xankişiyev öz silahı ilə həmin döyüşdə iştirak etməmiş olsun. Ağır döyüş silahları da onun əllərində bir-birini əvəz etməmiş olsun. Avtomat kalaşnikovdan tutmuş qumbaraatana, minaatana kimi. Ağırlığından-yüngüllüyündən asılı olmayaraq hər birini əlində çox yüngül və çevik şəkildə işlədib. Həm düşmənə zərbə vurub, həm də özünü düşmən silahının hədəfindən qorumağı bacarıb.

Mən Ə.K.Xankişiyevlə Biləsuvardakı 4 saylı qəsəbədə görüşdüm. Daşbaşıda, Surda, Ağcakənddə iştirak etdiyi döyüşlərdən danışdı. Danışdıqca onun hansı hallar, hisslər keçirməsindən yana mən də təsirlənirəm. Əlbəttə, bu anlarda həyəcanlı hallar, hisslər keçirməsi təbii, məlum məsələydi. Mən ən çox isə onun yerində çətinliklə oturduğunu, çevik və cəld əl-qol hərəkətləri etməsini, yan-yörəyə əyilməsini, nəhəng gövdəsinə xas olmayan yüngül və çevik hərəkətlərini seyr edərək qeydlərimi aparıram..

Ə.K.Xankişiyevin xatırlamalarından bir epizod: "1992--ci il avqust ayının 15-də Şişqaya yüksəkliyi uğrunda Milli Ordu hissələri, Cəbrayıl alayı ilə Gəncə batalyonu birgə əməliyyat keçirirdi. Bizdən də kömək istədilər. Şöbənin rəisi Vaqif Məhərrəmovun göstərişi ilə polis mayoru Məmmədov İsgəndərin komandirliyi altında biz həmin döyüşlərə qatıldıq. Mən AQS-18 ilə silahlanmışdım. Surətli hücum taktikası seçilmişdi. Biz daşnak-terror qruplaşmalarının 3 postunu bir-birinin ardınca ələ keşirdik. Lakin son məqsədə çata bilmədik. Milli ordu komandirlərinin səbatsızlığı, nəzərdə tutulsa da Füzuli alayının hücuma keçməməsi, daxili çaşqınlıq, rus hərbiçilərinin daşnak terrorçularına qoşulması bizi çox çətin vəziyyətə saldı. Biz polis əməkdaşları bu məğlubiyyətlə barışmaq istəmirdik. Daha doğrusu son məqsəd uğrunda döyüşmək arzusu ilə daşnakların əks hücumunu dəf etmək istəyirdik. Milli ordumuz ağır itkilərə məruz qalmışdı. Biz isə döyüşü davam etdirmək əzmindəydik. Toz-torpaq dumanında qan-tər içində döyüşürdük. "Ağ yol" mövqeyində möhkəmlənmək istəyirdik. Komandirim, polis mayoru Məmmədov İsgəndərin ayağından ağır güllə yarası alması vəziyyətimizi olduqca çətinləşdirdi. Amansız döyüş gedirdi. Hücum qrupunun iki əməkdaşının – Quliyev Sahiblə(Mirələm) Mehdiyev Faiqin qanlı döyüşə girib qəhrəmanlıqla həlak olmaları bizi də sınıq saldı. Əvvəlki mövqeyə çəkilməli olduq".



Ə.K.Xankişiyevin hansı hisslər keçirdiyini təsvir etməyi qarşıma məqsəd qoymuram. Onun dedikləri bir yana, mənim sadəcə olaraq məlumat xarakterli bu yazdıqlarımı danışarkən hansı jestlər etməsini təsvir etməyə çətinlik çəkirəm.Bir onu əlavə edə bilərəm ki, Ə.K.Xankişiyev bu gün də daşnak terrorçuları ilə savaşa hazırdı. İntiqam, qisas hissi ilə alışıb yanır. Torpaqlarımızın ərazi bütövlüyünün pozulması ilə heç cür barışmaq istəmir. Qarabağ məsələsinin Parisdə, Vaşinqtonda, Moskvada deyil, Şuşada, Xankəndində, Cəbrayılda çözülməsini istəyir. Yaşının bu çağında belə açıq, əlbəyaxa döyüşlərdə çarpışmaq ölüm-dirim savaşına girmək arzusun reallaşdırmaq istəyir. Xüsusilə, çətin də olsa, Cəbrayılın hansı şəraitdə işğalından, müşahidə etdiyi xoşa gəlməz səhnələr görməsini dilə gətirir. Sonra isə Füzuli rayonunun Arazboyu kəndlərinin işğaldan azad edilməsində Daxili Qoşunların tərkibində Cəbrayıl polisinin iştirakından bəhs edir. Həmin döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olmuş Cabbarov Cabbarın, Məhərrəmov Rahibin cəsədlərinin döyüş meydanından çıxarılması əməliyyatının həyata keçirilməsində iştirak etməsini, bu zaman hansı çətinliklərlə üzləşdiklərini qeyd edir. Hücum əməliyyatının Cəbrayıl rayonu ərazisində keçirilməməsindən təəssüfləndiyini bildirir. Mənsə əminliklə deyirəm ki, gec-tez işğal altında olan torpaqlarımız azad ediləcək. Haqq bizim tərəfimizdədir. Haqq nazilər, ancaq üzülməz. Mütləq Cəbrayıllı günlərə qayıdacağımızı qeyd edirəm. Əli Kamil oğlunu sakitləşdirməyə çalışıram

## ŞƏHİD RUHLARI BİZİ NƏ VAXT BAĞIŞLAYACAQ

**Şükürov Seymur Salman oğlu** 1962-ci ildə Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndində anadan olub. 1970-1980-ci illərdə ümumi orta təhsil alıb. 1981-1983-cü



Şükürov Seymur

illərdə Rusiyanın Xabarovski vilayətində hərbi xidmətdə olub. Təsərrüfatda çalışıb. 1984-cü ildə Füzuli rayon DİŞ-də milis nəfəri kimi xidməti işə qəbul edilib. 1986-cı ildə N.K.Rizayev adına Bakı Xüsusi orta milis məktəbinə daxil olub. 1988-ci ildə həmin məktəbi bitirərək Cəbrayıl rayon DİŞ-də İslah və Əməyə Cəlbetmə işləri üzrə inspektor vəzifəsinə təyinat alıb. Həmin vəzifədə cəmi 3 ay işləyib. Cəbrayıl rayon DİŞ rəhbərliyinin təqdimatına əsasən sahə müvəkkili vəzifəsinə təyin edilib. Hal-hazırda Cəbrayıl RPŞ-nin məsul növbətçisi vəzifəsində xidmət göstərir, polis mayorudur.

Şükürov Seymur Salman oğlu Cəbrayıl rayon DİŞ-də işə başlayan ilk günlərdən, daha doğrusu, 1988-ci ildən Respublikanın sərhədboyu rayonları və kəndlərində olduğu kimi Cəbrayılın da sərhəd kəndlərində ermənilərin mal-qara oğurluğu etmələri, otlaq sahələrində mal-qaranı öldürmələri kimi hadisələr törətməyə artıq başlamışdılar. İş günləri isə atəş hərəkətləri ilə daşnak terror qruplarının bizi elan olunmamış müharibəyə sürüklədikləri günlərlə bir vaxta düşdü.

S.S.Şükürov da Cəbrayıl rayonunun DQMV ilə həmsərhəd kəndlərində əhalinin təhlükəsizliyinin təmin olunması və rayonun ərazi bütövlüyünün qorunması sahəsində digər əməkdaşlar kimi fədakarlıq göstərirdi. Cəbrayıl rayon DİŞ-si rayonda özünümüdafiə qüvvələrinin olmadığı, Milli Ordunun vahid bir qüvvə halında fəaliyyət göstərmədiyi bir zamanda əhalinin son ümid yeri oldu. Ermənilərin silahlı terrorçu dəstələri havadarlarının himayəsi sayəsində ən müasir texnika və silahlarla təmin edilərək nizami ordu halında birləşib, təşkilatlanıb sərhədboyu kəndlərə həmlələr edirdilər.



1991-ci ilin may ayının ortalarında rayon DİŞ-nin rəhbərliyinin təşəbbüsü ilə bütün milis əməkdaşları Hadrut rayonunun Cəbrayılla həmsərhəd ərazisində yerləşən erməni kəndlərində pasport rejimini yoxlama əməliyyatına cəlb olundular. Əlbəttə, aparılan həmin əməliyyatlarda başlıca məqsəd kəndləri oraya toplanmış erməni yaraqlılarından təmizləmək idi. Milis əməkdaşlarının fədakarlığı nəticəsində Hadrut rayonunun 11 kəndi üzrə pasport rejiminin yoxlanması əməliyyatının keçirilməsi, həm də həmin kəndlərin erməni əhalisinin öz xahişləri əsasında həmin ərazilərdən çıxarılması ilə sonuc tapdı. Həmin kəndlərdə yaşayan ermənilər daşnak terrorçularının təxribatlarına, qorxu və təzyiqlərinə dözmədiklərinə görə kəndlərdən köçüb getmək istəyirdilər. Bunun üçün aidiyyəti orqanlara ərizələrlə müraciət edirdilər.

**Şükürov Seymur Salman oğlunun xatırlaması:**

– 1991-ci ilin payız günlərindən biri idi. Ağcakənd demək olar ki, ermənilərdən tam təmizlənmişdi. Axşamüstü həmin gün yəni sentyabrın 30-da postaçılar kənddə terrorçu qruplar görmüşdülər. Rəşid Məmmədovun göstərişi ilə hadisə yerinə gəldik. Gecə olduğundan itki verməmək üçün kəndə daxil olmadıq. Kəndin şimal-şərq yüksəkliyində şöbənin 8 nəfər əməkdaşından ibarət bir qrupla gecə postda qalmalı olduq. Gecə təxminən saat $24^{00}$ radələrində Mülkədərə istiqamətindən köməyə can atan daşnak terror qrupu posta hücum etdi. Biz avtomatla silahlandığımız halda terrorçular pulemyot silahları ilə atəş aça-aça bizi mühasirəyə aldılar. Cəbrayıl rayon Kimya birliyinin sərəncamımızdakı UAZ-469 markalı minik maşınında olan ratsiya ilə qərargahla rabitə əlaqəsi yaratdıq. Ağır döyüşlər getməsi və mühasirədə olduğumuz barədə qərargaha məlumat verdik. Şöbədən Vaqif Məhərrəmovun rəhbərliyi ilə əlahiddə "Hücum" qrupu köməyə gəldi. Mül-

kədərə kəndi ermənilərdən azad olunduğundan şöbədən gələn kömək kəndin içərisindən kəsərək terrorçulara arxadan zərbə endirdilər. Bizi mühasirədən azad etdilər.

S.S.Şükürov digər əməkdaşlarla yanaşı rayonun ərazisi işğal olunmamışdan əvvəl sərhəd kəndlərində qoyulmuş ayrı-ayrı postlarda müdam keşikdə durmuş, torpaqlarımızın müdafiəsi uğrunda gedən mübarizdə öz bacarıq və səylərini əsirgəməmişdi. Bu barədə söhbət açan S.Şükürov yekunda deyir:

– Cəbrayıl rayon Polis şöbəsinin əməkdaşlarının fədakarcasına, igidlik və cəsarətlə döyüşmələrinə baxmayaraq rayonun işğal olunması faktı sarsıdıcıdır. Respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olmuş Cəbrayıl polislərinin ruhu qarşısında borcumuz var. Biz torpaq uğrunda şəhid olduq, bəs siz nə etdiniz sualına bir cavab var ürəklərimizdə. Şəhidlərimizin ruhu yalnız torpaqlarımızın işğaldan azad olunacağı gün bizi bağışlayacaq. Ancaq ondan sonra ruhları şad olacaq. Bizsə ancaq bundan sonra rahat nəfəs ala bilərik.

## O, POLİS SIRALARINA DÖYÜŞÇÜ KİMİ GƏLDİ

**Əhmədov Tofiq Əhmədxan Oğlu** 1970-ci ildə Mehdili kəndində anadan olub. Mehdili kənd məktəbində ümumi orta təhsil alıb. 1988-1990-cı illərdə Rusiyanın Kalininqrad şəhərində hərbi xidmətdə olub. 1990-cı ilin dekabr ayından 1991-ci ilin fevral ayına kimi Cəbrayıl rayonunun Mehdili kəndindəki "İnqilab" kolxozunda təsərrüfat fəaliyyəti ilə məşğul olub. Kolxoz əməkçilərinin zəmanəti ilə 1991-ci il mart ayının 1-də Cəbrayıl rayon DİŞ- nin PPX rotasında milis nəfəri kimi xidmətə qəbul edilib. Hal-hazırda Cəbrayıl RPŞ-də PPX bölüyündə manqa komandiri vəzifəsində xidmət göstərir. Biləsuvar rayonu ərazisində Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün inşa





Əhmədov Tofiq

edilmiş qəsəbədə xidməti iş aparır. Polis serjantıdır. Ailəlidir, 2 övladı var.

T.Ə.Əhmədov PPX bölüyünə döyüşçü kimi daxil oldu. Hazır döyüşçü idi. Danışmaqla arası olmayan, ancaq döyüşdən-döyüşə atılan zaman sözünü deyib, özünü göstərib. Qaradinməz olsa da polis əməkdaşıları arasında cəsur döyüşçü imici qazanıb. Daşnak terror qruplarının yuva qurduqları, camaatı qorxu altında saxladıqları erməni kəndlərindən çıxarılması əməliyyatlarında öz qorxmazlığı, cəsarəti ilə seçilib. Danışmaq əvəzinə əməlində özünü tanıdıb. Bəli, iradəsini bu sayaq ortaya qoydu. Cəbrayıl rayon polis şöbəsinin rəisi Rəşid Məmmədovun seçmələri sırasında özünə yer tutdu. Əlahiddə "Hücum" qrupuna daxil edildi. Ən çətin anlarda və qaynar nöqtələrdə çevik qrupun tərkibində döyüşlərdə iştirak etdi. Deyəsən bu günki mükalimədə T.Ə.Əhmədovu danışmağa məcbur edən mən oluram. O, Zamzur döyüşündən bəhs edir: "Cəbrayıl rayonunda milisdə işlədiyim ilk vaxtdan erməni quldurları bizim torpaqlara tez-tüz hücum edirdilər. Bir gün biz hücum qrupunun ehtiyat hissəsi kimi şöbədə qalmışdıq. Səhər saat 4-5 radələrində qərargaha Şayaq postundan məlumat verdilər ki, terrorçular Zamzur kəndinə hücum ediblər. Şöbənin rəis əvəzi V.Məhərrəmov ehtiyat qrupu ayağa qaldırdı və Zamzur kəndinə getməyə göstəriş verdi. Özü də qrup rəhbəri kimi maşına əyləşdi. Biz kəndə yaxınlaşmağa az qalmış maşınlardan düşdük. V.Məhərrəmov bizi üç qrupa böldü. Mən V.Məhərrəmovun başçılıq etdiyi qrupa düşdüm. Biz deyilən istiqamətdə getdik. Kənd od-alov içərisində yanırdı, ermənilər artıq kəndə girib bizim postları almışdı. V.Məhərrəmov bizə göstəriş verdi ki, kəndə

girəcəyik. Bizim qrupa 10 nəfər daxil idi; Şikar Aslanov, Rahib Məhərrəmov, Yaşar Balayev, Ceyhun Əhmədov və başqaları ilə birgə biz kəndə girdik. Səhər aşılmaq üzrəydi. Kəndin ortasında dükan vardı, ətrafında isə qara geyimli erməni quldurları hərlənirdilər. Biz onları görcək atəşə tutduq. Artıq səhər açılmışdı. Biz onların ölənlərini və yaralılarını açıq-aydın görürdük. Bizi görən ermənilər başa düşdülər ki, müqavimət göstərsələr mühasirəyə düşəcəklər. Ona görə də geri çəkilməyə, tez aradan çıxmağa qərar verdilər. Biz erməni quldurlarını qovub kənddən çıxardıq. Həmin gün Zamzur və Şayaq döyüşlərində bizim 7 polis əməkdaşımız qəhrəmancasına həlak oldular. Biz kəndə daxil olan kimi bizimkilərin səngər kimi istifadə etdikləri evə tələsdik. İki mərtəbəli evdən əsər-əlamət qalmamışdı. Kazım Məmmədov burada tək başına on iki terrorçunu qətlə yetirmişdi. Biz Kazımın yanındakı avtomatın nömrəsindən müəyyən etdik ki, yanan, bir ovuc külə dönən onun cəsədidir. Canından çox istədiyi Vətəni üçün can verməyə, qan tökməyə həmişə hazır idi. Öz qəhrəmanlığı ilə bizə bir məktəb qoyub getdi".

## ƏLİASLANOV TAHİR SƏXAVƏT OĞLU

Əliaslanov Tahir Səxavət oğlu 1965-ci il aprel ayının 5-də Dağ Xələfli kəndində anadan olub. İbtidai təhsilini Xələfli kənd səkkizillik məktəbində alıb. 1978-1984-cü illərdə Cəbrayıl şəhər internat orta məktəbində oxuyub. 1984-1986-cı illərdə Rostov vilayətində aviasiya hərbi hissəsində əsgəri xidmətdə olub. 1987-1989-cu illərdə Cəbrayıl şəhər istilik şəbəkəsində işləyib. 1989-1994-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun qiyabi şöbəsində təhsil alıb. 1989-cu ildə Cəbrayıl şəhəri Uşaq, gənclər idman məktəbində futbol üzrə məşqçi müəllim vəzifəsinə təyin edilib. 1992- ci il oktyabr ayının 23- də Cəbrayıl rayon PŞ- nin PPX bölüyündə də polis nəfəri kimi





Əliaslanov Tahir

xidməti işə qəbul olunub. Quşçular əməliyyatında, Daşbaşı kəndinin daşnak terror qruplarından azad edilməsində fədakarlıq göstərib. 1993- cü ilin sonu 1994- cü ilin əvvəllərində Füzuli rayonunun Arazboyu kəndlərinin işğaldan azad olunması əməliiyyatlarında iştirak edib. 1998- ci llədək döyüş bölgəsində ön xəttə keşikçi-müşahidə postlarında dayanıb. 1995-ci ilədək polis nəfəri kimi xidmətdə olub. 1995- ci ilin aprel ayında vzvod komandiri vəzifəsinə təyin edilib. Polis leytenantı xüsusi rütbəsi alıb. Komandiri olduğu vzvod 1998- ci ilədək cəbhə xəttindəki Cocuq Mərcanlı kəndində düşmənlə üzbə- üzdə yerləşən müdafiə postunda xidmət göstərib.

T.S.Əliaslanov 1999-cu ildə polis baş leytenantı rütbəsi alıb. 2002-ci ilədək isə vzvod komandiri vəzifəsində çalışıb. 2002-ci ilin dekab ayının 25-də sahə müvəkkili vəzifənə irəli çəkilib və kapitan rütbəsi alıb. 2005-ci ilə kimi çadır şəhərciklərində, sonra isə yeni salınmış qəsəbələrdə xidmətini davam etdirib. 2-ci dərəcəli məharət döş nişanı var. Dəfələrlə qiymətli hədiyyələrə layiq görülüb. Hal-hazırda Cəbrayıl rayon Polis Şöbəsində sahə müvəkkili kimi Xırdalan qəsəbəsində xidmətini davam etdirir. Polis kapitanıdır. Ailəlidir.

## CƏBRAYIL POLİSİNDƏ CƏBRAYILIN İLK POLİS QADINI

Tanıtma: **Quliyeva Şəfiqə Qərib qızı** 1974- cü il aprel ayının 4-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. 1980-ci ildə Böyük Mərcanlı kənd orta məktəbinin 1-ci sinfinə daxil olub, 1990-cı



Quliyeva Şəfiqə

ildə məktəbi əla qiymətlərlə bitirib. Bir neçə fənn üzrə fərqlənmə diplomları alıb. 1992-1993-cü tədris ilində ilk test imtahanları ilə N.Tusi adına ADPU-nin kimya-biologiya fakultəsinə daxil olub. 1997-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirib. Təyinatla Bakı şəhəri Əzizbəyov rayonunun Qala kənd orta məktəbinə göndərilib. İlk əmək fəaliyyətinə biologiya-kimya müəllimsi kimi başlayıb. Öz şəxsi arzusu ilə pedaqoji fəaliyyətdən uzaqlaşıb. 1998-1999-ci illər ərzində Qeyri-hökumət təşkilatlarında çalışıb. Respublikanın ictimai həyatında yaxından iştirak edib. Bu fəaliyyət onu ikinci təhsil almağa həvəsləndirib. Beləliklə o, müsabiqə yolu ilə Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının "İnzibati İdarəetmə" fakultəsinə daxil olub. 2001-ci ildə həmin fakultənin "Dövlət və Bələdiyyə İdarəetməsi" ixtisasını əla qiymətlərlə bitirib. 2002-2003-cü illərdə Cəbrayıl rayon Polis Şöbəsində dəftərxana müdiri vəzifəsinə təyin edilib. 2003-cü il aprel aymm 3-də Daxili İşlər Nazirinin 671 ş\h saylı əmri ilə şöbənin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili Qrupunun inspektoru vəzifəsinə təyin olunmaqla daxili işlər orqanlarında xidməti işə qəbul edilib. Ona polis leytenantı xüsusi rütbəsi verilib. 2005-ci ildən şöbənin kadr və peşə hazırlığı üzrə baş inspektoru vəzifəsində çalışır. Polis baş leytenantıdır. Ailəlidir.

**Vaqif Məhərrəmovun xatırlaması:** "Şöbədə Qeydiyyat və Şəxsiyyət vəsiqəsi qrupunda mülki qeydiyyatçı ştatı boş idi. Görünür hardansa bundan xəbər tutan olub. Bir gün, hətta, adını bilmədiyim, mənə tanış gəlməyən Şəfiqə xanım kabinetə daxil oldu. Iş axtardığını, işləmək arzusunda olduğunu bildirdi. Tərəddüd içində qaldım. Zərif cinsin nümayəndələrini bu gün mülki idarələrdə işə götürməkdən yayınırlar. Bir sıra problemlər ortaya atırlar. Ağrımaz başlarına duz bağlamaq istəmirlər. Bütün bunlar mənə məlum məsələlər idi. O ki qalmışdı polis şöbəsi ola. Lakin Şəfiqə xanımın ciddiliyi, suallarıma sərbəst və səlist cavab verməsi, iki ali təhsilə malik bir insanın az maaşlı bir işdə işləməyə israrlı olması diqqətimi çox çəkdi. Mən nisbətən yüksək məvacibli dəftərxana müdiri vəzifəsini ona təklif edəndə, sevindi. Hətta, bəri başdan mənə öz minnətdarlığını da bildirdi. Beləliklə, Şəfiqə xanım kollektivimizin bir üzvünə çevrildi. Bu xanımın az bir müddətdə işgüzarlığı, təşəbbüskarlığı, dəftərxana işini yüksək səviyyədə mənimsəməsi mənim marağımı bir az da artırdı. Şöbədə Yetkinlik Yaşına Çatmayanlarla Profılaktiki İşin təşkili Qrupunun inspektoru vəzifəsi boş idi, ixtisasına da uyğun gəlirdi. Zabit kimi DİO-da işləmək arzusunda olub-olmadığını soruşdum. O, bu işə böyük həvəsi olduğunu bildirdi. Artıq Şəfiqə xanım şöbəmizdə lazımi hörmət qazanmışdı, onun yüksək savadı, tükənməz enerjisi bizi məcbur etdi ki, DİN-nin qarşısında məsələ qaldıraq. Belə də oldu. Şəfiqə xanımın bəxti yüyrək oldu".

Beləliklə, Şəfiqə Quliyeva Daxili İşlər Nazirinin 671 ş\h saylı əmri ilə Daxili İşlər Orqanlarında xidmətə qəbul olunur. O, Cəbrayıl rayon Polis şöbəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profılaktiki İşin Təşkili Qrupunun inspektoru vəzifəsinə təyin edilir. Polis leytenantı Şəfiqə Quliyevanın öz xidməti işinə rayon təhsil şöbəsi ilə birlikdə iş birliyi yaratması, qurması təşəbbüsündən başlayır. Pedaqoji ustalğı və məharəti köməyinə çatır. Mütəmadi olaraq ayrı-ayrı tədris ocaqlarında olur, yeniyetmələr arasında profılaktiki tədbirlər həyata

keçirir. İctimaiyyət arasında izahat işləri aparır. Azyaşlılar arasında cinayətlərin baş verməməsi üçün fərdi yanaşma üsul və vasitələrindən, fərdi tərbiyə metodlarından bacarıqla istifadə edir. Respublikanın 58 rayonuna səpələnmiş Cəbrayıllı ailəsində böyüyən, gələcəyimiz olan yeniyetmələrlə aparılması vacib olan işlərin öhdəsindən layiqincə gəlir. Xüsusilə, Cəbrayıl RPŞ-nin xidməti ərazisi hesab edilən Biləsuvar rayonundakı 6 qəsəbədə yerləşən tədris ocaqlarında maraqlı və yaddaqalan rayon səviyyəli tədbirlər həyata keçirir. 2004-cü ildə həmin ərazidəki orta məktəblərdən 12 nəfər əlaçı şagird seçərək Ulu öndər Heydər Əliyevin doğum günü münasibəti ilə onlara şəxsiyyət vəsiqələrinin təntənəli şəkildə təqdim olunmasını təşkil edir. Qəsəbələrə köçürülməzdən əvvəl hələ çadır şəhərciklərində təşkil etdiyi " Sonuncu son zəng " adlı tədbiri şöbənin əməkdaşları və məktəb kollektivləri arasında təsirli və yaddaqalan əhval-ruhiyyə yaratmışdı.

Ümumiyyətlə, Şəfıqə xanımın təşəbbüskar olduğu və həyata keçirdiyi tədbirlər rayon rəhbərliyi və ictimaiyyəti tərəfındən yüksək razılıq hissiylə qarşılanmışdı. Şəfıqə xanımın məktəblərlə sıx əlaqədə olması, təhsildən yayınma hallarına qarşı səmərəli mübarizə aparması, valideynlərlə təmas qurması, yeniyetmələr arasında qanunazidd hərəkətlərin baş verməməsi üçün əlindən gələni əsirgəməməsi rəhbərlik tərəfındən yüksək qiymətləndirilmişdi. Dəfələrlə təşəkkürlər almış, pul mükafatlarına layiq görülmüşdü. Ən yaxşı mükafatı isə 2005-ci ildə yeni vəzifəyə təyinat alması oldu.Quliyeva Şəfıqə Qərib qızı Cəbrayıl RPŞ-nin Kadr və Peşə hazırlığı üzrə baş inspektoru vəzifəsinə təyin olundu. Polis baş leytenantıdır. Xidməti işini DİN-nin əmr və təlimatlarının tələbləri əsasında qurur. Şəxsi işlərin hazırlanmasında, peşə hazırhğı dərslərinin təş-



kilində, DİO-na daxil olan polis nəfərlərinin fıziki və təhsil səviyyəsi, onlara hami tərbiyəçilərin təyin olunmasında əlindən gələni əsirgəmir. Köməkdarlıq vurğunudur. Peşə çətinliyi onu əsla qorxuzmur. Öz işindən razılıq edir. Mənim " Qadınların Daxili İşlər orqanlarında işləməsinə necə baxırsınız?" sualıma ondan aldığım cavabı da yazıma əlavə edirəm. Söz Şəfiqə xanımdan gəlir: "Ümumiyyətlə, zərif cinsin nümayəndələrinin güc strukturlarında, o cümlədən Daxili İşlər Orqanlarında xidmət aparmasına çox normal baxıram. Bu mənim subyektiv fıkrimdir. Məncə işləmək baxımından cinslər arasında ayrı-seçkilik aparmaq düzgün deyil. Çünki güc strukturlarında eləcə də dövlət idarəetmə orqanlarmda öz işinin öhdəsindən layiqincə gələn kifayət qədər savadlı, bacarıqlı və fədakar xanımlarımız var. O ki qaldı mənim orqana gəlməyimə, bu bir qismət, alın yazımdı.– Kiçik fasilə ilə əlavə edir:
– Təsadüf nəticəsində həyatımı bağladığım Cəbrayıl rayon polis şöbəsində xidmət aparmaq ilk günlər mənə çox çətin gəlirdi. Təbii ki, bu işin nə qədər məsuliyyətli və ağır olduğundan xəbərdar idim. Dəftərxana işinin bütün incəliklərini mənə canla-başla öyrədən polis baş serjantı Kazımov Şükranın əməyini heç vaxt unutmaram. Eyni zamanda ilk rəisim, xidmətə qəbul olunmağımda himayəçim,şəxsiyyətinə pərəstiş etdiyim Vaqif Məhərrəmovun, ən yüksək insani keyfıyyətləri özündə birləşdirən, gözəl insan Xidmət üzrə rəis müavini Vaqif Hüseynovun göstərdikləri əsl valideyn qayğısı bu kollektivi mənə doğmalaşdırmaya bilməzdi. Çox sıx və səmimi münasibət saxladığım polis mayoru Vəliyəddin Məmmədovun, polis baş serjantı Akif Sarıyevin doğma münasibətləri məni bu kollektivə daha da sıx bağladı. Bir sözlə, acılı-şirinli günlərimi paylaşdığım bu kollektiv mənim ikinci evimə çevrildi. - Sonda isə böyük bir təəssüf hissi ilə bidirir: - Cəbrayıl

rayon Polis Şöbəsinin bir əməkdaşı kimi silahdaşlarımın keşdiyi çətin və şərəfli yolu vərəqlədikcə həm təəssüf, həm də şərəf və qürur hissi keçirirəm. Kazımın, Şikarın, Zahidin, Faiqin, Sahibin(Mirələm) keçdiyi qısa, lakin şərəfli yol mənim üçün Vətən sevgisinin etalonudur. Hər dəqiqə düşməndən bu igidlərin intiqamını almağa hazıram. Məgər tariximizdə düşməndən ən böyük intiqamı Tomiris ana almayıbmı? İşğal altında olan torpaqlarımızı azad etmək, tökülən nahaq qanların qisasını almaq üçün mən də paqon yoldaşlarımla çiyin-çiyinə verib düşmənlə savaşa girməyə hər an hazıram! Daşıdığım ay-ulduzlu paqon isə məni bu savaşa daha da yaxınlaşdırır. Bu aypara nişanlı səkkiz guşəli ulduz mənim həyatımm ən böyük rəmzi, Vətən yolunda atacağım addımlarımın qayəsidir.

## CƏBRAYIL POLİSİ HƏMİŞƏ DÖYÜŞƏ HAZIRDI

Səhər bölgüsü arxada qalmışdı. Hər kəs verilən tapşırığın, cari göstərişlərin arxasınca getmişdi. Xidmət sahələrinə, iş başına yollanmışdılar. Mən isə rəis müavini Mədəd Hümbətalıyevin kabinetində oturub şəxsi işlərə dair bir sıra sənədləri vərəqləyir, polis əməkdaşları ilə görüşdən, apardığım sorğu-suallardan aldığım təəssüratlardan qeydlər aparırdım. Bu zaman gənc bir polis əməkdaşının kabinetə daxil olduğunu gördüm. Yəqin ki, rəis müavini ilə işi var deyə düşündüm. Baş qaldırıb "Hümbətalıyev kabinetdə yoxdur, bir azdan gələr" - deyə qabaqdan gəlmişlik etmək istədim. Osa "bilirəm yoxdur, Əlisahib müəllim, mən sizinlə görüşməyə gəldim" - cavabını bildirdi. Salamlaşıb, əl tutuşduq. Tanımadığımdan özünü təqdim etdi: "Adım Bəşirdi. Məmmədov Bəşir Ərşad oğlu. Böyük Mərcanlı kəndindənəm". Bundan beləsi mənim üçün tam aydın idi. "Deməl sən Azərbaycanın Milli Qəhrəmanı Kazım Məmmədovun qardaşısan". Bəli -dedi. Sual dolu nəzərlərimin ona dikildiyini görüncə sözünə davam etdi: - Mən 1974-cü il fevral ayının 1-də anadan olmuşam. 1989-cu ildə Böyük Mərcanlı kənd orta məktəbini bitirmişəm. İlk əmək fəaliyyətinə kəndimizdəki H.Aslanov adına kolxozda başlamışam. Qardaşım Kazımın şəhid düşməsi mənim bütün varlığımı yerindən oynatdı. İntiqam, qisas hissi mənə rahatlıq vermədi. Anamın göz yaşlarına dözə bilmirdim. Gecəm-gündüzün yox idi. Ermənilərlə döyüşmək istəyirdim. Evdən xəbərsiz Cəbrayıl rayon Polis şöbəsinə gəldim. Dedim ki, postlara gedəcəm. O vaxt polis rəisi Rəşid Məmmədov idi. Mənə dedi ki, sən hələ uşaqsan. Yaşın düşəndə gələrsən. Lakin mən onunla razılaşmadım. Postlara gedəcəyimi bildirdim. Atam-anam da işə qarışmalı oldular. Mənə mane olmağa çalışdılar. Mənsə dediyimdən dönən deyildim. Arada polis rəisləri də dəyişdi. Vaqif Məhərrəmov polis rəisi vəzifəsinə təyin olundu. O, yaşıma görə məni PPX bölüyünə polis nəfəri kimi xidmətə qəbul etməsə də Hərəkül postunda keşik çəkməyimə razılıq verdi. Bu post Cəbrayıl şəhərinə yaxın məsafədə yerləşirdi. Mənə təhlükəli postlarda durmağa imkan vermirdilər. Yaşın 20-yə çatar o zaman hər şeyi həll edərik, deyirdilər. Qardaşıma ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adı veriləndən sonra bir az da ürəkləndim. Bir başa Bakıya gəldim. O vaxtkı Daxili İşlər naziri İsgəndər Həmidovun qəbulunda oldum. Vəziyyəti ona dedim. Məni birbaşa PPX bölüyünə polis nəfəri vəzifəsinə təyin etdi. Mən 1993-cü il mart ayının 25-də DİO--na xidmətə qəbul olundum. Ancaq iki aydan sonra Polis postları milli ordu əsgərləri ilə əvəz olundu. Cəbrayılın işğalı zamanı Qurbantəpə döyüşlərində iştirak etdim. Bir tərəfini qaçaraqda qoymuş Bakı yanğmsöndürənləri ilə birlikdə müdafiəni təşkil etməli idik. Lakin hər şey erməni daşnaklannın xeyrinə həll olundu.Cəbrayılın işğalından sonra bizi Daxili Qoşunların tərkibinə verdilər. Mən də

Arazboyu kəndlərin işğaldan azad olunması əməliyyatlarında iştirak etdim. Əli Xankişiyevin komandir olduğu bölmədə döyüşdüm. Əfsuslar olsun ki, Cəbrayılın sərhədlərinə çatanda döyüşlər dayandırıldı. Arzuma çatmadım. 1998-ci ildə bizi ön xətdən çıxardılar. Təhsilimi davam etdirdim. 1999-2004-cü illərdə DİN-nin Polis Akademiyasında təhsil aldım. Məni polis sıralarına gətirən istək düşmənlə döyüşmək, qisas, intiqam almaq hissləri olub. Torpaqlarımızın azad olunması üçün döyüşlərin başlanmasını gözləyirəm. Tək mənim yox, bütün silahdaşlarımızm bir istəyi var. Doğma torpaqlarımızı düşmən tapdağından azad etmək ıstəyi!" Mən ona işində uğurlar arzulayıram. Mərhəm istəklərimi ünvanına bildirirəm. Yenə xəyallarım Cəbrayıla, müqəddəs torpağa qanadlanır. Tarıma çəkilir varlığım bütün. Tanrım, mənə dəyanət ver. Qeyrətimi içimdə boğma, Ya Rəbb! Cəbrayılsız bir əcəl qismət etmə, Allahım mənə!!!

Mənim doğma Cəbrayılım! Ruhları dara çəkən, tarıma çəkən bu torpaq Vətəndir, anadır mənə! Ayrılığa yoxdur daha dözüm, tabım Ana Vətənim Cəbrayıl! Eşit, gözü yaşlı qalanın var, gözü yaşlı qalan Cəbrayıl! Haqqını kim tapdaladı, kim qıydı sənə ?! Adları əfsanələrə dönmüş Kazım Məmmədov, Şikar Aslanov, Sahib Quliyev, Faiq Mehdiyev, Mübariz Qasımov kimi döyüşən oğulları, bu oğulların Ramil Səfərov, Bəşir Məmmədov kimi qisas, intiqam hissiylə alışıb yanan ardıcılları olan torpaq süqut edərmi?! Əsla yox! Sən vəzifə, şan-şöhrət düşgünlərinin, nəfsinə qul olan hərislərin, qarətlə, soyğunçuluqla məşğul olan başı pozuq bir ordunun qurbanı oldun Cəbrayılım – Müqəddəs torpaq! Sənin döyüş əzmini qırdılar. Başını dik tut, Cəbrayıl!

Bu gün Cəbrayıl polisi özünəməxsus bir orqana çevrilib. Dövlətçiliyin keşiyində durmaqla yanaşı torpaqlarımızın bütövlüyü, toxunulmazlığı üçün bu gün də döyüşmək əzmindədir. Bu gün Cəbrayıl rayon Polis Şöbəsi PPX bölüyünün bir vzvodu doyüş bölgəsində ehtiyat qüvvə qismində ikinci xətdə keşik çəkir. Bu gün də döyüşə hazır vəziyyətdə dayanıblar ki, düşmən tərəfindən gözlənilən hər hansı bir təhlükəni dəf etsinlər. Ən ümdə arzuları isə Ali Baş Komandanın haqq işi uğrunda " İrəli! " əmrini gözləməkdir. Döyüşə atılsınlar, erməni-daşnak faşistlərini yerində oturtsunlar. Döyüşlərin bərpa olunacağı günü gözləmələrinin səbəbi Cəbrayıl polisinin yarımçıq qalmış arzularını gerçəkləşdirməkdi, torpaqlanmızın bütövlünü, ərazi toxunulmazlığını təmin etməkdir. Vətən torpağını canlarından, qanlanından əziz tutan şəhid silahdaşlarının ruhları qarşısında borcları var. O, borcu verməkdir! Şəhidlərin Vətən uğrunda mübarizəsi, bir həyat məktəbi, ibrət dərsi kimi öndədir. Cəbrayıl polisləri hələ son sözlərini deməyiblər. Cəbrayıl polisinin bu gün qabaqcadan deyəcəkləri bir sözləri var: "Harada olmağımızdan, harda yaşamağımızdan, harada xidmət etməyimizdən asılı olmayaraq arzumuz doğma torpaqlara qayıtmaqdır! Həm də Şərəflə!".

Cəbrayıl polisinin sıralarında Vətən yolunda ölməyi özünə şərəf bilənlər bir deyil, iki deyil, bütün şəxsi heyətdir. **Cəbrayıl polisi həmişə döyüşə hazırdı!!!**

## O GÜN GƏLƏCƏK

Qələbə şerini yazmamışam mən,
Vədəsi gələndə yazılacaqdı.
Düşmənə gor qəbri qazmamışam mən,
Bilirəm süngümlə qazılcaqdı.

Düşməni xar edən o gün gələcək,
Toy-büsat quracaq el-obam o gün.
Sevdamın məhvəri sinə gərəcək,
Qələbə bayramım olacaq o gün.

Şəhid məzarından dənzərib dən-dən
Qızılı qönçələr çiçək açacaq.
Ruhumun şahpəri bəzənib o gün,
Üfüqdən-üfüqə qanad çalacaq.

O gün gələcək saz, söz havasında,
Haqqa yetişəcək, haqqa yurdumuz,
Zəfər nəğməsini öz avazında
O gün oxuyacaq Milli Ordumuz.



# EPİLOQ




# AZƏRBAYCANIN VARLIĞI QARABAĞDAN KEÇİR



Polis əməkdaşları 1 May nümayişçiləri arasında (1987-ci il)



# CƏBRAYIL RAYON POLİS ŞÖBƏSİNİN RƏİS MÜAVİNİ, POLİS POLKOVNİK-LEYTENANTI HÜSEYNOV VAQİF YAQUB OĞLU İLƏ MÜSAHİBƏ



Hüseynov Vaqif

Tanıtma: **Hüseynov Vaqif Yaqub Oğlu** 1952-ci il mart ayının 27-də Cəbrayıl şəhərində anadan olub. 1959-cu ildə akademik M. Mehdizadə adına Cəbrayıl şəhər 1 saylı orta məktəbinin 1-ci sinfinə daxil olub, 1969-cu ildə məktəbi bitirərək ümumi orta təhsil alıb. 1969-1974-cü illərdə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Avtomobil nəqliyyatı fakultəsində məzun olub. 1974-cü ildə təhsilini başa vuraraq mühəndis-mexanik ixtisasına yiyələnib. 1974-cü ilin avqust ayından 1977-ci ilin may ayınadək Bakı şəhər 2 saylı Yük avtomobili bazasında əvvəlcə sahə ustası, sonra isə texniki təhlükəsizlik və hərəkətin təhlükəsizliyi üzrə mühəndis vəzifəsində işləyib. 1977-ci ilin may aymdan 1978-ci ilin iyun ayınadək Cəbrayıl şəhərindəki 67 saylı Təsərrüfat hesablı tikinti quraşdırma sahəsində mexanik vəzifəsində çalışıb. 1978-ci ilin iyun ayından 1979-cu ilin oktyabr ayınadək Cəbrayıl rayon komsomol komitəsində təşkilat şöbəsinin müdiri, 1979-cu ilin oktyabr ayından 1982-ci ilin sentyabr ayınadək Cəbrayıl rayon komsomol komitəsinin 1-ci katibi vəzifəsində işləyib.1982-1984-cü illərdə Cəbrayıl rayon partiya komitəsinin göndərişi ilə Bakı Ali Partiya məktəbinin dinləyicisi olub. 1984-cü ilin avqust ayından 1985-ci ilin mart ayınadək Cəbrayıl rayon Partiya komitəsində təlimatçı vəzifəsində çalışıb. 1985-ci ilin mart ayında Azərbaycan KP

Mərkəzi Komitəsi Katibliyinin qərarı ilə Daxili İşlər orqanlarında xidməti vəzifəyə göndərilib. Əvvəlcə Cəbrayıl rayon Daxili İşlər Şöbəsində siyasi hissə üzrə rəis müavini, sonralar isə şəxsi heyətlə iş və kadrlar üzrə rəis müavini vəzifəsinə təyinat alıb. 1992-ci ilin iyul ayından Cəbrayıl rayon Polis şöbəsində Xidmət Üzrə rəis müavini vəzifəsində işləyir. Polis polkovnik-leytenantıdır. Qarabağ müharibəsinin iştirakçısıdır. Ailəlidir. Üç övladı var.

Vaqif Yaqub oğlu Hüseynovun adı hər bir cəbrayıllıya bir mənalı şəkildə yaxındı, tanışdı. Bu adın özü onun barəsində çox şey deyir. Polis əməkdaşından çox ziyalılığı ilə tanınır. İstər rayon əhalisi, istərsə də rayon polis şöbəsinin kollektivi tərəfindən adı hörmətlə çəkilir. Öz ciddiliyi, səmimiyyəti, mərhəm danışığı və davranışları, prinsipial mövqedə durması, haqqa tərəfdar çıxması ilə fərqlənir. Yoldaşlığa, dostluğa sədaqətlidi. Özünə məxsus yumoru var. Ondakı xarakterik cizgiləri ayrı-ayrılıqda aşağıdakı bölgülər üzrə ifadə etmək olar.

Bir çox insanlar kimi o da təbiət vurğunudu. Yüksək bir zirvədə dayanıb ana təbiətin əsrarəngiz gözəlliklərini, cüyür qaçan yaşıl düzənliklərini, quşlar cəh-cəh vuran ormanlarını, meşələrini, al əlvan çiçəkli çəmənliklərini, sıldırımlı, şəlalə saçlı silsilə dağlarını, yalçın qayalıqlarını seyr etməyi çox sevir. Təbiətlə təmasdan zövq aldığını, daxilən rahatlıq tapdığını dilə gətirir. Yolu hara düşsə, hansı yana, hansı səmtə güzar etsə ilk növbədə həmin yerlərin təbiəti ilə maraqlanır. Təbiətin qoynunda olmağa can atır. Yaxşı yadımdadır. O, 1978-1982-ci illərdə Cəbrayıl rayon Komsomol komitəsində işlədiyi dövrdə imkan daxilində istirahət günlərində kollektivlə birlikdə asudə vaxtlarını axarlı-baxarlı yerlərdə keçirməyindən çox xoşlandığı mənim də diqqətimdən yayınmazdı. Rayon komsomol komitəsinin büro üzvü kimi mən özüm də həmin gəzintilərin bir çoxunda şəxsən iştirak etmişəm. Belə günlərdə o, tez-tez Sirik kəndindəki Tey dağının ən yüksək zirvəsinə qalxar,



oradan rayonumuzun gözəl təbiətini seyr etməkdən doymazdı. İndi isə deyir ki, heç vaxt o günləri unutmaram. Bəlkə də həmin anlarda ən böyük arzum qartal olub səmaya qalxmaq, doğma təbiətə qovuşmaq olub. Bu gün doğma Cəbrayılımızın, onun füsünkar təbiətinin itkisi bizlər kimi Vaqif müəllimi də için-için göynədir mənən yandırır. İmkan tapan kimi Bakı şəhərinin səsli-küylü mühitindən uzaqlaşır. Ana təbiətin gözəllikləri ilə təmasda olmaqla Cəbrayıl itkisindən yaranan iç dünyasındakı o mənəvi boşluğu doldurmağa çalışır. Bəlkə də bununla nəysə bir təsəlli tapdığını güman edir. Hər halda təbiətdəki bənzərsiz rənglər onu çəkir. Ruhunu oxşayır. Rənglər isə onun üçün tamam başqa bir söhbətin mövzusudur. Vaqif müəllim bütün rəngləri sevir. Ancaq baxır, harada və nə vaxt. Rənglərin onda yaratdığı duyğu və hisslərdən söz düşəndə deyir: «Ağ rəng məndə həmişə təmizlik, paklıq duyğusu oyadır. Mavi, qırmızı və yaşıl rənglər isə Dövlət bayrağımızda əks olunduğu üçün istər-istəməz məndə milli qürur və fərəh hissi yaradır. Qövsi-quzey mənim üçün hər şeydi. Rəng çalarları estetik baxımdan əvəzsizdir».

Hər bir insanın inkişaf etməsində, intişar tapmasında, onun mənəvi aləminin zənginləşməsində incəsənətin rolu böyükdür. Vaqif müəllimin incəsənətin bütün növlərinə münasibəti müsbətdir. Ən çox sevdiyi janr isə musiqidir. Xalq mahnılarını və muğamlarımızı dinləməkdən daha çox zövq və mənəvi qida alır. Orta məktəb illərində hər gün ən azı 1 saat rəhmətlik Xan əminin ifasmda muğam və xalq mahnılarını dinləyəndən sonra çox böyük həvəslə sabahkı dərslərə hazırlaşmasından söhbət açır. O, eyni zamanda klassik qərb musiqisinə də meyllidir. Simfonik musiqini dinləməyə həvəs göstərir. Mosart, Bax, Bethoven və digər dahi qərb bəstəkarların, habelə, ölməz Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Arif Məlikovun əsərlərini dinləməkdən doymur. Habelə, estrada musiqisinə, müasir pop musiqisinə də biganə deyil.

İdmana münasibəti də birmənalıdı. Sağlam bədəndə sağlam ruh olar, deyir. Həqiqətən idmanla məşğul olmaq insanları istər-istəməz bir çox neqativ hallardan, zərərli vərdişlərdən, xüsusən alkoqollu içkilər qəbul etmək, siqaret çəkmək kimi meyillərdən çəkindirir, onları mənən saflaşdırır. İnsanı gümrahlaşdırır. Ən çox pərəstiş etdiyi idman növü futboldur. İnsanlarda ən xoş duyğular oyadan, bu gün milyonlarla insanın həyatının mənasına çevrilən futbola maraq göstərməsi uşaq vaxtlarından yaranıb. Ona mübarizlik keyfiyyəti aşılayıb.

**Vaqif müəllimin xatırlaması:** «Məktəb illərindən futbol üzrə siniflər arası birincilikdə keçirdiyimiz həyəcanlı və sevincli anlar indi də yadımdadır. Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edən rəhmətlik Qabil Hacıyevin sayəsində sinfimizin şagirdləri 60-cı illərdəki dünyanın bütün futbol ulduzlarının adlarını əzbər bilir, futbol üzrə keçirilən dünya və avropa çempionatları barəsində bütün məlumatları ondan alırdıq. Bütün bunlar nəticə etibarı ilə bizdə futbola olan marağın daha da artmasına, başqa sözlə, bu marağın bizim iliyimizə işləməsinə gətirib çıxartdı»

Klassik dünya ədəbiyyatına, xüsusən V.Hüqonun, A.Dümanın, Drayzerin, C. Londonun və Dostayevskinin yaradıcılığına həmişə maraq göstərib. Tarixi və dedektiv mövzularda yazılan əsərləri daha da maraqla mütaliə edir. Azərbaycan yazıçılarından M.S.Ordubadinin tarixi romanlarını, Ə.Vəliyevin, M.İbrahimovun, M.Hüseynin, Anarın, Elçinin əsərlərini dönə-dönə oxuduğunu vurğulayır. Bədii əsərlərdəki obrazlardan danışır. Onun ən çox sevdiyi qəhrəman isə böyük fransız yazıçısı V.Hüqonun "Səfillər" romanındakı Jan Valjan surətidir. Jan Valjanın xarakterindəki möhkəm iradə, dözüm, xeyirxahlıq, düzgünlük və digər mənəvi keyfiyyətlərin ona yaxınlığından, bəhs edir, həyatı boyu bu xüsusiyyətlərə üstünlük verməyə çalışması onun üçün bir həyat normasına çevrildiyni vurğulayır.



İnsanlara münasibətə gəldikdə riyakar, ikiüzlü və yaltaq insanları, yalanla, dələduzluqla və saxtakarlıqla ömür sürən şəxsləri heç cür qəbul edə bilmir. Sözü, fikri və əməli bir olan, səmimiyyəti və sadəliyi ilə seçilən insanlara həmişə həsəd aparıb, həyatda onlar kimi olmağa, onlara bənzəməyə çalışıb. Yalana, şərə-böhtana heç cür dözə bilmir və dərhal kəskin reaksiya verir. İnsanlarla münasibəti səmimiyyət və qarşılıqlı hörmət əsasında qurmağa çalışır.Xidməti borca və tapşırılmış işə vicdanla yanaşır, tabeçiliyində olan polis əməkdaşlarına diqqət və qayğı göstərir, heç vaxt pisliyə-pisliklə cavab verməyə çalışmır. Açıq qəlblidi. Özünə qapanmağı sevmir. Özünə tələbkarlıq göstərmək cəhdindən razılıq hissi keçirir. Bəzi hallarda başladığı bir işi vaxtında başa çatdıra bilmədikdə daxili aləmində yaranan ruh düşkünlüyündən, yeni yaranmış şəraitə bir müddət uyğunlaşa bilməməyindən narazılıq edir. Özünə kənardan baxmağı bacarır.

Allaha inamı var. Onu həmişə başı üstə görür, etdiyi bütün hərəkətlərdə vicdanının səsinə qulaq asır, həyatda daim xeyirxah işlər görmək, ədalətli və rəhmdil olmağa çalışır. O ki qaldı dini ayinlərin icrasına, hələlik özünü daxilən buna hazır hesab etmir.

Həyətyanı sahədə ağaclara və gül-çiçəklərə qulluq etməkdək xüsusi zövq alır.

Qoç bürcündə doğulub. Bu bürclə bağlı yazılan və deyilən əlamətlərdən bir çoxunun şəxsi həyatındakı reallıqlarla üst-üstə düşənlərin olmasından danışır. Lakin bütövlüyünü qəbul etmir. Belə bir ovqat daxilində Vaqif müəllimlə mükalimənin səmtini sual-cavab üstə kökləmənin yeridi deyirəm. Müsahibəyə ayaq verirəm.

**Əlisahib Əroğul:** – Vaqif müəllim, gəlin söhbətimizi birbaşa şəxsi həyatınızdan, ixtisas seçməyinizdən başlayaq. Nə üçün bir avtonəqliyyat mütəxəssisi kimi əmək fəaliyyətinizi davam etdirmədiniz? Üstünlüyü komsomol

işinə verdiniz. Bu yolu tutmanız ictimai işə olan marağınızdan doğdu, yoxsa ötəri bir arzu, istək olub...

**Vaqif Yaqub oğlu:** – İnstitutu bitirdikdən sonra Bakı şəhər 2 saylı yük avtobazasında ixtisasım üzrə işləyərkən, həm də müəssisənin ilk komsomol təşkilatının katibi kimi ictimai iş aparırdım. Həmin vaxtlar ən böyük arzum Sov. İKP sıralarına keçmək idi. Lakin ali təhsilli mütəxəssislər üçün bu baryeri aşmaq çətin məsələydi. Buna baxmayaraq mən 1977-ci ilin aprel ayında bu istəyimə nail oldum. Və Bakı şəhər Nəsimi rayon partiya komitəsində məni Sov. İKP üzvülüyünə namizəd qəbul etdilər. Elə həmin ilin may ayında ailə vəziyyətimlə əlaqədar olaraq Cəbrayıla qayıtmalı oldum. Öz ərizəmlə işdən çıxıb valideynlərimin yanına gəldim. Rayonda ixtisasıma uyğun iş olmadığı üçün 61 saylı Təsərrüfat hesablı tikinti quraşdırma sahəsində boş olan mexanik vəzifəsinə işə götürüldüm. Vur-tut 1 ədəd yük qaldırıcı və 1 ədəd beton-qarışdırıcı texnikası olan tikinti sahəsində işlədiyim 1 il ərzində vaxtımın necə faydasız və mənasız keçdiyini başa düşmək heç də çətin məsələ deyildi.

1978-ci il may ayının 26-sı idi. Həmin gün mənim həyatımda bir-neçə əlamətdar hadisə ilə yadda qalır. Mən həmin gün həm ailə həyatı qurur, həm də namizədlikdən Sov. İKP üzvülüyünə keçirdim. Raykomun büro iclası saat $15^{00}$ da başlamalı idi. Təxminən saat $11^{00}$ radələrində evimizə zəng olundu ki, təcili rayon komsomol komitəsinə gəlim. Orada məni komsomolun 1-ci katibi Heyran xanım Kalbalıyevanın kabinetinə dəvət etdilər. Otaqda komsomolun Mərkəzi komitəsinin nümayəndəsi də vardı, Lüsya Qasımovna. O, mənimlə xeyli söhbət etdikdən sonra, mən onun üzünün ifadəsindən söhbətdən razı qaldığını başa düşdüm. Onlar mənə rayon komsomol komitəsində təşkilat şöbəsinin müdiri vəzifəsində işləməyi təklif etdilər. Açığı bu təklif mənim üçün çox gözlənilməz idi və mən cavab verməyə hazır deyildim. Ona görə yox ki, komsomolda işləməyə həvəsim yox idi. Ona görə ki, bu böyük yükün altına girməyin çətinliyini başa düşür və bu yükü çəkə biləcəyimə o qədər də inanmırdım. Mənə düşünmək və bir qərara gəlmək üçün vaxt verdilər. Həmin qısa vaxt ərzində rəhmətlik atamın məsləhətləri və rayon komsomol komitəsinin katibləri işləyən Famil Balayevin və Famil Məmmədovun mənə göstərdiyi mənəvi dəstək komsomolda işləmək təklifini qəbul etməyimə səbəb oldu. Bir sozlə, mənim komsomol işinə keçməyimin qısa tarixçəsi bundan ibarərdir.



**Əlisahib Əroğul:** – Atanız, rəhmətlik Yaqub müəllim uzun müddət partiya, sovet orqanlarında rəhbər vəzifələrdə işləyib. Rayonun adlı-sanlı ağsaqqallarından, sayılan kişilərindən biri olub. Siz nə əcəb atanızın davamçısı kimi həyat fəaliyyətinizi sonradan bu yöndə qurmadınız daha doğrusu, partiya işində davam etdirmədiniz? Polis işinə keçdiniz?

**Vaqif Yaqub oğlu:** – Düzünü deyim ki, mən həmişə Yaqub Hüseynovun oğlu olmağımla fəxr etmişəm. Həyatda onun tutduğu haqq yolu, xalqa, dövlətçiliyə vicdanla, sədaqətlə və təmənnasız xidmət etmək yolunu layiqincə davam etdirməyə həmişə səy göstərmişəm. O ki qaldı partiya orqanlarında işimi davam etdirməməyimə, onu deyə bilərəm ki, 1982-1984-cü illərdə Bakı Ali Partiya məktəbində təhsil alarkən bir çoxları kimi mən də DİO-da siyasi iş üzrə xidmət etmək barədə təklif olunduqda bir qədər tərəddüddən sonra bu təklifı qəbul etdim və sənədlərimi hazırlayıb DİN-in kadrlar şöbəsinə verdim. Lakin iş elə gətirdi ki, 1984-cü ildə mən məktəbi bitirərkən təyinatımı əvvəlcədən nəzərdə tutulduğu kimi DİN-ə yox, Cəbrayıl rayon partiya komitəsinə verdilər və mən 1985-ci ilin mart ayınadək təlimatçı vəzifəsində işlədim. Açığını deyim ki, həmin vaxt rayon partiya komitəsində yaranmış qeyri-sağlam mühitə heç cür uyğunlaşa bilmirdim. Elə bu vaxt, yəni 1985-ci ilin mart ayında məni DİN-ə çağırıb

Cəbrayıl rayon Daxili İşlər şöbəsində siyasi hissə üzrə rəis müavini vəzifəsinə keçməyimi təklif etdikdə heç bir tərəddüd etmədən bu təklifı qəbul etdim və bununla da mənim partiya orqanlarındakı fəaliyyətimə son qoyuldu. Qarşıda məni çətin, lakin şərəfli bir xidmət sahəsi gözləyirdi.

**Əlisahib Əroğul:** – Komsomoldan milisə gedən yolunuzu necə xarakterizə edərdiniz? Bu yolda qazandıqlarınız, itirdikləriniz nə oldu? Bu yolu seçməyinizdən bu gün peşiman deyilsiniz ki?

**Vaqif Yaqub oğlu:** – Mən rayon komsomol komitəsində işləyərkən daxili işlər şöbəsi ilə sıx əlaqəli fəaliyyət göstərirdim. Rayonda komsomolçu gənclərin təlim-tərbiyəsi, onların faydalı əməyə cəlb olunması və asudə vaxtlarının səmərəli keçirilməsi ilə əlaqədar həyata keçirilən bütün tədbirlərdə rayon DİŞ-nin müvafıq xidmət sahələrinin əməkdaşları da yaxından iştirak edirdilər. Biz rayonun xidmət sahələrinə, xüsusən ticarət və iaşə obyektlərində birgə reydlər keçirir və nəticəsindən asılı olaraq qarşılıqlı razılaşmalar əsasında tədbirlər görürdük. Bütün bunlar nəticə etibarilə rayonda sağlam, işgüzar mühitin yaradılmasına müsbət təsir göstərir, komsomolçu gənclər arasında xoşagəlməz, hüquqazidd halların qarşısının alınmasında mühüm rol oynayırdı. Bir fakta müraciət etsək, məncə yerinə düşər: Yaxşı yadımdadı, 1980-cı ilin isti yay günlərindən biri idi. "Komsomol projektoru"nun növbəti reydini keçirirdİk. Reydə özüm başçılıq edirdim. Bir çox ticarət və iaşə obyektlərində, o cümlədən çörək zavodunda olduqdan sonra şəhərin mərkəzi univermağına gəldik. Univermağın anbarını yoxlayarkən anbarda xeyli miqdarda aztapılan və xaricdə istehsal olunmuş yüngül sənaye malları aşkar etdik. Univermağın müdiri bildirdi ki, bu mallar rayonun rəhbər işçiləri üçün nəzərdə tutulduğundan onları heş cürə açıq satışa çıxara bilmərik. Lakin biz onun sözlərinə əhəmiyyət verməyərək malları anbardan çıxartdırıb açıq satışını təşkil etdik. Həmin vaxt univermaqda olan alıcılar sanki şoka düşmüşdülər. Onlar öz gözləri ilə gördüklərinə inana bilmirdilər. Axı, heç vaxt belə bir hal olmamışdı ki, xaricdə istehsal olunan və aztapılan mallar açıq satışa buraxılsın, Onlar bu cür keyfıyyətli malları yalnız və yalnız alverçilərdən, özü də 3-5 qat baha qiymətə ala bilirdilər.

Sonradan biz həmin reydin nəticələrini "KP"-nın orqanı olan " Bala Kirpi " divar qəzetində geniş işıqlandırdıq. Rayon əhalisi, ictimaiyyət xüsusən də sadə insanlar bütün bunları dərin minnətdarlıq və razılıqla qarşıladı. Biz o zaman başa düşürdük ki, necə deyərlər " bir gülünən bahar olmaz ", cəmiyyətdəki neqativ hallara qarşı elliklə barışmaz mübarizə aparılmalıdır. Yalnız bu halda müvəffəqiyyət qazanıla bilər.

Həmin illərdə mənim rayon DİŞ-nin əməkdaşları ilə, xüsusən profılaktika üzrə baş inspektor Vaqif Məhərrəmovla (O, həm də rayon komsomol komitəsində büro üzvü idi), azyaşlılar üzrə inspeksiyanın rəisi Qəhrəman Həmidovla və rəis müavini Sabir Novruzovla səmimi və işgüzar münasibətlərim sonradan mənim milis orqanlarında xidmətə gəlməyimdə əhəmiyyətli rol oynadı. Bu gün geriyə boylanıb həyat yoluma nəzər salarkən görürəm ki, mən komsomol-partiya orqanlarından milisə xidmətə keçməklə heç də səhv etməmiş, əksinə bu orqana keçməklə özüm üçün həyatda daim haqsızlığa, ədalətsizliyə, qanunların hər hansı şəkildə pozulmasma qarşı barışmaz mövqe tutan bir şəxs kimi geniş imkanlar əldə etmişəm.

Mənim ən böyük qazancım isə respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə özünün qəhrəmanlıq səlnaməsinə neçə-neçə parlaq səhifələr yazmış Cəbrayıl polisinin sıralarında döyüşməyim olubdu. Bu şərəfli adı ləyaqətlə daşımaqdan mən ancaq qürur hissi keçirirəm.

**Əlisahib Əroğul:** – Sovet nihilizminə deyil, daha çox nastalgiyasına uyanlar tez-tez o günlərdən söz salırlar. Çox zaman belə bir fıkir yürüdürlər ki, sovet dönəminin yaxşı tərəflərini atıb pis tərəfini yaşadırıq və ya saxlayıblar. Polis sistemində bu məsələ öz həllini necə tapıb? Bu gün " Polis haqqında". " Əməliyyat-axtarış fəaliyyəti haqqında" və sair qəbul edilmiş qanunlar, Nizamnamələr polis əməkdaşlarını qane edirmi? Şəxsi heyətinizin bu qanunlara riayət etmələrində bir boşluq-filan görmürsünüz ki?!

**Vaqif Yaqub oğlu:** – Bütün xalqların, dövlətlərin tarixində bir sistemdən başqa bir sistemə keçid həmişə ağrılı-acılı olub və fəlakətlərlə nəticələnib. 15 illik müstəqillik dövründəki tariximizə nəzər salsaq bunu aydın görərik. Məgər Qarabağ münaqişəsi Sovet dövründən bizə miras qalmamışdırmı? Şübhə yoxdur ki, bu gün ölkədə aparılan siyasi, iqtisadi və sosial islahatlar Azərbaycan xalqınm layiq olduğu həyatı yaşamağa zəmin yaradacaqdır.

Bu gün polisin fəaliyyəti ilə bağlı bir çox qanunlar qəbul edilib. Həmin qanunlarda və polisin fəaliyyətini tənzimləyən digər normativ hüquqi aktlarda polisin hüquq və vəzifələri aydın göstərilmiş, onların sosial müdafiəsi üçün tədbirlər nəzərdə tutulmuş, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində polisin fəaliyyəti ön plana çəkilmişdi. Bütün bunlar elə bir hüquqi baza yaratmışdır ki, bütövlükdə daxili işlər orqanları öz xidməti fəaliyyətlərini lazımınca tənzimləmək, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin olunmasında qanunların gücündən maksimum istifadə etmək imkanı qazanmışdı. İndi hər bir polis əməkdaşı üçün başlıca vəzifə bu imkanlardan lazımınca yararlanmaq və xidməti vəzifələri yerinə yetirərkən qanunçuluğa ciddi riayət etməkdən ibarət olmalıdır.

Yeri gəlmişkən deyim ki, hazırda Cəbrayıl rayon Polis şöbəsinin şəxsi heyəti öz xidməti fəaliyyətini «Polis haqqında», «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanunlarının, Respublika Prezidentinin Fərman və Sərəncamlarının, DİN-nin əmr, göstəriş və təlimatlarının tələbləri əsasında qurmağa daim səy göstərir, rayon əhalisi arasında ictimai təhlükəsizliyin təmin edilməsi və cinayətkarlıqla mübarizə məqsədilə lazım olan təşkilati və profılaktiki tədbirləri həyata keçirir.

Şöbənin rəhbərliyi torpaqlarımızın hələ də işğal altında qalması ilə əlaqədar olaraq şəxsi heyətin peşə və döyüş hazırlığını daha da yüksəltmək vəzifəsini həmişə olduğu kimi ön plana çəkmiş, bu məqsədlə xidməti dərslərin, fiziki hazırlıq məşğələlərinin səmərəsi artırılmış, "hərbi-taktiki hazırlıq" proqramının yerinə yetirilməsinə diqqətlə yanaşılmışdı. İndi cəbhənin Füzuli bölgəsində şöbənin post-patrul xidməti bölüyünün I tağımı xidmət aparır və ehtiyat qüvvə kimi döyüşə tam hazır vəziyyətdədir.

Eyni zamanda "Cəbrayıl rayonundan olan məcburi köçkünlər arasında xidmətin təşkilinə dair" DİN-nin 19 oktyabr 2001-ci il tarixli, 407 saylı və 08 dekabr 2003-cü il tarixli 469 saylı əmrlərinin tələblərinin icrası işi də uğurla davam etdirilir. Bu məqsədlə Biləsuvar rayonu ərazisində yerləşən və 6 yaşayış qəsəbəsini əhatə edən inzibati ərazimizdə şöbənin bütün xidmət sahələrinin normal fəaliyyət göstərmələri üçün lazımi şərait yaradılmışdır. Xidməti ərazidə post-patrul xidmətinin yüksək səviyyədə təşkilinin, gecə gəzintilərinin mütəmadi olaraq aparılmasının, eyni zamanda cinayət axtarış bölməsi əməkdaşlarının və polis sahə inspektorlarının həyata keçirdikləri qabaqlayıcı-profilaktiki tədbirlərin nəticəsidir ki, 2002-2006 -cı illər ərzində inzibati ərazidə ağır cinayət hadisələri baş verməmişdi. Əhali arasında ictimai-siyasi sabitlik qorunub saxlanılmış, əvvəllər baş vermiş bir sıra xoşagəlməz, hüquqazidd hallar tam aradan qaldırılmışdır. Həmin dövrdə polis əməkdaşları tərəfindən vətəndaşların hüquq və azadlıqlarının pozulması faktlarına yol verilməmişdir. Bundan

başqa əhali ilə daha tez-tez ünsiyyətdə olan DYP bölməsi və Qeydiyyat və ŞV qrupunun əməkdaşlarınm xidməti fəaliyyətinin təşkilinə də daim diqqətlə yanaşılır. Həmin xidmət sahələrinin əməkdaşları Cəbrayıl rayonundan olan məcburi köçkünlərin daha sıx məskunlaşdıqları Bakı və Sumqayıt şəhərlərində, Saatlı, Sabirabad və İmişli rayonlarında vaxtaşırı səyyari qəbullar təşkil etməklə vətəndaşlara lazımi xidmət və hüquqi yardımlar göstərir, qarşıya çıxan bütün problemləri elə yerindəcə həll etməyə çalışırlar.

2006-cı il fevral ayının 10-dan mart ayının 10-dək keçirilən "Yüksək surət təhlükə törədir" aylığı ərzində inzibati ərazidə yerləşən idarə, təşkilat və ümumtəhsil məktəblərində şöbənin rəhbərliyi və DYP bölməsi əməkdaşlarının iştirakı ilə keçirilən çoxsaylı görüşlər və profilaktiki söhbətlər, xüsusən yerli icra hakimiyyəti və ictimaiyyət nümayəndələrinin fəal iştirakı ilə 6 yaşayış qəsəbəsinin hər birində hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə keçirilən reydlər həmin ərazidə məskunlaşmış əhali tərəfindən dərin razılıq hissi ilə qarşılanmışdı. Nəticə etibarı ilə hərəkətin iştirakçılarının, başqa sözlə, sürücü və piyadaların məsuliyyət hissinin artmasına gətirib çıxarmışdı.

DİN-nin müvafıq əmrlərinə əsasən məcburi köçkünlərlə iş aparılması üçün Bakı və Sumqayıt şəhərlərinin, Sabirabad və Biləsuvar rayonlarının polis orqanlarına ezam edilmiş polis əməkdaşlarının xidməti fəaliyyəti də səmərəli təşkil olunmuşdu. Həyata keçirilən tədbirlərin nəticəsində məcburi köçkünlər arasında bir çox hüququzidd hallarıın xüsusən icazəsiz mitinqlərdə və piketlərdə onların iştirakının qarşısı alınmışdır. Eyni zamanda məcburi köçkünlərə lazımi hüquqi yardımlar göstərilmiş, onların sosial--məişət problemlərinin həlli ilə bağlı bir sıra konkret tədbirlər görülmüş, lazım gəldikdə isə aidiyyəti orqanlar qarşısında məsələlər qaldırılmışdı.



Şöbədə vətəndaşların qəbulunun təşkili və onların müraciətlərinə baxılması işinin DİN-in müvafiq əmrinin tələblərinə uyğım aparılmasına ciddi səy göstərilir. Vətəndaşların müraciətlərinə heç bir müddət pozğunluğu olmadan və obyektiv baxılmasının nəticəsidir ki, son illər vətəndaşlar tərəfindən təkrar şikayətlər və polis əməkdaşları tərəfindən qanunçuluğun pozulması ilə bağlı yuxarı orqanlara müraciət edilməsi faktları qeydə alınmamışdı.

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinə, yaralanmış və əlil olmuş polis veteranlarına diqqət və qayğı göstərilməsi rayon polis şöbəsinin gündəlik işinə çevrilmişdir. Artıq 12 ildir ki, maddi cəhətdən daha imkansız olan 6 şəhid ailəsinin hər birinə ayda bir dəfə 20 manat ( köhnə pulla 100 min manat) məbləğində pul yardımı edilir. Bundan başqa əlil olmuş polis veteranlarının bir çox sosial məişət problemləri həll edilmiş, valideynlərini və digər ailə üzvlərini itirmiş hər bir polis əməkdaşının ailəsinə lazımi maddi yardımlar göstərilmişdir.

Şöbədə tarixi günlərin qeyd olunması ənənəsi də davam etdirilmiş, bir qayda olaraq həmin tədbirlərin şöbənin inzibati binasının qarşısındakı abidəyə gül-çiçək qoyulmaqla şəhid polis əməkdaşlarınm müqəddəs xatirələrinin 1 dəqiqəlik sükutla yad edilməsi mərasimi ilə başlanılmışdı. Mərasim binanın girişində "Azərbaycanın dünəni, bu günü və gələcəyi" adlı guşədəki Ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı stendlərə baxışla davam etdirilmişdir. Bütün bunlar kollektivdə hərbi-vətənpərvərlik ruhunun artırılmasında öz müsbət təsirini göstərmişdir.

**Əlisahib Əroğul:** – Bu gün Azərbaycan polisi haqqında bir mənalı fıkir yoxdur. Xüsusilə piket və mitinqləri dağıdan zaman bir çox polis əməkdaşlarının "canfəşanlıq" etmələri, qadın, uşaq, yaşlı demədən ayrı-ayrı vətəndaşlara xəsarət yetirmələri polis əməkdaşları haqqında cə-

miyyətdə xoşagəlməz fikirlər formalaşdırır. Döyən də özümüzük, döyülən də. Bunun qarşısını necə almaq olar? Nə döyək, nə də döyülək..

**Vaqif Yaqub oğlu:** – Məncə ən vacib məsələ istər polis tərəfindən, istərsə də hər bir vətəndaş tərəfindən mövcud qanunlara hörmətlə yanaşılması və qanunların tələblərinin sözsüz yerinə yetirilməsidir. Nəhayət, hamımız qanunlarla yaşamağı öyrənməliyik. Belə olarsa, polislə vətəndaş arasında heç bir xoşagəlməz hallar baş verməz. Demokratiya, azadlıq anarxiya demək deyildir. Bu haqda düşünməyinə dəyər. Əlbəttə, bu günkü reallıq belədir ki, bəzən ayrı-ayrı polis əməkdaşları tərəfindən vətəndaşların hüquqlarının pozulması, onlarla kobud rəftar edilməsi hallarına yol verilir. Lakin hazırda Respublikanm Daxili İşlər Orqanlarında şəxsi heyət arasında intizamın və qanunçuluğun daha da möhkəmləndirilməsi istiqamətində məqsədyönlü şəkildə görülən işlər onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycan polisinin sıraları onun şərəf və ləyaqətinə ləkə gətirən polis işçilərindən tamamilə təmizlənəcəkdir.

Burada bir məsələyə də toxunmağı özümə borc bilirəm. Təəssüf ki, bizdə uzun illər əhali arasında belə bir yanlış təsəvvür yaranmışdır ki, cinayətkarlığa qarşı mübarizə, ictimai asayişin qorunması yalnız polisin və digər hüquq-mühafizə orqanlarının işidir. Əslində isə bu belə deyildir. Bütün sivil ölkələrdə olduğu kimi bizim vətəndaşlar da bilməlidirlər ki, yaranmış hər hansı təhlükə barəsində vaxtında polisə məlumat vermək heç də "xəbərçilik" və ya "iş verənlik" deyil, sadəcə olaraq özünün və ətrafdakıların təhlükəsizliyini təmin etmək deməkdir. Başqa sözlə, bu gün polislə vətəndaşların münasibətləri qarşılıqlı inam və hörmət əsasında qurulmalı, cinayətkarlığa və cəmiyyətdə olan bütün neqativ hallara qarşı birgə mübarizə aparılmalıdır.



**Əlisahib Əroğul:** – Vaqif müəllim, uzun illərdi Cəbrayıl rayon Polis Şöbəsinin rəis müavini vəzifəsində işləyirsiniz. Kadr və tərbiyə işlərinə baxırsınız. Döyüş yolu keçmisiniz. Bu gün o illəri xatırlayarkən sizin heysiyyatınızı qabardan, xoş əhval-ruhiyyə yaradan və ya məyus edən olub-keçənləri, hansı əməliyyatları yada salırsınız, tez-tez xatırlamalı olursunuz?

**Vaqif Yaqub oğlu:** – Cəbrayıl rayon DİŞ-də xidmətə başladığım ilk gün indi də yadımdadır. 1985-ci il mart ayının 20-i idi. Həftənin birinci günü olduğu üçün şöbənin şəxsi heyəti " Lenin" otağına yığılmışdı. Həmin vaxt şöbəyə yeni təyin olunmuş rəhmətlik Novruz İsmayılov məni şəxsi heyətə təqdim etdikdən sonra ötən həftə ərzində baş vermiş ictimai-siyasi hadisələr barədə məlumat vermək üçün sözü mənə verdi və beləliklə mənim xidmətdə ilk iş günüm başladı. Bütövlükdə mən Cəbrayıl polisində işlədiyim 21 il müddətini şərti olaraq 3 mərhələyə bölüb, ilk növbədə əsasən 1-ci və 2-ci dövr barədə məlumat vermək istərdim.1985-1988-ci illəri əhatə edən 1-ci mərhələdə mən bütün qüvvə və bacarığımı, komsomol və partiya orqanlarında qazandığım bilik və təcrübəm, haqqında rayon əhalisi arasında yanlış olaraq mənfi rəy yaranmış rayon DİŞ-də mənəvi-psixoloji mühitin daha da sağlamlaşdırılmasına və işgüzar şəraitin yaradılmasına sərf edirdim. Həmin vaxt şöbədə ilk partiya təşkilat katibi olan Vaqif Məhərrəmovla birlikdə şəxsi heyətlə apardığımız siyasi və xidməti dərslər, fərdi söhbətlər, Sov. İKP üzvü olan əməkdaşların partiya təşkilatı qarşısındakı hesabatları, polis veteranları ilə şəxsi heyətin mütəmadi görüşləri və bu qəbildən olan digər tədbirlər kollektivdə dərin razılıq hissi ilə qarşılanırdı. Əməkdaşların ad günlərinin qeyd olunması, onların maddi və mənəvi cəhətdən həvəsləndirilməsi istiqamətində görülən tədbirlər də öz müsbət nəticəsini verir, bütövlükdə kollektivdə xoş əhval-ruhiyyə yaradırdı.

Həmin illərdə özlərinin xidməti borclarını nümunəvi və qüsursuz yerinə yetirən rəis müavini, " Qırmızı Ulduz " ordenli Sabir Novruzovun, Cinayət-Axtarış xətti üzrə baş əməliyyat müvəkkili işləyən rəhmətlik Müslüm Abbasovun, polis sahə inspektorlarına rəhbərlik üzrə baş inspektor Vaqif Məhərrəmovun, azyaşlılar üzrə inspeksiyasının rəisi rəhmətlik Qəhrəman Həmidovun, dövlət avtomobil müfəttişi Vaqif Rzayevin, İTB-nin rəisi Vaqif Zeynalovun, SƏDM əməliyyat müvəkkili İbrahim Hüseynovun, baş müstəntiq Sabir Fətəliyevin, pasport xidməti rəisi Vaqif Nəcəfovun, Yanğın Təhlükəsizliyi xidmətinin rəisi Fazil Bəhramovun, polis sahə inspektorlarından İzzət Qurbanovun, Aydın Atakişiyevin, Fazil İsmayılovun, polis nəfərləindən Müzəffər Əliyevin, Əli Xankişiyevin, Yusif Əliaslanovun, Hafız Süleymanovun, Yəhya Mirzəyevin, Camal Məmmədovun, İlqar Quluyevin, Rəfail Abbasovun və digər polis əməkdaşlarının gərgin əməyi sayəsində cinayətkarlığa qarşı barışmaz mübarizə aparılır, rayon əhalisinin asayişi daha etibarlı şəkildə qorunurdu.

1988-1994-cü illəri əhatə edən 2-ci mərhələ isə Cəbrayıl polisinin tərixinə daha parlaq səhifələrlə həkk olunmuşdur. Rayonumuz Dağlıq Qarabağın keçmiş Hadrut rayonu ilə həmsərhəd olduğuna görə 1988-ci ildə Qarabağ münaqişəsi başlayanda şöbənin şəxsi heyəti istər-istəməz fəal surətdə bu münaqişənin aradan qaldırılması işinə cəlb olundu. İndi bizim vəzifəmiz təkcə rayon ərazisində cinayətkarlıqla mübarizə aparmaqdan ibarət deyildi. Biz eyni zamanda torpaqlanmızın müdafıəsi, sərhədboyu kəndlərdə yaşayan əhalimizin təhlükəsizliyinin qorunması kimi çətin, lakin şərəfli bir vəzifəni də yerinə yetirməli idik. Bu bizim vəzifəmiz və həm də vətəndaşlıq borcumuz idi. 1989-1990-cı illərdə vəziyyət xeyli kəskinləşdi. Artıq sərhəd kəndlərində yaşayan əhalimizin təhlükəsizliyini təmin etməyə qüvvəmiz çatmırdı.Odur ki, rayonun rəhbərliyi ilə məsləhətləşmədən sonra belə qərara gəldik ki, rayonun



təsərrüfatlarının hesabına şöbədə post patrul xidməti rotası yaradaq. Bu məqsədlə DİN-nin rəhbərliyi qarşısında məsələ qaldırdıq və tezliklə təklifımiz müsbət həll edildi. Artıq 1991-ci ilin fevral-mart aylarında könüllülük əsasında tərkibi əsgəri xidməti keçmiş, fiziki cəhətdən sağlam gənclərdən ibarət 75 nəfərlik rotanı (bölüyü) komplektləşdirib onların ilkin ibtidai hazırlıq kursunu təşkil etdik. Şöbədə polis sahə inspektoru işləyən Hikmət Quliyev öz arzusu ilə rotaya komandir təyin edildi. Həmin dövrdə gənc əməkdaşların öyrəndikləri nəzəri biliklər və peşə vərdişləri sonralar döyüş meydanında onların karına gəldi. Burada rotanın yaradılması ilə əlaqədar bir məqamı da qeyd etmək istəyirəm. Erməni tərəfı belə bir fıkir yaratmağa çalışırdılar ki, guya Azərbaycanda bütün həbsxanalardakı məhbusları açıb buraxıblar. Azərbaycan polisi, o cümlədən Cəbrayıl rayon polis şöbəsi həmin məhbusları polisə xidmətə qəbul etməklə cinayətkarlardan ibarət silahlı bir dəstə yaradıblar və məqsəd onların vasitəsilə erməni əhalisinə divan tutmaqdan ibarətdir. Bu boş bir cəfəngiyyat idi. Keçmiş SSRİ DİN-nin həmin faktı yoxlamaq məqsədilə şöbəmizə gəlmiş, rotanın əməkdaçlarının şəxsi işlərini yoxlayıb heç bir fakt tapmayan əməkdaşı da bunun şahidi oldu. Qarabağ müharibəsində 16 şəhid və onlarla yaralı vermiş Cəbrayıl polisi 1989-1992-ci illərdə şöbənin rəisi işləmiş rəhmətlik Rəşid Məmmədovun, 1992-ci ilin mart ayından isə şöbəyə rəis təyin edilmiş Vaqif Məhərrəmovun rəhbərliyi altında zamanın bu sınağından da ləyaqətlə çıxdı. 1991-1992-ci ilərdə erməni silahlı qüvvələrinə qarşı həyata keçirilən bütün döyüş əməliyyatlarında şöbənin əməkdaşları yaxından iştirak edib, əsl fədəkarlıq və qəhrəmanlıq nümunələri göstərirdilər. Rayon əhalisi və ictimaiyyəti arasında Cəbrayıl polisinin nüfuz və hörməti xeyli artmış, onun döyüş meydanında göstərdiyi şücaətləri haqqında gedən söz-söhbətlər, məlumatlar rayon orbi-

tindən kənara çıxmışdı. Respublikanın digər rayonlarına da yayılmışdı.

Həmin dövrdə Bakı və keçmiş SSRİ-nin digər şəhərlərindəki isti ocaqlarını qoyub vətən torpağını müdafıə etmək üçün gəlmiş şəhid Əbdürrəhim Heydərovun, rəhmətlik Firad Məmmədovun, İsgəndər Məmmədovun, Adil Məmmədovun, Rafıq Quliyevin, Səmənd Əliyevin, Rafıq Qasımovun, Cavad Behbudovun, Fərhad Həsənovun, Fərhad Bağırovun, Ramiz Hüseynovun, Bəhlul Kərimovun, İslam İsgəndərovun, Səhiyyəddin Cəfərovun vətənpərvərlik hisslərinə hörmət etməmək olarmı?

1991-1993-cü illərdə həm qürur hissi keçirdiyim, həm də məyus olduğum anlar, günlər çox olub. 11 erməni kəndinin yaraqlılardan təmizlənməsi və orada yaşayan erməni əhalisinin öz xahişləri ilə köçürülməsi məqsədilə keçirilən əməliyyatların yaratdığı xoş əhval-ruhiyyəni daim xatırlayıram. Eyni zamanda Dolanlar, Daşbaşı, Ağcakənd kəndlərində keçirilən uğurlu döyüş əməliyyatları da bu gün yaddaşlardadır. Bu uğurlar gələcək döyüşlərimizin rəhni ola bilər.

Lakin 15 noyabr 1991-ci il tarixdə Şayaq strateji yüksəkliyinin əldən getməsi ilə nəticələnən əməliyyatın, 15 avqust 1992-ci ildə 30-dan çox şəhid verdiyimiz " Şişqaya" əməliyyatını və 23 dekabr 1993-cü ildə Böyük Bəhmənli istiqamətindəki ilk uğursuz döyüş əməliyyatını yadıma saldıqda həmin anları bir daha ürək ağrısı ilə yaşayır və təəssüf hissləri keçirirəm.

1988-1993-cü illərdə rayon polis şöbəsi, eyni zamanda həmin illərdə geniş vüsət almış və bütün respublikanı bürümüş milli azadlıq hərəkatının fonunda rayonda ictimai--siyasi sabitliyin qorunub saxlanılması istiqamətində də məqsədyönlü fəaliyyət göstərirdi. Rayon rəhbərliyi ilə xalq cəbhəsinin yerli təşkilatı arasında baş verən bütün münaqişəli hallar bizim vaxtında etdiyimiz qanuni müdaxilələr nəticəsində aradan qaldırılır, milli mənafelərə aid olan



məsələlərdə isə ümumi anlaşmaya nail olunurdu. Respublikanın əksər rayonlarından fərqli olaraq şöbənin rəhbərliyinin fədakarlığı və gərgin əməyi nəticəsində biz faciəli hadisələrlə nəticələnən qarşıdurmalara heç cür yol vermədik, ekstremal şəraitdə düzgün qərarlar qəbul edə bildik. Və bu gün biz fəxrlə deyə bilərik ki, zamanın sınağından ləyaqətlə çıxdıq.Yaxşı yadımdadır. 1990-cı ilin yanvar ayının 23-ü idi. Rayon mərkəzindəki meydanda "20 yanvar " faciəsi ilə əlaqədar matəm mərasimi keçirilirdi. Biz orada həm mərasimdə iştirak edir, həm də ictimai asayişin qorunması ilə məşğul olurduq. Mərasim çox emosional və gərgin şəraitdə keçirdi. Elə bu vaxt xalq cəbhəsinin liderlərindən biri başqa təşkilatlarla yanaşı DİŞ-nin kommunistlərinin də etiraz əlaməti olaraq partiya biletlərini təhvil vermələrini, əks təqdirdə bu işi şöbənin inzibati binasına hücum edib güc tətbiq etməklə yerinə yetirəcəklərini bildirirdilər. Gərginlik son həddə çatmışdı.Hər an xoşagəlməz hadisə və qan tökülməsi ilə nəticələnən qarşıdurma baş verə bilərdi. Bu məsuliyyətin altına heç kim girmək istəmirdi. Odur ki, biz təcili olaraq şöbənin bütün kommunistlərini bir yerə topladıq, onlarla məsləhətləşərək yaranmış vəziyyətdən yeganə çıxış yolunu partiya biletlərinin təhvil verilməsində gördük. Hadisələrin sonrakı inkişafı bizim düzgün qərar qəbul etdiyimizi bir daha göstərdi.

**Əlisahib Əroğul:** – Cəbrayılın işğalı reallıqdır. Siz bu acı faktı necə qəbul edirsiniz? Məğlubiyyətimizin səbəbləri haqqında nə deyə bilərsiniz? Cəbrayıl müdafıə oluna bilərdimi?

**Vaqif Yaqub oğlu:** – Damarlarından Azərbaycanlı qanı axan hər bir ölkə vətəndaşı, həm də bir cəbrayıllı kimi mən də bu faktı ürək ağrısı ilə qəbul edirəm. Məni ən çox düşündürən, ağrıdan və məyus edən həm də odur ki, biz rayonun müdafiəsi üçün heç də hər şeyi etmədik, mövcud imkanlardan tam yararlana bilmədik.Məncə biz Cəbrayılı-

mızın, doğma Qarabağımızın qədir-qiymətini az-çox indi dərk etməyə başlamışıq. O ki qaldı məğlubiyyətimizin səbəblərinə, bu səbəblər çoxdur və mən onlardan ikisinin üzərində dayanmaq istərdim.

Birincisi, Cəbrayıl işğal olunan ərəfədə, yəni 1993-cü il avqust ayının 23-dək artıq Xocalı, Laçın, Kəlbəcərvə Ağdam rayonları tamamilə, Füzuli rayonu ərazisinin isə xeyli hissəsi, o cümlədən keçmiş Hadrut rayonu ilə həmsərhəd olan ərazilər işğal olunduğundan rayonumuzun müdafiəsi üçün obyektiv çətinliklər yaranmışdı. Erməni tərəfı cəbhənin digər istiqamətlərində, xüsusən Füzuli bölgəsində yerləşdirdikləri silahlı qüvvələrin böyük bir hissəsini artıq Cəbrayıl istiqamətinə yönəltmişdilər.

Ikinci səbəb kimi onu qeyd edə bilərəm ki, erməni tərəfdən hücum təhlükəsinin günbəgün artmasına baxmayaraq, bizim cəbhədə tam arxayınçılıq əhval-ruhiyyəsi hökm sürürdü. Hələ də rayonun və Cəbrayıl şəhərinin qorunması üçün eşalonlu müdafıə sistemi yaradılmamışdı. Mühəndis-texniki qurğular, istehkamlar yarıtmaz vəziyyətdə idi. Hərbi hissədə intizamsızlıq baş alıb gedirdi. Şəxsi heyət arasında döyüş ruhu aşağı səviyyədə idi. Ən strateji postlarda lazım olduğundan xeyli az döyüşçü xidmət aparırdı. Kəşfıyyat işi yox dərəcəsində idi. Düşmənin hərəkət edəcəyi ərazilər minalanmamışdı.

Elə bunun nəticəsidir ki, Ermənistanın silahlı qüvvələri 15 avqust 1993-cü ildə bütün strateji yüksəklikləri, demək olar ki, müqavimətsiz ələ keçirib avqust ayinin 23-də isə rayonun əsas ərazisini tamamilə işğal etdi. Cəbrayıl müdafıə oluna bilərdimi? Məncə yuxarıda göstərdiyim və qeyd etmədiyim bir çox digər amilləri nəzərə alsaq bunu etmək mümkün deyildi. Lakin həmin vaxt rayonun müdafiəsi üçün əlimizdə olan bütün imkanlardan istifadə edib düşmənə layiqli cavab verə və onu canlı qüvvə və texnika sarıdan ağır itkilərə məruz qoya bilərdik. Çox təəssüf ki,



bütün bunlar baş vermədi və doğma Cəbrayılımız qısa müddət ərzində düşmən tərəfindən işğal edildi.

**Əlisahib Əroğul:** – Cəbrayıl polisi ilə xalqın yekdil hərəkət etməsi çox vurğulanır. İctimaiyyətlə yaxın əlaqəsi olan bir rəhbər kimi siz bunu nədə görürsünüz? Rayonun müdafıəsində mülki şəxslərin iştirakı barədə qısaca nə deyə bilərsiniz?

**Vaqif Yaqub oğlu:** – Qarabağ münaqişəsi başlayanda hələ milli ordu yaradılmamışdı. Odur ki rayonun müdafıəsi ilə əsasən rayon Polis şöbəsi məşğul olurdu. Bununla yanaşı şöbə rəhbərliyinin təşəbbüsü və təşkilatçılığı ilə rayonun sərhəd kəndlərində, o cümlədən Qaracallı, Doşulu, Şıxlar, Sirik, Məzrə, Dağtumas, Qazanzəmi kəndlərində özünümüdafıə dəstələri yaradılır və onlar həmin dövrdə imkan daxilində olan silah-sursatla təmin edilirdi. Bu dəstələr polis əməkdaşları ilə birlikdə gecə-gündüz ən təhlükəli postlarda keşik çəkir, erməni yaraqlılarının silahlı basqınlarının qarşısının alınmasında, sərhədboyu ərazilərdə yaşayan əhalimizin təhlükəsizliyinin təmin olunmasında əsl fədakarlıq göstərirdilər. Sirik kəndində Mürvət Allahverdiyevin, Şıxlar kəndində Məhəmmədəli Səfquliyevin başçılıq etdikləri özünümüdafıə dəstələrinin döyüş meydanlarında göstərdikləri igidliklər hamımızın yaxşı yadındadır.

1991-ci ilin sonlarında şöbənin nəzdnində yaradılmış könüllülərdən ibarət "Qarabağ ziyalılar” batalyonu rayonun müdafiə olunmasmda yaxından iştirak etmiş və Cəbrayıl polisinin döyüş salnaməsinə neçə-neçə parlaq səhifələr yazmışdır. Həmin dövrdə rayonumuzun müdafiəsində fəal iştirak edən könüllülərdən ibarət dəstələrdən biri də İmişli rayonundan gəlmiş " Kürdü qartalları" adlı dəstə idi. Tarlyel Adışirin oğlu Şirinovun başçılıq etdiyi bu dəstə 1992-ci ilin mart ayından başlayaraq rayonun Doşulu və Quşçular kəndlərində yerləşən ən təhlükəli postlarda keşik çəkmiş, erməni quldur dəstələrinin məhv edilməsi mə-

qsədilə keçirilən bütün döyüş əməliyyatlarında rayon polis şöbəsinin əməkdaşları ilə birlikdə yaxından iştirak etmişdir. 1992-ci ilin may-avqust aylarında keçmiş Hadrut rayonunun Sur kəndinin erməni yaraqlılarından təmizlənməsində, habelə "Şişqaya" yüksəkliyi uğrunda gedən döyüşlərdə "Kürdü qartalları" dəstəsinin hər bir döyüşçüsü əsil cəsurluq və qəhrəmanlıq nümunələri göstərdilər. Respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə 2 şəhid, 5 yaralı vermiş dəstənin şöhrəti artıq rayonumuzun hüdudlarını aşıb Respublika ərazisinə də yayılmışdı. Xalqımızın sevimli müğənnisi Niyaməddin Musayevin bu dəstənin şərəfinə qoşduğu "Kürdü qartalları" nəğməsi dillər əzbəri olmuşdu.

Mülki şəxslərin döyüşlərdə iştirakına aid başqa bir misal. Qəbələ rayon polis şöbəsinin əməkdaşları və onların tərkibində bir neçə mülki şəxs könüllü olaraq hadisələrin əvvəlindən Daşbaşı kəndində yerləşən polis postunda keşik çəkirdilər. Həmin mülki şəxslərdən biri, Qəbələ rayon sakini Şöyubov Səlim Məhəmmədəli oğlunun xidmətləri xüsusilə qeyd olunmalıdır. O, dəfələrlə erməni quldur dəstələrinin məhv edilməsi məqsədilə həyata keçirilən döyüş əməliyyatlarında yaxından iştirak etmiş, şəxsi igidlik və qorxmazlıq nümunəsi göstərmişdi. Səlim Şöyübov sonralar Cəbrayıl rayon polis şöbəsinin təqdimatı əsasında Qəbələ RPŞ-də xidmətə qəbul edilmişdi.

**Əlisahib Əroğul:** – Qarabağ faciəsinin kökləri, səbəbləri barədə qısa fikir söyləmənizi xahiş edirəm.

**Vaqif Yaqub oğlu:** – Qarabağ faciəsinin kökləri çox dərinliklərə gedib çıxır. XIX əsrin əvvəllərində Türkmənçay və Gülüstan müqavilələri ilə Azərbaycan ikiyə bölünür və Şimali Azərbaycan Rusiya İmperiyasının tərkibinə qatılır. Bir müddət sonra İranda yaşayan erməni əhalisinin xeyli hissəsi Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarababağda yerləşdirilir. Bir misalda deyildiyi kimi "özümə yer eləyim, gör sənə neylərəm". Elə belə də oldu. Erməni



millətçilərinin və onların havadarlarının 1905-ci və 1918-ci illərdən başlayaraq misli görünməmiş faciələr törətməsinin məqsədi də Azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduqları «dənizdən dənizə böyük Ermənistan» dövləti yaratmaq idi.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti yaradılanda artıq Qərbi Azərbaycan torpaqları Ermənistan ərazisinə birləşdirilmişdi. Bu azmış kimi, Azərbaycan Respublikasının tərkibində "Dağlıq Qarabağ" -a 1923-cü ildə muxtar vilayət statusu verilmiş və beləliklə də tarixən qatı düşmənimiz olan ermənilərin Qarabağda geniş əl-qol açmasına real şərait yaradılmışdı. Sovet dönəmində dəfələrlə Qərbi Azərbaycan ərazisində öz tarixi torpaqlarında yaşayan soydaşlarımızın deportasiyalara məruz qalması, Dağlıq Qarabağda soydaşlarımıza qarşı törədilən cinayətlər və represiyalar da erməni terrorizminin qanlı simasıdır.

1980- cı illərin sonlarında Dağlıq Qarabağ faktiki olraq, rəsmi Bakının təsirindən, belə demək mümkündürsə kənarda qalmış, Azərbaycan torpağı ola-ola azərbaycanlıları mənəvi, psixoloji represiyalara məruz qoyan Dağlıq Qarabağın şovinist erməni rəhbərləri və qeyri-rəsmi qurumları burada separatçılıq üçün münbit şərait formalaşdıra bilmişdilər. Bəli, tarixi unutqanlığımız, düşmənimizi lazımınca tanımamağımız və sayıqlığı itirməyimiz, istər-istəməz Azərbaycan xalqının ötən əsrin 80-ci illərində Qarabağ faciəsi ilə üzləşməsinə səbəb oldu.

**Əlisahib Əroğul:** – Bu günki ictimai mühitdə fəal həyat mövqeyi nümayiş etdirməyə daxilinizdə bir tələbat hiss edirsinizmi? Nələri etməyə imkan tapırsınız? Nələri edə bilmirsiniz?

**Vaqif Yaqub oğlu:** – Mən bu günki həyatda fəal həyat mövqeyi tutmağa, rayonumuzda, respublikamızda gedən ictimai-siyasi proseslərdə yaxından iştirak etməyə daxilən

bir tələbat hiss edirəm. Çoxları bilir ki, mən 1988- 1993-cü illərdə rayonumuzun ictimai-siyasi həyatında fəal iştirak etmiş, rayon sovetinin, şəhər sovetinin deputatı kimi bütün yığıncaqlarda və digər tədbirlərdə öz sözümü demiş, mövqeyimi bildirmişəm. Lakin bu gün polis əməkdaşı heç bir siyasi qurumun üzvü ola və siyasi proseslərdə iştirak edə bilməz, bu qanunun tələbidir. Bizim xidməti fəaliyyətimiz qanunlarla, DİN-nin əmr, göstəri və təlimatları ilə tənzimlənir və burada heç bir özfəaliyyətə yol verilə bilməz. Ona görə də bütün xidmətim boyu qanunların imkan verdiyi çərçivədə fəaliyyət göstərməyə çalışıram.

**Əlisahib Əroğul:** – İctimai fikir formalaşıb ki, Cəbrayıl satılıb, xəyanətin qurbanı olub, bu fıkrə münasibətinizi bilmək istərdim...

**Vaqif Yaqub oğlu:** – Mən heç vaxt şayiələrə, faktlara söykənməyən fikirlərə inanmıram. Bir misal çəkmək istəyirəm. 1991-ci il noyabr ayının 15-də Şayaq yüksəkliyində gedən döyüşlərdə polis əməkdaşlarının göstərdikləri qorxmazlıq, cəsurluq hamımızın yadındadı və bu danılmaz faktdır. Həmin döyüşlərdə 17 nəfər polis əməkdaşından 4 nəfəri şəhid oldu, 5 nəfəri isə yaralandı. Qüvvələr qeyri--bərabər olduğu üçün döyüşçülərimiz son güllə qalanadək vuruşduqdan sonra həmin mövqeyi tərk etməli oldular. Lakin bütün bunlara baxmayaraq sonralar rayonda belə bir şayiə yarandı ki, həmin postu Cəbrayıl polisi ermənilərdən 17 kq qızıl aldığına görə onlara veriblər. Bax budur heç bir fakta söykənməyən əsassız şayiələrin mənbəyi və mahiyyəti. Bu gün Cəbrayıl satılıb deyərkən biz sanki bu torpağı qorumaq üçün etmədiklərimizin, edə bilmədiklərimizin üstünü ört-basdır etməyə çalışırıq. Məncə indi hər bir cəbrayıllı, xüsusən həmin dövrdə rayonun müdafiəsinə bilavasitə cavabdeh olan hərbçilər özünə belə bir sual verməlidir. Mən Cəbrayılın müdafiəsi üçün nəyi etdim, nəyi edə bilmədim və niyə edə bilmədim?...



**Əlisahib Əroğul:** – Bir qayda olaraq cəbhə bölgəsində orduyla təmasda olmusunuz. Sizcə əsgərlərdə döyüş ruhunun öldürülməsi nə ilə bağlı idi. Axı, uşaqlıqdan bizim beynimizə yeridilən "dığa qabağından türk qaçmaz"," ara, yeddi ermənini bir dərədə tək görmüsən" kimi fikirlər birdən-birə necə oldu, yoxsa psixologiyamızda özünə tam yer eləməmişdi, bu ifadələr.

**Vaqif Yaqub oğlu:** – Elə bizim ən böyük səhvlərimizdən biri də qarşımızdakı düşmənin nə dərəcədə arxalı, nə dərəcədə məkrli və hiyləgər olduğuna lazımınca qiymət verməməyimiz idi. Biz yenə də köhnə psixologiya ilə yaşayır və elə bilirik ki, qarşımızda bizə meydan oxuyan erməni elə həmişə bizim qapımızda işləyən ermənidir ki, var, düşünürük. Bu, tamamilə yanlış fıkir idi və bunun acı nəticəsini tezliklə gördük. Hadisələr başlayanda "hərə əlinə bir ağac alsa, ermənini Yerevana qədər qovarıq" sözünü deyən Respublika Ali Sovetinin deputatı görəsən hansı məntiqə söykənirdi.

O ki, qaldı əsgərlərimizin döyüş ruhunun aşağı düşməsinə, xüsusən Cəbrayıl şəhərinin işğalı vaxtı, bunun bir çox səbəbləri vardı. Həmin dövrdə artıq " Xocalı faciəsinin" baş verməsi, Şuşa, Laçın, Ağdam və Füzuli rayonlarının işğal edilməsi, respublikadakı hakimiyyət böhranı, hərbi hissənin idarə olunmaz vəziyyətə düşməsi, komandirlərin səriştəsizliyi və qətiyyətsizliyi, hərbi hissədə şəxsi heyətlə fərdi işin olduqca aşağı səviyyədə aparılması və əhali arasında yaranmış panikalar - bütün bunlar nəticə etbarilə döyüşçülərin əhval-ruhiyyəsinə öldürücü təsir göstərmiş və düşmənə layiqli cavab verməyə imkan verməmişdi.

**Əlisahib Əroğul:** – Müdafiə termininin əlifbası nədən başlayır? Əsgərlərin komandirləri eşitməməsinin günahını nədə görürsünüz? Bizim özgə torpaqlarında gözümüz yoxdur, öz torpaqlarımızı qorumağa, müdafiə etməyə nə söz?

**Vaqif Yaqub oğlu:** – Məncə ən yaxşı müdafiə elə hücum etməkdir. Görünür həmişə müdafiə olunmağımız, hücuma keçməyə, mən bütün sahələrdə, həmçinin ideoloji və informasiya müharibələrini nəzərdə tuturam, gecikməyimiz çox vaxt bizim məğlubiyyətimizlə nəticələnib. Əsgərlərin komandirləri eşitməsi, onların əmr və göstərişlərini sözsüz icra etməsi üçün orada möhkəm intizam olmalı, bütün münasibətlər yalnız və yalnız hərbi Nizamnamənin tələbləri əsasında qurulmalıdır. Hər bir komandir özünün nümunəvı və qüsursuz xidməti, yüksək peşə və döyüş hazırlığı ilə ekstremal şəraitdə qətiyyətli olmağı və şəxsi davranışı ilə əsgərlərə örnək olmalıdır. Əgər bütün bunlar yoxdursa, əlbəttə, əsgərlər komandirləri eşitməyəcəkdi.

Eyni zamanda bizim ən müqəddəs vəzifəmiz hər zaman, hər an Vətən torpağını etibarlı şəkildə qorumaqdan və ölkəmizə qarşı hər hansı bir təcavüzün qarşısını almağa tam hazır olmaqdan ibarətdir.

**Əlisahib Əroğul:** – Hər bir xalqın təhlükəsizliyi üçün onun psixologiyasını, təfəkkür tərzini, vətənpərvərlik hissini özündə yaşadan milli ordu qüvvələri olmalıdır. Bu gün bu tələblərə cavab verən milli ordu varmı?

**Vaqif Yaqub oğlu:** – Mən hərbi ekspert deyiləm və qısaca olaraq onu deyə bilərəm ki, hazırda Respublikada müasir tələblərə cavab verən, peşəkar, düşmənə hər an layiqli cavab verməyə hazır olan ordunun yaradılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparılır.

**Əlisahib Əroğul:** – Cəbrayıl sizin üçün nədir? Cəbrayıla qayıdışın yolunu siz nədə görürsünüz? Yoxsa Qarabağdan əl üzməyin acısını udmalıyıq?

**Vaqif Yaqub oğlu:** – Məhşur bir mahnıda deyildiyi kimi "Haradan başlanır Vətən?" Mənim üçün Vətən doğulub boya-başa çatdığım Cəbrayıldan, onun füsunkar təbiətindən, təmiz havasından, saf suyundan, qəlbən, mənən təmiz, sadəlöhv və pak insanlarından başlayır və bütün



Azərbaycanımızı əhatə edir.Başqa bir mahnıda deyilir ki, "Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ!" Biz heç vaxt Qarabağ torpağını yaddan çıxara bilmərik. Bu xalqımızın, hər birimizin qeyrət, namus məsələsidir. Bu gün Azərbaycan dövlətinin, xalqımızm ən böyük tarixi vəzifəsi ərazi bütövlüyümüzü bərpa etməkdən, düşmən tapdağı altında qalan torpaqlarımızı azad etməkdən ibarətdir. Əgər sülh danışıqları bir nəticə verməzsə, mən hərb yolu ilə torpaqlarımızm azad edilməsini yeganə çıxış yolu hesab edirəm. Bu yol çətin, lakin şərəfli bir yoldur. Başqa sözlə, bu gün hər bir Azərbaycan vətəndaşı düşməni məhv etməyə və bu yolda lazım gələrsə canından belə keçməyə daxilən hər an hazır olmalıdır. Yalnız belə olarsa biz itirilmiş torpaqlarımızı və şərəfımizi geri qaytararaq, Respublikamızın bütün ərazisində üç rəngli bayrağımızı ucalda bilərik. Xalqla ordunun monolit birliyi - budur qələbəmizin əsas mənbəyi. Unutmamalıyıq ki, Azərbaycanın varlığı Qarabağdan keçir. Bu həqiqətən də belədir, Azərbaycan xalqı heç bir vaxt özünün əzəli və tarixi torpağı olan Qarabağı ermənilərə güzəştə gedə bilməz. XIX-XX əsrlərdə İrəvanın, Göyçənin, Zəngəzurun və bütövlükdə Qərbi Azərbaycan torpaqlarının əldən getməsi bizə ibrət dərsi olmadımı?! Təəssüf ki, Azərbaycan torpaqlarının ənənəvi itirilməsi prosesini biz hələ də dayandıra bilməmişik. Şah İsmayılın hakimiyyəti altında olmuş vahid və qüdrətli Azərbaycanın xəritəsinə diqqət yetirsək bunu daha aydın görə bilərik. Bu gün Qarabağ torpaqlarının itirilməsi, vaxtı ilə Dəmirqapı Dərbənddən İran körfəzinə qədər böyük bir ərazini əhatə edən dövlətimizin fonunda XX əsrdə özünün 2-ci dəfə müstəqilliyini qazanmış Azərbaycanımızın varlığına ən böyük zərbə olardı.

Artıq 15 ildir ki, Azərbaycan müstəqil dövlətdir. BMT-nin, Avropa Şurasının, İslam konfransı təşkilatının, GUAM-ın və bir çox beynəlxalq təşkilatların bərabər hüquqlu üzvü kimi indi ölkəmizin səsi ən yüksək, ən möhtəbər tribunalardan

gəlir. Respublikada hüquqi, demokratik dövlətin, azad vətəndaş cəmiyyətinin yaradılması və qurulması istiqamətində ardıcıl və məqsədyönlü işlər aparılır. İqtisadiyyatımız yüksələn surətlə inkişaf edir, hərbi qüdrətimiz durmadan artır. Azərbaycan Respublikası regionun ən inkişaf etmiş dövlətinə çevrilmişdir. Ölkədə ictimai-siyasi sabitlik, əhalinin ictimai təhlükəsizliyi etibarlı şəkildə qorunur, ümummilli məsələlərin, xüsusən "Qarabağ" probleminin həllinə münasibətdə cəmiyyətdə yekdil münasibət formalaşmışdır.Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dövləti özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək, canı və qanı olan doğma Qarabağ torpağını düşmən tapdağından azad etmək üçün bu gün lazım olan bütün imkanlara malikdir. Haqq bizim tərəfimizdədir. Beynəlxalq hüquq bizimlədir. Bizim özgə torpaqlarında gözümüz yoxdur. Lakin erməni separatçıları və onlara havadarlıq edən qüvvələr birdəfəlik başa düşməlidilər ki, Azərbaycan xalqı bir qarış torpağını belə onlara güzəştə getməyəcəkdir. 2006-cı ilin may ayının 26-da " Gülüstan" sarayında "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması" gününə həsr olunmuş bayram mərasimində ölkə Prezidenti İlham Əliyevin dediyi kimi " Azərbaycan xalqı heç bir vaxt öz torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir". Bu kəlam hər bir Azərbaycan vətəndaşının qulağında sırğa olmalıdır.

## VƏTƏN ÇAĞIRIR

Əsirdi Vətən,
Qanına qəltan
Edilib Vətən.
Qanlı əlində
Ələnir torpaq,
Dözmür bu dərdə,
Əriyir Şahdağ.

Əsirdi Vətən,
Haqqı dardadı,
Yuvası viran
Əsir quşun da
Gözü yoldadı.
Əsirdi Şuşa,
Sığmır yaddaşa



İtkilərimiz,
İtkinlərimiz,
Torpaq yanğısı,
Millət ağısı,
Ürək ağrısı.
Qan yeyir ürək,
Atılır oda
Müqəddəs Quran,
Tapdanır çörək,
Güllələnir duz,
Qeyrət, ar, namus.
Vətən əsirdir,
Güllələnibdir
Heykəl Üzeyir,
Natəvan, Bülbül.
Əsirlikdədir
Cıdır düzü də,
Qalıbdı əldə
Vaqifin ruhu,
Pir babaların
Könül dünyası,
Ər oğulların
Qeyrət qalası.
Əsirlikdədir,
İsa bulağı,
Turşsu, Xan bağı,
Qırxqız, Topxana,
Olub Xocalı
Xarabaxana.
Quşqonmaz Laçın
Qandalaq, viran.
Yolubdu saçın
Həkəri, Xaçın.
Kəlbəcər əsir,

İstisu əsir,
Aşıq Şəmşirin
Sazı da əsir.
Təknur, Calbayır,
Dəlidağ əsir,
Ağdam, Cəbrayıl,
Füzuli əsir.
Qubadlı əsir,
Zəngilan əsir.
Yağı əlində
Vətən inləyir.
Gəl, Vətən oğlu,
Ceyran bulağı
Səni gözləyir.
Zəngəzur, Göyçə
Can üstündədir,
Aman diləyir.
Vətən çağırır:
Qalxın igidlər,
Qalxın ayağa.
Düşmən dağ çəkir
Ana torpağa.
Qisas çağıdır,
Qeyrət çağıdır!
Yer, göy bağırır,
Dağ, daş hayqırır,
Vətən çağırır,
Vətən çağırır!!!
Ölümə-ölüm
Qana-qan deyir,
Anamız Vətən!
Anamız Vətən!

## KİTABIN İÇİNDƏKİLƏR:


**PROLOQ: Vətən sevgisi-Tanrı eşqidir (Cəbrayıl RPŞ-nin rəisi, polis polkovniki Məhərrəmov Vaqif Əfsər oğlu ilə müsahibə) .................... 5**
Azərbaycan .................... 49
Azərbaycanda türkdilli tayfaların konsolidasiyası ..... 51
Vətən şeirim .................... 52

**I BÖLMƏ: Cəbrayılım – Müqəddəs torpaq .......... 53**
Cəbrayıl ziyarətgahları .................... 60
Cəbrayıl öz insanlarıyla da fərqlənir .................... 91
Cəbrayılın tarixi həm də Azərbaycanın öz tarixidir ... 97
Cəbrayıl rayonunun mövcud inzibati ərazisinin zaman-zaman daxil və tabe olduğu ayrı-ayrı icma və dövlət qurumlarının siyahısı .................... 113
23 avqust 1993-cü il .................... 117
Qalx, ayağa vətən oğlu .................... 120

**II BÖLMƏ: Cəbrayıl polisinin yaranma tarixi və keçdiyi yolun qısa xronikası .................... 121**
Cəbrayıl yaşayış məntəqəsinin inzibati ərazi mərkəzinə çevrilməsi .................... 123
Cəbrayıl polisinin yaranma tarixinə ötəri bir baxış və ya söz önü .................... 126
Azərbaycanda polis günü .................... 136
Cəbrayıl polisi ADR, Azərbaycan SSR və AR dönəmlərində .................... 137
Cəbrayıl polisinə rəhbərlik etmiş nomenklatur kadrların həyatından görüntülər .................... 153
Cəbrayıl polisi döyüşdə .................... 180
Cəbrayıl rayon DİŞ PPX bölüyü şəxsi heyətinin siyahısı .................... 183
Vətən savaşına imza atanlar .................... 192

**III BÖLMƏ: Cəbrayılın Şeyid daşları-Şəhid polislər .................... 209**
Vətən uğrunda ölməyi bacaranlar vətənin şeyid daşıdı .................... 211
Cəbrayılın şəhid polisləri .................... 212
Bir evin çırağıydı, söndü, amma min evin çırağı olub yandı .................... 214
Mən xalqımın hüquqlarının keşiyində dayanacağam .................... 217
Simurq quşu nəğməsini yananda oxuyur .................... 228
Vətəni sevənlər ölmür .................... 233
Özü külə döndü, ruhu gülə .................... 235
Şəhidə öldü deməyin .................... 238
Vətəni Vətən edən torpaqdı, torpağı Vətən edən qeyrət .................... 240
Vətən sənə oğul deyər, Vətən üçün ölsən əgər ...... 241
Vətən sənə oğul deməz, vətən üçün yaşamasan.... 245
Bir damla qandan yaranan insan, bir damla qanıyla Vətən yaşadır .................... 247
O, Vətən üçün yaşadı .................... 249
İgid ölər adı qalar, müxənnəsin nəyi qalar .................... 251
Vətəni canından əziz tutanlar şəhid olar .................... 252
İgid odur atdan düşə atlana, igid odur hər əzaba qatlana .................... 253
Vətənə qaladı şəhid qəbri .................... 255
Şahid ömrüdü şəhid ömrü .................... 256

**IV BÖLMƏ: Onlar Cəbrayıl polisinin fədakar əməkdaşları olmuşlar .................... 259**
Pislərə o qədər yaxşılıq etmək lazımdır ki, özləri utansınlar .................... 261
Abbasov Müslüm Gürşad oğlu .................... 263
Hamının sevimlisi-Sabir Novruzov .................... 264
Döyüş bölgələrində xidmət etmək görünür alın yazımdı .................... 267

Firad Məmmədovun ömür yolu ............................ 271
"Ölümə ölüm, qana-qan"-dedi Qəhrəman ............. 275
Müharibələri canlı qüvvənin, silah-sursatın çoxluğu yox, ağıl, təmkin və peşəkarlığın səviyyəsi udur ............ 279
Mən Vətənə xidmət edirəm ..................................
O, Cəbrayılda camaat adamı kimi tanınırdı ........... 284
Rəislərin sevimlisi .................................................. 286
Nağıyev Ramil Əbil oğlunun cəbhə xatırlamaları .... 289
Məmmədov Məhəmmədəli Məhəmməd oğlu ......... 292

**V BÖLMƏ: Cəbrayıl polisinin veteran polisləri və I Qarabağ müharibəsinin veteranları................. 295**
Cəbrayılın veteran polisləri canlı arxivdir............... 297
Baxşalıyev Musa Hüseyinqulu oğlu ...................... 297
Hacıyev Nəsib Rza oğlu........................................ 299
Şükürov Fərman Məhərrəm oğlu .......................... 301
Qarabağ müharibəsinin əlilləri və veteranları......... 303
Nübarəyin həyat eşqi ............................................ 303
O da Vətənin müdafiəsinə qalxdı .......................... 307
Həmişə özünü işlə tanıdıb..................................... 311
Döyüşmək arzusu hələ də onu tərk etməmişdi ....... 312
Əzmkar döyüşçü .................................................... 313
Üç rəngli bayraq Şayaq yüksəkliyində dalğalandı ... 316
Polis fəaliyyəti bütövlükdə sahə müvəkkili kimi şərəfli bir xidmətdə keçdi ................................................ 318
Xidməti fəaliyyətdə həmişə xalqla bir olub ............ 320
Rəislərin ən etibarlı və istəkli baş sertjantı ........... 323
İşinin vurğunu........................................................ 325
Məmmədov Camal Xanlar oğlu ............................. 326

**VI BÖLMƏ: Səhər bölgüsü, Cəbrayıl polisi həmişə döyüşə hazırdı ........................................................ 327**
Səhər bölgüsü ........................................................ 329
Məni polisə gətirən Vətən savaşı oldu .................. 332



Cəbrayıl polisi cəbrayıllıların ümid yeri, güvənc yeriydi ....................................................... 336
Torpaqlarımızn müdafiəsi üçün imkanlarımızdan artıq xidmət göstərsək də nə yazıqlar ki, sonucda torpaqlarımız işğal olundu ..................................................... 341
Polis mayoru Əliyev Səmənd Əli oğlunun döyüş xatirələri ................................................................ 349
Döyüşən orduyla çiyin-çiyinəyik ............................ 354
15 bahadırdan biri ................................................. 357
Şəhid ruhları bizi nə vaxt baxışlayacaq ................ 361
O, polis sıralarına döyüşçü kimi gəldi.................... 364
Əliaslanov Tahir Səxavət oğlu .............................. 366
Cəbrayıl polisində Cəbrayılın ilk polis qadını........... 367
Cəbrayıl polisi həmişə döyüşə hazırdı .................. 372
O gün gələcək........................................................ 375
**EPİLOQ: Azərbaycanın varlığı Qarabağdan keçir**.(Cəbrayıl rayon Polis Şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Hüseynov Vaqif Yaqub oğlu ilə müsahibə) **.......................................................... 377**
Vətən çağırır ........................................................ 406

Əlisahib ƏROĞUL
(İsrafilzadə Əlisahib Qiyas oğlu)

**CƏBRAYILIM-MÜQƏDDƏS TORPAQ**
(Bədii publisistika)

Tərtibçi: Elçin ƏHMƏDOĞLU
Çap sexinin rəisi: Elşən QARDAŞXANOĞLU

Yığılmağa verilmiş:10.09.2006
Çapa imzalanmış:25.09.2006
Kağız formatı: 60 x 84 $^1/_{16}$
Mətbəə kağızı:1.
Yüksək çap üsulu ilə.
Şərti c/v.25,75
Tirajı: 300
Qiyməti müqavilə ilə

BAKI "Ekologiya" nəşriyyatı
Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyi

**TƏKNUR**
Nəşriyyat, poliqrafiya xidmətləri
Tel: 403-03-68; 497-59-64
Bakı, H.Cavid küçəsi, 29.


